Yaqub Mahmudov

# İlham Əliyev

# VƏ

# AZƏRBAYCAN TARİX ELMİ

BAKI
2014

**Azərbaycan Milli Elmlər Akademiyası**
**A.A.Bakıxanov adına Tarix İnstitutu**
**Elmi Şurasının qərarı ilə çap olunur.**

Elmi redaktor: **Yeganə Gözəlova**
*tarix üzrə fəlsəfə doktoru*

Texniki redaktor: **Mehri Xanbabayeva**
*riyaziyyat üzrə fəlsəfə doktoru*

**Mahmudov Y.M.**
İlham Əliyev və Azərbaycan tarix elmi.
Bakı, Turxan NPB, 2014 – 480 s.

Monoqrafiya Prezident İlham Əliyevin tövsiyə, çağırış və tapşırıqlarına əsasən müstəqil Azərbaycan Respublikasında tarix elminin konseptual problemlərinə, bu problemlərin araşdırılması istiqamətində aparılan dövlət siyasətinə və strategiyasına həsr olunmuşdur. Kitabda dövlət başçısının Azərbaycan tarix elminin inkişafına yönəlmiş məqsədyönlü siyasəti tədqiq edilir, Azərbaycan tarixinin obyektiv araşdırılması işinə ölkə rəhbərinin xüsusi qayğı göstərməsi nəticəsində bu mühüm elm sahəsinin Azərbaycan Respublikasının İnkişaf Strategiyasının mühüm tərkib hissəsi olduğu işıqlandırılır. Tədqiqatda respublikada tarix üzrə araşdırmaların mərkəzi olan AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun fəaliyyətinə də diqqət yetirilir.

Kitab Azərbaycan tarixi problemləri ilə məşğul olan tədqiqatçılar və geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur.

ISBN 978-9952-8212-3-9

© AMEA A.A. Bakıxanov adına Tarix İnstitutu, 2014

İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm.

Dərin hörmətlə,

Heydər Əliyev

Azərbaycan Xalqına Müraciətdən

01.10.2003

# TARIXİMİZƏ SAHİB ÇIXAN VƏ TARİX YARADAN TARİXİ ŞƏXSİYYƏT

Oxuculara təqdim olunan "**İlham Əliyev və Azərbaycan tarix elmi**" kitabı ölkə başçısının tarix elmimizin müxtəlif dövrlərdə yol verilmiş saxtalaşdırmalardan, təhriflərdən təmizlənməsi, tarixi keçmişimizin xalqa olduğu kimi çatdırılması sahəsində məqsədyönlü və yorulmaz fəaliyyətinin işıqlandırılması yolunda ilk addım, ilk təşəbbüsdür.

Son 10 il ərzində Prezident İlham Əliyevin istiqamətverici göstərişləri, qayğısı və himayəsi nəticəsində Azərbaycan tarix elmi keçmişin bütün zərərli konsepsiyalarından uzaqlaşıb yeni yola – müstəqillik yoluna çıxdı. Prezidentin təşəbbüsü, tövsiyə və çağırışları ilə Milli Elmlər Akademiyasının Tarix İnstitutunda yeni ruhda yazılmış çoxsaylı tədqiqat əsərləri nəşr olundu...

Prezident İlham Əliyev barədə düşüncələrimi kütləvi informasiya vasitələrində çoxsaylı çıxışlarımda, yazılarımda, ona həsr etdiyim "***Tariximizin keşiyində***" sənədli filmində və "Heydər Əliyev ideyalarının zəfər yürüşü" kitabımda xalqa yetirməyə çalışmışam. Bununla belə, "***İlham Əliyev və Azərbaycan tarix elmi***" adlanan bu kitabın nəşrini özümə mənəvi borc, daha doğrusu bir insanlıq borcu bildim.

Bütün varlığımla inanıram ki, Azərbaycan xalqı bu gün öz tarixinin ən şanlı dövrünü – *Qurucu İlham dövrünü* yaşayır. Bu tarixin görünən hissəsi göz önündədir. Əlbəttə, bu tarixin, bu gün adi gözlə görünməyən və hələlik bizə məlum olmayan tərəfləri də var. Ölkə başçısının Vətənin müstəqilliyini qoruyub saxlamaq, onu yaşatmaq, inkişaf etdirmək üçün hansı maneələri dəf etdiyi, hansı keçilməz sədlərin üzərindən necə müdrikliklə aşıb keçdiyi, onun mürəkkəb və uzaqgörən siyasi gedişləri, keçirdiyi əsəb gərginlikləri, əlbəttə gələcəkdə – müvafiq arxivlər açılanda məlum olacaqdır...

İlham Əliyevin Prezident kürsüsünə əyləşməsindən vur-tut 10 il keçməsinə baxmayaraq biz bu gün dünyanın ən sürətlə inkişaf edən

ölkəsiyik. 155 ölkənin səs verməsi nəticəsində BMT Təhlükəsizlik Şurasının üzvü seçilmiş dövlətik. Kosmik dövlətlər sırasında yerimiz var. Şəhərlərimizin, kəndlərimizin siması büsbütün dəyişib. Bütün ölkə miqyasında böyük quruculuq-abadlıq işləri gedir. Azərbaycan ən müasir silahlarla silahlanmış qüdrətli orduya malikdir. Özü də bütün bu uğurlar müharibə vəziyyətində olan dövlətin uğurlarıdır. Ərazisinin 20 faizindən çoxu düşmən tapdağı altında olan və əhalisinin 1 milyondan çoxu qaçqın vəziyyətində yaşayan ölkənin uğurlarıdır...

Fikrimcə, İlham Əliyevin Vətən və xalq qarşısında gələcəyə hesablanmış ən böyük xidmətlərindən biri də milli təfəkkürümüz, azərbaycançılığımız və tariximizlə bağlıdır. Sübuta ehtiyacı olmayan bir aksioma var: **tarixinə sahib çıxmayan xalq məhvə məhkumdur. Doğma tarixi ilə silahlanmış xalq isə məğlubedilməzdir**!..

İlham Əliyev atası dahi Heydər Əliyevin yolu ilə gedərək doğma tariximizə sahib çıxdı, onu dirçəltdi və düzgün istiqamətə yönəltdi. Ölkə başçısının birbaşa dəstəyi, himayə və qayğısı sayəsində Azərbaycan tarix elmi son 10 il ərzində bütün təhriflərdən, saxtalaşdırmalardan, bizə ağır zərbələr vurmuş konsepsiyalardan uzaqlaşa bildi. Məhz ölkə Prezidentinin dəstəyi ilə biz çox güclü xarici, həm də daxili maneələri dəf edərək yeni yola – doğru yola çıxdıq. Bu gün yeni Azərbaycanın yeni tarix elmi formalaşmaqdadır. Bu işdə ölkə Prezidenti bilavasitə iştirak edir. "*Azərbaycan Tarixi Atlası*", "*Qarabağ: real tarix, faktlar, sənədlər*", "*Naxçıvan: tarixi və abidələri*", "*Vandalizm: tarixi adlara qarşı soyqırımı*", "*İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi*", xalqımıza qarşı soyqırımları tarixinə həsr olunmuş onlarla tədqiqat əsərləri, sənəd topluları məhz ölkə başçısının təşəbbüsü, çağırışları və tövsiyələri ilə yazılmışdır. Məhz İlham Əliyevin göstərişi ilə bu əsərlərin bir çoxu dünya dillərinə tərcümə olunmuş və xarici işlər nazirliyi vasitəsi ilə dünya ölkələrində yayılmışdır...

Məhz ölkə başçısının gündəlik qayğısı sayəsində son 10 il ərzində Tarix İnstitutunda 300-dən çox tədqiqat əsəri işıq üzü görmüşdür.

İlham Əliyev xalqımıza "26 Bakı komissarları" adı ilə təqdim olunmuş və Azərbaycan xalqına qarşı soyqırımı cinayəti törətmiş

Stepan Şaumyan və digər cəlladların cəsədlərinin qalıqlarını Bakının mərkəzindən şəhər qəbiristanına köçürtməklə şüurlarda inqilab etdi. Və məlum oldu ki, "26-lar" məzarlığında 26 deyil, 23 cəsədin qalığı var. Bununla bağlı tədqiqatlar davam etdirildi və xalqımıza divan tutan Stepan Şaumyan, Tatevos Amiryan, Anastas Mikoyan kimi quldurların kim olduqları barədə tarixi həqiqətlər üzə çıxarıldı...

İlham Əliyevin prezidentliyi dövründə iki cildlik "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası"nın nəşri başa çatdırıldı, Cümhuriyyət tariximizə ehtiram əlaməti olaraq "İstiqlal bəyannaməsi" abidəsi ucaldıldı.

"***İlham Əliyev və Azərbaycan tarix elmi***" kitabının nəşr olunmasını həm də, özümə bir insanlıq borcu, vəfa borcu hesab edirəm. Çünki, Qurucu Prezident çox ağır məqamlarda Tarix İnstitutuna arxa durdu. Sərəncamlar verdi. Tarix İnstitutunu ölkədə **əsas elmi tədqiqat mərkəzi** adlandırdı. İnstitutun maddi-texniki bazasını gücləndirmək üçün vəsait ayırdı. Tarixçilərin üzünə mükafat qapıları bağlananda bir sərəncamla **13** nəfər tarixçi Dövlət mükafatına layiq görüldü. Bu sətirlərin müəllifini isə dəfələrlə haqsız zərbələrdən qorudu və sınmağa qoymadı...

İlham Əliyev müdrik, qətiyyətli, cəsarətli və milli mənafeyimizi uca tutan böyük dövlət xadimi olmaqla yanaşı eyni zamanda, son dərəcə sadə, xalqını könüldən-candan sevən, olduqca həssas, ona ünvanlanmış hər bir müraciətə, xahişə o saatda, yerindəcə cavab verən **insandır**, sözün həqiqi mənasında **böyük insan**!

Yeri gəlmişkən, bu baxımdan onu da qeyd etməyi özümə borc bilirəm ki, Prezidentlə hər bir görüş zamanı xoş anlar yaşamışam. Vaxt olub ki, avtomobilinə əyləşib yola düşərkən, şüşəsini döyüb müraciət etmək istəmişəm. Avtomobilini saxlatdırıb yerə düşüb məni dinləyib. Səfər proqramından çıxıb S.Rəhman adına dram teatrına baxış keçirib. Nəticə: S.Rəhman adına teatrın binası az vaxt içərisində yüksək səviyyədə təmir olundu və Şəkimizə demək olar ki, tamamilə yeni bir teatr binası və əlavə olaraq ayrıca bir Yay teatrı binası da bəxş olundu.

Protokol "çətinliklərinə" baxmayaraq dövlət başçısı məni Şəkidə və Qaxda dəfələrlə qəbul etmiş, vaxt məhdudiyyəti ilə hesablaş-

mayaraq tarixi abidələrimiz, onların saxtalaşdırılması ilə bağlı məlumatlarımı dinləmiş və müvafiq tapşırıqlar vermişdir.

Dövlət başçısı, millət vəkili olaraq müraciətimə böyük sayğı ilə yanaşdı və qədim şəhərimiz olan Şəkinin bütövlükdə bərpası və inkişafını diqqət mərkəzinə götürdü. İndi qədim Şəkimiz Prezidentin hərtərəfli qayğısı sayəsində özünün intibah dövrünü yaşayır.

Şin və Kürmük çayları üzərində salınan körpülər, ən müasir tələblərə cavab verən Şəki-Qax yolunun çəkilməsi Prezidentin böyük quruculuq planlarına malik olmasının, xalqını, o cümlədən millət vəkilini sayğı və qayğı ilə dinləməsinin nəticəsidir.

Ömrümün bir unudulmaz anı isə heç yadımdan çıxmır. M.F.Axundzadənin yubileyi günlərində böyük mütəfəkkirin adını daşıyan parkda bizi qəflətən leysan yağışı haqlayarkən Prezidentin öz çətiri ilə üstümə gələrək məni yağışdan qorumasına hamı heyran qaldı. Və bu qayğıkeş addım ölkə başımızın nə qədər alicənab və böyük insan olduğunu göstərdi...

... Ömrümün ixtiyar çağını yaşayıram. Bu sətirləri hər hansı gözlənti xatirinə yazmıram. Xoşbəxtəm ki, vəzifə və mükafat aşiqi deyiləm. Ən böyük mükafatı mənə dahi Heydər Əliyev verib: "***böyük alim***", "***böyük tarixçi***". Odur ki, ömür karvanıma, bağ-bostanıma daşlar atılanda da ancaq qürur hissi keçirirəm...

Düşünürəm ki, ölkəmizin İlham Əliyev kimi bir lideri olması xalqımızın xoşbəxtliyidir. Cənubi Qafqazda yeganə türk-müsəlman dövləti olan Azərbaycanın, hər addımda bir-birindən mürəkkəb çətinliklərlə qarşılaşmasına baxmayaraq, regionun lider dövlətinə çevrilməsi məhz bizim liderimizin – zəmanəmizin böyük dövlət xadimi İlham Əliyevin xidmətidir. İlham Əliyev, həm də, Ulu Öndərimiz dahi Heydər Əliyevin əmanəti olan müstəqil Azərbaycanı zirvəyə ucaldan və ata vəsiyyətlərini müqəddəs tutan sədaqətli övladdır.

Bütün yuxarıda göstərilənlərdən əlavə, atası kimi İlham Əliyev də tariximizə sahib çıxan, onu dirçəldən, qoruyan, inkişaf etdirən Prezidentdir, tarix yaradan tarixi şəxsiyyətdir.

***Müəllifdən***

# TARİXÇİ PREZİDENTİN SİYASİ PORTRETİ VƏ YA AZƏRBAYCAN TARİXİNİN QURUCU İLHAM DÖVRÜ

Azərbaycan bu gün dünyanın davamlı olaraq ən sürətlə inkişaf edən ölkəsidir. Müstəqillik qazanmasından cəmi 23 il keçməsinə baxmayaraq, Azərbaycan Respublikası Cənubi Qafqaz regionunun lider dövlətinə çevrilmişdir. Həyata keçirilən müdrik, uzaqgörən, cəsarətli və Azərbaycan xalqının milli mənafelərinin müdafiə olunmasına yönəlmiş islahatlar nəticəsində ölkəmizin iqtisadi inkişafında keçid dövrü başa çatmışdır.

Dünyəvi, demokratik və hüquqi dövlət quruculuğunun bütün sahələrində böyük uğurlara imza atan Azərbaycan Respublikası dünyanın 155 dövlətinin dəstəyi ilə BMT-nin Təhlükəsizlik Şurasına üzv qəbul olunmuşdur. Bu tarixən çox qısa bir müddət ərzində əldə olunmuş misilsiz tarixi nailiyyətdir.

Azərbaycan inkişafın bütün sahələrində böyük İntibah dövrünə qədəm qoymuşdur. Tarixi baxımdan çox qısa bir zaman kəsiyində əldə edilən bu böyük nailiyyətlər Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi dirçəliş və inkişaf strategiyasının yaradıcılıqla və uğurla həyata keçirilməsi nəticəsində mümkün olmuşdur. Bu strategiyanın gerçəkliyə çevrilməsində Yeni dövrün – qloballaşan dünyanın böyük dövlət xadimi olan Prezident İlham Əliyevin müdrik, qətiyyətli və cəsarətli siyasəti, ölkə başçısı ilə xalq arasında yaranmış sarsılmaz birlik həlledici rol oynayır.

Azərbaycan xalqına başçılıq edən Prezident İlham Əliyev yaşadığımız sürətlə dəyişən, dinamik dünyanın nəbzini əlində saxlayır, müasir, çevik və cəsarətli dövlət xadimi kimi beynəlxalq münasibətlərdə sürətlə baş verən dəyişikliklərdən öz Vətəninin və xalqının xeyrinə məharətlə istifadə edir, yurdumuzu gözlənilməz və gözlənilən risklərdən uğurla qoruyur.

Ölkə başçımız müasir dünyada gedən siyasi və iqtisadi proseslərə dərindən bələddir, qloballaşma və inteqrasiya nəticəsində dünya meydanında baş verə biləcək bütün dəyişiklikləri irəlicədən görür və Azərbaycanı bu dəyişiklikləri qarşılamaq üçün qabaqcadan hazırlayır, öz Vətənini həyatın bütün sahələrində qələbədən-qələbəyə qovuşdurur. Dünya bu gün iqtisadi inkişafın Azərbaycan modeli ilə maraqlanır. Doğma xalqının parlaq gələcəyinə hesablanmış müdrik islahatlar həyata keçirən böyük dövlət xadimi İlham Əliyevin – Qurucu Prezidentin inkişafın bütün sahələrini əhatə edən zəfər yürüşü uğurla davam edir!

İlham Əliyevin prezident sükanı arxasına keçməsindən tarixən o qədər də çox vaxt keçməyib. 2003-cü ilin oktyabr günləri tarixin yaddaşında bizim üçün lap dünənki gün qədər yaxındır. O zaman müdrik xalqımız ayağa qalxıb, 1993-cü ildə olduğu kimi, ölkəni anarxiya və hərc-mərclik dövrünə qaytarmaq istəyənlərə yekdilliklə və qətiyyətlə "YOX!" dedi. Və ölkənin ali rəhbərliyini, həm də öz taleyini İlham Əliyevə etibar etdi. Bununla, xalqımız həm özünə yeni Prezident seçdi, həm də müstəqillik tariximizdə, hakimiyyəti zorakılıq yolu ilə ələ keçirmək düşüncəsinə qəti şəkildə və birdəfəlik son qoydu. Bununla, demokratik yolla hakimiyyətə gəlmək ənənəsi möhkəmləndi, bir-birini inkar etmək, əvvəlki hakimiyyətdən nə qalıbsa qırıb-dağıtmaq, necə deyərlər, keçmişi daşqalaq etmək "təcrübəsi" aradan qalxdı.

Azərbaycan xalqı o zaman – 2003-cü ildə əmin idi ki, prezident seçilmək üçün irəli sürülən namizədlər içərisində məhz İlham Əliyev Ulu Öndər Heydər Əliyevin qoyduğu yolla gedəcək, onun müqəddəs işini uğurla davam etdirəcək, Azərbaycanı tutduğu yolla daha da irəli aparacaq ...

Xalqımız yanılmadı. 2003-cü il seçkilərindən keçən zaman kəsiyi ərzində Azərbaycan Prezidenti nəinki öz ölkəsini sürətlə və iri addımlarla irəli apardı, eyni zamanda onun özü də bu mürəkkəb, keşməkeşli dünyanın ən seçilib-sayılan, sözükeçən görkəmli dövlət xadimi kimi beynəlxalq aləmdə böyük nüfuz sahibinə çevrildi. Qloballaşan dünyanın böyük dövlət xadimi olaraq dünya şöhrəti qazandı!

Bu gün Azərbaycan xalqı haqlı qürur hissi keçirir ki, onun prezidenti dünyanın hər yerində öz ölkəsinə, doğma xalqına böyük hörmət və nüfuz qazandırır, Vətənimiz uğur dalınca uğura qovuşur, ölkə başçısı doğma xalqının, el-obasının qayğıları ilə yaşayır. 2003-cü ildə dünyanın ən gənc prezidentlərindən biri kimi fəaliyyətə başlayan İlham Əliyev Azərbaycan kimi çox mühüm geosiyasi mövqeyə və əhəmiyyətə malik olan, qlobal maraqların və ziddiyyətlərin kəsişdiyi məkanda yerləşən bir ölkəyə başçılıq edir. Etiraf edək ki, bu olduqca çətin tarixi missiyadır. Lakin buna baxmayaraq ölkə başçımız çox qısa bir zaman kəsiyində bütün dünyada böyük hörmət və nüfuz qazandı. Bu, dövlətçilik tariximizin çox mühüm faktıdır. Haradan və nələrdən qaynaqlanır ölkə başçımızın xalqımıza şərəf gətirən bu uğurları?!

Prezident İlham Əliyev, hər şeydən əvvəl, çoxlarına nəsib olmayan nadir bir siyasi məktəbin – dahi Heydər Əliyev dövlət idarəçiliyi məktəbinin yetirməsidir, bu məktəbin yeganə məzunudur. Bu məktəbdə o, dahi siyasətçidən məğlubedilməzlik dərsi almış, onun siyasət dünyasının bütün incəliklərinə yiyələnmiş, eyni zamanda atasına qarşı baş vermiş haqsızlıqlar, təqiblər və xəyanətlərin də şahidi olmuşdur. Təkcə şahidi olmaqla qalmayıb, çox gənc yaşlarından dahi rəhbərin üzləşdiyi haqsızlıqlara, xəyanətlərə qarşı mübarizəyə qalxmış, doğma xalqına xidmət etmək üçün atası ilə birlikdə çiyin-çiyinə addımlamış, şərəfli mübarizə yolu keçmişdir. Eyni zamanda dahi Heydər Əliyevin Vətənin və xalqın parlaq gələcəyi naminə həyata keçirmək istədiyi, lakin ömür vəfa etmədiyi üçün yarımçıq qalmış planlarını da İlham Əliyevdən başqa heç kim bilmir!

Prezident İlham Əliyev Ulu Öndərin yolu ilə gedərək mükəmməl siyasi təhsil almışdır. Onların hər ikisi, həm ata, həm də oğul doğma Vətənin və dünyanın tarixini öyrənməyə xüsusi maraq göstərmiş, dərin və hərtərəfli tarixi biliklərə yiyələnmiş, ali tarix təhsili almışlar: ata – Heydər Əliyev Bakı Dövlət Universitetinin Tarix fakültəsini bitirmiş, oğul – İlham Əliyev isə dünyanın ən nüfuzlu ali təhsil müəssisələrindən biri olan Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda təhsil almış, elmi tədqiqat işləri aparmış, dissertasiya

müdafiə etmişdir. Beləcə, Azərbaycan xalqına başçılıq edən və dünyanın görkəmli dövlət xadimi olan Prezident İlham Əliyev dərin nəzəri biliklərə və Heydər Əliyevin dövlət idarəçiliyi praktikasına yiyələnmiş, Azərbaycanın tarixini dərindən öyrənmiş, dünya tarixinin həlledici proseslərinin köklərini bilən peşəkar siyasətçidir ...

Prezident kürsüsünə əyləşərkən İlham Əliyev, artıq dünyada tanınmış və qəbul olunmuş təcrübəli, sayılıb-seçilən dövlət xadimi idi. O, yeni və müstəqil Azərbaycan uğrunda ən ağır mübarizələrdə dahi rəhbərin ən yaxın silahdaşı olmuş, həyata keçirilən bütün islahatlarda fəal iştirak etmiş, sərbəst iqtisadiyyatın qanunauyğunluqlarına mükəmməl surətdə yiyələnmiş, Heydər Əliyev neft strategiyası və gənclər siyasətinin hazırlanması və həyata keçirilməsində öncül rol oynamış, Milli Olimpiya Komitəsinə başçılıq etmiş, Dövlət Neft Şirkətinin vitse-prezidenti və birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini kimi çox məsul vəzifələrdə çalışmış, ölkənin Baş naziri vəzifəsinədək yüksəlmişdir. Üstəlik, İlham Əliyev Prezident seçilərkən, yuxarıda deyildiyi kimi, çoxlarından fərqli olaraq, həm təhsilinə, həm də konkret ictimai-siyasi fəaliyyət təcrübəsinə görə peşəkar siyasətçi idi.

Prezident İlham Əliyev Azərbaycan dövlətçiliyinin qorunub saxlanılması və yeni Azərbaycanın qurulmasında Heydər Əliyevin ən yaxın silahdaşı olmuşdur. İlham Əliyev müəllifi Heydər Əliyev olan neft strategiyasının hazırlanmasında, bu siyasətin dünya meydanında uğur qazanmasında və gerçəkləşməsində, həmin sahədə müxtəlif layihələrin hazırlanmasında, çox çətin diplomatik tapşırıqların yerinə yetirilməsində fəal iştirak etmiş, ölkəyə investisiya axınında mühüm rol oynamışdır. Belə ki, "Əsrin Müqaviləsi" ətrafında aparılan danışıqlarda Azərbaycan tərəfinin strateji maraqlarının təmin olnumasında, xüsusilə danışıqların 45 gün ərzində davam etdiyi olduqca gərgin keçən Hyuston mərhələsində İlham Əliyev həlledici rol oynamışdır. Hyuston danışıqları zamanı Rusiya tərəfinin Xəzərin hüquqi statusu ilə bağlı məsələ qaldırması danışıqların gedişində çox ciddi gərginlik yaratmışdı. Məhz İlham Əliyevin

qətiyyətli mövqeyi nəticəsində bu gərginlik aradan qaldırılmış, daha doğrusu, "Əsrin Müqaviləsi"nin kağız üzərində qalmaq təhlükəsi sovuşmuşdu. Bu tarixi həqiqətin açıqlanması da "Əsrin Müqaviləsi"nin imzalanmasında İlham Əliyevin rolunu bir daha təsdiqləyir.

Prezident seçilməzdən əvvəlki dövrdə də Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda fəal iştirak edən İlham Əliyev, artıq həm də görkəmli partiya xadimi idi. O, ölkənin aparıcı siyasi partiyası olan Yeni Azərbaycan Partiyasında (YAP) böyük nüfuz sahibi idi. İlham Əliyev YAP-ın I qurultayında (1999-cu il) partiya sədrinin müavini, II qurultayında (2001-ci il) isə birinci müavini seçildi. Bu mühüm vəzifənin öhdəsindən layiqincə gələn İlham Əliyev əhalinin geniş kütlələrinin Yeni Azərbaycanın quruculuğuna səfərbər olunmasında olduqca səmərəli fəaliyyət göstərirdi. 2000-ci il parlament seçkilərində YAP-ın seçki kampaniyasına məhz İlham Əliyev başçılıq etdi. Məhz onun rəhbərliyi ilə YAP həmin seçkilərdə parlaq qələbə çaldı və Milli Məclisdə böyük əksəriyyəti qazandı.

İlham Əliyev Milli Məclisin deputatı olduğu dövrdə geniş və çoxşaxəli fəaliyyət göstərmişdir. O, daim doğma xalqının içərisində olmuş, onun problemlərini öyrənmiş, əhalinin sosial müdafiəyə ehtiyacı olan təbəqələrinə müntəzəm qayğı göstərmişdir. Həmin dövrdə İlham Əliyevin əhalinin müxtəlif təbəqələrinin nümayəndələrinə, qaçqınlara, məcburi köçkünlərə və Qarabağ müharibəsinin əlillərinə qayğısı, Qaradağ rayonunda və ölkənin digər bölgələrində apardığı böyük quruculuq işləri doğma xalqa göstərilən bu qayğının parlaq təzahürləridir.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasının üzvü olmuş İlham Əliyevin Avropa Şurasının Parlament Assambleyasında (AŞPA) Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin rəhbəri kimi fəaliyyəti, qətiyyətli və cəsarətli çıxışları Azərbaycanın Avropa məkanında nüfuzunun daha da artmasına çox güclü təsir göstərmişdir. Məhz İlham Əliyevin yorulmaz fəaliyyəti, qətiyyətli çıxışları sayəsində erməni təcavüzkarları Avropa Şurasında ifşa olunmuş, Azərbaycanın ayrılmaz parçası

olan Dağlıq Qarabağ haqqında, qondarma "Dağlıq Qarabağ problemi" barədə Qərb dünyasında oybektiv rəy formalaşmasında dönüş yaranmış, həmin münaqişəyə düzgün siyasi qiymət verilmiş, onun həlli yolunda mühüm addımlar atılmışdır. Avropa Şurasında Ermənistanın təcavüzkar, işğalçı dövlət kimi tanınmasında, erməni terrorçuluğunun beynəlxalq terrorizmin tərkib hissəsi olmasının sübuta yetirilməsində, nəzarətdən kənarda qalan Dağlıq Qarabağın narkotiklərin ötürücü məntəqəsinə və terror yuvasına çevrilməsinin Avropa və dünya ictimaiyyətinə çatdırılmasında İlham Əliyevin böyük xidmətləri olmuşdur. Avropa Şurasındakı fəaliyyəti, AŞPA-dakı obyektiv və konstruktiv çıxışları İlham Əliyevə Qərb siyasətçiləri arasında böyük hörmət və nüfuz qazandırdı. Bunun nəticəsində o, AŞPA-nın vitse-spikeri və Büro üzvü seçildi (2003-cü il, yanvar).

İlham Əliyev Prezident Heydər Əliyevin gənclər siyasətinin həyata keçirilməsində misilsiz fədakarlıq göstərmişdir (və bu sahədə fəaliyyətini indi də uğurla davam etdirir!). 1997-ci ildə Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin prezidenti təyin olunan İlham Əliyev az vaxt içərisində həmin sahədə də yüksək təşkilatçılıq istedadına malik olduğunu sübut etdi. Onun yorulmaz və gərgin əməyi və yüksək təşkilatçılıq fəaliyyəti sayəsində qısa müddət ərzində Azərbaycan idmanı ayağa qaldırıldı, dünya şöhrəti qazandı. Azərbaycan idmançılarının beynəlxalq yarışlarda qazandığı parlaq uğurlar İlham Əliyevin başçılıq etdiyi idman hərəkatının, hər şeydən əvvəl, böyük siyasi qələbəsidir.

İlham Əliyev uzaqgörən dövlət xadimi və siyasətçi kimi sağlam gənclik yetişdirmək, bununla da xalqımızın sağlam gələcəyini təmin etmək üçün idmanı ümumxalq hərəkatına çevirmək xətti yeridir. Onun təşəbbüsü ilə təkcə paytaxt Bakıda deyil, eyni zamanda ölkənin bütün regionlarında da olimpiya idman-sağlamlıq komplekslərinin tikilib istifadəyə verilməsi, idmanın müxtəlif sahələrinin inkişafı üçün güclü maddi-texniki baza yaradılması xalqın sağlam gələcəyinə yönəlmiş müdrik və uzaqgörən siyasətin parlaq təzahürləridir. Hazırda Azərbaycanın beynəlxalq yarışlarda idmanın

müxtəlif sahələrində ön mövqelərə çıxması, Bakının dünya üzrə mühüm beynəlxalq yarışların keçirildiyi mərkəzə çevrilməsi Azərbaycanın şöhrətini daha da artırır, onun beynəlxalq nüfuzuna müsbət təsir göstərir. Bu, İlham Əliyevin gənclər siyasətinin ən böyük uğurlarından biridir.

İlham Əliyev 2003-cü ilin prezident seçkilərinə qədər də beynəlxalq münasibətlər tarixi sahəsində dərin biliyə malik olan peşəkar siyasətçi kimi dünya miqyasında böyük hörmət və nüfuz qazanmışdır. O bu dövrdə dünyanın bir çox ölkələrində rəsmi səfərlərdə, o cümlədən dövlət səfərlərində olmuş, çoxsaylı beynəlxalq konfrans və konqreslərdə məruzələrlə çıxış etmiş, ölkəmizin iqtisadi və siyasi maraqlarını qətiyyətlə müdafiə etmişdir.

İlham Əliyev Azərbaycan Respublikası Milli Məclisinin (1-2-ci çağırış) deputatı olmuş, AŞPA-da Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin başçısı və AŞPA-nın vitse-spikeri və Büro üzvü vəzifələrində səmərəli fəaliyyət göstərmişdir. Artıq qeyd olunduğu kimi, Azərbaycan xalqı qarşısındakı xidmətləri nəzərə alınaraq İlham Əliyev 2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri təyin olunmuşdur.

Bununla belə, inkarolunmaz həqiqətdir ki, o zaman – 2003-cü ildə yeni Prezidentin qarşısında çox böyük çətinliklər dururdu. Azərbaycan kimi, hər tərəfdən – bütün coğrafi istiqamətlərdən ağır təzyiqlərə məruz qalan, zəngin sərvətlərinə hamının göz dikdiyi strateji bir məkanın dövlət başçısı olmaq asan məsələ deyildi. Digər tərəfdən, İlham Əliyevin prezidentliyə başlamasından cəmi 2 ay sonra ümumdünya tarixinin dahi şəxsiyyəti, bütün dünya azərbaycanlılarının ümummilli lideri Heydər Əliyev əbədiyyətə qovuşdu. Planetimizin siyasət aləmində, diplomatiya dünyasında böyük bir boşluq yarandı. Son dərəcə ağır itki bütün xalqımızı, bütün Azərbaycanımızı silkələdi. Heydər Əliyevdən sonra hakimiyyət sükanını onun kimi əldə möhkəm saxlamaq, sərrast siyasi gedişlər etmək, müstəqilliyimizi, milli mənafeyimizi onun kimi qorumaq (özü də belə sürətlə dəyişən dünyada!), çətin sınaq məqamlarında onun kimi əlverişli çıxış

yolları tapmaq, əlbəttə, asan məsələ deyildi! Beləliklə, yeni Prezidenti irəlidə çox çətin və çox ağır sınaqlar gözləyirdi. Bir sözlə, İlham Əliyev çox güclü tarixi şəxsiyyət olan Heydər Əliyevdən sonra hakimiyyətə başlayırdı ...

... Dövlət başçımız İlham Əliyevin prezidentliyə başlamasından keçən zaman kəsiyi tarix baxımından, əlbəttə, yeni rəhbərin bütün sahələrdə özünü təsdiqləməsi üçün o qədər də böyük vaxt deyil! Lakin ötən müddət Prezident İlham Əliyevə kifayət etdi ki, o hələ Baş nazir təyin olunarkən bəyan etdiyi kimi, Heydər Əliyev yolu ilə getdiyini, Ulu rəhbərin bütün vəsiyyətlərinə sadiq olduğunu konkret fəaliyyəti ilə, gördüyü böyük quruculuq-abadlıq işlərilə sübuta yetirsin!

Biz bütün ötən illər ərzində Prezident İlham Əliyevin başçılığı altında əzmlə, sarsılmadan, səndələmədən, necə deyərlər, düşmənləri sevindirmədən Heydər Əliyevin qoyduğu yolla getdik və uğurdan-uğura qovuşduq. Bir sözlə, Heydər Əliyevsiz yaşadığımız ötən illər ərzində Heydər Əliyev siyasətinin yeni-yeni qələbələrinin şahidi olduq, ağır sınaqlardan üzüağ çıxdıq! Dünya gördü ki, Azərbaycanda Heydər Əliyev zamanında olduğu kimi, yenə qüvvətli siyasi rəhbərlik var, ölkədə yenə sabitlikdir, əmin-amanlıqdır, bu ölkə ilə əməkdaşlığı davam etdirmək olar!

Bu gün dünya öz inkişaf sürətinə görə hamıdan irəlidə olan Azərbaycanla əməkdaşlığa can atır. Dünya ölkələri, o cümlədən böyük dövlətlər Azərbaycana etibarlı, sabit və götürdüyü bütün öhdəliklərə sadiq tərəfdaş kimi böyük hörmətlə yanaşır. Bunun nəticəsidir ki, 2011-ci ildə Azərbaycan dünyanın 155 dövlətinin dəstəyi ilə BMT-nin Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçildi. Bu qısa zaman kəsiyində – vur-tut 10 il ərzində qazanılmış çox böyük nailiyyətdir. Əslində nailiyyət yox, sıçrayışdır. Bu sıçrayış ölkə başçısının çox böyük qələbəsidir!

İlham Əliyevin xarici siyasəti müdriklik, qətiyyət, cəsarət və milli maraqlara sədaqət nümunəsidir. Ötən illər ərzində Prezident İlham Əliyevin uzaqgörən xarici siyasət potensialı çox çətin sınaqlar -

HANDLING COMPANY
BAKU

İLHAMLA

dan çıxdı. Ölkəmizin başçısı dahi dövlət xadimi Heydər Əliyevin dərindən-dərinə ölçüb-biçərək uzun müddət üçün hazırladığı və heç bir alternativi olmayan xarici siyasət strategiyasını zərgər dəqiqliyi ilə həyata keçirdi. Ağır çətinliklərlə qarşılaşdı, lakin yolundan dönmədi və qələbə çaldı. Bəzi dövlətlər, xüsusilə böyük güc mərkəzləri Heydər Əliyevdən sonra Azərbaycanı asılı vəziyyətə salmaq üçün yeni-yeni cəhdlər göstərsələr də, İlham Əliyevin qətiyyətli, prinsipial və cəsarətli gedişləri nəticəsində geri çəkilməyə məcbur oldular. Azərbaycanı tutduğu yoldan döndərə bilmədilər. Müstəqil Azərbaycan Respublikası heç bir dövlətin forpostuna çevrilmədi!

Azərbaycan dövlətinin başçısı qarşısına çıxan bütün problemlərin həllində müdriklik, qətiyyət, cəsarət və milli maraqlara sədaqət nümayiş etdirdi. Xalqımız və Azərbaycanımız üçün lazım olan da elə budur! Ölkə başçısı İlham Əliyevin xarici siyasət sahəsindəki uğurlarının əsas səbəbi budur ki, o, müasir dünyada gedən siyasi və iqtisadi proseslərə dərindən bələddir, qloballaşma və inteqrasiya nəticəsində dünya meydanında baş verə biləcək bütün dəyişiklikləri qabaqcadan görür və Azərbaycanı bu dəyişiklikləri qarşılamaq üçün hazırlaya bilir. Fikrimizcə, Azərbaycan xalqının böyük xoşbəxtliyidir ki, onun Prezidenti bugünkü sürətlə dəyişən, dinamik dünyanın nəbzini əlində uğurla saxlaya bilir, müasir, çevik və cəsarətli dövlət xadimi kimi beynəlxalq münasibətlərdə sürətlə baş verən dəyişikliklərdən öz Vətəninin və xalqının xeyrinə məharətlə istifadə etməyi bacarır. Bununla İlham Əliyev ona "özü qədər inanan" Ulu rəhbərin siyasi vəsiyyətini şərəflə doğruldur!

Prezident İlham Əliyev "Dağlıq Qarabağ münaqişəsi" ilə bağlı olaraq özünün prinsipial mövqeyini hələ Avropa Şurasının Parlament Assambleyasındakı fəaliyyəti zamanı nümayiş etdirmişdir. Azərbaycanın bu məsələdə haqlı və ədalətli tərəf olduğunu, ölkəmizin təcavüzə məruz qaldığını, 20 faizdən çox torpaqlarımızın işğal olunduğunu, 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünün öz Vətənində doğma yurd-yuvasından didərgin salındığını Avropa cəmiyyətinə, bütün dünyaya çatdırmaqda İlham Əliyev

misilsiz rol oynamışdır. Azərbaycan Prezidentinin mövqeyi Azərbaycan xalqının mövqeyidir: Biz torpaqlarımızın düşmən tapdağı altında qalmasına yol verməyəcəyik!

Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsi ilə bağlı öz prinsipial və ardıcıl mövqeyini apardığı bütün danışıqlarda, keçirdiyi görüşlərdə, iştirak etdiyi müxtəlif səviyyəli beynəlxalq məclislərdə, müxtəlif kütləvi informasiya agentliklərinin nümayəndələri ilə müsahibələrində bütün kəskinliyi ilə vurğulayır: Dağlıq Qarabağ heç zaman müstəqillik əldə etməyəcəkdir. Biz ərazi bütövlüyümüz və suverenliyimizlə bağlı heç zaman, heç bir kompromisə getməyəcəyik və beynəlxalq birlik Dağlıq Qarabağdakı hərbi-kriminal rejimi heç zaman özünün bir hissəsi kimi tanımayacaqdır. Biz torpaqlarımızın işğal olunması faktı ilə heç zaman razılaşa bilmərik və bizim səbrimizin də həddi vardır ...

Yeri gəlmişkən, Azərbaycanın dövlət başçısı xalqın iradəsini ifadə edərək özünün bu haqlı və prinsipial mövqeyini keçirdiyi bütün yüksək səviyyəli görüşlərdə, iştirak və çıxış etdiyi bütün beynəlxalq məclislərdə dönmədən bütün kəskinliyi ilə bəyan edir, dünyada gedən ikili standart oyunlarını cəsarətlə tənqid edir.

Tarixçi Prezident bütün dünyaya bəyan edir ki, ermənilər Cənubi Qafqaza XIX əsrin əvvəllərindən başlayaraq köçürülüb gətirilmişlər. Bu gün Ermənistan Respublikası adlanan dövlətin yerləşdiyi ərazi də tarixi Azərbaycan torpaqlarıdır, keçmiş İrəvan xanlığının ərazisidir, bizim ərazimizdir. Biz ermənilərə öz torpaqlarımızda ikinci erməni dövləti yaratmağa imkan verməyəcəyik.

Ölkə başçısı bu tarixi həqiqəti 2007-ci il martın 9-da onun öz təşəbbüsü ilə keçirilən Dünya ölkələrindəki Azərbaycan və türk diasporları rəhbərlərinin Bakı forumunda bütün kəskinliyi ilə bir daha bəyan etdi. Xalqımızın milli mənafeyini qətiyyətlə müdafiə edən Azərbaycan Prezidentinin Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı göstərdiyi cəsarətli təpkilər sayəsində dünyanın böyük güc mərkəzləri də öz ermənipərəst mövqelərindən çəkilməyə məcbur oldu.

Bütün xalqımız və onların da sırasında tarixçilər "Dağlıq Qarabağ problemi" ilə bağlı dönməz və ardıcıl siyasi iradə nümayiş etdirən Prezident İlham Əliyevin bu qətiyyətli və cəsarətli mövqeyini böyük razılıqla alqışlayır ...

Erməni təcavüzkarlarının işğal olunmuş Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılması və 1 milyondan çox qaçqınlarımızın doğma torpaqlarına qaytarılması Prezident İlham Əliyevin xarici siyasətində başlıca qayğısıdır. Ölkə başçısı öz müdrik, qətiyyətli və cəsarətli siyasəti ilə doğma xalqını bu sahədə də tarixi qələbəyə yaxınlaşdırır. Prezident İlham Əliyev bu gün təkcə Azərbaycanın deyil, bütün türk-islam dünyasının öndə gedən böyük siyasətçisidir, Yeni dövrün Yeni Lideridir.

Yeri gəlmişkən, ölkə başçımızın "Dağlıq Qarabağ münaqişəsi" ilə bağlı ardıcıl və cəsarətli mövqeyini onun Azərbaycan və türk diasporlarının fəaliyyətlərini əlaqələndirmək təşəbbüsü ilə çıxış etməsi və 2007-ci ilin 9 martında Bakı forumunun keçirilməsinə nail olması da parlaq nümayiş etdirir. Onun bu sahədəki fəaliyyəti bütün türk dünyasının daha parlaq gələcəyinə etibarlı təminat verir.

Prezident İlham Əliyevin yorulmaz və məqsədyönlü fəaliyyəti aydın sübut edir ki, böyük öndərimiz Heydər Əliyev kimi, o da bu sahəni – xarici siyasəti daim diqqət mərkəzində saxlayır, Azərbaycanın beynəlxalq əlaqələrini məharətlə tənzimləyir, ölkəmizdə uğurlu – milli maraqlarımıza cavab verən xarici siyasət yeridilməsinə üstünlük verir. Başqa sözlə, yaşadığımız dünyada müstəqilliyimizin və milli mənafeyimizin qorunub saxlanılmasında xarici siyasət aparıcı rol oynayır. Bu, artıq qeyd etdiyimiz kimi, Azərbaycanın bütün tarixi boyunca təkrar-təkrar sübut olunmuş, dəfələrlə sınaqlardan çıxmış tarixi həqiqətdir. İnkarolunmaz həqiqətdir. Əbəs yerə deyil ki, Prezident İlham Əliyev həmişə xüsusi olaraq vurğulayır: Azərbaycan öz milli maraqlarına uyğun və maraqlarının qorunmasına yönəlmiş xarici siyasət həyata keçirir. Bu cür praqmatizm Azərbaycanımıza hava-su kimi gərəkdir!

Azərbaycan dövlətinin başçısı müasir beynəlxalq münasibətlərin reallığı olan və özünü Dağlıq Qarabağ münaqişəsinin həllində

qabarıq büruzə verən ikili standartlar siyasətini davamlı olaraq kəskin tənqid edir, Ali Baş Komandan kimi ordu quruculuğuna xüsusi diqqət yetirir. Bunun nəticəsidir ki, bu gün ölkəmizin silahlı qüvvələri Cənubi Qafqazın ən qüdrətli ordusuna çevrilmişdir və istənilən anda Azərbaycanın ərazi bütövlüyünü bərpa etməyə qadirdir. Beləliklə, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin gündəlik qayğısı sayəsində yaradılan və getdikcə güclənməkdə olan Milli Ordumuz, Dağlıq Qarabağ ərazisi də daxil olmaqla, erməni təcavüzkarları tərəfindən ələ keçirilmiş Azərbaycan torpaqlarının işğalçılardan təmizlənməsini yaxınlaşdıran ən mühüm amildir.

Azərbaycanın dövlət başçısı yaradıcı prezidentdir. Ölkə başçısının bütün fəaliyyəti aydın sübut edir ki, ehkamçılıq ona yaddır. Bizim prezidentimiz dünyada sürətlə gedən dəyişiklikləri diqqətlə izləyir, dövlət idarəçiliyini zamanın tələblərinə uyğun olaraq daim təkmilləşdirir, keçmiş irsi yaradıcılıqla inkişaf etdirir.

Azərbaycanın dövlət başçısı yenilikçi tarixi şəxsiyyətdir. Prezident İlham Əliyev dünyada və ölkənin daxilində gedən dəyişiklikləri daim izləyir, idarəçilik fəaliyyətində nəzərə alır, Vətəninin və doğma xalqının daha da inkişaf etməsi naminə daim yeni yollar axtarır.

İlham Əliyevin xarici və daxili siyasəti, həyata keçirdiyi bütün islahatlar, gördüyü böyük quruculuq və abadlıq işləri onun yaradıcı, yenilikçi və qurucu Prezident olmasının parlaq təzahürləridir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yurdumuzun bütün vətəndaşlarının, bütün bölgələrinin, bütün regionlarının prezidentidir. Qurucu Prezidentin bugünkü qaynar fəaliyyəti sübut edir ki, ölkənin hər bir vətəndaşı, hər bir bölgəsi, hər bir regionu onun üçün eyni dərəcədə əzizdir, doğmadır. İlham Əliyevə olan ümumxalq sevgisinin sirri də məhz bundadır. Məhz buna görə ölkə başçısı Azərbaycanın hər yerində eyni dərəcədə böyük hörmət və ehtiramla sevilir ...

Prezident İlham Əliyev Azərbaycanın tarixi inkişafında yeni və olduqca gərəkli bir proqramın yerinə yetirilməsini qarşıya əsas məqsəd qoyub: təbii-tarixi xüsusiyyətlərinə və ənənələrinə uyğun olaraq

Azərbaycanın bütün regionlarının, paytaxt Bakı başda olmaqla, bütün şəhərlərimizin, bütün kəndlərimizin iqtisadi cəhətdən ən yüksək inkişaf səviyyəsinə çatdırılmasına nail olmaq, dünya standartlarına cavab verən ən müasir nəqliyyat sistemi yaratmaq, Azərbaycanı turizmin inkişaf etdiyi diyara çevirmək və bununla hər bir Azərbaycan vətəndaşının firavan həyat sürməsini təmin etmək! Bu siyasəti bütün xalqımız alqışlayır! Müəllifi İlham Əliyev olan belə dövlət proqramlarının yerinə yetirilməsi nəticəsində bölgələrimiz inkişaf etməklə yanaşı, ölkəmizin ərzaq təhlükəsizliyi daha dolğun təmin olunacaq, əvvəlki dövrlərdən fərqli olaraq sərhədboyu torpaqlarımızın boşalmasının qarşısı alınacaq, bölgələrdə yeni-yeni iş yerləri açılacaq, xalqın bütövlükdə vəziyyəti daha da yaxşılaşacaq, əhalimizin sayı artacaq, ağır demoqrafik duruma düşmüş Bakıya axın tamamilə azalacaq, bir sözlə, yurdumuzda demoqrafik tənzimlənmə gedəcək, ölkənin sağlam işçi qüvvəsi – gənclərimiz xaricə axışmayacaq, Azərbaycan başdan-başa ahəngdar inkişaf etmiş firavan və gözəl bir ölkəyə çevriləcək. Bu müdrik siyasətin ilk bəhrələri göz önündədir. Artıq əhalimiz əvvəlkinə nisbətən daha yaxşı yaşayır, sürətlə artır. Lap yaxın gələcəkdə Azərbaycan əhalisinin sayı 10 milyonu aşacaq. Artıq Cənubi Qafqaz iqtisadiyyatının 80 faizdən çoxu bizim ölkəmizdə cəmlənmişdir.

Prezident İlham Əliyevin müdrik və məqsədyönlü siyasəti nəticəsində Azərbaycan Respublikası dünyanın ən müasir informasiya texnologiyalarına malik olan ölkəsinə çevrilmişdir. Azərbaycan artıq kosmik tədqiqatlar aparan ölkələr sırasına daxil olmuşdur. Müstəqil Azərbaycanın kosmik fəzada öz peyki vardır. Bu, çox qısa dövr ərzində qazanılmış böyük tarixi nailiyyətdir.

Prezident İlham Əliyev ardıcıl surətdə vətəndaş həmrəyliyini möhkəmləndirmək siyasəti yeridir. O, cəmiyyətdə qarşıdurmanın, gərginliyin, soyuq münasibətlərin qəti əleyhdarıdır, Azərbaycanın parlaq gələcəyi naminə bütün xalqımızı daha sıx birləşdirməyə çalışır.

Aydın məsələdir ki, yaxın keçmişdə yurdumuzda daxili vəziyyət bugünkündən tamamilə fərqli idi. Sabitlik yaratmaq lazım idi. İşğalçı ermənilərin və onların havadarlarının ölkəmizə qarşı təcavü-

zünə duruş gətirmək, Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq və möhkəmləndirmək, vətəndaş müharibəsinin qarşısını almaq üçün, bir sözlə, yurdumuzu **"olum, ya ölüm!"** çarpışmasından zəfərlə çıxarmaqdan ötrü, zərurət yarandıqda, qəti və sərt addımlar atmaq, keçid dövrünün qanunlarına uyğun siyasət yeritmək lazım idi. Ulu Öndərimiz Heydər Əliyev məhz belə də etdi. Azərbaycan məhv olmaqdan xilas edildi. Xalqımız Qurtuluş savaşında qalib gəldi!

İndi isə zaman əsaslı surətdə dəyişib. Dövlətimiz möhkəmlənib. Azərbaycan Respublikası Cənubi Qafqaz regionunda ən sabit və ən qüdrətli ölkəyə – lider dövlətə çevrilib. Bu isə ölkə daxilində qarşıdurma əhval-ruhiyyəsinin tamamilə aradan qaldırılması və vətəndaş həmrəyliyinin daha da möhkəmləndirilməsi üçün yeni imkanlar açır. Azərbaycan Prezidenti bu istiqamətdə də müdrik və cəsarətli addımlar atır. Xalqımız ölkə başçısının bu addımlarını böyük razılıq və sevinclə qarşılayır. Prezident İlham Əliyevin əfv fərmanları, sadəcə olaraq, humanizm və mərhəmət aktları olaraq qalmayıb, eyni zamanda cəmiyyətimizin mənəvi-siyasi iqliminə də çox ciddi təsir göstərir, vətəndaş həmrəyliyinin daha da güclənməsinə, ölkədə ümumi bir insani istiləşməyə səbəb olur. Ən başlıcası isə budur ki, xalqımızın öz dövlətinə, ölkə başçısına məhəbbəti, inamı daha da artır.

Ölkə Prezidenti Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunub-saxlanılması və daha da inkişaf etdirilməsi kursunu da uğurla həyata keçirir. Onun "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" və "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamları (2004, 12 yanvar), Milli Ensiklopediyanın nəşrinə rəhbərliyi şəxsən öz üzərinə götürməsi və bununla bağlı imzaladığı sərəncamlar, alimlərə elmi dərəcələrə görə verilən əlavə əmək-haqqını, tələbələr, magistrlər və aspirantların təqaüdlərini dəfələrlə artırması, sənət adamlarına, elm və mədəniyyət xadimlərinə qayğı göstərilməsini, muzeylərin, tarixi abidələrin, hətta bütövlükdə tarixi şəhərlərin bərpasını şəxsi nəzarəti altında saxlaması milli-mənəvi və ümumbəşəri dəyərlərə dövlət qayğısının parlaq təzahürləridir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan xalqının tarixi keçmişinə xüsusi qayğı və diqqət göstərir. İstər elmi tədqiqatların aparılması, istərsə də Azərbaycanın tarixi abidələrinin bərpası və qorunması istiqamətində böyük dövlət qayğısı Azərbaycan tarixçisinə tariximizi obyektiv, hərtərəfli araşdırmaq imkanı vermişdir. Hər zaman dövlətin və Prezidentin qayğısını yaxından hiss edən tarixçilərimizin ən ümdə vəzifəsi də Ulu Öndər Heydər Əliyevin Tariximizin Dirçəliş Konsepsiyasını və Prezident İlham Əliyevin bu konsepsiyanı daha dolğun və daha mükəmməl şəkildə həyata keçirmək üçün verdiyi tapşırıqları əsas tutaraq Azərbaycanın gerçək tarixini tədqiq və təbliğ etməkdir!

İlham Əliyev **"Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunu ölkəmizdə tarix üzrə araşdırmaların mərkəzi"** adlandırmaqla, Tarix İnstitutuna çox yüksək qiymət vermişdir. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Milli Elmlər Akademiyasının Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında" sərəncamı ölkənin bütün elmi ictimaiyyəti və ilk növbədə, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun bütün əməkdaşları tərəfindən çox böyük sevinc və minnətdarlıq hissi ilə qarşılanmışdır. 26 aprel 2012-ci il tarixdə imzalanmış bu mühüm dövlət sənədi Azərbaycan milli tarix elminin gələcək inkişafı üçün xüsusi əhəmiyyət kəsb edir.

Tarixi keçmişimizə dair elmi axtarışların daha da genişləndirilməsinə və təbliğinə böyük imkanlar açan bu sənəddə, yuxarıda qeyd olunduğu kimi, Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun ölkəmizdə tarix üzrə araşdırmaların mərkəzi olduğu qeyd edilir, bu elm ocağının milli tariximizin ən aktual problemlərinin müasir dövrün tələblərinə uyğun və Azərbaycançılıq məfkurəsi işığında öyrənilməsi baxımından xüsusi rol oynadığı göstərilir.

Azərbaycan Prezidentinin çağırışları, tövsiyə və tapşırıqları ilə AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu son illərdə "Qara-

bağ: real tarix, faktlar və sənədlər", "Naxçıvan: tarixi və abidələri", "İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi", "Azərbaycan tarixi atlası", "Kürəkçay-200", "Tarixi adlara qarşı soyqırım", "Ermənilərin Azərbaycan torpağında törətdiyi cinayətlərə dair", dörd kitabdan ibarət üçcildlik "Azərbaycan xalqına qarşı 1918–1920-ci illər soyqırımı" sənədlər toplusu, "Şimal-Qərbi Azərbaycan tarixi", "Azərbaycan xalçaları. İrəvan qrupu", "Azərbaycan xalçaları. Qarabağ qrupu", "Azərbaycan xalçaları. Naxçıvan qrupu", "Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə", "Şuşa-Pənahabad" və digər fundamental tədqiqatlardan ibarət 300-dən çox əsər hazırlayıb nəşr etdirmişdir. İnstitutun kollektivi Ulu Öndərin həyat və fəaliyyətinin tədqiqinə həsr edilmiş ikicildlik "Heydər Əliyev" fundamental monoqrafiyasını, ikicildlik "Heydər Əliyev Azərbaycan elminin keşiyində" sənədlər toplusunu nəşr etdirmiş, iki cildlik "Naxçıvan tarixi"nin akademik nəşrinə hazırlıq işlərini başa çatdırmışdır. Hazırda institutda yeni konsepsiya əsasında "Azərbaycan tarixi"nin yazılması üçün müvafiq işlərə başlanmışdır.

Prezident İlham Əliyevin Azərbaycan tarix elminə və tarixçilərinə verdiyi böyük dəyərin nəticəsidir ki, bu gün AMEA Tarix İnstitutu Azərbaycan tarix elminin başlıca elmi tədqiqat mərkəzinə, milli ideologiyanın formalaşdığı mərkəzlərdən birinə çevrilmişdir.

Prezident İlham Əliyev tarix elmimizin nailiyyətlərinin dünyada yayılmasına da xüsusi qayğı göstərir. Məhz onun tapşırığı ilə "İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi", "Naxçıvan: tarixi və abidələri", "Qarabağ: real tarix, faktlar, sənədlər", "Azərbaycan xalçaları: İrəvan qrupu" və digər fundamental nəşrlər müxtəlif dillərə tərcümə olunaraq dünya ölkələrində yayılmışdır.

Fərəhli haldır ki, Azərbaycan Prezidentinin müdrik və uzaqgörən siyasətinin həyata keçirilməsində Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, ölkəmizin birinci xanımı Mehriban Əliyeva yaxından iştirak edir. Azərbaycanın birinci xanımı özünün ölkə və dünya miqyasında göstərdiyi çoxşa-

xəli və xeyirxah əməli fəaliyyətinə görə xalq arasında və beynəlxalq aləmdə dərin hörmət və nüfuz qazanmışdır.

Prezident İlham Əliyevin dərindən ölçüb-biçərək həyata keçirdiyi çoxsaylı müdrik islahatlar, ölkəmizdə günü-gündən genişlənən böyük quruculuq və abadlıq işləri, əhalinin müxtəlif təbəqələrinin güzəranını yaxşılaşdırmaq üçün görülən təsirli tədbirlər ona xalq arasında böyük şöhrət qazandırmışdır. Xalqımız əmindir ki, ölkə rəhbərinin müdrik, qətiyyətli və milli maraqların təmin olunmasına yönəlmiş uzaqgörən siyasəti Azərbaycanımızı daha parlaq gələcəyə qovuşduracaqdır.

Yeni dövrün bütün dünyada böyük şöhrət qazanmış yeni lideri olan Prezident İlham Əliyev, artıq Azərbaycan tarixinə **Qurucu Prezident** kimi daxil olmuşdur. Qurucu Prezident bu gün həyata keçirdiyi müdrik islahatlar proqramı ilə Azərbaycanın gələcək *Tarix Salnaməsinin* ən şanlı səhifələrini – QURUCU İLHAM DÖVRÜ adlanacaq səhifələrini yazır ...

# PREZİDENT İLHAM ƏLİYEVİN AZƏRBAYCAN TARİXİNƏ KONSEPTUAL BAXIŞI

## İlham Əliyevin Azərbaycan tarixinə konseptual baxışının elmi-nəzəri və ideoloji əsası: Heydər Əliyevin Tariximizin Dirçəliş Konsepsiyası

Prezident İlham Əliyevin müasir Azərbaycan dövlətçiliyi qarşısında ən böyük xidmətlərindən biri də Azərbaycan tarixinə və bu tarixin doğru-düzgün araşdırılmasına gündəlik qayğısıdır.

Bu gün Azərbaycan tarix elmi ölkə başçısının konkret tapşırıqları, çağırışları və tövsiyələri əsasında inkişaf edir. Son illərdə Tarix İnstitutunun nəşr etdirdiyi əsərlər məhz Prezident İlham Əliyevin təşəbbüsü ilə yazılmışdır.

Tarixçi Prezidentin istər ölkə əhəmiyyətli müxtəlif tədbirlərdə, istərsə də beynəlxalq arenada Azərbaycanın haqq səsini dünya ictimaiyyətinə çatdırması, Azərbaycan tarixinin bütün həqiqətlərini güclü elmi arqumentlərlə əsaslandırması onun Vətən təəssübkeşliyindən, Vətənpərvərlik ruhundan və heç şübhəsiz, tarixçi kimi güclü elmi-nəzəri biliklərindən qaynaqlanır.

Azərbaycan Prezidenti doğma tariximizlə bağlı elmi-nəzəri və zəngin faktik materiala əsaslanan konseptual baxışa malikdir.

İlham Əliyevin Azərbaycan tarixinə konseptual baxışının elmi-nəzəri və ideoloji əsasını Ulu Öndər Heydər Əliyevin Tariximizin Dirçəliş Konsepsiyası təşkil edir.

Tarix yalnız dahi şəxsiyyətlərin nurlu əməlləri sayəsində nəsillərin yaddaşına həkk olunur. Azərbaycan xalqı dünya tarixinə Cavanşir, Babək, Şəmsəddin Eldəniz, Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan, Uzun Həsən, Şah İsmayıl Xətai, Nadir şah kimi qüdrətli şəxsiyyətlər bəxş etmişdir. Əsrlər keçdikdən sonra – XX yüzillikdə xalqımız daha bir dahi şəxsiyyət yetirdi. Dünyanın Atatürk, Vaşinqton,

Nehru, De Qoll kimi nadir tarixi simaları sırasında Heydər Əliyev şəxsiyyəti öz layiqli yerini tutdu.

Ulu Öndərin doğma Vətəni və xalqı qarşısındakı misilsiz xidmətlərindən biri də tarixçi-prezident kimi Tariximizin Dirçəliş Konsepsiyasını formalaşdırmasıdır. Dahi dövlət xadimi müstəqillik dövrümüzün bu mükəmməl tarix konsepsiyasını 2001-ci ildəki məşhur Müraciətində doğma xalqına əmanət edir.

Heydər Əliyevin 2001-ci il, Yeni əsr və Üçüncü minillik münasibətilə Azərbaycan xalqına Müraciəti yaşadığımız eranın XX və XXI yüzilliklərinin, İkinci və Üçüncü minilliklərinin qovşağında xalqımızın mənəvi sərvətlər xəzinəsinə daxil olmuş nadir incidir.

«Azərbaycan XXI əsrin və Üçüncü minilliyin ayrıcında» adı ilə dünyanın müxtəlif ölkələrinə səpələnmiş 60 milyonluq xalqımıza ünvanlanmış bu Müraciət, heç şübhəsiz, gələcək qərinələrdə, minilliklərdə də öz qiymətini, aktuallığını saxlayacaq misilsiz elmi-nəzəri ümumiləşdirmədir.

Ulu keçmişimizin və müasir tariximizin ensiklopedik şərhini, gələcək inkişafımızın elmi-nəzəri proqnozlarını verən bu əsərdə xalqımızın keçdiyi tarixi yola dərindən nəzər salınır, mühüm tarixi proseslərə, hadisələrə, tarixi şəxsiyyətlərə obyektiv qiymət verilir, prinsipial münasibət bildirilir. Bu baxımdan, **«Azərbaycan XXI əsrin və Üçüncü minilliyin ayrıcında» adlı Müraciət** bütün tarix elmimiz üçün örnək ola biləcək çox dəyərli bir tarix əsəridir.

Heydər Əliyev təfəkküründün məhsulu olan bu qiymətli əsərdə tariximizin bir çox problemləri ilə bağlı olaraq tədqiqatçılara konkret və prinsipial istiqamət verilir. Böyük dövlət xadimi, hər şeydən əvvəl, bəşəriyyətin yaxın keçmişinə – yenicə ayrıldığımız XX yüzilliyə son dərəcə sərrast və konkret qiymət vermişdir. Özü də bu qiymətləndirmə zamanı ayrı-ayrı siyasi hadisələr, proseslər deyil, müasir dünyamızda insanlığı irəli aparan başlıca amil, daha doğrusu, *sürətli elmi-texniki tərəqqi* ön plana çəkilir, sonra isə başqa amillər sıralanır. Həm də bu sıralanma zamanı *yeni suveren dövlətlərin yaranması* kimi mühüm tarixi reallıq xüsusi qeyd olunur.

Ulu Öndərin XX yüzilliyə verdiyi qiymət tarixi reallığı zərgər dəqiqliyi ilə əks etdirir:

***"Başa vurduğumuz yüzillik bəşəriyyətin yaddaşında sürətli elmi-texniki tərəqqi ilə və iki dünya müharibəsində tökülmüş qanlarla, imperiyaların süqutu və yeni suveren dövlətlərin yaranması ilə, «soyuq müharibə»nin doğurduğu gərginliklə, sülh, sabitlik və əmin-amanlıq naminə göstərilən kollektiv səylərlə qalacaqdır".***

Böyük dövlət xadimi aşağıdakı uzaqgörən fikirləri ilə öz həmvətənlərinə, ümumiyyətlə, gələcək nəsillərə xəbərdarlıq edir ki, müasir dünyaya qovuşarkən ulularımızın bizə əmanət qoyduğu millimənəvi dəyərləri itirməsinlər, onu göz bəbəyi kimi qorusunlar, müqəddəs tariximizi əcnəbilərin ayaqları altına atmasınlar, başqa sözlə, müasir dünyaya inteqrasiya prosesində xalqımız özünün milli-mədəni varlığını qoruyub saxlaya bilsin. Böyük Azərbaycanlının zamanı qabaqlayaraq irəli sürdüyü müdrik və uzaqgörən ideya millətimiz üçün, bütün gələcək nəsillərdən ötrü dahiyanə xəbərdarlıqdır! Belə səslənir Ulu Öndərin nəsillərə etdiyi xəbərdarlıq:

***"Dünya inkişafının indiki mərhələsinin başlıca meyilləri mədəni inteqrasiya və qloballaşmadır. Əgər bəşəriyyət XX əsri elmi inkişafın nailiyyətlərinin yaratdığı xoş ümidlərlə qarşılamışdısa, qloballaşma prosesi çox vaxt heç də nikbinlik doğurmur. Bu mürəkkəb və birmənalı qiymətləndirilməyən prosesin perspektivləri hamımızı düşündürür. Qloballaşma dövlətlərin sabit inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin stabilliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrı-seçkiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüksəldilməsinə kömək etməlidir. Sözsüz ki, beynəlxalq hüquq prinsipləri və normalarının aliliyi, dəyişikliklərin təkamül xarakteri, qarşılıqlı etimad və ümumbəşəri dəyərlərə sədaqətlə yanaşı, hər bir ölkənin səciyyəvi milli cəhətlərinin də nəzərə alınması bu prosesin müəyyənedici istiqamətləri olmalıdır. Təbii ki, qloballaşmanın bir çox ölkələr üçün yaratdığı problemlər bizi də düşündürür".***

XX yüzilliyin xalqımızın tarixindəki yerini zərgər dəqiqliyi ilə müəyyən edən böyük siyasətçi *müstəqil Azərbaycan dövlətinin yaradıl-*

*masını ən böyük nailiyyət* hesab edir, ölkəmizin *demokratik, hüquqi, dünyəvi* dövlət kimi dünyaya qovuşmasını yüksək qiymətləndirir.

Heydər Əliyev xalqa Müraciətində XX yüzillikdəki ən mühüm tarixi nailiyyətimizə və Azərbaycanın müasir durumuna xüsusi diqqət yetirir. Müraciətdə qeyd olunduğu kimi, tarixən qısa müddət ərzində ən müasir demokratik, hüquqi, dünyəvi dövlətin möhkəm təməlləri qoyulmuş, dünyanın ən mütərəqqi təməl qanunlarından biri olan Konstitusiyamız qəbul olunmuş, hakimiyyətin ayrı-ayrı qollarının formalaşdırılmasına başlanmış, həyatın bütün sahələrində əsaslı islahatlar həyata keçirilmişdir.

***"XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyəti, şübhəsiz ki, müstəqil Azərbaycan dövlətinin yaradılmasıdır. Öz müstəqilliyini bərpa edən Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlətin möhkəm təməlini qoymuşdur. Məhz bu müddət ərzində Azərbaycan xalqı öz müstəqil dövlətinin Konstitusiyasını qəbul etmiş, qanunvericiliyini, hakimiyyətin bölünmə prinsiplərini, hüquq normalarını dünya standartlarına uyğunlaşdıraraq digər dövlətlərlə hərtərəfli əməkdaşlığa hazır olduğunu nümayiş etdirmişdir. Bu illər ərzində yaşayışımızın bütün sahələrini əhatə edən köklü dəyişikliklər və dərin islahatlar həyata keçirilmişdir" (Heydər Əliyev).***

Ulu Öndərin Müraciətində müasir mərhələdə Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılmasında və möhkəmləndirilməsində neft amilinə xüsusi diqqət yetirilir. Bu bir həqiqətdir ki, Heydər Əliyev Azərbaycan tarixində ilk dəfə olaraq xalqın bu mühüm sərvətinin milli müqəddəratımızda oynadığı rolu dərindən araşdıran, düzgün qiymətləndirən, xüsusilə neft amilindən Azərbaycanın xarici siyasətində istifadə olunması konsepsiyasını hazırlayıb həyata keçirən dövlət xadimi olmuşdur. Heydər Əliyev məhz özünün neft strategiyası ilə tarix boyu Cənubi Qafqazda üstünlüyü əldə saxlamaq üçün daim «erməni kartı»ndan istifadə edən qüvvələrə qalib gəldi. Bu, əslində Azərbaycanın diplomatiya tarixində yeni kəşf, yeni istiqamətdir.

Dövrümüzün böyük dövlət xadimi olmaqla yanaşı, həm də **qüdrətli tarixçisi** olan Heydər Əliyevin qələmindən çıxmış **«Azərbaycan**

**XXI əsrin və Üçüncü minilliyin ayrıcında»** adlı Müraciət dövrləşdirmə baxımından da tarix elmimizin inkişafına təkan verən konseptual əsərdir. Bu qiymətli elmi-nəzəri ümumiləşdirmədə əvvəldən axıradək, bütünlüklə Azərbaycanın keçdiyi tarixi yola nəzər salınır, tariximizin ayrı-ayrı dövrləri, mərhələləri prinsipial şəkildə dəyərləndirilir, bir çox hadisələrə, proseslərə yeni qiymət verilir, ayrı-ayrı hallarda isə tarixşünaslığımızda ilk dəfə olaraq dövrləşdirmə aparılır.

Fikrimizcə, Heydər Əliyevin irəli sürdüyü bir ideya, yəni coğrafi amilin, daha doğrusu, Azərbaycanın Şərqlə Qərbi əlaqələndirən mühüm mövqedə yerləşməsinin tarixən xalqımızın inkişafının müxtəlif sahələrində, o cümlədən mədəniyyətimizin formalaşmasında dərin iz buraxması ideyası alimlərimiz qarşısında yeni tədqiqatlardan ötrü geniş meydan açır.

***"Azərbaycanın taleyi belə gətirmişdir ki, coğrafi-siyasi mövqeyinə görə o, həmişə sivilizasiyaların qovuşuğunda olmuş və istər Qərbin, istərsə də Şərqin çox güclü təsirini öz üzərində hiss etmişdir. Məlumdur ki, Azərbaycan insanın, bəşəriyyətin beşiyi olan nadir ölkələrdən biridir. Burada həyat çox erkən yaranmışdır və Azıx mağarasında tapılmış azıxantrop Azərbaycanın ən qədim ibtidai insan məskənlərindən biri olmasını sübut edir. Qobustandakı və Gəmiqayadakı qayaüstü təsvirlər və petroqliflər, Kür–Araz və Xocalı mədəniyyətlərinə aid maddi-mədəniyyət nümunələri, Kurqan tapıntıları sübut edir ki, hətta miladdan əvvəlki minilliklərdə də Azərbaycanda inkişaf etmiş mədəniyyət mövcud olmuşdur" (Heydər Əliyev).***

Ən qədim zamanlardan başlayaraq tariximizin ayrı-ayrı mərhələləri dərin elmi əsaslarla təhlil olunan və obyektiv surətdə qiymətləndirilən Müraciətdə eramızdan əvvəl Birinci minilliyin sonu və eramızın Birinci minilliyinin əvvəlindəki dövrə xüsusi diqqət yetirilir.

***"Eramızdan əvvəl birinci minilliyin sonunda, eramızın birinci minilliyinin əvvəlində Azərbaycan müxtəlif mədəniyyətlərin və dinlərin təsirinə məruz qalmışdır. Məhz bunun nəticəsində tarixən ölkəmizdə müxtəlif dinlərə münasibətdə yüksək tolerantlıq, dözümlülük***

***mühiti yaranmışdır. Yunan–Roma mədəniyyətinin, bütün antik sivilizasiyanın güclü təsiri altında inkişaf edən elm, ədəbiyyat və incəsənətimiz çox erkən dövrlərdə özünəməxsus forma və məzmuna malik olmağa başlamışdır. Bununla yanaşı, sözsüz ki, bizim zəngin mədəniyyətimizin formalaşmasına müxtəlif mərhələlərdə həm zərdüştilik, yəhudi, xristian, həm də islam mədəniyyətlərinin təsiri olmuşdur. Karvan yollarının üstündə yerləşərək, «Böyük İpək yolu»nun mühüm mərkəzlərindən biri olmuş Azərbaycan müxtəlif siyasi baxışların, iqtisadi münasibətlərin, dövlətçilik formalarının təsirini öz üzərində hiss etmişdir" (Heydər Əliyev).***

İslamın qəbulundan sonra geniş İslam – türk dünyasına qovuşan Azərbaycan xalqı eramızın İkinci minilliyində daha da tərəqqi etdi, özünün qabaqcıl mədəniyyətini həm Şərqə, həm də Qərbə yaydı. Xalqımız çox geniş Avrasiya coğrafi məkanında mədəniləşdirici rol oynadı. Təbiidir ki, özü də ümumbəşəri dəyərlərdən bəhrələnərək daha da zənginləşdi. Bu mühüm məqam, daha doğrusu, xalqımızın həm *dünya mədəniyyəti xəzinəsinə sanballı töhfələr verməsi*, həm də, ümumiyyətlə, insanlığın *mədəniyyət sahəsində əldə etdiyi bütün nailiyyətlərdən faydalanaraq, özünəməxsus zəngin mədəni-mənəvi irs yaratması* ideyası tarixə **Heydər Əliyev baxışının əsasında duran milli qürur və humanizm fəlsəfəsidir**. Bu həqiqəti daha aydın təsəvvür etmək üçün xalqımızın və Yurdumuzun böyük təəssübkeşinin Müraciətdə bütün xalqımıza bəyan etdiyi çox qiymətli elmi ümumiləşdirmələrə diqqət yetirmək kifayət edər:

***"İkinci minilliyin tarixi əyani surətdə göstərir ki, Azərbaycan xalqı dünya mədəniyyətində öz dəst-xətti ilə seçilən xalqlardandır. Keçən iki min il ərzində bəşər sivilizasiyasının ayrılmaz hissəsi kimi azərbaycanlılar dünya mədəniyyəti xəzinəsinə sanballı töhfələr vermişlər. Bizim əcdadlarımız ibtidai insanın mədəniyyət sahəsində əldə etdiyi bütün nailiyyətlərdən faydalanaraq, özünəməxsus zəngin mədəni-mənəvi irs yaratmışlar. Bunu istər Azərbaycan ərazisində arxeoloji qazıntılar nəticəsində tapılmış abidələr, istərsə də bu günümüzə qədər gəlib çatmış şifahi xalq ədəbiyyatı və yazılı ədəbi irsimiz sübut edir".***

Çox güclü tarixçi olan Heydər Əliyev yuxarıdakı elmi nəticənin tarixi reallıq olduğunu sübut etmək üçün məhz onun qayğısı və fərmanı ilə 1300 illiyi qeyd olunmuş «Kitabi-Dədə Qorqud»u – bütün əvvəlki tariximizlə İkinci minilliyi birləşdirən misilsiz mənəvi mədəniyyət abidəmizi yada salır. Heydər Əliyev şəxsiyyəti bütün ömrü boyu xalqımızın öz torpağında qədim mədəniyyət yaratdığını, dünyanın ən qədim oturaq mədəniyyətə malik olan xalqlarından biri olduğunu elmi surətdə əsaslandırmış, bu həqiqəti bütün dünyaya bəyan etmişdir. «Kitabi-Dədə Qorqud» dastanlarının xalqımıza məxsus olduğunu təsdiqləyən tarixi fərman və bu abidəmizin 1300 illiyinin dünya miqyaslı bayram təntənəsinin məhz Azərbaycanda – paytaxtımız Bakıda keçirilməsi Heydər Əliyevin xalqımız və tariximiz qarşısında ən böyük xidmətlərindən biridir.

***"2000-ci ildə 1300 illik yubileyini təntənə ilə qeyd etdiyimiz «Kitabi-Dədə Qorqud» kimi möhtəşəm bir abidəyə malik olmaq da onu göstərir ki, bu torpaqda hələ bizim eramıza qədərki dövrdə böyük bir mədəniyyət mövcud olmuşdur" (Heydər Əliyev).***

Heydər Əliyevin «Kitabi-Dədə Qorqud» dastanına verdiyi qiymət qorqudşünaslığın mövcud olduğu bütün dövr ərzində hələ heç bir alim və ya dövlət xadimi tərəfindən verilməmişdir. **Böyük Azərbaycanlı, dahi dövlət xadimi** və **qüdrətli tarixçinin** bu qəhrəmanlıq abidəmizə yanaşma metodu da tamamilə yeni və yeni olduğu qədər də aktualdır. Ulu Öndər Dədə Qorqud boylarını təcavüzkarlara qarşı mübarizə baxımından bu günlərimizlə əlaqələndirir. Eposun mahiyyətcə **qəhrəmanlıq ideologiyası** olduğunu qeyd edən Heydər Əliyev vətən övladlarını işğal olunmuş torpaqları qaytarmaq üçün yurd təəssübkeşliyinə, mübarizəyə – oğuz igidləri kimi doğma torpaqlarımız uğrunda düşmən üzərində qələbə çalmağa, lazım gələrsə bu yolda canlarından keçməyə hazır olmağa çağırır.

Ulu Öndər Heydər Əliyevin dirçəliş konsepsiyasının tarix elmimizə bəxş etdiyi ən nadir töhfələrdən biri də Azərbaycan intibahına verilən qiymətdir.

Nə qədər təəssüf və təəccüb doğursa da, müxtəlif sahələrdən olan tədqiqatçılarımız tariximizdə **intibah** anlayışının möhkəmləndi-

rilməsi üçün xalqımızın layiq olduğundan az iş görmüşlər. Əslində isə Ərəb xilafətinin süqutundan sonra dövlətçiliyimizin dirçəlişi və siyasi oyanışımız sayəsində iqtisadiyyatımızda və mədəniyyətimizdə də böyük intibah baş vermişdi. «Kitabi-Dədə Qorqud»la başlanan bu oyanış mədəniyyətimizin **Nizami** zirvəsinə ucalmış, **Qaraqoyunlular**, **Ağqoyunlular** və **Səfəvilər** dövrlərində də davam etmişdir. Bu baxımdan, Heydər Əliyevin İntibah dövrünü, intibah anlayışını tarixşünaslığımızda möhkəmləndirməsi, Cavanşir, Babək, Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan, Uzun Həsən, Şah İsmayıl Xətai kimi tarixi şəxsiyyətlərimizə yüksək qiymət verməsi təkcə elmimiz deyil, xalqımız qarşısında da misilsiz xidmətdir. Tariximizin İntibah dövrünə verdiyi aşağıdakı qiymətlə ölkə başçısı, sanki bu gün siyasi dirçəlişə nail olmuş doğma xalqını **Yeni Azərbaycan intibahına** səsləyir.

***"Şərqdə, o cümlədən Azərbaycanda təşəkkül tapmış intibah dünya mədəniyyəti tarixinin ən parlaq səhifələrindən biridir. Bu intibah Azərbaycan xalqının həyatın müxtəlif sahələrində qazandığı böyük uğurlarının məntiqi nəticəsi idi.***

***Cavanşir və Babək kimi sərkərdələrin qəhrəmanlıqları böyük vətənpərvərlik məktəbinə çevrilmiş, Vətənin bütövlüyü, xalqın birliyinin təcəssümü olmuşdur. Məhəmməd Cahan Pəhləvanın, Qızıl Arslanın, Uzun Həsənin, Şah İsmayıl Xətainin və başqa dövlət xadimlərimizin həyat və fəaliyyəti xalqın vətən sevgisi və dövlətçilik hissini daha da inkişaf etdirmiş, onu həyatın ən vacib, ən ümdə məqsədinə çevirmişdir" (Heydər Əliyev).***

Sovet dövründə yuxarıdan qoyulmuş yasaqlar nəticəsində tariximizin ən təhrif olunmuş səhifələrindən biri də Gülüstan və Türkmənçay müqavilələrinə verilən qiymət idi. Həmin müqavilələrə tarixi reallığı kobud surətdə təhrif edərək «*Azərbaycanın Rusiyaya birləşməsi*», «*könüllü surətdə Rusiya tərkibinə daxil olması*», nəhayət, «*birləşdirilməsi*» kimi qondarma qiymətlər verilməsi, «*işğal*», «*ilhaq olunma*», «*bölünmə*», «*bölüşdürülmə*» ifadələrini işlədənlərin təqib olunması yadımızdan çıxmayıb. Bu gün hər bir azərbaycanlı üçün qürur mənbəyidir ki, dövlət başçımız Gülüstan və Türkmənçay müqavilələrinə

*Azərbaycanımızın, tarixi torpaqlarımızın, xalqımızın iki yerə parçalanması, bölünməsi kimi qiymət verir, müstəqil Azərbaycan Respublikasını dünyaya səpələnmiş azərbaycanlıların vətəni, milli ruhun, milli dəyərlərin, milli mənəviyyatın və mədəniyyətin məbədi kimi dəyərləndirir*:

***"Tarixi proseslərin gedişi ona gətirib çıxartdı ki, 1813 və 1828-ci illərdə imzalanmış Gülüstan və Türkmənçay müqavilələri Azərbaycanı, onun tarixi torpaqlarını parçaladı, xalqımızı iki yerə böldü. Bu gün tam qətiyyətlə demək olar ki, bütün dünyaya səpələnmiş azərbaycanlılar müstəqil Azərbaycan Respublikasını öz Vətəni sayır, onu milli dövlətçiliyin, milli ruhun, milli dəyərlərin, milli mənəviyyatın və mədəniyyətin məbədi kimi yüksək qiymətləndirirlər. Bu, XX əsrdə təşəkkül tapmış azərbaycançılıq ideyalarının böyük vüsət almasının məntiqi nəticəsidir" (Heydər Əliyev).***

Elmi təfəkkürümüzün inkişafında xüsusi səhifə olan «**Azərbaycan XXI əsrin və Üçüncü minilliyin ayrıcında**» əsərində XIX–XX yüzilliklərin tarixinə xüsusi diqqət yetirilir. Xalqımızın siyasi dirçəliş və dövlətçiliyimizin bərpası uğrunda mübarizəsində, tarixi taleyimizdə çox mühüm rolu olmuş, eyni zamanda ayrı-ayrı prosesləri, hadisələri, tarixi şəxsiyyətlərinin fəaliyyəti dəhşətli dərəcədə təhrif edilmiş XX yüzilliyin Heydər Əliyev tərəfindən araşdırılması xüsusilə diqqətəlayiqdir. Ömür yolu bu əsrdə keçmiş, ağır və gərgin mübarizələrlə dolu bir həyat yaşamış, Azərbaycanın, SSRİ-nin və ümumiyyətlə, dünyanın tarixi taleyində qüdrətli bir dövlət xadimi kimi mühüm rol oynamış və həmin əsrin ən nadir tarixi şəxsiyyəti zirvəsinə yüksəlmiş Heydər Əliyevin XX yüzilliyin tarixini araşdırması, onun ayrı-ayrı dövrlərinə, hadisələrinə, proseslərinə qiymət verməsi, əslində gələcəkdə həmin tarixin doğru-düzgün işıqlandırılması üçün çox qiymətli bir ilk mənbə, istiqamətverici elmi xəzinə olacaqdır.

Ən başlıcası budur ki, **Müraciətdə ilk dəfə olaraq dərin elmi-nəzəri təhlil əsasında XX yüzillikdəki tariximiz dövrləşdirilir.** Özü də bu dövrləşdirmə xalqımızın keçdiyi tarixi inkişaf yolunun reallıqlarını əks etdirir.

Beləliklə, XX yüzilliyin tarixi dörd mərhələyə ayrılır: **Birinci mərhələ** – Azərbaycan Xalq Cümhuriyyətinin qurulması üçün tarixi

zəminin yetişməsi dövrüdür. Bu dövrü sadəcə olaraq **Ərəfə** də adlandırmaq olar. Həmin dövr 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə başa çatır. **İkinci mərhələ** – Azərbaycan Xalq Cümhuriyyəti dövrüdür (1918–1920). **Üçüncü mərhələ** – 1920-ci ilin Aprel işğalından başlanan sovet dövrüdür. Həmin dövr 1991-ci il oktyabrın 18-də «Müstəqillik Haqqında Konstitusiya Aktı»nın qəbul olunması ilə başa çatır. **Dördüncü mərhələ** – 1991-ci ilin oktyabrından başlanan müstəqillik dövrüdür, daha doğrusu, müstəqilliyimizin bərpası dövrüdür.

XX əsr tariximizin **Birinci Mərhələsini** və ya *Azərbaycan Xalq Cümhuriyyətinin* qurulmasına doğru gələn yolu nəzərdən keçirən Heydər Əliyev göstərir: "***XIX əsrdən başlanan mürəkkəb ictimai-siyasi proseslərin gedişi Azərbaycan cəmiyyətində əsaslı dəyişikliklərə gətirib çıxartdı, yeni mühitdə formalaşan görkəmli ictimai və siyasi xadimlərimiz əsrin çağırış və tələblərinə layiqincə cavab verməyə qadir oldular. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması üçün münbit zəmin yarandı. Bu dövrü XX əsr Azərbaycan tarixinin BİRİNCİ MƏRHƏLƏSİ adlandırmaq olar***".

XX əsr tariximizin **İkinci Mərhələsinə**, yəni Azərbaycan Xalq Cümhuriyyəti dövrünün bütün prosesləri və hadisələrinə ilk dəfə ən bitkin elmi-nəzəri və siyasi qiyməti özünün müxtəlif çıxışlarında məhz Heydər Əliyev vermişdir. Bu dövrə böyük siyasətçimiz tərəfindən verilən konkret və birmənalı qiymət belədir: "***Azərbaycan üçün İKİNCİ MƏRHƏLƏ çar Rusiyası dağılandan sonra ölkəmizin ilk dəfə dövlət müstəqilliyi əldə etdiyi dövrdür***".

Cümhuriyyət dövrünü «*ölkəmizin ilk dəfə dövlət müstəqilliyi əldə etdiyi dövr*» kimi qiymətləndirən Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin müxtəlif sahələrindəki fəaliyyətini yüksək dəyərləndirir, Əlimərdan bəy Topçubaşov, Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski və bir çox başqa ictimai-siyasi xadimlərin *Cümhuriyyətin yaradılmasındakı müstəsna xidmətlərini* xüsusi qeyd edir: «***Ən əsası odur ki, Azərbaycan Xalq Cümhuriyyəti az yaşasa da, xalqımızda azadlıq, müstəqillik fikirlərini daha da gücləndirmiş oldu. Bu***

***cümhuriyyətin yaradılmasında müstəsna xidmətləri olan Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Həsən bəy Ağayev, Nəsib bəy Usubbəyov, Mehdi bəy Hacınski, Məmməd Yusif Cəfərov, Xudadat bəy Rəfibəyov, Əkbər ağa Şeyxülislamov, Teymur bəy Makinski, Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski, Sultan Məcid Qənizadə, Xəlil bəy Xasməmmədov, Əhməd bəy Pepinov, Şəfi bəy Rüstəmbəyov kimi görkəmli ictimai xadimlərin xatirəsini qədirbilən Azərbaycan xalqı bu gün də böyük ehtiram hissi ilə yad edir***».

Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin tarixi rolunu və Cümhuriyyət xadimlərinin fəaliyyətini belə qiymətləndirir: "***Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır. O, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır***".

Qeyd etmək istərdik ki, XX əsr tariximizin **Üçüncü Mərhələsini** şərh edərkən Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq məhz Heydər Əliyev tariximizin «**sovet dövrü**» adlandırılan həmin dövrün ilk iki ilini – **1920–1922-ci illəri**, daha doğrusu, 1920-ci ilin Aprel işğalından 1922-ci ildə SSRİ-nin yaradılmasına qədərki dövrü ***müstəqilliyin saxlanılması dövrü*** kimi qiymətləndirmişdir. Göstərilən dövrdə Azərbaycanın bir müstəqil dövlət qurumu kimi yaşadığını sübut etmək üçün Heydər Əliyevin gətirdiyi faktların hamısı tarixi gerçəklikdir.

**Tarix elmimizin Heydər Əliyev konsepsiyasında** İkinci Dünya müharibəsinə mahiyyətcə yeni səpkidə, yəni faşizmə qarşı kollektiv mübarizə səpkisində qiymət verilir. Bununla da böyük siyasətçi, həm İkinci Dünya müharibəsi cəbhələrində həlak olmuş və faşizmə qarşı ölüm-dirim mübarizəsi aparmış Vətən övladlarının tarixi xidmətlə-

rinə qara yaxmağa çalışanlara özünün obyektiv və kəskin cavabını bəyan edir, həm də alimlərə tarixi obyektiv işıqlandırmaq yolunu göstərir. Həmin yolun konkret məzmunu isə belədir: "***İkinci Dünya müharibəsi illəri bəşəriyyətin XX əsrdə üzləşdiyi ən ağır və dəhşətli dövr olmuşdur. İtaliyada və Almaniyada meydana çıxmış faşizm hərəkatı təkcə həmin ölkələrin xalqlarının deyil, bütün bəşəriyyətin həyatını böyük təhlükəyə məruz qoydu. Faşizm ideologiyası qısa müddət ərzində bir çox ölkələrin iqtisadi imkanlarından istifadə etməklə real dağıdıcı qüvvəyə çevrildi, dünya «olum, ya ölüm» dilemması qarşısında qaldı***".

Müraciətin müəllifi – öz xalqının təəssübkeş oğlu bununla kifayətlənməyərək bir az da irəli gedir və öz fikrini lap açıq bildirir: "***Biz fəxr edirik ki, dünyanın bu taleyüklü probleminin həll olunmasında – faşizm üzərində qələbədə Azərbaycan xalqının da mühüm payı olmuşdur***".

Bu, inkarolunmaz bir tarixi reallıqdır ki, Azərbaycanın müstəqilliyə gələn mübarizə yolunda, oyanışında 1969-cu ildən başlanmış geniş quruculuq işlərinin mühüm rolu olmuşdur. Həmin illərdə həyatın müxtəlif sahələrində baş vermiş dirçəliş milli azadlıq ideyalarının da canlanmasına səbəb olmuş və nəticə etibarilə o zaman Azərbaycan bugünkü müstəqillik dövrü üçün hazırlanmışdır. Müstəqilliyə qovuşmaq məramı daşıyan bütün bu quruculuq-hazırlıq işlərinin başında məhz haqqında bəhs etdiyimiz Müraciətin müəllifi – Heydər Əliyev şəxsiyyəti dururdu. Lakin xalqa Müraciətində Vətənin böyük oğlu bu əzəmətli quruculuq işlərində öz rolunu qeyd etməyi lazım bilməsə də, bu böyük həqiqəti qədirbilən xalqımız unutmamışdır! Müraciətdə həmin dövrə verilən yığcam qiymət belədir: "***Azərbaycanın müasir tarixində 1969-cu ildə dönüş mərhələsinin təməli qoyuldu. Respublikanın dinamik inkişafı üçün kompleks proqramların işlənib hazırlanmasında yorulmaz fəaliyyət, misilsiz təşəbbüskarlıq və nəhəng enerji bütün 70-ci illərin bariz əlamətinə çevrildi. 1970–1985-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Baş verən dəyişikliklərin miq-***

***yasına, iqtisadi və sosial sahələrdə aparılan dərin struktur islahatlarının xarakterinə, xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə keçirilməsinə görə doqquzuncu, onuncu və on birinci beşilliklər Azərbaycanın yeni tarixində ən mühüm yerləri tutur. SSRİ hökuməti Azərbaycanla əlaqədar, respublikada xalq təsərrüfatının hərtərəfli yüksəlişi və intensiv inkişafını nəzərdə tutan beş xüsusi qərar qəbul etmişdi. Azərbaycan xalqı üçün həqiqətən tarixi əhəmiyyət daşıyan bu mühüm qərarlar 70–80-ci illər arasında və daha sonrakı perspektivdə ölkənin sosial-iqtisadi inkişafının əsas istiqamətləri üzrə kompleks məsələləri müəyyənləşdirmişdi"***.

Heydər Əliyevin Azərbaycan xalqına Müraciətində SSRİ-nin dağılması ərəfəsində baş verən proseslər, qondarma «Dağlıq Qarabağ problemi», xalq-azadlıq hərəkatı, 20 Yanvar qırğını, o dövrdəki respublika rəhbərliyinin xəyanətkar siyasəti, Azərbaycan Xalq Cəbhəsi hərəkatının fəaliyyəti, bir sözlə, 1993-cü ilədək davam edən daxili-siyasi proseslər, hadisələr addım-addım izlənilir, obyektiv qiymətləndirilir və həmin dövrün tarixi sətirbəsətir gələcək nəsillərə təqdim edilir.

Heydər Əliyev 1980-ci illərin sonu – 90-cı illərdəki ümumdünya miqyaslı tarixi hadisələr kontekstində Azərbaycanın düşdüyü vəziyyətə nəzər salarkən göstərir: "***O dövrdəki Azərbaycan rəhbərliyi sadə bir həqiqəti nəzərə almırdı ki, dünyanın siyasi mənzərəsi böyük sürətlə dəyişməkdə idi. Yeni coğrafi-siyasi vəziyyət yeni strategiyaların formalaşmasını tələb edirdi və günün bu tələblərinə Azərbaycan, təəssüf ki, cavab verə bilmədi***".

Müraciətdə qondarma «Dağlıq Qarabağ böhranı»nın başlandığı dövrdə Azərbaycanın kommunist rəhbərliyi ilə Xalq Cəbhəsi rəhbərlərinin, yəni hər iki qüvvənin ölkənin ərazi bütövlüyünün pozulmasına qarşı deyil, əslində hakimiyyət uğrunda mübarizə apardığı qeyd olunur. Təcrübəli siyasətçi real vəziyyəti bütün dəqiqliyi ilə belə qiymətləndirir: "***Azərbaycan Xalq Cəbhəsi hərəkatı qısa bir müddətdə özünü Azərbaycan ziyalılarının əsas kütləsindən təcrid etdi, dərin elmi təhlil və siyasi proqnozlar əsasında ümummilli platforma***

***yaratmaq əvəzinə, populist çıxışlara və meydan əhval-ruhiyyəsinə üstünlük verdi. Nəticədə Kommunist Partiyası–Xalq Cəbhəsi xətti üzrə formalaşmış qarşıdurma hakimiyyət uğrunda mübarizə müstəvisinə yönəldildi"***.

Heydər Əliyevin Müraciətində qondarma «Dağlıq Qarabağ problemi»nə tarixin və zamanın süzgəcindən keçmiş aşağıdakı qiymət verilir: ***"Əgər Dağlıq Qarabağ faciəsinin bir qütbündə erməni separatçılığı, erməni terrorizmi, Azərbaycana qarşı torpaq iddiaları dursa, digər qütbündə, – nə qədər acı olsa da, bunu etiraf etmək lazımdır, – bizim bəzi siyasətçilərimizin səriştəsizliyi, hakimiyyət hərisliyi, hədsiz-hüdudsuz şəxsi ambisiyaları durur"***.

Müraciətdə göstərildiyi kimi, o zamankı *Azərbaycan rəhbərliyinin bu məsələdə tutduğu laqeyd mövqe isə öz xalqına qarşı əsl cinayət idi*. «Dağlıq Qarabağ problemi» və 20 Yanvar qırğınının bütün tarixini, onun əsas məqamlarını həqiqətdə olduğu kimi gələcək nəsillərə bəyan edən Müraciətdə *sovet ordusunun, xüsusi təyinatlı dəstələrin və daxili qoşunların iri kontingentinin 1990-cı il yanvarın 20-də fövqəladə vəziyyət elan edilmədən Bakını zəbt etməsi və bunun xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklərlə müşayiət edildiyi* açıqlanır, *Azərbaycan SSR Ali Sovetinin 1990-cı il yanvarın 22-də Yanvar faciəsi ilə bağlı çağırılmış sessiyasına respublikanın əksər siyasi və dövlət rəhbərlərinin gəlməməsi, respublika rəhbərliyinin, hətta şəhidlərin dəfn mərasiminə gəlməyi belə lazım bilməməsi, xalqın taleyinə biganə qalması qeyd edilir, bununla onların törədilmiş cinayətdə bu və ya digər dərəcədə iştirak etdikləri göstərilir*.

Heydər Əliyev öz Müraciətində həm dünya tarixinin dərin bilicisi, həm də böyük nəzəriyyəçi-siyasətşünas kimi belələrinə çox aydın cavab verir: ***"Azərbaycan Respublikasının dövlət müstəqilliyini əldə etməsi 80-ci illərin birinci yarısından başlayaraq, keçmiş Sovetlər İttifaqında və bütün dünyada gedən ictimai-siyasi proseslərin zəruri nəticəsi idi. Bu tarixi və obyektiv proseslər nəticədə SSRİ-nin dağılmasına, Kommunist Partiyasının tarixi səhnədən çıxmasına və müttəfiq respublikaların hər birinin müstəqil dövlətə çevrilməsinə gətirib çıxarmışdır. Bunun ardınca baş verən hadisələr –***

***yeni müstəqil dövlətlərin, o cümlədən Azərbaycan Respublikasının dünya ölkələri, müxtəlif beynəlxalq təşkilatlar, Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınması təbii bir hal və beynəlxalq hüquq normalarının qanuni təzahürü idi. Buna görə də Azərbaycanın müstəqillik əldə etməsini heç bir vəchlə müəyyən ictimai-siyasi qüvvələrin, təşkilatların, ayrı-ayrı şəxslərin müstəsna xidmətləri hesab etmək olmaz. Bu, tarixi obyektiv proseslərin qanunauyğun nəticəsi, taleyin Azərbaycan xalqına və bütün keçmiş SSRİ respublikalarının xalqlarına əvəzsiz töhfəsi idi"***.

XX əsr tariximizin elmi dövrləşdirməsini vermiş böyük tarixçi-siyasətşünas Heydər Əliyev *1991-ci il oktyabrın 18-də «Müstəqillik haqqında Konstitusiya Aktı»nın qəbul edilməsi ilə XX əsr Azərbaycan tarixinin* **DÖRDÜNCÜ MƏRHƏLƏSİNİN** *başlandığını* qeyd edir və bu tarixi dövrün başlıca məziyyətini belə qiymətləndirir: "***Biz o vaxtdan azad, sərbəst yaşayırıq, müstəqil dövlətik. Xalqmız öz taleyinin, torpaqlarının, öz ölkəsinin sahibidir***".

Müraciətdə düzgün olaraq **Dördüncü mərhələ** iki dövrə ayrılır: **1991–1993-cü illər dövrü** və **1993-cü ildən sonrakı dövr.**

Heydər Əliyev öz Müraciətində, əvvəlki mərhələlər və dövrlər kimi, «Müstəqillik haqqında Konstitusiya Aktı»nın qəbul olunmasından (18 oktyabr 1991-ci il) 1993-cü ilin iyun günlərinədək davam edən dövrü də dərin və hərtərəfli elmi təhlil süzgəcindən keçirir, həmin dövrün bütün hadisələrinə həm ölkədaxili proseslər, həm də ümumdünya hadisələri kontekstində yanaşır, müqayisələr aparır, baş vermiş bütün reallıqları zəngin təcrübəli bir siyasətçi kimi dəyərləndirir və belə bir nəticəyə gəlir ki, «***1991–1993-cü illər Azərbaycanın müstəqillik tarixində nəinki itirilmiş illər hesab olunur, həm də bu illərdə Azərbaycan «olum, ya ölüm» dilemması qarşısında qalmışdı***».

1991–1993-cü illəri yaşayanlar o illərin acı həyat təcrübəsindən yaxşı bilirlər ki, Heydər Əliyevin Müraciətindən – yaxın keçmişin real tarix salnaməsindən götürülmüş yuxarıdakı elmi dəyər ölçülərinə heç nə əlavə etmək mümkün deyil!

Beləliklə, 1993-cü il iyunun ilk günlərində müstəqilliyimiz, bütün Azərbaycanımız məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı, uçurum qarşısında idi. Bax, bu fəlakət anında Azərbaycan xalqının, Vətənin yeganə ümid yeri, qurtuluş çırağı Heydər Əliyev idi. Müdrik xalqımız, o zaman qəti və sərrast hərəkət edərək yeganə düzgün addımı atdı – dünyanın bu böyük siyasət dahisini hakimiyyətə gətirdi. Bununla da Azərbaycanın xarici və daxili düşmənlərinin oxu daşa dəydi, bədxahlarımızın arzuları gözlərində qaldı. Bir sözlə, **1993-cü ildə** Müstəqil Azərbaycan Respublikasının tarixində yeni dövr – **Heydər Əliyev dövrü** başlandı.

Müraciətdə bu böyük tarixi həqiqət çox yığcam və adi bir cümlə ilə şərh olunub: "***1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə ölkədə hakimiyyət dəyişikliyi baş verdi və müstəqil dövlətçilik tarixinin ikinci dövrü başlandı***".

Heydər Əliyevin xalqa Müraciətində 1993-cü ilin iyun günləri ərəfəsindəki tarixi şərait, o zaman xalqımız və ölkəmiz qarşısında duran olduqca mürəkkəb vəzifələr, onun öz rəhbərliyi altında az vaxt içərisində görülmüş çox böyük və mühüm işlər bütün reallığı ilə öz əksini tapmışdır: ***"1993-cü ilin iyunundan başlayaraq, ilk növbədə, hakimiyyət boşluğu aradan qaldırıldı, respublikanın müxtəlif bölgələrində baş qaldırmış separatçı qüvvələr və parçalanma meyilləri sağlam düşüncəli vətəndaşların, xalqın böyük əksəriyyətinin fəal köməyi ilə zərərsizləşdirildi, vətəndaş müharibəsi təhlükəsinin qarşısı alındı. Ayrı-ayrı şəxslərə və siyasi qruplaşmalara xidmət edən silahlı birləşmələr ləğv edilməyə başladı, Azərbaycan dövlətçiliyinə, müstəqilliyə, ərazi bütövlüyünə qəsdlər təşkil edən cinayətkar ünsürlər cəmiyyətdən təcrid edildi və cəzalandırıldı. Dövlət qurumları ilə xalqın birliyi, yekdilliyi təmin edildi, etnik və dini mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlarda dövlətə və Vətənə mənsubluq hissləri aşılanmağa başlandı***".

Müstəqillik tariximizin – 1993-cü ilin iyunundan sonrakı dövrünün – ən mühüm nailiyyətlərindən biri də tariximizin Heydər Əliyev konsepsiyasının formalaşmasının başa çatmasıdır. Əsrin, minilliklə-

rin qovşağında dünyanın bütün azərbaycanlılarına Müraciətdə **Böyük Azərbaycanlı** həmvətənlərimizə, bütün soydaşlarımıza bu sahədə əldə olunanları, tarix elmimizin və tarixi tədqiqatların əsas məram və prinsiplərini belə bəyan edir: ***"Müstəqil dövlətimiz üçün taleyüklü məsələlərin həyata keçirilməsi tariximizin bir çox qaranlıq səhifələrini açmaqla kimliyimizi tam müəyyən etməyi, milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəsil yetişdirilməsini zəruri edir. Keçid dövrünün çətinliklərinə, ağır proseslərinə baxmayaraq, biz öz tarixi keçmişimizin çox dəyərli səhifələrini qısa bir müddətdə açа bilmiş və xalqa göstərməyə nail olmuşuq. Xalqımızın hər bir övladı öz tarixi keçmişini, varisi olduğu mədəni irsi daha dərindən öyrənərək böyük qürur hissi duymağa başlayır və sözsüz ki, bununla fəxr edir"***.

Dünyanın çoxsaylı xalqlarından, türk dünyasının isə ən böyük xalqlarından biri olan Azərbaycan xalqına müasir dünyada özünün çox mürəkkəb problemlərini həll etmək, qədəm qoyduğumuz XXI yüzillikdə və Üçüncü minillikdə taleyüklü sınaqlardan zəfərlə çıxa bilməkdən ötrü ağır vəziyyətlərə duruş gətirmək psixologiyası, məğlubedilməzlik ruhu, tarixi keçmişimizin qəhrəmanlıq səhifələrini dirçəltmək əzmkarlığı aşılamaq son dərəcə vacibdir. Bu gün hər bir yurddaşımız öz tarixini daha dərindən öyrənməli, ona yiyələnməli, keçmişdə baş vermiş acı səhvlərin bir daha təkrar olunmasına yol verməmək ruhu ilə yaşamalıdır. Bu baxımdan, **Ulu Öndər Heydər Əliyevin** «Azərbaycan XXI əsrin və Üçüncü minilliyin ayrıcında» adlı Müraciəti **xalqımızı, dünyanın müxtəlif guşələrinə səpələnmiş bütün azərbaycanlıları, hər bir soydaşımızı, ilk öncə Azərbaycan gəncliyini yeni – böyük Azərbaycan intibahına səsləyən çağırış oldu!**

Heydər Əliyevin «**Azərbaycan XXI əsrin və Üçüncü minilliyin ayrıcında**» adlı **Müraciəti** Azərbaycan tarixinin Dirçəliş Konsepsiyasıdır və Vətən təəssübkeşli tarixçimiz üçün istiqamət verən, yol göstərən əsərdir.

Tariximizin Heydər Əliyev Dirçəliş Konsepsiyası Prezident İlham Əliyevin Azərbaycan tarixinə konseptual baxışının elmi-nəzəri və ideoloji əsaslarını təşkil edir. Yaradıcı Prezident olan İlham Əliyev

bu konsepsiyanı dəyişən dünyanın tələblərinə və çağırışlarına uyğun olaraq daha da təkmilləşdirir və yaradıcılıqla həyata keçirir.

Tariximizin Heydər Əliyev Dirçəliş Konsepsiyası, bu Konsepsiyanı yaradıcılıqla təkmilləşdirən və həyata keçirən Prezident İlham Əliyevin Azərbaycan tarixinə konseptual baxışı, tariximizin Azərbaycançılıq ruhunda və obyektiv tədqiqi istiqamətində verdiyi tövsiyə və tapşırıqlar, tarix elminin inkişafına göstərdiyi böyük qayğı Azərbaycan tarixçisinin Ana Yasasıdır.

## Prezident İlham Əliyevin tariximizə konseptual baxışının dövlətçilik əsası: Azərbaycanın dövlətçilik tarixi ənənələri

Prezident İlham Əliyevin Azərbaycan tarixinə konseptual elmi baxışı xalqımızın ən qədim və zəngin dövlətçilik ənənələrinə əsaslanır. İlham Əliyevin tariximizin istənilən taleyüklü problemlərinə münasibətdə sərrast və prinsipial mövqeyi, onun tariximizin ayrı-ayrı dövrlərdə qəsdən və bəd niyyətlərlə saxtalaşdırılmış və təhrif olunmuş məsələlərinin yenidən araşdırılması ilə bağlı tarixçilərə verdiyi çox mühüm və konkret tapşırıqlar aydın göstərir ki, ölkə başçısı doğma tariximizi, xalqımızın zəngin keçmişini, onun yaratdığı təkrarsız mədəni irsi, həmçinin ayrı-ayrı dövrlərdə başımıza gətirilmiş fəlakətləri dərindən bilir. Məhz qədim və zəngin dövlətçilik tariximizi dərindən bildiyi üçündür ki, Prezident İlham Əliyev Tarix İnstitutuna konkret elmi tədqiqat tapşırıqları verir, onun təşəbbüsü ilə yazılan əsərlərin xarici dillərə tərcümə olunub yayılmasına xüsusi diqqət yetirir. Ölkə başçısı dövlətçilik tariximizin müstəqillik dövrünün tələbləri ruhunda yenidən araşdırılmasına xüsusi önəm verir ki, bu da təsadüfi deyil. XX yüzilliyin sonunda öz tarixi torpaqlarının bir hissəsində yenidən müstəqilliyə qovuşmuş Azərbaycan xalqı qədim və zəngin dövlətçilik tarixinə malikdir.

Şimaldan – Baş Qafqaz dağları, qərbdən – Göyçə gölü hövzəsi də daxil olmaqla, Alagöz dağ silsiləsi və Şərqi Anadolu, şərqdən –

Xəzər dənizi, cənubdan isə Sultaniyyə-Zəncan-Həmədan hüdudları ilə əhatə olunan tarixi Azərbaycan torpaqları müasir sivilizasiyanın inkişafa başladığı ən qədim mədəniyyət mərkəzlərindən biridir. Hazırda Anadolu türklərindən sonra dünyanın ikinci böyük türk xalqı olan Azərbaycan xalqı bu ərazidə – tarixi Azərbaycan torpaqlarında zəngin və özünəməxsus bir mədəniyyət, o cümlədən dövlətçilik ənənələri yaratmışdır. Ulu Öndər Heydər Əliyevin qeyd etdiyi kimi, ***"… Biz nadir bir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır".***

Xalqımızın ulu babalarının yaşadığı tarixi Azərbaycan torpaqları ən qədim sivilizasiyaların ayaq açıb yeriməyə başladığı Xəzər – Aralıq dənizi – İran körfəzi regionuna daxil idi. Azərbaycan xalqının təşəkkülündə iştirak etmiş qədim etnoslar bu regionda yaranmış qədim mədəni mühitin, o cümlədən Şumer–Babil mədəniyyətinin formalaşmasında, həmçinin bütövlükdə Yaxın və Orta Şərqin hərbi-siyasi həyatında, qədim dövlətçilik tarixində çox mühüm rol oynamışlar. Bunu ölkəmizdə və xaricdə aparılan elmi axtarışlar, xüsusən də arxeoloji qazıntılar çox aydın sübut edir.

Azərbaycan ərazisi bu diyarın dünyanın ən qədim insan məskənlərindən biri olduğunu sübut edən arxeoloji abidələrlə son dərəcə zəngindir. Azıx, Tağlar, Damcılı, Daşsalahlı, Qazma (Naxçıvan) mağaralarında, habelə başqa abidələrdə aşkar olunan arxeoloji tapıntılar, o cümlədən 300–400 min il bundan əvvəl yaşamış Aşöl dövrünə aid qədim insanın – Azıx adamının (Azıxantrop) çənə sümüyü Azərbaycanın ibtidai insanların formalaşdıqları əraziyə daxil olduğunu sübut edir. Bu nadir tapıntıya görə Azərbaycan ərazisi «Avropanın ən qədim sakinləri» xəritəsinə daxil edilmişdir.

Azərbaycan xalqı, eyni zamanda dünyanın ən qədim dövlətçilik ənənələrinə malik olan xalqlarındandır. Azərbaycan xalqı təqribən 5 min illik dövlətçilik tarixinə malikdir. Azərbaycan ərazisində ilk dövlət qurumları və ya etnik-siyasi birliklər hələ eramızdan əvvəl

IV minilliyin sonu–III minilliyin əvvəllərindən başlayaraq Urmiya hövzəsində yaranmışdı. Burada meydana gəlmiş ən qədim Azərbaycan dövlətləri bütün regionun hərbi-siyasi tarixində mühüm rol oynayırdılar. Urmiya ətrafından başlayaraq, zaman-zaman Dəclə və Fərat vadiləri də daxil olmaqla, İran körfəzinə qədərki əraziləri idarə edən qədim Azərbaycan dövlət qurumları Lullubi və Qutilər təkcə Azərbaycanın deyil, ümumiyyətlə, qədim Şərq dövlətçiliyinin tarixində də dərin iz qoymuşlar.

Eramızdan əvvəl I minillikdə – bizim eranın I minilliyinin əvvəllərində Azərbaycan torpaqlarında Manna, İskit (Skit, Skif) şahlığı, Atropatena və Albaniya kimi qüvvətli dövlətlər mövcud olmuşdur. Bu dövlətlər Azərbaycanda dövlət idarəçiliyi mədəniyyətinin daha da yüksəlməsində, ölkənin iqtisadi-mədəni, etnik-siyasi tarixində, eləcə də vahid xalqın təşəkkülü prosesində mühüm rol oynamışlar.

VII əsrdə islam dininin qəbul olunması ilə Azərbaycanın tarixi müqəddəratında əsaslı dönüş yarandı. İslam dini vahid xalqın və dilin təşəkkülünə güclü təkan verdi, bu prosesin sürətlənməsinə həlledici təsir göstərdi. Türk və qeyri-türk etnosları arasında dini birliyin yaranması onların yayıldığı bütün Azərbaycan ərazisində vahid adət-ənənələrin təşəkkülünə, qohumluq əlaqələrinin genişlənməsinə, qaynayıb-qarışma prosesinin daha da dərinləşməsinə səbəb oldu. İslam dini onu qəbul etmiş bütün türk və qeyri-türk etnoslarını Cənubi Qafqazı bütöv halda xristianlığın təsir dairəsinə salmağa çalışan Bizans imperiyasına və onun himayə etdiyi erməni və gürcü feodallarına qarşı vahid türk-islam bayrağı altında birləşdirdi.

Xilafət dağıldıqdan sonra – IX əsrin ortalarından Azərbaycanın qədim dövlətçilik ənənələri yenidən dirçəldi. Azərbaycanda yeni siyasi dirçəliş başlandı: islam dininin yayılmış olduğu Azərbaycan torpaqlarında Sacilər, Şirvanşahlar, Salarilər, Rəvvadilər, Şəddadilər dövlətləri yarandı. Bəhs olunan dövrdə Azərbaycanın şimal-qərbində – İslamın sərhəd şəhəri olan Tiflisəqədərki Azərbaycan torpaqlarında isə Şəki dövləti meydana gəldi. Şəkidən qərbdə paytaxtı Tiflis olan daha bir müsəlman dövləti – Tiflis müsəlman əmirliyi də vardı.

Şəki hakimləri Albaniya hökmdarı titulunu daşıyır və Albaniya dövlətinin varisləri kimi çıxış edirdilər.

Müstəqil dövlətlərin yaranması nəticəsində siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində oyanış baş verməkdə idi. Azərbaycan tarixinin İntibah dövrü başlanırdı.

IX əsrin 70-ci illərinin sonlarından başlayaraq yarım əsrdən çox davam edən bir tarixi dövr ərzində (879–941) Azərbaycan torpaqlarının hamısının vahid Azərbaycan türk dövlətinin – Sacilər dövlətinin tərkibində olması bütün ölkə miqyasında iqtisadi və mədəni əlaqələrin daha da dərinləşməsinə, etnik fərqlərin aradan qalxması və vahid Azərbaycan türk xalqının formalaşması prosesinin daha da sürətlənməsinə müsbət təsir göstərdi. Sacilər dövləti özünün ən qüdrətli çağlarında Zəncandan Dərbəndə, Xəzər sahillərindən Ani və Dəbil şəhərlərinə qədər geniş əraziləri əhatə edirdi. Bütün Azərbaycan torpaqları Sacilər dövlətinin tərkibinə daxil idi. Məhz bu dövrdə Azərbaycan və ümumtürk ədəbiyyatının şah əsəri olan "Kitabi-Dədə Qorqud" dastanları, demək olar ki, bütün Azərbaycan torpaqlarında yayıldı.

***"Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının milli sərvətidir. Bu əsərdə Azərbaycan xalqının keçmiş həyat tərzi, məişəti, psixologiyası əks olunmuşdur. Əsərin qəhrəmanlarının adlarını Azərbaycanın çoxsaylı yaşayış məntəqələrində görmək olar. Bu əsərdə Azərbaycan toponimləri əks olunmuşdur. Bir sözlə, "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan xalq ədəbiyyatının yazılı abidəsidir. Bu dastan hər bir azərbaycanlı üçün əzizdir. Bu gün bu abidənin ucaldılması Azərbaycan xalqının bir daha öz tarixi keçmişinə, mədəniyyətinə olan münasibətinin təzahürüdür" (İlham Əliyev).***

XI əsrin ortalarında Yaxın və Orta Şərq tarixində mühüm dönüş dövrü başlandı. Orta Asiyadan Aralıq dənizi sahillərinə və Dərbənd keçidindən İran körfəzinə qədər geniş əraziləri əhatə edən Böyük Səlcuq imperatorluğu yarandı. Azərbaycan növbəti oğuz-türk dövlətinin – Səlcuq imperatorluğunun tərkibinə daxil edildi. Səlcuq dövrü Azərbaycanın tarixi müqəddəratında həlledici rol oynadı. Səlcuq axınları nəticəsində oğuz türkləri, ümumiyyətlə, türklük bütün

Cənubi Qafqazda və Ön Asiyada, qəti olaraq, başlıca etnik-siyasi amilə çevrildi. Türk-islam amili bütün Yaxın və Orta Şərqin, o cümlədən Qafqazın bundan sonrakı tarixində uzun müddət müəyyənedici rol oynadı. Səlcuq axınları zamanı oğuz türklərinin yeni-yeni toplumları Azərbaycanda məskən saldılar. Eyni kökdən olan və islamı qəbul etmiş oğuz-səlcuq türkləri ilə Azərbaycan türkləri tez bir zamanda qaynayıb-qarışdılar. Beləliklə, müxtəlif tarixi dövrlərdə soykökündə, başlıca olaraq, iskit, sak, massaget, hun, bulqar, xəzər, barsil, peçeneq, suvar, habelə başqa türk və qeyri-türk etnoslarının iştirak etdiyi və oğuz türklərinin həlledici rol oynadığı Azərbaycan xalqının təşəkkülü prosesi başa çatdı. Azərbaycan türk dili bütün Cənubi Qafqazda, o cümlədən Azərbaycan ərazisində başlıca ünsiyyət vasitəsinə çevrildi.

Böyük Səlcuq imperatorluğunun süqutundan sonra qüvvətlənən Şirvanşahlar və Eldənizlər dövlətləri Azərbaycan xalqının dövlətçilik ənənələrinin davam etdirilməsində və daha da yüksəlişində mühüm rol oynadılar. Yaxın və Orta Şərqin ən qüdrətli dövlətinə çevrilən Azərbaycan Eldənizlər dövləti Azərbaycan xalqının etnik-siyasi tarixində xüsusilə böyük rol oynadı. Eldənizlərin hakimiyyəti dövründə bütün Azərbaycan torpaqlarının vahid dövlətin tərkibində birləşdirilməsi iqtisadi, siyasi və mədəni həyatın bütün sahələrində güclü yüksəlişə səbəb oldu.

Beləliklə, Ərəb xilafətinin tənəzzülündən sonra – IX əsrin ortalarından başlayaraq Qafqazda, habelə bütün Yaxın və Orta Şərqdə türk-islam imperiyalarının rolu artdı. Sacilər, Şirvanşahlar, Salarilər, Rəvvadilər, Şəddadilər, Şəki hakimləri, Səlcuqlar, Eldənizlər, Monqollar, Elxanilər-Hülakular, Çobanilər, Cəlayirlər, Teymurilər, Osmanlılar, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Əfşarlar, Qacarlar və başqa türk-islam sülalələrinin idarə etdikləri dövlətlər təkcə Azərbaycanın, həmçinin bütövlükdə Cənubi Qafqazın deyil, eyni zamanda bütün Yaxın və Orta Şərqin dövlətçilik tarixində dərin iz qoydular. Azərbaycan uzun zaman bu dövlətlərin əksəriyyətinin mərkəzi vilayəti, Təbriz isə paytaxtı oldu.

XV–XVIII əsrlərdə Azərbaycanın dövlətçilik mədəniyyəti daha da zənginləşdi. Bu dövrdə Şərqin geniş ərazili Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Əfşar və Qacar imperiyaları bilavasitə Azərbaycan sülalələri tərəfindən idarə olunurdu. Bu mühüm amil Azərbaycanın daxili və beynəlxalq əlaqələrinə müsbət təsir göstərir, ölkəmizin və xalqımızın hərbi-siyasi təsir dairəsini, Azərbaycan dilinin fəaliyyət meydanını genişləndirir, Azərbaycan xalqının maddi və mənəvi mədəniyyətinin daha da inkişaf etməsinə əlverişli şərait yaradırdı. Bəhs olunan dövrdə Azərbaycan dövlətləri Yaxın və Orta Şərqin beynəlxalq münasibətlərində, hərbi-siyasi həyatında mühüm rol oynamaqla yanaşı, Avropa–Şərq münasibətlərində də çox fəal iştirak edirdilər.

Azərbaycanın böyük dövlət xadimi Uzun Həsənin (1468–1478) hakimiyyəti illərində Ağqoyunlu imperiyası bütün Yaxın və Orta Şərqdə qüdrətli hərbi-siyasi amilə çevrildi. Azərbaycanın dövlətçilik mədəniyyəti daha da inkişaf etdi. Uzun Həsən bütün Azərbaycan torpaqlarını əhatə edən güclü mərkəzləşdirilmiş dövlət yaratmaq siyasəti yeridirdi. Uzun Həsən dövründə Azərbaycanın Şərq-Qərb əlaqələrindəki rolu daha da artmışdı.

XV əsrin sonu – XVI əsrin əvvəllərində Azərbaycan dövlətçiliyi özünün tarixi təkamülündə yeni mərhələyə qədəm qoydu. Uzun Həsənin nəvəsi görkəmli dövlət xadimi Şah İsmayıl Xətai şimallı-cənublu bütün Azərbaycan torpaqlarını öz hakimiyyəti altında birləşdirə bildi. Paytaxtı Təbriz şəhəri olan vahid, mərkəzləşdirilmiş Azərbaycan dövləti – Səfəvi dövləti meydana gəldi. Səfəvilərin hakimiyyəti dövründə Azərbaycanın dövlət idarəçiliyi mədəniyyəti daha da yüksəldi. Azərbaycan dili dövlət dilinə çevrildi. Şah İsmayıl, Şah Təhmasib, Şah Abbas və digər Səfəvi hökmdarlarının həyata keçirdikləri uğurlu islahatlar, daxili və xarici siyasət nəticəsində Səfəvi dövləti Yaxın və Orta Şərqin ən qüdrətli imperiyalarından birinə çevrildi.

Səfəvi dövlətinin süqutundan sonra hakimiyyətə gələn görkəmli Azərbaycan sərkərdəsi Nadir şah (1736–1747) keçmiş Səfəvi imperiyasının sərhədlərini daha da genişləndirdi. Azərbaycanın əfşar-türk

QUBA SOYQIRIMI
MEMORIAL KOMPLEKSI

elindən çıxmış bu böyük hökmdar 1739-cu ildə Dehli də daxil olmaqla, Şimali Hindistanı da ələ keçirdi. Lakin Azərbaycan hökmdarının bu geniş ərazidə qüdrətli mərkəzləşdirilmiş dövlət yaratmaq planları baş tutmadı. Nadir şahın ölümündən sonra onun idarə etdiyi geniş ərazili imperiya süquta uğradı. Hələ Nadir şahın sağlığında ikən azadlıq mübarizəsinə qalxan və müstəqilliyə can atan Azərbaycan torpaqlarında yerli dövlətlər yarandı. Beləliklə, XVIII əsrin ikinci yarısında Azərbaycan xırda dövlətlərə – xanlıqlara və sultanlıqlara parçalandı. Ölkənin hərbi-siyasi tənəzzül dövrü başlandı. Azərbaycanın qədim dövlətçilik ənənələrini yaşatmağa çalışan ayrı-ayrı xanlar bütün ölkəni yenidən vahid dövlət çərçivəsində birləşdirməyə cəhd etsələr də, bu heç bir nəticə vermədi.

XVIII əsrin sonunda Azərbaycan sülaləsi olan Qacarlar (1796–1925) İranda hakimiyyətə gəldilər. Qacarlar vaxtilə onların ulu babaları Qaraqoyunluların, Ağqoyunluların, Səfəvilərin və nəhayət, Nadir şahın hakimiyyəti altında olmuş bütün əraziləri, o cümlədən Azərbaycan xanlıqlarını yenidən mərkəzi hakimiyyətə tabe etmək siyasəti yeritməyə başladılar. Beləliklə, Qacarlarla Cənubi Qafqazı işğal etməyə çalışan Rusiya arasında uzunsürən müharibələr dövrü başlandı. Azərbaycan iki böyük dövlət arasında qanlı müharibələr meydanına çevrildi. Rusiya tərəfindən ərazi vədləri ilə şirniləndirilərək hərbi əməliyyatlara başçılıq edən erməni və gürcü mənşəli generallar əllərinə düşmüş fürsətdən istifadə edərək Azərbaycanın dinc əhalisinə qarşı dəhşətli soyqırımları törətdilər. Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinə əsasən Azərbaycan iki imperiya arasında bölüşdürüldü: Şimali Azərbaycan Rusiyaya, Cənubi Azərbaycan isə Qacarların idarə etdiyi İran şahlığına qatıldı.

Rusiya Şərqə doğru daha da irəliləmək, isti dənizlərə yol açmaq üçün azərbaycanlıları Qafqazdan sıxışdırıb çıxarmaq siyasəti yeritməyə başladı. Bunun üçün, ilk növbədə, Cənubi Qafqazın xristian əhalisinə – ermənilərə və gürcülərə arxalandı, Azərbaycanın xristian-alban əhalisindən istifadə etdi. Rusiya Cənubi Qafqazda özünə dayaq yaratmaq üçün işğal etdiyi Azərbaycan torpaqlarına, xüsusən

Qarabağın dağlıq rayonlarına, keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisinə qonşu ölkələrdən kütləvi surətdə erməni əhalisi köçürdü. Türkiyə ilə həmsərhəd olan Qərbi Azərbaycan torpaqlarında––keçmiş İrəvan, Naxçıvan xanlıqlarının ərazisində süni surətdə və xüsusi məqsədlə «Erməni vilayəti» yaradıldı. Bununla, Azərbaycan torpaqlarında gələcək erməni dövlətinin əsası qoyuldu. Ermənilərin azərbaycanlılara qarşı yeni ərazi iddialarının əsası qoyuldu. Bütün bunlarla kifayətlənməyən çar Rusiyası daha çirkin siyasətə də əl atdı: erməniləri silahlandıraraq türk-müsəlman əhali üzərinə qaldırdı və azərbaycanlılara qarşı kütləvi qırğınlar törədilməsinə başlandı.

Çox çəkmədən, müstəqil yaşamaq ənənələrinə malik olan Azərbaycan xalqının həm şimalda, həm də cənubda azadlıq mübarizəsi gücləndi. Rusiyada Birinci rus inqilabı (1905–1907), İranda isə 1905–1911-ci illər inqilabı dövründə Azərbaycan xalqı özünün müstəqil dövlətçiliyini bərpa etmək, demokratik idarəçilik sistemi yaratmaq uğrunda mübarizə aparırdı.

Birinci Dünya müharibəsi dövründə Azərbaycan xalqı həm şimalda, həm də cənubda öz milli dövlətçilik ənənələrini dirçəltmək üçün yenidən ayağa qalxdı. Şimali Azərbaycanda azadlıq mübarizəsi misli görünməmiş faciələrlə nəticələndi. Burada hakimiyyəti ələ keçirən S.Şaumyanın daşnak-bolşevik hökuməti 1918-ci ilin martında azərbaycanlılara qarşı dəhşətli soyqırımı həyata keçirdi. Qardaş Türkiyə Azərbaycana kömək əlini yetirdi. Azadlıq hərəkatı qalib gəldi. 1918-ci il mayın 28-də Şimali Azərbaycanda Şərqdə ilk demokratik respublika – Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Cənubi Azərbaycanda isə müstəqil və demokratik Azadıstan dövləti («Azadıstan məmləkəti») quruldu (1920). Şeyx Məhəmməd Xiyabani Azadıstan Milli hökumətinin başçısı oldu. Hər iki Azərbaycan dövlətinin ərazisində geniş milli-demokratik islahatlar keçirilməsinə başlandı.

Beləliklə, Birinci Dünya müharibəsinin doğurduğu tarixi şəraitdən istifadə edən Azərbaycan xalqı həm şimalda, həm də cənubda özünün qədim dövlətçilik ənənələrini yenidən dirçəldə bildi, müstəqil

yaşamağa layiq və qadir xalq olduğunu daha bir kərə sübuta yetirdi. Avropa ölkələrində olduğu kimi, Azərbaycanda da parlamentli respublika tipli demokratik idarəçilik qaydalarının tətbiq olunmasına başlandı. Bu, Azərbaycan xalqının çox böyük tarixi nailiyyəti idi.

Birinci Dünya müharibəsinin gedişində «xalqlar həbsxanası» olan Rusiya imperiyasının dağılması üçün real tarixi şərait yaranarkən, Azərbaycan xalqı həm qədim dövlətçilik ənənələrinə, həm də ən müasir idarəçilik mədəniyyətinə yiyələndiyi üçün müstəqil dövlət halında yaşamağa hazır idi.

1917-ci ilin fevralında Rusiyada Romanovlar mütləqiyyəti devrildi. 1918-ci il aprelin 9-da Zaqafqaziya Seymi Zaqafqaziyanın müstəqilliyini elan etdi və Birləşmiş Zaqafqaziya Cümhuriyyəti yaradıldı. Lakin istər daxili, istərsə də xarici siyasət sahəsində kəskin milli mənafe ziddiyyətlərinin olması Zaqafqaziya Seymi və Birləşmiş Zaqafqaziya Cümhuriyyəti hökumətinin konkret addımlar atmasına imkan vermədi. Nəticədə, 1918-ci il mayın 25-də gürcü nümayəndələri Seymdən çıxdılar və ertəsi gün – mayın 26-da Gürcüstanın müstəqilliyini elan etdilər. Mayın 27-də Seymin Müsəlman Fraksiyasının, yəni Zaqafqaziya Müsəlman Şurasının üzvləri ayrıca iclaslarını keçirdilər və Azərbaycanın müstəqilliyini elan etmək qərarına gəldilər. Bu məqsədlə Zaqafqaziya Müsəlman Şurası özünü Azərbaycan Milli Şurası, daha doğrusu, Azərbaycan Parlamenti elan etdi. Bununla, əslində Azərbaycanda ilk parlament yarandı və ilk parlamentli respublikanın bünövrəsi qoyuldu. 1918-ci il mayın 27-də keçirilən həmin iclasda Azərbaycan Milli Şurasının Rəyasət Heyəti və sədri seçildi. M.Ə.Rəsulzadə Milli Şuranın sədri oldu.

Mayın 28-də Həsən bəy Ağayevin sədrliyi ilə Azərbaycan Milli Şurasının tarixi iclası keçirildi. Həmin iclasda Azərbaycanın İSTİQLAL BƏYANNAMƏSİ qəbul edildi. İstiqlal Bəyannaməsi bütün türk-müsəlman dünyasında, ümumiyyətlə, bütün Şərqdə, ilk dəfə olaraq Azərbaycanda ən demokratik respublika idarə üsulunun – parlamentli respublikanın yaradılacağından xəbər verirdi. Beləliklə, Birinci Dünya müharibəsinin gedişində və Romanovlar mütləqiyyə-

tinin devrilməsi nəticəsində yaranmış çox mürəkkəb bir tarixi şəraitdə Azərbaycanın şimal torpaqlarında dövlətçilik ənənələrimiz yenidən, özü də bu dəfə parlamentli respublika formasında dirçəldi.

***"Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisə idi. Xalqımız üçün tarixi hadisə idi. Ona görə ki, Azərbaycan xalqı əsrlər boyu arzuladığı müstəqilliyə qovuşurdu. İslam dünyası üçün də tarixi hadisə idi, ona görə ki, ilk dəfə olaraq müsəlman Şərqində demokratik respublika yaranırdı ... Bugünkü müstəqil Azərbaycan – Azərbaycan Xalq Cümhuriyyətinin varisidir" (İlham Əliyev).***

Azərbaycan Xalq Cümhuriyyəti özünün siyasi quruluşuna, həyata keçirdiyi demokratik dövlət quruculuğu tədbirlərinə, həmçinin qarşısına qoyduğu məqsəd və vəzifələrə görə də Avropanın ənənəvi demokratik respublikalarından geri qalmırdı.

Birinci Dünya müharibəsinin doğurduğu tarixi şəraitdə, Şimali Azərbaycanda olduğu kimi, Cənubi Azərbaycanda da xalq öz milli dövlətçilik ənənələrinin dirçəlişi uğrunda mübarizəyə qalxdı. Rusiyada baş verən hadisələr, Azərbaycanın şimalında azadlıq hərəkatının qələbəsi, milli dövlətçilik ənənələrinin dirçəlişi və Azərbaycan Xalq Cümhuriyyətinin həyata keçirdiyi islahatlar ölkənin cənubunda milli–azadlıq hərəkatını daha da qüvvətləndirdi.

Cənubi Azərbaycanda milli–azadlıq hərəkatına 1905–1911-ci illər İran inqilabının fəal iştirakçısı olan Şeyx Məhəmməd Xiyabani (1879–1920) başçılıq edirdi. Şeyx Məhəmməd Xiyabaninin başçılıq etdiyi azadlıq mücahidləri daxili irticaya və yadelli işğalçılara qarşı mübarizə aparmaqla bərabər, ölkə miqyasında yeniləşmə – demokratik dəyişikliklər aparılmasını tələb edir, bütün İranda xalq inqilabının qələbəsinə, şahlıq rejiminin ləğvinə və respublika tipli demokratik dövlət yaradılmasına çalışır, yeni yaradılacaq demokratik İran dövlətinin tərkibində Cənubi Azərbaycana muxtariyyət verilməsi uğrunda mübarizə edirdilər. Cənubi Azərbaycan əhalisinin vahid cəbhə halında azadlıq mücadiləsinə qalxmasında Azərbaycan Demokrat Firqəsi (ADF) mühüm rol oynayırdı. ADF-nin Mərkəzi Komitəsinə Şeyx Məhəmməd Xiyabani rəhbərlik edirdi.

1920-ci il aprelin 7-də Şeyx Məhəmməd Xiyabaninin rəhbərliyi ilə Təbrizdə silahlı üsyan başlandı. Bütün Təbriz əhalisi üsyançıların müdafiəsinə qalxdı. Üsyanı yatırtmaq üçün mərkəzdən göndərilmiş polis dəstələri buna cəsarət göstərməyərək şəhəri tərk etdilər. Xalqın misli görünməmiş fəallığı nəticəsində 1920-ci ilin 7 Aprel üsyanı qan tökülmədən qalib gəldi. Üsyanın qalib gəldiyi 7 Aprel günü xalq qarşısında çıxış edən Şeyx Məhəmməd Xiyabani həmin gündən etibarən Azərbaycanın adının dəyişdirilərək «Azadıstan» («Azadlıq ölkəsi») adlandırılacağını bəyan etdi.

1920-ci il iyunun 23-də Təbrizdə Ş.M.Xiyabaninin başçılığı ilə Milli Hökumət yaradıldı. ADF fəallarından ibarət olan Milli Hökumətin tərkibi əhalinin müxtəlif təbəqələrinin nümayəndələrindən ibarət idi. Milli Hökumətin fəaliyyətə başladığı 24 İyun günü Təbrizdə ümumxalq bayramına çevrildi. Bu, faktiki olaraq, Cənubi Azərbaycanda mürtəce şahlıq rejiminin – İran hakimiyyətinin devrilməsi və milli dövlətçilik ənənələrinin dirçəlişi demək idi. Şeyx Məhəmməd Xiyabaninin başçılıq etdiyi Milli Hökumət isə müstəqil demokratik respublika funksiyasını yerinə yetirirdi. Milli Hökumətin həyata keçirdiyi bütün tədbirlərin, habelə nəzərdə tutulan islahatların özü də, əslində Cənubi Azərbaycanda Respublika tipli müstəqil, demokratik dövlət yaradılmasına yönəlmişdi. Yaradılmaqda olan müstəqil Azərbaycan dövləti Azadıstan Məmləkəti adlanırdı. Buna müvafiq olaraq bütün rəsmi sənədlərdə, blanklarda, habelə nazirliklərin, idarə və müəssisələrin adı əks olunan lövhələrdə Azərbaycan adı «Azadıstan»la əvəz olundu.

Cənubi Azərbaycanda milli–azadlıq hərəkatı dərinləşməkdə idi. Azərbaycan xalqı, faktiki olaraq, özünün respublika tipli demokratik dövlətini yaratmağa başlamışdı. Azadıstan Məmləkətinin uğurları bütün İranı hərəkətə gətirmişdi. Lərzəyə düşən şahlıq rejimi, həmçinin, İranı öz asılılığında saxlamağa çalışan və Bakı neftinə can atan ingilislər real təhlükə qarşısında qalmışdılar. Odur ki, İran irticası və ona yaxından kömək edən ingilislər Tehranda Milli Hökumətə qarşı qəsd hazırlamağa başlamışdılar. Tehran rejimi, bir tərəf-

dən, Milli Hökumətin başını qarışdırmaq üçün Ş.M.Xiyabani ilə danışıqlar aparır, müxtəlif vədlər verir, digər tərəfdən isə Təbrizə hücum planı hazırlayırdı. Bütün hazırlıq işləri başa çatdırıldıqdan sonra 1920-ci il sentyabrın 12-də təpədən dırnağadək silahlanmış irtica qüvvələri Təbrizə hücum etdilər. Təbriz üsyançıları iki gün ərzində qəhrəmancasına müqavimət göstərdilər. Lakin sayca çox olan və yaxşı silahlanmış nizamlı hökumət qüvvələri üstünlüyü ələ ala bildi. Sentyabrın 14-də Xiyabani öldürüldü və üsyan qan içərisində boğuldu.

Beləliklə, Şimali Azərbaycanda Sovet Rusiyasının qanlı bolşevik rejimi Azərbaycan Xalq Cümhuriyyətinin varlığına son qoyduğu kimi, Cənubi Azərbaycanda da İranın irticaçı şahlıq rejimi Azadıstan Məmləkətini qan içində boğdu. Vaxtilə Gülüstanda və Türkmənçayda Azərbaycanı öz aralarında iki yerə parçalamış qüvvələr onun azadlığa çıxmasına yol vermədilər. Yenə də Azərbaycanın şimalı Rusiyanın, cənubu isə İranın tərkibində qaldı. Sovet Rusiyasının hərbi təcavüzü nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. Şimali Azərbaycanda müstəqil Azərbaycan dövlətçiliyinə son qoyuldu. 1920-ci il aprelin 28-də Cümhuriyyət ərazisində Azərbaycan Sovet Sosialist Respublikasının (Azərbaycan SSR) yaradıldığı elan olundu.

Sovet işğalından dərhal sonra ölkədə Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmış müstəqil dövlət idarəçiliyi sisteminin dağıdılmasına başlandı. Ölkədə bütün hakimiyyətin Müvəqqəti İnqilab Komitəsinin və Azərbaycan SSR Xalq Komissarları Sovetinin əlinə keçdiyi elan olundu. Cümhuriyyətin hakimiyyət strukturlarını dağıtmaq üçün Azərbaycanın hər yerində inqilab komitələri yaradıldı və onlara föqəladə səlahiyyətlər verildi. 1918-ci ilin Mart soyqırımından sonra, faktiki olaraq, Azərbaycan xalqına qarşı yeni soyqırımına başlandı.

Bolşevik rejimi müstəqil dövlətçilik ənənəsini, milli mənlik ruhunu əhalinin şüurundan çıxarmaq üçün xalqın mənəviyyatına qarşı da hücuma keçdi. Cümhuriyyət dövründə dövlət dili olan Azərbaycan dili sıxışdırıldı. Milli kadrlar hazırlanması kəskin surətdə

məhdudlaşdırıldı. Ruslaşdırma siyasətinə başlandı. Azərbaycan xalqı özünün müstəqil hakimiyyətindən məhrum edildikdən sonra onun sərvətlərinin talan olunmasına başlandı. Xalqın öz sərvətlərinə mülkiyyət hüququndan məhrum edilməsi milli müstəqillik şüurunun da zəifləməsinə səbəb oldu. Sənaye istehsalı və iqtisadiyyatın idarə olunması, başlıca olaraq, rusların, ermənilərin, yəhudilərin və qeyri- millətlərin nümayəndələrinin əlində cəmləşdirildi. Azərbaycanın sərvətləri, xüsusilə Bakı nefti talan olunaraq Rusiyaya daşınmağa başladı.

Bununla belə, işğalçılar Azərbaycan xalqının müqavimətini asanlıqla qıra bilmədilər. 1920-ci il mayın 25-26-da bolşevik rejiminə qarşı Gəncədə silahlı üsyan baş verdi. Gəncə üsyanından sonra, iyunun əvvəlində işğalçılara Qarabağda da inadlı müqavimət göstərildi. Erməni-daşnak dəstələri burada da işğalçılara fəal kömək göstərdilər və dinc azərbaycanlı əhaliyə divan tutdular. İyunun 6-da Zaqatala əhalisi də işğalçılara qarşı ölüm-dirim savaşına başladı. Bütün bölgə ayağa qalxdı. Lakin yeni-yeni hərbi qüvvələrlə möhkəmləndirilən XI Qırmızı Ordu hissələri, nəhayət, iyunun 18-də Zaqatalanı nəzarət altına ala bildilər. Gəncə, Qarabağ, Zaqatala üsyanlarının ardınca Azərbaycanın, demək olar ki, bütün bölgələrində – Şəmkir, Quba, Dəvəçi, Qusar, Lənkəran, Astara, Kürdüstan, Cavanşir, Qutqaşın, Xaçmaz, Naxçıvan, Ordubad, Şərur və başqa yerlərdə işğalçılara güclü müqavimət göstərildi. Şəmkirdə işğalçı XI Qırmızı Orduya qarşı döyüşlərdə, hətta qadınlar və uşaqlar da iştirak edirdilər.

İşğalçılara qarşı bütün ölkənin ayağa qalxması, xalqın inadlı müqaviməti bir daha göstərdi ki, istiqlal ruhunu, müstəqil dövlətçilik ənənələrini Azərbaycan xalqının əlindən almaq asan məsələ deyildir. Müqavimət hərəkatının daha da qüvvətlənəcəyindən qorxuya düşən Rusiya hökuməti Azərbaycana yeni diviziyalar yeritdi. Azərbaycan xalqını irəlidə daha dəhşətli faciələr gözləyirdi.

1920–30-cu illərdə milli müstəmləkəçilik siyasəti daha da gücləndirildi və amansızlaşdırıldı. Yeni sosialist iqtisadiyyatının yaradılması prosesində, xüsusilə birtərəfli sənayeləşdirmə və zorakı kollektivləşdirmə nəticəsində Azərbaycan iqtisadiyyatı tamamilə mərkəz-

dən asılı hala salındı. Mərkəzdən yeridilən iqtisadi siyasət mahiyyətcə Azərbaycanın iqtisadi müstəqilliyinin tamamilə aradan qaldırılmasına yönəlmişdi. Bu siyasətin əsas məqsədi ölkənin xammal mənbəyinə və yardımçı istehsal diyarına çevrilməsindən ibarət idi. Xalqın milli-mənəvi dəyərlərinə də hücumlar artdı. Süni maneələrlə milli kadrların yetişdirilməsinin qarşısı alınır, kənardan Azərbaycana rus, erməni, yəhudi və qeyri-millətlərdən olan əhalinin axınına hər cür şərait yaradılır, onlar müvafiq işlə və Bakı şəhərinin ən yaxşı yerlərində mənzillə təmin olunurdular. Açıq-aşkar ruslaşdırma və ermənilşdirmə siyasəti yeridilirdi.

Bu dövrdə – 1923-cü il iyunun 7-də Stalinə arxalanan Orconikidze və Kirovun təzyiqi ilə Azərbaycan MİK Azərbaycan SSR tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) yaradıldığını elan etdi. Nəhayət, 1923-cü il iyunun 27-də RK(b)P-nin Cənubi Qafqaz Ölkə Komitəsinin plenumu Dağlıq Qarabağ barədə RK(b)P Qafqaz bürosunun 5 iyun 1921-ci il tarixli qərarını təsdiq etdi. Bununla, ermənilər və onların Moskvadakı himayəçiləri Azərbaycana qarşı gələcəkdə yeni ərazi iddiası irəli sürmək üçün «zəmin» hazırladılar. Lakin vaxtilə Türkiyənin fəal köməyi sayəsində hüquqi statusu Azərbaycanın xeyrinə həll olunmuş Naxçıvanla əlaqədar ermənilərin hiylələri baş tutmadı. 1924-cü il fevralın 9-da Azərbaycanın tərkibində Naxçıvan MSSR yaradıldı. Bununla belə, bolşeviklər Azərbaycan torpaqları hesabına Ermənistan SSR-in ərazisini genişləndirmək siyasətini davam etdirdilər və 1929-cu ildə Zəngilan rayonunun üç kəndini Ermənistana verdilər. Elə bu dövrdə Qanıq (Alazan) çayının sağ sahilindəki Azərbaycan torpaqlarını da gürcülər ələ keçirdilər.

Bolşevik rejimi 1930-cu illərdə Azərbaycanda daha dəhşətli repressiyalar həyata keçirdi. Azərbaycan rəhbərliyində yuva salmış və kommunist qiyafəsinə girmiş Sumbatov–Qriqoryan–Markaryan–Malyan və başqalarından ibarət olan erməni-daşnak quldurları, faktiki olaraq, Azərbaycanı azərbaycanlılardan, daha doğrusu, Azərbaycan türklərindən «təmizləməyə» başladılar. Həmin rəhbər erməni qrupunun başçılıq etdiyi kütləvi «təmizləmə» əməliyyatının əsas

icraçıları da ermənilərin özləri idi. Çünki KQB və NKVD-nin mərkəzdəki və yerlərdəki strukturları da, faktiki olaraq, ermənilərin əlində idi. Hətta Azərbaycan rayonlarının yarısından çoxunda (az qala üçdə iki hissəsində!) NKVD-nin yerli strukturlarına ermənilər başçılıq edirdilər. Bu baxımdan, bolşeviklər Rusiyanın tarixi «ənənəsini» davam etdirir, azərbaycanlıları yenə ermənilərin əli ilə qırdırırdılar, lakin yeni şəraitdə, yeni taktika ilə! Qondarma «cinayət işləri», «məhkəmələr», «xalq düşmənlərini ifşa etmək» pərdəsi altında keçirilən axtarışlar və cəza tədbirləri nəticəsində on minlərlə vətən övladı güllələndi və sürgün olundu. Təkcə 1937-ci ildə 29 min adam repressiyaya uğradı. Bu dövrdə Azərbaycan xalqı özünün Hüseyn Cavid, Mikayıl Müşfiq, Əhməd Cavad, Salman Mümtaz, Əli Nəzmi, Tağı Şahbazi və başqaları kimi onlarla mütəfəkkirlərini, nadir ziyalılarını itirdi. Xalqın zəka potensialı, onun ən qeyrətli şəxsiyyətləri məhv edildi. Bu dəhşətli zərbədən sonra Azərbaycan xalqı on illərlə özünə gələ bilmədi.

Kütləvi qırğınlar, sürgünlərlə yanaşı, xalqın milli-mənəvi dəyərləri də məhv edilirdi. «Pantürkizm» və «panislamizm» damğaları ilə xalq öz soykökündən və milli-mənəvi dəyərlərindən məhrum edilirdi. Ölkənin hər yerində «keçmişin qalıqları» elan olunmuş milli-mənəvi dəyərlərə qarşı, hətta tar və kamança əleyhinə «mədəni yürüşlər» keçirilir, dinə qarşı mübarizə məqsədilə «Allahsızlar cəmiyyətləri» fəaliyyət göstərirdi. «Formaca milli, məzmunca sosialist» mədəniyyəti yaratmaq pərdəsi altında xalqın milli-mənəvi varlığını müəyyən edən hər nə varsa, hamısı məhv edilirdi. 1920–30-cu illərin repressiyaları dövründə Azərbaycanın minlərlə ən layiqli övladları canlarını KQB zindanlarına düşməkdən qurtarıb müxtəlif xarici ölkələrə siyasi mühacirətə getməyə məcbur oldular.

Lakin nə bolşeviklər, nə də onların Cənubi Qafqaz siyasətini həyata keçirən erməni-gürcü millətçiləri nə qədər amansız repressiya tədbirlərinə əl atsalar da, nə qədər qanlı qırğınlar törətsələr də, qədim və zəngin dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqının milli-mənəvi varlığını məhv etmək iqtidarında deyildilər. İstiq-

lal ideyaları, idarə olunmaq deyil, idarə etmək əzmi Azərbaycan xalqının ruhunda yaşayırdı. Azərbaycan xalqı əvvəlki tarixi dövrlərdə də dəfələrlə bu cür ağır sınaqlardan, hətta bundan da qanlı burulğanlardan çıxmışdı. Cavidləri, Müşfiqləri, Əhməd Cavadları yetirən xalq yaşayırdı. O öz sözünü yenə deyəcəkdi!

İkinci Dünya müharibəsi illərində Azərbaycan xalqı faşizmə qarşı döyüş meydanlarında, arxa cəbhədə, həmçinin Avropanın müxtəlif ölkələrindəki antifaşist hərəkatında misilsiz qəhrəmanlıqlar göstərdi. Həmin dövrdə Azərbaycandan hərbi səfərbərliyə alınmış 600 mindən çox adamdan 170 mindən çoxu orden-medallarla təltif olundu, 130 nəfəri isə Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Müharibə dövründə Azərbaycanda akademik Yusif Məmmədəliyevin rəhbərliyi ilə hazırlanmış yeni texnologiya əsasında yüksək oktanlı aviasiya benzininin istehsalına başlandı. Bakı nefti SSRİ-nin Böyük Vətən müharibəsində qalib gəlməsində həlledici rol oynadı.

İkinci Dünya müharibəsi başa çatdıqdan sonra da şimallı-cənublu Azərbaycan xalqına qarşı repressiyalar davam etdirildi. Azərbaycanın cənubunda yaradılmış Milli Hökumət (1945-ci il 12 dekabr–1946-cı il 14 iyun) İranın mürtəce şahlıq rejimi tərəfindən devrildi. On minlərlə azadlıq mücahidi qan içində boğuldu. Azərbaycan Milli Hökumətinin həyata keçirdiyi bütün demokratik dəyişikliklər aradan qaldırıldı.

1948–1953-cü illərdə azərbaycanlıların öz ulu vətənləri olan Qərbi Azərbaycandan (Ermənistan SSR adlanan ərazidən) kütləvi surətdə sürgün olunmasının yeni mərhələsi başlandı. Erməni millətçiləri Kremldə hökmranlıq edən Stalin–Beriya–Mikoyan güruhunun «xeyir-duası»ndan ruhlanaraq Azərbaycan xalqına növbəti dəfə divan tutdular. Ermənilər Qərbi Azərbaycan torpaqlarında daha da möhkəmləndilər. Onların bu ərazidə sayca üstünlüyü təmin olundu.

Müharibədən sonrakı ilk beşilliklərdə sənaye və kənd təsərrüfatının müxtəlif sahələrində mühüm irəliləyişlər baş verdi. Mədəniyyətin inkişafında yeni addımlar atıldı. Bakı nefti SSRİ iqtisadiyyatının bərpası və inkişafında mühüm rol oynadı. Azərbaycanlı mütə-

xəssislərin əməyi sayəsində Tatarıstan, Başqırdıstan, Tümen və b. yerlərdə yeni neft yataqları kəşf olundu və istismara verildi. Azərbaycan xalqının nümayəndələri Sovet İttifaqının başqa yerlərində də iqtisadiyyatın bərpası və inkişafında fəal iştirak etdilər.

Azərbaycan xalqının qurub-yaratmaq dühası sayəsində əldə olunmuş mühüm uğurlara baxmayaraq, bir sıra obyektiv və subyektiv səbəblər üzündən 60-cı illərdə Azərbaycan iqtisadiyyatının bir çox sahələrində – həm sənayedə, həm də kənd təsərrüfatında mənfi meyillər özünü göstərməyə başladı. Respublikanın inkişafı getdikcə ləngidi və bu, əhalinin sosial vəziyyətinə məntiqi təsir göstərməyə başladı. İstehsalın, o cümlədən sənaye məhsulları istehsalının ümumi inkişaf səviyyəsinə, milli gəlirin həcminə və əmək məhsuldarlığının artım sürətinə görə Azərbaycan İttifaq səviyyəsindən geri qalırdı. Və bu gerilik getdikcə artırdı. Kənd təsərrüfatı xüsusilə ağır vəziyyətə düşmüşdü. Elmi-texniki tərəqqinin nailiyyətləri istehsalatda, demək olar ki, tətbiq olunmurdu.

Respublikanın düşdüyü bu ağır vəziyyətdə Azərbaycan rəhbərliyində mühüm dəyişiklik baş verdi. 1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbərliyinin Birinci dövrü başlandı. Doğma xalqının böyük təəssübkeşi olan Heydər Əliyev totalitar rejimin hökmranlıq etdiyi mürəkkəb tarixi şəraitdə Azərbaycanı Sovet İttifaqının ən qabaqcıl respublikalarından birinə çevirmək üçün həyatın bütün sahələrində geniş islahatlar proqramı həyata keçirməyə başladı.

***“ ... Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra biz 70 il Sovet İttifaqının tərkibində yaşamışıq. Bu tarixin də həm müsbət, həm mənfi tərəfləri vardır. Əlbəttə, Azərbaycan müstəqilliyini itirmişdi. Biz azad deyildik, azadlıqdan məhrum edilmişdik. Biz məhdud ideoloji çərçivələr içində yaşamışdıq və Azərbaycan xalqı öz taleyinin sahibi deyildi. Ancaq bununla bərabər, müsbət məqamlar da kifayət qədər çox olmuşdur. İlk növbədə, Azərbaycanda savadsızlıqla mübarizə müsbət nəticə verdi. Savadsızlıq kimi böyük bəla aradan qaldırıldı. Elmin inkişafına təkan verildi. Azərbaycanda Milli Elmlər Akademiyası yaradılmışdır və bu gün bizim elmi elitamız sovet dövründə yetişmiş insanlardır.***

***... Bir sözlə, sovet dövründə həm müsbət, həm mənfi məqamlar kifayət qədər çox idi. Ancaq bu dövrün də öz inkişaf mərhələləri var idi. Mən xüsusilə 70-ci illəri qeyd etmək istəyirəm. Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlməsindən sonra respublikada köklü dəyişikliklər baş vermişdir. O vaxta qədər biz geridə qalmış respublika idik. Amma ondan sonra inkişaf başladı. Bu inkişaf nəticəsində böyük sənaye potensialı yaradılmışdır ki, bu gün də müstəqil Azərbaycana xidmət edir. Səksəninci illərin sonlarından ölkəmizə qarşı, Azərbaycana qarşı etnik təmizləmə siyasəti başlamışdır. Azərbaycan çox böyük problemlərlə üzləşmişdir. Əlbəttə ki, mən bu barədə fikirlərimi dəfələrlə bildirmişəm və bu gün də demək istəyirəm, əgər Heydər Əliyev o vaxt xalqımız üçün həlledici məqamlarda Azərbaycanda olsaydı, bir qarış torpaq işğal altına düşməzdi ...“ (İlham Əliyev).***

Azərbaycanın XX əsr tarixinin əlli ildən çox bir dövrü Heydər Əliyev şəxsiyyəti ilə, onun böyük quruculuq fəaliyyəti ilə sıx bağlıdır. HEYDƏR ƏLİYEV YENİ AZƏRBAYCANIN QURUCUSUDUR. O, bu quruculuğa hələ XX yüzilliyin 50-ci illərindən başlamışdır.

XX əsrin uzaq 20–30-cu illərində ermənilərin və qeyri–millətlərin nümayəndələrinin yuva salmış olduğu və xalqımıza qarşı qanlı repressiyalar hazırlayıb həyata keçirmiş Dövlət Təhlükəsizlik Komitəsinin (DTK-nın) azərbaycanlılaşdırılması və xalqımızın düşmənlərindən təmizlənməsi kimi son dərəcə çətin və şərəfli işə ilk dəfə – hələ sovet rejiminin ən güclü vaxtında məhz Heydər Əliyev girişmişdir. Bu gün bütün azərbaycanlılar, o cümlədən xalqımızın hər bir nümayəndəsi aydın dərk etməli və unutmamalıdırlar ki, daşnaklar xalqımıza qarşı həyata keçirdikləri 1918-ci ilin Mart soyqırımından sonra, 1920-ci ilin sovet işğalında da yaxından iştirak etdilər. Bolşevik libası geyinmiş daşnaklar bu dəfə xalqımızı sovet hakimiyyətinin «qurucuları» cildinə girərək qırdılar. KQB-də (Dövlət Təhlükəsizlik Komitəsində) və NKVD-də (Xalq Daxili İşlər Komissarlığında) əsas mövqeləri ələ keçirdilər. Erməni «çekistləri» uydurma «cinayət işləri» qaldıraraq 20–30-cu illərdə xalqımıza qarşı kütləvi repressiyalar

həyata keçirdilər, neçə-neçə Cavidləri, Müşfiqləri – Azərbaycan xalqının qaymağını məhv etdilər. Bu baxımdan, Heydər Əliyevin KQB-ni azərbaycanlılaşdırmaq sahəsindəki xidmətləri Vətən və xalq qarşısında adi xidmətlər deyil! Başqa sözlə, Heydər Əliyev qeyrətli və milli əhvali-ruhiyyəli Vətən oğullarını Dövlət Təhlükəsizlik Komitəsinə işə cəlb etməklə, əslində xalqımızın namuslu övladlarına qarşı yönəlmiş növbəti təqiblərin qarşısını alırdı.

XX yüzilliyin 60-cı illərinin sonunda Heydər Əliyevin doğma xalqa həsr olunmuş ömür yolunda yeni, daha geniş, çoxsahəli, qaynar fəaliyyət dövrü başlandı. 1969-cu ildə – Azərbaycan SSR-də həyatın bütün sahələrində dərin tənəzzülün hökmranlıq etdiyi bir şəraitdə Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi seçildi və ölkənin ali idarəçilik sükanı arxasına keçdi. Bununla, sovet Azərbaycanının tarixində böyük dönüş dövrü başlandı. Tarixi inkişafın sonrakı gedişi sübut etdi ki, bugünkü yeni, müstəqil Azərbaycanı Heydər Əliyev hələ o zaman qurmağa başlamışdı.

Sovet rejiminin bütün xüsusiyyətlərinə dərindən bələd olan və zəngin idarəçilik təcrübəsi qazanmış Heydər Əliyev Azərbaycanı düşmüş olduğu çox ağır vəziyyətdən çıxarmaq üçün qəti addımlar atmağa başladı. O, dahiyanə uzaqgörənliklə, dərindən ölçüb-biçərək ölkənin uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks inkişaf proqramları hazırlatdı və dərhal onların icrasına başlandı. Xalq ilk addımlarındanca Heydər Əliyevi rəğbətlə qarşıladı, onu sevdi və arxasınca getdi. Azərbaycan xalqının tarixində HEYDƏR ƏLİYEV DÖVRÜ başlandı.

Heydər Əliyevin uzaqgörən siyasəti, müdrik və səriştəli rəhbərliyi nəticəsində Azərbaycan o zaman bütün Sovet İttifaqında ən qabaqcıl kənd təsərrüfatı respublikasına, o cümlədən qabaqcıl pambıqçılıq və üzümçülük diyarına çevrildi. Kənd zəhmətkeşlərinin sosial-iqtisadi vəziyyəti əsaslı surətdə yaxşılaşdı. Azərbaycan kəndində misilsiz tikinti, abadlıq və mədəni quruculuq işləri aparıldı.

Heydər Əliyevin XX yüzilliyin 70–80-ci illərinin əvvəllərində həyata keçirdiyi kompleks inkişaf proqramları nəticəsində Şimali

Azərbaycan o zaman dağılmağa başlamış böyük SSRİ məkanında qabaqcıl sənaye, kənd təsərrüfatı və mədəniyyət respublikasına çevrildi. Bu, Heydər Əliyevin məqsədyönlü, qabaqcadan götür-qoy edilmiş, dərindən ölçülüb-biçilmiş və gələcəyə istiqamətlənmiş müdrik siyasətinin, dahiyanə uzaqgörənliyinin parlaq nəticəsi idi.

Heydər Əliyev hələ o zaman müstəqil yaşadığımız bu günləri görürdü, doğma Vətənini bu günlər üçün hazırlayırdı. Böyük düha sahibi yeni Azərbaycanı – bugünkü Azərbaycanı hələ o vaxtdan qurmağa başlamışdı!

Doğma xalqı, el-obası üçün canını qoyan, elə buna görə də Moskvaya «irəli çəkilib» müəmmalı şəkildə həyat çırağı söndürülən, sonra da «millətçi» damğası yapışdırılan və adının çəkilməsi belə yasaq olunan Nəriman Nərimanovun əzəmətli heykəlini ucaltdırmaq Heydər Əliyev şəxsiyyətinin Vətən qarşısında böyük xidməti idi. Sonralar Nərimanova Ulyanovsk şəhərində də abidə ucaltdırmağa nail olan Heydər Əliyev bir daha sübut etdi ki, onu Vətən – xalq təəssübkeşliyindən döndərmək heç kəsin hünəri deyil, o cümlədən hakim sovet rejiminin də!

Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə həyata keçirdiyi bütün bu əzəmətli quruculuq işlərinin çox böyük tarixi əhəmiyyəti bundan ibarət idi ki, xalqımızda milli qürur, milli mənlik şüuru oyandı, azadlıq, müstəqillik duyğuları baş qaldırdı. Bu, əslində XX yüzilliyin 70-ci illərində Azərbaycan xalqının milli–azadlıq hərəkatının yeni mərhələyə – yüksəliş mərhələsinə daxil olması demək idi. Bu, Heydər Əliyevin xalqımızın istiqlal mübarizəsi tarixində misilsiz xidmətidir. Bütün bunlardan sonra, fikrimizcə, prezident Heydər Əliyevin bugünkü fəaliyyəti ilə əvvəlki rəhbərlik dövründəki fəaliyyəti arasındakı sıx məntiqi əlaqəni, dialektik vəhdəti isbat etməyə ehtiyac qalmır. Faktlar özü hər şeyi daha yaxşı sübut edir!

Həmin faktların ən böyüyü isə bu idi ki, dünya sosializm sisteminin və böyük Sovet imperiyasının dağıldığı dövrdə Azərbaycan SSR artıq öz inkişaf səviyyəsinə və çoxsahəli iqtisadiyyatına

görə SSRİ-nin müttəfiq respublikaları içərisində özünü yaşatmağa qadir ola biləcək ikinci respublika idi.

1991-ci il oktyabrın 18-də «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı» qəbul olunarkən Şimali Azərbaycan artıq müstəqil bir dövlət kimi yaşamağa tamamilə hazır idi.

1990-cı illərdə Azərbaycan dünya miqyasında çox qüdrətli beynəlxalq qüvvələrin mənafelərinin çarpazlaşdığı ən qaynar məntəqələrdən birinə çevrilmişdi. Son dərəcə məkrli düşmənlərin Azərbaycan xalqına qarşı yüzillərlə sınaqdan çıxarmış olduqları «erməni kartı»ndan heç zaman bu illərdəki qədər fəal və geniş miqyasda istifadə olunmamışdır. Tarixdə heç zaman Azərbaycanı daxildən parçalamaq, xalq içərisində etnik və vətəndaş qarşıdurması yaratmaq, dini təfriqə salmaq taktikasından həmin illərdəki qədər sistemli şəkildə istifadə olunmamışdı. Heç zaman Vətənin sərvətlərini talamağa və bunun üçün də Yurdun içərisində yüksək mövqelər ələ keçirməyə çalışan daxili dönüklər – «sapı özümüzdən olan baltalar» xarici düşmənlərlə indiki qədər əlbir olmamış, onlara indiki qədər canfəşanlıqla qulluq göstərməmişdilər.

Bütün yuxarıda göstərilənlərdən əlavə, Azərbaycanın müstəqil bir dövlət kimi yaşaması çox zəngin və qədim tarixə, min illərlə müstəqil yaşamaq və qüdrətli dövlətçilik ənənələrinə malik olan böyük bir xalqın oyanışı demək idi. Müxtəlif dövrlərdə Ata yurdundan qəlpə-qəlpə qoparılıb alınmış torpaqlara tarixi sahiblik duyğularının oyanışı, haqqın, ədalətin, milli-mənəvi birliyin bərqərar olunması, qaytarılması uğrunda ədalətli mübarizənin başlanması – YENİ AZƏRBAYCAN İNTİBAHININ başlanması demək idi. Azərbaycanın müstəqilliyinin getdikcə möhkəmlənməsi, həm də dünyanın müxtəlif ölkələrinə səpələnmiş 60 milyonluq böyük Azərbaycan xalqının ayağa qalxması, birləşməsi və öz haqqını tələb etməsi üçün qüdrətli təminatı idi.

Azərbaycanın yağı düşmənlərini bütün yuxarıda göstərilənlərdən daha çox narahat edən bu idi ki, bunca ağır problemləri olan Azərbaycan xalqının başına qüdrətli bir siyasətçi gəlmişdi – düşmən-

lərin min bir hiyləsindən, məkrli oyunlarından asanlıqla baş çıxaran, onların dayanmadan dolaşdırdıqları siyasət kələfinin ucunu əldən verməyən, siyasi dühası ilə onilləri-yüzilləri qabaqlayan, qalın-qalın siyasət divarlarının arxasında nələr baş verdiyini ovcunun içi kimi görən Heydər Əliyev! Müxtəlif tarixi dövrlərdə Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş, xalqımızı dəfələrlə qan içərisində boğmuş ənənəvi düşmənlərimizin, onların bitib-tükənməyən məkr, hiylə və ən müasir silahlarının qarşısında məhz Heydər Əliyev şəxsiyyəti duruş gətirə bildi!

Həqiqətən, Heydər Əliyevin Azərbaycana başçılıq etdiyi Birinci dövrlə İkinci dövr arasındakı illər, sözün əsl mənasında, tariximizin hərc-mərclik dövrü, ağır tənəzzül illəridir. Uğursuz Qarabağ müharibəsi, hakimiyyəti ələ keçirmək xatirinə müqəddəs torpaqlarımızın düşmənə təslim edilməsi, xaricdəki ağalara daha sədaqətlə nökərçilik etmək üçün bəhsə–bəhs, vaxtilə Nərimanovun qətlə yetirildiyi Kreml labirintlərindən salamat qurtarıb xalqını dardan xilas etmək üçün Vətənə qayıtmış böyük dövlət adamımız Heydər Əliyevin hakimiyyətə yaxın buraxılmaması, onu hətta Naxçıvanda da hakimiyyətdən götürmək cəhdi kimi rüsvayçılıqlar tariximizin ən qara səhifələri, ən bağışlanmaz səhvləridir. Əgər o zaman bu müdrik siyasətçi hakimiyyət sükanının arxasında əyləşsəydi, bunca müsibətlərə düçar olardıqmı?!

Bu suala Heydər Əliyev ömrünün Naxçıvan səhifələri daha aydın cavab verir: milli dövlətçilik ənənələrimizin dirçəldilməsi, muxtar respublikanın adından «sovet», «sosialist» sözlərinin çıxarılması, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunması, 1990-cı ilin 19-20 Yanvar faciəsinə siyasi qiymət verilməsi, Naxçıvan əhalisinin SSRİ-nin saxlanılması barədə referendumda iştirakdan imtina etməsi, muxtar respublika ərazisində Kommunist Partiyası yerli orqanlarının fəaliyyətinin dayandırılması, 31 Dekabr gününün Dünya azərbaycanlılarının həmrəylik günü elan olunması, nəhayət, böyük Vətəndən – Azərbaycandan ayrı düşmüş Naxçıvanda, özü də

DÜNYA AZƏRB

amansız hərbi-iqtisadi blokada şəraitində vətən torpağının düşməndən qorunub saxlanması – bax, bunlardır böyük şəxsiyyətimizin Naxçıvanda mühasirə şəraitində keçən ömrünün, göstərdiyi fəaliyyətin qısa yekunu!

Sərt tarixi həqiqət belədir: 1993-cü ilin iyununda – Heydər Əliyevin hakimiyyətə qayıdışı ərəfəsində Azərbaycan öz tarixinin ən qanlı burulğanı içərisində çapalayırdı. Cəbhədə ağır məğlubiyyətlər, xəyanətlər, satqınlıq, vəzifə ələ keçirmək üçün müqəddəs torpaqlarımızın hərraca qoyulması adi hal almışdı. Ölkədə, sözün əsl mənasında, hakimiyyətsizlik idi. Siyasi hərc-mərclik, hərki-hərkilik baş alıb gedirdi. Bölgələrimizdə, rayonlarda, paytaxtın ayrı-ayrı məhəllələrində, faktiki olaraq, silahlı quldur dəstələri hökmranlıq edirdilər. Xalq vahimə və təşviş içərisində idi. Atışma səslərindən camaat evində rahat yata bilmirdi. Girovgötürmə kimi çirkin qazanc vasitəsi adi hala çevrilmişdi. O dövrün başabəla rəhbərləri təyyarələrini hazır saxlayır, vəziyyət bir az mürəkkəbləşən kimi qaçıb aradan çıxırdılar. Üzdə xalqdan danışan, əslində isə sərvət düşkünləri olan bir qrup vəzifəpərəst sovet hakimiyyəti illərində toplanmış xalq əmlakına sırışt olmuşdu. Talançılıq baş alıb gedirdi. Faktiki olaraq, dövlət yox idi. Ölkəni xalq adından idarə edən, əslində isə heç bir səriştəsi olmayan, ən adi idarəçilik qaydalarının belə nə olduğunu bilməyən və xaricdəki ağalarının göstərişi ilə hərəkət edən məhdud bir qrup məmləkəti milli fəlakət həddinə çatdırmışdı. İdarəçilik sükanı sahibsiz qalmışdı. Ölkə vətəndaş müharibəsi və etnik toqquşmalar meydanına çevrilməkdə idi. Cəbhə düşmənin üzünə açıq idi. Ulularımızın müqəddəs əmanəti olan Vətən torpaqları hərraca qoyulmuşdu. Azərbaycan xarici aləmdəki olan-qalan nüfuzunu da tamamilə itirmişdi. Xalq ümidsizlik və təlaş içərisində idi. Sabaha inam qalmamışdı. Ən təhlükəli cəhət isə bundan ibarət idi ki, Azərbaycanın xaricdəki yağı düşmənləri daxildəki satqınlarla birləşmişdilər. Daşnakların «Böyük Ermənistan» yaratmaq niyyətləri, tarixi düşmənlərimizin qonşu ölkələrin paytaxtlarında hazırlanmış və Azərbaycanı Qafqazın siyasi xəritəsindən silib götürmək planları reallaşmaq üzrə idi. Azərbaycan

torpağı etnik əlamətə görə parçalanıb yox olmaq təhlükəsi qarşısında qalmışdı. Bakı yaxınlığında – Navahı kəndində vətəndaş müharibəsinin ilk güllələri atılmış, qardaş qanı axıdılmışdı ...

Bax, bu fəlakət anında Azərbaycan xalqının, Vətənin yeganə ümid yeri, qurtuluş çırağı Heydər Əliyev idi. Müdrik xalqımız, o zaman qəti və sərrast hərəkət edərək yeganə düzgün addımı atdı – dünyanın bu böyük siyasət adamını hakimiyyətə gətirdi. Bununla da Azərbaycanın xarici və daxili düşmənlərinin oxu daşa dəydi, bədxahlarımızın arzuları gözlərində qaldı. Məhz o zaman – 1993-cü ilin iyun günlərində Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanın qurtuluşunda həlledici dönüş baş verdi. Müdrik siyasətçi bir neçə gedişdən sonra vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı. Xarici və daxili düşmənlərin Azərbaycanı parçalayıb yox etmək, müstəqil dövlətimizi aradan qaldırmaq planı puça çıxdı. Dövlətimizin, xalqımızın tarixi müqəddəratının idarəçilik sükanı dahi dövlət adamının əlinə keçdi. Vətən, millət, bütün xalqımız məkrli düşmənlərin hazırladığı fəlakət uçurumuna yuvarlanmadı, fəlakətdən, ölüm qəzasından yan keçdi. Qurtuluş savaşında qələbəyə doğru dönüş başlandı.

Prezident Heydər Əliyev xalqı, yurdu milli-mənəvi parçalanmadan, iflasa uğramaqdan xilas etdi. Özündən əvvəlki «rəhbərlərin» tarixi keçmişin ibrət dərslərinə, dəyişən dünyanın real həqiqətlərinə, daxili həyatın və beynəlxalq vəziyyətin gerçəkliklərinə deyil, emosiyalara əsaslanaraq qəbul etdikləri səhv qərarların icrasını dayandırdı. Torpağımızın, xalqımızın, dilimizin üzərindəki əzəli və əbədi «Azərbaycan» möhürü özümüzə qaytarıldı. Bununla Vətənçilik, xalqımızın adı və dili, qüdrətimizin və vahidliyimizin əsası olan islam-türk birliyi bərpa olundu, reallaşmaqda olan etnik toqquşmalar ehtimalı aradan qaldırıldı. Düşmənlərimizin oxu bu məsələdə də daşa dəydi.

Azərbaycanımız bu gün dünyanın ən sürətlə inkişaf edən ölkəsidir. Yurdumuz regionun lider dövlətinə çevrilmişdir. Xalqımızın güzəranı günü-gündən yaxşılaşmaqda, yoxsul vətəndaşlarımızın sayı sürətlə azalmaqdadır. Az vaxt içərisində əldə edilən böyük nailiy-

yətlər Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi dirçəliş və inkişaf strategiyasının uğurla həyata keçirilməsi nəticəsində mümkün olmuşdur. Bu siyasətin gerçəkliyə çevrilməsində Heydər Əliyev yolunun layiqli davamçısı, Ulu Öndərin siyasi varisi Prezident İlham Əliyevlə xalq arasında yaranmış sarsılmaz birlik həlledici rol oynayır.

Azərbaycan xalqının böyük xoşbəxtliyidir ki, onun Prezidenti İlham Əliyev bugünkü sürətlə dəyişən, dinamik dünyanın nəbzini əlində saxlaya bilir, müasir, çevik və cəsarətli dövlət xadimi kimi beynəlxalq münasibətlərdə sürətlə baş verən dəyişikliklərdən öz Vətəninin və xalqının xeyrinə məharətlə istifadə etməyi bacarır, yurdumuzu gözlənilməz və gözlənilən risklərdən uğurla qoruyur. Ölkə başçımız müasir dünyada gedən siyasi və iqtisadi proseslərə dərindən bələddir, qloballaşma və inteqrasiya nəticəsində dünya meydanında baş verə biləcək bütün dəyişiklikləri irəlicədən görür və Azərbaycanı bu dəyişiklikləri qarşılamaq üçün qabaqcadan hazırlaya bilir, öz Vətənini həyatın bütün sahələrində qələbədən-qələbəyə qovuşdurur. Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır və qalib gəlir. Bu siyasəti həyata keçirən siyasi varisin zəfər yürüşü davam edir!

## Azərbaycan Xalq Cümhuriyyəti tarixinin araşdırılmasına İlham Əliyevin qayğısı

Azərbaycanın dövlətçilik tarixində olduqca əhəmiyyətli, həm də qürurverici mərhələlərdən biri olan Azərbaycan Xalq Cümhuriyyəti – Azərbaycan xalqının çar Rusiyasına qarşı milli azadlıq mübarizəsi nəticəsində Şimali Azərbaycanda (Rusiya Azərbaycanında) yaranmış, 1918-ci ilin mayından 1920-ci ilin aprelinədək mövcud olmuş, bütün türk-müsəlman Şərqində ilk parlamentli respublika kimi tanınmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1918-ci il mayın 28-dən iyunun 16-dək Tiflisdə, iyunun 16-dan sentyabrın 17-dək Gəncədə, sentyabrın 17-dən 1920-ci il aprelin 28-dək Bakıda fəaliyyət

göstərmişdir. Azərbaycan Xalq Cümhuriyyəti Paris sülh konfransının 1920-ci il 11 yanvar tarixli qərarına əsasən müstəqil dövlət kimi tanınmış, dünyanın bir çox ölkələri ilə (Türkiyə, İran, Ukrayna, Böyük Britaniya, ABŞ, Fransa, İtaliya, Polşa, İsveç, İsveçrə, Latviya, Litva, Estoniya, Finlandiya, Rumıniya, Almaniya, Gürcüstan və b.) səfirlik və nümayəndəliklər səviyyəsində diplomatik münasibətlər yaratmış, ikitərəfli və çoxtərəfli müqavilələr, sazişlər bağlamışdır.

Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci aprelin 28-də beynəlxalq hüquq normalarını kobudcasına pozan Sovet Rusiyasının hərbi müdaxiləsi nəticəsində aradan qaldırılmış, Şimali Azərbaycan rus-bolşevik qoşunları tərəfindən işğal edilərək yenidən Rusiyaya ilhaq olunmuşdur.

Ulu Öndər Heydər Əliyevin dediyi kimi, ***"Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır. O, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır. Ən əsası odur ki, Azərbaycan Xalq Cümhuriyyəti az yaşasa da, xalqımızda azadlıq, müstəqillik fikirlərini daha da gücləndirmiş oldu"***.

Həqiqətən, Azərbaycanın dövlətçilik tarixinin mühüm mərhələsini təşkil edən Azərbaycan Xalq Cümhuriyyətinin tarixi, Cümhuriyyət liderlərinin Azərbaycan xalqı qarşısında xidmətləri müasir Azərbaycan Respublikası üçün qürur mənbəyidir.

Lakin uzun müddət bu tarixin obyektiv araşdırılmasına imkan verilməmiş, Azərbaycan tarixinin bu vacib mərhələsi qərəzli şəkildə şərh olunmuş, təhrif edlmiş və saxtalaşdırılmışdır. Bəzən də bu şanlı tarixin araşdırılması, ümumiyyətlə, yasaq olunmuşdur.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə yeni baxış formalaşmağa

başladı. Arxiv materiallarının yenidən araşdırılması nəticəsində yeni-yeni tədqiqat əsərləri nəşr olundu. Bu tarixin obyektiv şəkildə, doğru-düzgün araşdırılması Azərbaycan tarixçisinin həm tariximiz qarşısında, həm də Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli liderlərinin ruhu qarşısında vicdan borcu idi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tariximizin bu şanlı səhifəsinə böyük önəm verirdi. Məhz Ulu Öndərin xüsusi tapşırığına əsasən 2 cildlik "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası" hazırlıq işlərinə başlandı. 2004-cü ildə Prezident İlham Əliyevin xüsusi qayğısı və Prezident Administrasiyası Humanitar məsələlər şöbəsinin dəstəyi ilə bu sanballı nəşr işıq üzü gördü.

"Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası"nın səhifələrində Azərbaycan xalqının istiqlal mübarizəsi və ictimai fıkir tarixinin ən mühüm məqamları, azadlıq hərəkatının görkəmli nümayəndələrinin həyat və fəaliyyəti, Azərbaycan Xalq Cümhuriyyətini doğuran tarixi şərait, Cümhuriyyət xadimlərinin həyat və mübarizəsi, Azərbaycan xalqına qarşı həyata keçirilən kütləvi soyqırımları, Qafqaz İslam Ordusunun xilaskarlıq əməliyyatları, bu əməliyyatlarda Azərbaycan hərbçilərinin və xalq könüllülərinin fəal iştirakı, böyük dövlətlərin və qonşu ölkələrin Azərbaycanla bağlı qəsbkarlıq planları, Cümhuriyyət Parlamenti və Hökumətinin fəaliyyəti, dövlət quruculuğu, xarici siyasət, ordu quruculuğu və ölkənin ərazi bütövlüyü uğrunda mübarizə, ictimai-siyasi, sosial-iqtisadi, mədəni-maarif həyatı, xarici dövlətlərdəki Azərbaycan diplomatik nümayəndəliklərinin fəaliyyəti, habelə Cümhuriyyətin süqutundan sonra sovet-bolşevik rejiminin ölkədə həyata keşirdiyi kütləvi qırğınlar, istiqlal ideallarını yaşadan milli hərəkat, siyasi mühacirət və s. məsələlər öz əksini tapmışdır. Ensiklopediyanın elmi dəyəri, xalq içərisində böyük maraq doğurması nəzərə alınaraq buradakı məqalələr yeni arxiv materialları əsasında yenidən işlənərək 2014-cü ildə təkrar nəşr edildi.

Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyəti tarixinin araşdırılmasının vacibliyini istər çıxış və nitqlərində, istərsə də

verdiyi müvafiq sərəncamlarında dəfələrlə xüsusi olaraq vurğulamışdır. 2012-ci il mayın 25-də 28 May – Respublika Günü münasibətilə keçirilən rəsmi qəbulda İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin Azərbaycan dövlətçilik tarixində yeri və rolundan bəhs edərkən tariximizin bu dövrünü, Cümhuriyyətin həyata keçirdiyi tədbirləri yüksək qiymətləndirərək demişdir: "Azərbaycan ***Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisə idi. Xalqımız üçün tarixi hadisə idi. Ona görə ki, Azərbaycan xalqı əsrlər boyu arzuladığı müstəqilliyə qovuşurdu. İslam dünyası üçün də tarixi hadisə idi, ona görə ki, ilk dəfə olaraq müsəlman Şərqində demokratik respublika yaranırdı ...***

***Bugünkü müstəqil Azərbaycan – Azərbaycan Xalq Cümhuriyyətinin varisidir.***

***Əfsuslar olsun ki, müstəqilliyimiz çox qısamüddətli oldu. İki ildən sonra Azərbaycan Demokratik Respublikası süqut etdi. Ancaq bu iki il ərzində böyük işlər görüldü. Dövlət atributları qəbul edildi. Dövlət bayrağımız təsdiq edildi. Dahi bəstəkarımız Üzeyir Hacıbəylinin əsəri olan Azərbaycan dövlət himni qəbul olundu. Digər istiqamətlərdə müsbət işlər görülmüşdür. Dövlət strukturları yaradılmışdır. Bir sözlə, ölkəyə xas olan bütün atributlar mövcud idi".***

Azərbaycan dövlətçiliyinə olan böyük Vətən sevgisi, ehtiram hissi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 15 fevral 2008-ci il, 25 fevral 2013-cü il, 22 noyabr 2013-cü il tarixli sərəncamlarında da öz əksini tapmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyinin, Cümhuriyyətin görkəmli xadimlərindən olmuş Əlimərdan bəy Topçubaşovun 150 illik yubileyinin və Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinin keçirilməsi haqqında verilən bu sərəncamlar Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə, Cümhuriyyət liderlərinin xidmətlərinə verilən böyük qiymətdir, dövlət başçısının tariximizin öyrənilməsinə ayırdığı diqqət və qayğının bariz nümunəsidir.

***"Azərbaycan Xalq Cümhuriyyətinin öz dövlətçilik atributlarını qəbul etməsi, dövlət və hərbi quruculuq, iqtisadiyyat və mədəniyyət,***

***təhsil və səhiyyə sahələrində atdığı addımlar xalqımız üçün taleyüklü əhəmiyyət kəsb etmişdir. Cümhuriyyətin böyük uğurlarından biri Paris sülh konfransında, 1920-ci il yanvarın 11-də Azərbaycanın müstəqil dövlət kimi tanınması olmuşdur. Lakin ölkənin öz neftini xarici bazarlara çıxarmaqdan təcrid edilməsi nəticəsində yaranmış siyasi, iqtisadi və sosial böhran güclənirdi. Həmçinin parlament daxilində hökm sürən hərc-mərclik, Qarabağda və Zəngəzurdakı erməni silahlı dəstələri ilə qarşıdurmalar gündən-günə dərinləşirdi. Əhalinin əsas hissəsinin ağır durumu isə bolşevik təbliğatı üçün münbit zəmin yaradırdı. İrəvanın ermənilərə paytaxt kimi verilməsindən sonra İrəvan mahalından qaçqın düşmüş 150 mindən artıq soydaşımızın vəziyyəti olduqca gərgin idi. Belə bir vəziyyətdə parlamentin son iclasında bolşevik ultimatumunun qəbul edilməsi aprel işğalı ilə nəticələndi.***

***Aprel işğalı Azərbaycan Xalq Cümhuriyyətinin liderlərinin bir qismini Məmmədəmin Rəsulzadə kimi mühacir həyatı yaşamağa məhkum etdi, digər qismini Fətəli xan Xoyski və Həsən bəy Ağayev kimi erməni terrorunun qurbanına çevirdi, qalanlarını da bolşevizmin amansız repressiyalarına məruz qoydu" (İlham Əliyev).***

Məlum olduğu kimi, Əlimərdan bəy Topçubaşov və Məhəmməd Əmin Rəsulzadə görkəmli dövlət və ictimai xadim, böyük mütəfəkkir olmuşlar.

1917-ci il Oktyabr çevrilişindən sonra Rusiyada bolşevik irticası və yeni milli əsarət dövrü başlandı. Keçmiş Rusiya imperiyasının sərhədlərini silah gücünə bərpa etmək siyasəti yeridildi. Bakıda və onun ətraflarında hakimiyyəti ələ keçirən St. Şaumyanın başçılıq etdiyi bolşevik-daşnak güruhu Azərbaycana "muxtariyyət" əvəzinə, "məzarıstan" vəd etdi və 1918-ci ilin martında Bakıda və bunun ardınca ölkənin digər bölgələrində Azərbaycan xalqına qarş kütləvi soyqırımları törədildi.

Zaqafqaziya Seymi dağıldıqda, 1918-ci il mayın 27-də M.Ə.Rəsulzadə Batum konfransında iştirak etdiyinə görə gizli səsvermə nəticəsində qiyabi olaraq Azərbaycan Milli Şurasının sədri seçilir.

Milli Şura Azərbaycanı müstəqil dövlət elan edir və M.Ə.Rəsulzadə Azərbaycan Milli Şurasının sədri kimi Xarici işlər naziri Məmməd Həsən Hacınski ilə birlikdə Osmanlı dövləti ilə Batum müqaviləsini imzalayır (1918, 4 iyun). Müqaviləyə əsasən Osmanlı dövləti Bakı sovetinin daşnak-bolşevik hərbi birləşmələri və erməni-daşnak quldur dəstələri tərəfindən soyqırıma məruz qalmaqda olan Azərbaycan xalqına qardaşlıq yardımı göstərir. Azərbaycanın və bütün Cənubi Qafqazın türk-müsəlman əhalisi qırılıb məhv olmaqdan qurtulur.

Xüsusi vurğulamaq istərdik ki, M.Ə.Rəsulzadə dövlət xadimi və məfkurəçisi kimi Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci ilin iyununda baş vermiş ilk hökumət böhranının aradan qaldırılmasında mühüm rol oynamış, istiqlalın qorunub saxlanması naminə sədri olduğu Milli Şuranın müvəqqəti olaraq istefasına razılıq vermişdir.

1920-ci il aprelin 27-də 11-ci Qırmızı ordunun artıq Bakını ələ keçirmiş olduğu şəraitdə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində hakimiyyəti bolşeviklərə təhvil vermək məsələsi müzakirə olunarkən M.Ə.Rəsulzadə qətiyyətlə bunun əleyhinə çıxmışdır. M.Ə.Rəsulzadə 1920-ci il avqustun 17-də həbs olunmuş, lakin Stalinin göstərişi ilə həbsdən azad olunub Moskvaya aparılmış, Rusiya Sovet Federativ Sosialist Respublikasının Milli İşlər Komissarlığında işlə təmin olunmuşdu. Lakin bir müddət sonra M.Ə.Rəsulzadə Sankt-Peterburqa, oradan isə gizli yolla Finlandiyaya keçərək Türkiyəyə mühacirət etmişdir.

Azərbaycanın mühacirətdə olan milli qüvvələrinin birliyinə nail olmaq üçün 1934-cü ildə M.Ə.Rəsulzaadə və Ə.Topçubaşov Brüsseldə Qafqaz Konfederasiyası sazişini imzalayır. Sazişə əsasən Qafqazda Azərbaycan, Gürcüstan və Şimali Qafqaz respublikalarından ibarət konfederasiya dövləti – respublikası yaratmaq nəzərdə tutulurdu.

Qeyd edək ki, M.Ə.Rəsulzadə Ə.Topçubaşovun ölümündən (1934) sonra siyasi mühacirətin istiqlal mübarizəsində aparıcı rol oynamışdır. O, "şəxslər müvəqqəti, ideologiya əbədidir" tezisini əsas tutaraq, siyasi mühacirləri istiqlal ideologiyasına sadiq olmağa çağırır.

Əlimərdan bəy Topçubaşov, Məhəmməd Əmin Rəsulzadə və Cümhuriyyətin digər liderləri ömürlərinin sonunadək öz məsləklərinə, ali məqsədlərinə, məfkurələrinə sadiq qalmış, Azərbaycanın müstəqilliyinin bərpa olunması uğrunda istiqlal mübarizələrini davam etdirmişlər.

XX yüzilliyin sonlarında dövlət müstəqilliyini bərpa edən Azərbaycan xalqı, M.Ə.Rəsulzadənin də inandığı kimi, milli bayrağın torpaqlara deyil, millətin vicdanına enmiş olduğunu, hər kəsin bu bayrağı ruhunda, qəlbində və bağrında mühafızə etməkdə olduğunu sübut etdi.

Azərbaycanın bolşevik işğalı nəticəsində endirilmiş və bir də 1990-cı ildə istiqlal meydanlarında görünən üçrəngli bayrağı Ulu Öndər Heydər Əliyevin Vətən təəssübkeşliyi və sevgisi sayəsində yenidən dövlət bayrağı kimi dalğalanmağa başladı. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı ilk dəfə Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edildi, daha sonra müstəqil Azərbaycan Respublikasının bayrağı oldu.

Azərbaycan Respulikasının Prezidenti İlham Əliyevin 2008-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyinin, 2013-cü ildə Əlimərdan bəy Topçubaşovun 150 illik yubileyinin və Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinin keçirilməsi haqqında verdiyi məlum sərəncamları ilə bərabər, Azərbaycan Xalq Cümhuriyyətinin tariximizdə tutduğu yerə, Cümhuriyyət liderlərinə verdiyi böyük qiymətin bariz nümunələrindən biri də Bakıda İstiqlal abidəsinin ucaldılması, Azərbaycanın üçrəngli bayrağının şərəfinə Bayraq meydanının inşası və bu meydanda dalğalanan bayrağımızın dünyanın ən uca bayrağı olmasıdır! Prezident İlham Əliyev bütün beynəlxalq əhəmiyyətli görüşlərdə, dünya ictimaiyyəti qarşısındakı çıxışlarında bu bayrağın Azərbaycanın işğal olunmuş torpaqlarında da tezliklə dalğalanacağını xüsusi vurğulamışdır: "***Mən tam əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Bütün amillər – güclərin nisbəti, beynəlxalq, iqtisadi-hərbi amillər bunu göstərir. Sadəcə olaraq vaxt gedir. Sadəcə olaraq biz istəyirik ki, bu, tezliklə***

***olsun. Ancaq bu, hərtərəfli və tam şəkildə olmalıdır. Azərbaycanın ərazi bütövlüyü tam şəkildə bərpa edilməlidir, Şuşada, Xankəndidə Azərbaycanın dövlət bayrağı qaldırılmalıdır və gələcəkdə azərbaycanlılar bütün tarixi torpaqlarında yaşamalıdırlar. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Göyçə, Zəngəzur mahallarıdır. Vaxt gələcək, biz orada da yaşayacağıq. Mən buna inanıram, buna əminəm. Buna nail olmaq üçün hər birimiz öz səylərimizi qoymalıyıq, hər birimiz öz işimizlə o müqəddəs günü yaxınlaşdırmalıyıq …"***

Prezident İlham Əliyevin rəhbərliyi və bilavasitə iştirakı ilə hər il 28 May Respublika günü münasibətilə Azərbaycan Xalq Cümhuriyyətinə həsr olunmuş rəsmi qəbul keçirilir və ölkənin qabaqcıl elm və mədəniyyət xadimlərinə, qabaqcıl ziyalılarına dövlət mükafatları təqdim olunur. 2012-ci ildə keçirilən ənənəvi qəbulda Prezidentin sərəncamı ilə Qarabağın, Naxçıvanın və İrəvan xanlığının tarixinə dair silsilə əsərlərə görə Tarix İnstitutunun 13 əməkdaşına Azərbaycan Respublikasının Dövlət mükafatı verilmişdir.

Prezidentimizin alimlərimizin fəaliyyətinə verdiyi belə yüksək qiymət bütün kollektiv üçün də ən əlamətdar hadisə kimi dəyənləndirilə bilər.

## İlham Əliyevin tariximizə konseptual baxışında xalqımıza qarşı soyqırımı problemi

Prezident İlham Əliyevin Azərbaycan tarixinə konseptual baxışında ermənilərin xalqımıza qarşı müxtəlif tarixi dövrlərdə həyata keçirdikləri soyqırımları xüsusi yer tutur. Ölkə başçısı ermənilərin azərbaycanlılara qarşı müxtəlif tarixi dövrlərdə həyata keçirdikləri soyqırımlarının araşdırılması ilə əlaqədar Ulu Öndər Heydər Əliyevin fərman və sərəncamlarından irəli gələn vəzifələrin həyata keçirilməsini daim diqqət mərkəzində saxlayır.

Məhz bunun nəticəsidir ki, Prezidentin birbaşa tapşırıqları, tövsiyə və çağırışları ilə Milli Elmlər Akademiyasının Tarix İnstitutunda

Azərbaycan xalqına qarşı həyata keçirilmiş deportasiyalar, kütləvi qırğınlar və soyqırımları tarixinin araşdırılması əsas tədqiqat istiqamətlərindən birinə çevrildi. Tariximizin bu problemi ətrafında axtarışlar daha da genişləndirildi.

Məlum olduğu kimi, 1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoymuşdur. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbt olunmasına başlanmışdır. 1828-ci ildən başlayaraq qısa bir müddətdə ermənilərin Qacarlar İranı və Osmanlı Türkiyəsi ərazisindən Azərbaycan torpaqlarına kütləvi surətdə köçürülməsi həyata keçirilmişdir.

İrəvan, Qarabağ və başqa Azərbaycan xanlıqlarının ərazisində məskunlaşdırılan ermənilər bu torpaqlarda yaşayan azərbaycanlılarla müqayisədə cüzi azlıq təşkil etmələrinə baxmayaraq, öz havadarlarının köməyi ilə "erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail olmuşlar. Belə süni ərazi bölgüsü ilə, əslində azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyulmuşdur. Bu dəhşətli siyasəti həyata keçirmək üçün uydurma "Böyük Ermənistan" ideyası təbliğ olunmağa başlamışdır. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına "bəraət qazandırmaq məqsədilə" gəlmə erməni etnosunun tarixinin saxtalaşdırılmasına yönəlmiş genişmiqyaslı proqramlar reallaşdırılmışdır. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi.

1918-ci ilin 30 mart və 3 aprel tarixləri arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və daşnak-erməni silahlı quldur dəstələri azərbaycanlılara qarşı irimiqyaslı kütləvi qırğınlar törətmişdir.

Beləliklə, XX əsrin əvvəllərində Azərbaycan xalqına qarşı törədilən soyqırımları tarixinin araşdırılması Prezident İlham Əliyevin təşəbbüsü və xüsusi tapşırığı ilə müstəqil Azərbaycan Respublikasının

tarixçilərinin ən mühüm vəzifələrindən biri olmuşdur. Bu məsələyə İlham Əliyevin xüsusi diqqət yetirməsi, müvafiq sərəncam və tapşırıqları elmi araşdırmaları sürətləndirmişdir. AMEA-nın Tarix İnstitutu və Azərbaycan tarixçiləri Prezident İlham Əliyevin soyqırımı tarixinə xüsusi diqqət ayırmasını böyük razılıq hissi ilə qarşılayaraq Azərbaycan xalqına qarşı 1918–1920-ci illlərdə törədilən soyqırımla bağlı dörd kitabdan ibarət olan 3 cildlik sənəd toplusu hazırlamışdır.

Qeyd edək ki, son vaxtlara qədər bu soyqırımlarla bağlı əsas tutarlı fakt bundan ibarət idi ki, Şaumyanın başçılıq etdiyi daşnak-bolşevik güruhu Bakıda, Bakı quberniyasında Azərbaycan xalqına qarşı düşünülmüş surətdə, qabaqcadan planlaşdırılmış, soyqırım həyata keçirmişdir. Amma yeni aşkar olunan çoxsaylı faktlar, son on il ərzində aparılan elmi araşdırmalar göstərir ki, Azərbaycan xalqına qarşı 1918-ci il soyqırımı, sadəcə olaraq, bir qruplaşma tərəfindən deyil, dövlət səviyyəsində həyata keçirilmişdir. Bu, inkarolunmaz tarixi həqiqətdir. Həmin dəhşətli tarixi həqiqəti sübut edən son dərəcə qiymətli sənəd Azərbaycandadır, bizim əlimizdədir. Buna görə xalqımız Cümhuriyyət xadimlərinə minnətdardır. Məhz Azərbaycan Xalq Cümhuriyyəti dövründə Fövqəladə Təhqiqat Komissiyası yaradılaraq həmin dövrdə mövcud olan soyqırımları faktını protokollaşdırıb tarixi fakt kimi bugünki nəsillərə yadigar qoyublar.

***"1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən xüsusi tədqiqat komissiyası yaradılmışdır. Komissiya işə başlamışdır, ancaq 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti süqut edəndən sonra bu komissiya, təbii ki, öz işini dayandırmışdır və komissiyanın fəaliyyəti natamam olmuşdur. Eyni zamanda o vaxt, əlbəttə ki, bu faciə, bu qırğın haqqında dünyaya məlumat çatdırmaq üçün bizim imkanlarımız çox məhdud idi" (İlham Əliyev).***

AMEA Tarix İnstitutunun son bir neçə ildə apardığı axtarışların ən mühüm nəticəsi də ondan ibarətdir ki, Azərbaycan xalqına qarşı təkcə Bakı quberniyasında deyil, eyni zamanda əzəli Azərbaycan torpağında, bizim ərazilərimizdə, keçmiş İrəvan torpaqlarında da dövlət səviyyəsində soyqırımlar, həyata keçirilmişdir. Bu araşdırmalar

sayəsində çox dəhşətli faktlar aşkar edilmişdir. Məsələn, təkcə onu demək kifayətdir ki, 1919-cu ildə 20-25 gün ərzində təkcə iki qəzada 500.000-ə qədər azərbaycanlı məhv edilmişdir. Onların necə məhv edilməsi üsulları tarixdə görünməyən vəhşilik, vandallıq faktıdır. Tarixdə heç yerdə elə bir fakt yoxdur ki, bir xalqı məhv etməkdən ötrü ermənilərin tətbiq etdiyi vəhşi üsullardan istifadə olunsun. Hamilə qadınların kürəyinə samovar bağlamaq, camaatı məscidə dolduraraq diri-diri yandırmaq, əhalini məhv etmədən öncə "sortlamaq", izi itirməkdən ötəri insanları doğrayıb Araz çayına tökmək. Bu üsulların hamısı bir daha sübut edir ki, bu soyqırım, təkcə insanların fiziki tərəfdən məhvinə deyil, yəni, ermənilər təkcə xalqı məhv etməyi düşünməyiblər, həm də xalqın, yəni, azərbaycanlıların izini tarixdən belə silmək istəyiblər. Bu baxımdan, tarixi abidələrin məhv edilərək sıradan çıxarılması həyata keçirilib.

Prezident İlham Əliyevin tapşırığı əsasında AMEA Tarix İnstitutunun hazırladığı dörd kitabdan ibarət olan 3 cildlik sənəd toplusu tarixdə Azərbaycan xalqına, buradakı türk-müsəlman əhalisinə qarşı törədilən soyqırımı sübut etməkdən ötrü əvəzsiz sənədlərdir. Burada söhbət yalnız Azərbaycan əhalisindən deyil, bütövlükdə türk-müsəlman xalqlarından gedir. Bu gün ortalıqda bir fakt var ki, keçmişdə əhalisinin bir nəfərinə qədər azərbaycanlı olan Ermənistan ərazisində bu gün bir nəfər də olsun azərbaycanlı yaşamır. Bu siyasətin nəticəsi göz qabağındadır.

***"Azərbaycanlılara qarşı soyqırımı siyasəti erməni şovinist millətçiləri tərəfindən yüzillər boyu planlı surətdə həyata keçirilmişdir. Bu siyasətin mahiyyəti azərbaycanlıları öz doğma torpaqlarından sıxışdırıb çıxarmaq və fiziki cəhətdən məhv etmək yolu ilə bu ərazilərdə mifik «böyük Ermənistan dövləti» yaratmaq idi.***

***Ayrı-ayrı dövrlərdə böyük dövlətlərin müəyyən dairələrinin təhriki ilə yeridilən bu siyasət hərbi, ideoloji, mədəni, saxta "elmi" vasitələrlə davam etdirilmiş, tarixi faktların və arxiv sənədlərinin saxtalaşdırılmasından, dezinformasiyadan, dünya ictimai fikrinə ünvanlanmış bədii və psixoloji təsir metodlarından istifadə edilmişdir.***

***Məqsədlərinə nail olmaq üçün erməni millətçiləri ayrı-ayrı ölkələrdə ideoloji, hərbi təxribat və ekspansiya ilə məşğul olan «milli-mədəni cəmiyyətlər», terroru və talançılığı əsas mübarizə metodu kimi seçmiş siyasi təşkilatlar qurmuş, erməni diasporunun və lobbisinin imkanlarından geniş istifadə etmişlər. Soyqırımı siyasəti Azərbaycan xalqına olmazın dəhşət və fəlakətlər gətirmişdir" (İlham Əliyev).***

Aparılan araşdırmalar həm də belə bir faktı sübuta yetirir ki, Stepan Şaumyan 1918-ci ildə digər komissarlarla birgə güllələnməmişdir. Məlum olmuşdur ki, Şaumyanın sağ qalmasının səbəbi onun özünün dəyişdirilməsi barədə təklifi olub: Leninə Şaumyanın təşəbbüsü ilə onun dəyişdirilməsi təklif olunub və Şaumyan ömrünün sonunadək Hindistanda yaşayıb.

Dövlət səviyyəsində bu tarixin araşdırılmasına xüsusi diqqət ayrılması nəticəsində AMEA Tarix İnstitutu digər dövlət qurumlarının yardımı ilə Şaumyanın 1918-ci ildə güllələnməməsi ilə bağlı faktları üzə çıxararaq dünya ictimaiyyətinə çatdırmağa nail oldu. Belə ki, 2009-cu il yanvarın 24-26-da 26 Bakı komissarının cəsədləri "Sahil bağı"ndan ümumi şəhər qəbiristanlığına köçürüldü. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi əməkdaşlarının və Tarix İnstitutunun mütəxəssislərinin iştirakı ilə orda tədqiqatlar aparıldı və orada cəmi 23 cəsədin qalıqları tapıldı. Bundan sonra Tarix İnstitutu dərhal tədqiqatlara başladı: məlum oldu ki, "26-lar"ın arasında 3 nəfərin yaşı 40-dan yuxarı olub – Məşədi Əzizbəyov, Stepan Şaumyan və Tatevos Əmiryanın. "Sahil bağı"ndan çıxarılan cəsədlərdən isə yalnız biri 40 yaşdan yuxarı şəxsin idi ki, bu da Məşədi Əzizbəyovun yaş göstəricilərinə uyğun gəldi. Şaumyanla Əmiryanın heç birinin cəsədinin qalıqları tapılmadı. Bunu Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi də təsdiq etdi. Elmi ictimaiyyət 1918-ci il hadisələri ilə bağlı daha bir tarixi həqiqəti öyrənə bildi.

***"Azərbaycan xalqının qanını axıdan şaumyanlar və onun kimi qəddar erməni cinayətkarlar Azərbaycanda qəhrəmanlar kimi təqdim olunurdu. Siz bilirsiniz ki, Bakının mərkəzində 26 Bakı komissarının***

***şərəfinə abidə ucaldılmışdı. Mən göstəriş verdim ki, o abidə sökülsün, dağıdılsın. Mən göstəriş verdim, şəxsən! Ancaq necə?! Göstəriş verdim ki, Elmlər Akademiyasının nümayəndələri, din xadimləri orada basdırılmış cəsədlərin başqa yerə köçürülməsi ilə bağlı tədbirlər görsünlər. Halbuki vaxtilə orada basdırılmış adamlar azərbaycanlılara qarşı qəddarlıq törətmişdilər. Biz yenə Azərbaycan xalqına xas olan dözümlülük, mədəniyyət, tolerantlıq nümayiş etdirdik və orada basdırılmış cəsədləri başqa yerə hörmətlə köçürdük. Ancaq o tarix daha Azərbaycanda olmamalıdır" (İlham Əliyev).***

Ermənilərin 1918-ci ildə təkcə Bakı ərazisində deyil, Azərbaycanın bütün bölgələrində, o cümlədən Qubada həyata keçirdikləri soyqırımı siyasətini bütün çılpaqlığı ilə dünya ictimaiyyətinə çatdırmaq üçün görülən dövlət tədbirlərindən biri də Qubada Soyqırımı Memorial Kompleksinin yaradılması oldu. Belə ki, 2009-cu ilin sonunda Prezident İlham Əliyev tərəfindən Quba Soyqırımı Memorial Kompleksinin yaradılmasına dair Sərəncam imzalandı. 2013-cü il sentyabrın 18-də Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksinin açılışında Prezident İlham Əliyev tarixi çıxış etdi; bu çıxış ürəyi Vətən sevgisi ilə yanan Prezidentin, tarixçi prezidentin çıxışı idi:

***" ... 1918-ci ilin mart-iyul aylarında erməni quldur dəstələri Azərbaycanın, demək olar ki, bütün ərazilərində dinc əhaliyə qarşı soyqırımı törətmişlər. Beş ay ərzində 50 mindən çox soydaşımız erməni faşizminin qurbanı olmuşdur. Bakıda, Quba qəzasında, Şamaxıda, Qusarda, İrəvanda, Naxçıvanda, Zəngəzurda, Qarabağda, Lənkəranda, demək olar ki, bütün Azərbaycan torpaqlarında bizə qarşı soyqırımı törədilmişdir. Bu memorial kompleksin yaradılması, hesab edirəm ki, tarixi hadisədir".***

Prezidentin Quba soyqırımı tarixinin araşdırılmasına böyük diqqət yetirməsi həm Azərbaycan tarixinin tədqiqi işinə, həm də müasir dövrdə erməni faşizminə qarşı ideoloji mübarizəni qazanmaq məqsədinə xidmət edir. Bu məqsədlə İlham Əliyev 2007-ci ildən etibarən bu ərazidə qazıntı işlərinin aparılmasını, tədqiqatların

genişləndirilməsini vacib saymışdır. Tədqiqat işlərinin aparılması nəticəsində aşkar edilmişdir ki, burada minlərlə soydaşımız erməni quldur dəstələri tərəfindən amansızlıqla, qəddarlıqla öldürülmüşdür. Bununla əlaqədar Prezident qeyd etmişdir: ***"2009-cu ilin sonunda mənim tərəfimdən Quba Soyqırımı Memorial Kompleksinin yaradılmasına dair Sərəncam imzalanmışdır və 2011-ci ildən işlər başlanmışdır. Bu gün biz memorial kompleksin açılışını edirik. Deyə bilərəm ki, Azərbaycanda ilk dəfə olaraq belə memorial kompleks yaradılır. Kompleksin tərtibatı çox təsirlidir, memarlığı çox böyük rəmzi məna daşıyır. Bir sözlə, burada nümayiş etdirilən eksponatlar bizim tariximizi göstərir. Eyni zamanda memorial kompleksdə yaradılmış ekspozisiya çox böyük məna daşıyır. Kompleksin girişində Quba qəzasının dinc vaxtları öz əksini tapır. Ailələr, vətəndaşlar dinc həyat sürürlər. Ondan sonra qanlı günlər, dinc əhaliyə qarşı törədilən vəhşilik əks olunur. Ekspozisiyanın sonunda, hesab edirəm ki, çox düzgün tərtibat nəticəsində insanlar buradan nikbin əhval-ruhiyyə ilə ayrılır. Çünki Bakının erməni quldur dəstələrindən azad edilməsi elə, bil ki, ekspozisiyanın son nöqtəsidir.***

***Burada həlak olmuş insanlar müxtəlif dinlərin, müxtəlif millətlərin nümayəndələridir. Onların ermənilər üçün bir günahı var idi ki, onlar erməni millətindən deyildilər".***

1918-ci il qırğınlarına tarixi qiymət verilməsinin vacibliyini bütün müvafiq çıxışlarında qeyd edən Prezident İlham Əliyev Quba Memorial Kompleksinin ekspozisiyasında Heydər Əliyevin öz əksini tapmış 1998-ci il Sərəncamı ilə bağlı qeyd edir: ***"Memorial kompleksin ekspozisiyasında Ulu Öndər Heydər Əliyevin 1998-ci ildə imzaladığı Sərəncam da öz əksini tapır – Azərbaycanlıların soyqırımı Sərəncamı. Orada göstərilir ki, Azərbaycan Xalq Cümhuriyyətinin qərarı ilə komissiya yaradılmışdır və komissiyanın görə bilmədiyi işləri artıq müstəqil Azərbaycan dövləti tamamlayır. İlk dəfə olaraq 1998-ci ildə bu soyqırımına hüquqi və siyasi qiymət verilmişdir".***

Soyqırımı məsələsinin uzun müddət araşdırılmaması, tarixçilərin qarşısına qoyulan qadağalar Azərbaycan tarixinin bu mərhələsi

haqqında böyük bir boşluğun yaranmasına gətirib çıxarmışdı. Ulu Öndər Heydər Əliyev bu məsələni hər zaman diqqətdə saxlamış, Azərbaycan tarixçisi qarşısında konkret vəzifələr qoymuşdu. Heydər Əliyevin bu məsələyə xüsusi diqqət yetirməsi Ulu Öndərin Vətən sevgisinin bariz nümunəsi idi. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, ***"Sovet dövründə, təbii ki, tarix təhrif edildiyi üçün bu həqiqətlər bizdən gizlədilirdi. Uzun illər Azərbaycan xalqının qanını axıdan quldurlar, – onların da mənfur adları orada göstərilir, - Şaumyan və onun kimiləri bizə qəhrəmanlar kimi təqdim edilirdi. Hesab edirəm ki, bu, böyük faciədir. Çünki uzun illər xalqımıza qarşı amansızlıqla vəhşilik törədən ünsürlər sovet tarixində qəhrəman kimi təqdim edilirdi, onların şərəfinə abidələr ucaldılırdı. Yalnız müstəqillik dövründə biz həqiqi ədaləti bərpa etdik. Gözəl şəhərimizi, Bakımızı o abidələrdən təmizlədik və bu gün o yerlərdə gözəl parklar, o cümlədən Sahil parkı yaradılıbdır. Yəni tarix, ədalət zəfər çaldı. Biz bu gün öz tariximizə qayıdırıq. Tarixin bütün məqamlarını bilirik, bilməliyik. Gənc nəsil də bilməlidir ki, xalqımız keçmişdə hansı fəlakətlərlə üz-üzə qalmışdır. Erməni faşizminə o vaxt düzgün qiymət verilmədiyi üçün sonra tarixin müxtəlif dövrlərində erməni faşizmi öz yırtıcı sifətini nümayiş etdirmişdir".***

Ermənistanın dövlət ideologiyasını təhlil edən Prezident İlham Əliyev Hitler Almaniyası ilə paralellər apararaq qeyd edir: ***"İkinci Dünya müharibəsi zamanı Hitlerin sərəncamında olan, ona qulluq edən erməni quldurları Ermənistanda qəhrəman kimi qəbul edilir, onların şərəfinə abidələr ucaldılır. Bu, onu göstərir ki, müasir Ermənistan dövlətinin ideologiyası da faşizm üzərində qurulmuşdur. Hesab edirəm ki, erməni faşizmi Azərbaycan alimləri tərəfindən daha geniş şəkildə tədqiq edilməlidir. Hesab edirəm ki, tarixi paralellər əsasında çox böyük əsərlər yaradılmalıdır".***

Ermənistanın fazışmi öz dövlət ideologiyasına çevirməsi və azərbaycanlılara qarşı törətdiyi soyqırımı siyasətini təhlil edən İlham Əliyev, əslində Ermənistan dövlətinin əzəli Azərbaycan torpaqları əsasında yaranmasını da tutarlı faktlarla sübut edir. Azərbaycan

tarixçilərinin bu sahədə son illərdə əldə etdiyi nailiyyətləri də göstərən tarixçi prezident irəlidə duran böyük vəzifələri də sadalayır: ***"Son illərdə, o cümlədən mənim təşəbbüsümlə alimlərimiz İrəvan xanlığı, bizim tarixi torpaqlarımız haqqında kifayət qədər dolğun və məzmunlu əsərlər yaratmışlar. Biz bu tarixi gənc nəsillərə də çatdırırıq. Məsələn, İrəvanın Ermənistanın paytaxtı elan olunmasının tarixi, hesab edirəm ki, bir çoxlarına bəlli deyildi. Biz bu məsələni qaldıranda, tarixi faktlar əsasında bu məsələyə diqqət yetirəndə, artıq bunu həm Azərbaycanda hər kəs bilir, dünyada da bilirlər ki, İrəvanın Ermənistan dövlətinin paytaxtı elan edilməsi Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən verilmiş qərar əsasında olmuşdur. Ona görə, hesab edirəm ki, tarixi həqiqətləri əks etdirən böyük elmi əsərlər yaradılmalıdır. Onların bir hissəsi artıq yaradılıbdır. Ancaq hesab edirəm ki, bu məsələyə daha da ciddi diqqət verməliyik. Ermənilərin bizim tarixi torpaqlarımıza köçürülməsi məsələləri, hesab edirəm ki, Azərbaycan elmində kifayət qədər işıqlandırılmayıb. Biz hamımız yaxşı bilirik ki, Azərbaycanın ayrılmaz torpağı olan Dağlıq Qarabağa ermənilər XIX əsrin birinci yarısında Şərqi Anadoludan və İrandan köçürülmüşdür. Onlar orada məskən salmışdır və ondan sonra dinc Azərbaycan əhalisinə qarşı öz təxribatlarını başlamışlar. Yəni bu tarixi paralel, ondan sonra Bakı soyqırımı, Quba soyqırımı, İkinci Dünya müharibəsində erməni faşizminin törətdiyi cinayətlər və keçən əsrin sonlarında növbəti dəfə erməni faşizminin təzahürləri Azərbaycan tarix elmində geniş şəkildə tədqiq edilməli və gözəl əsərlər yaradılmalıdır".***

XX yüzillikdə ermənilərin Azərbaycan xalqına qarşı soyqırımı siyasətinin davamlı olduğunu göstərən Prezident İlham Əliyev bu prosesin sovet dövründə də aparıldığını və azərbaycanlıların kütləvi deportasiyası ilə müşayiət olunduğunu qeyd edir: ***"Tarixi Azərbaycan torpaqları olan Qarabağ və Zəngəzura XIX əsrin əvvəllərindən başlayaraq erməni əhalisinin yerləşdirilməsi, demoqrafik vəziyyətin zorla dəyişdirilməsi, 1905, 1918-ci illərdə azərbaycanlı əhalini qorxutmaq və qovmaq məqsədi güdən kütləvi qırğınlar,***

***1920-ci illərdə Zəngəzurun Ermənistana verilməsi, 1948–1953-cü illərdə yüz minlərlə azərbaycanlının indiki Ermənistan ərazisindəki əzəli yurdlarından köçürülməsi xalqımıza qarşı erməni təcavüzünün qanlı səhifələridir".***

Erməni faşizminin 1980-ci illərin ortalarından başlayaraq geniş vüsət alması SSRİ-də gedən proseslərlə də bağlı idi. M.Qorbaçovun cəmiyyəti tənəzzülə sürükləyən siyasəti ölkədə erməni şovinizminin baş qaldırmasına imkan yaratdı. Bununla əlaqədar İlham Əliyev qeyd edir: ***"Erməni faşizmi özünü bir daha 1980-ci illərin sonlarında – 1990-cı illərin əvvəllərində göstərmişdir. Biz o tarixi də yaxşı xatırlayırıq. Çünki Ulu Öndər Heydər Əliyevin sovet hakimiyyətinin rəhbərliyindən uzaqlaşdırılmasından iki həftə sonra erməni millətçiləri Dağlıq Qarabağın Azərbaycandan ayrılıb Ermənistana birləşdirilməsi haqqında məsələ qaldırmışlar. O vaxtkı sovet rəhbərliyi, ilk növbədə o vaxtkı rəhbər Qorbaçov və onun ətrafında olan erməni millətçiləri Azərbaycan xalqına qarşı böyük cinayətlər törətmişlər. Qanlı Yanvar hadisələri bilavasitə Qorbaçovun əməlləridir. Ondan əvvəl və ondan sonra xalqımıza qarşı törədilən cinayətlər artıq tarixdə kifayət qədər öyrənilibdir. O vaxt Heydər Əliyev amili ermənilərin əl-qolunu bağlamışdı. Sovet dövründə – 1969-cu ilə qədər ermənilər dəfələrlə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə əlaqədar sovet hökumətinə müraciətlər etmişlər. Hətta rəsmi səviyyədə müraciətlər etmişlər. Ancaq Heydər Əliyevin qətiyyəti və çox ciddi etirazı buna imkan verməmişdir. Ondan sonra Heydər Əliyevin sovet hakimiyyətində fəaliyyəti dövrü başlamışdır. O vaxt da, əlbəttə ki, ermənilərin təxribat etmək üçün heç bir imkanları olmamışdır. 1987-ci ilin noyabrında – Ulu Öndər Heydər Əliyev vəzifədən gedəndən iki həftə sonra bu məsələ qaldırıldı və demək olar ki, o vaxtdan azərbaycanlılara qarşı növbəti soyqırımı prosesi başladı. Təxribatlar törədildi, sovet və dünya mətbuatında bu məsələ ilə bağlı yanlış və təhrif edilmiş rəy yaradıldı".***

Ermənilərin Azərbaycana qarşı deportasiya və soyqırımı siyasəti 1992-ci il Xocalı faciəsində ən pik həddinə çatdı. Xocalı faciəsi

bütün dünyaya özlərinin uydurma soyqırımlarını tanıtmağa çalışan ermənilərin XX əsrdə Azərbaycan xalqına qarşı həyata keçirdikləri ən dəhşətli soyqırımı oldu.

***"Xocalı soyqırımını törədənlər bu gün Ermənistan rəhbərliyində təmsil olunan adamlardır. Bu faciə dünyanın gözü qabağında baş vermişdir. Yəni biz bunu "erməni soyqırımı" mifi kimi heç bir əsası olmayan mifologiya əsasında deyil, real faktlar əsasında görürük. Videomateriallar, fotoşəkillər, canlı şahidlərin ifadələri – bütün bunlar həqiqətdir və reallıqdır. Ancaq, nədənsə, bəziləri bunu görmək istəmir, bəziləri bu günə qədər də ermənilər qurban kimi təqdim etmək istəyirlər. Əlbəttə ki, bunun səbəbi vardır. Dünyada fəaliyyət göstərən erməni lobbisi və onun nəzarəti altında olan bəzi riyakar və rüşvətxor siyasətçilər tarixi tamamilə təhrif edərək bütün günahı Azərbaycanın üzərinə qoymağa çalışırlar. Bu ədalətsizlik bu günə qədər də davam edir. Xocalı soyqırımı zamanı 613 günahsız insan ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir. Əgər burada uyuyan soydaşlarımız soyuq silahlarla və küt alətlərlə öldürülmüşlərsə, Xocalıda artıq soydaşlarımız avtomatlarla, qumbaralarla öldürülmüşdür. Yüzlərlə insan itkin düşmüşdür. Xocalıda ermənilər tərəfindən 63 uşaq, 106 qadın öldürülmüşdür. Bu, misli görünməmiş vəhşilikdir" (İlham Əliyev).***

Xocalı faciəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması bütün azərbaycanlıların vəzifəsinə çevrilmişdir. Bu vəzifəni Azərbaycanın jurnalisti də, tarixçisi də, diplomatı da eyni məsuliyyətilə anlayır. Qeyd edək ki, Xocalı soyqırımı haqqında həqiqətlərin dünyaya çatdırılmasında ən böyük işi Heydər Əliyev Fondu görmüşdür. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə gerçəkləşdirilən "Xocalıya ədalət!" kampaniyası bu işlərin nəhəng miqyasda həyata keçirilməsinə xidmət edir.

Erməni fazişmi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun fəaliyyətini də yüksək qiymətləndirən İlham Əliyev qeyd edir ki, ***"Bu gün Azərbaycan dövləti və Azərbaycanda fəaliyyət göstərən ictimai qurumlar, ilk***

***növbədə, Heydər Əliyev Fondu Xocalı soyqırımının dünyada soyqırımı kimi tanıdılmasında çox böyük işlər görür. Quba Soyqırımı Memorial Kompleksinin yaradılmasında da Heydər Əliyev Fondunun fəaliyyətini xüsusilə vurğulamaq istəyirəm. "Xocalıya ədalət!" kampaniyasının başlanması və uğurla davam etdirilməsində də Heydər Əliyev Fondu, bizim diaspor təşkilatlarımız və əlbəttə ki, Azərbaycan dövləti bir nöqtəyə vurur və artıq tədricən istədiyimizə nail oluruq. Artıq bir neçə ölkə rəsmi qaydada Xocalı soyqırımını soyqırımı kimi tanıyıb və bu proses davam etdirilir. Gələcəkdə bu faciələrdən sığortalanmaq üçün erməni faşizminə dünya miqyasında mütləq layiqli qiymət verilməlidir ... Mən tam əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Bütün amillər – güclərin nisbəti, beynəlxalq, iqtisadi-hərbi amillər bunu göstərir. Sadəcə olaraq, vaxt gedir. Sadəcə olara,q biz istəyirik ki, bu, tezliklə olsun. Ancaq bu, hərtərəfli və tam şəkildə olmalıdır. Azərbaycanın ərazi bütövlüyü tam şəkildə bərpa edilməlidir, Şuşada, Xankəndidə Azərbaycanın dövlət bayrağı qaldırılmalıdır və gələcəkdə azərbaycanlılar bütün tarixi torpaqlarında yaşamalıdırlar. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Göyçə, Zəngəzur mahallarıdır. Vaxt gələcək, biz orada da yaşayacağıq. Mən buna inanıram, buna əminəm. Buna nail olmaq üçün hər birimiz öz səylərimizi qoymalıyıq, hər birimiz öz işimizlə o müqəddəs günü yaxınlaşdırmalıyıq …"***

Azərbaycan xalqına qarşı həyata keçirilmiş soyqırımları siyasətinin İlham Əliyev tərəfindən dolğun təhlili, bir tərəfdən, Prezidentin yüksək tarixi biliklərindən, tarixçi təfəkküründən xəbər verirsə, digər tərəfdən, XX yüzillikdə Azərbaycanın tarixinin ən ağır səhifələrindən biri olan soyqırımı tarixinin tədqiqinə yönəlik Vətənpərvər ruhundan xəbər verir. Prezident İlham Əliyevin tarixi təhlilləri və Vətənpərvərlik ruhu Azərbaycan xalqının soyqırımı tarixinin obyektiv araşdırılmasında Azərbaycan tarixçisi üçün ideoloji əsasdır.

## Azərbaycan SSR-in tarixinə yeni baxış

Azərbaycanın müasir tarixinin qısa müddət – 70 il çəkmiş, amma öz təsirinə və nəticələrinə görə ən mürəkkəb mərhələsi, bəlkə də sovet dövrüdür, desək yanılmarıq. Bu dövrün mürəkkəbliyi, özündə daşıdığı ziddiyyətli məqamları ilə bağlıdır. Bir tərəfdən, işğal və müstəmləkəçilik faktoru, digər tərəfdən, siyasi quruluşun kardinal şəkildə və zorla dəyişdirilməsi, üçüncü bir tərəfdən isə təbii sərvətlərin və milli-mənəvi dəyərlərin mənimsənilməsi sovet dövrünün ən ağır tərəfləri olmuşdur. Amma bu dövrü mütləq mənada neqativ qiymətləndirmək, sovet cəmiyyətində baş verənləri tamamilə reqres olaraq təqdim etmək tarixi obyektivliyi əks etdirməzdi. Bu baxımdan, sovet dövrü Azərbaycan tarixinin araşdırılması hadisələrə yeni baxış tələb edir.

Məlum olduğu kimi, Sovet Rusiyasının hərbi təcavüzü nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. Şimali Azərbaycanda müstəqil Azərbaycan dövlətçiliyinə son qoyuldu. 1920-ci il aprelin 28-də Cümhuriyyət ərazisində Azərbaycan Sovet Sosialist Respublikasının (Azərbaycan SSR) yaradıldığı elan olundu. Sovet işğalından dərhal sonra ölkədə Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmış müstəqil dövlət idarəçiliyi sisteminin dağıdılmasına başlandı. Odur ki, bütün əvvəlki soyqırımlarında, o cümlədən 1918-ci ilin Mart soyqırımında, həmçinin 1920-ci ilin 28 Aprel işğalı zamanında olduğu kimi, Azərbaycan Xalq Cümhuriyyətinin dövlət strukturlarının dağıdılmasında da ermənilər, ruslar və digər millətlərin nümayəndələri xüsusi rol oynayırdılar. Elə həmin məqsədlə də mərkəzdə və yerlərdə milli dövlətçilik strukturları məhv edilir, bolşeviklərin yeni güc strukturları yaradılırdı. Ölkənin hər yerində «qırmızı terror» tüğyan edirdi. Bolşevik rejiminin möhkəmlənməsinə müqavimət göstərə biləcək hər kəs «xalq düşməni», «əks-inqilabçı» və ya «təxribatçı» adı ilə dərhal «qırmızı terror»un qurbanı olurdu.

Beləliklə, 1918-ci ilin Mart soyqırımından sonra, faktiki olaraq, Azərbaycan xalqına qarşı yeni soyqırımına başlanmışdı. Fərq onda

idi ki, bu dəfə millətin say-seçmə adamları – Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli xadimləri, generallar, Milli Ordunun yüksək rütbəli zabitləri, qabaqcıl ziyalılar, din xadimləri, partiya rəhbərləri, siyasi xadimlər, məşhur alimlər məhv edilirdi. Bolşevik-daşnak güruhu bu dəfə düşünülmüş surətdə xalqın ancaq qaymağını məhv edir, onu başsız qoymağa çalışırdı. Bu, əslində 1918-ci ilin Mart soyqırımından daha amansız, daha dəhşətli soyqırımı idi.

Azərbaycan xalqının qabaqcıl övladlarına qarşı qanlı qırğın bilavasitə Orconikidze, Kirov, Mikoyan, Sarkis, Mirzoyan, Lominadze, Yeqorov və başqaları kimi bolşevik-daşnak cəlladlarının göstərişi ilə həyata keçirilirdi. Ölkənin bütün hakimiyyət strukturlarında möhkəmlənmiş ermənilər «qırmızı terror»un həyata keçirilməsində xüsusilə fəal rol oynayırdılar. Ölkənin güc strukturlarına soxulmuş ermənilər azərbaycanlıları kütləvi surətdə istintaqsız və mühakiməsiz güllələyirdilər. Ümumiyyətlə, 1920-ci ilin 28 aprelindən sonra təxminən bir il ərzində Azərbaycan xalqının 50 min nəfərə yaxın say-seçmə övladı güllələnmiş, millət özünün qaymağından məhrum edilmişdi.

Bolşevik rejimi müstəqil dövlətçilik ənənəsini, milli mənlik ruhunu əhalinin şüurundan çıxarmaq üçün xalqın mənəviyyatına qarşı da hücuma keçdi. Cümhuriyyət dövründə dövlət dili olan Azərbaycan dili sıxışdırıldı. Milli kadrlar hazırlanması kəskin surətdə məhdudlaşdırıldı. Ruslaşdırma siyasətinə başlandı. Azərbaycan xalqının mənəviyyatına və milli mədəniyyətinə qarşı hücum dövrü başlandı. İşğaldan keçən cəmi bir il ərzində bolşeviklərin qanlı qırğınlarla müşayiət olunan zorakı tədbirləri nəticəsində Şimali Azərbaycanda, guya konstitusiyaya əsaslanan hakimiyyət orqanları formalaşdırıldı, sovet sosialist demokratiyası bərqərar oldu. Əslində isə Azərbaycan Xalq Cümhuriyyəti və onun parlamenti ilə müqayisədə, yeni yaradılan demokratiya formal və yalançı demokratiya idi, sözün əsl mənasında, kommunist diktaturası idi. Lakin diktatura kimi də müstəqil deyil, Moskvadan asılı diktatura idi. Odur ki, dünyanın ən qabaqcıl dünyəvi, demokratik respublikaları ilə bir sırada dayanan və xalqın dövlətçilik zəkasının layiqli bəhrəsi olan Azərbaycan Xalq

Cümhuriyyətinin süqutu və onun dövlət idarəçiliyi strukturlarının dağıdılması Azərbaycan xalqının tarixində ən ağır faciələrdən biri idi.

Azərbaycan xalqı özünün müstəqil hakimiyyətindən məhrum edildikdən sonra onun sərvətlərinin talan olunmasına başlandı. Torpaq üzərində xüsusi mülkiyyət ləğv olundu. Ölkənin bütün təbii sərvətləri milliləşdirildi, daha doğrusu, dövlət mülkiyyəti hesab olundu. Bakı nefti Sovet Rusiyasının əlinə keçdi. Neft sənayesinin ardınca Xəzər ticarət donanması, ölkədə fəaliyyət göstərən banklar, balıq sənayesi və iqtisadiyyatın bir çox başqa sahələri də milliləşdirildi. Milliləşdirmə XIX əsrin sonu və XX əsrin əvvəllərində sürətli inkişaf məcrasına düşmüş Şimali Azərbaycanın iqtisadiyyatına ağır zərbə vurdu. Xalqın öz sərvətlərinə mülkiyyət hüququndan məhrum edilməsi milli müstəqillik şüurunun da zəifləməsinə səbəb oldu. Sənaye istehsalı və iqtisadiyyatın idarə olunması, başlıca olaraq, rusların, ermənilərin, yəhudilərin və qeyri-millətlərin nümayəndələrinin əlində cəmləşdirildi. Azərbaycanın sərvətləri, xüsusilə Bakı nefti talan olunaraq Rusiyaya daşınmağa başladı. Sovet Rusiyası yanacaq böhranından çıxdı. Bütövlükdə Şimali Azərbaycan Rusiyanın yanacaq və xammal mənbəyinə çevrildi. Üstəlik Şimali Azərbaycanı qan içində boğmuş işğalçı ordu hissələri də Azərbaycan xalqının hesabına saxlanırdı.

1920–30-cu illərdə milli müstəmləkəçilik siyasəti daha da gücləndirildi və amansızlaşdırıldı. Yeni sosialist iqtisadiyyatının yaradılması prosesində, xüsusilə birtərəfli sənayeləşdirmə və zorakı kollektivləşdirmə nəticəsində Azərbaycan iqtisadiyyatı tamamilə mərkəzdən asılı hala salındı. Mərkəzdən yeridilən iqtisadi siyasət mahiyyətcə Azərbaycanın iqtisadi müstəqilliyinin tamamilə aradan qaldırılmasına yönəlmişdi. Bu siyasətin əsas məqsədi ölkənin xammal mənbəyinə və yardımçı istehsal diyarına çevrilməsindən ibarət idi. Xalqın milli-mənəvi dəyərlərinə də hücumlar artdı. Süni maneələrlə milli kadrların yetişdirilməsinin qarşısı alınır, kənardan Azərbaycana rus, erməni, yəhudi və qeyri-millətlərdən olan əhalinin axınına hər cür şərait yaradılır, onlar müvafiq işlə və Bakı şəhərinin ən yaxşı yer-

lərində mənzillə təmin olunurdular. Açıq-aşkar ruslaşdırma və ermənilaşdirmə siyasəti yeridilirdi. Bəhs olunan dövrdə Azərbaycan ərazisinin qonşulara paylanması siyasəti məqsədyönlü surətdə davam etdirilirdi.

1920-ci illərin sonundan başlayaraq həyata keçirilən zorakı kollektivləşdirmə, xalqın bütün əmlakının zorla əlindən alınması, qolçomaqları bir sinif kimi ləğv etmək siyasəti xalqın səbrini son həddə çatdırdı. Ölkəni yenidən müqavimət hərəkatı bürüdü. Şəki, Zaqatala, Naxçıvan, Xızı, Şəmkir, Cəbrayıl və b. yerlərdə yeni üsyanlar baş verdi. Müqavimət hərəkatının və milli oyanışın yenidən qüvvətləndiyini görən bolşevik rejimi 1930-cu illərdə Azərbaycanda daha dəhşətli repressiyalar həyata keçirdi. Azərbaycan rəhbərliyində yuva salmış və kommunist qiyafəsinə girmiş Sumbatov–Qriqoryan–Markaryan–Malyan və başqalarından ibarət olan erməni-daşnak quldurları, faktiki olaraq, Azərbaycanı azərbaycanlılardan, daha doğrusu, Azərbaycan türklərindən «təmizləməyə» başladılar. KQB və NKVD-nin mərkəzdəki və yerlərdəki strukturları da, faktiki olaraq, ermənilərin əlində idi. Hətta Azərbaycan rayonlarının yarısından çoxunda NKVD-nin yerli strukturlarına ermənilər başçılıq edirdilər. Bu baxımdan, bolşeviklər Rusiyanın tarixi «ənənəsini» davam etdirir, azərbaycanlıları yenə ermənilərin əli ilə qırdırırdılar, lakin yeni şəraitdə, yeni taktika ilə! Qondarma «cinayət işləri», «məhkəmələr», «xalq düşmənlərini ifşa etmək» pərdəsi altında keçirilən axtarışlar və cəza tədbirləri nəticəsində on minlərlə vətən övladı güllələndi və sürgün olundu. Təkcə 1937-ci ildə 29 min adam repressiyaya uğradı. Hamısı da ən layiqli Vətən övladları. Bu dövrdə Azərbaycan xalqı özünün Hüseyn Cavid, Mikayıl Müşfiq, Əhməd Cavad, Salman Mümtaz, Əli Nəzmi, Tağı Şahbazi və başqaları kimi onlarla mütəfəkkirlərini, nadir ziyalılarını itirdi. Xalqın zəka potensialı, onun ən qeyrətli şəxsiyyətləri məhv edildi. Bu dəhşətli zərbədən sonra Azərbaycan xalqı on illərlə özünə gələ bilmədi.

1930-cu illərdə bütövlükdə Azərbaycan xalqına qarşı repressiya aparılırdı. Həmin dövrdə ermənilər Qərbi Azərbaycanda da azərbay-

canlılara qarşı kütləvi təqiblər həyata keçirirdilər. Bu zaman on minlərlə azərbaycanlı Qərbi Azərbaycandan – öz əzəli ata-baba yurdlarından qovuldu. Bakıda rəhbərliyi ələ keçirmiş erməni-daşnak qrupu ilə Ermənistanın partiya rəhbərliyi əlbir hərəkət edirdi. Vaxtilə Şaumyanla Andronikin etdiyi kimi! Stalinə və Beriyaya arxalanaraq Azərbaycanda istədiyini edən erməni-daşnak güruhunun fitvası ilə bu dövrdə Şimali Azərbaycanda, xüsusilə Bakıda yaşayan minlərlə Cənubi azərbaycanlı soydaşımız zorla İrana qaytarıldı. Bu hiyləgərcəsinə düşünülmüş düşmənçilik addımı nəticəsində vaxtilə kəsbkarlığa gələn və şahlıq rejiminin təqiblərindən canını qurtarıb Şimali Azərbaycanda sığınacaq tapan həmin soydaşlarımız İranda şahlıq rejiminin yeni təqiblərinə məruz qaldılar. Beləliklə, əvvəlki tarixi dövrlərdə olduğu kimi, Rusiya müstəmləkəçiləri, ermənilər və İran irticası Azərbaycan xalqına qarşı əlbir hərəkət edirdilər. Məqsəd azərbaycanlılarsız Şimali Azərbaycan yaratmaq, sonra da onun ərazisini RSFSR-ə qatmaqdan ibarət idi. Əlbəttə, daşnaklara və gürcü millətçilərinə də müəyyən pay vermək şərti ilə!

Kütləvi qırğınlar, sürgünlərlə yanaşı, xalqın milli-mənəvi dəyərləri də məhv edilirdi. «Pantürkizm» və «panislamizm» damğaları ilə xalq öz soykökündən və milli-mənəvi dəyərlərindən məhrum edilirdi. «Formaca milli, məzmunca sosialist» mədəniyyəti yaratmaq pərdəsi altında xalqın milli-mənəvi varlığını müəyyən edən hər nə varsa, hamısı məhv edilirdi.

Lakin nə bolşeviklər, nə də onların Cənubi Qafqaz siyasətini həyata keçirən erməni millətçiləri nə qədər amansız repressiya tədbirlərinə əl atsalar da, nə qədər qanlı qırğınlar törətsələr də, qədim və zəngin dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqının milli-mənəvi varlığını məhv etmək iqtidarında deyildilər. İstiqlal ideyaları, idarə olunmaq deyil, idarə etmək əzmi Azərbaycan xalqının ruhunda yaşayırdı. Azərbaycan xalqı əvvəlki tarixi dövrlərdə də dəfələrlə bu cür ağır sınaqlardan, hətta bundan da qanlı burulğanlardan çıxmışdı. Cavidləri, Müşfiqləri, Əhməd Cavadları yetirən xalq yaşayırdı. O öz sözünü yenə deyəcəkdi!

Ağır sovet rejimi, kommunist diktaturasının 1920–30-cu illərdə həyata keçirdiyi təqiblər dövrü də Azərbaycan xalqının qurub-yaratmaq dühasını, yaradıcılıq istedadını boğa bilmədi. Çox keçmədən Azərbaycan xalqı sosializm quruculuğunun ön sıralarına çıxdı. SSRİ kimi çox geniş ərazili bir dövləti yanacaqla təmin edən Azərbaycanın neft sənayesində yeni yüksəliş baş verdi. Bakı SSRİ-nin neft akademiyasına çevrildi. Çoxlu sayda yeni sənaye müəssisələri, elektrik stansiyaları işə düşdü, yollar, kanallar çəkildi, körpülər salındı. Sənaye, kənd təsərrüfatı və mədəniyyətin bir çox sahələri sürətlə inkişaf etdi. Kütləvi savadsızlıq ləğv olundu. Müxtəlif pillədən olan təhsil müəssisələri, elmi tədqiqat mərkəzləri, səhiyyə-sağlamlıq və mədəni-maarif ocaqlarının geniş şəbəkəsi yaradıldı. İkinci Dünya müharibəsi ərəfəsində Azərbaycanda 16 ali məktəb, 18 teatr fəaliyyət göstərirdi. 1938-ci ildə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının açılması Azərbaycanın elmi həyatında mühüm hadisə idi. Mədəniyyətdə də oyanış başlanırdı.

İkinci Dünya müharibəsi illərində Azərbaycan xalqı faşizmə qarşı döyüş meydanlarında, arxa cəbhədə, həmçinin Avropanın müxtəlif ölkələrindəki antifaşist hərəkatında misilsiz qəhrəmanlıqlar göstərdi. Həmin dövrdə Azərbaycandan hərbi səfərbərliyə alınmış 600 mindən çox adamdan 170 mindən çoxu orden-medallarla təltif olundu, 130 nəfəri isə Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Müharibə dövründə Azərbaycanda akademik Yusif Məmmədəliyevin rəhbərliyi ilə hazırlanmış yeni texnologiya əsasında yüksək oktanlı aviasiya benzininin istehsalına başlandı. Bakı nefti SSRİ-nin Böyük Vətən müharibəsində qalib gəlməsində həlledici rol oynadı. A.İ.Mikoyan başda olmaqla, Kremldə yuva salmış erməni-daşnak qrupunun müharibə illərində bütün azərbaycanlıları öz doğma yurdlarından sürgün etmək planları baş tutmadı. İkinci Dünya müharibəsi Azərbaycan xalqının ən ağır sınaqlardan qələbə ilə çıxmağa qadir olan qəhrəman bir xalq olduğunu bir daha sübut etdi. 20–30-cu illərin repressiyalarında əzilmiş xalqda özünə inam hissi yenidən gücləndi.

İkinci Dünya müharibəsi başa çatdıqdan sonra da şimallı-cənublu Azərbaycan xalqına qarşı repressiyalar davam etdirildi. Azərbaycanın cənubunda yaradılmış Milli Hökumət (1945-ci il 12 dekabr–1946-cı il 14 iyun) İranın mürtəce şahlıq rejimi tərəfindən devrildi. On minlərlə azadlıq mücahidi qan içində boğuldu. Azərbaycan Milli Hökumətinin həyata keçirdiyi bütün demokratik dəyişikliklər aradan qaldırıldı.

1948–1953-cü illərdə azərbaycanlıların öz ulu vətənləri olan Qərbi Azərbaycandan (Ermənistan SSR adlanan ərazidən) kütləvi surətdə sürgün olunmasının yeni mərhələsi başlandı. Erməni millətçiləri Kremldə hökmranlıq edən Stalin–Beriya–Mikoyan güruhunun «xeyir-duası»ndan ruhlanaraq Azərbaycan xalqına növbəti dəfə divan tutdular. Ermənilər Qərbi Azərbaycan torpaqlarında daha da möhkəmləndilər. Onların bu ərazidə sayca üstünlüyü təmin olundu.

Müharibədən sonrakı ilk beşilliklərdə sənaye və kənd təsərrüfatının müxtəlif sahələrində mühüm irəliləyişlər baş verdi. Mədəniyyətin inkişafında yeni addımlar atıldı. Bakı nefti SSRİ iqtisadiyyatının bərpası və inkişafında mühüm rol oynadı. Azərbaycanlı mütəxəssislərin əməyi sayəsində Tatarıstan, Başqırdıstan, Tümen və b. yerlərdə yeni neft yataqları kəşf olundu və istismara verildi. Azərbaycan xalqının nümayəndələri Sovet İttifaqının başqa yerlərində də iqtisadiyyatın bərpası və inkişafında fəal iştirak etdilər.

Azərbaycan xalqının qurub-yaratmaq dühası sayəsində əldə olunmuş mühüm uğurlara baxmayaraq, bir sıra obyektiv və subyektiv səbəblər üzündən 1960-cı illərdə Azərbaycan iqtisadiyyatının bir çox sahələrində – həm sənayedə, həm də kənd təsərrüfatında mənfi meyillər özünü göstərməyə başladı. Respublikanın inkişafı getdikcə ləngidi və bu, əhalinin sosial vəziyyətinə mənfi təsir göstərməyə başladı. İstehsalın, o cümlədən sənaye məhsulları istehsalının ümumi inkişaf səviyyəsinə, milli gəlirin həcminə və əmək məhsuldarlığının artım sürətinə görə Azərbaycan İttifaq səviyyəsindən geri qalırdı. Və bu gerilik getdikcə artırdı. Kənd təsərrüfatı xüsusilə ağır vəziyyətə düşmüşdü. Elmi-texniki tərəqqinin nailiyyətləri istehsalatda, demək olar ki, tətbiq olunmurdu.

Respublikanın düşdüyü bu ağır vəziyyətdə Azərbaycan rəhbərliyində mühüm dəyişiklik baş verdi. 1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbərliyinin Birinci dövrü başlandı. Doğma xalqının böyük təəssübkeşi olan Heydər Əliyev totalitar rejimin hökmranlıq etdiyi mürəkkəb tarixi şəraitdə Azərbaycanı Sovet İttifaqının ən qabaqcıl respublikalarından birinə çevirmək üçün həyatın bütün sahələrində geniş islahatlar proqramı həyata keçirməyə başladı.

XX yüzilliyin 60-cı illərinin sonunda Heydər Əliyevin doğma xalqa həsr olunmuş ömür yolunda yeni, daha geniş, çoxsahəli, qaynar fəaliyyət dövrü başlandı. 1969-cu ildə – Azərbaycan SSR-də həyatın bütün sahələrində dərin tənəzzülün hökmranlıq etdiyi bir şəraitdə Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi seçildi və ölkənin ali idarəçilik sükanı arxasına keçdi. Bununla, sovet Azərbaycanının tarixində böyük dönüş dövrü başlandı. Tarixi inkişafın sonrakı gedişi sübut etdi ki, bugünkü yeni, müstəqil Azərbaycanı Heydər Əliyev hələ o zaman qurmağa başlamışdı.

Sovet rejiminin bütün xüsusiyyətlərinə dərindən bələd olan və zəngin idarəçilik təcrübəsi qazanmış Heydər Əliyev Azərbaycanı düşmüş olduğu çox ağır vəziyyətdən çıxarmaq üçün qəti addımlar atmağa başladı. O, dahiyanə uzaqgörənliklə, dərindən ölçüb-biçərək ölkənin uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks inkişaf proqramları hazırlatdı və dərhal onların icrasına başlandı. Xalq ilk addımlarındanca Heydər Əliyevi rəğbətlə qarşıladı, onu sevdi və arxasınca getdi. Azərbaycan xalqının tarixində HEYDƏR ƏLİYEV DÖVRÜ başlandı. Xalqın dahi oğlu Sovet İttifaqı kimi böyük bir dövlətin zəngin iqtisadi potensialından və geniş imkanlarından istifadə edərək Azərbaycanı tərəqqi yoluna çıxarmaq siyasəti yeritməyə başladı. Bütün ömrünü doğma xalqına həsr etdi.

Böyük siyasətçi iqtisadiyyat (o cümlədən kənd təsərrüfatı) və mədəniyyətin müxtəlif sahələrində öz Vətəninin, xalqının inkişafı üçün zəruri olan ən vacib məsələlər barədə əvvəlcə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu, Mərkəzi

Komitənin plenumları, Kommunist partiyasının qurultayları səviyyəsində əlverişli qərarlar qəbul edilməsinə nail olur, sonra da bütün xalqımızı həmin qərarların icrasına səfərbər edir, doğma Azərbaycanın tərəqqisi uğrunda yorulmadan, gecəli-gündüzlü mübarizə aparırdı. Azərbaycanı öz-özünü təmin edə bilən, müstəqil yaşamağa qadir olan və elmi-texniki cəhətdən yüksək tərəqqi etmiş bir ölkəyə (o vaxtkı terminologiya ilə desək, inzibati-iqtisadi vahidə) çevirmək onun planlarının başında gəlirdi. Bir sözlə, Vətənimizin müstəqilliyə gələn yolunu hələ o zaman Heydər Əliyev başlamışdı.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi həmin illərdə min cür maneələri dəf edərək Sovet hökumətinin Azərbaycanın hərtərəfli inkişafını təmin edən beş xüsusi qərar qəbul etməsinə nail oldu. Və eyni qətiyyətlə də həmin qərarların yerinə yetirilməsini təmin etdi. Xalqın qurub-yaratmaq dühası tamamilə və bütünlüklə Azərbaycanın ümumi yüksəlişi üçün səfərbər olundu. Nəticədə 1970–1985-ci illər sovet Azərbaycanının tarixinə, bütün varlığı ərzində, ən parlaq quruculuq dövrü kimi daxil oldu. Sənaye və kənd təsərrüfatının bütün sahələrində yüksəliş baş verdi. Respublika iqtisadiyyatında mühüm struktur dəyişiklikləri həyata keçirildi. Yeni və mütərəqqi sənaye sahələri yaradıldı. Sənayenin inkişaf səviyyəsinə görə bütün respublikanın proporsional inkişafı üçün mühüm tədbirlər görüldü. İstehsalla bilavasitə bağlı olan elmi tədqiqat sahələrinin inkişafına diqqət artırıldı. Elmi-texniki tərəqqinin nailiyyətlərinin, mütərəqqi texnologiyaların istehsalata tətbiqi sahəsində Azərbaycan bütün SSRİ-də qabaqcıl mövqelərə çıxdı. İstehsal olunan məhsulların keyfiyyət göstəricisi əvvəlki dövrlərlə müqayisə olunmayacaq dərəcədə yüksəldi.

Heydər Əliyevin uzaqgörən siyasəti, müdrik və səriştəli rəhbərliyi nəticəsində Azərbaycan o zaman bütün Sovet İttifaqında ən qabaqcıl kənd təsərrüfatı respublikasına, o cümlədən qabaqcıl pambıqçılıq və üzümçülük diyarına çevrildi. Kənd zəhmətkeşlərinin sosial-iqtisadi vəziyyəti əsaslı surətdə yaxşılaşdı. Azərbaycan kəndində misilsiz tikinti, abadlıq və mədəni quruculuq işləri aparıldı.

1970–1985-ci illərdə, tarixən qısa bir dövr ərzində, bütövlükdə respublika ərazisində yüzlərlə zavod, fabrik, istehsalat sahələri yaradıldı. 213 iri sənaye müəssisəsi işə salındı. Bir çox mühüm istehsal sahələrinə görə Azərbaycan Sovet İttifaqında aparıcı yerlərdən birini tuturdu. Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Bu illərdə istehsal olunan sənaye məhsulları öz həcminə görə əvvəlki 50 ildəkinə bərabər idi. Həmin illərin Azərbaycanı nəhəng bir tikinti meydanını xatırladırdı. Bakının və respublika rayonlarının siması büsbütün dəyişmişdi.

Bu gün Bakıya, Azərbaycanın rayonlarına gözəllik, yaraşıq verən yüzlərlə yaşayış binaları, mehmanxanalar, ictimai binalar, məktəblər, mədəniyyət sarayları, iqtisadiyyatımızın nüvəsini təşkil edən fabriklər, zavodlar, nəhəng sənaye obyektləri, iri istehsal kompleksləri, su anbarları, dəryaçalar, Kür su kəməri, yaşıllıq zonaları, istirahət ocaqları, neçə-neçə yollar, o cümlədən yurdun şimal-qərb ucqarını paytaxta bağlayan Bakı – Balakən dəmir yolu, Dağlıq Qarabağın mərkəzə – Bakıya bağlılığını artırmaq və orada Azərbaycan mühitini canlandırmaq üçün görülən mühüm tədbirlər, o cümlədən Xankəndinə dəmir yolu çəkilməsi Heydər Əliyev zəkasının, onun yorulmaz fəaliyyətinin, bu böyük insanın bütün varlığına hopmuş Vətən sevgisinin nəticəsi idi.

1970–1985-ci illər ərzində Azərbaycanın əldə etdiyi ən mühüm tarixi nailiyyətlərdən biri də xalqın uzaq gələcəyini nəzərdə tutan güclü kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssislər ordusunun yaradılması idi. Belə ki, həmin illərdə iqtisadiyyatın sürətli və çoxşaxəli inkişafına uyğun olaraq respublikanın ali və orta ixtisas təhsili şəbəkəsi genişləndirildi. SSRİ-nin 170 qabaqcıl ali məktəblərinə 3500 azərbaycanlı gənc göndərildi. Hər il təhsil almaq üçün Azərbaycandan kənara 800 tələbə yola salınırdı. Hərbi təhsilin inkişafına xüsusi diqqət yetirilirdi. SSRİ-nin kosmik uçuşlara hazırlıq mərkəzində azərbaycanlı gənclərin olmamasından narahatlıq keçirən Azərbaycan rəhbəri gənclərin ali təyyarəçilik məktəblərinə göndərilməsini şəxsi nəzarətinə götürmüşdü. Azərbaycanın gələcək inkişa-

fına ünvanlanmış strateji əhəmiyyətli bütün bu işlərə Heydər Əliyev şəxsən özü başçılıq edirdi. Bir sözlə, daim xalqının gələcəyini düşünən böyük azərbaycanlı hələ o vaxtlar zamanı qabaqlayaraq XXI yüzilliyin Azərbaycanı üçün güclü kadr potensialı yaradırdı.

Heydər Əliyevin XX yüzilliyin 70–80-ci illərinin əvvəllərində həyata keçirdiyi kompleks inkişaf proqramları nəticəsində Şimali Azərbaycan o zaman dağılmağa başlamış böyük SSRİ məkanında qabaqcıl sənaye, kənd təsərrüfatı və mədəniyyət respublikasına çevrildi. Bu, Heydər Əliyevin məqsədyönlü, qabaqcadan götür-qoy edilmiş, dərindən ölçülüb-biçilmiş və gələcəyə istiqamətlənmiş müdrik siyasətinin, dahiyanə uzaqgörənliyinin parlaq nəticəsi idi.

Heydər Əliyev hələ o zaman müstəqil yaşadığımız bu günləri görürdü, doğma Vətənini bu günlər üçün hazırlayırdı. Böyük düha sahibi yeni Azərbaycanı – bugünkü Azərbaycanı hələ o vaxtdan qurmağa başlamışdı!

Heydər Əliyevin rəhbərliyi dövründə, XX əsrin 60-cı illərinin sonu – 70-ci illərində, Azərbaycanın ümumi yüksəlişi fonunda xalqımızın tarixi keçmişinə də maraq artdı, bu sahədə də oyanış başlandı. Xalqımızın milli-mənəvi həyatında da dirçəliş başlandı. O zaman ölkəmizdə milli oyanışın əsas mərkəzlərindən biri böyük mütəfəkkirimiz Rəsul Rzanın başçılıq etdiyi Azərbaycan Ensiklopediyası idi. Ensiklopediyanın Baş redaksiyası, redaksiya ətrafında toplanmış alimlərin böyük əksəriyyəti çox cəsarətli çıxışlar edirdilər. Xalqımızın təşəkkülündə türk etnoslarının həlledici rol oynaması, Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı, Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin tariximizdə mütərəqqi rol oynaması, Cümhuriyyət dövrünün xadimlərinə obyektiv qiymət verilməsi, 1920-ci ilin Aprel işğalı kimi bir çox məsələləri o zaman məhz ensiklopediyaçılar qaldırdılar. Rəsul Rzanın həlledici köməyi ilə bu sətirlərin müəllifi Kiyevin xəritə fabrikində, ilk dəfə olaraq, Azərbaycan tarixi xəritələrinin hazırlanması və çapına nail oldu. 1972-ci ildə Ensiklopediyanın Baş redaksiyası Rəsul Rzanın redaktorluğu ilə «Azərbaycan SSR xəritələri» (Azərbaycan və rus dillərində) adlı atlas nəşr etdi. Göstərilən

COUNCIL OF EUROPE
Parliamentary
Assembly

Nuclear Security Summit 2014
The Hague, the Netherlands

tarix xəritələri həmin atlasa daxil edildi. Lakin «sapı özümüzdən olan baltalar» bütün bu məsələləri Moskvaya çuğulladılar, Ermənistandakı tarixçi «dostlarını» köməyə çağırdılar. Bizə «millətçi», «burjua məfkurəçiləri», «sovet hökumətinin və Rusiyanın düşmənləri» damğasını vurmaq məqsədilə xalqımıza qarşı 1918-ci ilin Mart soyqırımını törətmiş S.Şaumyanın oğlu L.S.Şaumyanı Bakıya gətirtdilər. O zaman «Böyük Sovet Ensiklopediyası» baş redaktorunun birinci müavini, həm də sovet ideologiyasının başında duranlardan biri olan oğul Şaumyan əlinə düşən fürsətdən istifadə edərək Azərbaycan ziyalılarına zərbə vurmaq üçün özünü oda-közə vurdu. Lakin məqsədinə çata bilmədi. Çünki Azərbaycana doğma yurdunun təəssübkeşi olan qüdrətli bir şəxsiyyət başçılıq edirdi. Məhz Heydər Əliyevin müdrikliyi və cəsarəti sayəsində o zaman həm ensiklopediyaçılar, həm də ziyalılarımızın böyük bir dəstəsi nəinki KQB-nin təqiblərinə düçar olmadı, hətta partiya cəzasından da yaxa qurtara bildilər!!!

Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə həyata keçirdiyi bütün bu əzəmətli quruculuq işlərinin çox böyük tarixi əhəmiyyəti bundan ibarət idi ki, xalqımızda milli qürur, milli mənlik şüuru oyandı, azadlıq, müstəqillik duyğuları baş qaldırdı. Bu, əslində XX yüzilliyin 70-ci illərində Azərbaycan xalqının milli azadlıq hərəkatının yeni mərhələyə – yüksəliş mərhələsinə daxil olması demək idi. Bu, Heydər Əliyevin xalqımızın istiqlal mübarizəsi tarixində misilsiz xidmətidir. Bütün bunlardan sonra, fikrimizcə, prezident Heydər Əliyevin bugünkü fəaliyyəti ilə əvvəlki rəhbərlik dövründəki fəaliyyəti arasındakı sıx məntiqi əlaqəni, dialektik vəhdəti isbat etməyə ehtiyac qalmır. Faktlar özü hər şeyi daha yaxşı sübut edir!

Həmin faktların ən böyüyü isə bu idi ki, dünya sosializm sisteminin və böyük sovet imperiyasının dağıldığı dövrdə Azərbaycan SSR artıq öz inkişaf səviyyəsinə və çoxsahəli iqtisadiyyatına görə SSRİ-nin müttəfiq respublikaları içərisində özünü yaşatmağa qadir ola biləcək ikinci respublika idi.

1991-ci il oktyabrın 18-də «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı» qəbul olunarkən Şimali Azərbaycan artıq müstəqil bir dövlət kimi yaşamağa tamamilə hazır idi.

Beləliklə, Azərbaycanın müasir tarixinin xüsusi mərhələsini təşkil edən sovet dönəmi, bir tərəfdən, Rusiya müstəmləkəçiliyinin başqa bir formada həyata keçirilməsi, digər tərəfdən, Azərbaycan xalqının öz müstəqil dövlətçiliyi uğrunda mübarizəsinin səngimədiyi, milli-mənəvi dəyərlərinin qorunub saxlanılması uğrunda mübarizəsinin getdiyi bir dönəmdir. Bu tarixin araşdırılması, sovet dönəminin bütün özəlliklərinin təhlil edilməsi Azərbaycan tarixçilərinin vəzifələrindən birini təşkil edir. Bununla əlaqədar Prezident İlham Əliyev 25 may 2012-ci ildə Respublika Günü münasibətilə təşkil etdiyi rəsmi qəbuldakı nitqində qeyd etmişdir: " ... Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra biz 70 il Sovet İttifaqının tərkibində yaşamışıq. Bu tarixin də həm müsbət, həm mənfi tərəfləri vardır. Əlbəttə, Azərbaycan müstəqilliyini itirmişdi. Biz azad deyildik, azadlıqdan məhrum edilmişdik. Biz məhdud ideoloji çərçivələr içində yaşamışdıq və Azərbaycan xalqı öz taleyinin sahibi deyildi. Ancaq bununla bərabər, müsbət məqamlar da kifayət qədər çox olmuşdur. İlk növbədə, Azərbaycanda savadsızlıqla mübarizə müsbət nəticə verdi. Savadsızlıq kimi böyük bəla aradan qaldırıldı. Elmin inkişafına təkan verildi. Azərbaycanda Milli Elmlər Akademiyası yaradılmışdır və bu gün bizim elmi elitamız sovet dövründə yetişmiş insanlardır.

***Xüsusilə 70–80-ci illərin əvvəllərində Azərbaycanda sənaye istehsalının inkişafında çox böyük işlər görülmüşdür. Faşizm üzərində qələbədə Azərbaycan xalqının və Azərbaycanın çox böyük rolu, töhfəsi olmuşdur. 600 mindən çox Azərbaycan vətəndaşı müharibədə iştirak etmişdir. Onlardan yarısı həlak olmuşdur. Azərbaycan neftçiləri ümumi Qələbəmizə əvəzedilməz töhfələr vermişlər. Azərbaycan nefti olmasaydı, müharibənin nəticələri şübhə altına düşə bilərdi.***

***Bir sözlə, sovet dövründə həm müsbət, həm mənfi məqamlar kifayət qədər çox idi. Ancaq bu dövrün də öz inkişaf mərhələləri var idi. Mən xüsusilə 70-ci illəri qeyd etmək istəyirəm. Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlməsindən sonra respublikada köklü dəyişikliklər baş vermişdir. O vaxta qədər biz geridə qalmış respublika***

***idik. Amma ondan sonra inkişaf başladı. Bu inkişaf nəticəsində böyük sənaye potensialı yaradılmışdır ki, bu gün də müstəqil Azərbaycana xidmət edir.***

***Səksəninci illərin sonlarından ölkəmizə qarşı, Azərbaycana qarşı etnik təmizləmə siyasəti başlamışdır. Azərbaycan çox böyük problemlərlə üzləşmişdir. Əlbəttə ki, mən bu barədə fikirlərimi dəfələrlə bildirmişəm və bu gün də demək istəyirəm, əgər Heydər Əliyev o vaxt xalqımız üçün həlledici məqamlarda Azərbaycanda olsaydı, bir qarış torpaq işğal altına düşməzdi ...”***

Tarixçi-Prezident Azərbaycanın sovet dönəmi tarixinə çox sərrast qiymət vermişdir. Bu təhlil göstərir ki, sovet dövrünün neqativ tərəfləri göstərilmək şərtilə, Azərbaycanın bu dövr tarixi yenidən işlənməli, ifratçılıqdan uzaq, qərəzdən uzaq tariximiz yazılmalıdır. Sovet dönəmi də bizim tariximizin bir hissəsidir və bu tarixin quruculuq, inkişafla səciyyələnən səhifələri az deyildir. Onların araşdırılıb gələcək nəsillərə obyektiv şəkildə çatdırılması Azərbaycan tarixçisinin vəzifəsidir!

## Müasir Azərbaycan Respublikasının tarixinin hərtərəfli araşdırılması zərurəti

Azərbaycanın müasir tarixinin müstəqil dövlətçiliyimizin bərpası və tərəqqisi ilə səciyyələn ikinci dövrü 1991-ci ildən başlayır. Bu dövrün digər mərhələlərlə müqayisədə qısa bir tarixi dövrü əhatə etməsinə baxmayaraq, bugünkü və gələcək Azərbaycan üçün əhəmiyyəti böyükdür.

1991-ci il oktyabrın 18-də «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı» qəbul olundu, Şimali Azərbaycan müstəqil dövlət kimi tarix səhnəsinə daxil oldu. Amma bu mərhələnin ağır tərəfləri hələ irəlidə idi: irəlidə Azərbaycanı keçid dövrü gözləyirdi ...

Müasir tərəqqiyə qovuşmuş xalqların və dövlətlərin hamısı keçid dövrünü yaşamışdır. Hərə öz xüsusiyyətləri, öz çətinlikləri ilə.

Bizim keçid dövrümüzün də öz xüsusiyyətləri, çətinlikləri, problemləri olmuşdur. Yaxından-uzaqdan çox güclü xarici hərbi-siyasi təzyiqlər, Vətən torpaqlarının mühüm hissəsinin düşmən tərəfindən işğalı, 8 milyonluq əhalisi olan bir ölkədə 1 milyondan çox qaçqın və məcburi köçkünün olması – bütün bunlar daha ağrılı-acılı etmişdir bizim keçid dövrümüzü. Üstəlik, ənənəvi xarici düşmənlərimiz Azərbaycan Respublikasının müstəqil bir dövlət kimi yaşamasının qarşısını almaq, onun daha da inkişaf edib yüksək tərəqqiyə qovuşmuş dövlətlərin sırasına çıxmasına əngəl törətmək üçün əllərindən gələni etmişlər.

Avropa ilə Asiya, Rusiya ilə Yaxın və Orta Şərq ölkələri arasında Qızıl körpü rolu oynayan Azərbaycanın azad yaşaması, getdikcə güclənməsi həmin qüvvələri heç cür təmin etmirdi. 1990-cı illərdə Azərbaycan dünya miqyasında çox qüdrətli beynəlxalq qüvvələrin mənafelərinin çarpazlaşdığı ən qaynar məntəqələrdən birinə çevrilmişdi. Son dərəcə məkrli düşmənlərin Azərbaycan xalqına qarşı yüzillərlə sınaqdan çıxarmış olduqları «erməni kartı»ndan heç zaman bu illərdəki qədər fəal və geniş miqyasda istifadə olunmamışdır. Tarixdə heç zaman Azərbaycanı daxildən parçalamaq, xalq içərisində etnik və vətəndaş qarşıdurması yaratmaq, dini təfriqə salmaq taktikasından həmin illərdəki qədər sistemli şəkildə istifadə olunmamışdı. Heç zaman Vətənin sərvətlərini talamağa və bunun üçün də Yurdun içərisində yüksək mövqelər ələ keçirməyə çalışan daxili dönüklər – «sapı özümüzdən olan baltalar» xarici düşmənlərlə indiki qədər əlbir olmamış, onlara indiki qədər canfəşanlıqla qulluq göstərməmişdilər.

Amma Azərbaycanın müstəqil bir dövlət kimi yaşaması çox zəngin və qədim tarixə, min illərlə müstəqil yaşamaq və qüdrətli dövlətçilik ənənələrinə malik olan böyük bir xalqın oyanışı demək idi. Müxtəlif dövrlərdə Ata yurdundan qəlpə-qəlpə qoparılıb alınmış torpaqlara tarixi sahiblik duyğularının oyanışı, haqqın, ədalətin, milli-mənəvi birliyin bərqərar olunması, qaytarılması uğrunda ədalətli mübarizənin başlanması – YENİ AZƏRBAYCAN İNTİBAHININ

başlanması demək idi. Azərbaycanın müstəqilliyinin getdikcə möhkəmlənməsi, həm də dünyanın müxtəlif ölkələrinə səpələnmiş 60 milyonluq böyük Azərbaycan xalqının ayağa qalxması, birləşməsi və öz haqqını tələb etməsi üçün qüdrətli təminatı idi.

Azərbaycanın yağı düşmənlərini bütün yuxarıda göstərilənlərdən daha çox narahat edən bu idi ki, bunca ağır problemləri olan Azərbaycan xalqının başında qüdrətli bir siyasətçi gəlmişdi – düşmənlərin min bir hiyləsindən, məkrli oyunlarından asanlıqla baş çıxaran, onların dayanmadan dolaşdırdıqları siyasət kələfinin ucunu əldən verməyən, siyasi dühası ilə onilləri-yüzilləri qabaqlayan, qalınqalın siyasət divarlarının arxasında nələr baş verdiyini ovcunun içi kimi görən Heydər Əliyev! Müxtəlif tarixi dövrlərdə Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş, xalqımızı dəfələrlə qan içərisində boğmuş ənənəvi düşmənlərimizin, onların bitib-tükənməyən məkr, hiylə və ən müasir silahlarının qarşısında məhz Heydər Əliyev şəxsiyyəti duruş gətirə bildi!

Həqiqətən, Heydər Əliyevin Azərbaycana başçılıq etdiyi Birinci dövrlə İkinci dövr arasındakı illər, sözün əsl mənasında, tariximizin hərc-mərclik dövrü, ağır tənəzzül illəridir. Uğursuz Qarabağ müharibəsi, hakimiyyəti ələ keçirmək xatirinə müqəddəs torpaqlarımızın düşmənə təslim edilməsi, xaricdəki ağalara daha sədaqətlə nökərçilik etmək üçün bəhsəbəhs, vaxtilə Nərimanovun qətlə yetirildiyi Kreml labirintlərindən salamat qurtarıb xalqını dardan xilas etmək üçün Vətənə qayıtmış böyük dövlət adamımız Heydər Əliyevin hakimiyyətə yaxın buraxılmaması, onu hətta Naxçıvanda da hakimiyyətdən götürmək cəhdi kimi rüsvayçılıqlar tariximizin ən qara səhifələri, ən bağışlanmaz səhvləridir. Əgər o zaman bu müdrik siyasətçi hakimiyyət sükanının arxasında əyləşsəydi, bunca müsibətlərə düçar olardıqmı?!

Bu suala Heydər Əliyev ömrünün Naxçıvan səhifələri daha aydın cavab verir: milli dövlətçilik ənənələrimizin dirçəldilməsi, muxtar respublikanın adından «sovet», «sosialist» sözlərinin çıxarılması, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan

Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunması, 1990-cı ilin 19-20 Yanvar faciəsinə siyasi qiymət verilməsi, Naxçıvan əhalisinin SSRİ-nin saxlanılması barədə referendumda iştirakdan imtina etməsi, muxtar respublika ərazisində Kommunist Partiyası yerli orqanlarının fəaliyyətinin dayandırılması, 31 Dekabr gününün Dünya azərbaycanlılarının həmrəylik günü elan olunması, nəhayət, böyük Vətəndən – Azərbaycandan ayrı düşmüş Naxçıvanda, özü də amansız hərbi-iqtisadi blokada şəraitində vətən torpağının düşməndən qorunub saxlanması – bax, bunlardır böyük şəxsiyyətimizin Naxçıvanda mühasirə şəraitində keçən ömrünün, göstərdiyi fəaliyyətin qısa yekunu!

Sərt tarixi həqiqət belədir: 1993-cü ilin iyununda – Heydər Əliyevin hakimiyyətə qayıdışı ərəfəsində Azərbaycan öz tarixinin ən qanlı burulğanı içərisində çapalayırdı. Cəbhədə ağır məğlubiyyətlər, xəyanətlər, satqınlıq, vəzifə ələ keçirmək üçün müqəddəs torpaqlarımızın hərraca qoyulması adi hal almışdı. Ölkədə, sözün əsl mənasında, hakimiyyətsizlik idi. Siyasi hərc-mərclik, hərki-hərkilik baş alıb gedirdi. Bölgələrimizdə, rayonlarda, paytaxtın ayrı-ayrı məhəllələrində, faktiki olaraq, silahlı quldur dəstələri hökmranlıq edirdilər. Xalq vahimə və təşviş içərisində idi. Atışma səslərindən camaat evində rahat yata bilmirdi. Girovgötürmə kimi çirkin qazanc vasitəsi adi hala çevrilmişdi. O dövrün başabəla rəhbərləri təyyarələrini hazır saxlayır, vəziyyət bir az mürəkkəbləşən kimi qaçıb aradan çıxırdılar. Üzdə xalqdan danışan, əslində isə sərvət düşkünləri olan bir qrup vəzifəpərəst sovet hakimiyyəti illərində toplanmış xalq əmlakına sırışt olmuşdu. Talançılıq baş alıb gedirdi. Faktiki olaraq, dövlət yox idi. Ölkəni xalq adından idarə edən, əslində isə heç bir səriştəsi olmayan, ən adi idarəçilik qaydalarının belə nə olduğunu bilməyən və xaricdəki ağalarının göstərişi ilə hərəkət edən məhdud bir qrup məmləkəti milli fəlakət həddinə çatdırmışdı. İdarəçilik sükanı sahibsiz qalmışdı. Ölkə vətəndaş müharibəsi və etnik toqquşmalar meydanına çevrilməkdə idi. Cəbhə düşmənin üzünə açıq idi. Ululərımızın müqəddəs əmanəti olan Vətən torpaqları hərraca qoyulmuşdu. Azər-

baycan xarici aləmdəki olan-qalan nüfuzunu da tamamilə itirmişdi. Xalq ümidsizlik və təlaş içərisində idi. Sabaha inam qalmamışdı. Ən təhlükəli cəhət isə bundan ibarət idi ki, Azərbaycanın xaricdəki yağı düşmənləri daxildəki satqınlarla birləşmişdilər. Daşnakların «Böyük Ermənistan» yaratmaq niyyətləri, tarixi düşmənlərimizin – qonşu ölkələrin paytaxtlarında hazırlanmış və Azərbaycanı Qafqazın siyasi xəritəsindən silib götürmək planları reallaşmaq üzrə idi. Azərbaycan torpağı etnik əlamətə görə parçalanıb yox olmaq təhlükəsi qarşısında qalmışdı. Bakı yaxınlığında – Navahı kəndində vətəndaş müharibəsinin ilk güllələri atılmış, qardaş qanı axıdılmışdı...

Bax, bu fəlakət anında Azərbaycan xalqının, Vətənin yeganə ümid yeri, qurtuluş çırağı Heydər Əliyev idi. Müdrik xalqımız, o zaman qəti və sərrast hərəkət edərək yeganə düzgün addımı atdı – dünyanın bu böyük siyasət adamını hakimiyyətə gətirdi. Bununla da Azərbaycanın xarici və daxili düşmənlərinin oxu daşa dəydi, bədxahlarımızın arzuları gözlərində qaldı. Məhz o zaman – 1993-cü ilin iyun günlərində Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanın qurtuluşunda həlledici dönüş baş verdi. Müdrik siyasətçi bir neçə gedişdən sonra vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı. Xarici və daxili düşmənlərin Azərbaycanı parçalayıb yox etmək, müstəqil dövlətimizi aradan qaldırmaq planı puça çıxdı. Dövlətimizin, xalqımızın tarixi müqəddəratının idarəçilik sükanı dahi dövlət adamının əlinə keçdi. Vətən, millət, bütün xalqımız məkrli düşmənlərin hazırladığı fəlakət uçurumuna yuvarlanmadı, fəlakətdən, ölüm qəzasından yan keçdi. Qurtuluş savaşında qələbəyə doğru dönüş başlandı.

Azadlıq, müstəqillik həm hər bir ayrıca vətəndaş üçün, həm də bütöv xalqlar, millətlər üçün ən müqəddəs, ən şirin nemətdir. Biz azadlığımızın, müstəqilliyimizin yolunu illərlə gözləmişik, mübarizə aparmışıq, minlərlə şəhid vermişik bu yolda. Azadlığı, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq bir o qədər mürəkkəb və ağır məsələdir. Qüdrətli və möhkəm dövlət olmayan yerdə azadlıq və müstəqillik də yoxdur. Dövləti olmayan xalq ölümə

məhkumdur. Azərbaycan dövləti bizim «olum, ya ölüm» məsələmizdir. Ulu Öndər Heydər Əliyevin qədirbilən xalqımız qarşısında, tariximiz qarşısında ən böyük xidməti budur ki, bu böyük düha torpaqlarımıza yiyələnmək üstündə ən kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etdi, Azərbaycan varlığını parçalanıb yox olmaq təhlükəsindən qurtardı. Dövlətimizin qorunub saxlanması isə azadlığımızın, müstəqilliyimizin qorunub saxlanması deməkdir. Qurtuluş deməkdir!

Azərbaycan dövlətçiliyi və Ulu Öndər Heydər Əliyevin qətiyyəti 1994-cü ilin Oktyabr və 1995-ci ilin Mart qəsdləri zamanı ağır sınaqlardan uğurla çıxdı. Heydər Əliyev andına sadiq qalan, dar ayaqda Vətənin müstəqilliyi, xalqın azadlığı naminə həlak olmağa hazır olan prezident olduğunu nümayiş etdirdi. Dar ayaqda xalqını, Vətənini qoyub qaçmadı. Dövlət başçısının qətiyyəti xalqa ruh yüksəkliyi gətirdi, inamımızı özümüzə qaytardı. Azərbaycan qanlı burulğandan çıxdı. Sabitlik və əmin-amanlıq yarandı. Böyük dövlət xadimi kimi Heydər Əliyevin digər tarixi qələbəsi məhz bu oldu – sabitlik. Ölkədə sabitlik yaratmaqla Heydər Əliyev öz gücünə, təcrübəsinə güvənən dahi siyasətçi kimi dəfələrlə söylədiyi məşhur kəlamına sadiq qaldığını sübut etdi.

Heydər Əliyev müharibə məsələsində düzgün mövqe tutdu. Müdrik bir strateq kimi real vəziyyətlə hesablaşdı. Məkrli düşmənlərimizin və onların beynəlxalq havadarlarının gücünü, planlarını, Azərbaycanın düşdüyü qanlı burulğanın nə qədər təhlükəli olduğunu nəzərə aldı. Vəziyyəti düzgün qiymətləndirdi. Real vəziyyətdən çıxış edərək atəşkəs rejiminə nail oldu. Bununla Azərbaycanın gənc, sağlam qüvvələrinin mənasız yerə qırılmasının qarşısını aldı – genefondumuzu xilas etdi. Bu, Azərbaycan xalqının yaşaması, gələcəyi deməkdir ...

Prezident Heydər Əliyev xalqı, yurdu milli-mənəvi parçalanmadan, iflasa uğramaqdan xilas etdi. Özündən əvvəlki «rəhbərlərin» tarixi keçmişin ibrət dərslərinə, dəyişən dünyanın real həqiqətlərinə, daxili həyatın və beynəlxalq vəziyyətin gerçəkliklərinə deyil, emosiya-

lara əsaslanaraq qəbul etdikləri səhv qərarların icrasını dayandırdı. Torpağımızın, xalqımızın, dilimizin üzərindəki əzəli və əbədi «Azərbaycan» möhürü özümüzə qaytarıldı. Bununla Vətənçilik, xalqımızın adı və dili, qüdrətimizin və vahidliyimizin əsası olan İslam-türk birliyi bərpa olundu, reallaşmaqda olan etnik toqquşmalar ehtimalı aradan qaldırıldı. Düşmənlərimizin oxu bu məsələdə də daşa dəydi.

Tarixçi Prezident İlham Əliyev müasir Azərbaycanın keçid dövrünə və ümumilikdə müstəqillik dövrü tariximizə qiymət verərkən, bu dövrü səciyyələndirmək üçün çox əhəmiyyəli elmi təhlillər aparmışdır: ***"... Azərbaycan bayrağı, bizim üçrəngli bayrağımız 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə təsdiq edilmişdir. Məhz noyabrın 9-u Azərbaycanda bundan sonra hər il Azərbaycan Dövlət Bayrağı Günü kimi qeyd olunacaqdır. Hər iki sərəncamın məhz noyabrın 17-də imzalanması səbəbi də çox məntiqli və aydındır. Məhz 1990-cı il noyabrın 17-də ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Azərbaycanda dövlət bayrağı kimi qaldırıldı. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Ali Sovetinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Naxçıvanda dövlət bayrağı kimi təsdiq edildi. Eyni zamanda o vaxtkı Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırıldı və tələb edildi ki, bu bayraq Azərbaycanın dövlət bayrağı kimi təsdiq edilsin.***

***O vaxt hələ Sovet İttifaqının dağılmasına bir ildən çox vaxt var idi. Bizim müstəqilliyə gedən yolumuz o gündən başlamışdır. Məhz Xalq Cümhuriyyətinin bayrağının dövlət bayrağı kimi qəbul olunması Azərbaycanı müstəqilliyə daha da yaxınlaşdırmış və ölkəmizdə gedən proseslərə güclü təkan vermişdir. O illər hamımızın yadındadır. O illər Azərbaycanın inkişafı, gələcəyi üçün həlledici illər idi. Azərbaycan dövlət müstəqilliyinə qovuşanda ölkədə proseslər çox mənfi istiqamətdə gedirdi. Ölkədə anarxiya, hərc-mərclik hökm sürürdü. Ölkənin inkişaf perspektivləri qeyri-müəyyən idi və Azərbaycan, əslində dövlət müstəqilliyini itirə bilərdi. Azərbaycan xalqının tələbi və müdrikliyi ilə Ulu Öndər Heydər Əliyevin haki-***

***miyyətə dəvət olunması nəticəsində Azərbaycanda bütün xoşagəlməz hallara son qoyuldu, sabitlik yarandı və inkişaf dövrü başlandı. Bu inkişaf dövrünün nəticələrini bu gün Azərbaycan vətəndaşları görürlər ...”***

Azərbaycan üçün 1990-cı illərin əvvəllərinin çox böyük məhrumiyyətlər, tələtümlər dövrü olduğunu qeyd edən İlham Əliyev bu dövrün elmi təhlilini vermişdir: ***“Müstəqilliyimizin ilk illəri ölkəmiz üçün çox ağır keçirdi, müstəqil inkişafımız, əslində şübhə altında idi. Əgər xalqın iradəsi ilə 1993-cü ildə Heydər Əliyev yenidən artıq müstəqil Azərbaycanın Prezidenti kimi hakimiyyətə gəlməsəydi, ölkəmizin gələcək taleyi çox böyük fəlakətlərlə üzləşə bilərdi. 1993-cü ildə bütün xoşagəlməz halların qarşısı alındı, ölkədə sabitlik yarandı, inkişaf başlandı. Dövlətçiliyimizin əsasları qoyuldu və ölkəmizin ümumi inkişaf strategiyası müəyyən edildi. Bu strategiya həm xarici, həm də daxili siyasəti əhatə edirdi. Azərbaycanı müasir, demokratik ölkə kimi görmək Ulu Öndərin arzusu idi. Onun fəaliyyəti, səyləri nəticəsində bu gün Azərbaycan, sözün əsl mənasında, inkişafda olan, inkişaf edən müasir, dünyəvi, demokratik ölkədir”.***

Azərbaycan tarixinin Heydər Əliyev dövrü Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi, müasir beynəlxalq aləmdə ölkəmizin mövqe qazanması və sosila-iqtisadi baxımdan sürətlə inkişaf dövrü oldu. Bu illəri xüsusi bir mərhələ kimi qeyd edən İlham Əliyev 10 illik dövrün dolğun elmi təhlilini verir: ***“1993–2003-cü illərdə dövlətçiliyimizin əsasları qoyulmuş və möhkəmlənmişdir. O illərdə iqtisadi islahatlar başlamışdır, demokratiya inkişaf etmişdir. Mən Heydər Əliyevin neft strategiyasını xüsusilə qeyd etmək istəyirəm. Əgər o vaxt bu cəsarətli və uzaqgörən addımlar atılmasaydı, bizim bugünkü iqtisadi və siyasi inkişafımız tam başqa istiqamətdə gedə bilərdi. O çətin, ağır şəraitdə, hələ ki, müharibənin dayandırılmasının ilk aylarında atılmış cəsarətli və müdrik addım Azərbaycanın bugünkü uğurlu inkişafını şərtləndirir. Heydər Əliyevin neft strategiyası haqqında kifayət qədər elmi əsərlər, məqalələr, kitablar dərc edilmişdir. Mən bu işin içində olan insan kimi, deyə bilərəm ki, doğrudan, bu, müstəqil Azərbaycan üçün həlledici addımlar idi.***

*O illərdə Azərbaycan böyük beynəlxalq təşkilatların üzvü olmuşdur. Dünya birliyinə inteqrasiyamız başlamışdır. Biz Azərbaycana böyük həcmdə investisiyaların gətirilməsinə nail ola bilmişik. Bir sözlə, dövlətçiliyimizin möhkəm siyasi, iqtisadi və ideoloji əsasları qoyulmuşdur.*

*İdeoloji əsaslara gəldikdə, Heydər Əliyev siyasətinin mərkəzində azərbaycançılıq məfkurəsi dayanmışdır. Bu gün də bu ideologiya, bu fəlsəfə bizim əsas ideoloji dayağımızdır. Eyni zamanda "Müstəqil Azərbaycanın müstəqil siyasəti olmalıdır" şüarı o vaxt da aktual idi, bu gün də aktualdır.*

*Dünya dəyişir. Dünyada cərəyan edən proseslər müxtəlif istiqamətdə inkişaf edir. Ancaq təbiətin ümumi qanunları dəyişmir.*

*Müstəqil ölkə kimi Azərbaycan bu gün də müstəqil siyasət aparır. Bu müstəqil siyasət, ilk növbədə, Azərbaycan xalqının iradəsinə əsaslanır. Bir sözlə, 1993–2003-cü illərdə ölkəmiz böyük, uğurlu yol keçmişdir. Biz Ulu Öndərin xatirəsinə həmişə böyük hörmətlə yanaşırıq. Onun siyasi xəttinə sadiqik. Onun qoyduğu yolla gedirik. Deyə bilərəm ki, müstəqilliyə gedən yol yenə də Heydər Əliyevin adı ilə bağlıdır. Hələ Sovet İttifaqı dövründə ilk dəfə olaraq Naxçıvanda bizim milli üçrəngli bayrağımız dövlət bayrağı elan edildi. Sovet İttifaqının saxlanmasına yönəlmiş referendum Naxçıvanda keçirilmədi və beləliklə, müstəqilliyə aparan ilk ciddi addımlar atıldı.*

*Biz 20 ildir ki, müstəqil ölkə kimi yaşayırıq. Keçən il müstəqilliyimizin bərpasının 20 illik yubileyini qeyd etmişik. Bu yubileyi böyük uğurlarla qeyd etmişik. İyirmi il tarix üçün böyük dövr deyildir, tarix üçün bir andır. Ancaq bu 20 il ərzində ölkəmiz çox uğurla inkişaf etmişdir.*

*Heydər Əliyev siyasəti davam etdirilir. Siyasi islahatlar davam etdirilir. Bölgədəki mövqelərimiz böyük dərəcədə möhkəmlənmişdir. Bizim təşəbbüsümüzlə həyata keçirilən layihələr, həm bizim üçün, həm bu layihələrdə bizimlə bərabər iştirak edən ölkələr üçün böyük səmərə verir. Biz demokratiyanın inkişafına çox böyük əhəmiyyət veririk. Hüquqi dövlət quruculuğu prosesi uğurla gedir. Çox*

***ciddi siyasi islahatlar aparılır. Dünyanın bu sahədə böyük təcrübəyə malik olan ölkələrinin müsbət təcrübəsi öyrənilir və Azərbaycanda tətbiq edilir. Bir sözlə, bizim ictimai-siyasi sahədəki fəaliyyətimiz çox müsbətdir, çox uğurludur.***

***Ölkədə sabit ictimai-siyasi vəziyyət mövcuddur. Xalqla iqtidar arasında vəhdət vardır. Ölkəmizin ümumi inkişaf yolları haqqında cəmiyyətdə fikir ayrılığı yoxdur. Biz bundan sonra da yalnız və yalnız müstəqilliyimizi gücləndirəcəyik, azərbaycançılıq fəlsəfəsini rəhbər tutacağıq, iqtisadi islahatları davam etdirəcəyik və güclü dövlət yaradacağıq. Bu istiqamətdə artıq böyük addımlar atılmışdır ...”***

Müasir Azərbaycan Respublikası üçün Ermənistanla münaqişənin böyük bir porblem olduğunu, Ermənistan rəhbərliyinin apardığı siyasətin isə bölgə üçün böyük neqativ amil olduğunu göstərən İlham Əliyev qeyd edir: ***“Ölkə qarşısında duran əsas vəzifə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllidir. Əfsuslar olsun ki, bu istiqamətdə heç bir nəticə yoxdur. Ermənistan uzun illərdir ki, beynəlxalq hüququ kobudcasına tapdalayır, beynəlxalq hüquq normalarına riayət etmir. Dünyanın mötəbər, aparıcı beynəlxalq təşkilatlarının qətnamələrinə əhəmiyyət vermir, məhəl qoymur.***

***Nə hərb, nə sülh vəziyyəti davam edir.***

***Müharibə hələ bitməyib. Müharibənin birinci dövrü başa çatıbdır. Biz hamımız arzu edirik ki, müharibənin ikinci dövrü başlamasın. Ancaq buna nail olmaq üçün Ermənistan beynəlxalq hüquq normalarına əməl etməli və işğal edilmiş torpaqlardan çıxmalıdır. Bildiyiniz kimi, BMT Təhlükəsizlik Şurasının məsələ ilə bağlı dörd qətnaməsi vardır. Bir neçə gün bundan əvvəl Çikaqoda keçirilən NATO zirvə görüşündə yenə bu məsələ ilə bağlı çox əsaslı və ədalətli qətnamə qəbul edilmişdir, münaqişə ölkələrin ərazi bütövlüyü çərçivəsində həll edilməlidir və ərazi bütövlüyü orada yeganə prinsip kimi göstərilmişdir. ATƏT, Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, digər təşkilatlar münaqişə ilə bağlı kifayət qədər çox qətnamələr, qərarlar qəbul etmişdir. Yəni məsələnin hüquqi müstəvidə həlli üçün əlavə heç bir addıma ehtiyac yoxdur.***

*Ancaq Ermənistanın qeyri-konstruktiv mövqeyi və indiki vəziyyəti uzatmaq cəhdləri hələ imkan vermir ki, məsələ həllini tapsın ... Biz hər gün, hər an məsələnin həllinə yaxınlaşırıq. Bizi bu günə yaxınlaşdıran amillər həm siyasi, həm iqtisadi və digər sahələrlə bağlıdır. Siyasi sahədə bu gün Azərbaycan bölgənin lider dövlətidir. Bizim kifayət qədər güclü mövqeyimiz vardır. Dünya birliyində böyük dəstəyimiz vardır. BMT Təhlükəsizlik Şurasına seçilməyimiz dünya birliyinin bizə olan münasibətini göstərir və hazırda Azərbaycan Təhlükəsizlik Şurasına sədrlik edir.*

*Bölgədə mövqelərimiz möhkəmdir. İqtisadi sahəyə gəldikdə, deyə bilərəm ki, Azərbaycan iqtisadiyyatı Cənubi Qafqaz iqtisadiyyatının 80 faizini təşkil edir və bundan sonrakı illərdə bu rəqəm yalnız artacaqdır. Çünki uzunmüddətli inkişaf strategiyamız bizə imkan verəcək ki, növbəti on il ərzində, – yəni qarşıya belə hədəf qoyulub, – ümumi daxili məhsulumuzu iki dəfə artıraq. Müqayisəedilməz fərq vardır.*

*Məsələnin həlli üçün, əlbəttə, bütün diplomatik-siyasi imkanlardan istifadə edirik, eyni zamanda hərbi gücümüzü də artırırıq.*

*Bu istiqamətdə də böyük addımlar atılmışdır. Təkcə onu demək kifayətdir ki, hazırda Azərbaycanın hərbi xərcləri Ermənistanın bütün dövlət xərclərindən 50 faiz çoxdur. Əlbəttə, həm maddi-texniki təchizatımız böyük dərəcədə yaxşılaşır, həm də ordumuzun peşəkarlığı, döyüş qabiliyyəti artır. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü orduların sırasındadır.*

*Bundan sonrakı illərdə ordu quruculuğuna göstərilən diqqət daha da çox olacaq və biz daha da güclü orduya malik olacağıq.*

*Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün digər vacib amillər də mövcuddur və bu amillər də Azərbaycanın mövqeyini gücləndirir. İqtisadi gələcəyimiz. Biz dəqiqliklə bilirik ki, gələcəkdə bizi nələr gözləyir. Çünki gələcəyimizi biz özümüz yaradırıq. Ermənistan isə gələcəyini başqa ölkələrdən verilən, yaxud da veriləcək və ya verilməyəcək ianələrlə bağlayır. Belə olan halda uzunmüddətli inkişafı proqnozlaşdırmaq mümkün deyildir. Uzun-*

***müddətli inkişafa nail olmaq üçün biz nə qədər işləmişik, nə qədər səfərbərlik işləri aparmışıq, proqramlar qəbul etmişik, layihələr icra etmişik. Yəni uzunmüddətli inkişafa nail olmaq üçün bir neçə il vaxt lazımdır. Bu gün yaranmış bu müsbət inersiya bizi qabağa aparır. Ona görə mən tam məsuliyyətlə deyə bilərəm ki, on il bundan sonra Azərbaycanın iqtisadi durumu təxminən necə olacaqdır.***

***Amma Ermənistana gəldikdə, orada, ümumiyyətlə, iqtisadiyyat iflic vəziyyətindədir və heç bir iqtisadi perspektiv yoxdur.***

***Ölkədən kütləvi şəkildə miqrasiya baş verir və əlbəttə, bu, məsələnin – yəni Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün öz rolunu oynayacaqdır.***

***Uzun illər biz yalnız siyasi, iqtisadi, hüquqi, hərbi amilləri nəzərdən keçirirdik. Deyə bilərəm ki, hazırda demoqrafik amillər də nəzərdən keçirilməlidir. Çünki bu amillər nəinki bizim bölgədə, artıq dünyada ön plana çıxır. Demoqrafik inkişaf, bəzi ölkələrdə müsbət, bəzi ölkələrdə tənəzzülə uğrayan demoqrafik proseslər, əlbəttə ki, bu gün təhlil mövzusudur. Azərbaycanda demoqrafik vəziyyət də çox müsbətdir. Bizim əhalimiz artır, 9 milyon 200 mindən çoxdur. Ermənistanda isə əksinə, əhali azalır. Yəni mən heç şübhə etmirəm ki, biz suverenliyimizi, ərazi bütövlüyümüzü istənilən yolla bərpa edəcəyik və vahid Azərbaycan uğurlu inkişafa davam edəcəkdir".***

Ermənistanın Azərbaycana qarşı apardığı ədalətsiz müharibənin ağır nəticələrini göstərən İlham Əliyev, eyni zamanda Azərbaycan Respbulikasının bölgənin lider dövləti olduğunu, iqtisadi inkişaf templərinə görə Qafqazın aparıcı ölkəsinə çevrildiyini güclü arqumentlərlə təsdiqləyir: ***"Bu günə qədər görülən işlər belə deməyə əsas verir. Çünki 20 illik tariximiz, – əlbəttə, birinci iki ili istisna etmək şərti ilə, – göstərir ki, Azərbaycan xalqı istedadlı xalqdır. Azərbaycan xalqı zəhmətkeş xalqdır. Azərbaycan xalqı bu tarixi şansı əldən verməyib. Müstəqillik tarixi bir şans idi. Çünki bizdən əvvəl əsrlər boyu nəsillər gəlirdi-gedirdi, əcdadlarımız müstəqillik arzuları ilə yaşayırdı. Amma bu müstəqilliyi görmək, müstəqilliyi möhkəmləndirmək, müstəqilliyi inkişaf etdirmək bizim nəslə nəsib oldu. Bu, ta-***

***rixi bir şans idi və Azərbaycan xalqı bu şansı nəinki əldən vermədi, bu müstəqillik dövründən maksimum səmərə ilə istifadə etdi.***

***Bu gün iqtisadi inkişaf templərinə görə Azərbaycan dünya miqyasında lider ölkədir. Beynəlxalq kredit agentlikləri böyük ölkələrin kredit reytinqlərini aşağı saldığı bir dövrdə, Azərbaycanın kredit reytinqləri qalxır. Azərbaycanda rəqabət qabiliyyətli şirkətlərin sayı artır. Ölkə iqtisadiyyatının şaxələndirilməsi, demək olar ki, təmin edilibdir. Neft–qazdan asılılıq azalır. Özəl sektorun inkişafına böyük dəstək verilir. Hazırda iqtisadiyyatımızın 80 faizi özəl sektorda formalaşır. Əgər neft-qaz yataqlarımızı və yaratdığımız nəqliyyat infrastrukturunu əlavə etsək, görərik ki, gələcəkdə Azərbaycan yalnız və yalnız inkişaf yolu ilə gedəcəkdir. Bundan sonrakı dövr üçün, bir daha demək istəyirəm ki, hər bir sahə üzrə konkret proqramlarımız və planlarımız vardır. Bu barədə də bir neçə kəlmə demək istərdim".***

Müasir Azərbaycan Respublikasının xarici siyasət kursu və prioritetləri haqqında da elmi təhlillər aparan İlham Əliyev qazanılan uğurların icmalını çox böyük sərrastlıqla verir: ***"Bundan sonra biz, ənənəvi olaraq, müstəqil xarici siyasəti davam etdirəcəyik. Bu siyasət bizə böyük uğurlar gətirmişdir. Bəzi hallarda bəzi yerli və xarici təhlilçilər əvvəlki dövrdə Azərbaycanın xarici siyasəti ilə bağlı qeyri-real fikirlər səsləndirirdilər. Ancaq həyat onu göstərdi ki, bizim xarici siyasətimiz yeganə düzgün siyasətdir. Əgər belə olmasaydı, bizim gənc dövlətimiz 155 ölkənin etimadını qazanmazdı. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına seçilməyimiz xarici siyasətimizin nə qədər düzgün olduğunun bariz nümunəsidir.***

***Bundan sonra da biz bu siyasəti davam etdirəcəyik. Xüsusilə üstünlüyü ikitərəfli əlaqələrə verəcəyik. Bu gün də bu, bizim üçün prioritetdir. Qonşularla münasibətlər xüsusi əhəmiyyət daşıyır. Çünki biz bu bölgədə yaşayırıq və əsrlər boyu bu qonşuluqda yaşamışıq bu qonşuluqda yaşayacağıq. Hər bir ölkə, o cümlədən Azərbaycan çalışmalıdır ki, qonşularla yaxşı münasibətləri olsun. Ancaq əlbəttə ki, beynəlxalq hüquq prinsipləri əsasında, bir-birinin işinə qarışmamaq şərti ilə və qarışlıqlı hörmət və etimad əsasında.***

*Bildiyiniz kimi, biz bu yaxınlarda Qoşulmama Hərəkatına üzv olduq. Bu da böyük təşkilatdır. Bir çox ölkələri əhatə edən təşkilatdır. Bu təşkilat çərçivəsində biz fəaliyyətimizi fəallaşdıracağıq. Bu təşkilatda Azərbaycana qarşı böyük rəğbət, inam vardır. Biz bu vəziyyətdən istifadə edib daha da çox dostlar qazanacağıq.*

*Azərbaycan xalqı və Azərbaycan islam dünyasının ayrılmaz parçasıdır. Bu, bizim tariximizdir, bu günümüzdür, ənənəmizdir, milli identifikasiyamızdır. Bizim milli dəyərlərimiz islam dəyərləri əsasında formalaşıbdır. Biz milli dəyərlərimizə çox sadiqik və bu dəyərlər bizim üçün hər şeydən üstündür. Dəfələrlə demişəm və şadam ki, gənc nəsil də milli ruhda böyüyür, milli ruhda tərbiyə alır. Biz Azərbaycan xalqının zəngin milli mənəvi dəyərlərini, ənənələrini qorumalıyıq, saxlamalıyıq, təbliğ etməliyik. Hər bir Azərbaycan gənci, hər bir Azərbaycan uşağı bu əhval-ruhiyyədə böyüməlidir.*

*İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində bizim çox fəal rolumuz vardır, böyük dəstəyə malikik. Beynəlxalq təşkilatlarda, demək olar ki, müsəlman ölkələrinin mütləq əksəriyyəti Azərbaycanın mövqeyini, Azərbaycan dövlətini birmənalı şəkildə dəstəkləyir.*

*Bildiyiniz kimi, biz də islam həmrəyliyinin gücləndirilməsi üçün əməli addımlar atırıq. Bakıda keçirilən müxtəlif tədbirlər bunun əyani göstəricisidir.*

*Eyni zamanda Azərbaycan Avropa strukturlarının, həmçinin Avropa Şurasının üzvüdür, bu təşkilat çərçivəsində fəaliyyət göstərir və əlbəttə ki, bu təşkilat çərçivəsində fəaliyyətimiz davam etdiriləcəkdir. Bütövlükdə, biz bütün ölkələrlə qarşılıqlı hörmət və etimad əsasında bərabərhüquqlu münasibətlər qururuq. Mən çox şadam ki, işğalçı Ermənistan istisna olmaqla, heç bir ölkə ilə ikitərəfli formatda heç bir problemimiz yoxdur. Hökumətlərarası əlaqələr çox yaxşıdır, müsbətdir. Yenə də deyirəm, bizim BMT Təhlükəsizlik Şurasına seçilməyimiz bir çox ölkələrdə Azərbaycan haqqında yeni bir təsəvvürün yaradılmasına gətirib çıxardı. Çünki 155 ölkənin dəstəyi ilə bu mötəbər, dünyanın bir nömrəli təşkilatına seçilməyimiz əlbəttə ki, böyük nəticədir. O ki qaldı beynəlxalq təşkilatlara, biz üzv oldu-*

亚洲相互协作与信任措施会议第
ummit of the Conference on Interaction and Confidence Bu
中国 上海 Shanghai, China
2014.5.20-21

294
295
229
174
83

***ğumuz beynəlxalq təşkilatlar qarşısında öhdəliklər götürmüşük. Bu öhdəlikləri vaxtında yerinə yetiririk. Üzv olmadığımız təşkilatlar qarşısında bizim heç bir öhdəliyimiz yoxdur, ola da bilməz.***

***Çünki, sadəcə, məntiq onu göstərir ki, bir halda sən bu təşkilatın üzvü deyilsən, deməli, bu təşkilat qarşısında heç bir öhdəlik daşımırsan.***

***Bundan sonra da xarici siyasətimiz həmişə olduğu kimi açıq, xoşniyyətli olacaqdır. Ancaq, əlbəttə ki, müstəqil siyasətimiz bundan sonra daha da güclənəcək və biz bölgədə gedən proseslərdə daha da fəal olacağıq. Dünyada gedən proseslərdə də rolumuz artır. Hazırda biz yeni qitələri siyasi, diplomatik cəhətdən özümüz üçün kəşf edirik. Latın Amerikası ilə bizim indi çox gözəl münasibətlərimiz formalaşır. Deyə bilərəm ki, Xocalı faciəsini soyqırımı kimi tanıyan üç ölkədən ikisi Latın Amerikası ölkəsidir. Meksika, Kolumbiya və Pakistan bizim qardaş ölkələrimizdir. Afrika qitəsindən Azərbaycana çox böyük maraq vardır. Xüsusilə BMT Təhlükəsizlik Şurasına üzv olandan sonra biz bunu görürük. Bu kontinent bizim üçün də çox maraqlıdır.***

***Yəni biz xarici siyasətimizi artıq daha da genişləndirəcəyik, iqtisadi terminlə ifadə etsək, şaxələndirəcəyik. Beləliklə, ölkəmizin dünyadakı rolunu bundan sonra böyük dərəcədə artıracağıq".***

İlham Əliyev Azərbaycanın beynəlxalq nüfuzunun yüksəldilməsi, dünya arenasında respublikanın aparıcı mövqe tutması üçün xarici siyasətin nə qədər önəmli rolu olduğunu qeyd etməklə yanaşı, daxili siyasətin də ölkənin inkişafı üçün prioritet olduğunu həm çıxışlarında, həm dövlət siyasətində nümayiş etdirir: "***Daxili siyasətlə bağlı bizim konkret proqramlarımız, qərarlarımız vardır. Biz demokratik inkişafa sadiqik. Azərbaycanda bütün demokratik institutlar fəaliyyət göstərir. Hüquqi dövlət quruculuğu sahəsində böyük uğurlar vardır. Demokratiyanın inkişafı bizim vəzifəmizdir, borcumuzdur. Bu, ilk növbədə, Azərbaycan xalqına lazımdır. Biz bu sahədəki fəaliyyətimizi kiminsə xoşuna gəlmək üçün yox, Azərbaycan xalqının rifah halını yaxşılaşdırmaq və bütün azadlıqları təmin etmək üçün edirik. Biz bundan sonra da bu siyasətə sadiq olacağıq".***

Prezident İlham Əliyevin elmi təhlili müasir Azərbaycanın 23 illik müstəqillik tarixinin ən önəmli tərəflərini üzə çıxarmağa imkan verir.

Azərbaycanımız bu gün dünyanın ən sürətlə inkişaf edən ölkəsidir. Yurdumuz regionun lider dövlətinə çevrilmişdir. Xalqımızın güzəranı günü-gündən yaxşılaşmaqda, yoxsul vətəndaşlarımızın sayı sürətlə azalmaqdadır. Az vaxt içərisində əldə edilən böyük nailiyyətlər Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi dirçəliş və inkişaf strategiyasının uğurla həyata keçirilməsi nəticəsində mümkün olmuşdur. Bu siyasətin gerçəkliyə çevrilməsində Heydər Əliyev yolunun layiqli davamçısı, Ulu Öndərin siyasi varisi Prezident İlham Əliyevlə xalq arasında yaranmış sarsılmaz birlik həlledici rol oynayır.

Azərbaycan xalqının böyük xoşbəxtliyidir ki, onun Prezidenti İlham Əliyev bugünkü sürətlə dəyişən, dinamik dünyanın nəbzini əlində saxlaya bilir, müasir, çevik və cəsarətli dövlət xadimi kimi beynəlxalq münasibətlərdə sürətlə baş verən dəyişikliklərdən öz Vətəninin və xalqının xeyrinə məharətlə istifadə etməyi bacarır, yurdumuzu gözlənilməz və gözlənilən risklərdən uğurla qoruyur. Ölkə başçımız müasir dünyada gedən siyasi və iqtisadi proseslərə dərindən bələddir, qloballaşma və inteqrasiya nəticəsində dünya meydanında baş verə biləcək bütün dəyişiklikləri irəlicədən görür və Azərbaycanı bu dəyişiklikləri qarşılamaq üçün qabaqcadan hazırlaya bilir, öz Vətənini həyatın bütün sahələrində qələbədən-qələbəyə qovuşdurur. Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır və qalib gəlir. Bu siyasəti həyata keçirən siyasi varisin zəfər yürüşü davam edir!

# AZƏRBAYCANIN ƏZƏLİ TORPAQLARININ TARİXİNİN ARAŞDIRILMASINA DÖVLƏT QAYĞISI

## "İtirilmiş torpaqların tarixi" konsepsiyasının formalaşması

"İtirilmiş torpaqların tarixi" konsepsiyası müasir Azərbaycan tarixşünaslığında elmi və siyasi baxımdan, demək olar ki, eyni dərəcədə aktuallıq kəsb edən istiqamətlərdən biridir. Bu problemin elmi tərəfi Azərbaycanın tarixi ərazisi, sərhədləri, vilayətləri, siyasi və iqtisadi əlaqələrinin kompleks araşdırılması ilə bağlıdırsa, siyasi tərəfi – müasir dünyada sürətlə gedən inteqrasiya və qloballaşma prosesləri ilə paralel, millətlərin öz müqəddəratını təyinetmə hüququ və dövlətlərin ərazi bütövlüyünə hörmət prinsiplərinə riayət edilməsi şəraitində Azərbaycan xalqının öz tarixi torpaqlarına və tarixinə sahib çıxma zərurəti ilə əlaqəlidir.

Azərbaycan tarixşünaslığında "İtirilmiş torpaqlar"ın tarixi uzun müddət unudulmuş və bu üzdən də tədqiqata cəlb edilməmişdir. İstər Cənubi Azərbaycanın, istərsə də Qərbi Azərbaycanın, həmçinin Azərbaycanın şimal-qərb torpaqlarının tarixi müvafiq olaraq İran, Rusiya, Ermənistan və Dağıstan tarixçilərinin inhisarında olmuşdur. İmperiyapərəst İran və Rusiya tarixçiləri üçün Aərbaycanın tarixi ərazisi heç bir zaman Dərbənddən Zəncanadək olan məkan çərçivəsində verilməmişdir. Rusiyanın imperiyapərəst qüvvələrinin təzyiqi ilə Dağıstan, Gürcüstan və özünün daxili xəyanətkarlığının nəticəsi olaraq Ermənistanın bir qisim mürtəce tarixçisi "şimaldan – Baş Qafqaz dağları, qərbdən – Göyçə gölü hövzəsi də daxil olmaqla, Alagöz dağ silsiləsi və Şərqi Anadolu, şərqdən – Xəzər dənizi, cənubdan isə Sultaniyyə-Zəncan-Həmədan hüdudları ilə əhatə olunan tarixi Azərbaycan torpaqları"nın heç bir vaxt akademik dairələrdə qəbul edilməsinə imkan verməmişlər. Nəticədə Azərbaycanın

İrəvan, Dərbənd, Borçalı kimi tarixi vilayətləri digər dövlətlərin tarixinin tərkibində tədqiq edilmiş və bu tədqiqatlar, təbiidir ki, obyektivlikdən kənar olmuşdur.

Azərbaycanın öz müstəqilliyini itirdiyi son 200 illik dönəmdə tarixşünaslıqda Azərbaycan tarixi ilə bağlı irəli sürülən bəzi "konsepsiyalar" elmə zidd və heç bir faktiki əsası olmayan yanlış müddəalardan ibarət olub, Azərbaycan xalqına, onun əzəli torpaqlarına, keçmişinə qərəzli, iddialı münasibət nəticəsində formalaşmışdır. Adıçəkilən problemin ən qorxulu tərəfi bu üzdəniraq "konsepsiyalar"ın tarixi Azərbaycan torpaqlarına yiyələnmək məqsədinə xidmət etməsi olmuşdur. Qədim Azərbaycan-türk torpaqlarında təşəkkül etmiş şanlı dövlətçiliyi və zəngin mədəniyyəti "özününküləşdirən" İranın, Ermənistanın və digər bədnam qonşuların tarixçiləri öz cəhdlərində o qədər irəli getmişlər ki, hətta bir çox məsələlərdə bir-biri ilə didişməyə başlamış, biri digərini tarixi təhrif etməkdə suçlamış, Azərbaycanın tarixi torpaqlarını öz aralarında bölüşdürməyə çalışmışlar.

Azərbaycanın millətsevər tarixçiləri bu "elm dəllallarına" vaxtaşırı tutarlı cavablar vermiş, onların "konsepsiyalar"ının elmdən kənar, saxta olduğunu sübut etməyə çalışmışlar. Lakin bu məsələ o qədər qlobal səciyyə almışdır ki, həmin "konsepsiyalar"a qarşı çıxmaq üçün elmi arqumentlərlə yanaşı, azərbaycançılıq ideologiyasına söykənən güclü bir konsepsiyanın yaranmasına ehtiyac yaranmışdır.

Müasir Azərbaycan tarixşünaslığında "İtirilmiş torpaqların tarixi" probleminin elmi dövriyyəyə cəlb edilməsi və bu problemin araşdırılması istiqamətində eyniadlı konsepsiyanın yaranması üçün Ulu Öndər Heydər Əliyev və onun siyasi varisi Prezident İlham Əliyev bu məsələyə dövlət əhəmiyyətli məsələ olaraq yanaşmış, bu problemlə məşğul olan tarixçilər qrupunun təşkil edilməsinə, "İtirilmiş torpaqların tarixi" konsepsiyasının formalaşmasına, bu konsepsiya ətrafında və çərçivəsində elmi araşdırmaların yaranmasına nail olunmuşdur. Hesab edirik ki, "İtirilmiş torpaqların tarixi" üzrə görülən bütün dövlət əhəmiyyətli tədbirlər və aparılan araşdırmalar müasir Azərbaycan tarix elminin böyük uğurudur.

"İtirilmiş torpaqların tarixi" konsepsiyası çərçivəsində araşdırmaların başlanması 1990-cı illərə aiddir. Keçən qısa müddət ərzində Naxçıvanın, Qarabağın, Göyçə və Zəngəzurun, İrəvanın, Şimal-Qərbi Azərbaycanın, Borçalının tarixi ciddi şəkildə araşdırılmağa başlamış, fundamental tədqiqat əsərləri yazılmışdır. Bu əsərləri, əsasən, 3 qrupda birləşdirmək olar:

1. Qarabağın və Naxçıvanın tarixi.
2. Qərbi Azərbaycanın, o cümlədən İrəvanın tarixi.
3. Şimal-Qərbi Azərbaycan torpaqlarının tarixi.

Hər üç istiqamətdə aparılan araşdırmalar Azərbaycan tarix elmini zənginləşdirmiş, yazılan tədqiqatlar müxtəlif dillərdə nəşr olunmaqla, həm Azərbaycan, həm də xarici auditoriya üçün açıq olmuşdur. "İtirilmiş torpaqların tarixi" konsepsiyası çərçivəsində araşdırmalar bu gün də davam edir və tariximizin bu səhifələrindəki təhriflər, qərəzli məqamlar artıq geridə qalmışdır. Onların sırasında "Qarabağ: real tarix, faktlar, sənədlər", "Naxçıvan: tarixi və abidələri", "İrəvan xanlığı" adlı əsərlər əzəli Azərbaycan torpaqlarının tarixinin obyektiv, həm də mötəbər mənbələr əsasında çoxillik araşdırmaların nəticəsidir. Göstərilən tədqiqatlar, həm də, Azərbaycan tarixinin dünya elmi ictimaiyyətinə (adıçəkilən kitablar müxtəlif dillərdə nəşr olunmuşdur) olduğu kimi çatdırılması yolunda böyük bir uğurdur. Bu araşdırmaların daha bir özəlliyi – torpaqlarının bir hissəsinin işğal altında olduğu Azərbaycan üçün onların təkcə elmi deyil, həm də siyasi əhəmiyyət kəsb etməsilə bağlıdır.

"Qarabağ: real tarix, faktlar, sənədlər", "Naxçıvan: tarixi və abidələri", "İrəvan xanlığı" adlı fundamental əsərlərdə özgə torpaqlarına yiyələnmək siyasəti aparan, Cənubi Qafqazı terror və soyqırımları təhlükəsi altında saxlayan, "Böyük Ermənistan" xülyası ilə yaşayan erməni şovinistlərinin, o cümlədən tarixçilərinin saxta nəzəriyyələrinə və uydurma elmlərinə böyük zərbə vurmağı bacarmışdır. Hər üç əsər saxta erməni tarixşünaslığını yendirməyi bacarmış müasir Azərbaycan tarix elminin qələbəsidir.

Bu qələbinin bariz sübutudur ki, Azərbaycan tarixi və Azərbaycan tarix elmi üçün böyük elmi və siyasi əhəmiyyəti nəzərə alınaraq,

hər üç kitab – "Qarabağ: real tarix, faktlar, sənədlər", "Naxçıvan: tarixi və abidələri", "İrəvan xanlığı" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 25 may 2012-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının Dövlət mükafatı"na layiq görülmüşdür.

"Qarabağ: real tarix, faktlar, sənədlər" adlı kitabda Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi kökləri aydınlaşdırılmış və Qarabağın əsl tarixi yazılmışdır. Adıçəkilən kitab 2005-ci ildə Moskvada keçirilən "Kitab sənəti" beynəlxalq müsabiqəsinin qalibi olmuşdur və 6 dildə nəşr olunaraq dünya ölkələrində yayılmışdır. Ən qədim zamanlardan yaşadığımız günlərədək Qarabağın tarixini əhatə edən bu tədqiqat real tarixdir, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun Prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın qeyd etdiyi kimi, "uydurmaların deyil, həqiqətin tarixidir".[1]

Kitabda Qarabağın etimologiyası, ərazisi və sərhədləri ayrıca fəsildə araşdırılmışdır və bütün faktlar mötəbər mənbələrin materiallarına əsaslanır. Azərbaycanın ən qədim tarixi vilayətlərindən biri olan "Qarabağ" adının tarixi-coğrafi anlayış kimi hələ VII yüzilliklərdən işləndiyini sübut edən müəllif onun etimologiyasının elmi izahını vermiş, Qarabağın özü kimi, "Qarabağ" sözünün də Azərbaycan xalqına məxsusluğunu yazmışdır. Elə bu fəsildə «Dağlıq Qarabağ» anlayışının uydurma olduğu və separatçılıq məqsədi daşıdığı xüsusi qeyd edilmişdir. Kitabın müvafiq fəsillərində Qarabağın ən qədim zamanlardan xanlıqlar dövrünədək tarixi, Qarabağ xanlığının tarixi, Kürəkçay müqaviləsinin nəticələri, Rusiya imperiyasının tərkibində Qarabağın etnik-siyasi və iqtisadi durumu, o cümlədən ermənilərin kütləvi şəkildə bu torpaqlara köçürülməsi, Qarabağın Azərbaycan-alban əhalisinin qriqorianlaşdırılması və ermənileşdirilməsi prosesi, ermənilərin Azərbaycanda türk əhaliyə qarşı soyqırımlarına başlaması tarixi izlənilmişdir. Bundan əlavə, kitabda Qarabağın yeni və müasir tarixi – Azərbaycan Xalq Cümhuriyyəti dövründə vəziyyəti, bölgə-

[1] Mahmudov Y.M., Şükürov K.K. Qarabağ: real tarix, faktlar. Sənədlər. Ön söz – Xanım Mehriban Əliyevanındır. Bakı, 2009, s.8

nin 1920–1980-ci illərdə siyasi və iqtisadi inkişaf xüsusiyyətləri, sovet hökumətinin Qarabağın ərazisini bölüşdürməsi, "Dağlıq Qarabağ"a muxtariyyət verilməsi və Qarabağda aparılan inzibati bölgü dəyişiklikləri xüsusi diqqətlə tədqiq edilmişdir.

Ermənistanın və Dağlıq Qarabağın erməni separatçılarının Azərbaycana qarşı işğalçılıq müharibəsi, Qarabağda erməni separatçı-terrorçu işğal rejiminin qurulması və bu rejimin təkcə Azərbaycan üçün deyil, bütün Qafqaz bölgəsi üçün təhlükə törətməsi faktları da əsərdə xüsusi olaraq nəzərdən keçirilmişdir. Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə dair Azərbaycan Respublikasının mövqeyini təhlil edən müəlliflər bu problemin həllində ciddi dönüşün yaranmasını, Ermənistanın dünyada işğalçı dövlət olaraq tanınmasını, Azərbaycanın ərazi bütövlüyünün fövqəldövlətlər tərəfindən tanınmasını Ulu Öndər Heydər Əliyevin və onun siyasi kursunun davamçısı Prezident İlham Əliyevin gərgin fəaliyyətinin nəticəsi olaraq göstərmişlər. Kitaba əlavə olunmuş arxiv sənədləri, xəritələr (o cümlədən Qarabağın qədim və orta əsrlərdə siyasi və inzibati durumunu, sərhədlərini əks etdirən xəritələr, həmçinin bölgənin demoqrafik durumu və memarlıq abidələri ilə bağlı xəritələr) də çox önəmlidir.

"Naxçıvan: tarixi və abidələri" kitabı (Bakı, 2007) Azərbaycanın əzəli torpaqlarının tarixinin ilk mənbələr, o cümlədən arxiv sənədləri əsasında araşdırılması sayəsində ərsəyə gəlmişdir. Kitabda Naxçıvanın tarixi inkişaf yolu ayrı-ayrı dövrlər üzrə nəzərdən keçirilir, verilən konkret və zəngin faktik material bu qədim Azərbaycan torpağına ərazi iddiaları ilə çıxış edən erməni saxtakarlarının heç bir elmi əsasa malik olmadıqlarını sübut edir. Tədqiqatda Naxçıvanın tarixi, şərti olaraq iki mərhələyə ayrılmışdır: Naxçıvanın ən qədim zamanlardan muxtariyyət dövrünədək olan tarixi və Naxçıvan Muxtar Respublikasının 1924-cü ildən müasir dövrədək olan tarixi inkişafı. Bu tarixi mərhələlər qısa şəkildə, lakin çox böyük faktoloji materiala əsaslanaraq araşdırılmışdır. Ələlxüsus Azərbaycanın Ümummilli liderin, müasir Azərbaycan dövlətçiliyinin banisi Heydər Əliyevin

SSRİ-nin mövcudluğu dövründə fəaliyyəti, hakimiyyətinin Naxçıvan dönəmi, Azərbaycan Respublikasının Prezidenti olaraq quruculuq işləri ardıcıl şəkildə izlənmişdir. Heydər Əliyevin Azərbaycan və o cümlədən Naxçıvan üçün gördüyü böyük işlər və qoyub getdiyi dövlətçilik mirası da əsərdə elmi qiymətini almışdır.

Kitabda diqqəti çəkən məqamlardan biri də Naxçıvanın və bütün Azərbaycanın tarixində böyük rol oynamış məşhur tarixi şəxsiyyətlərin – orta əsrlərdə Şərqin tanınmış memarı Əcəminin, ensiklopediyaçı alimi Nəsirəddin Tusinin, hərbçi Cəmşid Naxçıvanskinin, yazıçı və ictimai xadim Cəlil Məmmədquluzadənin, görkəmli kimyaçı alim Yusif Məmmədəliyevin, Azərbaycanın məşhur mütəfəkkiri Hüseyn Cavidin, Azərbaycan Respublikasının Prezidenti, müasir dünyanın məşhur siyasətçisi və dövlət xadimi İlham Əliyevin, Naxçıvan MR-in Ali Məclisinin Sədri Vasif Talıbovun fəaliyyətinə həsr olunmuş icmal-məqalələrin verilməsidir. "Naxçıvan: tarixi və abidələri" adlı kitab istər faktoloji materialına, istərsə də tədqiqat üsuluna görə fundamental əsərdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarını rəhbər tutan Azərbaycan tarixçiləri Qarabağ və Naxçıvan ilə yanaşı, İrəvanın və Qərbi Azərbaycanın, Telavidən bəri Şimal-Qərbi Azərbaycan torpaqlarının, Dərbəndin və Samur vadisinin tarixi ilə bağlı hələ keçən əsrin 90-cı illərinin əvvəllərindən hərtərəfli və dərin elmi tədqiqatlara başlanmışlar. Qeyd edək ki, bu istiqamətdə çox böyük nailiyyətlər əldə edilmişdir.

Cənubi Qafqazın tarixində mühüm rol oynamış Azərbaycan dövlətlərindən biri – İrəvan xanlığının (1747–1828) tarixinə həsr olunmuş fundamental monoqrafiya – "İrəvan xanlığı" adlı əsər (Bakı, 2009) isə təkcə Azərbaycan tarix elmində deyil, dünya tarixşünaslığı üçün nəhəng bir hadisə sayılmalıdır. AMEA Tarix İnstitutu və Regionların İnkişafı İctimai Birliyinin birgə layihəsi olan kitabda Nadir şah Əfşarın yaratdığı imperiyanın süqutundan sonra meydana çıxmış İrəvan xanlığının Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu sübuta yetirilir. Monoqrafiyada İrəvan xanlığının əhalisinin etnik

tərkibi ilkin mənbələr əsasında araşdırılır və erməni müəlliflərinin xanlığın xristian əhalisi barədə uydurma fikirləri ifşa olunur. Bundan əlavə, göstərilən tədqiqatda İrəvan xanlığının sosial-iqtisadi həyatı, sərhədləri və inzibati bölgüsü, daxili idarəçilik sistemi və xarici siyasət məsələləri işıqlandırılır. Əsərdə İrəvan xanlığının XIX yüzilliyin əvvəllərində yadelli işğalçılara qarşı qəhrəmanlıq mübarizəsi, Rusiya tərəfindən işğalı, işğal olunmuş İrəvan xanlığı ərazisinə İrandan və Osmanlı imperiyasından ermənilərin kütləvi şəkildə köçürülməsi məsələləri də geniş əksini tapmışdır.

Adıçəkilən tədqiqatlar, heç şübhəsiz, Azərbaycanın şanlı tarixinin dünya elminə qərəzsiz, obyektiv çatdırılmasına, həm də Azərbaycançılığa xidmət edir.

Şimal-Qərbi Azərbaycan ərazisinin tarixi "İtirilmiş torpaqların tarixi" konsepsiyasının tərkib hissəsini təşkil etməklə, Azərbaycan tarix elminin həm elmi, həm də siyasi baxımdan aktuallıq kəsb edən sahəsidir. Uzun illər ərzində Azərbaycanın ayrılmaz hissəsi olan bu bölgənin tarixi Rusiya və Dağıstan tarixçilərinin "inhisar"ında olmuş, onun tarixinə xeyli sayda əsər həsr olunmuşdur. Lakin Vətən tarixşünaslığında Şimal-Qərbi Azərbaycanın tarixinin səthi öyrənilməsi, Rusiya və Dağıstan tarixçilərinin isə, xeyli geniş miqyasda araşdırma aparmalarına baxmayaraq, bir çox məsələlərdə (ələlxüsus sərhədlər, əhali problemi məsələlərində) qərəzli mülahizələrə, əsassız iddialara, subyektiv müddəalara yol vermələri müasir Azərbaycan tarixşünaslığı üçün bu problemi açıq qoymuşdur.

İlk dəfə Şimal-Qərbi Azərbaycanın tarixinin obyektiv və eyni zamanda azərbaycançılıq məfkurəsində işlənməsi zərurəti 1980-ci illərin sonlarında irəli sürülmüş, qısa bir müddət ərzində Qarabağ, Naxçıvan, İrəvan ilə yanaşı, Telavidən tutmuş Şimal-Qərbi Azərbaycan torpaqlarının, Dərbəndin və Samur vadisinin tarixi ilə bağlı hərtərəfli və dərin elmi tədqiqatlar "İtirilmiş torpaqların tarixi" konsepsiyası çərçivəsində və aspektində aparılmışdır. Keçən qısa müddət ərzində böyük sayda elmi araşdırmalar ərsəyə gəlmiş, Şimal-Qərbi Azərbaycanın tarixinin ən vacib məsələləri Azərbaycan tarixçiləri

tərəfindən əsaslı və obyektiv şəkildə tədqiq edilmişdir. Bu tədqiqatların içərisində Elvira Lətifovanın "İlisu sultanlığı" (Bakı, 1999; 2010), Şirinbəy Əliyevin "İngiloylar" (Bakı, 2007), Zərinə Cavadovanın "Şimal-Qərbi Azərbaycan" (Bakı, 1999), Salman İbişovun "Quba xanlığının əhalisi" (Bakı, 2008), Arzu Məmmədovanın "Car-Balakən camaatlığı" (Bakı, 2009), Sevinc Rəhimovanın «Dərbənd şəhəri XII–XV əsrlərdə» adlı əsərlərini (Bakı, 2012) Azərbaycan tarix elminin böyük uğurlarından saymaq olar.

Son illərdə "İtirilmiş torpaqların tarixi" konsepsiyası çərçivəsində aparılan işlər təqdirəlayiqdir; ələlxüsus Azərbaycan tarixçiləri ilə Dağıstan tarixçilərinin birgə iştirakı ilə AMEA Tarix İnstitutu tərəfindən elmi konfransların və simpoziumların keçirilməsi Şimal-Qərbi Azərbaycan tarixinin indiyədək araşdırılmayan, yaxud bu və ya digər səbəbdən qərəzli araşdırılan problemlərinin yenidən öyrənilməsi yolunda ciddi addımlardır. "Şimal-Qərbi Azərbaycan tarixi" adlı kollektiv monoqrafiya (Bakı, 2012) da AMEA Tarix İnstitutunun əməkdaşlarının ərsəyə gətirdiyi fundamental bir əsərdir. Monoqrafiyanın redaksiya heyəti, əsasən, "İtirilmiş torpaqların tarixi" konsepsiyası çərçivəsində tədqiqatlar aparan mütəxəssislərdən ibarətdir. "Şimal-Qərbi Azərbaycanın tarixi" adlı kollektiv monoqrafiya, bu müəlliflərin illər boyu topladığı sənədlər əsasında elmi dəyərlər söylənərək bu torpaqların qədim dövrlərdən bu günümüzədək Azərbaycana məxsus olduğunu sübuta yetirir.

Adları çəkilən tədqiqatlar, məşhur elmi məclislərlərdə edilən məruzələr Şimal-Qərbi Azərbaycan torpaqlarının tarixini araşdırmaqla "İtirilmiş torpaqların tarixi" konsepsiyasının böyük uğurlarıdır və Azərbaycan dövlətçiliyinə xidmət edir.

## Qarabağ tarixi. Beynəlxalq arenada Qarabağ məsələsi və Prezident İlham Əliyev

***"Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Əsrlər boyu azərbaycanlılar bu diyarda yaşamışlar, ermənilər oraya qonaq kimi gəlmişlər. XIX əsrdə digər bölgələrdən ermənilərin Dağlıq Qarabağa köçürülməsi orada demoqrafik vəziyyətin dəyişdirilməsinə gətirib çıxarmışdır və Sovet İttifaqı dağılan zaman orada ermənilər əksəriyyət təşkil etmişlər. Amma bu, heç kimə əsas vermir ki, orada azlıq təşkil edən azərbaycanlıların haqları pozulsun. Azərbaycanlıların o torpağa qayıtmağa haqqı vardır və biz oraya qayıdacağıq" (İlham Əliyev).***

Qarabağ Azərbaycanın ən qədim tarixi vilayətlərindən biridir. Azərbaycan xalqının öz doğma torpağının bir parçasına verdiyi "Qarabağ" adı ilk mənbələrdə hələ 1300 il bundan əvvəl (VII əsrdə!) işlənmişdir. Qarabağ əvvəllər bir tarixi-coğrafi anlayış kimi konkret məkanı bildirmiş, sonra isə Azərbaycanın geniş coğrafi ərazisinə aid edilmişdir. Azərbaycan xalqının yüzlərlə ən qədim, ən nadir folklor nümunələri, musiqi inciləri məhz Qarabağda yaranmışdır, Qarabağla bağlıdır.

Qarabağ təkcə Azərbaycanın deyil, ümumiyyətlə, dünyanın da ən qədim tarixə malik olan diyarlarındadır. Bu ərazidəki Ağıx mağarasında ən qədim insanların yaşayış məskəni aşkar edilmişdir. Sonrakı minilliklərdə bu torpaq türkdilli tayfaların məskunlaşdığı əraziyə çevrilir. Qarabağın Azərbaycana məxsus olduğunu və burada ən qədim zamanlardan başlayaraq müxtəlif türk etnoslarının yaşadığını Azərbaycan və ümumtürk şifahi xalq ədəbiyyatının möhtəşəm abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanları da sübut edir.

Qarabağın tarixində əsaslı dəyişikliklər Ərəb xilafətinin işğalları və bunun nəticəsində Albaniya dövlətinin aradan qaldırılması ilə baş verir. Ərəb işğallarınadək Qarabağın tarixi əhalisi etnik baxımdan eyni kökdən, yəni Azərbaycan-Albaniya kökündən olduğu halda, bu dövrdə Ərəb xilafətinin Azərbaycanla bağlı yeritdiyi faciəli

siyasət nəticəsində vilayətin dağlıq hissəsində ermənilərin dini üstünlüyünün təmin edilməsi, zaman keçdikcə etnik sahədə də özünü göstərdi: Albaniyanın tarixi Arsax bölgəsi əhalisinin əvvəlcə qriqorianlaşdırılması, bunun ardınca da ermənileşdirilməsinə başlanıldı.

Monqolların birinici yürüşü zamanı (1220–1222) zəifləmiş Atabəylər dövlətinə son qoyan Xarəzmşah Cəlaləddinin Azərbaycanda hökmranlığı zamanı (1225–1231) Qarabağ da onun hakimiyyəti altında idi. Monqolların ikinci yürüşü və Azərbaycanın işğalının başa çatması ilə (1231–1239) Qarabağ digər Azərbaycan torpaqları kimi Ali Monqol xaqanlığının, sonra isə Hülakilər (Elxanilər) dövlətinin tərkibində olmuşdur.

XV əsrdə Qarabağ Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkibində idi. Azərbaycan Səfəvi dövlətinin yaranması ilə (1501) bütün Azərbaycan torpaqlarının mərkəzləşdirilməsinə başlanıldı. XVI əsrin ortalarında Azərbaycan torpaqlarının vahid dövlət halında mərkəzləşdirilməsi başa çatdı. Bununla, Azərbaycan Səfəvi dövləti bölgənin Osmanlı imperiyasından sonra ikinci ən qüdrətli dövlətinə çevrildi. Belə olduğu halda, o dövrdə ermənilərin hər hansı etnik-siyasi üstünlüyü mümkün deyildi.

Səfəvi dövlətinin zəifləməsindən sonra Azərbaycan torpaqları İran, Rusiya və Osmanlı dövlətləri arasında müharibələr meydanına çevrildi. Nadir şah Əfşar imperiyasının süqutundan sonra müstəqillik qazanmış Azərbaycan dövlətlərinin biri Qarabağ xanlığı oldu. Bu xanlıq Azərbaycanın dövlətçilik tarixində önəmli yer tutmaqla yanaşı, Azərbaycanın maddi və mənəvi mədəniyyətinin inkişaf etdiyi ən iri bölgələrdən biri oldu.

XVIII əsrin sonları – XIX əsrin başlanğıcında Rusiyanın Cənubi Qafqazda, o cümlədən Azərbaycanda işğalçılıq fəaliyyəti gücləndi. 1801-ci ildə Gürcüstan imperiyaya birləşdirildi, 1804-cü ildə Gəncə xanlığı işğal olundu. 1805-ci ildə bağlanan Kürəkçay müqaviləsi isə Qarabağ xanlığı da, faktiki olaraq, Rusiyaya ilhaq edildi. Xanlıq ləğv edildikdən sonra Qarabağda, sözün əsl mənasında, erməni-Rusiya müstəmləkə rejimi yaradıldı. Qarabağ əyaləti Şuşa qəzasına çevrildi

və Kaspi vilayətinə tabe edildi. Bununla da "Qarabağ" anlayışı siyasi mənasını itirmiş oldu və yalnız coğrafi anlayış kimi qaldı.

Çarizm Şimali Azərbaycan torpaqlarını işğal etdikcə, bu torpaqlarda möhkəmlənmək üçün həm də əhalinin erməniləşdirilməsi siyasətini də həyata keçirirdi. 1828-ci il Türkmənçay müqaviləsindən sonra bu hal daha müntəzəm və məqsədyönlü xarakter alır. Ermənilərin İrandan Şimali Azərbaycana köçürülməsi həmin müqavilənin 15-ci maddəsi ilə təsdiq olunurdu. 1829-cu ildə bağlanan Ədirnə müqaviləsi ilə isə Osmanlı imperiyasından da ermənilərin Şimali Azərbaycana köçürülməsinə başlanılır. Rəsmi məlumatlara əsasən, təkcə 1829-1830-cu illər arasında Şimali Azərbaycana, o cümlədən Qarabağa İrandan 40 min, Osmanlı imperiyasından 90 min erməni köçürülmüşdü.

Tezliklə ermənilər çarizmin hərtərəfli dəstəyi və yaratdığı əlverişli şərait nəticəsində Qarabağın iqtisadi həyatında da möhkəmləndilər. 1900-cü illərin əvvəllərindən başlayaraq ermənilərin Azərbaycan xalqına qarşı soyqırımları başladı. 1905-ci ildə baş verən soyqırımı Qarabağda daha faciəli şəkil aldı. 1918-ci ilin martında Bakıda başlanan və bütün Azərbaycanı əhatə edən yeni kütləvi soyqırımları isə Azərbaycan xalqına çox ağır zərbə vurdu. Ermənilərin soyqırımı siyasəti Azərbaycan Xalq Cümhuriyyəti dövründə də davam etdirildi.

XI Qırmızı Ordunun işğalı nəticəsində Azərbaycanda sovet hakimiyyətinin qurulması Dağlıq Qarabağın ətrafında gedən proseslərə də ciddi təsir göstərmiş oldu. Bu zamandan etibarən "Dağlıq Qarabağ" anlayışı yalnız coğrafi deyil, siyasi məna da kəsb etməyə başladı. 1923-cü ildə muxtariyyat almış Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycanın yeni sərhədləri daxilində, qısaca olaraq, Dağlıq Qarabağ adlanmağa başladı. Ermənilərin Dağlıq Qarabağ uğrunda mübarizəsi belə bir formul aldı: Dağlıq Qarabağa muxtariyyat verilməsindən sonra onun Azərbaycanın idarəsi altından çıxarılmasına – Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə doğru! Bu formulun əsasında Dağlıq Qarabağda və onun ətrafında erməni şovinizmi sovet hakimiyyəti illərində görünməmiş vüsət aldı. Xüsusilə 1941–1945-ci illər

müharibəsindən sonra bu fəallıq artmış oldu. 1948–1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR-dən – öz ata-baba torpaqlarından kütləvi surətdə deportasiyasına nail olan ermənilər Dağlıq Qarabağ ilə bağlı separatçılıq fəaliyyətlərini də gücləndirdilər. Məsələn, 1960-cı illərdə SSRİ-də antitürkiyə kampaniyasının gücləndiyi şəraitdə bu problem yenidən gendəmə gətirildi. 1965-ci ildə Dağlıq Qarabağın Ermənistana ilhaq edilməsi barədə petisiya Moskvaya təqdim edildi. Lakin 1969-cu ildə Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlməsi ilə onun cəsarətli və qətiyyətli mövqeyi sayəsində ermənilərin separatçılıq təşəbbüsləri və bu niyyətlə Mərkəzdə göstərdikləri fəaliyyət uzun müddət nəticə verə bilmədi.

Ermənilərin Azərbaycan torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qarşı iddiaları onların "Böyük Ermənistan" yaratmağa yönəlmiş starteji planlarının tərkib hissəsidir. Ona görə də ermənilər, "ənənələr"inə sadiq qalalarq, həmişə əlverişli şərait yaranan kimi bu planın reallaşdırılması uğrunda mübarizəyə başlamışlar. SSRİ-də 1985-ci ildə ermənipərəsət M.Qorbaçovun hakimiyyətə gəlməsi ilə erməni separatçıları növbəti dəfə yenidən fəallaşdılar. Dağlıq Qarabağ Muxtar Vilayəti ilə bağlı məxfi planı həyata keçirmək üçün M.Qorbaçov, ilk addım olaraq, onun qarşısında ən qüdrətli maneə olan Heydər Əliyevi Siyasi Bürodan uzaqlaşdırdı. Bundan az sonra, 1987-ci ilin noyabrında əvvəllər gizli fəaliyyət göstərən erməni "Dağlıq Qarabağ Komitəsi" və onun separatçı-terrorçu təşkilatı "Krunk" açıq işə keçdi, "Miatsum" (Birləşmə) hərəkatı formalaşdırıldı. Hadisələr 1988-ci ilin fevralından daha aqressiv məcraya yönəldi: bölgədə azərbaycanlılara qarşı terror hadisələri başladı.

Bu dövrdə Moskva qarşısında mütilik nümayiş etdirən Ə.Vəzirov başda olmaqla, Azərbaycan rəhbərliyi öz xalqına xəyanət, təcavüzkara isə güzəşt mövqeyi tuturdu. Nəticədə SSRİ Ali Soveti Rəyasət Heyəti 1989-cu il yanvarın 12-də "Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarəçilik formasının tətbiqi haqqında" qərar qəbul etdi. Məqsəd aydın idi: Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana vermək. 1989-cu il dekabrın 1-də

Ermənistan SSR Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında qərar qəbul etdi. Bu, Ermənistan tərəfindən Azərbaycan SSR-in ərazi bütövlüyünə qarşı açıq hüquqi müdaxilə aktı idi! Dağlıq Qarabağun ardınca isə Azərbaycanın paytaxtı Bakıda sovet ordusu tərəfindən azərbaycanlılara qarşı soyqırımı həyata keçirildi.

Lakin 20 yanvar 1990-cı il qırğını Azərbaycan xalqının istiqlaliyyəti və ərazi bütövlüyü uğrunda mübarizəsini gücləndirdi. Heydər Əliyev Azərbaycan xalqının bu ədalətli mübarizəsinin – Qurtuluş Savaşının önünə keçdi. 1991-ci il avqustun 30-da Azərbaycan SSR Ali Soveti dövlət müstəqilliyinin bərpa edilməsi haqqında bəyanat qəbul etdi, oktyabrın 18-də isə "Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olundu.

1991-ci ilin sonlarında SSRİ-nin dağılması ilə keçmiş sovet məkanında yeni geosiyasi şərait yarandı, Ermənistan, faktiki olaraq, Azərbaycana qarşı açıq və ədalətsiz müharibəyə başladı. 1992-ci ilin mayında Şuşanın ermənilər tərəfindən ələ keçirilməsi ilə, faktiki olaraq, bütün Dağlıq Qarabağın ərazisi işğal edildi. Erməni işğalları nəticəsində Azərbaycan sərhədlərinin 360 km-lik sahəsində 20 faizədək torpağımız işğal edildi, 20 min azərbaycanlı şəhid oldu, 100 min nəfər yaralandı, 50 min nəfər əlil oldu, 5000-dək azərbaycanlı isə əsir və girov götürüldü. İşğal altındakı azərbaycanlılara məxsus tarixi abidələr vəhşicəsinə talan edildi və dağıdıldı.

Heydər Əliyevin Azərbaycanda ikinici dəfə hakimiyyətə gəlməsi Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın mövqeyini qətiləşdirdi. Hakimiyyətin bütün proqram müddəaları, o cümlədən Dağlıq Qarabağ probleminin həlli ardıcıl şəkildə həyata keçirilməyə başlandı. 1996-cı ilin Lissabon sammitində Azərbaycanın haqlı mövqeyi, Ermənistan istisna olmaqla, dünyanın 53 dövləti tərəfindən tanındı və müdafiə olundu.

İlham Əliyevin prezidentliyə başlaması ilə Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində beynəlxalq təşkilatlarla iş və ikitərəfli əlaqələr sahəsində fəaliyyət daha da genişləndirildi. Dağlıq Qarabağ məsələsi BMT Baş Assambleyasına çıxarıldı. İlham Əliyevin dövlət

başçısı və diplomat olaraq yüksək bacarığı sayəsində 2005-ci ilin yanvarında Avropa Şurası Ermənistanı işğalçı dövlət, Dağlıq Qarabağı isə separatçı rejim kimi tanıdı.

Dağlıq Qarabağın əzəli Azərbaycan torpağı olduğunu güclü tarixi faktlarla sübuta yetirən İlham Əliyev bütün çıxışlarında, rəsmi nitqlərində bu məsələni gündəmdə saxlayır. Bu çıxışlar dünya ictimaiyyətində Qarabağın tarixi ilə bağlı obyektiv fikrin formalaşmasına xidmət edir: ***"Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Əsrlər boyu azərbaycanlılar bu diyarda yaşayıblar, ermənilər oraya qonaq kimi gəliblər. Dağlıq Qarabağın əvvəlki, yəni real coğrafi məntəqələrinin adlarına baxmaq kifayətdir. Xankəndi şəhəri əsrlər boyu bu adla mövcud olub. Köhnə xəritələrə baxanda hər kəs bunu görə bilir: Xankəndi. Stepanakert adı orada yoxdur. Stepanakert bolşevik, quldur Stepan Şaumyanın adından götürülüb. Bu ad Sovet İttifaqı zamanında verilib. Dağlıq Qarabağ – Qarabağ Azərbaycan sözüdür. Erməni dilində bunun heç bir mənası yoxdur. Bütün başqa coğrafi məntəqələrin adlarının hamısı Azərbaycan xalqı, Azərbaycan tarixi ilə bağlıdır".***

Erməni təbliğatının bu gün də Azərbaycan tarixinə qarşı apardığı ədalətsiz müharibənin ağır nəticələrini aradan qaldırmaq üçün tarixçilərin üzərinə böyük məsuliyyət düşdüyünü qeyd edən Prezident İlham Əliyev Dağlıq Qarabağın əzəli Azərbaycan torpağı olduğunu sübut edən əsərlərin yazılmasına yüksək qiymət verir: " ... ***Erməni təbliğatı bütün dünyada bizə qarşı işə salınıbdır. Biz isə həqiqətləri çatdırmalıyıq ki, Xankəndi şəhəri Stepanakert deyil, Xankəndidir. Stepanakert quldur dəstəsinin rəhbəri Şaumyanın adına verilmişdir. Mən dəfələrlə bu barədə demişəm, əgər o yaşayış məntəqəsinin tarixi adı olsa idi, o tarixi adı ermənilər bərpa edərdilər. Bu, bizim torpağımızdır. Elmi araşdırmalar və elmi əsərlər, kitablar çox vacibdir. Mən çox şadam ki, bu istiqamətdə işlər gedir. Biz bu sahədəki işimizi daha da gücləndirməliyik, müasirləşdirməliyik. Bu məsələlərə nəinki alimlərimiz, hesab edirəm ki, ictimaiyyətin üzvləri də internet vasitəsilə fəal qoşulmalıdırlar. Nəzərə alsaq ki, həqiqət və tarixi ədalət bizim tərəfimizdədir, bu, bu gün də lazımdır, gələcək üçün də".***

VILNIUS

Qarabağda erməni işğalının və terrorunun ağır nəticələri Prezidentin bütün çıxışlarında güclü tarixi faktlarla əsaslandırılır. Məsələn, 2014-cü il aprelin 24-də Praqada dövlət və hökumət başçılarının iştirakı ilə "Şərq tərəfdaşlığı" proqramının 5 illiyinə həsr olunan sammitdə Prezident İlham Əliyev çıxış edərək bildirmişdir: "... ***Türkiyə – Ermənistan sərhədinin niyə bağlı olduğunu deyə bilərəm. Türkiyə ilə Ermənistan sərhədi Azərbaycanın Kəlbəcər rayonunun 1993-cü ilin aprelində işğalından sonra bağlanıb. Bundan əvvəl isə bütün azərbaycanlılar Dağlıq Qarabağdan qovulub, Dağlıq Qarabağ əhalisinin 30 faizi azərbaycanlılar idi. Kəlbəcərdən əvvəl 1992-ci ildə ermənilər Şuşanı və Laçını işğal etdilər. Daha sonra Ağdam, Füzuli, Zəngilan, Qubadlı, Cəbrayıl – Dağlıq Qarabağın inzibati sərhədlərindən kənarda olan, ümumilikdə Azərbaycanın 7 rayonunu işğal etdilər ki, bu da Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisinin 20 faizini təşkil edir. Bizim əhali etnik təmizləməyə məruz qalıb və bu işğal, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, Avropa Parlamentinin qətnaməsi və Avropa Şurası Parlament Assambleyasının qətnaməsinə baxmayaraq, bu günədək davam edir ... Bizim torpaqlarımız işğal altındadır. Helsinki Yekun Aktında ərazi bütövlüyü və öz müqəddəratını təyinetmə prinsipləri çox aydın əks olunub. Öz müqəddəratını təyinetmə ölkələrin ərazi bütövlüyünün pozulması hesabına əldə olunmamalıdır. Üstəgəl ermənilər artıq öz müqəddəratını təyin ediblər, onların müstəqil Ermənistan dövləti var. Təsəvvür edin, əgər ermənilər hər yaşadıqları yerdə öz müqəddəratını təyin etməyi davam etdirsələr, nə baş verər. Onlar burada – Çex Respublikasında, Gürcüstanda, Rusiyada, Amerikada, yaşadıqları istənilən yerdə eyni yanaşma göstərə bilərlər. Onların öz dövləti var, onlar öz müqəddəratını təyin ediblər. Münaqişənin tez bir zamanda həlli Azərbaycanın marağındadır. Mən əminəm ki, bu, həmçinin Ermənistan xalqının marağındadır, Cənubi Qafqazda əməkdaşlıq baxımından da maraq dairəsindədir ... Biz sülh istəyirik, biz ərazilərimizin geri qaytarılmasını istəyirik. Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərindən öz qoşunlarını çıxarmağa başlamalıdır. Bunu etmək çox asandır.***

***Yalnız Ermənistan tərəfindən siyasi iradə olmalıdır. Nəhayət, sonuncu məsələ, Azərbaycan xalqı bir sual verir: Niyə Ermənistana sanksiyalar qoyulmur? Niyə Avropa Şurasındakı Ermənistan nümayəndə heyəti səsvermə və söz hüququndan məhrum edilmir? Onlar digər bir ölkənin ərazilərini işğal ediblər, beynəlxalq hüquq normalarını pozurlar, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini kobud şəkildə pozurlar və heç bir sanksiya tətbiq edilmir, heç bir cəza verilmir. Qanunsuz, kriminal Dağlıq Qarabağ rejiminin qondarma nümayəndələri Avropa paytaxtlarına vizalar alırlar. Bu dözülməzdir və buna son qoyulmalıdır".***

Azərbaycan Prezidenti İlham Əliyevin gərgin fəaliyyətinin nəticəsində əldə edilən uğurlar Ermənistan–Azərbaycan Dağlıq Qarabağ probleminin həllində ciddi dönüş yarandığını, Azərbaycanın ədalətli mövqeyinin beynəlxalq aləmdə getdikcə daha artıq müdafiə olunduğunu, işğal olunmuş Azərbaycan torpaqlarının geri alınacağı günün yaxınlaşdığını sübut edir: "***Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılması heç vaxt mümkün olmayacaqdır. Azərbaycan heç vaxt buna imkan verməyəcəkdir. Dağlıq Qarabağa heç vaxt müstəqillik verilməyəcəkdir. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir və bu gün işğal altında olan bütün şəhərlərdə, o cümlədən Şuşada, Xankəndidə Azərbaycan bayrağı dalğalanacaqdır".***

## İrəvan və Zəngəzurun tarixi

XX-XXI yüzilliklərin hüdudunda Azərbaycanın beynəlxalq aləmdəki böyük uğurlarından, dövlətimizin getdikcə güclənməsindən və ümumiyyətlə, türk dünyasının dirçəlişindən təşvişə düşən ermənilər uydurma "Böyük Ermənistan" təbliğatını daha da genişləndirmiş, həm də yeni müstəviyə keçirmişlər. "Böyük Ermənistan" yaratmaq xülyasından əl çəkməyən və yalançı "erməni soyqırımı"nı sübuta yetirməyə çalışan erməni millətçiləri müasir qloballaşan dünyada xalqların və ölkələrin yaxınlaşması yolunda ciddi əngələ

çevrilmişlər. Dünyanın hər yerinə səpələnmiş çoxsaylı erməni təşkilatlarının geniş maliyyə imkanları, Qriqorian kilsəsinin istiqamətverici və təşkilatçılıq rolu, ayrı-ayrı ölkələrin, o cümlədən böyük dövlətlərin müxtəlif strukturlarında mühüm mövqelər ələ keçirmiş ermənilərin dünya siyasətinə təsir göstərməsi sülh və əmin-amanlıq üçün, insanlığın gələcəyindən ötrü təhlükəli maneəyə çevrilmişdir.

200 ildən artıq bir müddət ərzində Azərbaycan və Türkiyə torpaqlarında qanlı terror əməlləri, soyqırımları həyata keçirmiş ermənilərin hazırda dünyada onlarla iri terrorçu təşkilatları və çoxsaylı terror qrupları fəaliyyət göstərir. Böyük dövlətlərin ikili standartlar siyasəti və "xristian təəssübkeşliyi" terrorçu-separatçı erməni qruplaşmalarının fəaliyyəti üçün əlverişli şərait yaradır. Özgə torpaqlarını işğal etmək üçün terroru, soyqırımlarını özlərinə peşə seçmiş erməni millətçiləri bu bəd niyyətlərini guya vaxtilə Aralıq dənizi – Qara dəniz – Xəzər dənizi arasındakı geniş torpaqları əhatə etmiş uydurma "Böyük Ermənistan" dövlətini dirçəltmək pərdəsi altında həyata keçirmək xülyasındadırlar.

Terrorçu-işğalçı erməni qruplarının əsas hədəfi Azərbaycan və Türkiyədir. Müasir mərhələdə Dağlıq Qarabağla bağlı işğalçılıq niyyətlərini həyata keçirməyə çalışan ermənilər, Prezident İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, Azərbaycana qarşı total hücuma keçmişlər.

Erməni millətçiləri tarixi saxtalaşdırmaqda da yeni mərhələyə qədəm qoymuş, Azərbaycan tarix elminə hücumlarını daha da genişləndirmişlər. Azərbaycanın beynəlxalq aləmdəki böyük uğurlarından, dövlətimizin getdikcə güclənməsindən və ümumiyyətlə, türk dünyasının dirçəlişindən təşvişə düşən ermənilər uydurma "Böyük Ermənistan" təbliğatını daha da genişləndirmiş, həm də yeni müstəviyə keçirmişlər. "Böyük Ermənistan" tarixi həqiqət deyil, yalnız və yalnız tarixdə heç bir zaman öz sabit ərazisi olmayan köçəri ermənilər üçün, özlərinə "Vətən" yaratmaqdan ötrü özgə torpaqlarını işğal etmək məqsədilə uydurduqları başabəla "milli ideologiyadır", mürtəce dini-ideoloji və terrorçu-işğalçılıq "doktrinasıdır". Bu işğalçı-terrorçu "doktrina" erməni millətçiləri tərəfindən özgə torpaqlarına yi-

yələnmək məqsədilə uydurulmuşdur. Və onun əsasında, artıq yuxarıda qeyd etdiyimiz kimi, guya vaxtilə "dənizdən-dənizə" geniş əraziləri əhatə etmiş olan uydurma "Böyük Ermənistan" dövlətini dirçəltmək ideyası durur.

***"Azərbaycanlılara qarşı soyqırımı siyasəti erməni şovinist millətçiləri tərəfindən yüzillər boyu planlı surətdə həyata keçirilmişdir. Bu siyasətin mahiyyəti azərbaycanlıları öz doğma torpaqlarından sıxışdırıb çıxarmaq və fiziki cəhətdən məhv etmək yolu ilə bu ərazilərdə mifik «böyük Ermənistan dövləti» yaratmaq idi. Ayrı-ayrı dövrlərdə böyük dövlətlərin müəyyən dairələrinin təhriki ilə yeridilən bu siyasət hərbi, ideoloji, mədəni, saxta "elmi" vasitələrlə davam etdirilmiş, tarixi faktların və arxiv sənədlərinin saxtalaşdırılmasından, dezinformasiyadan, dünya ictimai fikrinə ünvanlanmış bədii və psixoloji təsir metodlarından istifadə edilmişdir. Məqsədlərinə nail olmaq üçün erməni millətçiləri ayrı-ayrı ölkələrdə ideoloji, hərbi təxribat və ekspansiya ilə məşğul olan «milli-mədəni cəmiyyətlər», terroru və talançılığı əsas mübarizə metodu kimi seçmiş siyasi təşkilatlar qurmuş, erməni diasporunun və lobbisinin imkanlarından geniş istifadə etmişlər" (İlham Əliyev).***

"Böyük Ermənistan" "ideyası"nın saxtalığı ondan aydın olur ki, ilk mənbələrdə tarixdə nə vaxtsa "Böyük Ermənistan" adlı dövlətin mövcud olması barədə heç bir məlumat yoxdur. Və özlərini az qala regionun "ən qədim xalqı", "Nuh peyğəmbərin övladları" kimi qələmə verən erməni millətçilərinin uydurmalarının əksinə olaraq ermənilər, daha doğrusu, onların ulu babaları hesab olunan qəbilələr, ümumiyyətlə, Asiya qitəsinin yerli əhalisi deyillər, bu regiona köçüb gəlmədirlər. Antropoloji, o cümlədən somotoloji, kranioloji, odontoloji, seroloji araşdırmalar sübut edir ki, uydurma "armenoid irqi" və ermənilər nəinki Cənubi Qafqazın aborigen əhalisi – yerli sakinləri deyillər, ümumiyyətlə, Ön Asiyaya da sonradan gəlmişlər. Arxeoloji qazıntılar zamanı indiki Ermənistan Respublikası ərazisindən aşkar olunmuş qazıntı materialları, o cümlədən qədim insan qalıqları da bunu aydın sübut edir.

Tədqiqatçılar göstərirlər ki, müasir ermənilərin əcdadları olduğu güman edilən köçəri qəbilələr eramızdan əvvəl təxminən XII əsrdə Balkan yarımadasından hərəkətə başlayıb Kiçik Asiyaya keçmiş və Yuxarı Fərat vadisində (Van gölünə doğru ərazilərdə) məskən salmışlar. Ermənilərin əcdadlarının bu əraziyə gəlmə olduqları tarix elmində sübut edilmiş faktdır. Ermənilərin əcdadları güman edilən qəbilələrin köç saldıqları Yuxarı Fərat vadisi sonralar Urartu dövlətinin, Midiya (Mada) imperiyasının və İran-Əhəməni şahlığının tərkibinə daxil olmuşdur. Əhəməni şahlığının süqutundan sonra Balkan yarımadasından Kiçik Asiyaya köçüb gəlmiş və erməni tarixçilərinin "ermənileşdirdiyi", əslində isə ermənilərin əcdadları olduğu güman edilən (!) qəbilələrin yuxarı Fərat vadisində kiçik bir knyazlığı yarandı. Və zaman keçdikcə regiondakı siyasi hadisələrdən istifadə edərək tədriclə güclənən bu knyazlıq mənşəcə parfiyalı olan (yəni erməni olmayan!) II Tiqranın (e.ə.95–55) hakimiyyətinin əvvəllərində qonşu ölkələrə (Kiçik Asiyanın qərbinə və Mesopotamiyaya doğru, yəni, Şərqə tərəf – Azərbaycana doğru yox!!!) işğalçı yürüşlər edərək, qısa bir müddət ərzində öz hakimiyyəti altında olan ərazini genişləndirə bildi. Lakin e.ə. 66-cı ildə Roma sərkərdəsi Pompey II Tiqranın hərbi qüvvələrini darmadağın etdikdən sonra, Kiçik Asiyanın şərqində mövcud olmuş bu knyazlıq müstəqil dövlət kimi tarix səhnəsindən silinib getmişdir. Kiçik Asiyanın şərqində ermənilərin yenidən siyasi səhnəyə gəlməsi xristian dininin meydana gəlməsi və yayılması dövrünə təsadüf edir.

Xristianlığı qəbul etdikdən bir müddət sonra vahid xristian kilsəsindən üz döndərən ermənilər təriqətçi monofizitlərin tərəfinə keçdilər və özlərinin əlahiddə Qriqorian kilsəsini yaratdılar. Qriqorian kilsəsi, artıq erməni dövlətinin mövcud olmadığı şəraitdə, pərakəndə erməni icmalarının təkcə dini deyil, eyni zamanda siyasi himayəçisi funksiyasını da yerinə yetirməyə başladı. Qriqorian kilsəsi öz missionerləri vasitəsilə qonşu ərazilərdə, o cümlədən Azərbaycan dövləti olan Qafqaz Albaniyasının qərb-dağlıq ərazilərində yaşayan yerli alban-xristian əhali arasında qriqorianlığı yaymağa başladı. Ərəb

xilafəti zəiflədikdən sonra Qriqorian kilsəsi bu dəfə Azərbaycan türk dövlətlərinə – Qaraqoyunlulara, Ağqoyunlulara, Səfəvilərə və nəhayət, Osmanlı imperiyasına sığındı. Azərbaycan Qaraqoyunlu dövlətinin başqa etnoslara, dinlərə dözümlü münasibətindən və himayəsindən istifadə edən Qriqorian kilsəsi 1441-ci ildə öz mərkəzini - erməni katolikosluğunu Azərbaycan torpağına (indiki Ermənistan Respublikasının ərazisinə) – Eçmiədzinə köçürdü.

Qriqorian kilsəsi və ermənilər, eyni zamanda Azərbaycan dövlətlərindən, o cümlədən Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi hökmdarlarından da geniş imtiyazlar qopara bildilər. Türk dövlətlərinin himayəsi sayəsində Azərbaycanda, Anadoluda, İran ərazisində, Cənubi Qafqazda Qriqorian kilsəsi və ermənilərin mövqeyi xeyli gücləndi.

Çar Rusiyası Cənubi Qafqazda işğalçılıq müharibələrinə başladıqda Qriqorian kilsəsi və ermənilər bu dəfə yeni təcavüzkarın tərəfinə keçdilər. Lakin budəfəki xəyanət adi xəyanət deyildi! Ermənilər bu dəfə silahlı dəstələr yaradaraq Rusiya qoşunlarının tərkibində Azərbaycan dövlətlərinə və Osmanlı imperiyasına qarşı hərbi əməliyyatlarda iştirak etməyə başladılar. Və bu yolla Azərbaycan və Anadolu türklərinə qarşı kütləvi qırğınlar həyata keçirdilər. Çar Rusiyasının ermənilərə arxa durması nəticəsində Azərbaycanın xristian alban əhalisinin zorla qriqorianlaşdırılması və müstəqil Alban kilsəsinin təqib olunması gücləndi. Bununla yanaşı, silahlı erməni quldur dəstələrinin Azərbaycanda və Şərqi Anadoluda dinc türk-müsəlman əhalisinə qarşı soyqırımları dövrü başlandı.

Çar Rusiyası ermənilərin və Qriqorian kilsəsinin bu "xidmətlərini" nəzərə alaraq Osmanlı imperiyası və Qacarlar İranı ərazisindən ermənilər kütləvi surətdə Şimali Azərbaycana, xüsusilə İrəvan, Qarabağ, Şirvan, Bakı, Gəncə və Naxçıvan xanlıqlarının ərazilərinə köçürdü. Yeri gəlmişkən, çar hökuməti ermənilər Azərbaycan torpaqlarına Rusiya dövlətinin xüsusi nəzarəti altında və mütəşəkkil qaydada köçürür, onlara hər cür qayğı göstərilirdi. Məsələn, İran və Türkiyə ərazisindən hərəkətə başlayan erməni köçlərini bütün yol boyunca Rusiyanın mühafizə dəstələri müşayiət edir, onlara adambaşına pul

və ərzaq paylanır, köç üçün nəqliyyat ayrılır, ən münbit Azərbaycan torpaqları onlara verilir və bütün vergilərdən azad olunurdular.

Beləliklə, çar Rusiyası XIX əsrin əvvəllərindən başlayaraq 1873-cü ilədək Cənubi Qafqaza, əsasən, Şimali Azərbaycan torpaqlarına 334.242 nəfər erməni köçürdü. Sonralar Azərbaycan torpaqlarında xristianlaşdırma siyasəti daha da sürətləndirildi. Bunu arxiv sənədləri çox aydın təsdiq edir. Belə ki, Cənubi Qafqazda erməni köçkünlərinin sayı 1886-cı ildə 690.615 nəfərə, 1897-ci ildə 786.447 nəfərə, 1916-cı ildə isə 1.211.145 nəfərə çatdırıldı. Beləliklə, çar Rusiyası XIX əsrin əvvəllərindən başlayaraq Cənubi Qafqazın etnik tarixində zorla dəyişiklik əmələ gətirdi: Azərbaycan torpaqlarında yeni bir etnos – erməni etnosunu məskunlaşdırdı.

Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinə əsasən, Azərbaycan torpaqları Rusiya ilə Qacarlar İranı arasında bölüşdürüldükdən və Azərbaycanın müstəqil dövlətləri – xanlıqlar aradan qaldırıldıqdan sonra çar Rusiyası Azərbaycan xalqına qarşı növbəti cinayətə əl atdı, ermənilərə isə növbəti "bəxşiş" verdi: Azərbaycan torpaqlarında (Naxçıvan və İrəvan xanlıqlarının əraziləri əsasında) "Erməni vilayəti" adlı qondarma inzibati idarə vahidi yaratdı.

"Erməni vilayəti"ni yaratmaqla çar Rusiyası yenicə işğal etdiyi Azərbaycan torpaqları ilə Osmanlı imperiyası arasında bir "xristian səddi" çəkdi. Eyni zamanda tarixi Azərbaycan ərazisində gələcək erməni dövlətinin əsasını qoydu. Rusiya imperiyası tərəfindən himayə və müdafiə olunan ermənilər bu vaxtdan etibarən Azərbaycanda və Anadoluda türk-müsəlman əhaliyə qarşı kütləvi qırğınlara başladılar.

"Böyük Ermənistan" "doktrinası" ilə zəhərlənmiş erməni millətçiləri XIX əsrin sonlarında Qriqorian kilsəsinin "xeyir-duası" ilə daha mütəşəkkil fəaliyyətə başladılar. Bir-birinin ardınca millətçi-terrorçu erməni partiyaları ("Hnçak", "Daşnaksutyun" və s.), cəmiyyətləri və terrorçu qruplarının yaradılması dövrü başlandı. Məsələn, 1887-ci ildə yaradılmış "Hnçak" adlı erməni-millətçi partiyası öz proqramında Osmanlı imperiyası ərazisində müstəqil erməni dövləti yaratmağı qarşısına başlıca məqsəd qoydu. Bu məqsədə nail olmaq

üçün əsas vasitə terror aktlarının həyata keçirilməsi idi. Maraqlıdır ki, ermənilər ilk terror aktlarından birini onların "siyasətini" dəstəkləmədiyi üçün Qafqazın mülki işlər rəisi knyaz Qolitsına qarşı həyata keçirdilər (14 oktyabr 1903-cü il).

1890-cı ildə yaradılmış digər millətçi-terrorçu erməni partiyası olan "Daşnaksutyun" da Türkiyə ərazisində müstəqil erməni dövləti yaratmağı özünün əsas vəzifəsi elan etmişdi. Bu planı həyata keçirmək üçün Osmanlı imperiyası ərazisində "Böyük Ermənistan" təbliğatı gücləndirilməli, silahlı terror dəstələri yaradılmalı, hökumət idarələrinin talan və qarət edilməsinə başlanılmalı idi. "Daşnaksutyun" partiyası, faktiki olaraq, hər biri 10 nəfər "döyüşçüdən" – terrorçudan təşkil olunmuş silahlı dəstələrdən ibarət idi. Başqa sözlə, "Daşnaksutyun" siyasi partiya deyil, silahlı terror təşkilatı idi. "Hnçak" və "Daşnaksutyun" terrorçuları Şərqi Anadolu və Azərbaycan kəndlərini çapıb-talamaqda bir-biri ilə rəqabət aparır, yarışırdılar.

Rəsmi proqramlarında terroru qarşılarına vəzifə qoyan bu partiya və cəmiyyətlər "türkə ölüm" çağırışı ilə tarixin ən qanlı cinayətlərinə başladılar. Zaman keçdikcə "Böyük Ermənistan" xəstəliyinə tutulmuş erməni terrorçuları onların mənafeyini təmin etməyən qeyri-türk millətlərinin nümayəndələrinə qarşı da qəsdlər törətməyə başladılar.

Birinci Dünya müharibəsi (1914–18) dövründə Osmanlı imperiyasının aradan götürüləcəyinə ümid edən ermənilər vətəndaşları olduqları və hər zaman himayə və qayğı gördükləri Türkiyə dövlətinə xəyanət etdilər, Osmanlı imperiyasına qarşı vuruşan çar Rusiyası ilə, həmçinin digər böyük dövlətlərlə geniş əlaqə yaradaraq ümumdünya tarixinin ən qanlı cinayətlərini törətdilər. Çar Rusiyasının silahlandırdığı və digər böyük dövlətlər tərəfindən müdafiə olunan erməni-daşnak quldur dəstələri Şərqi Anadoluda və Azərbaycanda (həm şimalda, həm də cənubda) türk-müsəlman əhalini kütləvi surətdə qırmağa başladılar. Azərbaycanın Naxçıvan, İrəvan, Zəngəzur, Qarabağ, Urmiya, Salmas, Xoy, Maku və digər yaşayış məntəqələrində yüz minlərlə türk-müsəlman əhali, o cümlədən uşaqlar, qadınlar, qocalar məhv edildi.

Bakıda hakimiyyəti ələ keçirən daşnak S.Şaumyan Birinci Dünya müharibəsi cəbhələrindən qayıdan erməni zabit və əsgərlərini səfərbərliyə alaraq, 1918-ci ildə Azərbaycan xalqına qarşı tarixin ən dəhşətli soyqırımlarından birini törətdi. Şimali Azərbaycanın bütün bölgələrində, o cümlədən Bakı, Şamaxı, Göyçay, Kürdəmir, Quba, Salyan, Lənkəran və başqa yerlərdə türk-müsəlman əhali əvvəlcədən düşünülmüş plan əsasında kütləvi surətdə ucdantutma məhv edildi, xalqın min illər boyunca yaratdığı maddi və mənəvi sərvətlər məhv və talan olundu.

Birinci Dünya müharibəsi başa çatdı. Böyük Atatürk Türkiyəni xilas etdi. Bununla da böyük dövlətlərin həmişə bir alət kimi istifadə etdikləri erməni millətçilərinin Şərqi Anadoluda "Böyük Ermənistan" yaratmaq niyyəti iflasa uğradı. Osmanlı dövlətinə xəyanət etmiş ermənilərin yeni dəstələri kütləvi surətdə Şimali Azərbaycan torpaqlarına axışıb gəldi. Qərbi Azərbaycanda (indiki Ermənistan Respublikasının ərazisində) ermənilərin sayı daha da artdı.

Erməni-daşnak generallarının başçılığı ilə Azərbaycan xalqına qarşı soyqırımlarının yeni dalğası başlandı. Bununla belə, o zamankı mürəkkəb tarixi şəraitdə müstəqil Azərbaycan Xalq Cümhuriyyəti xoş məram nümayiş etdirdi. 1918-ci il mayın 29-da Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri və keçmiş Azərbaycan dövlətlərindən olan İrəvan xanlığının paytaxtı olmuş İrəvan şəhərini ermənilərin "bir siyasi mərkəzləri olması" xatirinə onlara güzəştə getdi. Beləcə, ermənilərə 100 il bundan əvvəl öz torpağında yer verən Azərbaycan bu dəfə onlara paytaxt şəhəri də bağışladı. Beləliklə, tarixdə ilk dəfə olaraq, 1918-ci ildə Cənubi Qafqazda – tarixi Azərbaycan ərazisində erməni dövləti yaradıldı.

Lakin daşnaklar bununla kifayətlənmədilər. Növbəti xəyanət və növbəti dəfə Azərbaycandan torpaq qoparmaq üçün məqam gözlədilər. Azərbaycana Denikinin hücum təhlükəsi yarandıqda, ermənilər dərhal onun tərəfinə keçdilər və ağqvardiyaçı generalı Azərbaycana dəvət etdilər. Bu "siyasət" iflasa uğradıqdan sonra da Azərbaycana və Türkiyəyə qarşı yeni-yeni ərazi iddiaları qaldırdılar.

Sovet-bolşevik rejimi çar Rusiyasının ənənəvi siyasətinin davamı olaraq ermənilərı daim himayə və müdafiə etdi. Ermənistan Sovet Sosialist Respublikasının yaradıldığı Qərbi Azərbaycan torpaqlarında bu torpaqların əsl sahibləri olan azərbaycanlılara qarşı növbəti təqiblər və zorakılıqlar dövrü başlandı. Azərbaycan torpaqları hesabına Ermənistan Sovet Sosialist Respublikasının ərazisi daha da genişləndirildi. Nəhayət, öz torpaqlarında ermənilərə yer vermiş azərbaycanlıların kütləvi surətdə doğma yurdlarından – Ermənistan ərazisindən deportasiyası həyata keçirildi.

Ermənilər Qərbi Azərbaycan torpaqlarında daha da möhkəmləndilər. Sovet dövründə Azərbaycan torpaqları hesabına daim yeni-yeni ərazilər ələ keçirən ermənilər Türkiyə Cümhuriyyətinə qarşı da ərazi iddialarını davam etdirdilər. Xarici ölkələrdə fəaliyyət göstərən türk diplomatlarına qarşı terror aktları həyata keçirildi.

Dünya sosializm birliyinin və Sovet İttifaqının dağılması ərəfəsində qarşılarına Azərbaycandan yeni ərazilər, o cümlədən Dağlıq Qarabağı qoparmaq məqsədini qoymuş erməni-daşnak millətçiləri və terrorçuları yenidən fəallaşdılar. Ermənilərin çirkin məqsədlərinə xidmət edən sovet rejiminin başçısı M.Qorbaçov Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevi Sovet İttifaqının ali rəhbərliyindən – Siyasi Bürodan uzaqlaşdırdı.

Azərbaycan xalqının qatili M.Qorbaçovu ələ alan erməni millətçilərinin təhriki ilə, 1918–20-ci illərdə olduğu kimi, Dağlıq Qarabağda sifarişlə separatçı-erməni terrorçularının qiyamı təşkil edildi. Eyni zamanda, Qərbi Azərbaycanın yerli sakinləri olan azərbaycanlıların tarixi vətənlərindən deportasiyası da başa çatdırıldı.

Beləliklə, XIX yüzilliyin əvvəlində əhalisinin mütləq əksəriyyəti Azərbaycan türkü olan indiki Ermənistan Respublikasının ərazisində hazırda bir nəfər də olsun azərbaycanlı qalmamışdır. Azərbaycanlılara məxsus olan bütün tarixi abidələr məhv edilmiş, yer adları dəyişdirilmişdir. Bütün bunlar müasir dünyanın gözləri qarşısında baş vermişdir!

Erməni millətçiləri və terrorçuları, eyni zamanda, 1990–93-cü illərdə Azərbaycanda baş alıb gedən hərc-mərclikdən və hakimiyyət

çəkişmələrindən istifadə etdilər. Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərini pozaraq, ölkəyə müdaxilə etmiş Ermənistan silahlı birləşmələri Rusiya hərbi qüvvələrinin bilavasitə yaxından köməyilə Dağlıq Qarabağı və ətraf rayonları, respublika ərazisinin 20 faizini işğal etdilər. Bir milyondan çox Azərbaycan vətəndaşı doğma yurd-yuvasından didərgin salındı, öz Vətənində qaçqına və məcburi köçkünə çevrildi. 1992-ci ilin 26 fevralında – 20-ci yüzilliyin sonuna yaxın bütün dünyanın gözləri qarşısında qəddarlığı ilə misli görünməmiş Xocalı soyqırımını törətdilər. İşğal aktını pərdələmək üçün Dağlıq Qarabağda oyuncaq "respublika" yaradıldı. Dağlıq Qarabağ separatçı-terrorçu qruplarının rəhbərləri Ermənistanda da hakimiyyəti ələ keçirdilər.

Erməni millətçiləri Türkiyə və Azərbaycana qarşı yeni ərazi iddiaları irəli sürməkdə davam edirlər. İkili standartlar dünyasında erməni terrorçularının Azərbaycan və Türkiyə ərazisində 200 ildən artıq bir müddət ərzində törətdikləri soyqırımları, deportasiyalar, vəhşiliklər, tarixi abidələrin, yaşayış məskənlərinin yerlə yeksan olunması faktları qulaqardına vurulur. "Xristian həmrəyliyi" nümayiş etdirilərək erməni yalanları, saxtakarlıqları həqiqət kimi qəbul olunur. Elə bunun nəticəsidir ki, xarici qüvvələr tərəfindən müdafiə olunan erməni separatçı-terrorçuları və beynəlxalq terroru dəstəkləyən Ermənistan Respublikası Cənubi Qafqazda təhlükəli gərginlik ocağına çevrilmişdir.

Beynəlxalq terrorun ən yaşlı və ən "təcrübəli" dəstələri olan erməni terror təşkilatları himayə olunduqca, "Böyük Ermənistan" doktrinası ilə zəhərlənmiş erməni-daşnak terror qrupları və təşkilatları beynəlxalq antiterror alyansının diqqətindən kənarda qaldıqca, regionda və dünyada gərginlik də aradan qalxmayacaq, bəşəriyyət terror təhlükəsindən qurtulmayacaqdır.

Müasir dünyanın görkəmli siyasi xadimi, Azərbaycan Prezidenti İlham Əliyev özünün bütün yüksək səviyyəli görüşlərində, nitq və çıxışlarında ermənilərin Cənubi Qafqaza gəlmə əhali olduğunu, onların bu ərazidə məskunlaşmasından sonra regionda gərginli-

yin artdığını, müasir Ermənistan Respublikasının və nəzarətdən kənarda qalmış oyuncaq Dağlıq Qarabağ rejiminin terror yuvalarına çevrildiyini xüsusi olaraq vurğulayır. Zəngin tarixi biliyə malik olan Azərbaycan Prezidenti indiki Ermənistan Respublikasının tarixi Azərbaycan torpağında – keçmiş İrəvan xanlığının ərazisində yarandığını bütün dünyaya bəyan edir. Ölkə başçısı bütün müvafiq strukturları erməni saxtakarlarına qarşı informasiya müharibəsində hücuma keçməyə çağırır. Erməni faşizmi üzərində qələbə çalmaq, doğma torpaqlarımızı azad etmək üçün öncə informasiya müharibəsində qalib gəlmək gərəkdir. Bütün xalqımız ölkə başçısının çağırışına cavab verməli, iqtisadi və hərbi cəhətdən qüdrətli Azərbaycan dövləti yaratmaq üçün onun ətrafında daha sıx birləşməlidir.

Azərbaycan Prezidentinin ölkəmizin ərazi bütövlüyünü bərpa etmək üçün tutduğu yol yeganə düzgün yoldur: tarixi həqiqəti dünya ictimiyyətinin diqqətinə çatdırmaqla informasiya müharibəsində qələbə çalmaq və hərbi-iqtisadi cəhətdən daha qüdrətli Azərbaycan dövləti yaratmaq! Terror, soyqırımları törədən və zorla özgə torpaqlarına yiyələnməyə çalışan erməni faşizmini diz çökdürmək üçün başqa yol yoxdur!

Prezident İlham Əliyev bütün beynəlxalq məclislərdə İrəvanın Azərbaycana məxsus olması ilə bağlı vətəndaş və tarixçi mövqeyini kəskin şəkildə bildirir: ***“ ... Bizim başqa ölkələrin torpaqlarında gözümüz yoxdur. Baxmayaraq ki, bugünkü Ermənistan Respublikası tarixi Azərbaycan torpaqlarında qurulub. Ancaq biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik. Bu bizim təbii haqqımızdır. Bir milyon Azərbaycan vətəndaşının elementar insan haqları pozulub. Azərbaycanlılar etnik təmizləməyə məruz qalıblar. Dağlıq Qarabağdan və ətraf bölgələrdən yüz minlərlə Azərbaycan vətəndaşı qovulub. Nə vaxta qədər biz buna dözməliyik?***

***Biz bütün imkanlarımızı səfərbər etməliyik və edirik. Həm siyasi, həm diplomatik səylərimizi gücləndirməliyik və gücləndiririk. İqtisadi potensialımızı böyük dərəcədə gücləndirmişik. Hərbi gücümüzü artırmalıyıq və artırırıq. Bu gün Azərbaycan ordusu qarşıda***

***duran bütün vəzifələri şərəflə yerinə yetirməyə hazırdır. Döyüş qabiliyyəti, peşəkarlıq, vətənpərvərlik ruhu, maddi-texniki bazanın möhkəmlənməsi, orduya dövlətin diqqəti və hörməti – bütün bu amillər bizə imkan verəcək ki, doğma torpaqlarımızı işğalçılardan azad edək ...”***

Əzəli Azərbaycan torpağı olan İrəvanın paytaxt olaraq Ermənistan Respublikasına verilməsi ilə bağlı tarixçi prezident qeyd edir: ***“ ... Mən dəfələrlə demişəm ki, bugünkü Ermənistan, xəritədə Ermənistan Respublikası adlanan ərazi qədim Azərbaycan torpaqlarıdır. Bu həqiqətdir. Əlbəttə, Zəngəzur, İrəvan xanlığı bizim torpaqlardır. Azərbaycanlılar orada əsrlərlə yaşamışlar. Ermənilər müəyyən bölgələrdə yaşayırdılar. Ancaq XIX əsrdə onların kütləvi köçü baş verdi. Necə ola bilər ki, 1918-ci ildə İrəvanın Ermənistanın paytaxtı elan edilməsi Azərbaycan Demokratik Respublikası hökumətinin qərarı ilə baş verib? Əgər o bölgələr “Böyük Ermənistana” aid idisə, onda nə üçün bizdən icazə istəyirdilər?.. Əlbəttə, Qarabağ tarixi Azərbaycan torpağıdır. Erməni dilində Qarabağ sözü varmı? Yox. Xankəndi şəhəri o vaxt, sovetlər dövründə Stepanakert adlandırılıb. Stepanakert adı haradan götürülüb? Bu ad Stepan Şaumyanın adından götürülüb. Əgər bu şəhərin ermənilərlə bağlı tarixi keçmişi var idisə, onda onlar bu adı verərdilərmi? Onun tarixi adı Xankəndidir. Budur reallıq. Bizim uşaqlar bütün bunları bilməlidir. Bilməlidirlər ki, indiki Ermənistan tarixi Azərbaycan torpaqlarında yerləşir. Hələ bu azmış kimi, onlar bizim ərazilərdə ikinci dövlətlərini yaratmaq istəyirlər. Biz buna heç vaxt razılıq verə bilmərik və biz ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyik. İstənilən yolla. Mən buna şübhə etmirəm”.***

Qeyd edək ki, İrəvan tarixi ilə yanaşı, əzəli Azərbaycan torpağı Zəngəzurun da faciəsi XX yüzillikdən başlamışdır. Əvvəldə də qeyd etdiyimiz kimi, 1918-ci ildə yaranan Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Azərbaycanın tarixi-coğrafi ərazi bölgüsü ənənələrinə sadiq qalaraq Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarını Qarabağ general-qubernatorluğunda birləşdirmişdi və bu regiona vahid

inzibati ərazi kimi baxırdı. Azərbaycan SSR hökuməti də 1920-ci il 30 aprel tarixli notasında Ermənistandan Zəngəzur və Qarabağı öz qoşunlarından təmizləməsini tələb etmişdi. Lakin sonralar, sovet dövründə, müəyyən məqsədlər əsas götürülərək, Zəngəzurun Qarabağdan ayrı olması təsəvvürünün yaradılmasına başlandı. Bu həmin torpaqların taleyinin həllində Azərbaycana təzyiqi gücləndirmək məqsədi güdürdü. Hadisələrin sonrakı gedişində, yəni 1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyətinin qurulması ilə Zəngəzura münasibətdəki mövqe dəyişdi. Azərbaycan İnqilab Komitəsinin Ermənistan Sovet Respbulikasına 30 noyabr tarixli teleqramı və 1 dekabr bəyannaməsində ("Nərimanov Bəyannaməsi"), artıq Zəngəzurun guya Ermənistana "verilməsindən" bəhs olunur. Lakin bəzi səbəblər üzündən Zəngəzur qəzasının 3.637 kvadrat verstlik hissəsi Ermənistana verilmişdi. Əslində bunun özü də Azərbaycana vurulan ən ağır zərbə, həyata keçirilən ən böyük düşmənçilik aktı idi. Çünki Zəngəzurun elə bir hissəsi Ermənistana verilmişdi ki, Naxçıvanla Azərbaycanın digər torpaqları arasında əlaqələr kəsilsin, Naxçıvan Azərbaycnadan ayrı salınsın. Digər tərəfdən, bu, ermənilərin Naxçıvanla bağlı gələcək məkrli niyyətlərinin həyata keçirilməsi üçün bir hazırlıq xarakteri daşıyırdı.

Prezident İlham Əliyev istər Zəngəzurun, istərsə də Naxçıvanın tarixilə bağlı bütün çıxışlarında bu torpaqların əzəli Azərbaycan torpaqları olması fikrini tarixi faktlar əsasında sübut edir. Məsələn, Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə (8 aprel 2014-cü il) etdiyi nitqində tarixçi prezident bu torpaqların Azərbaycan dövlətçiliyi üçün əhəmiyyətinə toxunaraq qeyd etmişdir: ***" ... Naxçıvanın, eyni zamanda qədim dövlətçilik tarixi vardır. Qədim Atabəylər dövlətinin mərkəzi Naxçıvan idi. Təsadüfi deyil ki, Naxçıvana 90 il bundan əvvəl Azərbaycanın tərkibində muxtariyyət statusu verilmişdir. Bu, gözəl hadisə idi, tarixi hadisə idi. Naxçıvanın rolunu, bu diyarın strateji əhəmiyyətini əks etdirən bir qərar idi.***

***Ancaq bununla bərabər, o vaxt xalqımıza qarşı ədalətsizlik də edilmişdir. Çünki Azərbaycanın əzəli torpağı olan Zəngəzuru Azər-***

***baycandan ayırıb Ermənistana vermişdilər. Bu, böyük ədalətsizlik idi. Çünki Zəngəzur tarixi, əzəli Azərbaycan torpağıdır. Zəngəzurun o vaxtkı əhalisinin mütləq əksəriyyəti azərbaycanlılar idi. Zəngəzurun bütün yaşayış məntəqələrinin adları Azərbaycan adları idi. Ona görə, bu qərarın qəbul edilməsində Azərbaycan xalqına qarşı ədalətsizlik və qərəz əsas rol oynamışdır. Eyni zamanda bu qərarla Azərbaycan coğrafi baxımdan iki yerə bölünürdü. Eyni zamanda böyük türk dünyası iki yerə bölünürdü. Bu ədalətsizlikdir, bu, sağalmayan yaradır. Ancaq mən tam əminəm ki, vaxt gələcək və biz azərbaycanlılar bütün tarixi torpaqlarımıza qayıdacağıq.***

***... Bizim müstəqilliyimiz ən böyük sərvətdir və hamımız yaxşı bilirik ki, XX əsrin əvvəllərində də Azərbaycan müstəqillik qazanmışdı. Ancaq biz o müstəqilliyi qoruya bilməmişdik. O müstəqilliyin ömrü müəyyən səbəblər üzündən uzun olmamışdır. Ancaq bu reallıqdır və bundan da əlavə, məhz o illərdə, müstəqillik illərində, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş qərara əsasən, bizim əzəli torpağımız olan İrəvan Ermənistana verilmişdir. Necə ki, ondan bir neçə il sonra bolşevik sovet hakimiyyəti Zəngəzuru ermənilərə vermişdir. Necə ki, ötən əsrin sonlarında Qarabağ işğal altına düşmüşdür. Görün bizim xalqımız nə qədər böyük faciələr yaşamışdır. Ancaq buna baxmayaraq, xalqımızın iradəsi sınmamışdır. Buna baxmayaraq, Azərbaycan bu gün inamlı inkişaf dövrünü yaşayır. Bu gün güclü Azərbaycan bölgə üçün, region üçün sabitləşdirici rol oynayır. Mən tam əminəm ki, güclü Azərbaycan və güclənən Azərbaycan bizə öz ərazi bütövlüyümüzü bərpa etməyə və gələcəkdə bütün tarixi torpaqlarımıza qayıtmağa imkan verəcəkdir ...".***

İkili standartlar dünyasında azərbaycanlılara və ermənilərə münasibətdə ayrı-seçkilik siyasəti davam etdikcə, 1 milyondan çox azərbaycanlının öz doğma yurdunda qaçqın həyatı yaşamasına biganə münasibət bəslənildikcə, Azərbaycan xalqı ermənipərəst Qərb siyasətçilərinin "insan haqları" və "demokratiya" barədə söylədikləri cəfəngiyatlara inanmayacaq, işğal olunmuş Vətən torpağı uğrunda ədalətli mübarizəni davam etdirəcəkdir. Çünki Azərbaycan xalqı

1918-ci ildə yol verilmiş acı tarixi təcrübədən bilir ki, Vətən torpağından bir daha pay vermək olmaz!

## İlham Əliyevin Türk dövlətləri birliyi ideyası

Azərbaycan tarixin ən qədim dövrlərindən başlayaraq Türk dünyasının mərkəzlərindən biri olmuşdur. Azərbaycanın ən qədim əhalisi olan Azərbaycan türkləri Anadolu türklərindən sonra dünyanın ikinci böyük türk xalqıdır. Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan türk dövlətləri içərisində aparıcı siyasi və iqtisadi qüvvəyə çevrilmişdir. Bu gün Azərbaycan Türkdilli Dövlətlər Birliyinin və TÜRKSOY-un ən fəal üzvüdür.

Türkdilli dövlətlər arasında həmrəyliyi möhkəmləndirmək, iqtisadiyyat, ticarət, ekologiya, elm, təhsil və mədəniyyət sahəsindəki əməkdaşlığı inkişaf etdirmək məqsədilə yaradılan Türkdilli Dövlətlər Birliyi çərçivəsində türk dövlətləri ilə bütün sahələrdə əməkdaşlıq Ulu Öndər Heydər Əliyevin prezidentliyi dövründə Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Təsadüfi deyil ki, məhz 1990-cı illərin ortalarından başlayaraq Türkdilli Dövlətlər Birliyinin əhəmiyyətli tədbirləri həyata keçirilməyə başlanmışdır. Onların sırasında Qırğızıstanın paytaxtı Bişkekdə 1995-ci ildə keçirilən və "Manas" eposunun 1000 illik yubileyinə təsadüf edən Zirvə görüşü, Özbəkistanın paytaxtı Daşkənddə 1996-cı ildə keçirilən və Əmir Teymurun anadan olmasının 660 illiyinə həsr olunmuş Zirvə görüşü, 2000-ci ildə Azərbaycanın paytaxtı Bakıda keçirilən və "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinə həsr olunmuş təntənələrlə eyni vaxta təsadüf edən VI Zirvə görüşü xüsusi qeyd olunmalıdır.

Türkdilli Ölkələrin mədəniyyət nazirlərinin Daimi Şurası 1992-ci ilin iyulunda Bakıda keçirilən toplantısında TÜRKSOY adını almış, 1993-cü ilin iyulunda isə Azərbaycan və digər 5 türk dövlətinin təmsilçiləri TÜRKSOY-un yaradılması haqqında Saziş imzalamışlar.

OSCE PA
ATƏT PARLAMENT ASSAMBLEYASININ 23-CÜ İLLİK SESSİYASI
23RD ANNUAL SESSION OF THE OSCE PARLIAMENTARY ASSEMBLY

WORLD
ECONOMIC
FORUM

Parliamentary
Assembly

and the election of
Republic of Azerbaijan to the
United Nations Security Council
for 2012-2013

Sonralar bu quruma digər türk dövlətləri də daxil olmuşdur. Türkdilli xalqlar arasında mədəni əlaqələrin inkişafına böyük töhfə verən TÜRKSOY türk dünyasaının və o cümlədən Azərbaycanın beynəlxalq mədəni inteqrasiyasında böyük rol oynamaqdadır.

Heydər Əliyevin türk dövlətləri birliyi ideyasını öz xarici siyasətində davam etdirən Prezident İlham Əliyev bu təşkilatlar çərçivəsində əməkdaşlığın inkişaf etdirilməsini, eyni zamanda türk dövlətləri ilə Azərbaycanın ikitərəfli münasibətlərini hər zaman diqqət mərkəzində saxlayır. Bütün beynəlxalq əhəmiyyətli görüşlərdə türk birliyi ideyasını vacib xətt kimi qeyd edən Prezident İlham Əliyev mədəni inteqrasiya sahəsində əldə edilən uğurları alqışlayır. Məsələn, 2013-cü ilin dekabrında Bakıda "Kitabi-Dədə Qorqud" parkının açılışı mərasimində etdiyi nitqində istər dastanın tarixi köklərimizin araşdırılmasında yeri, istərsə də türk dünyasında müasir dövrdə gedən proseslərə diqqət çəkən tarixçi prezident aşağıdakıları söyləmişdir: ***"Bu abidənin ucaldılması böyük hadisədir. "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının milli sərvətidir.***

***... 2000-ci ildə Bakıda dastanın 1300 illik yubileyi təntənəli şəkildə keçirilmişdir. Bütün türkdilli ölkələrin dövlət başçılarının, UNESCO-nun baş direktorunun iştirakı ilə böyük, təntənəli mərasim keçirilmişdir. "Dədə Qorqud" ensiklopediyası nəşr olunmuşdur. Ulu Öndər Heydər Əliyev Dədə Qorqud heykəlinin ucaldılması haqqında sərəncam vermişdir.***

***... "Kitabi-Dədə Qorqud" dastanı, eyni zamanda bütün türk dünyasını daha sıx birləşdirir. Azərbaycan türkdilli dövlətlərin daha sıx birləşməsi üçün öz səylərini əsirgəmir. Bu, bizim xarici siyasətimizin ayrılmaz hissəsidir, əsas istiqamətlərindən biridir. Türkdilli ölkələrin dövlət başçılarının Azərbaycanda keçirilmiş zirvə görüşləri bunun əyani sübutudur. Bakıda, Naxçıvanda, Qəbələdə keçirilmiş Zirvə görüşlərində mən qeyd etmişdim və bir daha demək istəyirəm ki, XXI əsr türk dünyasının əsri olmalıdır.***

***Türk dünyasında gedən inkişaf, qarşılıqlı əməkdaşlıq, müsbət demoqrafik dinamika, əlbəttə ki, bizi daha da gücləndirəcək və bütün***

***türkdilli dövlətlərin əməkdaşlığı, bir-birinə olan dəstəyi hesabına hər bir dövlət öz milli maraqlarını daha da böyük dərəcədə qoruya biləcəkdir.***

***Bizim ölkələrimizi, əlbəttə ki, siyasi maraqlar, iqtisadi sahədəki əməkdaşlıq bağlayır. Ancaq əməkdaşlığımızın təməlində ortaq tarix, tarixi köklər dayanır, o cümlədən "Kitabi-Dədə Qorqud" burada çox böyük rol oynayır".***

Türkdilli dövlətlər arasında mədəni əlaqələrin vacibliyini dəfələrlə vurğulayan Prezident İlham Əliyev bu əlaqələrin siyasi sahədə hələ istənilən səviyyədə olmadığını da göstərir və bunun üçün türk dövlətləri arasında indiyədən saxlanmaqda olan ziddiyyətli məqamların ortadan qaldırılmasını vacib sayır. Bu məsələnin Azərbaycan üçün böyük əhəmiyyət kəsb etdiyini dəfələrlə qeyd edən Prezident müasir dövrdə türk dövlətlərinin birliyinin qüdrətli bir siyasi, iqtisadi və mədəni qüvvəyə çevrilməsini vacib sayır. Bunun üçün tarixçilərin də üzərinə böyük məsuliyyətin düşdüyünü, türk dünyasının ortaq tarixi ilə bağlı tədqiqatların yazılmasının vacibliyini hər zaman gündəmdə saxlayan İlham Əliyev Milli Elmlər Akademiyasının 2011-ci ilin aprelində keçirilən illik ümumi yığıncağında bu məsələyə toxunaraq qeyd etmişdir: ***" ... Bu gün türk dünyası coğrafi baxımdan parçalanıb. Düzdür, biz siyasi addımlarla, iqtisadi təşəbbüslərlə, türkdilli dövlətlərin zirvə görüşlərinin keçirilməsi ilə, – mən TÜRKSOY-un fəaliyyətini də qeyd etməliyəm, – çalışırıq və çalışacağıq ki, bütün türk dünyasını birləşdirək, siyasi maraqları birləşdirək, iqtisadi sahədə daha da çoxtərəfli əməkdaşlıq aparılsın. Ancaq coğrafi cəhətdən bu gün türk dünyası parçalanıbdır. Yəni bütün bu tarixi həqiqətlər işıq üzü görməlidir. Nəinki ölkə daxilində, eyni zamanda xaricdə də bunu bilməlidirlər ...".***

Türk dövlətləri arasında birlik ideyasını xarici siyasətdə ardıcıl şəkildə həyata keçirən dövlət başçımız Azərbaycan üçün bu məsələnin strateji məsələ olduğunu 2014-cü il aprelin 24-də Praqada dövlət və hökumət başçılarının iştirakı ilə keçirilən və "Şərq tərəfdaşlığı" proqramının 5 illiyinə həsr olunan sammitdəki çıxışı ilə bütün dün-

yaya sübut etdi. Belə ki, həmin sammitdə Ermənistan prezidenti Serj Sarkisyan öz çıxışını bütünlükdə qondarma "erməni soyqırımı" ilə bağlı mülahizələrə həsr etmiş, Türkiyənin sammitdə təmsil olunmamasından sui-istifadə edərək sammitin plenar iclasının mövzusundan tamamilə kənara çıxaraq qondarma "soyqırımı" məsələsini qabartmağa başlamışdır. Serj Sarkisyan, bir tərəfdən, Türkiyəni qondarma "soyqırımı" ilə bağlı konstruktiv mövqe tutmamaqda, digər tərəfdən isə Ermənistanla sərhədlərini açmamaqda, əsassız olaraq, ittiham edərək bu ölkənin Avropa İttifaqına üzvlüyünün yolverilməz olduğunu demiş, Avropa ictimaiyyətini qondarma "soyqırımı" ilə bağlı daha təsirli mövqe tutmağa çağırmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev öz çıxışında türk dövlətləri birliyi ideyasına və siyasətinə sadiq qalaraq etdiyi məruzədə Ermənistan prezidentinin Türkiyə nümayəndəsinin sammitdə olmaması fürsətindən istifadə edərək Türkiyəyə yenidən hücum etdiyini diqqətə çatdırmış və tarixi bir çıxış etmişdir: ***"Ancaq mən buradayam və Türkiyə–Ermənistan sərhədinin niyə bağlı olduğunu deyə bilərəm. Türkiyə ilə Ermənistan sərhədi Azərbaycanın Kəlbəcər rayonunun 1993-cü ilin aprelində işğalından sonra bağlanıb. Bundan əvvəl isə bütün azərbaycanlılar Dağlıq Qarabağdan qovulub, Dağlıq Qarabağ əhalisinin 30 faizi azərbaycanlılar idi. Kəlbəcərdən əvvəl 1992-ci ildə ermənilər Şuşanı və Laçını işğal etdilər. Daha sonra Ağdam, Füzuli, Zəngilan, Qubadlı, Cəbrayıl– Dağlıq Qarabağın inzibati sərhədlərindən kənarda olan, ümumilikdə Azərbaycanın 7 rayonunu işğal etdilər ki, bu da Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisinin 20 faizini təşkil edir. Bizim əhali etnik təmizləməyə məruz qalıb və bu işğal, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, Avropa Parlamentinin qətnaməsi və Avropa Şurası Parlament Assambleyasının qətnaməsinə baxmayaraq, bu günədək davam edir".***

İlham Əliyev vurğulayıb ki, Ermənistan bu qətnamələrə məhəl qoymur və nə tarixən, nə də beynəlxalq hüququn normalarına əsasən onlara aid olmayan ərazinin işğalını davam etdirir. Eyni zamanda onlar Azərbaycanı qeyri-konstruktiv yanaşmada günahlandır-

maqda davam edirlər: ***"Bizim torpaqlarımız işğal altındadır. Helsinki Yekun Aktında ərazi bütövlüyü və öz müqəddəratını təyinetmə prinsipləri çox aydın əks olunub. Öz müqəddəratını təyinetmə ölkələrin ərazi bütövlüyünün pozulması hesabına əldə olunmamalıdır. Üstəgəl ermənilər artıq öz müqəddəratını təyin ediblər, onların müstəqil Ermənistan dövləti var. Təsəvvür edin, əgər ermənilər hər yaşadıqları yerdə öz müqəddəratını təyin etməyi davam etdirsələr, nə baş verər. Onlar burada – Çex Respublikasında, Gürcüstanda, Rusiyada, Amerikada, yaşadıqları istənilən yerdə eyni yanaşma göstərə bilərlər. Onların öz dövləti var, onlar öz müqəddəratını təyin ediblər. Münaqişənin tez bir zamanda həlli Azərbaycanın marağındadır. Mən əminəm ki, bu, həmçinin Ermənistan xalqının marağındadır, Cənubi Qafqazda əməkdaşlıq baxımından da maraq dairəsindədir".***

Dövlət başçısı bildirib ki, Türkiyə–Ermənistan əlaqələrinə gəldikdə, Baş nazir Ərdoğan bir neçə il öncə bəyanatla çıxış edərək Ermənistanın rəhbərliyinə bütün arxivləri açmağı təklif etmişdi ki, tarixçilər iki xalq arasındakı münasibətlərin tarixi məqamlarını nəzərdən keçirsinlər. Ancaq bu təklif adekvat cavabla qarşılanmadı. Dünən isə Baş nazir Ərdoğan erməni əsilli insanlara başsağlığı verdi, ancaq, təəssüf ki, buna da Ermənistan tərəfindən müvafiq reaksiya verilmədi: ***"Baxmayaraq, mən bilirəm ki, Birləşmiş Ştatlar və Avropa İttifaqı Türkiyə Baş nazirinin mövqeyini yüksək qiymətləndirdilər, ancaq, görünür, bu, Ermənistan hökuməti üçün kifayət deyil. Bu, aydın göstərir ki, regionda sülh istəməyən kimdir. Biz sülh istəyirik, biz ərazilərimizin geri qaytarılmasını istəyirik. Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərindən öz qoşunlarını çıxarmağa başlamalıdır. Bunu etmək çox asandır. Yalnız Ermənistan tərəfindən siyasi iradə olmalıdır.***

***Nəhayət, sonuncu məsələ, Azərbaycan xalqı bir sual verir: Niyə Ermənistana sanksiyalar qoyulmur? Niyə Avropa Şurasındakı Ermənistan nümayəndə heyəti səsvermə və söz hüququndan məhrum edilmir? Onlar digər bir ölkənin ərazilərini işğal ediblər, beynəlxalq***

***hüquq normalarını pozurlar, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini kobud şəkildə pozurlar və heç bir sanksiya tətbiq edilmir, heç bir cəza verilmir. Qanunsuz, kriminal Dağlıq Qarabağ rejiminin qondarma nümayəndələri Avropa paytaxtlarına vizalar alırlar. Bu dözülməzdir və buna son qoyulmalıdır".***

Bu tarixi çıxış bütün dünya ictimaiyyətinə Azərbaycanın və Türkiyənin tarixi və müasir siyasəti ilə bağlı həqiqətləri çatdırdı və prezidentimizin türk birliyi ideyasına sadiq olduğunu bir daha sübut etdi!

# AZƏRBAYCAN XALQININ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİNİN DİRÇƏLDİLMƏSİ VƏ QORUNMASI – AZƏRBAYCAN RESPUBLİKASININ İNKİŞAF STRATEGİYASININ MÜHÜM TƏRKİB HİSSƏSİDİR

## "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan xalqının milli irsidir

Azərbaycan xalqının yadelli işğalçılara, ələlxüsus Bizans və slavyan basqınlarına duruş gətirdiyi dövrdə milli mədəniyyətimizin şah əsəri və qardaş türk xalqlarının müştərək abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan türklərinin yaşadığı bütün torpaqlarda – Dəmir Qapı Dərbənddən Diyarbəkir ətraflarına və Mardinə, Xəzərdən Qara dəniz sahillərindəki Abxaz elinə və Trabzona qədər geniş ərazidə yayıldı.

VII–IX əsrlərdə el sənətkarlarının – ozanların Oğuz yurdunu oba-oba, oymaq-oymaq gəzib yaydıqları "Kitabi-Dədə Qorqud" boyları, hər şeydən öncə, onun yayıldığı geniş ərazidə vahid dildə – türk dilində danışan böyük bir xalqın – Azərbaycan xalqının yaşadığını sübut edən möhtəşəm abidədir.

Azərbaycan xalqının yağı düşmənləri sonrakı dövrlərdə ulu tariximizin yadigarları olan yüzlərlə yer adlarını dəyişdirib özlərinə saxta "tarix" yaratsalar da, "Kitabi-Dədə Qorqud" həqiqətində – türklüyün tərcümeyi-halında yaşayır real tariximiz. Azərbaycan oğuzlarının Dərbənddən Diyarbəkir hüdudlarına, Xəzər dənizindən Qara dənizədək geniş ərazidə yayıldığını təsdiqləyən və dünyaya təsdiqlədən "Kitabi-Dədə Qorqud" boyları söyləyir bugünkü nəsillərə Cənubi Qafqazın əls tarixini, o zamanlar hələ saxtakar əli dəyməmiş tarixini.

Şifahi xalq ədəbiyyatımızın tacı olan "Kitabi-Dədə Qorqud", eyni zamanda əvəzolunmaz tarix salnaməmizdir. O, bir tarixi qaynaq kimi dünya xalqlarının erkən orta əsrlərə aid xalq qəhrəmanlıq eposları içərisində özünəməxsus yer tutur.

Dastanın ayrı-ayrı boylarının yaranması və yayılmasında bir çox oğuz tayfaları ilə yanaşı, xalqımızın soykökündə duran qüdrətli Ağqoyunlu tayfaları da mühüm rol oynamışdı. Hələ VI əsrin sonu – VII əsrin əvvəllərində Dərbənd keçidindən və Böyük Qafqaz sıra dağlarının ətəklərindən Araz çayına qədər torpaqlarda, Göyçə gölü və onun ətraflarında, Naxçıvanda, daha sonra Azərbaycanın cənub bölgələrində yaşayan ağqoyunlular, həmçinin onlarla bir kökdən olan qaraqoyunlular öz siyasi rəqiblərinə, o cümlədən erməni və Bizans feodallarına qalib gələrək Trabzon və Suriya sərhədlərinə qədər gedib çıxmışdılar.

"Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan xalqının milli irsidir və bu irsin bu günədək qorunub saxlanması həm tariximizə olan böyük sayğını, həm də milli dəyərlərimizin indiyədək ənənələrinin qalmasını göstərir. Bununla əlaqədar Prezident İlham Əliyev qeyd edir: ***"Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının milli sərvətidir. Bu əsərdə Azərbaycan xalqının keçmiş həyat tərzi, məişəti, psixologiyası əks olunmuşdur. Əsərin qəhrəmanlarının adlarını Azərbaycanın çoxsaylı yaşayış məntəqələrində görmək olar. Bu əsərdə Azərbaycan toponimləri əks olunmuşdur. Bir sözlə, "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan xalq ədəbiyyatının yazılı abidəsidir. Bu dastan hər bir azərbaycanlı üçün əzizdir. Bu gün bu abidənin ucaldılması Azərbaycan xalqının bir daha öz tarixi keçmişinə, mədəniyyətinə olan münasibətinin təzahürüdür".***

Əlbəttə, sovet dönəmində "Kitabi-Dədə Qorqud" dastanının araşdırılması və təbliği məsələsi Moskvanın böyük müqavimətilə rastlaşmışdır. İlham Əliyevin də qeyd etdiyi kimi, ***"1950-ci illərə qədər "Kitabi-Dədə Qorqud" Sovet İttifaqında qadağan edilmişdi. Ancaq 1950-ci illərdən sonra Azərbaycan alimlərinin səyləri nəticəsində bu əsər tədqiq edilməyə başlanmışdır. Təsadüfi deyil ki, bu əsərin***

***tədqiqi ilə bağlı olan elmi işlər Azərbacyan alimlərinə məxsusdur. Bu, bir daha onu göstərir ki, bu əsər bizim xalqımıza, bütün türk dünyasına məxsusdur. Amma Azərbaycanda "Kitabi-Dədə Qorqud" dastanına xüsusi münasibət vardır. Əsərdə Oğuz eli kimi coğrafi məfhum bütün Azərbaycan ərazilərini əhatə edir. 1970–1980-ci illərdə Ulu Öndər Heydər Əliyevin tövsiyəsi ilə əsərin təbliği, onun sovet, dünya ictimaiyyətinə çatdırılması ilə bağlı konkret qərarlar qəbul edilmişdir. Ulu Öndərin tövsiyəsi ilə 1970-ci illərdə bədii film çəkilmişdir".***

"Kitabi-Dədə Qorqud" dastanının müstəqil Azərbaycan Respublikasında araşdırılması və təbliği daha geniş vüsət almışdır. İlham Əliyev Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ikinci dövründə bu istiqamətdə aparılan işlər içərisində dastanın 1300 illik yubileyinin keçirilməsini və "Dədə Qorqud" ensiklopediyasının nəşr olunmasını xüsusi qeyd etmişdir: ***"1993–2003-cü illərdə artıq bu dastanı dünya ictimaiyyətinə çatdırmaq üçün çox böyük işlər görülmüşdür. 2000-ci ildə Bakıda dastanın 1300 illik yubileyi təntənəli şəkildə keçirilmişdir. Bütün türkdilli ölkələrin dövlət başçılarının, UNESCO-nun baş direktorunun iştirakı ilə böyük, təntənəli mərasim keçirilmişdir. "Dədə Qorqud" ensiklopediyası nəşr olunmuşdur. Ulu Öndər Heydər Əliyev Dədə Qorqud heykəlinin ucaldılması haqqında sərəncam vermişdir".***

İlham Əliyev Azərbaycan xalqının milli dəyərlərinin qorunub saxlanmasını çox vacib məsələlərdən biri hesab edərək, Bakıda Dədə Qorqud parkının açılması sərəncamı vermiş və 2013-cü ilin dekabrında parkın açılışında çıxış edərək "Kitabi-Dədə Qorqud" dastanının təkcə Azərbaycan xalqının milli sərvəti olduğunu deyil, həm də türk dünyasını birləşdirən dəyər olduğunu qeyd etmişdir: ***"Kitabi-Dədə Qorqud" dastanı, eyni zamanda bütün türk dünyasını daha sıx birləşdirir. Azərbaycan türkdilli dövlətlərin daha sıx birləşməsi üçün öz səylərini əsirgəmir. Bu, bizim xarici siyasətimizin ayrılmaz hissəsidir, əsas istiqamətlərindən biridir. Türkdilli ölkələrin dövlət başçılarının Azərbaycanda keçirilmiş Zirvə görüşləri***

***bunun əyani sübutudur. Bakıda, Naxçıvanda, Qəbələdə keçirilmiş Zirvə görüşlərində mən qeyd etmişdim və bir daha demək istəyirəm ki, XXI əsr türk dünyasının əsri olmalıdır.***

***Türk dünyasında gedən inkişaf, qarşılıqlı əməkdaşlıq, müsbət demoqrafik dinamika, əlbəttə ki, bizi daha da gücləndirəcək və bütün türkdilli dövlətlərin əməkdaşlığı, bir-birinə olan dəstəyi hesabına hər bir dövlət öz milli maraqlarını daha da böyük dərəcədə qoruya biləcəkdir".***

Həqiqətən, "Kitabi-Dədə Qorqud" dastanının boyları da sübut edir ki, hələ o zaman Bizans və erməni feodalları türkləri bir-birinə qarşı salışdırmağa cəhd göstərir, onları öz əlləri ilə məğlub etmək siyasəti yeridirdilər. Məkrli niyyətlərinə nail olmaq üçün qıpçaq türklərini oğuz türkləri üzərinə qaldırır, hətta oğuz igidlərini də bir-birilə vuruşdurmağa çalışırdılar. Bu siyasət sonralar daha sistemli və qlobal xarakter aldı. Qərbi Avropa dövlətləri Əmir Teymuru İldırım Bəyazidlə, Uzun Həsəni Mehmet Fatehlə, Şah İsmayılı Sultan Səlimlə, Şah Təhmasibi Sultan Süleyman ilə vuruşdura bildilər. Nəticədə türk dünyasının qüdrəti zəiflədi.

Bu gün müasir dünyada inteqrasiyanın bu qədər geniş vüsət aldığı bir dövrdə türk dövlətləri arasında olan siyasi, iqtisadi və mədəni əlaqələr də genişlənmişdir. Lakin Prezident İlham Əliyev dəfələrlə öz çıxışlarında bu əlaqələrin hələ istənilən səviyyədə olmadığını və irəlidə çox böyük vəzifələrin durduğunu qeyd etmişdir: **" ...** ***Bu gün türk dünyası coğrafi baxımdan parçalanıb. Düzdür, biz siyasi addımlarla, iqtisadi təşəbbüslərlə, türkdilli dövlətlərin zirvə görüşlərinin keçirilməsi ilə, – mən TÜRKSOY-un fəaliyyətini də qeyd etməliyəm, – çalışırıq və çalışacağıq ki, bütün türk dünyasını birləşdirək, siyasi maraqları birləşdirək, iqtisadi sahədə daha da çoxtərəfli əməkdaşlıq aparılsın".***

## Azərbaycan şəhərlərinin tarixinin araşdırılmasına dövlət qayğısı. Tarixi və dini abidələrin bərpası və qorunması işi

Azərbaycanın siyasi, iqtisadi və mədəni inkişaf tarixində şəhərlərin rolu çox böyük olmuşdur. Azərbaycan şəhərləri türk-müsəlman mədəniyyətinin daşıyıcıları olmaqla, bu mədəniyyətin bölgədə yayılmasında və təbliğində böyük əhəmiyyət kəsb etmiş, Azərbaycan dövlətçiliyinin və beynəlxalq ticarətin inkişafında başlıca qüvvə olmuşlar.

5000 illik dövlətçilik tarixi olan Azərbaycanın şəhər həyatı da çox sürətlə inkişaf etmiş, bu şəhərlər istər ölkənin, istərsə də ümumi bölgənin dini, siyasi, iqtisadi və mədəni-ideoloji mərkəzlərinə dönmüşlər. Xüsusilə orta əsrlərin başlanğıcında Qafqazın əvvəlcə türk mədəniyyətinin başlıca mərkəzlərindən olan Azərbaycan şəhərləri VII əsrdən etibarən türk-islam mədəniyyətinin daşıyıcılarına və təbliğçilərinə çevrilmişlər. Təbriz, Marağa, Ərdəbil, Naxçıvan, Bərdə, Şamaxı, Bakı, Dərbənd Azərbaycanın və müsəlman Şərqinin şəhər mədəniyyətinin aparıcı qüvvələri olmuşlar. Bu şəhərlərdə mürəkkəb siyasi və hərbi hadisələr, qızğın ticarət əlaqələri, ideoloji proseslər bir-birinə əvəz etmişdir. Bu gün Azərbaycanın şimalında müstəqilliyini bərpa etmiş Azərbaycan xalqının zəngin şəhər həyatı və yüksək şəhər mədəniyyəti çox qədim ənənələrə söykənir.

Azərbaycan şəhərlərinin arxeoloji baxımdan tədqiqi, bu şəhərlərdə tarixi abidələrimizin bərpası və qorunması işi Azərbaycan tarixinin araşdırılmasının tərkib hissəsidir. Təsadüfi deyil ki, respublika rəhbərliyi, başda Prezident İlham Əliyev olmaqla, bu məsələni hər zaman gündəmdə saxlayır. Azərbaycan şəhərlərinin dirçəldilməsi və şəhər mədəniyyətinin tarixi ənənələrinin qorunması – Azərbaycan Respublikasının inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Bu sahədə görülən tədbirlər bir neçə istiqamətdədir: Azərbaycan şəhərlərinin arxeoloji və etnoqrafik tədqiqi; Azərbaycan şəhərlərinin tarixinin mənbələr üzrə araşdırılması; Azərbaycan şəhərlərindəki

tarixi-memarlıq abidələrinin bərpası və müdafiəsi işi. Hər üç istiqamətdə gedən işlər birbaşa Prezident İlham Əliyevin nəzarəti və qayğısı altındadır. Son onillikdə Azərbaycanın qədim mədəniyyət mərkəzləri olan Bakının, Şamaxının, Naxçıvanın, Bərdənin, Şəkinin, Şəmkirin və digər şəhərlərimizin tarixinin araşdırılmasına göstərilən dövlət qayğısı nəticəsində bu şəhərlərin nəinki müasir tələblərə uyğun mərkəzlər olaraq inkişafı sürətlənmiş, eyni zamanda onların Azərbaycan tarixindəki əvəzedilməz rolu nəzərə alınaraq, tarixi və memarlıq abidələrinin bərpası və qorunması işi də görünməmiş vüsət almışdır. Azərbaycanın qədim şəhərlərinin minillikləri aşan yubiley tədbirləri, bu tədbirlər sırasında şəhər tarixinə həsr olunmuş beynəlxalq elmi konfransların keçirilməsi və şəhər tarixinə aid əsərlərin nəşri təqdirəlayiq bir ənənə halını almışdır.

Azərbaycan şəhərlərinin tarixinin araşdırılmasına göstərilən dövlət qayğısı Prezident İlham Əliyevin təşəbbüsü və nəzarəti altında həyata keçirilir. Bununla əlaqədar İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə nitqini (8 aprel 2014-cü il) xüsusi nümunə gətirmək olar: ***" ... Naxçıvan qədim Azərbaycan torpağıdır. Naxçıvanda tarixi abidələr, dini abidələr, memarlıq abidələri, bütün toponimlər Azərbaycan xalqına məxsusdur. Əsrlər boyu Azərbaycan xalqı bu gözəl diyarda yaşamış, yaratmışdır.***

***Naxçıvanın, eyni zamanda qədim dövlətçilik tarixi vardır. Qədim Atabəylər dövlətinin mərkəzi Naxçıvan idi. Təsadüfi deyil ki, Naxçıvana 90 il bundan əvvəl Azərbaycanın tərkibində muxtariyyət statusu verilmişdir. Bu, gözəl hadisə idi, tarixi hadisə idi. Naxçıvanın rolunu, bu diyarın strateji əhəmiyyətini əks etdirən bir qərar idi ...".***

Naxçıvanın müasir tarixində Ulu Öndər Heydər Əliyev dövrünün xüsusi mərhələ təşkil etdiyini qeyd edən İlham Əliyev göstərir ki, ***"Naxçıvanın inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. İlk növbədə, ona görə ki, Naxçıvan Azərbaycan xalqına böyük şəxsiyyət Ulu Öndər Heydər Əliyevi bəxş etmişdir. Ulu Öndər bütün dövrlərdə Naxçıvana böyük diqqət göstərmişdir.***

***1970–1980-ci illərin əvvəllərində respublikanın sosial-iqtisadi inkişafı üçün çox böyük işlər görmüşdür. O vaxt Azərbaycanın hər bir yerində olduğu kimi, Naxçıvanda da sürətli inkişaf dövrü müşahidə edilirdi. Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan 1980-ci illərin əvvəllərində sovet məkanında ən qabaqcıl yerlərdə idi, o cümlədən Naxçıvanda da böyük sosial quruculuq işləri aparılırdı. Naxçıvanın sənaye potensialı formalaşırdı. Bir sözlə, muxtar respublika öz inkişaf dövrünü yaşayırdı.***

***Əfsuslar olsun ki, Heydər Əliyevin Azərbaycandan Moskvaya köçməsindən sonra bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da tənəzzül dövrü yaşanmışdı. Əldə edilmiş bütün uğurlar tədricən tənəzzül etmiş və muxtar respublika üçün çox ağır bir dövr başlamışdır. Biz o dövrü yaxşı xatırlayırıq. 1980-ci illərin sonları Naxçıvan üçün əsl sınaq dövrü idi. Xoşbəxtlikdən yenə də Ulu Öndərin rəhbərliyi ilə naxçıvanlılar bu ağır sınaqdan şərəflə çıxa bilmişlər".***

Heydər Əliyevin Azərbaycan tarixində, eləcə də Naxçıvanın tarixində Qurtuluş lideri rolu oynadığını göstərən İlham Əliyev 1990-cı illərin başlanğıcında bölgədə gedən prosesləri aşağıdakı kimi təhlil edir: ***"Məhz 1990-cı illərin əvvəllərində Naxçıvanın taleyi həll edilirdi. Əgər o illərdə Heydər Əliyev Naxçıvanda olmasaydı və naxçıvanlılar Ulu Öndərin ətrafında sıx birləşməsəydilər, Naxçıvanın taleyi çox ağır ola bilərdi.***

***Çünki artıq erməni millətçiləri Azərbaycana qarşı işğalçı siyasətini başlamışdılar və onların məkrli planlarında Naxçıvanın işğalı da var idi. O vaxt Naxçıvanda vəziyyət böyük çətinliklər hesabına sabit olaraq qalırdı. O vaxtkı Azərbaycan rəhbərliyi də Naxçıvana ögey münasibət bəsləyirdi, heç bir yardım etmirdi, əksinə, Naxçıvanda sabitliyi pozmaq və vəziyyəti gərginləşdirmək üçün çox çirkin əməllər edirdi. Ancaq naxçıvanlılar həmişə olduğu kimi, müdrikliyini göstərərək Ulu Öndərin ətrafında bir yumruq kimi sıx birləşdilər və həm erməni işğalçılarına tutarlı cavab verdilər, onları yerinə oturtdular, həm də Azərbaycanın mərkəzi hökumətinə də öz etiraz səslərini qaldıraraq bildirdilər ki, Naxçıvanda o məkrli ssenari keçməyəcəkdir.***

***Naxçıvanda dövlət çevrilişi cəhdi də olmuşdur. Biz bunu yaxşı xatırlayırıq. Bu, yaxın tarixdir. Ancaq yenə də Ulu Öndərin qətiyyəti, müdrikliyi, cəsarəti, naxçıvanlıların ona olan inamı bu ağır sınaqdan çıxmaq üçün bizə imkan yaratdı. O illərdə nəinki Naxçıvan üçün, Azərbaycan üçün də tarixi qərarlar qəbul edilmişdir. Naxçıvan Muxtar Respublikası Naxçıvan Sovet Sosialist Muxtar Respublikası adlandırılırdı. O vaxt Naxçıvanın adı dəyişdirildi. Ulu Öndərin təklifi ilə "sovet sosialist" sözləri muxtar respublikanın adından çıxarıldı. Naxçıvanda ilk dəfə olaraq 1990-cı illərdə Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi qəbul edildi və Azərbaycanın Ali Məclisi qarşısında vəsatət qaldırıldı ki, Azərbaycan dövləti də bu bayrağı rəsmi dövlət bayrağı kimi təsdiq etsin. 1991-ci ildə Sovet İttifaqının saxlanması üçün keçirilən qanunsuz referendumda Naxçıvan iştirak etməmişdir. Yəni bu addımlar ondan sonrakı dövrdə Azərbaycanın dövlət müstəqilliyini şərtləndirdi. O illərdə də Ulu Öndər qətiyyət, cəsarət, öz xalqına, öz millətinə nə qədər bağlı olduğunu göstərmişdir. Bir daha göstərmişdir ki, onun üçün dövlət maraqları, Azərbaycanın maraqları hər şeydən üstündür. Naxçıvan bu ağır sınaqlardan çıxaraq inkişaf yoluna qədəm qoymuşdur.***

***Ulu Öndərin Azərbaycan tarixində rolu əvəzsizdir. Şəxsiyyətlərin tarixdə rolu haqqında çoxlu kitablar, elmi əsərlər yazılmışdır. Ulu Öndərin həyat və fəaliyyəti, onun siyasəti şəxsiyyətlərin tarixdə rolu haqqında kifayət qədər geniş material verir. Bu böyük şəxsiyyətin rolu o qədər əhəmiyyətli və dəyərlidir ki, bu gün müstəqil Azərbaycan dövləti Ulu Öndərin siyasəti, cəsarəti, uzaqgörənliyi sayəsində inkişaf edir, yaşayır".***

Naxçıvanın müasir sosial-iqtisadi və mədəni inkişaf xüsusiyyətlərini, uğurlarını təhlil edən tarixçi Prezident göstərir ki, ***"... Son bir il ərzində Naxçıvanda görülən işlərlə bir daha tanış olarkən, gördüm ki, nə qədər böyük işlər görülür, Naxçıvan rəhbərliyi muxtar respublikanın inkişafı üçün nə qədər böyük sevgi ilə, diqqətlə səylər göstərir. Bütün bu uğurlar münasibətilə naxçıvanlıları ürəkdən təbrik edirəm.***

*Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan Ordusu bu gün güclü ordudur. Naxçıvan Ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir.*

*Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır. Bu gün bu belədir. Gələcəkdə Naxçıvanın hərbi potensialının gücləndirilməsi üçün əlavə tədbirlər görüləcəkdir. Naxçıvanın hərbi potensialı elə olmalıdır ki, istənilən təcavüzə tutarlı, layiqli cavab verə bilsin. Bu gün bu, artıq reallıqdır. Gələcək illərdə görüləcək əlavə tədbirlər hesabına biz Naxçıvanda daha da böyük hərbi potensial yaradacağıq. Buna imkan vardır.*

*... Naxçıvanda enerji təhlükəsizliyi məsələləri öz həllini tam şəkildə tapıbdır. Bu da çox sevindirici haldır. Bu gün Naxçıvan 100 faiz səviyyəsində qazlaşdırılıbdır. Bütün yaşayış məntəqələrində təbii qaz vardır. Naxçıvan bu gün elektrik enerjisi ilə təchizat baxımından öz enerji təhlükəsizliyini tam şəkildə təmin edə bilibdir. Hətta ixrac imkanları yaranmışdır.*

*Biz o illəri yaxşı xatırlayırıq. 1990-cı illərin əvvəllərində mən də dəfələrlə Naxçıvana gəlirdim. Biz, faktiki olaraq, qaranlıq içində yaşayırdıq. Evlərdə işıq yox idi, nəinki küçələrdə. İşıq böyük fasilələrlə verilirdi. Ən böyük problem işıq idi. Qazdan, ümumiyyətlə, söhbət belə getmirdi. Ancaq bu gün Naxçıvan nəinki özünü enerji ilə tam şəkildə təmin edir, hətta ixrac edir.*

*Ən önəmlisi ondan ibarətdir ki, Naxçıvanın daxili təminatı 100 faiz bərpa olunan enerji növləri hesabına ödənilir. Bu da, deyə biləram ki, dünyada çox nadir hallarda müşahidə edilən bir mənzərədir.*

*İndi Naxçıvanın elektrik enerjisi potensialı 220 meqavata yaxındır. Bu imkanları son illərdə tikilmiş elektrik stansiyaları yaratdı. Son illər ərzində 5 elektrik stansiyası tikilmişdir. Bu gün elektrik enerjisi ilə heç bir problem yoxdur. Nəinki bu gün, gələcəkdə də olmayacaqdır. Çünki biz, əlbəttə, öz enerji potensialımızı elə təşkil etməliyik ki, uzun illər bundan sonra da sürətli inkişafımızı təmin*

***etsin. Çünki heç bir inkişaf elektrik enerjisiz mümkün deyildir. Naxçıvanın artan iqtisadi potensialı, sənaye inkişafı, artan əhalisi diktə edir ki, elektrik enerjisi ilə təchizat daim yüksək səviyyədə təşkil edilsin.***

***Yəni, bir sözlə, bu gün bu məsələ öz həllini tapıbdır ... Naxçıvanın sənaye potensialı artır, ixrac artır və Naxçıvanın artıq 100 milyon dollar səviyyəsində ixrac potensialı yaranmışdır. Naxçıvanda ərzaq təhlükəsizliyi məsələləri, demək olar ki, tam şəkildə öz həllini tapmışdır ...***

***İnfrastruktur layihələrinin icrası, yolların çəkilməsi, hazırda içməli su və kanalizasiya layihələrinin icrası da çox önəmli hadisədir. Yəni, bir sözlə, Naxçıvanın bütün sosial, iqtisadi, infrastrukturu, hərbi məsələləri yüksək səviyyədə öz həllini tapır".***

Prezidentin Azərbaycanın əksər böyük şəhərlərində tarix-diyarşünaslıq muzeylərinin yaradılması işinə xüsusi diqqət yetirməsi, bu muzeylərin açılışında şəxsən iştirak etməsi faktından da görünür. Şamaxıda, Xızıda, Saatlıda, Yevlaxda, Bərdədə, Cəlilabadda və digər şəhərlərimizdə yaradılan tarix-diyarşünaslıq muzeyləri, bərpa olunan məscidlərin yenidən fəaliyyətə başlaması birbaşa Prezidentin təşəbbüsü və dəstəyi ilə həyata keçirilmişdir.

Bu məsələnin Azərbaycan üçün nə qədər vacib olduğunu Prezident 2013-cü ilin sentyabrında Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksinin açılışında Şamaxı məscidi ilə bağlı etdiyi çıxışında da xüsusi vurğulamışdır: ***" ... Bizim torpaqlarımız işğal altındadır, tarixi abidələrimiz, məscidlərimiz dağıdılıb, muzeylərimiz talan olunub, bütün şəhərlər yerlə-yeksan edilib. Bu memorial kompleksdə Şamaxının görüntüləri əks olunub. Burada Şamaxı məscidinin – qədim müsəlman aləmində ən qədim məscidlərdən biri olan Şamaxı məscidinin yarıdağılmış vəziyyətdə olan şəkilləri göstərilir. Biz bu ilin may ayında Şamaxı Cümə məscidini yenidən bərpa etdik, 743-cü ildə tikilmişdir. Bu məscid bu gün yenidən dindarların üzünə açılmışdır. Soyqırımı törədildi, bütün tarixi abidələr dağıdıldı. Bax, Şamaxının bu memorial kompleksdə***

***əks olunan dağılmış vəziyyətdə olan şəkilləri bu gün yenə də təkrarlanır. Bu gün Ağdam, Füzuli, Şuşa belə vəziyyətdədir və bunu edənlər ermənilərdir. Bunu edənlər bu gün özlərini mədəni millət kimi təqdim etmək istəyirlər. Ancaq bunu edənin bir adı var – vəhşi! Başqa ad ola bilməz …".***

Azərbaycan şəhərlərinin qədim və zəngin maddi-mədəniyyət abidələrinin qorunub saxlanması və gələcək nəsillərə ötürülməsi böyük əhəmiyyət kəsb edir. İstər tarixi abidələrimizin, o cümlədən məscidlərin bərpası, istər tarix-diyarşünaslıq muzeylərinin və memorial komplekslərin yaradılması Azərbaycan tarixinin təbliğinə xidmət edir.

## Heydər Əliyev Fondu Azərbaycan tarixinin və mədəniyyətinin müdafiəsində

Azərbaycanın müasir dövlətçilik tarixində Heydər Əliyevin irsinin yeri əvəzedilməzdir və bu irsin qorunması və təbliği Azərbaycan Respublikasının daxili və xarici siyasətinin başlıca prioritetlərindəndir. Bu gün Heydər Əliyev irsinin qorunması, eləcə də Azərbaycan tarixinin və mədəniyyətinin dünyada tanıdılması işində Heydər Əliyev Fondu aparıcı rol oynayır. Heydər Əliyev Fondu 2004-cü ildə Heydər Əliyevin xatirəsinə Azərbaycan xalqının ehtiramını ifadə etmək, onun zəngin mənəvi irsini əks etdirmək, azərbaycançılıq fəlsəfəsinin Azərbaycan üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaradılmışdır. Heydər Əliyev Fondunun prezidenti Azərbaycanın birinci xanımı, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, UNESCO-nun və ISESCO-nun Xoşməramlı səfiri Mehriban Əliyevadır.

Heydər Əliyev Fondunun başlıca məqsədi: görkəmli siyasi xadim Heydər Əliyevin ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə müəyyən etdiyi, işləyib hazırladığı siyasətin öyrənilməsinə, təbliğinə və bu ideyaların həyata keçirilm əsinə dəstək vermək; Azər-

XOŞBƏXT OLUN!

EYDAR ALIYEV FOUNDATION

baycanın tərəqqisi və xalqımızın rifahı naminə ümummilli lider Heydər Əliyevin zəngin irsindən bəhrələnərək bu işə xidmət edən geniş miqyaslı proqram və layihələrin reallaşmasına kömək etmək; elm, təhsil, mədəniyyət sahələrinə aid proqram və layihələr hazırlayıb həyata keçirmək; Azərbaycan mədəniyyətinin geniş təbliği, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlərə kömək etmək; elmi tədqiqatların aparılmasına yardım göstərmək; xarici ölkələrin tanınmış elmi tədqiqat mərkəzləri ilə alimlərin mübadiləsini təşkil etmək, ölkənin yaradıcı və elmi potensialının artırılmasına kömək etmək; dini tolerantlığın bərqərar olmasına, vətəndaş cəmiyyəti quruculuğuna, qloballaşan dünyaya inteqrasiya prosesində milli mənəvi dəyərlərin qorunub saxlanılmasına dəstək verməkdir.

Heydər Əliyev Fondunun fəaliyyət istiqamətləri çoxşaxəlidir; monoqrafiyanın obyektini nəzərə alaraq, biz bu istiqamətlərin içərisində elm və mədəniyyət sahələrinə yer ayırmağı məqsədəuyğun saydıq. Bununla yanaşı, Fondun təhsil, səhiyyə və sosial sahədə həyata keçirdiyi layihələrin də qısa icmalını vermək istərdik.

Cəmiyyətdə bərabər təhsil imkanlarının yaradılması, gənc nəslin biliklərə yiyələnməsi, ümumilikdə təhsil sisteminin inkişaf etdirilməsi məqsədilə Heydər Əliyev Fondu "Uşaq evləri və internat məktəblərinin inkişafı" Proqramını, "Yeniləşən Azərbaycana yeni məktəb" və "Təhsilə dəstək" layihələrini həyata keçirir. Qeyd edək ki, 2005–2014-cü illər ərzində "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində respublika üzrə 32 uşaq müəssisəsi əsaslı şəkildə təmir edilmişdir. "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində ölkənin müxtəlif bölgələrində 412 məktəb binası inşa olunmuş və yenidən qurulmuşdur. Heydər Əliyev Fondu hər il "Təhsilə dəstək" layihəsi çərçivəsində Qarabağ müharibəsi nəticəsində daimi yaşayış yerlərini tərk etmiş qaçqın və məcburi köçkün ailələrindən olan birinci sinif şagirdlərinə çanta və məktəb ləvazimatı hədiyyə edir. Gürcüstanın azərbaycanlılar yaşayan bölgələrindəki məktəblərə, həmçinin Azərbaycanın Qax, Zaqatala və Balakən rayonlarında tədrisin gürcü dilində aparıldığı məktəblərə də mütəmadi olaraq yeni dərslik və tədris ləvazimatları göndərilir.

Heydər Əliyev Fondu əhalinin səhiyyə problemlərinin aradan qaldırılmasında yaxından iştirak edir. 2004-cü ildən Fond Azərbaycan Diabet Cəmiyyəti və Danimarkanın "Novo Nordisk" şirkəti ilə birgə "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsini həyata keçirir. Layihə çərçivəsində Azərbaycanda diabet xəstəliyinə düçar olmuş 14 yaşınadək uşaqlar müntəzəm olaraq insulin preparatları və şpris-qələmlərlə təmin edilirlər. Talassemiya xəstəliyinin qarşısının alınması məqsədilə 2005-ci ildə "Talassemiyasız həyat naminə" layihəsinə start verilmişdir. Layihə çərçivəsində 2009-cu ildə Bakıda müasir avadanlıqla təchiz olunmuş Talassemiya Mərkəzi inşa edilmişdir.

Fond tibb müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və inşasında yaxından iştirak edir. Belə ki, Fond tərəfindən 2006-cı ildə Türkan qəsəbəsində poliklinikanın və təcili tibbi yardım stansiyasının inşası, Şüvəlan qəsəbəsində 31 nömrəli Birləşmiş Şəhər Xəstəxanasının əsaslı təmiri Ucar rayonunun Qazıqumlaq kəndində Akademik Zərifə Əliyeva adına Xəstəxananın əsaslı bərpası, 2008-ci ildə Zirə Müalicə Diaqnostika Mərkəzinin yenidən qurulması, Qala qəsəbəsində ilk xəstəxananın – 29 nömrəli Birləşmiş Şəhər Xəstəxanasının filialının inşası, 2009-cu ildə Bakıda Psixonevroloji Uşaq Mərkəzinin inşası, Talassemiya Mərkəzinin inşası, "Təbəssüm" uşaq sanatoriyasının əsaslı təmiri və yenidən qurulması, 2011-ci ildə Pirşağı qəsəbəsindəki 34 nömrəli Şəhər Səhiyyə Kompleksinin yenidən qurulması, Xüsusi Qayğıya Ehtiyacı olan Uşaqlar üçün Reabilitasiya Mərkəzinin inşası, Mərkəzi Neftçilər Xəstəxanasında Cərrahiyyə və Orqan Transplantologiya Mərkəzinin əsaslı təmiri, Mərdəkan qəsəbəsində Səhiyyə Nazirliyinin Uşaq Tibbi Reabilitasiya Xəstəxanasının əsaslı təmiri, 2013-cü ildə "Qayğı" Uşaq Reabilitasiya Mərkəzinin yenidən qurulması, Türkan qəsəbəsində yeni poliklinikanın inşası həyata keçirilmişdir.

Qeyd edək ki, Heydər Əliyev Fondu təkcə Azərbaycanda deyil, xarici ölkələrdə də təhsil, səhiyyə və sosial sahələrdə böyük layihələrə imza atmışdır. Məsələn, 2010-cu ilin dekabrında Heydər Əliyev Fondu tərəfindən Yekaterinburqdakı 1 nömrəli Vilayət Kliniki Xəstəxanasının Uşaq Onkohematoloji Mərkəzinə xüsusi tibbi avadanlıqla təchiz edilmiş "Sobol" markalı təcili yardım maşını hədiyyə edilmiş-

dir. 2012-ci ilin aprelində Pakistanın Heybər-Paxtunxva əyalətinin Qazni Laki Marvat şəhərində yerləşən qadınlar və uşaqlar xəstəxanasında 4 nəfər imkansız xəstənin ürəyində cərrahiyyə əməliyyatı aparılmış, "Edhi Home" xeyriyyə fondunun İslamabadda yerləşən kimsəsizlər evindəki uşaqlara tibbi baxış keçirilmiş və hepatit B virusuna qarşı peyvəndlər edilmişdir. 2012-ci ilin iyununda Peşəvər şəhərində imkansız xəstələrin müalicəsini həyata keçirən göz xəstəxanasının yeni korpusunun tikintisi və göz xəstəliklərindən əziyyət çəkən 120 nəfər imkansız xəstənin əməliyyat olunması üçün maliyyə yardımı edilmişdir.

Heydər Əliyev Fondunun fəaliyyət istiqamətlərindən biri də – tarixi-mədəniyyət abidələrinin bərpası və mədəniyyət obyektlərinin inşasıdır. 2004–2014-cü illər ərzində Fond Azərbaycanda və xarici ölkələrdə bu istiqamətdə mühüm layihələr reallaşdırmışdır.

Azərbaycanda Fondun dəstəyi ilə 2005-ci ildə Cavad xanın qəbri üzərində məqbərənin ucaldılması, Comərd Qəssabın məzarı və məzarüstü türbəsinin bərpası, Abdulla Şaiqin ev-muzeyinin bərpası, Xəzər rayonunun Mərdəkan qəsəbəsində kütləvi kitabxana üçün müasir binanın inşası, 2007-ci ildə Mərdəkan Mədəniyyət Sarayının yenidən qurulması, 2008-ci ildə Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksinin yaradılması, Gəncə qapılarının ilkin şəkildə qurulması Salyan Dövlət Rəsm Qalereyasının yenidən qurulması, Ağcabədidə Qarabağ Muğam Mərkəzinin inşası, Bakıda Beynəlxalq Muğam Mərkəzinin inşası, 2009-cu ildə Ağdaşda xalq artisti Habil Əliyevin adını daşıyan uşaq musiqi məktəbinin inşası, Bakı Müasir İncəsənət Muzeyinin yaradılması, 2010-cu ildə Xəzər rayonunun Türkan və Binə qəsəbələrində yeni mədəniyyət mərkəzlərinin inşası, 2011-ci ildə Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksinin ərazisində Etno-Ekoloji Mərkəzin və Qala Əntiq Əşyalar Muzeyinin yaradılması, 2014-cü ildə Gəncədə Nizami Gəncəvi Muzeyinin inşası Bakıda Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi üçün yeni binanın inşası həyata keçirilmişdir.

Fondun xarici ölkələrdə tarixi-mədəniyyət abidələrinin bərpası və yeni mədəniyyət obyektlərinin inşası sahəsində də böyük fəaliy-

yəti olmuşdur. 2006-cı ildə Gürcüstanın Tiflis şəhərində Azərbaycanın görkəmli şəxsiyyətlərinin – Mirzə Şəfi Vazehin, Mirzə Fətəli Axundzadənin, Həsən bəy Ağayevin və Fətəli xan Xoyskinin qəbirüstü abidələrinin yenidən qurulması və xiyabanın yaradılması, 2007-ci ildə Parisdə Versal Sarayının parkındakı ümumbəşəri abidələrin bərpası, 2008-ci ildə Luvr Muzeyinin bərpası, 2011-ci ildə İkinci Dünya müharibəsi zamanı yanmış və dağıdılmış Berlin qəsrinin bərpası, 2012-ci ildə Romanın Villa Borgeze parkında Nizami Gəncəvinin abidəsinin ucaldılması, Vatikanda Roma katakombalarının bərpası, Moskvada M.İ.Rudomino adına Ümumrusiya Dövlət Xarici Ədəbiyyat Kitabxanasının atriumunda Azərbaycanın görkəmli yazıçısı, filosofu və humanisti Mirzə Fətəli Axundzadənin abidəsinin ucaldılması Parisdə Azərbaycan Mədəniyyət Mərkəzinin yaradılması, 2013-cü ildə Romada Kapitolini Muzeyinin "Filosoflar zalı"nın təmiri bu fəaliyyətin bariz nümunəsidir.

Azərbaycan xalqının mədəni ənənələri və tarixində dərin köklərə malik olan muğam sənətinin inkişafı və təbliği, Azərbaycanın milli musiqi irsinin qorunub saxlanılması, dünya musiqi incilərinin Azərbaycanda tanıdılması Heydər Əliyev Fondunun mədəniyyət sahəsindəki fəaliyyətində mühüm yer tutur. 2005-ci ildə görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin anadan olmasının 120 illik yubileyi münasibətilə Heydər Əliyev Fondunun təşkilatçılığı ilə muğam müsabiqəsi keçirilmişdir. Qədim muğam sənətinin qorunub saxlanılması, zəngin tarixə malik ifaçılıq sənətinin gələcək nəsillərə çatdırılması, yeni ifaçılar nəslinin yetişdirilməsi məqsədilə 2007, 2009, 2011 və 2013-cü illərdə də muğam müsabiqələri təşkil olunmuşdur. Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilati dəstəyi ilə 2007–2012-ci illərdə Bakıda Mstislav Rostropoviç adına Beynəlxalq Musiqi festivalları, 2009, 2011 və 2013-cü illərdə "Muğam aləmi" Beynəlxalq Muğam festivalları, 2009–2013-cü illərdə Qəbələ şəhərində Beynəlxalq Musiqi Festivalları keçirilmişdir. 2010-cu ilin oktyabr ayında Heydər Əliyev Fondunun dəstəyi, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin və Azərbaycan Aşıqlar Birliyinin təşkilatçılığı ilə I Beynəl-

xalq Aşıq Festivalının təntənəli açılış mərasimi olmuşdur. Fond "2012 Avroviziya Mahnı Müsabiqəsi"nin Təşkilati Tərəfdaşı olmuşdur.

Heydər Əliyev Fondu bir sıra incəsənət festivalları və sərgilərinin təşəbbüskarı və təşkilatçısıdır. Bu tədbirlər həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda təşkil olunur. "Mən Azərbaycanı sevirəm" adlı rəsm sərgisi – 2004-cü ilin sentyabrında uşaq evlərində və internat məktəblərində tərbiyə alan uşaqların əl işlərindən təşkil olunmuş sərginin məqsədi hamının diqqətini qayğıya daha çox ehtiyacı olan uşaqlara yönəltmək olmuşdur. "Qız qalası" Beynəlxalq İncəsənət Festivalı – UNESCO-nun Ümumdünya irsi Siyahısına daxil edilmiş İçərişəhərin ərazisində yerləşən və Bakının rəmzi hesab olunan Qız qalasının dünyada tanıdılması məqsədilə 2010–2014-cü illərdə "Qız qalası" Beynəlxalq İncəsənət festivalları keçirilmişdir.

Qala Festivalı – Azərbaycan xalqının zəngin tarixi keçmişini, qədim məişət ənənələrini yaşatmaq, gənc nəslə tanıtmaq və təbliğ etmək məqsədilə 2010 və 2014-cü illərdə Qala Dövlət Tarix Etnoqrafya Qoruğunun ərazisində Qala Festivalı keçirilmişdir.

Azərbaycandan kənarda keçirilmiş mədəniyyət tədbirləri də Fondun Azərbaycan tarixini və mədəniyyətini təbliğ etmək işinə xidmət edir. Azərbaycanın dünyada tanıdılması, beynəlxalq nüfuzunun artırılması, Azərbaycanın tarixihaqqında məlumatların dünya ictimaiyyətinə çatdırılması Heydər Əliyev Fondunun qarşıya qoyduğu prioritet məsələlərdəndir. 2009-cu ilin noyabr ayında Avropa Parlamentinin mənzil-qərargahında, ilk dəfə olaraq, Azərbaycan mədəniyyəti günləri təşkil olunmuşdur. 2010-cu ilin noyabr ayında Londonda "Azərbaycan xalçaları ilə nağıllar aləminə" adlı sərgi keçirilmişdir. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsinin 20-ci ildönümü münasibətilə Fransada (Paris, 17 fevral 2011), Rusiya Federasiyasında (Moskva, 17 may 2011-ci il) Almaniyada (Berlin, 29 sentyabr 2011-ci il), Vatikanda (29 noyabr 2011-ci il) və İtaliyada (Roma, 2 dekabr 2011-ci il) tədbirlər keçirilmişdir. 2011-ci il aprelin 18-də Parisdə "Odlar yurdu Azərbaycanın müasir əsərləri" adlı sərginin açılışı olmuşdur. 2011-ci il iyulun 16-da Fransanın San-

Trope şəhərində Heydər Əliyev Fondunun dəstək və təşkilatçılığı ilə II Ramatüel Klassik Musiqi Festivalı çərçivəsində "Azərbaycanın mədəni zənginlikləri" adlı sərgi keçirilmişdir. 2011-ci il iyulun 17-də Heydər Əliyev Fondunun dəstəyi ilə Azərbaycan musiqiçiləri Fransanın Ramatüel şəhərində keçirilən II Ramatüel Klassik Musiqi Festivalında iştirak etmişlər. 2012-ci ilin yanvarında Londonda "Bakıya uçuş. Müasir Azərbaycan incəsənəti" mövzusunda sərginin açılışı olmuşdur. Layihə çərçivəsində, Azərbaycan da daxil olmaqla, 7 ölkədə 21 azərbaycanlı müəllifin rəngkarlıq, heykəltəraşlıq, qrafika, foto, video, instalyasiya və performans janrlarında 100-dən çox əsəri nümayiş etdirilib.

Heydər Əliyev Fondunun dəstəyi ilə 2013-2014-cü illərdə Fransanın paytaxtı və bir sıra şəhərlərində Nizami Gəncəvinin 870, Məhsəti Gəncəvinin 900 illik yubileyinə həsr olunmuş tədbirlər keçirilib.

Azərbaycanda tolerantlıq ənənələrinin qorunmasına xüsusi əhəmiyyət verən Heydər Əliyev Fondu "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsini həyata keçirir. Layihə çərçivəsində dini abidələrdə, ziyarətgahlarda və tikililərdə təmir-bərpa işləri aparılır, mövzuya aid sərgilər təşkil olunur.

Heydər Əliyev Fondunun Azərbaycan tarixinin təbliği istiqamətində gördüyü işlərin böyük bir istiqamətini də dini-tarixi abidələrin bərpası işi təşkil edir. 2005-ci ildə Bakının Mərdəkan qəsəbəsində XVI əsrə aid Pir Həsən ziyarətgahında, 2006-cı ildə Bakının Binə qəsəbəsindəki Möhsün Səlim məscidində, 2006-cı ildə Bakının Binə qəsəbəsindəki Möhsün Səlim məscidində əsaslı təmir və bərpa işləri aparılmışdır. 2006-cı ildə Gəncədəki Həzrəti Zeynəb məscidi yenidən qurulmuşdur. 2007-ci ildə Bakıdakı Müqəddəs Bakirə Məryəm kilsəsində təmir-bərpa işləri aparılmış, kilsənin asma tavanı bədii şüşələrlə əvəz edilmiş, məbədin fasadı dəyişdirilmişdir. 2008-ci ilin sentyabrında Heydər Əliyev Fondu və Roma Katolik dini icması arasında imzalanmış Anlaşma Memorandumu çərçivəsində Bakıdakı Müqəddəs Məryəm kilsəsinin asma tavan şüşələri dini mövzuda və klassik vitraj texnikasında işlənmiş bədii şüşələrlə əvəz edilmiş, mə-

bədin fasadında keramik panno yerləşdirilmişdir. 2007–2009-cu illərdə Buzovna qəsəbəsindəki Cümə məscidində, 2012- 2013-cü illərdə Binə qəsəbəsindəki İmam Rza və Mərdəkan qəsəbəsindəki Heydər Cümə məscidlərində əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. 2010–2013-cü illər ərzində Azərbaycan ərazisində, bütövlükdə Cənubi Qafqazda və Yaxın Şərqdə ən qədim müsəlman məbədlərindən olan Şamaxı Cümə məscidində əsaslı təmir və yenidənqurma işləri aparılmış, Qəbələdə isə yeni məscid inşa olunmuşdur.

Azərbaycan tarixinin təbliği, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması Heydər Əliyev Fondunun fəaliyyətinin prioritetlərindəndir. Fond, 2007-ci ildən başlayaraq, hər il dünyanın bir sıra böyük şəhərlərində Xocalı soyqırımının ildönümü ilə bağlı aksiyalar keçirir. 2013-cü ilin fevralında Parisdə fransız rəssamı Reno Baltzinjerin Xocalı faciəsinə həsr etdiyi rəsm əsərlərindən ibarət "Xocalı gecəsi" sərgisinin vernisajı keçirilib.

2012-ci ilin fevralında Fondun təşəbbüsü ilə Sarayevoda Srebrenitsa və Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidə açılmışdır.

Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə reallaşan "Xocalıya ədalət!" kampaniyası çərçivəsində bu acı həqiqətin dünyada tanıdılması, bu faciənin Azərbaycan xalqına qarşı soyqırımı aktı kimi tanınması üçün məqsədyönlü işlər həyata keçirilir. 2012-ci ilin martında "Xocalıya ədalət!" Beynəlxalq kampaniyası çərçivəsində Bakıda Xocalı faciəsinin 20 illiyinə həsr olunmuş "Sonu olmayan dəhliz" filminin təqdimatı keçirilmişdir. Fond Xocalı soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda memorial kompleksin yaradılması layihəsini həyata keçirir. 2012-ci ilin fevralında Xocalı soyqırımının iyirminci ildönümü ilə əlaqədar "Uşaqlar və müharibə" mövzusunda respublika rəsm sərgisi keçirilmişdir.

Son illər Kanada, Meksika, Kolumbiya, Peru, Pakistan İslam Respublikası, Bosniya və Herseqovina, Rumıniya, Çexiya və İordaniyanın parlamentləri Xocalı soyqırımını tanımışlar. ABŞ-ın Vest Virci-

niya ştatının qanunverici orqanının Nümayəndələr Palatasında Xocalı faciəsi ilə bağlı bir müddət əvvəl qətnamə qəbul İdarəsinin edilmişdir. Qətnamədə Xocalıda törədilmiş cinayətlərin 1988-ci ildən Azərbaycanın Dağlıq Qarabağ regionunda erməni hərbi qüvvələri tərəfindən həyata keçirilən təcavüzün tərkib hissəsi olduğu qeyd edilir. Bundan əvvəl isə Kaliforniya, Massaçusets, Texas, Nyu Cersi, Meyn, Nyu Meksika, Arkanzas, Corciya, Oklahoma, Tennesi, Pensilvaniya, Konnektikut, Florida, Missisipi ştatlarının qanunverici orqanlarında da müvafiq qətnamələr qəbul olunmuş, Xocalıda qırğın törədənlərin məsuliyyətə cəlb olunması tələb edilmişdir.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü əsasında İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Gənclər Forumunun dünyanın 40-dan çox ölkəsində həyata keçirdiyi "Xocalıya ədalət!" kampaniyasının məqsədi də beynəlxalq ictimaiyyəti bu qanlı hadisə ilə bağlı ətraflı məlumatlandırmaqdır. Qısa bir müddət ərzində dünyanın bir neçə ölkəsində – Türkiyədə, Rusiyada, Ukraynada, Almaniyada, İngiltərədə, İsveçrədə, Belçikada, Çində, Misirdə, Səudiyyə Ərəbistanında, Küveytdə, İsraildə, Braziliyada, Kolumbiyada, Meksikada "Xocalıya ədalət!" beynəlxalq kampaniyasının və onun internet səhifəsinin təqdimatı olmuşdur.

"Xocalıya ədalət!" kampaniyası çərçivəsində Niderland parlamentinə faciənin iyirminci ildönümü ilə əlaqədar müraciət və bu soyqırımın tanınmasına dair 1 milyon yerli vətəndaşın imzalar toplusu təqdim edilmişdir.

Xocalı qətliamı İsveçdə yaradılmış "Beynəlxalq Müharibə Qurbanları Memorialı" layihəsinə daxil edilmişdir.

Leyla Əliyevanın təşəbbüsü ilə keçirilən "Xocalıya ədalət!" beynəlxalq kampaniyası bu faciəni dünyada XX əsrin ən qanlı soyqırımlarından biri kimi tanıtmışdır. "Xocalıya ədalət!"çağırışı artıq beynəlxalq tələbə çevrilmişdir.

Erməni millətçilərinin Azərbaycana qarşı ərazi iddialarını və təcavüz siyasətini dünya ictimaiyyətinə çatdırmaq, gələcək nəsillərin milli yaddaşını qorumaq və soyqırımı qurbanlarının xatirəsini əbədi-

ləşdirmək məqsədilə 2009-cu il 30 dekabr tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Quba şəhərində "Soyqırımı Memorial Kompleksi"nin yaradılması haqqında Sərəncam imzalamışdır. 2013-cü ilin sentyabrında istifadəyə verilmiş kompleks Heydər Əliyev Fondu tərəfindən inşa edilmişdir. Abidə-muzeyin ekspozisiyasında 1918-ci ilin mart–iyul aylarında Bakı quberniyasının 5 qəzasında – Bakı, Şamaxı, Quba, Cavad və Göyçayda müsəlman əhaliyə qarşı törədilmiş soyqırımın tarixi öz əksini tapıb. 19 bölmədən ibarət muzeyin ekspozisiyası unikal arxiv sənədləri ilə zəngindir.

Azərbaycan tarixi haqqında məlumatların, o cümlədən Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin, Xocalı soyqırımının, münaqişə nəticəsində Azərbaycana vurulan ekoloji, sosial-psixoloji, iqtisadi və maddi-mənəvi zərərin dünya ictimaiyyətinə çatdırılması Heydər Əliyev Fondunun əsas hədəflərindən biridir. Bu məqsədlə xarici ölkələrdə tədbirlər keçirilir, sərgilər təşkil olunur, müxtəlif dillərdə buklet və kitablar nəşr edilir.

2006-cı ildə Heydər Əliyev Fondu tərəfindən "Qarabağ həqiqətləri" bukletlər toplusu nəşr edilmişdir. "Qarabağ həqiqətləri" silsiləsinin davamı olaraq 2007-ci ildə "Azərbaycana qarşı müharibə: mədəni irsin hədəfə alınması" ("War Against Azerbaijan: Targeting Cultural Heritage") kitabı ingilis dilində nəşr edilmişdir. 2006-cı ildə nəşr olunmuş "Müharibə və tarixi-mədəniyyət abidələrimiz" kitabında Azərbaycanın işğal olunmuş ərazilərindəki ziyarətgahlar və digər tarixi mədəniyyət abidələri haqqında ətraflı məlumat verilir. 1918-ci ildə Azərbaycan qəzalarında törədilmiş soyqırımı tarixi faktlarla əks etdirən 16 adda üç dildə buklet, 4 adda üç dildə kitab nəşr edilmişdir.

Heydər Əliyev Fondu dünya ədəbiyyatı incilərinin Azərbaycan dilinə, klassik və müasir Azərbaycan ədəbiyyatı nümunələrinin isə xarici dillərə tərcümə edilərək nəşr olunmasına, ölkəmizin tarixi həqiqətlərini, milli mədəniyyət və incəsənətimizi əks etdirən çoxsaylı çap məhsullarının hazırlanmasına xüsusi önəm verir. 2004-cü ildən başlayaraq Fondun dəstəyi ilə Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən kitablar nəşr edilir.

Azərbaycanın tarixi ilə bağlı faktlar dünya ictimaiyyətinə olduğu kimi çatdırmaq məqsədilə Heydər Əliyev Fondu tərəfindən mütəmadi olaraq müxtəlif nəşrlər hazırlanır. Bunlara misal olaraq "Qarabağ həqiqətləri" bukletlər toplusunu (rus, ingilis, fransız, alman, macar, yapon dillərində), "Müharibə və tarixi-mədəniyyət abidələrimiz" kitabını, "Azərbaycana qarşı müharibə: mədəni irsin hədəfə alınması" kitabını (ingilis dilində), Y.Pompeyevin "Qarabağ gündəliyi" kitabını (rus dilində), "Quba. Aprel-may, 1918-ci il. Müsəlman qırğınları sənədlərdə" (Azərbaycan, rus, ingilis dillərində) və "Bakı. Mart, 1918-ci il. Azərbaycan qırğınları sənədlərdə" (Azərbaycan, rus, ingilis dillərində) kitablarını, "Azərbaycan qırğınları şəkil və sənədlərdə" fotoalbomunu (Azərbaycan, rus, ingilis, türk dillərində) göstərmək olar.

2010-cu ilin martında Heydər Əliyev Fondu tərəfindən "Azərbaycan" kitabı çap olunmuşdur. Ölkəmiz haqqında müfəssəl məlumat vermək məqsədilə hazırlanmış nəşrdə xalqımızın qədim tarixi, mədəniyyəti, ənənələri, etnoqrafik xüsusiyyətləri ilə yanaşı, ölkəmizin müasir simasını təcəssüm etdirən 1000-dən çox fotoşəkil toplanmışdır. İlkin olaraq Azərbaycan dilində nəşr olunmuş kitab rus, ingilis, fransız (2010), alman, italyan (2011), ərəb (2013) dillərinə tərcümə edilmişdir.

2004–2014-cü illər ərzində Azərbaycanın tarixi, təbiəti, mədəniyyəti, incəsənəti və kulinariyasından bəhs edən çoxsaylı açıqcalar, bukletlər toplusu və kitablar müxtəlif dillərdə nəşr edilmişdir. Fond mədəniyyət sahəsindəki fəaliyyətində Azərbaycan xalqının mədəni ənənələri və tarixində dərin köklərə malik olan muğam sənətinin inkişafına və təbliğinə xüsusi önəm verir. Muğamı qorumaq, inkişaf etdirmək, onun gözəlliyini və dərin fəlsəfəsini gələcək nəsillərə çatdırmaq məqsədilə "Azərbaycan muğamları" layihəsi çərçivəsində bir sıra nəşrlər: "Qarabağ xanəndələri", "Muğam ensiklopediyası", "Azərbaycan muğamı", "Muğam aləmi" layihələri işıq üzü görmüşdür. 24 virtuoz muğam ifaçısının səsləndirdiyi muğam parçalarından ibarət "Qarabağ xanəndələri" albomunun təqdimat mərasimi 2005-ci ilin martında Parisdə, UNESCO–nun mənzil-qərargahında keçirilmişdir.

Fond Azərbaycan musiqisi, onun görkəmli nümayəndələri ilə bağlı nəşrlər hazırlayır.

Heydər Əliyev Fondu nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələrinin qurulmasına və birgə layihələrin reallaşdırılmasına xüsusi önəm verir. Fəaliyyətini Azərbaycandan kənarda genişləndirən Fondun ABŞ, Rumıniya, Rusiya Federasiyası və Türkiyədə nümayəndəlikləri fəaliyyət göstərir. 2005-ci ilin avqustunda Heydər Əliyev Fondu UNESCO ilə birgə "UNESCO-Azərbaycan: gələcəyə körpü" mövzusunda konfrans keçirmişdir. Konfransda Azərbaycanın təhsil sistemində aparılan islahatlar, Avropa təhsil sisteminə inteqrasiya və digər məsələlər müzakirə olunmuş, UNESCO ilə Azərbaycan arasında təhsil sahəsində əməkdaşlığa dair Memorandum imzalanmışdır. Azərbaycanın tarixi və mədəni ənənələrini, tarixi İpək Yolu regionundakı rolunu nəzərə alan Latın Mədəniyyəti Akademiyası özünün sayca XIII konfransını Heydər Əliyev Fondu ilə birgə 2006-cı ilin aprelində Bakıda keçirmişdir. 30-dan çox latın mənşəli xarici ölkədən görkəmli mədəniyyət və ədəbiyyat xadimlərinin iştirak etdiyi konfransda Azərbaycanda din-dövlət münasibətləri, mövcud qanunvericilik bazası, adət-ənənələr, dinlərin qarşılıqlı münasibətləri, dini sekta və qurumlarla iş təcrübəsi, tolerantlıq mövzularında məruzələr dinlənilmişdir. 2007-ci ilin noyabrında Bakıda İslam Konfransı Təşkilatının Dialoq və Əməkdaşlıq Naminə Gənclər Forumu ilə Heydər Əliyev Fondu tərəfindən təşkil olunmuş "Gənclər sivilizasiyaların alyansı naminə" konfransı keçirilmişdir. 2008-ci ilin mayında Bakıda Dünyada Savadlılığın Dəstəklənməsi üzrə UNESCO-nun Regional Konfransları silsiləsindən "Avropada subregional çərçivədə savadlılıq problemlərinə baxış: tərəfdaşlıq əlaqələrinin qurulması və innovativ yanaşmaların tətbiqinə dəstək" mövzusunda konfrans keçirilmişdir. 2008-ci ilin iyununda Heydər Əliyev Fondunun təşəbbüsü, UNESCO və ISESCO-nun dəstəyi ilə Bakıda "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda Beynəlxalq Forum keçirilmişdir. 2008-ci ilin sentyabrında Bakıda Dünya gənclərinin 4-cü məşğulluq sammiti

(YES) keçirilmişdir. 2011-ci ilin sentyabrında Heydər Əliyev Fondu, Azərbaycan Hökuməti və UNICEF-in birgə layihəsi çərçivəsində "Təcriddən inteqrasiyaya doğru" mövzusunda Beynəlxalq Konfrans keçirilmişdir.

Bu il 10 illik yubileyini qeyd edən Heydər Əliyev Fondunun Azərbaycan cəmiyyəti və tarixi üçün həyata keçirdiyi fəaliyyətinin ən dolğun qiymətini, düşünürük ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fondun yubileyinə həsr olunmuş mərasimdə (10 may 2014-cü il) vermişdir: ***"... Bu gün biz Ulu Öndər Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünü qeyd edirik. Keçən il biz Ulu Öndərin adını daşıyan bu möhtəşəm Mərkəzdə Heydər Əliyevin 90 illik yubileyini qeyd etmişdik. 2012-ci il mayın 10-da isə biz bu Mərkəzin açılışını qeyd etmişdik. Bu il Ulu Öndərin adını daşıyan Fondun 10 illiyidir. Bir qədər bundan əvvəl Fondun fəaliyyətinə həsr edilmiş film göstərilmişdir. Filmdə Fondun çoxşaxəli fəaliyyəti haqqında qısa bir məlumat verilmişdir.***

***Çünki Fondun 10 il ərzində gördüyü işlər o qədər böyükdür ki, əlbəttə, bir filmdə o işləri göstərmək mümkün deyildir.***

***Fonda 10 il ərzində Mehriban Əliyeva rəhbərlik edir. Onun rəhbərliyi ilə Fond nəinki Azərbaycanda, eyni zamanda regionda görülən işlərin həcminə görə ən böyük ictimai təşkilata çevrilmişdir. Mehriban Əliyevanının rəhbərliyi ilə bir neçə istiqamət üzrə konkret proqramlar icra edilmişdir. Bir çox hallarda Fondun təşəbbüsləri bir qədər sonra həm ictimai təşkilatlar, eyni zamanda dövlət qurumları tərəfindən dəstəklənmiş və bir növ, dövlət proqramına çevrilmişdir. Xüsusilə Fondun təşəbbüsü ilə başlanmış "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi bu gün geniş vüsət almışdır və dövlət bu proqrama qoşularaq son 10 il ərzində 3 minə yaxın yeni məktəb tikdirə bilmişdir. "Xocalıya ədalət!" kampaniyası da məhz Fondun təşəbbüsü ilə başlamışdır. Ondan sonra dövlət qurumları, ictimai qurumlar bu təşəbbüsə qoşulmuşlar və nəticə etibarilə qısa müddət ərzində 10-dan çox ölkə Xocalı soyqırımını rəsmən soyqırımı kimi qəbul etmişdir.***

***Səhiyyə ilə bağlı təşəbbüslər geniş vüsət almışdır. Azərbaycan mədəniyyətinin, mədəni irsimizin qorunması, dünyada təbliği işində Fond əvəzsiz rol oynamışdır. Bizim milli sərvətimiz olan muğam sənəti UNESCO-nun dünya qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. Əlbəttə ki, bütün bunlar filmdə öz əksini tapıbdır. Sadəcə olaraq, mən bu gün Fondun fəaliyyətinə öz münasibətimi bildirmək istəyirəm. Deyə bilərəm ki, bu 10 il ərzində bu məsələ ilə bağlı mənim ilk çıxışımdır. Ona görə Azərbaycan dövləti adından Fonda, Fondun bütün işçilərinə minnətdarlığımı bildirmək istəyirəm.***

***Onu da qeyd etmək istəyirəm ki, Fondun işçilərinin sayı o qədər də çox deyildir. Fondun işçilərinin tərkibi çox məhdud saydadır. Ancaq buna baxmayaraq peşəkardırlar, enerjilidirlər, bilikli dirlər və işçilərin mütləq əksəriyyəti gənclərdir.***

***Bu gün Heydər Əliyev Fondu Ulu Öndərin adını şərəflə daşıyır, Ulu Öndərin xatirəsinə layiq fəaliyyət göstərir ...".***

Qeyd edək ki, həmin mərasimdə Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva Fondun 10 illik bir müddət ərzində gördüyü böyük işlər, cəmiyyətdə oynadığı əhəmiyyətli rolu haqqında çıxış etmişdir və bu çıxış Heydər Əliyev Fondunun Azərbaycan Respublikasında və xaricdə gördüyü fəaliyyətin ən dolğun icmalıdır: ***"... On il bundan əvvəl – 2004-cü il mayın 10-da Heydər Əliyev Fondu öz fəaliyyətinə başladı. Fond müasir Azərbaycan dövlətçiliyinin əsaslarını qoymuş, müstəqil Azərbaycanın siyasi, iqtisadi və mənəvi dirçəlişini təmin etmiş şəxsin adını daşıyır. Biz fəaliyyətimizin ilk günündən atdığımız addımlarla, gördüyümüz işlərlə bu yüksək ada layiq olmağa çalışmışıq.***

***On il ərzində biz xeyli nailiyyətlər əldə etmişik. Bizim ən böyük nailiyyətimiz və uğurumuz Azərbaycan xalqının inamını və etimadını qazanmağımızdır. Bu, əvəzsiz bir mükafatdır.***

***Biz diqqətimizi ölkəmizdə həllini tapmayan problemlərin aradan qaldırılmasına yönəltdik. Biz Azərbaycanda çoxəsrlik köklərə malik olan xeyriyyəçilik və mərhəmət ənənələrinə arxalanaraq, köməyə ehtiyacı olan hər kəsin yanında olmağa çalışdıq. Biz vali-***

*deyn himayəsindən məhrum olan uşaqlara, qocalara, qaçqın və məcburi köçkünlərə, müxtəlif xəstəliklərdən əzab çəkən insanlara qayğı göstərməyi, onlara mənəvi dayaq olmağı prioritet məsələ kimi daim diqqət mərkəzində saxladıq. Ölkəmizdə mövcud olan uşaq evləri və internat məktəblərini tamamilə yenidən qurub onlarda ailə mühitinin formalaşdırılması, fiziki qüsurlu insanların cəmiyyətə qovuşmaları üçün normal şəraitin yaradılması, uşaq evlərini tərk edən gənclər üçün yaşayış binaları, qaçqın və məcburi köçkün ailələri üçün yaşayış massivlərinin inşa olunması sübut etdi ki, belə insanlara qayğı, belə insanlara kömək bizim fəaliyyətimizin əsas amillərindən biridir.*

*Əziz qonaqlar, bir az əvvəl siz Fondun fəaliyyəti haqqında filmə baxdınız. Doğrudan da filmi hazırlayarkən biz müəyyən çətinliklərlə üzləşdik. Çünki bu 10 il ərzində Fond tərəfindən icra olunan layihələr, proqramlar ölkəmizin həyatının bir çox sahələrini əhatə edir və əldə olunan nəticələr o qədər genişdir ki, qısa bir filmdə görülən bütün işləri əks etdirmək o qədər də asan deyildi.*

*Fond tərəfindən icra olunan irimiqyaslı layihələr – "Yeniləşən Azərbaycana yeni məktəb", "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Təhsilə dəstək", "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", "Xocalıya ədalət!", "Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması", "Tolerantlığın ünvanı Azərbaycan" və s. Bütün bu layihələrin nəticələrini biz bu gün görürük və əslində görülən bütün bu işlər Azərbaycanın ümumi inkişaf strategiyasının tərkib hissəsinə çevrilib.*

*Siz, cənab Prezident, tamamilə düz qeyd etdiniz və bu, bizi şad edir ki, çox hallarda Fond tərəfindən start verilən layihələr, Fondun təşəbbüsləri sonradan dövlət tərəfindən dəstəklənir və ölkədə daha geniş bir şəkildə icra olunur. 2005-ci ildə Fond "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsini başladı və bu layihə çərçivəsində Fondun dəstəyi ilə ölkəmizdə 412 yeni məktəb inşa olundu. Sonradan bu proqramı dövlət dəstəklədi və ölkəmizdə 3 mindən artıq məktəb təmir olundu və yaxud yenidən quruldu.*

*Bir neçə il bundan əvvəl ölkəmizdə genetik xəstəliklərin yayılmasının qarşısını almaq üçün Fond tərəfindən "Talassemiyasız həyat na-*

Adalmi

*minə" proqramına başladıq və bu proqram çərçivəsində paytaxtımızda regionun ən böyük Talassemiya Mərkəzini inşa etdik. Bu gün bu xəstəliklərlə mübarizə üçün dövlət tərəfindən xüsusi proqram hazırlanır.*

*Bizim fəaliyyətimizin digər çox vacib istiqaməti Azərbaycanın zəngin tarixi və mədəni irsinin qorunub saxlanması, təbliğ edilməsi və dünya ictimaiyyətinə tanıdılmasıdır. Fondun dəstəyi ilə Azərbaycanın müxtəlif regionlarında onlarla tarixi-memarlıq, dini abidələr bərpa olunub. Bakıda məscidlər, kilsələr, sinaqoqlar təmir və bərpa olunub. Məhz Fondun təşəbbüsü ilə paytaxtımızda Beynəlxalq Muğam Mərkəzi inşa olunub və hər il muğam müsabiqəsi keçirilir. Qəbələ Beynəlxalq musiqi festivalı, Rostropoviç və Şostakoviç festivalları artıq ənənəvi şəkildə keçirilir və öz auditoriyasını qazanıb. Azərbaycanın qədim xalçaçılıq sənəti artıq UNESCO-nun Ümumbəşəri Mədəni İrs Siyahısına daxil edilib və bizim xalçalar dünyanın ən məşhur muzeylərində nümayiş olunur.*

*Biz dünyanın müxtəlif ölkələrində Azərbaycan günləri və Azərbaycan gecələri keçirməklə Azərbaycanın keçmişini, Azərbaycanın tarixini, mədəniyyətini, bu gününü, müstəqil Azərbaycanın nailiyyətlərini, ölkəmizdə hökm sürən tolerantlıq və dözümlülük ab-havasını bütün dünyaya göstərmək, bütün dünyaya tanıtmaq istəyirik. Belə görüşlərdə insanlar Azərbaycanı özləri üçün yenidən kəşf edirlər. Dünyanın ən möhtəşəm zallarında qədim Azərbaycan muğamı səslənir və sərgilərdə müasir Azərbaycanın müasir incəsənət xadimlərinin əsərləri ilə tarixi artefaktlar birgə nümayiş olunur.*

*Eyni zamanda biz hər bir xalqın mədəni irsini ümumbəşəri dəyər kimi qəbul edirik. Bu irsin qorunmasına Azərbaycandan kənarda da öz töhfəmizi veririk. Heydər Əliyev Fondunun dəstəyi ilə Strasburq Kafedral kilsəsinin vitrajları, Versal sarayındakı abidələr, Fransanın müxtəlif regionlarında yerləşən kilsələr, Berlin qəsri, Roma katakombaları, Vatikan kitabxanasında saxlanılan dəyərli foliantlar bərpa olunur.*

*Bu 10 il ərzində biz fəaliyyətimizi genişləndirərək bir sıra çox nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq qurmuşuq, birgə layihə-*

***lər icra etmişik. Bizim tərəfdaşlarımız arasında UNESCO, İSESCO, UNİCEF, BMT İnkişaf Fondu kimi nüfuzlu beynəlxalq qurumlar vardır. Fondun Rusiya, Türkiyə, Rumıniya, Amerika Birləşmiş Ştatlarındakı nümayəndəlikləri çox uğurla fəaliyyət göstərir.***

***Çox sevindirici haldır ki, son zamanlar Azərbaycan gəncləri Fondun təşəbbüslərinə çox geniş şəkildə qatılır. Ətraf mühitin qorunması sahəsində Fond tərəfindən hazırlanan proqramlar, təşəbbüslər artıq ölkəmizdə yeni bir gənclər hərəkatına çevrilib və IDEA kampaniyası çərçivəsində Azərbaycanda 3 milyondan çox ağac əkilib.***

***Eyni zamanda biz ölkəmizin ən ağrılı problemi olan Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həqiqətlərini dünya ictimaiyyətinə çatdırırıq. Hər il Fond müxtəlif dillərdə yüzlərlə nəşrlər hazırlayır, onu bütün dünyaya yayır. Biz bu gün "Xocalıya ədalət!" kampaniyasının müsbət nəticələrini görürük.***

***Bir sözlə, əziz qonaqlar, 10 il ərzində görülən işlərin sayı çoxdur. Əldə edilən nəticələr də çox gözəldir. Bizim Fondun əməkdaşlarını birləşdirən amillər çox sadədir. Bu, vətənpərvərlik, mərhəmət, insansevərlik, doğma xalqımıza və ölkəmizə xidmət etməkdir. Bu gün mən fürsətdən istifadə edərək, Fondun bütün əməkdaşlarına, bizim komandamıza bu 10 il ərzində göstərdikləri işgüzarlıq, peşəkarlıq, insansevərlik, vətənpərvərlik keyfiyyətlərinə görə dərin minnətdarlığımı bildirirəm. Bizimlə əməkdaşlıq quran, bizi dəstəkləyən, bizə kömək edən hər bir quruma, hər bir təşkilata, hər bir insana bu gün mən öz dərin minnətdarlığımı bildirirəm.***

***Qarşıda bizi yeni çağırışlar, yeni hədəflər, yeni qələbələr gözləyir və mən əminəm ki, biz bütün çətinliklərin öhdəsindən birgə gələrək yeni nailiyyətlərə imza atacağıq ...".***

Heydər Əliyev Fondu tariximizə müstəqil dövlət qurucusu kimi daxil olmuş Heydər Əliyevin xatirəsinə xalqımızın ehtiramını ifadə etmək arzusundan, onun zəngin mənəvi irsini əks etdirmək, azərbaycançılıq fəlsəfəsinin ölkəmiz üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq zərurətindən irəli gələrək yaradılmışdır. Heydər Əliyev Fondunun yaradıldığı gündən

bu günədək gördüyü böyük işlər, həyata keçirilən proqramlar, şəxsən Fondun prezidenti Mehriban xanım Əliyevanın və vitse-prezidenti Leyla Əliyevanın xalqımızın milli mənəvi dəyərlərinin qorunması və Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması üçün yorulmadan fəaliyyəti Azərbaycan xalqının tarixinin və mədəniyyətinin təbliğinə xidmət edir və təqdirəlayiqdir.

Vətənə, xalqa, xalqın tarixinə və mədəniyyətinə olan bu böyük sevgi hər bir azərbaycanlı üçün örnəkdir!

# PREZİDENT İLHAM ƏLİYEVİN AZƏRBAYCAN TARİX ELMİNƏ VƏ TARİXÇİLƏRİNƏ QAYĞISI

## "AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu – respublikada tarix üzrə araşdırmaların mərkəzidir"

Müasir dövrdə Elmlər Akademiyası sistemində tarix institutlarının fəaliyyəti dövlətlərin ideologiyasının və milli siyasətinin formalaşması və yönəldilməsində aparıcı rol oynayır. Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu da bu gün müstəqil Azərbaycan Respublikasının aparıcı elm təşkilatlarından biri olmaqla, Azərbaycan tarixinin araşdırılmasına və təbliğinə xidmət edir.

Bu gün Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin davam etdiyi, ermənilərin Azərbaycanın tarixi torpaqlarına ərazi iddialarının gücləndiyi, antiazərbaycan təbliğatının genişləndiyi şəraitdə Tarix İnstitutunun rəhbərliyi və kollektivi Azərbaycan tarixçilərinin ermənilərin əsassız iddialarını ifşa etməsi işinə səfərbər olunmasında bu İnstitutun rolunu və əhəmiyyətini yaxşı başa düşür. 2004-cü ildən başlayaraq İnstitutda yeni tədqiqat istiqamətlərinin müəyyən edilməsi zamanın tələbinə uyğunlaşdırılmışdır. Azərbaycanda tarix elminin inkişafı prosesinə yeni münasibət və baxış formalaşmağa başlamışdır. Bu məqsədlə, ilk növbədə, elmin inkişafının təşkilati prinsipləri və yeni struktur formalarının yaradılması üzrə işlər qisa müddət sonra nəticələrini vermişdir: Tarix İnstitutunda yeni mərkəzlər və şöbələr yaradılmışdır. «Azərbaycanlıların deportasiyası və soyqırımı» mərkəzi və onun da tərkibində iki şöbə təşkil olunmuşdur. «Heydər Əliyev irsinin öyrənilməsi», «İnformasiya və tərcümə» mərkəzləri açılmışdır. Həm elmi, həm siyasi aktuallıq kəsb edən problemlərin araşdırılması ön plana çəkimişdlir və bu sahədə fundamental əsərlərin nəşrinə nail olunmuşdur.

İnstitutun elmi tədqiqat planları dəyişdirilərək yenidən işlənmiş, əsas diqqət Azərbaycanın ayrı-ayrı dövrlərdə itirilmiş ərazilərinin tarixinin araşdırılmasına yönəldilmiş, Qarabağ, Naxçıvan, İrəvan, Borçalı, Dərbənd, Cənubi Azərbaycan, Azərbaycan xalqına qarşı həyata keçirilən deportasiyalar və soyqırımları tarixi, habelə Azərbaycan tarixinin qəsdən saxtalaşdırılmış bir çox problemləri əsas və təxirəsalınmaz tədqiqat obyektlərinə çevrilmişdir. Bu gün Azərbaycan tarix elminin əldə etdiyi nailiyyətlərdə AMEA Tarix İnstitutu aparıcı yerdə durur və bu tədqiqat institutun son illərdə apardığı elmi fəaliyyət, heç şübhəsiz, Azərbaycan tarix elminin əldə etdiyi ən böyük uğurlardandır.

Tarix İnstitutunun 2004-cü ildən bəri başlamış olduğu ciddi araşdırmaların daha bir istiqaməti də mənbələrin, arxiv materiallarının, xüsusilə Azərbaycanda əlçatmaz olan, xarici ölkələrdə toplanmış materialların aşkar edilib nəşr olunmasıdır. Bu məqsədlə İnstitut rəhbərliyi tarixçilərin bir qrupunu Rusiya, Gürcüstan, Türkiyə, İngiltərə, Almaniya, Fransa, Hindistan kimi ölkələrə ezam edərək həmin materialların Azərbaycana gətirilməsini təmin etmiş, eyni zamanda onların nəşrinə başlamışdır.

Bu gün Tarix İnstitutunda dünya tarixinin ən əhəmiyyətli, elmi həllini gözləyən problemləri araşdırılır və elmi dövriyyəyə buraxılır. 2012-ci ildə Beynəlxalq Sokrat Komitəsi Oksford sammitində AMEA Tarix İnstitutu elmi–tədqiqat fəaliyyətinə görə ən yaxşı müəssisə – «Best Enterprises» diplomuna layiq görülmüşdür. 2012-ci ildə Beynəlxalq Sokrat Komitəsi Dublin sammitində bu sətirlərin müəllifinə «The Name in Science» («Elmdə ad») fəxri titulu vermişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutu ölkəmizdə tarix üzrə araşdırmaların mərkəzidir» deyərək, Tarix İnstitutuna çox yüksək qiymət vermişdir. Belə ki, Azərbaycan Milli Elmlər Akademiyasının Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 26 aprel 2012-ci il tarixli

Sərəncamında qeyd olunur: "Azərbaycan Milli Elmlər Akademiyasının Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutu ölkəmizdə tarix üzrə araşdırmaların mərkəzidir. Respublikamızın dövlət müstəqilliyinin bərpasından sonra tarixi həqiqətlərə obyektiv baxış imkanlarının yaranması xalqımızın keçmişinin müasir dövrün tələblərinə uyğun və azərbaycançılıq məfkurəsi işığında öyrənilməsi baxımından alimlərimiz qarşısında yeni perspektivlər açmaqla mühüm vəzifələr irəli sürmüşdür. İndi dünyanın ən mötəbər kitabxanalarında və əlyazma fondlarında saxlanılan zəngin ədəbiyyatlardan, tarixi mənbələrdən faydalanmaq üçün əlverişli şərait mövcuddur. Məhz bu səbəbdən qədim mənbələrdən istifadə etməyə qadir olan və eləcə də qədim dünya dillərini bilən gənc kadrların yetişdirilməsi zərurəti meydana çıxmışdır ...".

Qeyd edək ki, Prezident İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunun ölkəmizdə tarix elminin inkişafında rolunu nəzərə alaraq, bu tarixi sərəncamında 2013–2015-ci illərdə Azərbaycan tarixinə dair tədqiqatların daha da genişləndirilməsi və səmərəliliyinin artırılması üçün Azərbaycan Milli Elmlər Akademiyasına Azərbaycan Respublikasının 2012-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan üç milyon manat ayrılmasını, bu vəsaitin Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutu tərəfindən təqdim olunmuş plana əsasən aidiyyəti üzrə istifadəsinə nəzarətin təmin edilməsini nəzərdə tutmuşdur.

AMEA Tarix İnstitutu hörmətli Prezidentimizin bu qayğısını hər zaman üzərində hiss edir və bu etimadı aparmış olduğu geniş-miqyaslı tədqiqatları və tədbirləri ilə doğrultmağa çalışır. İlham Əliyevin tarix elminin inkişafı üzrə aparmış olduğu dövlət siyasəti İnstitutun əməkdaşları tərəfindən böyük razılıqla qarşılanır və dövlət başçısının tapşırıqları onların elmi araşdırmaları üçün strateji əhəmiyyət kəsb edir. İlham Əliyevin Milli Elmlər Akademiyasının illik ümumi yığıncağında (26 aprel 2011-ci il) nitqi Azərbaycan tarixçisi və Tarix İnstitutu üçün istiqamətvericidir: ***"Tarix elmləri ilə bağlı***

*olan məsələlər daim diqqət mərkəzindədir. Biz bu məsələyə çox böyük diqqət göstəririk. Mən çox şadam ki, tarixçilərimiz çox sanballı və əsaslı əsərlər yaradırlar. Xüsusilə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin mövcudluğu bizə diktə edir ki, bu sahəyə daha da böyük diqqət göstərək. Çünki bu bölgənin tarixi ermənilər tərəfindən daim saxtalaşdırılır, daim təhrif olunur. Şadam ki, alimlərimiz mənim çağırışıma müsbət cavab verərək qısa müddət ərzində bu bölgənin tarixi ilə bağlı çox gözəl və real faktlara əsaslanmış əsərlər yaratmışlar. Başlıcası, İrəvan xanlığının tarixi ilə bağlı yaradılmış əsərlər xüsusi məna daşıyır. Çünki, əfsuslar olsun ki, dünya birliyi, demək olar, bilmirdi ki, bugünkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranmışdır.*

*Biz təşəbbüslərimiz, tarixə müraciətimiz və konkret dəlillərlə, faktlarla mövqeyimizi əsaslandırmışıq ki, İrəvan Ermənistanın paytaxtı kimi Azərbaycan dövləti tərəfindən 1918-ci ildə verilmişdir. İrəvan xanlığında yaşayan əhalinin əksəriyyəti azərbaycanlılar idi. Zəngəzur mahalı qədim Azərbaycan torpağıdır və süni şəkildə Ermənistana verilmişdir. Zəngəzur mahalının Ermənistana verilməsi böyük ədalətsizlik idi. Doğma torpağımızın bir parçası Ermənistana birləşdirildi. Bunun çox böyük mənfi nəticəsi oldu. Bu, bütün türk dünyasını parçaladı. Bu gün türk dünyası coğrafi baxımdan parçalanıb. Düzdür, biz siyasi addımlarla, iqtisadi təşəbbüslərlə, türkdilli dövlətlərin zirvə görüşlərinin keçirilməsi ilə, – mən TÜRKSOY-un fəaliyyətini də qeyd etməliyəm, – çalışırıq və çalışacağıq ki, bütün türk dünyasını birləşdirək, siyasi maraqları birləşdirək, iqtisadi sahədə daha da çoxtərəfli əməkdaşlıq aparılsın. Ancaq coğrafi cəhətdən bu gün türk dünyası parçalanıbdır. Yəni bütün bu tarixi həqiqətlər işıq üzü görməlidir. Nəinki ölkə daxilində, eyni zamanda xaricdə də bunu bilməlidirlər. Ona görə bu kitabların xarici dillərdə nəşri xüsusi məna daşıyır.*

*Bütün indiki Ermənistan ərazisinin əksər toponimləri Azərbaycan mənşəli toponimlərdir. Şəhərlərin, kəndlərin adları. Hətta bunu Böyük Sovet Ensiklopediyasında da görmək mümkündür. O vaxt erməni şəhərlərinin adları və onların əski variantı yazılmışdı. Biz*

***bütün bunları bilməliyik. Bu gün Ermənistan dövləti bizə qarşı ərazi iddiası ilə çıxış edir. Torpaqlarımız işğal altındadır. Dağlıq Qarabağ işğal altındadır. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Erməni təbliğatı bütün dünyada bizə qarşı işə salınıbdır. Biz isə həqiqətləri çatdırmalıyıq ki, Xankəndi şəhəri Stepanakert deyil, Xankəndidir. Stepanakert quldur dəstəsinin rəhbəri Şaumyanın adına verilmişdir. Mən dəfələrlə bu barədə demişəm, əgər o yaşayış məntəqəsinin tarixi adı olsa idi, o tarixi adı ermənilər bərpa edərdilər. Bu, bizim torpağımızdır. Elmi araşdırmalar və elmi əsərlər, kitablar çox vacibdir. Mən çox şadam ki, bu istiqamətdə işlər gedir. Biz bu sahədəki işimizi daha da gücləndirməliyik, müasirləşdirməliyik. Bu məsələlərə nəinki alimlərimiz, hesab edirəm ki, ictimaiyyətin üzvləri də internet vasitəsilə fəal qoşulmalıdırlar. Nəzərə alsaq ki, həqiqət və tarixi ədalət bizim tərəfimizdədir, bu, bu gün də lazımdır, gələcək üçün də.***

***Mən yenə də deyirəm, bu sahədəki işlərlə bağlı təşəbbüslər reallaşır. Bu, çox müsbət haldır. Hesab edirəm ki, bu məsələyə xüsusi diqqət göstərilməlidir. Biz həm bu məsələnin elmi tərəfindən, həm də təbliğatımızda bu amildən daha da geniş şəkildə istifadə etməliyik".***

Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətin tarix elminin inkişafına, o cümlədən Tarix İnstitutunun fəaliyyətinin genişləndirilməsinə yönəlmiş böyük qayğının və əməyin nəticəsidir ki, bu gün AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu Azərbaycan tarix elminin başlıca qurumuna, milli ideologiyanın formalaşdığı mərkəzlərdən birinə çevrilmişdir.

## Tarix İnstitutunun respublikanın dövlət qurumları ilə əməkdaşlığının təşkili

Azərbaycan Prezidentinin şəxsi qayğısı və dövlət strategiyasının tərkib hissəsi olaraq elm siyasətinin həyata keçirilməsi nəticəsində Azərbaycan tarix elmi son onillikdə böyük uğurlara imza atmışdır. Təqdirəlayiq haldır ki, bu uğurların qazanılmasında Azərbaycanın

digər dövlət qurumları da yaxından imtirak etmişlər. Ələlxüsus AMEA Tarix İnstitutunun respublikanın dövlət qurumları ilə əməkdaşlığı işi geniş vüsət almışdır.

Bu əməkdaşlıq müxtəlif elmi konfransların, simpoziumların, elmi məclislərin təşkilindən tutmuş, elmi araşdırmaların aparılmasına, ezamiyyətlərin təşkilinə qədər böyük bir fəaliyyəti əhatə etmişdir. Bu qurumlar arasında Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyini, Baş Prokurorluğunu xüsusi qeyd etmək lazımdır.

Ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri cinayətlərin tarixini vərəq-vərəq izləmək və ən başlıcası – dünya ictimaiyyətinə çatdırmaq məqsədilə Tarix İnstitutu dövlət qurumlarının dəstəyi ilə "26 Bakı Komissarları" adlı cinayətkar qrupun 1918-ci ildə Azərbaycan xalqına qarşı həyata keçirdiyi kütləvi soyqırımın gerçək tərəflərini üzə çıxarmışdır: 2009-cu il yanvarın 24–26-da 26 Bakı komissarının cəsədləri "Sahil bağı"ndan ümumi şəhər qəbiristanlığına köçürülüb. Üç gün ərzində Səhiyyə Nazirliyinin Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi əməkdaşlarının və Tarix İnstitutunun mütəxəssislərinin iştirakı ilə orda tədqiqatlar aparılıb və orada cəmi 23 cəsədin qalıqları tapılıb. Məzarlıqda 23 cəsədin (26 deyil!) qalıqlarının aşkar edilməsindən dərhal sonra – 2010-cu il mayın 26-da Azərbaycan MEA və Baş Prokurorluq tərəfindən birgə elmi-istintaq araşdırma qrupu yaradılmış və Tarix İnstitutunda müvafiq elmi araşdırmalara başlanmışdır. Bu araşdırmaların ilkin nəticələri öz əksini "Azərbaycan xalqına qarşı 1918-ci il Mart soyqırımı" adlı kitabda tapmışdır (Bakı, 2010). Əslində bu kitab Tarix İnstitutunun uzunmüddətli böyük bir layihəsinin tərkib hissəsidir. Kitabda Daşnaksutyun partiyası Bakı Komitəsinin üzvü S.Şaumyanın başçılıq etdiyi qrupun Azərbaycan xalqına qarşı törətdiyi dəhşətli soyqırımın indiyədək məlum olmayan səhifələri işıqlandırılmışdır.

***"Sovet dövründə təbii ki tarix təhrif edildiyi üçün bu həqiqətlər bizdən gizlədilirdi. Uzun illər Azərbaycan xalqının qanını axıdan quldurlar, – onların da mənfur adları orada göstərilir, – Şaumyan və***

***onun kimiləri bizə qəhrəmanlar kimi təqdim edilirdi. Hesab edirəm ki, bu, böyük faciədir. Çünki uzun illər xalqımıza qarşı amansızlıqla vəhşilik törədən ünsürlər sovet tarixində qəhrəman kimi təqdim edilirdi, onların şərəfinə abidələr ucaldılırdı. Yalnız müstəqillik dövründə biz həqiqi ədaləti bərpa etdik. Gözəl şəhərimizi, Bakımızı o abidələrdən təmizlədik və bu gün o yerlərdə gözəl parklar, o cümlədən Sahil parkı yaradılıbdır. Yəni, tarix, ədalət zəfər çaldı. Biz bu gün öz tariximizə qayıdırıq. Tarixin bütün məqamlarını bilirik, bilməliyik. Gənc nəsil də bilməlidir ki, xalqımız keçmişdə hansı fəlakətlərlə üz-üzə qalmışdır. Erməni faşizminə o vaxt düzgün qiymət verilmədiyi üçün sonra tarixin müxtəlif dövrlərində erməni faşizmi öz yırtıcı sifətini nümayiş etdirmişdir" (İlham Əliyev).***

Stepan Şaumyanın başçılıq etdiyi quldur dəstəsinin Bakı quberniyasında törətdiyi soyqırımla yanaşı, ermənilərin Azərbaycanın digər ərazilərində də törətdiyi vəhşilikləri əks etdirən soyqırım sənədlərinin toplanıb istintaqa təqdim olunması üçün AMEA-nın Tarix İnstitutu ilə Baş Prokurorluq tərəfindən 2010-cu ilin may ayında birgə elmi istintaq araşdırma qrupu yaradılmışdır ki, bu da Azərbaycan tarixinin araşdırılması işinə dövlət qayğısının böyük göstəricisidir.

AMEA Tarix İnstitutunun respublikanın dövlət qurumları ilə əməkdaşlığının ən bariz nümunələrindən biri kimi 2011-ci il martın 30-da AMEA Tarix İnstitutunun və Azərbaycan Respublikası Baş Prokurorluğunun birgə təşkilatçılığı ilə "Azərbaycan xalqına qarşı 1918–1920-ci illər soyqırımı" mövzusunda elmi-praktik konfransın keçirilməsini də qeyd etmək olar. Bu konfransda tədbir iştirakçıları azərbaycanlıların soyqırımı ilə bağlı həqiqətlərin üzə çıxarılması istiqamətində aparılan araşdırmaların əks olunduğu müxtəlif kitablardan və fotoşəkillərdən ibarət sərgiyə baxmışlar. AMEA-nın prezidenti, akademik Mahmud Kərimov ermənilərin əzəli Azərbaycan torpaqlarında məskunlaşdırılmasından sonra xalqımıza qarşı törətdikləri cinayətlərdən danışmışdır. Akademik qeyd etmişdir ki, "1918-ci ilin martında erməni-daşnak qüvvələri tərəfindən Bakı, Şamaxı, Quba, Lənkəran, Qarabağ, Gəncə, Zəngəzur, Naxçıvan və

digər bölgələrdə on minlərlə günahsız insan qətlə yetirilmiş, şəhərlərimiz və kəndlərimiz talan edilmiş, tarixi-mədəni abidələrimiz dağıdılmışdır. Son illər ölkəmizdə ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımı siyasətini sübut edən dəyərli tədqiqatlar aparılmış, çoxsaylı fundamental əsərlər, monoqrafiyalar və sənədlər topluları işıq üzü görmüşdür. Dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq, ermənilərin cinayətlərini araşdırmaq üçün AMEA-nın Tarix İnstitutu və Baş Prokurorluq arasında yaradılmış birgə istintaq elmi-araşdırma komissiyasının fəaliyyətinin nəticəsi olan konfransın materialları tarixi həqiqətlərin üzə çıxarılmasında və dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynayacaqdır".

"Azərbaycan xalqına qarşı 1918–1920-ci illər soyqırımı" adlı məruzədə ermənilərin xalqımıza qarşı törətdiyi soyqırımı cinayətlərinin üzə çıxarılması üçün elmi və istintaq araşdırmalarının birlikdə aparılmasının ciddi addım olduğunu qeyd etmişdir. Azərbaycan xalqına qarşı törədilmiş cinayətlərə siyasi-hüquqi qiymətin verilməsinə dünyanın ikili standartlardan yanaşdığını bildirən məruzə müəllifi tarixi həqiqətlərin hüquqi cəhətdən sənədləşdirilib beynəlxalq ictimaiyyətə çatdırılmasının, dünyanın diqqətinin erməni faşizminə cəlb olunmasının vacibliyini qeyd etmişdir: "31 mart – Azərbaycanlıların soyqırımına siyasi-hüquqi qiymət verilməsi istiqamətində ən dolğun sənəd xalqımızın ümummilli lideri Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı fərmandır. Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin cəsarəti və qətiyyəti sayəsində erməni vəhşiliyinin ifşa edilməsi istiqamətində ciddi addımlar atılmaqdadır. Dövlətimizin başçısının diqqət mərkəzində saxladığı araşdırmalar nəticəsində uzun illər xalqımızdan gizlədilmiş mühüm faktlar, sənədlər aşkar edilmişdir. Bu məqsədlə Londondan, Sankt-Peterburqdan, Moskvadan, İstanbuldan, Ankaradan mühüm tarixi sənədlər gətirilmiş, Parisə iki ezamiyyət təşkil olunmuşdur. Hazırda isə Dehli arxivində araşdırmalar aparılır. Bu sənədlərdə əks olunmuş faktlarla azərbaycanlılara qarşı törədilmiş soyqırımlarının bilavasitə səbəbkarları olan S.Şaumyanın, T.Əmiryanın, S.Hamazaspın, Lalayanın

və digər erməni quldurlarının cinayətləri tam sübuta yetirilmişdir. Bu baxımdan, həmin sənədlərə hüquqi qiymət verilməli, elmi əsaslara söykənən ittiham aktları hazırlanmalıdır".

Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini Rüstəm Usubov "Azərbaycan xalqına qarşı 1918–1920-ci illər soyqırımının istintaq araşdırmalarına dair" adlı məruzəsində 2010-cu il mayın 26-da AMEA və Baş Prokurorluq tərəfindən birgə yaradılan elmi-istintaq araşdırma qrupunun fəaliyyəti barədə məlumat vermişdir. Vurğulanmışdır ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra tariximizin bir çox dövrlərinin xalqımızdan gizlədilmiş məqamları, o cümlədən ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş soyqırımlarının araşdırılması üçün münbit şərait yaradılmışdır. 1918–1920-ci illərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri qatı cinayət əməlləri olduğunu bildirən natiq əmin olduğunu bildirmişdir ki, erməni millətçilərinin bu çirkin əməlləri tarixçilərin köməyi və istintaq yolu ilə ifşa olunacaqdır.

R.Usubov 2007-ci ilin aprelində Qubada aşkarlanan kütləvi məzarlıqda erməni vəhşiliyinin sübuta yetirilməsi istiqamətində Baş Prokurorluq, Milli Təhlükəsizlik, Səhiyyə nazirlikləri, AMEA, Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin birgə fəaliyyətini yüksək qiymətləndirmişdir. Bu işlərin ölkə rəhbərliyinin xüsusi diqqət mərkəzində saxlanıldığını qeyd edən R.Usubov ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları ilə bağlı geniş istintaq-əməliyyat planının tərtib olunduğunu diqqətə çatdırmışdır. Bildirilmişdir ki, istintaq olunan cinayət işi üzrə 1918-ci ildə Bakı şəhəri, Şamaxı və Quba qəzalarında baş vermiş soyqırımı, zorakılıq və talan faktları üzrə Milli Arxiv İdarəsində saxlanılan cinayət işlərinin surətləri çıxarılmış, digər arxivlərdən çoxlu sənədlər götürülmüş, hələ 1918-ci ildə yaradılmış Fövqəladə İstintaq Komissiyasının istintaq materialları dünya ictimaiyyətinə çatdırılmaq üçün ingilis, fransız və rus dilinə tərcümə edilmiş, bir sıra tarixi əhəmiyyətli sənədlər Baş Prokurorluğun saytında yerləşdirilmişdir. Bakı şəhərində 1918-ci il qırğınlarına dair Dövlət kino-foto sənədlər arxivində saxlanılan 19

fotoşəklin surətləri iş materiallarına əlavə edilmişdir. 2010-cu ilin iyulunda ölkə ictimaiyyətinə müraciət olunaraq 1918-ci ildə erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı törədilmiş soyqırımı cinayətinə dair məlumatların, sənədlərin və başqa sübutların istintaq qrupuna təqdim olunması xahiş edilmişdir.

Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə İstintaq İdarəsinin rəisi Eldar Əhmədov "1918–1920-ci illər soyqırımı şahid ifadələrində" mövzusunda məruzəsində qeyd etmişdir ki, 1948–1953-cü illərdə azərbaycanlıların Ermənistandan kütləvi deportasiyası, Dağlıq Qarabağda törədilmiş cinayətlər, o cümlədən Xocalı qətliamı, tarixi-mədəni abidələrin dağıdılması 1918-ci il soyqırımının davamıdır. Ermənilər tərəfindən törədilmiş soyqırımı ilə bağlı cinayət işinin obyektiv nəticələnməsi üçün sübutların müəyyənləşdirilməsi, axtarılması və tapılmasında ölkənin aparıcı elm xadimləri yaxından iştirak edir. Bu sübutların əsasında istintaq hərəkətləri aparılır. İstintaq zamanı hadisələrin canlı şahidlərinin ifadələrində erməni quldurlarının törətdikləri cinayətkar əməllər öz təsdiqini tapmışdır.

Konfransda İnstitutun əməkdaşlarının "1920-ci il aprel işğalından sonra Azərbaycan xalqına qarşı soyqırımının davam etdirilməsi", "Ermənistan (Ararat) Respublikasında azərbaycanlılara qarşı soyqırımı (1918–1920)", "Ermənistan (Ararat) Respublikasının Azərbaycanın Qarabağ bölgəsinə təcavüzü və azərbaycanlılara qarşı soyqırımı (1918-1920)" məruzələri dinlənilmişdir.

Tarix İnstitutunun həyata keçirdiyi layihələrdən biri də "İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi" (Azərbaycan, rus, ingilis dillərində, Bakı, 2009) adlı fundamental əsərin nəşr olunmasıdır ki, bu kitab AMEA Tarix İnstitutu və Regionların İnkişafı İctimai Birliyinin birgə layihəsidir. Əsərdə müstəqil Azərbaycan dövlətlərindən biri olan İrəvan xanlığı və həmin xanlığın yerləşdiyi Azərbaycan torpaqları təkzibolunmaz tarixi mənbələr əsasında hərtərəfli tədqiqata cəlb edilmişdir.

Azərbaycan tarixinin araşdırılmasına dövlət qayğısının nəticəsidir ki, bu araşdırmaların geniş miqyasda davam etdirilməsi üçün

aidiyyəti olan bütün dövlət qurumları səfərbər olunmuşdur. AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun digər dövlət qurumları ilə əməkdaşlığı bu gün də davam edir.

## Azərbaycan tarixçiləri Prezidentin tövsiyə və tapşırıqları ilə çalışırlar

Müasir mərhələdə aparılan islahatlar çərçivəsində Tarix İnstitutunda genişmiqyaslı işlər görülmüşdür. Tarix elmi qarşısında duran vəzifələrlə bağlı İnstitutun direktoru Y.M.Mahmudov tərəfindən irəli sürülmüş və AMEA-nın Rəyasət Heyətinin 18 dekabr 2004-cü il tarixli 211 saylı qərarı ilə təsdiq edilmiş tarix sahəsində aktual elmi problemlərin tədqiqi, araşdırmaların intensivləşdirilməsi, keyfiyyətinin daha da yüksəldilməsi və sürətinin artırılması mühüm əhəmiyyət kəsb edir və institutun elmi potensialı bu vəzifələrin yerinə yetirilməsinə yönəldilmişdir.

İnstitutun strukturunda əhəmiyyətli dəyişikliklər edilmiş, yeni şöbələr və mərkəzlər təşkil olunmuşdur. "Azərbaycanlıların deportasiyası və soyqırımı" mərkəzi və onun da tərkibində iki şöbə təşkil olunur. "Heydər Əliyev Elmi–Tədqiqat şöbəsi", "Nəşriyyat işləri şöbəsi", "Tərcümə mərkəzi" və "İnformasiya mərkəzi" və s. yaradılmışdır.

İnstitutun fəaliyyəti "Azərbaycan tarixinin ümumi konsepsiyası" əsas elmi istiqamət üzrə qurulmuşdur. Həmin elmi istiqamət 5 problemi – Azərbaycan tarixi üzrə ümumiləşdirici tədqiqatlar, tarixşünaslıq və mənbəşünaslıq, Azərbaycanın siyasi tarixi, Azərbaycanın sosial-iqtisadi tarixi, Azərbaycanın mədəniyyət tarixi məsələlərini əhatə edir. İnstitutun Elmi Şurasında aparılan müzakirə və məsləhətləşmələrdən sonra, 2005-ci ildə baş plana dəyişikliklər edilərək beş əsas problem üzrə bütün şöbələrin tədqiqat planına daxil edildi: "Naxçıvan", "İrəvan xanlığı", "Qarabağ xanlığı", "Azərbaycan xalqına qarşı soyqırımların və deportasiyaların tarixi", "Azərbaycanın

tarixi coğrafiyası", "Azərbaycanın tarixi Atlası" və digər aktual problemlər ətrafında tədqiqatların sürətləndirilməsinə diqqət artırıldı. Bunlar nəzərə alınmaqla, iş planları yenidən işlənib təsdiq edildi.

Təkcə "İtirilmiş torpaqlar"ımızın deyil, həmçinin erməni işğalı altında olan Qarabağ və məcburən Azərbaycan Respublikasından "təcrid olunmuş" Naxçıvan bölgəsinin də tarixinin öyrənilməsinə, elmi cəhətdən hərtərəfli şəkildə araşdırılmasına müxtəlif alimlər qrupu və gənc tədqiqatçılar cəlb olunmuşdur.

Vətən tarixinin bir çox problemləri sovet imperiyası dövründə qəsdən saxtalaşdırılmış, təhrif olunmuşdur. Bunun ən mühüm səbəblərindən biri də Azərbaycan tarixi problemlərinin, xüsusilə də sərhəd bölgələrimizin tarixinin öyrənilməməsi olmuşdur. Məsələn, Qarabağ, Naxçıvan, İrəvan, Borçalı, Dərbənd, Şimal-Qərbi Azərbaycan, Cənubi Azərbaycan uzun müddət tarixşünaslığımızın diqqətindən kənarda qalmış, daha doğrusu, unudulmuşdur. Yaranmış boşluqdan istifadə edən qara niyyətli qüvvələr isə Azərbaycana qarşı yeni-yeni ərazi iddialarını əsaslandırmaq üçün tariximizi saxtalaşdıraraq, öz mənafelərinə uyğun formaya salmışlar. Bundan başqa, Azərbaycan xalqına qarşı həyata keçirilən deportasiyalar və soyqırımları tarixi, habelə qəsdən saxtalaşdırılmış bir çox problemlər əsas və təxirəsalınmaz tədqiqat obyektlərinə çevrilmişdir.

Ümumiyyətlə, Azərbaycan tarixşünaslığında uzun müddət unudulmuş və tədqiqatlara cəlb olunmamış "itirilmiş torpaqlar"ın tarixi mövcud boşluqdan istifadə edən qonşular tərəfindən öz istək və maraqlarına uyğun şəkildə "tədqiq" olunmuşdur. Azərbaycanın öz müstəqilliyini itirdiyi son iki yüzillik dönəmdə tariximizlə bağlı irəli sürülən bəzi "konsepsiyalar" elmə zidd və heç bir faktiki əsası olmayan, yanlış müddəalardan ibarət olub, Azərbaycan xalqına, onun əzəli, tarixi torpaqlarına, keçmişinə qərəzli, iddialı münasibət nəticəsində formalaşmışdır. Uzun müddət Azərbaycan tarixinə olan qərəzli münasibətə tutarlı cavab verilmədiyindən, üzdəniraq "tədqiqatçılar" öz iddialarında daha israrlı olmaq üçün açıq şəkildə tarixi faktları təhrif etməkdən belə çəkinməmişlər.

2004-cü ildən başlayaraq AMEA Tarix İnstitutunda Naxçıvan, İrəvan, Göyçə, Zəngəzur, Borçalı mahallarının, Telavidən bəri Şimal-Qərbi Azərbaycan torpaqlarının, Dərbənd və Samur vadisinin, ən nəhayət, Qarabağın tarixi ilə bağlı hərtərəfli və dərin elmi tədqiqatlara başlanılmışdır. Çağdaş Azərbaycan tarixşünaslığında "itirilmiş torpaqlar" problemi elmi dövriyyəyə daxil edilmiş, bu istiqamətdə ciddi elmi tədqiqatlar aparılmış və obyektiv tarixi gerçəkliyi özündə əks etdirən bir sıra sanballı əsərlər yaradılmış, bir sözlə, "itirilmiş torpaqlar"ın tarixini araşdıran tarixçilər nəsli, məktəbi formalaşmışdır. Bu istiqamətdə E.M.Lətifovanın "İlisu sultanlığı" (Bakı, 1999), Ş.H.Əliyevin "Şimal-Qərbi Azərbaycan: İngiloylar" (Bakı, 2007), Z.Ə.Cavadovanın "Şimal-Qərbi Azərbaycan (tarixi-demoqrafik araşdırma)" (Bakı, 1999), İ.F.Kazımovun "Naxçıvan bölgəsinin tarixi-demoqrafik tədqiqi" (1828–1920-ci illər) (Bakı, 2005), N.Ə.Quliyevin "Naxçıvan xanlığının əhalisi" (Bakı, 2007), S.Ə.İbişovun "Quba xanlığının əhalisi (tarixi-demoqrafik tədqiqat)" (Bakı, 2008), A.Ə.Məmmədovanın "Car-Balakən camaatlığı (XVII əsrin sonu – XX əsrin 30-cu illəri)" (Bakı, 2007) adlı dissertasiyaları və monoqrafiyaları bu qəbildən olan əsərlərdəndir.

Dövlətçilik tariximizin və diplomatiyamızın ənənəviliyini üzə çıxarmaq, elmi əsaslarla sübut etmək üçün bu məktəbin nümayəndələri geniş araşdırmalar aparmışlar. Bu sırada F.C.İsmayılovun "Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və ABŞ-ın mövqeyi" (Bakı, 2005), A.Ə.Bəşirovanın "Azərbaycan – ABŞ münasibətləri Amerika mətbuatında ("New York Times" qəzetinin materialları əsasında) (Bakı, 2007) adlı tədqiqatlarını qeyd etmək vacibdir.

Vətən tarixi ilə bağlı həllini gözləyən problemlərdən ən birincisi, Dağlıq Qarabağla bağlı həqiqətlərin dünyaya çatdırılmasıdır. Qısa bir zamanda Tarix İnstitutu "Qarabağ. Suallar və faktlar" kitabını (Bakı, 2004) və "Qarabağ: real tarix, faktlar, sənədlər" (Y.M.Mahmudov. K.Şükürov) (Azərbaycan və ingilis dillərində) (Bakı, 2005) kitabını elmi ictimaiyyətə təqdim etmişdir. Kitabda Azərbaycan tarix elmində ilk dəfə olaraq Qarabağ tarixi ən qədim

zamanlardan müasir dövrədək sistemli şəkildə şərh edilmişdir. Qarabağ tarixinin aktual məsələləri ümumazərbaycan tarixi kontekstində tədqiq edilmiş, Qarabağın tarixi Azərbaycan torpağı olması təkzibedilməz elmi faktlarla sübut olunmuşdur. Kitab MDB dövlətlərinin II Beynəlxalq Kitab Sənəti (2005) müsabiqəsinin diplomuna layiq görülmüşdür.

İnstitutun kollektivi tərəfindən hazırlanmış "Qarabağ: Kürəkçay müqaviləsi-200" (Bakı, 2005) əsəri Rusiya ilə Azərbaycanın iri dövlət qurumlarından biri olan Qarabağ xanlığı arasında imzalanmış Kürəkçay müqaviləsinin 200 illiyinə həsr olunmuşdur. Əsərdə erməni millətçilərinin Kürəkçay uydurması və əzəli Azərbaycan torpaqlarına, o cümlədən Qarabağa olan iddiaları ifşa edilmişdir. Son illərdə Ermənistanın Azərbaycana ərazi iddialarının əsassız olduğunu sübut etmək üçün institutda təkzibedilməz tarixi sənədlər əsasında fundamental "Qarabağ tarixi" (altı dildə) nəşr olunmuşdur.

Tarix İnstitutu XX əsrdə azərbaycanlılara qarşı törədilmiş soyqırımı və deportasiyalar tarixi məsələlərinə daha çox diqqət yetirir. İnstitutun əməkdaşlarının ölkənin, demək olar ki, bütün kütləvi informasiya vasitələrindəki çıxışlarında, elmi, elmi-publisistik məqalələrində, dövlət əhəmiyyətli yığıncaqlarda və elmi konfranslarda, ölkə və dünya miqyaslı toplantılarda etdikləri məruzələrində ermənilərin Azərbaycana qarşı ərazi iddiaları, Dağlıq Qarabağda erməni millətçilərinin xalqımıza qarşı yeritdikləri soyqırımı siyasəti, deportasiya, köçkünlük, erməni terroru: sui-qəsd, girovgötürmə, vandalizm, Heydər Əliyevin işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi uğrunda mübarizəsi öz əksini tapmışdır.

"Azərbaycanlıların deportasiyası və soyqırımı tarixi" və "Qarabağ" şöbələrində əsas diqqət Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin araşdırılmasına, Azərbaycanın ayrı-ayrı bölgələri üzrə soyqırımları və deportasiyalar tarixinə yönəldilmişdir. İnstitutun baş planına "Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və onun həlli məsələsi", "Azərbaycanlıların deportasiyası və soyqırımı tarixi (XIX-XX əsrlər)" mövzularının tədqiqi də daxil

edilmişdir. Son illərdə bu istiqamətdə xeyli iş görülmüş, bir sıra qiymətli kitab və monoqrafiyalar, sənədlər toplusu nəşr edilmişdir. Bu mövzu ilə bağlı Loru-Pəmbək-Şoragel, Göyçə hövzəsi və Vedibasar bölgəsi materialları əsasında bir neçə namizədlik dissertasiyası müdafiə edilmişdir. Şöbə Azərbaycanın tarixi torpaqlarında soydaşlarımıza qarşı törədilmiş soyqırımları, qarətlər, fiziki və mənəvi təqiblər, zorakılıqların həqiqi mənzərəsini yaratmaq, bu sahədə əldə edilən faktiki materialları elmi dövriyyəyə daxil etmək, bununla da dünya ictimaiyyətində göstərilən problemlə bağlı obyektiv təsəvvür yaratmaq üçün geniş tədqiqatlar aparır. İ.Məmmədovun "Tariximiz, torpağımız, taleyimiz" (Bakı, 2004), "İrəvan dəftəri" (Bakı, 2004) "Erməni kilsəsi və türk-Azərbaycan torpaqlarını dolaşmaqda olan "Böyük Ermənistan" kabusu" (Bakı, 2009), L.L.Nəsibzadənin "Vətən haqqında düşüncələr" (Bakı, 2004), S.A.Piriyevanın "Ahıska türkləri Azərbaycanda" (Bakı, 2005), Ə.C.Qurbanovun "Azərbaycan türklərinin Ermənistandan deportasiyası (1947–1953)" (Bakı, 2004), M.Süleymanovun "Erməni millətçiliyi və təcavüzkarlığı tarixindən" (Bakı, 2008), N.Məmmədovun "Dağlıq Qarabağ gerçəklikləri: Soyqırımı, terror, deportasiya, işğal (XX yüzillik)" (Bakı, 2009), "Ermənilərin Azərbaycan torpaqlarında törətdikləri əməllər barədə tarixi faktlar" (Bakı, 2010) kitabları bu istiqamətdə aparılan araşdırmaların elmi nəticələridir. İnstitut əməkdaşları bu mövzuda məruzələrlə müxtəlif ölkə və beynəlxalq (Türkiyə, Rusiya və s.) səviyyəli elmi konfrans və simpoziumlarda iştirak etmişlər.

Tarix İnstitutu son on ildə Naxçıvan, bu diyarın tarixi, abidələri və görkəmli yetirmələri ilə daim maraqlanmış, tədqiqinə ciddi diqqət yetirmişdir. İnstitut əməkdaşları dəfələrlə Naxçıvan Muxtar Respublikasına səfərlər etmiş, onun bölgələri, arxeoloji, tarixi və memarlıq abidələri ilə yaxından tanış olmuş, onlar haqqında mötəbər tədqiqatçı sözü demişlər. "Naxçıvan: tarixi və abidələri" adlı (Bakı, 2007) əsərdə (Y.M.Mahmudov, K.Şükürov) Naxçıvan diyarının keçdiyi tarixi inkişaf yolu ayrı-ayrı dövrlər üzrə nəzərdən keçirilir. Kitaba əlavə olunmuş illüstrasiya materialları onun əhəmiyyətini artırır,

ВРЕМЯ ДЕЙСТВОВАТЬ!
КАМПАНИЯ

Güllələnmiş heykəllər

Khojaly

Naxçıvanın tarixi və abidələri haqqında dolğun təsəvvür yaradır. Qədim tarixi mənbələrə və tarixşünaslıq materiallarına əsaslanan müəlliflər sübut edirlər ki, ermənilər Asiyanın yerli sakinləri deyil, Balkan yarımadasından gələn tayfaların nəsilləridir. Ermənilərin Naxçıvan ərazisinə XIX əsrin 20–30-cu illərində köçürüldüyü məlumdur. Bununla əlaqədar kitabda qeyd olunur ki, "Bu torpaqlar qədim Azərbaycan torpaqlarıdır. Doğrudur, XIX yüzilliyin əvvəllərində Rusiya–İran və Rusiya–Türkiyə müharibələri dövründə və bundan sonra çar hökuməti İran və Türkiyədən Şimali Azərbaycana kütləvi surətdə erməni köçürərkən Naxçıvanda da ermənilərı yerləşdirməyə cəhdlər göstərib. Lakin qəhrəman Naxçıvan camaatı ermənilərin burada qərar tutmasına imkan verməyib. Və beləliklə, Naxçıvan tarixin ən qədim çağlarından bu günədək əzəli Azərbaycan torpağı olaraq qalıb".

XX əsrin 60–70-ci illərinin və Azərbaycanın müstəqillik dövrünün tarixinə dair tədqiqatların genişləndirilməsi, Heydər Əliyev şəxsiyyətinin fundamental araşdırmalara cəlb edilməsi kimi mühüm məsələlər institutun planına daxildir. Azərbaycan tarixinin bir çox aktual və həllini gözləyən problemlərini müstəqillik dövrünün tələbləri səviyyəsində araşdırıb xalqa çatdırmaq üçün Tarix İnstitutunun Elmi Şurası Heydər Əliyevə fundamental elmi araşdırmaların həsr olunması barədə qərar qəbul etmişdir. Dahi şəxsiyyətin zəngin irsini araşdırmaq üçün İnstitutda Heydər Əliyev Elmi–Tədqiqat Mərkəzinin yaradılması aktual və vacib məsələlərdən biridir. Bu istiqamətdə aparılan araşdırmalar içərisində "Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti" (Bakı, 2002), "Azərbaycan: qısa dövlətçilik tarixi" (Bakı, 2005), "Heydər Əliyev ideyalarının zəfər yürüşü" (Bakı, 2011) monoqrafiyalarını qeyd etməliyik. Bu əsərlərdə Heydər Əliyevin tarix elmi qarşısında xidmətləri, tarix elminin inkişaf istiqamətləri və elmi nailiyyətlər, tarixin təhrif edilmədən tədqiqi, tədrisi və təbliği məsələləri barədə metodoloji göstərişləri, həmçinin apardığı ümumiləşdirmələri əks olunmuşdur.

Tarix İnstitutunda 2007-ci ildə Azərbaycanda ilk dəfə milli dövlətçilik tarixini xronoloji ardıcıllıqla əhatə edən "Azərbaycanın

Tarixi Atlası" nəşr olunmuşdur. Tarix İnstitutunun əməkdaşları tərəfindən milli tariximizin bütün dövrləri üzrə tərtib olunan xəritələr atlasla bərabər, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı ilə çapa hazırlanan Azərbaycan Milli Ensiklopediyasının xüsusi cildinin "Tarix" bölməsinə də daxil edilməli idi. 55 xəritəni əhatə edən "Azərbaycanın Tarixi Atlası" və Azərbaycan Milli Ensiklopediyasının xüsusi cildinin "Tarix" bölməsində bütün dövrləri əks etdirən xəritələr çap edildi. Hər iki nəşr təkcə ölkəmizdə deyil, o cümlədən xarici ölkələrdə də böyük əks-səda doğurdu. Azərbaycanın tarixi ərazilərinin mənbələr əsasında, xronoloji ardıcıllığı, onun xüsusilə də XIX əsrin I yarısında çar Rusiyası və İran arasında bölüşdürülməsi, ermənilərin Qərbi Azərbaycan torpaqlarına köçürülməsi, 1918–1929-cu illərdə 29,8 min kv. km ərazinin ermənilərə verilməsi nəticəsində qondarma "Ermənistan Respublikası"nın yaradılması, azərbaycanlıların öz tarixi və etnik torpaqlarından deportasiyası, etnik təmizləmə və soyqırımı proseslərinin xəritələrdə öz əksini tapması İran İslam Respublikasında və Ermənistanda çox böyük narahatlıqla qarşılandı. Hətta İran İslam Respublikasının parlament üzvlərinin xüsusi bəyanatına səbəb oldu.

2007-ci il sentyabrın 25-də Tarix İnstitutu Beynəlxalq Mətbuat Mərkəzində "Azərbaycanın Tarixi Atlası"nın təqdimatını keçirmişdir. Tədbirdə "Ermənilərin növbəti saxtakarlığı və ya Azərbaycanın işğal olunmuş Ağdam rayonu ərazisində "Tiqranakert axtarışları" barədə Azərbaycan tarixçilərinin bəyanatı, Qafqaz Albaniyası və onun etnomədəni irsi ilə bağlı İrəvanda antiazərbaycan boşboğazlarının keçirdikləri beynəlxalq konfransı ifşa edən məlumat da oxunmuşdur.

Məlum olduğu kimi, Tarix İnstitutunun nəşriyyat işlərinin əsasını, heç şübhəsiz, 30 ildən sonra nəşri bərpa edilən "AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun əsərləri" təşkil edir. "Elmi əsərləri"n nəşri 1969-cu ildə dayandırılmış, onun çapının bərpası haqqında institutun Elmi Şurasının 2002-ci ildə qəbul etdiyi qərara baxmayaraq, bir sıra obyektiv və subyektiv səbəblər bu prosesi 2007-ci ilədək ləngitdi. İldə dörd dəfə çap olunması nəzərdə tutulan "Elmi əsərlər"in

indiyədək (2007–2013-cü ilədək) artıq 50 sayı nəşr olunmuşdur. İnstitutun "Elmi əsərlər"inə təqdim olunan məqalələr Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən müəyyən edilmiş qaydalara uyğun şəkildə tərtib edilir, jurnalın redaksiya heyətində müzakirə olunduqdan sonra çapa məsləhət görülür.

Tarix İnstitutunun fəaliyyətində diqqəti cəlb edən cəhətlərdən biri də Elmi Şuranın qərarı ilə milli tariximizin ən mühüm problemlərinin tədqiqinə həsr olunmuş əsərlərin nəşridir. Ş.Hacıəlinin "Şimal-Qərbi Azərbaycan: ingiloylar", X.R.Vahidovanın "Ordubad şəhərinin tarixi", AMEA-nın müxbir üzvü O.Ə.Əfəndiyevin "Azərbaycan Səfəvilər dövləti", yenə onun "Россия и Европа глазами Орудж-бека Баята – Дон Жуана Персидского" (перевод с английского, введения, комментарии, указатели Октая Эфендиева и Акифа Фарзалиева) ("Rusiya və Avropa Oruc bəy Bayatın – İranlı Don Juanın gözü ilə") (ingilis dilindən tərcümə, ön söz, şərhlər və göstəricilər Oqtay Əfəndiyevin və Akif Fərzəliyevindir) (Sankt-Peterburq), A.C.Muradovanın "Привлечение женщин Азербайджанской ССР в органы власти (20–30-е годы XX века)" ("Azərbaycan SSR qadınlarının hakimiyyət orqanlarına cəlb olunması (XX əsrin 20–30-cu illəri)", M.R.Fərəcovun "Beynəlxalq münasibətlərin müasir problemləri", "Azərbaycan gömrüyü: tarixi ənənələr və müasirlik. Müstəqil Azərbaycan Respublikasında Gömrük Komitəsinin yaradılmasının 15 illiyinə həsr olunmuş respublika elmi konfransının materialları", V.Abışovun "Azərbaycanlıların soyqırımı (1917-1918-ci illər)", F.Əliyevin "İrəvan xanlığı", G.C.Nəcəflinin "XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri", Z.Hacıyevanın "Qarabağ xanlığı: sosial-iqtisadi münasibətlər və dövlət quruluşu", Ş.Qasımovun "Azərbaycan SSR yaradıcılıq ittifaqlarının yaranması və fəaliyyəti (1920–30-cu illər)", S.Əliyevanın "Ногайские турки на Северном Кавказе" ("Şimali Qafqazda Noqay türkləri"), H.N.Həsənovun "Из истории деревни Северного Азербайджана в конце XIX – начале XX века" ("XIX əsrin sonu – XX əsrin əvvəllərində Şimali Azərbaycan kəndinin tarixindən"), F.M.Abasovun

"Карабахское ханство" ("Qarabağ xanlığı") və s. kimi əsərlər, institut əməkdaşlarının elmi jurnallarda 300-dən artıq məqaləsi dərc olunmuşdur.

Azərbaycan tarixinin bir çox aktual və həllini gözləyən problemlərini müstəqillik dövrümüzün tələbləri ruhunda araşdırıb xalqa çatdırmaq üçün Tarix İnstitutunun elmi tədqiqat planlarında əsaslı dəyişikliklər edilmişdir. 2007-ci ildə institutun Elmi Şurası Ulu Öndərimiz Heydər Əliyevin ömür yoluna fundamental elmi araşdırmaların həsr olunması barədə qərar qəbul etmişdir. Dahi şəxsiyyətin özündən sonrakı nəsillərə yadigar qoyub getdiyi zəngin irsini tədqiq etmək məqsədilə institutun daxili imkanları hesabına 2009-cu il mayın 15-dən "Heydər Əliyev Elmi Tədqiqat şöbəsi" yaradılmış və 2010-cu ilin sonunda AMEA Rəyasət Heyətinin qərarı ilə, təsdiq olunmuş yeni struktura müvafiq olaraq, bu şöbə "Əliyevşünaslıq" şöbəsi adlandırılmışdır. 2007-ci ildən "Azərbaycan tarixi üzrə ümumiləşdirici tədqiqatlar" problemi üzrə ikicildlik sistemləşdirilmiş, fundamental araşdırma kimi nəzərdə tutulan "Heydər Əliyev" adlı tədqiqat işi davam etdirilmiş və 2009-cu ildə "Heydər Əliyev Azərbaycan Respublikasının banisidir (1991–2003)" adlı II cild üzrə iş başa çatdırılmışdır. "Heydər Əliyev" (ikicildlik) ümumiləşdirilmiş fundamental araşdırma" əsərində Heydər Əliyev irsi arxiv və statistik, habelə mətbuat orqanlarının materialları və mövcud tarixi ədəbiyyat üzrə təhlil edilmişdir. Onun Azərbaycana rəhbərlik etdiyi 1993–2003-cü illərdə respublikanın ictimai-siyasi, iqtisadi, mədəni inkişafının əsas istiqamətləri araşdırılmış, bütövlükdə Azərbaycanın tərəqqisi və inkişafı üçün həyata keçirdiyi strategiya konkret faktlarla elmi cəhətdən əsaslandırılmışdır.

Ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri cinayətlərin tarixini vərəq-vərəq izləmək və ən başlıcası dünya ictimaiyyətinə çatdırmaq məqsədilə Tarix İnstitutunun gördüyü vacib işlərdən biri də "26 Bakı komissarları" adlı cinayətkar qrupun 1918-ci ildə Azərbaycan xalqına qarşı həyata keçirdiyi kütləvi soyqırımın gerçək tərəflərinin üzə çıxarılmasıdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi ilə, Bakı şəhərinin mərkəzindəki Sahil bağında yenidənqurma və abadlıq işlərinin aparılması ilə əlaqədar, burada 2008-ci ilin sonu – 2009-cu ilin əvvəlində 1920-ci il sentyabrın 10-da keçmiş ÜMİK Rəyasət Heyətinin və Bakı Fəhlə və Əsgər Deputatları Sovetinin qərarı ilə dəfn edilmiş, 1918-ci ildə Azərbaycan xalqına qarşı soyqırımı cinayətlərinin təşkilatçıları olan "26-lar"ın məzarlarının açılması və şəhər məzarlıqlarından birinə köçürülməsi ilə bağlı yaradılmış dövlət komissiyasının tərkibinə Tarix İnstitutunun direktoru da daxil edilmişdir.

İnstitutun Elmi Şurasının 2009-cu ildə keçirilmiş iclaslarından biri Bakı şəhərinin "Sahil bağında aşkar olunmuş "26 Bakı komissarları" adlandırılan şəxslərə aid cəsədlərin ilkin ekspertizasının nəticələri"nə həsr edilmişdir. İclasda qeyd edilmişdir ki, "Qəbirlər AMEA-nın alimləri və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin baş direktoru, tibb elmləri doktoru, professor Şakir Musayev başda olmaqla, aparıcı ekspertlərin iştirakı ilə açılmışdır. 2009-cu il yanvarın 24–26-da Sahil bağında aparılan araşdırmalar zamanı aşkar olunmuş qəbirlərdəki skelet sümüklərinin məhkəmə-tibbi və tibbi-kriminalistik tədqiqatı nəticəsində tapılan sümüklərin 26 nəfərə deyil, 23 nəfərə məxsus olması artıq onu göstərir ki, bu məsələdə saxtalaşdırma faktı var. Bu, 23 nəfərin iki növ silahdan açılan atəş nəticəsində öldürüldüyünü sübut etmişdir. Onların hamısının dizdən yuxarı və kəllə nayihəsinə atəş açılıb. Bu cəsədlərin 26 Bakı komissarlarına aid olması heç bir şübhə doğurmur. 23 nəfər orada dəfn olunub, 3 nəfərin cəsədi isə yoxdur. Belə hiss olunur ki, həmin üç nəfər güllələnənlər arasında olmayıb. Skelet sümüklərinin məxsus olduğu şəxslərin yaş həddi 20-50 arasındadır. Çatışmayan 3 qəbirə gəldikdə isə, "26-lar"ın siyahısı ilə tutuşdurduqda, məlum olur ki, bunlardan 2-si 40-49 yaş həddinə, 1-si isə 30-39 yaş həddinə aid olan şəxslərdir. "26-lar"ın siyahısından məlum olur ki, onların içərisində yaşı 39-dan yuxarı olan 3 nəfər vardır: Şaumyan (40 yaş), Əzizbəyov (42 yaş),

Əmiryan (45 yaş). Ekspertiza araşdırmaları başa çatdırıldıqdan sonra cəsədlərin qalıqları humanizm prinsipləri əsas tutularaq, 2009-cu il yanvarın 26-da müsəlman, xristian və yəhudi din xadimlərinin iştirakı ilə və müvafiq dini ayinlər icra olunmaqla şəhər qəbiristanlığında dəfn edilmişdir ..." Qeyd olunmuşdur ki, Hamazasp, Lalayan, Avetisov, Əmiryan, Avakyan kimi erməni cəlladların quldurluq əməlləri, onların sonrakı taleyi, üzdə bolşevik, əslində isə daşnak olan S.Şaumyanın daşnak cəlladı Andronikla 1917-1918-ci illərdəki əlaqələri ciddi tədqiqatlara cəlb olunmalıdır. Yeni elmi axtarışlar aparılarkən soyqırımları zamanı Azərbaycan xalqının qarət olunmuş sərvətlərinin ölkədən necə və kimlər tərəfindən çıxarılması, "26-lar" "mif"inin kimlər tərəfindən uydurulması, sonralar SSRİ-nin rəhbərlərindən biri olmuş A.Mikoyanın bu işdəki rolunun açılmasına xüsusi diqqət yetirilməlidir. Müzakirədə çıxış edən digər Elmi Şura üzvlərinin sözlərinə görə, Sahil bağında 23 qəbrin aşkar olunması bir daha sübut edir ki, sovet hakimiyyəti illərində "26 Bakı komissarı" haqqında xalqa təqdim olunmuş əsərlər tarixi gerçəkliyi əks etdirmir. "26-lar"la bağlı olan real tarix düşünülmüş şəkildə və qəsdən saxtalaşdırılmışdır. Ona görə də həmin dövrün hadisələri, habelə sovet dövrü tariximizin bir çox problemləri yenidən araşdırılmalıdır.

S.Şaumyanın 1919-cu ilin martında hərbi əsir olması barədə məlumat verən, Bakı Sovetinin arxivində saxlanılan və 1934-cü ildə Ermənistan hökumətinin Türkmənistan SSR-in Krasnovodsk şəhərində "26-lar"a abidə qoyulması üçün 150 min manat ayırması barədə sənədlər də Tarix İnstitutunun Elmi Şurasında təhlil edlmişdir. Bu fakt 26 Bakı komissarı ilə bağlı bütün tarixi məlumatların və arxivlərin yenidən qaldırılmasını zəruri edir. Bakı Xalq Komissarları Şurasının hakimiyyəti dövründə Azərbaycan xalqına qarşı törədilən kütləvi qırğının rəhbərləri və icraçıları, o cümlədən 26 Bakı komissarlarının 1918-ci ildə həbsi və güllələnməsi ilə bağlı materialların aşkara çıxarılması məqsədilə, Tarix İnstitutunun rəhbərliyinin xüsusi tapşırığı ilə yaradılmış elmi qrup tədqiqat işi aparmışdır. Ortaya çıxan problemin siyasi və elmi əhəmiyyətini düzgün qiymətləndirən institut

rəhbərliyi məsələ ilə bağlı yaranmış çoxsaylı suallara cavab tapmaq üçün Azərbaycan Respublikasının, o cümlədən xarici ölkələrin dövlət arxivlərində araşdırmalar aparacaq işçi qrup yaradılmışdır. Keçən bu müddət ərzində işçi qrupu tərəfindən ölkənin dövlət arxivlərində geniş araşdırmalar aparılmış və toplanılmış materialların sənədlər toplusu şəklində çap olunması qərara alınmışdır. Bu araşdırmaların ilkin nəticələri öz əksini «Azərbaycan xalqına qarşı 1918-ci il Mart soyqırımı» adlı kitabda tapmışdır.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2009-cu il may ayının 4-də "Azərbaycan Respublikasında 2009–2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya"nı və "Azərbaycan Respublikasında 2009–2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı"nı təsdiq etmiş, 2009-cu il oktyabr ayının 21-də isə "Elmin İnkişaf Fondu yaradılması haqqında" sərəncam imzalamışdır. Bu sərəncamlar Tarix İnstitutu və onun əməkdaşları tərəfindən böyük razılıqla qarşılanmışdır. Bu sərəncamlardan çıxış edərək Azərbaycan Respublikası Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev humanitar və ictimai elmlərlə bağlı məruzəsi (8 dekabr 2009-cu il) və "İctimai və Humanitar elmlər: zaman kontekstində baxış" məqaləsi ilə bu elm sahələrinin vəzifələrini müəyyənləşdirmiş və gələcək inkişafının yollarını göstərmişdir. Məruzədə Milli Elmlər Akademiyasının Tarix İnstitutunda son illər ərzində rəğbətlə qarşılanmış bir sıra fundamental əsərlərin hazırlanıb nəşr olunduğu xüsusi olaraq qeyd olunmuşdur. İnstitutda, həmçinin dəyərli tarixi sənədlərin və arxiv materiallarının çapı və şərhi sahəsində mühüm işlərin həyata keçirilməsi və Azərbaycan tarixinə həsr olunmuş fundamental monoqrafiyaların yazılması tövsiyə olunmuşdur.

İnstitut bu tövsiyələri nəzərə alaraq, Azərbaycanın itirilmiş ərazilərinin tarixini dərindən araşdırmaq üçün mühüm işlər görmüş, Azərbaycan tarixinin bir çox aktual və həllini gözləyən problemlərinin müasir dövrün tələbləri ruhunda araşdırılıb xalqa çatdırılması üçün elmi tədqiqat fəaliyyətində əsaslı dəyişikliklər etmişdir.

İnstitut əməkdaşları 2010-cu ildə əsas elmi istiqamət – "Azərbaycan tarixinin ümumi konsepsiyası" üzrə tədqiqat işi aparmışlar. Həmin istiqamət 5 problemi, 28 mövzunu və 2 işi əhatə edir. "Azərbaycan tarixi üzrə ümumiləşdirici tədqiqatlar" adlı problem üzrə "Borçalı tarixi (ən qədim dövrlərdən başlayaraq bu günədək)", "Şimali-Qərbi Azərbaycanın tarixi (ən qədim dövrlərdən başlayaraq bu günədək)", "Azərbaycan regionlarının tarixi (inzibati ərazi bölgüsü, siyasəti, iqtisadiyyatı və mədəniyyəti (regional tədqiqat)", "Müstəqil Azərbaycan Respublikası tarixi (1991–2010)", "Şimali Qafqazın türk xalqlarının tarixi (XVIII–XXI əsrin əvvəli)", "Azərbaycan şəhərlərinin tarixi (ən qədim dövrlərdən başlayaraq bu günədək)", "Dərbənd şəhəri XIII–XVII əsrlərdə"; "Tarixşünaslıq və mənbəşünaslıq" problemi üzrə: "Azərbaycan tarixinin tarixşünaslığı", "Azərbaycan qədim mənbələrdə (toplu)", "Həsən bəy Rumlunun "Əhsənüt təvarix" əsəri Azərbaycan tarixi üzrə mənbə kimi (tərcümə, şərhlər)" (I-II cildlər), "XVIII-XIX əsrin əvvəlləri. Azərbaycan tarixi üzrə rusdilli qaynaqlar (sənədlər toplusu)" (ikicildlik); "Azərbaycanın siyasi tarixi" problemi üzrə: "Qədim Azərbaycan beynəlxalq münasibətlər sistemində", "İrəvan xanlığının tarixi coğrafiyası və əhalisi", "XVIII–XX əsrin əvvəllərində ermənilərin Cənubi Qafqazda və Anadoluda erməni dövləti qurmaq istiqamətində fəaliyyəti", "Şirvanın siyasi tarixi (XVIII-XIX əsrin əvvəli)", "Gürcüstan–Azərbaycan münasibətləri (XVIII əsrin sonu –XXI əsrin əvvəlləri)", "Cənubi Azərbaycan Rusiya–İran müharibələri dövründə", "Azərbaycanın müharibələr tarixi", "Azərbaycanlıların deportasiyası və soyqırımı tarixi (XIX-XX əsrlər)" (ikicildlik), "Azərbaycanın beynəlxalq əlaqələri tarixi (1918–2010-cu illər)" (ikicildlik), "Qərbi Azərbaycan toponimləri", "Müstəqil Azərbaycan və dünya birliyi (1991–2005)", "İnzibati-amirlik dövründə Azərbaycan SSR-də kadr siyasəti (1920-1953)"; «Azərbaycanın sosial-iqtisadi tarixi» problemi üzrə "Xanlıqlar dövründə Azərbaycan əhalisi", "Rusiya–İran işğalları ərəfəsi və dövründə Azərbaycanda demoqrafik durum", "Azərbaycan Respublikasının neft strategiyası (1994–2010)"; "Azərbaycan mədəniyyəti tarixi"

problemi üzrə "Azərbaycan mədəniyyəti tarixi (ən qədim dövrlərdən başlayaraq bu günədək)" və s. mövzular üzrə institutda tədqiqatlar aparılır.

Son illərdə Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının əsassız olduğunu sübut etmək üçün institutda təkzibedilməz tarixi sənədlər əsasında fundamental "Qarabağ tarixi" (altı dildə) və "Naxçıvan: tarixi və abidələri" (Azərbaycan və ingilis dillərində) adlı əsərlər nəşr olunmuşdur.

Azərbaycan tarix elmi için böyük uğur sayılan hadisələrdən biri də – "İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi" (Azərbaycan, rus, ingilis dillərində) (Bakı, 2010) adlı fundamental əsərin nəşr olunmasıdır. Cənubi Qafqazın tarixində mühüm rol oynamış Azərbaycan dövlətlərindən biri – İrəvan xanlığının (1747–1828) tarixinə həsr olunmuş fundamental monoqrafiya – «İrəvan xanlığı» adlı əsər isə təkcə Azərbaycan tarix elmində deyil, dünya tarixşünaslığı üçün nəhəng bir hadisə sayılmalıdır. AMEA Tarix İnstitutu və Regionların İnkişafı İctimai Birliyinin birgə layihəsi olan bu kitabda Nadir şah Əfşarın yaratdığı imperiyanın süqutundan sonra meydana çıxmış İrəvan xanlığının Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu sübuta yetirilir. Əsərdə müstəqil Azərbaycan dövlətlərindən biri olan İrəvan xanlığı və həmin xanlığın yerləşdiyi Azərbaycan torpaqları təkzibolunmaz tarixi mənbələr əsasında hərtərəfli tədqiqata cəlb edilmişdir.

Monoqrafiyada İrəvan xanlığı əhalisinin etnik tərkibi araşdırılmış və erməni müəlliflərinin xanlığın xristian əhalisi barədə uydurma fikirləri–əhalinin əksəriyyətinin guya ermənilərdən ibarət olması ideyası ifşa olunmuşdur. Bundan əlavə, İrəvan xanlığının sosial-iqtisadi həyatı, sərhədləri və inzibati bölgüsü, daxili idarəçilik sistemi və xarici siyasəti, İrəvan xanlığının XIX əsrin əvvəllərində yadelli işğalçılara qarşı qəhrəmancasına mübarizəsi, böyük çətinliklə Rusiya imperiyası tərəfindən işğalı, ən əsası isə işğaldan sonra bu əraziyə İrandan və Osmanlı imperiyasından ermənilərin kütləvi şəkildə köçürülməsi geniş şəkildə öz əksini tapmışdır. Kitabın nəşrində əsas

məqsəd Azərbaycanın ayrılmaz tərkib hissəsi olan bir dövlət – İrəvan xanlığı haqqında elmi ədəbiyyatda indiyə qədər mövcud olan saxta, uydurma fikirləri ifşa etmək, real tarixi ictimaiyyətə çatdırmaqdır. Bu fundamental əsər Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xətti ilə xaricdə yayılmışdır.

Onu da qeyd etmək lazımdır ki, "İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi" kitabı böyük rəğbətlə qarşılanmış, "Humay" mükafatına layiq görülmüşdür. Monoqrafiya rus və ingilis dillərinə tərcümə olunmuş və 2010-cu ilin nəticəsi kimi Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim olunmuşdur.

2010-cu ildə Tarix İnstitutu Azərbaycanın qədim, orta, yeni və ən yeni tarixi problemləri üzrə çoxsaylı fundamental əsər və sənədlər toplusu çap etdirmişdir. Onların içərisində "Azerbaijan and Europe (Mediyeval diplomatik relasions)" ("Azərbaycan və Avropa: orta əsrlərdə diplomatik əlaqələr") (London - New York, 2010), "Взаимоотношения государств Аг - Гоюнлу и Сефевидов с западноевропейскими странами" ("Ağqoyunlu və Səfəvi dövlətlərinin Qərbi Avropa ölkələri ilə əlaqələri") (Moskva, 2010), S.İ.Əliyevanın "Noqay türkləri (XV–XX əsrlər)" (xəritələrlə), yenə onun "Azərbaycan və Şimali Qafqaz xalqları", S.M.Qaşqayın "Ön Asiyada miqrasiya proseslərinə dair", "Azərbaycan tarixçiləri. Biblioqrafik göstərici", E.N.Lətifovanın "İlisu sultanlığı (tarixi-etnoqrafik tədqiqat) – xəritələr, illüstrasiyalar", "Əziz Ubeydullin. Əsərləri (məqalələri və çıxışları)" (Azərbaycan və rus dillərində), Q.Cəbiyevin "Girdiman tarixi", M.Sarayın "Quzey və Güney Azərbaycan türklərinin tarixi", N.Əliyevanın "Əs-Səmaninin "Kitab Əl-ərisab" əsəri Azərbaycanın mədəniyyət tarixinin öyrənilməsində mənbə kimi", İ.K.Ağasiyevin "Qafqazın alman əhalisinin ictimai-siyasi həyatı (1860–1921)", "Qarabağ Osmanlı sənədlərində", H.Həsənovun "İlk respublikaya gedən yollar", "Azərbaycan tarixinə dair ilk mənbələr: Gəncə-Qarabağ əyalətinin icmal dəftəri", "Azərbaycan xalqına qarşı 1918-ci il Mart soyqırımı. III cild. Xatirələr. Sənədlər toplusu", "Azərbaycan

tarixi arxiv sənədlərində (1917–1920-ci illər), I cild (Rusiya Dövlət Sosial-Siyasi Tarix Arxivinin sənədləri)", "Azərbaycan tarixi arxiv sənədlərində (XIX əsrin sonları – XX əsrin əvvəlləri), II cild (Britaniya kitabxanasının arxiv sənədləri)", "Azərbaycan tarixi arxiv sənədlərində (XVIII–XX əsrin əvvəlləri), III cild (Rusiya Dövlət Hərbi Tarix Arxivinin sənədləri)", "İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi", "İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi" (Azərbaycan, rus və ingilis dillərində), T.T.Mustafazadənin "Qarabağ xanlığı", S.M.Zeynalovanın "Qafqazda Avropa etnik icmalarının formalaşması prosesi (XIX-XX əsrin I yarısı)", Ş.F.Fərzəliyevin "Səfəvilərin süqutu (İozef Tiflisinin məlumatları əsasında)" (İsfahan, 2010), A.N.Mustafayevin "Azərbaycanın maddi-mədəni irsi (etnotipoloji tədqiqat)", N.R.Gözəlovanın "XVIII əsr Azərbaycan tarixi məsələləri ingilisdilli tarixşünaslıqda", Z.Ə.Hacıyevanın "Qarabağ xanlığının tarixşünaslığı", yenə onun "Qarabağ xanlığı: sosial-iqtisadi münasibətlər" (ingilis dilində), G.C.Nəcəflinin "Азербайджан в XVIII-XIX вв." ("Azərbaycan XVIII-XIX əsrlərdə") (Бишкек, 2010) kimi nailiyyətləri qeyd etmək vacibdir.

2010-cu il oktyabrın 7-də Prezident Kitabxanasında AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu və "Regionların İnkişafı" İctimai Birliyinin birgə layihəsi əsasında nəşr olunmuş "İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi" kitabının yenicə çapdan çıxmış ingilis və rus dillərində olan versiyalarının təqdimat mərasimi keçirilmişdir.

2010-cu il noyabrın 3-də AMEA Tarix İnstitutu Azərbaycan Respublikası Prezident Administrasiyasının rəhbəri, akademik R.Ə.Mehdiyevin "Gorus-2010: absurd teatrı mövsümü" (xəritələrlə birlikdə) kitabının təqdimatını keçirmişdir. Kitabda görkəmli filosof-alim erməni liderlərinin tarixi saxtalaşdırmaq, beynəlxalq ictimaiyyəti yeni uydurma və yalanlarla çaşdırmaq cəhdlərini, Ermənistan dövlətinin əzəli Azərbaycan torpaqlarında yaradıldığını tutarlı dəlillərlə ifşa edir.

Son illərdə Tarix İnstitutunun Rusiya Federasiyası, Türkiyə, Gürcüstan, İngiltərə, Fransa ilə də elmi əlaqələri xeyli genişlənmişdir. Belə ki, 2009-cu ildə institutun əməkdaşları Rusiya Federasiyasının "Azərbaycan tarixinə dair XVIII–XX əsrin əvvəlləri Rusiya Arxiv sənədləri" və "XX əsr Azərbaycan–Rusiya münasibətləri" mövzuları üzrə Moskva şəhərində Rusiya Dövlət Sosial-Siyasi Tarixi, Rusiya Dövlət Hərbi Tarixi, Sankt-Peterburq şəhərində Rusiya Dövlət Hərbi-Dəniz Donanması, Dağıstan Respublikası Mərkəzi Dövlət arxivlərinə ezam olunaraq külli miqdarda material toplamışlar. Həmçinin, Tarix İnstitutu və yuxarıda adları göstərilən arxivlər arasında əməkdaşlıq barədə uzunmüddətli elmi müqavilə imzalanmışdır.

Bundan əlavə, institutun ayrı-ayrı şöbələri də xarici ölkələrlə elmi əlaqələr yarada bilmişlər. Belə ki, İnstitutun əməkdaşları N.Ə.Maksvell və Ə.Mirhəşimov Britaniyanın arxiv və muzeyləri ilə elmi əlaqələr yaradaraq, Azərbaycan tarixinə dair çox qiymətli materiallar əldə etmişlər. İnstitutun əməkdaşı N.Ə.Maksvell 2010-cu ildə Hindistana, Dehli Milli arxivinə ezamiyyətə göndərilmiş və maraqlı arxiv sənədləri (Böyük Britaniya Xarici İşlər Nazirliyinin fondu (I Dünya müharibəsi illərində Hindistan ştabı) və xüsusi I Dünya müharibəsi fondunun materialları) əldə edə bilmişdir.

AMEA Tarix İnstitutunun son on ildə əldə etdiyi bu uğurlar Ulu Öndər Heydər Əliyevin Tariximizin Dirçəliş Konsepsiyası və İlham Əliyevin konkret tapşırıq və sərəncamları əsasında əldə edilmişdir. Bu uğurlar 2011-ci il aprelin 26-da keçirilən AMEA-nın illik ümumi yığıncağında da təsbit edilmişdir. Yığıncaqda Prezident İlham Əliyev də iştirak etmişdir. Dövlətimizin başçısı giriş nitqində tarixçilərin işlərinə yüksək qiymət verərək qeyd etmişdir ki, ***"Tarix elmləri ilə bağlı olan məsələlər daim diqqət mərkəzindədir. Biz bu məsələyə çox böyük diqqət göstəririk. Mən çox şadam ki, tarixçilərimiz çox sanballı və əsaslı əsərlər yaradırlar. Xüsusilə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin mövcudluğu bizə diktə edir ki, bu sahəyə daha da böyük diqqət göstərək. Çünki bu bölgənin tarixi ermənilər tərəfindən daim saxtalaşdırılır, daim təhrif olunur.***

***Şadam ki, alimlərimiz mənim çağırışıma müsbət cavab verərək, qısa müddət ərzində bu bölgənin tarixi ilə bağlı çox gözəl və real faktlara əsaslanmış əsərlər yaratmışlar. Başlıcası, İrəvan xanlığının tarixi ilə bağlı yaradılmış əsərlər xüsusi məna daşıyır. Çünki əfsuslar olsun ki, dünya birliyi, demək olar, bilmirdi ki, bugünkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranmışdır…Nəinki ölkə daxilində, eyni zamanda xaricdə də bunu bilməlidirlər. Ona görə, bu kitabların xarici dillərdə nəşri xüsusi məna daşıyır…Bütün indiki Ermənistan ərazisinin əksər toponimləri Azərbaycan mənşəli toponimlərdir… Bu, bizim torpaqlarımızdır. Elmi araşdırmalar və elmi əsərlər, kitablar çox vacibdir".***

AMEA Tarix İnstitutu alimlərinin fədakar əməyini xüsusi olaraq qeyd edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, həm də Azərbaycan tarixinə dair tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması sahəsində onların gördükləri işlərə çox böyük qiymət vermişdir.

Ölkə Prezidentinin çağırışını rəhbər tutaraq son illərdə Ermənistanın Azərbaycan Respublikasına qarşı ərazi iddialarının əsassız olduğunu sübut etmək üçün Tarix İnstitutunda təqzibedilməz tarixli sənədlər əsasında "Azərbaycan xalçaları". İrəvan qurupu (Azərbaycan, ingilis, fransız, alman, rus, ərəb dillərində) (Bakı, 2011), "Azərbaycan xalçaları". Qarabağ qrupu (Azərbaycan, ingilis, fransız, alman, rus, ərəb dillərində) (Bakı, 2011) fundamental əsərlər nəşr olunmuşdur. Həmin əsərlər Azərbaycanın tarixi ərazilərinin müxtəlif bölgələrinə məxsus xalçaların, o cümlədən Qarabağ, İrəvan xalçalarının özünəməxsus xüsusiyyətləri olduğunu və bu xüsusiyyətlərin heç bir xalqın ona sahib çıxa bilməsinə imkan vermədiyini sübut edirlər. Qeyd etmək lazımdır ki, tariximizə və mədəniyyətimizə bütövlükdə sahib çıxmaq, təkcə Qarabağın deyil, bütün itirilmiş torpaqların tarixini tədqiq edərək, bu düşüncə və inamı dünya ictimaiyyətinə və eləcə də gələcək nəsillərə çatdırmaq bu gün tarixçi alimlərin əsas devizlərindən biridir.

Bu çağırışdan sonra, təkcə 2011-ci ildə tarixçi alimlər 4 problem, 27 mövzu, 26 mərhələdə elmi tədqiqat işi aparmış və bir sıra mühüm

nəticələr əldə etməyə nail olmuşlar. İnstitut əməkdaşlarının 2011-ci ildə aşağıdakı əsərləri nəşr olunmuşdur: "History of Azerbaijan Early Reralssance (sekond haff of the IX – larly XIII centuries)" (London-Los Angeles, 2011), "Azərbaycanlılar" (Azərbaycan, rus və ingilis dillərində), "Азербайджан и Европа"(Moskva, 2011), "Heydər Əliyev ideyalarının zəfər yürüşü"; "Azərbaycan xalçaları" İrəvan qrupu; "Azərbaycanın İrəvan bölgəsi: tarixi oçerk" (eyni zamanda ingilis, fransız, alman, rus, ərəb dillərində); "Azərbaycan xalçaları" "Qarabağ qrupu"; "Azərbaycan xalçaları. Qarabağ qrupu: tarixi oçerk" (ingilis, fransız, alman, rus, ərəb dillərində); "Azərbaycan xalçaları" Naxçıvan qrupu; "Azərbaycan xalçaları. Naxçıvan qrupu: tarixi oçerk" (ingilis, fransız, alman, rus, ərəb dillərində); K.K.Şükürov "Армянский вопрос" на Кавказе. По материалам российских архивов и изданий. 1724–1914: в 3-х т., т.1-3" (СПб., 2011), yenə onun "The armenia question in Caucasus. Russian archive documents and publications". Vol. 1-3, (London, 2011); "İsgəndər bəy Münşi. "Dünyanı bəzəyən Abbasın tarixi"; H.İsakov. "Azərbaycan Respublikasının "Böyük İpək Yolu"nun bərpasında iştirakı" Ş.Məmmədli "XVII-XVIII əsrlərdə Azərbaycan–Hindistan ticarət əlaqələri"; "Şimali-Qərbi Azərbaycan tarixi" Z.Ə.Əlizadə. "Развитие высшего исторического образования и подготовка кадров историков в Азербайджанской ССР"; M.H.Seyidbəyli. "Азербайджанская диаспора в России: особенности и тенденции формирования и развития"; S.İ.Əliyeva. "Азербайджан и народы Северного Кавказа"; Z.Hacıyeva. "İrəvan xanlığının tarixşünaslığı"; Ə.S.Quliyev. "XVI əsrin ortalarında Azərbaycan Səfəvilər dövlətinin ictimai-siyasi vəziyyəti; A.N.Əlimirzəyev. "Erkən Elam cəmiyyəti: siyasi-iqtisadi münasibətlər və yazı tarixi; Y.H.Gözəlova "Orta əsrlərdə Avrasiyanın ticarət əlaqələri"; Q.Ə.Hacıyev. "Qarabağın maddi və mənəvi mədəniyyəti" (Azərbaycan, ingilis və fransız dillərində); N.R.Məmmədov. "Azərbaycan SSR Dağlıq Qarabağ bölgəsinin şəhər və rayonlarının tarixi (XX əsrin 20–90-cı illəri)" S.Q.Sadıqov. "Gürcüstan Respublikasında azərbaycanlıların sosial–iqtisadi və

ictimai-siyasi vəziyyəti"; Ə.F.Ələkbərov. "Azərbaycan türkləri. (qədim dövrdə və erkən orta əsrlərdə)"; "Azərbaycan xalqına qarşı 1918-ci il Mart soyqırımı". Sənədlər toplusu (üç cilddə) "Azərbaycan Xalq Cümhuriyyəti. Böyük Britaniya arxiv sənədləri" adlı sənədlər toplusu (ingilis dilindən ruscaya tərcümə); "Azərbaycan tarixi arxiv sənədlərində", I cild. Dövlət Sosial-Siyasi Tarix Arxivinin sənədləri; "Azərbaycan tarixi arxiv sənədlərində (XVIII–XX əsrin əvvəlləri)", I cild. Rusiya Dövlət Hərbi Tarix Arxivinin sənədləri "Gəncə-Qarabağ əyalətinin icmal dəftəri"; "Qarabağ Osmanlı sənədlərində" İ.M.Məmmədova. "Rusiya ilə İran arasında Azərbaycan (Lənkəran xanlığı)", (İstanbul, 2011).

2011-ci il dekabrın 22-də AMEA Tarix İnstitutunun Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyəti ilə birgə hazırladığı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə həsr olunmuş "Tariximizin keşiyində" adlı sənədli televiziya filminin təqdimatı keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, hər il olduğu kimi, 2012-ci ildə də elm sahəsinə, alimlərə göstərdiyi diqqət və qayğını artırmış, Azərbaycan elminin inkişafı istiqamətində bir sıra qərarlar qəbul etmişdir. Belə ki, Prezident İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında 2012-ci il 26 aprel tarixli Sərəncam imzalamışdır. Sərancamda deyilir: ***"Respublikamızın dövlət müstəqilliyinin bərpasından sonra tarixi həqiqətlərə obyektiv baxış imkanlarının yaranması xalqımızın keçmişinin müasir dövrün tələblərinə uyğun və azərbaycançılıq məfkurəsi işığında öyrənilməsi baxımından alimlərimiz qarşısında yeni perspektivlər açmaqla mühüm vəzifələr irəli sürmüşdür. İndi dünyanın ən mötəbər kitabxanalarında və əlyazma fondlarında saxlanılan zəngin ədəbiyyatlardan, tarixi mənbələrdən faydalanmaq üçün əlverişli şərait mövcuddur. Məhz bu səbəbdən qədim mənbələrdən istifadə etməyə qadir olan və eləcə də qədim dünya dillərini bilən gənc kadrların yetişdirilməsi zərurəti meydana çıxmışdır.***

***Azərbaycan Milli Elmlər Akademiyasının Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunun ölkəmizdə tarix elminin inkişafında rolunu nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram: 2013–2015-ci illərdə Azərbaycan tarixinə dair tədqiqatların daha da genişləndirilməsi və səmərəliliyinin artırılması üçün Azərbaycan Milli Elmlər Akademiyasına Azərbaycan Respublikasının 2012-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 3,0 (üç) milyon manat ayrılsın".***

AMEA Tarix İnstitutunun Elmi Şurası 2012-ci il 1 may tarixli iclasında ölkə başçısı İlham Əliyevə milli tariximizin inkişafına göstərdiyi qayğı və diqqət üçün müraciət qəbul edərək minnətdarlığını bildirmişdir.

2012-ci il AMEA Tarix İnstitutu üçün bütövlükdə əlamətdar və uğurlu il olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 25 may tarixli 2238 nömrəli Sərəncamı ilə Qarabağın, Naxçıvanın və İrəvan xanlığının tarixinə dair silsilə əsərlərə görə Tarix İnstitutunun aşağıda adları göstərilən 13 əməkdaşına: Yaqub Mikayıl oğlu Mahmudova, Kərim Kərəm oğlu Şükürova,Tofiq Teyyub oğlu Mustafazadəyə, Süleyman Abbas oğlu Məmmədova, Güntəkin Cəmil qızı Nəcəfliyə, Nazim Yusif oğlu Mustafayevə, Göhər Nağı qızı Məmmədovaya, Hacı Nuru oğlu Həsənova, İsrafil Süleyman oğlu Məmmədova, Vidadi Umud oğlu Umudluya, Səidə Müzəffər qızı Hacıyevaya, İradə Malik qızı Məmmədovaya, Nigar Rövşən qızı Gözəlovaya Azərbaycan Respublikasının Dövlət mükafatı verilmişdir. Prezidentimizin bizim alimlərimizin fəaliyyətinə verdiyi belə yüksək qiymət bütün kollektiv üçün də ən əlamətdar hadisə kimi dəyənləndirilə bilər.

İnstitut əməkdaşları 2012-ci ildə "Azərbaycan tarixinin ümumi konsepsiyası" əsas elmi istiqamət üzrə elmi tədqiqat işi aparmış və mühüm nəticələr əldə etmişdilər. Çoxlu sayda arxiv sənədlərindən ibarət toplular, fundamental elmi əsərlər çap olunmuş, onların müxtəlif xarici dillərə tərcüməsi həyata keçirilmiş, xarici ölkələrin arxivlərindən minlərlə sənəd ölkəmizə gətirilərək nəşr olunmuş, sənədli televiziya filmləri çəkilmişdir.

Azərbaycan Respublikasının Prezidenti "Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalının iyirminci ildönümü" haqqında 2012-ci il 9 aprel tarixli 2130 №-li Sərəncam imzalamışdır. Sərəncamın yerinə yetirilməsi ilə bağlı AMEA Tarix İnstitutu 2012-ci il mayın 4-də nəzərdə tutulan bir sıra tədbirlər keçirmişdir. Belə ki, "Şuşa-Pənahabad" (Bakı, 2012) adlı monoqrafiya çapdan çıxmışdır. Monoqrafiyada Azərbaycanın qədim tarixə malik olan şəhər mədəniyyətinin nadir və təkrarsız incilərindən biri olan Şuşa şəhərinin şanlı tarixi keçmişi, unikal memarlıq abidələri, görkəmli şəxsiyyətləri haqqında məlumatla yanaşı, Pənahəli xan Cavanşirin əsasını qoyduğu bu şəhər – qalanın tarixi tədqiq olunmuşdur. Erməni təcavüzkarları XIX yüzilliyin əvvəllərində köçüb gəldikləri Azərbaycan torpaqlarında – İrəvan xanlığının ərazisində, Zəngəzurda və başqa yerlərdə olduğu kimi, Qarabağdakı, o cümlədən Şuşadakı qədim Azərbaycan abidələrini də məhv etdilər. Kitabda şəhərin erməni vandallarının işğalından əvvəlki və işğaldan sonrakı mənzərəsini əks etdirən fotosənədlər öz əksini tapmışdır.

"Azərbaycan xalçaları" ("Abşeron qrupu", "Quba qrupu", "Qazax-Borçalı qrupu", "Gəncə qrupu", "Naxçıvan qrupu" adlı fundamental əsərlər 6 dildə (Azərbaycan, ingilis, rus, fransız, alman, ərəb) nəşr olunmuşdur. Silsilə kitablarda Azərbaycanın ayrı-ayrı bölgələrində xalçaçılıq ənənələrinin özünəməxsus xüsusiyyətləri dərin təhlil, 100-lərlə xalçanın toxunma arealı, milli xüsusiyyətləri geniş tədqiq edilmiş, həmin bölgələrin qədim mədəniyyət və sənətkarlıq tarixinin dərin təhlili verilmişdir. Azərbaycan xalqının qədim sənətkarlıq sahəsi olan xalçaçılıq sənəti özünəməxsus inkişaf yolu keçmiş, milli çalarları qoruyub saxlamışdır.

Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutu Elmi Şurasının qərarı ilə "Mirzə Fətəli Axundzadə - 200" adlı biblioqrafik göstərici çapdan çıxmışdır. Azərbaycan və Yaxın Şərq ədəbiyyatı tarixində silinməz izlər buraxan, realist dramaturgiyamızın və nəsrimizin banisi Mirzə Fətəli Axundzadənin 200 illik yubileyi münasibətilə nəşr olunmuş biblioqrafik göstərici yeddi hissədən

ibarətdir. Biblioqrafik göstərici M.F.Axundzadə irsinin tədqiqatçıları üçün qiymətli vəsaitdir.

2012-ci ildə AMEA Tarix İnstitutunun əməkdaşlarının aşağıdakı arxiv sənədləri topluları nəşr olunmuşdur: "Azərbaycan tarixi arxiv sənədlərində (1920, may – 1922, mart)". II cild. Rusiya Dövlət Sosial-Siyasi Tarix arxivinin sənədləri; "Azərbaycan tarixi arxiv sənədlərində (XVIII–XX əsrin əvvəlləri)". I cild. Rusiya Federasiyası Dağıstan Respublikası Mərkəzi Dövlət Arxivinin sənədləri; "Azərbaycan tarixi arxiv sənədlərində (XIX əsrin sonu – XX əsrin əvvəlləri)". I cild. Britaniya kitabxanasının arxiv sənədləri; "Azərbaycan tarixi arxiv sənədlərində (XVIII–XX əsrin əvvəlləri). II cild. Rusiya Dövlət Hərbi Tarix Arxivinin sənədləri; "Azərbaycan tarixi arxiv sənədlərində (XIX-XX əsrin əvvəlləri)". Rusiya Dövlət Tarix Arxivinin sənədləri. I cild; "Azərbaycan tarixi arxiv sənədlərində (XIX-XX əsrin əvvəlləri)". Rusiya Dövlət Tarix Arxivinin sənədləri. II cild; "Azərbaycan tarixi arxiv sənədlərində (XIX-XX əsrin əvvəlləri)". Rusiya Dövlət Tarix Arxivinin sənədləri. III cild; "Azərbaycan tarixi arxiv sənədlərində (XVIII–XX əsrin əvvəlləri)". Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivinin sənədləri. I cild.

Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutu Haaqa Beynəlxalq Cinayət Məhkəməsinə təqdim olunması məqsədilə ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi soyqırımlarla bağlı apardığı araşdırmalar nəticəsində əldə etdiyi sənədlərin ilk 4 cildini Respublika Prokurorluğuna təqdim edib. Sorqırımla bağlı Haaqa Məhkəməsinə sənədlərin təqdim edilməsini məqbul sayan İnstitutun direktoru qeyd edib ki, artıq ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımla bağlı bir xeyli faktlar, mənbələr əldə edilib: "Bu istiqamətdə iş aparmağımız üçün o qədər də böyük vaxt lazım deyil. İrəvan və onun ətrafındakı yerlər 1918-ci il mayın 29-da ermənilərə veriləndən sonra orada yaranan Ararat Ermənistan Respublikası dövlət olaraq öz ərazisində, yəni bizim keçmiş torpaqlarımızda – İrəvan xanlığının torpağında sorqırımlara başladı. Biz indi o problemi araşdırırıq. Onu araşdırarkən bu problem özünü tamamilə dolğun şəkildə göstərəcək".

İnstitutun vəsaiti hesabına 2012-ci ildə 30-dan artıq monoqrafiya və məqalələr toplusu çapdan çıxmışdır. Lakin qeyd etmək lazımdır ki, İnstitut üçün ayrılmış vəsaitin məhdudluğu aktual elmi əsərlərin vaxtında və geniş tirajla nəşr olunmasına imkan vermir. Buna görə də İnstitut çap işinə köməklik üçün sponsorlara müraciət etməyə məcbur olur. 2012-ci ildə əməkdaşların aşağıdakı elmi əsərləri nəşr olunmuşdur: Y.Oğuz. "Qədim türklər və passionarlıq nəzəriyyəsi"; İ.Ağasiyev. "Qafqazın Alman əhalisi"; S.Əliyeva. "Noqay türkləri (XV–XX əsrlər)"; "Azərbaycan tarixçiləri", II cild; T.H.Nəcəfli. "Qaraqoyunlular və Ağqoyunlular"; N.Ə.Əliyeva. "Əs-Səmaninin "Kitab əl-əriasib" əsəri Azərbaycan mədəniyyət tarixinin öyrənilməsində mənbə kimi"; G.C.Nəcəfli. "XVIII yüzyılda Azerbaycanda ermeni devleti yaratmaq teşebbüsleri". (İstanbul, 2012); E.T.Babayev. "Gəncə xanlığının tarixindən"; N.R.Məmmədov. "Azərbaycan Xankəndi şəhərinin tarixi"; L.Əliyeva. "Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri"; Y.M.Mahmudov və C.M.Mustafayev. "Şuşa-Pənahabad"; Y.M.Mahmudov "Biblioqrafik göstərici"; Y.M.Mahmudov. "Səyyahlar, kəşflər və Azərbaycan"; "Bakı – Abşeron bölgəsinin tarixindən". // "Azərbaycan xalçaları. Bakı qrupu" (K.K.Şükürov, Y.M.Mahmudovla birgə); "Azərbaycanın Quba bölgəsi (Tarixi oçerk)". // "Azərbaycan xalçaları. Quba qrupu" (K.K.Şükürov, Y.M.Mahmudovla birgə); "Azərbaycanın Gəncə bölgəsi (Tarixi oçerk)". // Azərbaycan xalçaları. Gəncə qrupu (K.K.Şükürov, Y.M.Mahmudovla birgə); "Tarixi Azərbaycanın Qazax-Borçalı bölgəsi". // "Azərbaycan xalçaları. Qazax-Borçalı qrupu" (K.K.Şükürov, Y.M.Mahmudovla birgə); "Naxçıvan tarixindən səhifələr". // "Azərbaycan xalçaları. Naxçıvan qrupu". (K.K.Şükürov, Y.M.Mahmudov, İ.Hacıyevlə birgə); "Mirzə Fətəli Axundzadə – 200 (biblioqrafik göstərici)"; AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Əsərləri. "Dərbənd şəhərinin tarixi: Azərbaycan və Dağıstan xalqlarının qardaşlıq və dostluq əlaqələrinin parlaq səhifələri" mövzusunda beynəlxalq elmi konfransın materialları. Xüsusi buraxılış, 2012/40 saylı, Dərbənd şəhərinin 5000 illiyinə həsr olunur; AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Əsərləri. "Azərbaycan–Dağıstan qardaşlıq münasibətləri tarixi,

müasirlik, perspektivlər" mövzusunda Seyid Qurbanovun xatirəsinə həsr olunmuş Beynəlxalq Elmi Konfransın materialları. Xüsusi Buraxılış. Bundan əlavə, İnstitut əməkdaşlarının nüfuzlu elmi jurnallarda 150-dən artıq məqaləsi (o cümlədən 50 – xaricdə) dərc olunmuşdur.

2012-ci il noyabrın 23-də AMEA-nın əsas binasında "İrəvan xanlığı" sənədli televiziya filminin təqdimatı olmuşdur. "İrəvan xanlığı" sənədli televiziya filmində İrəvan qalasının rus işğalçılarına qarşı rəşadətli mübarizəsindən də bəhs olunur. Filmin rəhbəri və məsləhətçisi AMEA-nın müxbir üzvü Yaqub Mahmudov, icraçı isə Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar cəmiyyətisdir.

Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutu beynəlxalq elmi mükafata layiq görülmüşdür. 2012-ci il oktyabrın 26-da Oksford sammitində Beynəlxalq Sokrat Komitəsi tərəfindən AMEA-nın Tarix İnstitutu elmi tədqiqat fəaliyyətinə görə ən yaxşı müəssisə – "Best Enterprises – 2012" diplomuna layiq görülmüşdür. Sammitdə qeyd olunub ki, AMEA Tarix İnstitutu öz fəaliyyət sahəsində Cənubi Qafqazda ən aparıcı elmi müəssisələrdən biridir. Avropa Biznes Assambleyasının Sosial Tərəfdaşlıq Cəmiyyəti, Böyük Britaniya və Şimali İrlandiya Patent İdarəsi tərəfindən AMEA Tarix İnstitutuna marketinq məqsədləri üçün 5 illik (20.10.2012 – 20.10.2017) "Best Enterprise" lisenziyası da verilmişdir.

2012-ci il iyulun 12-də Dublin Sammitində (Dublin, İrlandiya) bu sətirlərin müəllifinə Beynəlxalq Sokrat Komitəsinin "The Name in Science" ("Elmdə ad") fəxri titulu verilmişdir.

AMEA Rəyasət Heyəti tərəfindən 2013-cü il mayın 2-də "Azərbaycanşünaslığın aktual problemləri" mövzusunda keçirilən beynəlxalq elmi konfransda Tarix İnstitutunun nəşr etdiyi "Heydər Əliyev: Azərbaycan elminin keşiyində" adlı ikicildlik sənədlər toplusu təşkil olunan sərgidə nümayiş etdirilmişdir. Bu işin davamı olaraq Tarix İnstitutu Ümummilli liderin həyat və fəaliyyətinə həsr edilmiş ikicildlik "Heydər Əliyev" fundamental monoqrafiyasının elmi redaktəsini başa çatdıraraq çapa təqdim etmiş və əsər 2013-cü ildə nəşr olunmuşdur: 1. "Heydər Əliyev". İki cilddə, I cild. Bakı, 2013, 500 s.; 2. "Heydər Əliyev". İki cilddə, II cild. Bakı, 2013, 704 s. Bu funda-

mental elmi araşdırmanın I cildi Ümummilli lider Heydər Əliyevin ömür yolunun Azərbaycan SSR-in dövlət təhlükəsizliyi orqanlarındakı fəaliyyəti, Azərbaycan SSR-ə rəhbərliyi və SSRİ-nin ali rəhbərliyindəki fəaliyyəti dövrlərini əhatə edir. Cild 9 fəsli əhatə edən 3 bölmədən ibarətdir. Əsərin II cildi Ulu Öndərin ömür yolunun müstəqillik dövrünü əhatə edir. Bu cild "Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti" adlı giriş məqaləsi və 8 fəsli əhatə edən 2 bölmədən ibarətdir. "Heydər Əliyev" ikicildliyi ölkəmizin tarixində Ulu Öndərə həsr olunmuş ilk akademik araşdırmadır. Geniş tərkibli mütəxəssis-müəlliflər heyəti tərəfindən yazılmış bu əsərdə dahi Heydər Əliyev şəxsiyyətinin ömür yolu dövrləşdirilir, hər bir dövrə dair arxiv materialları elmi dövriyyəyə daxil edilir, müvafiq elmi-nəzəri ümumiləşdirmələr aparılır. Əsər müasir mərhələdə Heydər Əliyev inkişaf strategiyasının uğurlu davamı ilə yekunlaşdırılır.

Tarix İnstitutunun çap etdirdiyi "Heydər Əliyev" ikicildliyi nəşri ölkə miqyasında elmi-tarixi hadisə sayılmağa layiqdir. Bu nəşrlərdən əlavə, Tarix İnstitutunun rəhbərliyinin iştirakı Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş "Dahi Azərbaycanlı" adlı sənədli film çəkilmişdir. Film Azərbaycan Televiziyasının "Azərbaycan Telefilm" yaradıcılıq birliyində istehsal olunmuşdur. "Dahi Azərbaycanlı" sənədli filminə Heydər Əliyevin ömür yolunu əks etdirən yeni materiallar, xüsusilə Ulu Öndərin fəaliyyətinin Naxçıvan dövrünü, o cümlədən gənclik illərini əks etdirən maraqlı faktlar daxil edilmişdir.

Tarix İnstitutunda ənənəvi olaraq şəhərlər tarixi tədqiq olunur. Belə ki, İnstitutun əməkdaşları ikicildlik "Naxçıvan tarixi" monoqrafiyası üzrə işi başa çatdırmış, xəritələr müəyyən edilərək Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən ayrılmış vəsait hesabına 2013-cü ilin sonunda çapa tam şəkildə təqdim etmişlər. İkicildlik monoqrafiyada Naxçıvanın ən qədim dövrlərindən başlayaraq bu günədək sosial-iqtisadi, siyasi və mədəniyyət tarixi zəngin arxiv sənədləri və mövcud elmi ədəbiyyat əsasında dərindən araşdırılmışdır. Təqdim olunan nəşrdə yeni aşkar edilmiş zəngin arxiv materiallarından və çoxsaylı nadir şəkillərdən istifadə olunmuşdur.

2013-cü ildə "Qubadlı: Azərbaycan torpağı Zəngəzurun qapısı" adlı monoqrafiya çapdan çıxmışdır (Azərbaycan, rus, ingilis dillərində). Monoqrafiya qədim Azərbaycan torpağı Zəngəzurun ayrılmaz tərkib hissəsi olan Qubadlı rayonunun tarixinə həsr olunmuşdur. Əsər ən qədim zamanlardan yaşadığımız günlərədək Qubadlı tarixini əhatə edir. Kollektiv əməyin məhsulu olan bu kitabda Qubadlının qəhrəman oğullarının erməni işğalçılarına qarşı mübarizəsinə, erməni təcavüzkarlarının rayon ərazisində törətdikləri dağıntılar və vəhşiliklərə dair faktlara geniş yer ayrılmışdır.

2013-cü il martın 29-da Quba şəhərindəki Heydər Əliyev Mərkəzində AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu və Quba Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Azərbaycan xalqına qarşı 1918–1920-ci illər soyqırımı" mövzusunda beynəlxalq elmi konfrans keçirilmişdir. Konfransda iştirak edən xarici ölkələrin nümayəndələri ermənilərin törətdikləri bu cür soyqırımların bəşəriyyətə qarşı cinayət olduğunu, bu istiqamətdə elmi əsərlərin yazılması və müxtəlif dillərə tərcümə olunmasının zəruriliyini bildirmişlər. Konfransda xalqımıza qarşı ermənilər tərəfindən törədilən soyqırımlarla bağlı sənədlərin dünya ictimaiyyətinə çatdırılması üçün daha çox işlərin görülməli olduğu, sosial şəbəkələrdə təbliğatın genişləndirilməsinin vacibliyi vurğulanmışdır.

Təbii ki, Azərbaycan tarix elmi qarşısında duran fundamental elmi problemlər çoxdur və onların həlli müəyyən vaxt tələb edir. Bu problemlər içərisində milli tariximizin dövrləşdirilməsi, Azərbaycan ərazisində yayılmış müxtəlif dinlərin, ilk növbədə, islam dininin, Azərbaycanın beynəlxalq əlaqələrinin tədqiqi, Azərbaycanın tarixi coğrafiyasının yazılması və tarixi xəritələrin tərtibi, Qərbi Azərbaycan, o cümlədən İrəvan xanlığının, Cənubi Azərbaycan, Borçalı mahalı və Naxçıvan diyarının tarixinin, XVIII–XX əsrlərdə azərbaycanlılara qarşı deportasiya, etnik təmizləmə və soyqırımı siyasəti, qədim zamanlardan bu günə qədər Qarabağın və Azərbaycanın şimal-qərb bölgələrinin tarixinin araşdırılması, orta məktəblər üçün yüksək səviyyəli tarix dərsliklərinin yazılması, ümumilikdə, tarix elmi qarşısında duran ən aktual məsələlərdəndir.

Bütün bunlar ötən dövr ərzində ölkəmizdə yüksək səviyyəli akademik bir məktəbin yarandığını təsdiq edir. Respublikamızın ən tanınmış və məşhur tarixçiləri, arxeoloqları, etnoqrafları, şərqşünasları məhz Tarix İnstitutunda çalışmışlar. Onlar Azərbaycan tarixinə dair elmi–tədqiqat işləri aparmaqla yanaşı, ümumən, qafqazşünaslıq, şərqşünaslıq və dünya xalqlarının elmi və mədəni tərəqqisi məsələlərini əhatə edən bir sıra mühüm problemlərin araşdırılmasında Azərbaycan elminin aparıcı qüvvələri olmuşlar. Azərbaycan alimlərinin əməyi nəticəsində sovet imperiyası dövründə xalqımıza qarşı ərazi iddiaları ilə çıxış edən erməni millətçilərinin təcavüzkar niyyətləri ifşa edilmişdir. Bu nöqteyi-nəzərdən hazırda Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, işğal olunmuş və hələ sovet hakimiyyəti dövründə zorla ermənilərə verilmiş torpaqlarımızın geri qaytarılması üçün tarixçi alimlərin qarşısında çox böyük vəzifələr durur.

Tarix elmi çox böyük gücə malik bir silahdır, bu silahdan xalqımızın əbədi azadlığının, tarixi ərazi bütövlüyünün və dövlət müstəqilliyinin təmin edilməsi üçün maksimum dərəcədə istifadə olunmalıdır. AMEA Tarix İnstitutu bu vəzifələrin yerinə yetirilməsi yolunda xüsusi yeri olan bir elmi təşkilatdır. Tarix İnstitutunda aparılan geniş tədqiqat işləri Azərbaycan xalqının milli oyanışında, xalqımızın azərbaycançılıq ideyaları ətrafında daha sıx birləşməsində və milli dövlətçilik ənənələrinin möhkəmləndirilməsində mühüm rol oynayır. Aparılan böyük əməyin nəticəsidir ki, bu gün AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu Azərbaycanda tarix elminin başlıca qurumuna, milli ideologiyanın formalaşdığı mərkəzlərdən birinə çevrilmişdir. Onu da xüsusi qeyd etmək lazımdır ki, tarix elmi sahəsində görülən bütün bu böyük işlər ölkə Prezidenti İlham Əliyevin göstərişləri, çağırış və tövsiyələri əsasında həyata keçirilir.

XXI əsrlə dünyada yeni era başlamışdır. Hər bir elm sahəsində olduğu kimi, tarix elmi sahəsində də yeniləşmə prosesinin reallığa çevriləcəyi şəksizdir. Şübhə yoxdur ki, bütün zamanlarda sınaqlardan uğurla çıxan Azərbaycan tarix elmi yeni eranın sınaqlarından da zəfərlə çıxacaqdır.

# NƏTİCƏ

İlham Əliyevin prezident sükanı arxasına keçməsindən tarixən o qədər də çox vaxt keçməyib. 2003-cü il seçkilərindən keçən zaman kəsiyi ərzində Azərbaycan Prezidenti nəinki öz ölkəsini sürətlə və iri addımlarla irəli apardı, eyni zamanda onun özü də bu mürəkkəb, keşməkeşli dünyanın ən seçilib-sayılan, sözü keçən görkəmli dövlət xadimi kimi böyük nüfuz qazandı.

Bu gün Azərbaycan xalqı haqlı qürur hissi keçirir ki, onun prezidenti dünyanın hər yerində öz ölkəsinə, doğma xalqına böyük hörmət və nüfuz qazandırır, Vətənimiz uğur dalınca uğura qovuşur, ölkə başçısı doğma xalqının, el-obasının qayğıları ilə yaşayır. 2003-cü ildə dünyanın ən gənc prezidentlərindən biri kimi fəaliyyətə başlayan İlham Əliyev Azərbaycan kimi çox mühüm geosiyasi mövqeyə və əhəmiyyətə malik olan, qlobal maraqların və ziddiyyətlərin kəsişdiyi məkanda yerləşən bir ölkəyə başçılıq edir.

Prezident İlham Əliyev, hər şeydən əvvəl, çoxlarına nəsib olmayan nadir bir siyasi məktəbin – dahi Heydər Əliyev dövlət idarəçiliyi məktəbinin yetirməsidir. Bu məktəbdə o, dahi siyasətçidən məğlubedilməzlik dərsi almış, onun siyasət dünyasının bütün incəliklərinə yiyələnmiş, eyni zamanda atasına qarşı baş vermiş haqsızlıqlar, təqiblər və xəyanətlərin də şahidi olmuşdur. Təkcə şahidi olmaqla qalmayıb, çox gənc yaşlarından dahi rəhbərin üzləşdiyi haqsızlıqlara, xəyanətlərə qarşı mübarizəyə qalxmış, doğma xalqına xidmət etmək üçün atası ilə birlikdə çiyin-çiyinə addımlamış, şərəfli mübarizə yolu keçmişdir.

Biz bütün ötən illər ərzində Prezident İlham Əliyevin başçılığı altında əzmlə, sarsılmadan, səndələmədən, necə deyərlər, düşmənləri sevindirmədən Heydər Əliyevin qoyduğu yolla getdik və uğurdan-uğura qovuşduq. Bir sözlə, Heydər Əliyevsiz yaşadığımız ötən illər ərzində Heydər Əliyev siyasətinin yeni-yeni qələbələrinin şahidi olduq, ağır sınaqlardan üzüağ çıxdıq! Dünya gördü ki, Azərbaycanda

Heydər Əliyev zamanında olduğu kimi, yenə qüvvətli siyasi rəhbərlik var, ölkədə yenə sabitlikdir, əmin-amanlıqdır, bu ölkə ilə əməkdaşlığı davam etdirmək olar!

İlham Əliyevin xarici siyasəti müdriklik, qətiyyət, cəsarət və milli maraqlara sədaqət nümunəsidir. Azərbaycanın dövlət başçısı xalqın iradəsini ifadə edərək özünün bu haqlı və prinsipial mövqeyini keçirdiyi bütün yüksək səviyyəli görüşlərdə, iştirak və çıxış etdiyi bütün beynəlxalq məclislərdə dönmədən bütün kəskinliyi ilə bəyan edir, dünyada gedən ikili standart oyunlarını cəsarətlə tənqid edir.

Tarixçi Prezident bütün dünyaya bəyan edir ki, ermənilər Cənubi Qafqaza XIX əsrin əvvəllərindən başlayaraq köçürülüb gətirilmişlər. Bu gün Ermənistan Respublikası adlanan dövlətin yerləşdiyi ərazi də tarixi Azərbaycan torpaqlarıdır, keçmiş İrəvan xanlığının ərazisidir, bizim ərazimizdir. Biz ermənilərə öz torpaqlarımızda ikinci erməni dövləti yaratmağa imkan verməyəcəyik. İlham Əliyevin xarici və daxili siyasəti, həyata keçirdiyi bütün islahatlar, gördüyü böyük quruculuq və abadlıq işləri onun yaradıcı, yenilikçi və qurucu Prezident olmasının parlaq təzahürləridir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan xalqının tarixi keçmişinə xüsusi qayğı və diqqət göstərir. İstər elmi tədqiqatların aparılması, istərsə də Azərbaycanın tarixi abidələrinin bərpası və qorunması istiqamətində böyük dövlət qayğısı Azərbaycan tarixçisinə tariximizi obyektiv, hərtərəfli araşdırmaq imkanı vermişdir. Hər zaman dövlətin və Prezidentin qayğısını görən tarixçilərimizin ən ümdə vəzifəsi də – Ulu Öndər Heydər Əliyevin Tariximizin Dirçəliş Konsepsiyasını və Prezident İlham Əliyevin bu konsepsiya çərçivəsində tapşırıqlarını əsas tutaraq Azərbaycan tarixini tədqiq və təbliğ etməkdir!

İlham Əliyev "Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutu ölkəmizdə tarix üzrə araşdırmaların mərkəzidir" deyərək, Tarix İnstitutuna çox yüksək qiymət vermişdir. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Mil-

li Elmlər Akademiyasının Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında" sərəncamı ölkənin bütün elmi ictimaiyyəti və ilk növbədə, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun kollektivi tərəfindən çox böyük sevinc və minnətdarlıq hissi ilə qarşılanmışdır. 26 aprel 2012-ci il tarixdə imzalanmış bu mühüm sənəd Azərbaycan milli tarix elminin gələcək inkişafı üçün xüsusi əhəmiyyət kəsb edir. Tarixi keçmişimizə dair elmi axtarışların daha da genişləndirilməsinə və təbliğinə böyük imkanlar açan bu sənəddə Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun ölkəmizdə tarix üzrə araşdırmaların mərkəzi olduğu qeyd edilir, bu elm ocağının milli tariximizin ən aktual problemlərinin müasir dövrün tələblərinə uyğun və azərbaycançılıq məfkurəsi işığında öyrənilməsi baxımından xüsusi rol oynadığı göstərilir.

Azərbaycan Prezidentinin çağırışları, tövsiyə və tapşırıqları ilə AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu son illərdə "Qarabağ: real tarix, faktlar və sənədlər", "Naxçıvan: tarixi və abidələri", "Azərbaycan tarixi atlası", "Kürəkçay-200", "Tarixi adlara qarşı soyqırım", "Ermənilərin Azərbaycan torpağında törətdiyi cinayətlərə dair", dörd kitabdan ibarət üçcildlik, "Azərbaycan xalqına qarşı 1918–1920-ci illər soyqırımı. Sənədlər toplusu", "İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi", "Şimal-Qərbi Azərbaycan tarixi", "Azərbaycan xalçaları. İrəvan qrupu", "Azərbaycan xalçaları. Qarabağ qrupu", "Azərbaycan xalçaları. Naxçıvan qrupu", "Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə", "Şuşa-Pənahabad", Ulu Öndərin həyat və fəaliyyətinin tədqiqinə həsr edilmiş ikicildlik "Heydər Əliyev" fundamental monoqrafiyası və digər çoxsaylı fundamental əsərlər hazırlayıb nəşr etdirmişdir.

Tarix İnstitutunun kollektivi milli tariximizin obyektiv elmi tədqiqini təmin etmək məqsədilə "Azərbaycan tarixi ilk mənbələrdə" layihəsini həyata keçirir. Həmin layihəyə uyğun olaraq dünya ölkələrinin arxiv və kitabxanalarında saxlanılan sənədlər və ilk mən-

bələr Azərbaycana gətirilərək elmi dövriyyəyə daxil edilir. Paris, London, Sankt-Peterburq, Moskva, Dehli, Ankara, İstanbul, Tiflis, Həştərxan və digər şəhərlərin arxivlərində saxlanılan Azərbaycan tarixinə aid materialların mühüm bir hissəsi institutumuza gətirilmiş və nəşr olunmuşdur.

Əməyimizə yüksək qiymət bizi – Akademiyanın Tarix İnstitutunun əməkdaşlarını yeni axtarışlara ruhlandırır. Azərbaycan Respublikası Prezidenti 2011-ci il aprelin 26-da AMEA-nın illik hesabat yığıncağındakı çıxışında institutumuzun fəaliyyətinə çox yüksək qiymət vermişdir: ***"Tarix elmləri ilə bağlı olan məsələlər daim diqqət mərkəzindədir. Biz bu məsələyə çox böyük diqqət göstəririk. Mən çox şadam ki, tarixçilərimiz çox sanballı və əsaslı əsərlər yaradırlar. Xüsusilə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin mövcudluğu bizə diktə edir ki, bu sahəyə daha da böyük diqqət göstərək. Çünki bu bölgənin tarixi ermənilər tərəfindən daim saxtalaşdırılır, daim təhrif olunur. Şadam ki, alimlərimiz mənim çağırışıma müsbət cavab verərək qısa müddət ərzində bu bölgənin tarixi ilə bağlı çox gözəl və real faktlara əsaslanmış əsərlər yaratmışlar. Başlıcası, İrəvan xanlığının tarixi ilə bağlı yaradılmış əsərlər xüsusi məna daşıyır. Çünki, əfsuslar olsun ki, dünya birliyi, demək olar, bilmirdi ki, bugünkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranmışdır".***

Ölkə başçısı respublikanın müxtəlif rayonlarına və o cümlədən cəbhə bölgələrinə səfərləri zamanı yerli ictimaiyyətin nümayəndələri ilə keçirilən görüşlərdə də tarixçilərin yazdıqları əsərlərin erməni faşizminə qarşı informasiya mübarizəsində mühüm rol oynadığını qeyd etmişdir. Əməyimizə verilən bu yüksək qiymət bizi daim yeni axtarışlara ruhlandırır.

Azərbaycan Respublikası Prezidentinin 26 aprel 2012-ci il tarixli Sərəncamı Tarix İnstitutunun kollektivi qarşısında yeni üfüqlər açır. Sərəncamda qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi nəticəsində alimlərimizin sosial vəziyyəti daha da yaxşılaşacaq. Eyni zamanda tarixi tədqiqatların miqyası genişlənəcək və onların səmə-

rəsi artacaq, tarixçilərin yaratdıqları sanballı araşdırmaların Azərbaycan dilində və xarici dillərdə kütləvi tirajla nəşr olunaraq ölkəmizdə və xaricdə yayılmasına, qədim dilləri bilən mütəxəssislərin yetişdirilməsinə, xarici ölkələrdə saxlanılan ilk mənbə və arxiv sənədlərinin ölkəyə gətirilməsinə geniş imkanlar yaradacaqdır.

Azərbaycan tarixçisi milli tariximizin inkişafına göstərdiyi qayğı və diqqətə görə Prezident İlham Əliyevə minnətdardır və əmindir ki, Azərbaycanın Qurucu Prezidenti ölkəmizin tarixinə, həm də Qarabağı erməni təcavüzkarlarından azad edən Xilaskar Prezident kimi daxil olacaq!

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

## Mənbələr


- **Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Məktublar. Müsahibələr. I c. İyun, 1993 – may, 1994/ Red.: Ramiz Mehdiyev, Hidayət Orucov. – Bakı: Azərnəşr, 1997. – 612 s.
- **Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Məktublar. Müsahibələr. II c. May, 1994 – dekabr, 1994 /Red.: Ramiz Mehdiyev, Hidayət Orucov. – Bakı: Azərnəşr, 1997. – 604 s.
- **Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Məktublar. Müsahibələr. III c. Dekabr, 1994 – iyun, 1995/ Red.: Ramiz Mehdiyev, Hidayət Orucov. – Bakı: Azərnəşr, 1997. – 488 s.
- **Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Məktublar. Müsahibələr. IV c. İyun, 1995 – noyabr, 1995/ Red.: Ramiz Mehdiyev, Hidayət Orucov. – Bakı: Azərnəşr, 1997. – 488 s.
- **Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Məktublar. Müsahibələr. V c. Dekabr, 1995 – aprel, 1995/ /Red.: Ramiz Mehdiyev. – Bakı: Azərnəşr, 1998. – 500 s.
- **Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Məktublar. Müsahibələr. VI c. Mart, 1996 – iyun, 1996/ /Red.: Ramiz Mehdiyev. – Bakı: Azərnəşr, 1998. – 512 s.
- **Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Məktublar. Müsahibələr. VII c. İyun, 1996 – noyabr, 1996 /Red.: Ramiz Mehdiyev. – Bakı: Azərnəşr, 1998. – 520 s.
- **Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Məktublar. Müsahibələr. VIII c. Noyabr, 1996 – mart, 1997 /Red.: Ramiz Mehdiyev. – Bakı: Azərnəşr, 1998. – 488 s.

▪ **Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məruzələr. Məktublar. Müraciətlər. IX c. Mart, 1997 – may, 1997 /Red.: Ramiz Mehdiyev. – Bakı: Azərnəşr, 1998. – 466 s.

▪ **Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məruzələr. Məktublar. Müraciətlər. X c. May, 1997 – iyul, 1997 /Red.: Ramiz Mehdiyev. – Bakı: Azərnəşr, 2002. – 466 s.

▪ **Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məruzələr. Məktublar. Müraciətlər. XI c. İyul, 1997 – avqust, 1997 /Red.: Ramiz Mehdiyev. – Bakı: Azərnəşr, 2003. – 452 s.

▪ **Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məruzələr. Məktublar. Müraciətlər. XII c. Avqust, 1997 – oktyabr, 1997 /Red.: Ramiz Mehdiyev. – Bakı: Azərnəşr, 2004. – 432 s.

▪ **Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məruzələr. Məktublar. Müraciətlər. XIII c. Oktyabr, 1997 – dekabr, 1997 /Red.: Ramiz Mehdiyev. – Bakı: Azərnəşr, 2004. – 520 s.

▪ **Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məruzələr. Məktublar. Müraciətlər. XIV c. Dekabr, 1997 – fevral, 1998 /Red.: Ramiz Mehdiyev. – Bakı: Azərnəşr, 2005. – 520 s.

▪ **Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məruzələr. Məktublar. Müraciətlər. XV c. Mart, 1998 – iyun, 1998 /Red.: Ramiz Mehdiyev. – Bakı: Azərnəşr, 2005. – 528 s.

▪ **Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məruzələr. Məktublar. Müraciətlər. XVI c. İyun, 1998 – iyul, 1998 /Red.: Ramiz Mehdiyev. – Bakı: Azərnəşr, 2005. – 552 s.

▪ **Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məruzələr. Məktublar. Müraciətlər. XVII c. İyul, 1998 – oktyabr, 1998 /Red.: Ramiz Mehdiyev. – Bakı: Azərnəşr, 2006. – 528 s.

▪ **Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məruzələr. Məktublar. Müraciətlər. XVIII c. Oktyabr, 1998 – dekabr, 1998 /Red.: Ramiz Mehdiyev. – Bakı: Azərnəşr, 2006. – 552 s.

▪ **Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məruzələr. Məktublar. Müraciətlər. XIX c. Yanvar, 1999 – aprel, 1999 /Red.: Ramiz Mehdiyev. – Bakı: Azərnəşr, 2006. – 528 s.

▪ **Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məruzələr. Məktublar. Müraciətlər. XX c. Aprel, 1999 – iyul, 1999 /Red.: Ramiz Mehdiyev. – Bakı: Azərnəşr, 2007. – 536 s.

▪ **Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məruzələr. Məktublar. Müraciətlər. XXI c. İyul, 1999 – sentyabr, 1998 /Red.: Ramiz Mehdiyev. – Bakı: Azərnəşr, 2007. – 480 s.

▪ **Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məruzələr. Məktublar. Müraciətlər. XXII c. Sentyabr – 1999 – noyabr, 1999 /Red.: Ramiz Mehdiyev. – Bakı: Azərnəşr, 2007. – 528 s.

▪ **Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məruzələr. Məktublar. Müraciətlər. XXIII c. Noyabr, 1999 – dekabr, 1999 /Red.: Ramiz Mehdiyev. – Bakı: Azərnəşr, 2008. – 480 s.

▪ **Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məruzələr. Məktublar. Müraciətlər. XXIV c. Dekabr, 1999 – fevral, 2000 /Red.: Ramiz Mehdiyev. – Bakı: Azərnəşr, 2008. – 504 s.

▪ **Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məruzələr. Məktublar. Müraciətlər. XXV c. Fevral, 2000 – mart, 2000 /Red.: Ramiz Mehdiyev. – Bakı: Azərnəşr, 2008. – 520 s.

▪ **Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məruzələr. Məktublar. Müraciətlər. XXVI c. Mart, 2000 – aprel, 2000 /Red.: Ramiz Mehdiyev. – Bakı: Azərnəşr, 2008. – 512 s.

▪ **Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məruzələr. Məktublar. Müraciətlər. XXVII c. Aprel, 2000 – iyun, 2000 /Red.: Ramiz Mehdiyev. – Bakı: Azərnəşr, 2008. – 496 s.

▪ **Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məruzələr. Məktublar. Müraciətlər. XXVIII c. İyun, 2000 – iyul, 2000 /Red.: Ramiz Mehdiyev. – Bakı: Azərnəşr, 2008. – 480 s.

▪ **Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məruzələr. Məktublar. Müraciətlər. XXIX c. İyul, 2000 – sentyabr, 2000 /Red.: Ramiz Mehdiyev. – Bakı: Azərnəşr, 2008. – 520 s.

▪ **Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məruzələr. Məktublar. Müraciətlər. XXX c. Sentyabr, 2000 – noyabr, 2000 /Red.: Ramiz Mehdiyev. – Bakı: Azərnəşr, 2008. – 512 s.

▪ **Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məruzələr. Məktublar. Müraciətlər. Fərmanlar. XXXI c. Noyabr, 2000 – yanvar, 2001 /Red.: Ramiz Mehdiyev. – Bakı: Azərnəşr, 2010. – 512 s.

▪ **Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məruzələr. Məktublar. Müraciətlər. Fərmanlar. XXXII c. Yanvar, 2001 – mart, 2001 /Red.: Ramiz Mehdiyev. – Bakı: Azərnəşr, 2010. – 512 s.

▪ **İlham Əliyev.** İnkişaf məqsədimizdir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məktublar. Müraciətlər. Fərmanlar. I c. Avqust, 2003 – oktyabr, 2003 /Red.: Ramiz Mehdiyev. – Bakı: Azərnəşr. 2008. – 424 s.

▪ **İlham Əliyev.** İnkişaf məqsədimizdir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məktublar. Müraciətlər. Fərmanlar. II c. Oktyabr, 2003 – fevral, 2004 /Red.: Ramiz Mehdiyev. – Bakı: Azərnəşr. 2009. – 432 s.

▪ **İlham Əliyev.** İnkişaf məqsədimizdir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məktublar. Müraciətlər. Fərmanlar. III c. Fevral, 2004 – aprel, 2004 /Red.: Ramiz Mehdiyev. – Bakı: Azərnəşr. 2008. – 416 s.

▪ **İlham Əliyev.** İnkişaf məqsədimizdir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məktublar. Müraciətlər. Fərmanlar. IV c. Aprel, 2004 – iyun, 2004 /Red. Ramiz Mehdiyev. – Bakı: Azərnəşr. 2008. – 400 s.

▪ **İlham Əliyev.** İnkişaf məqsədimizdir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məktublar. Müraciətlər. Fərmanlar. V c. İyun, 2004 – avqust, 2004 /Red. Ramiz Mehdiyev. – Bakı: Azərnəşr. 2010. – 392 s.

▪ **İlham Əliyev.** İnkişaf məqsədimizdir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məktublar. Müraciətlər. Fərmanlar. VI c. Sentyabr, 2004 – oktyabr, 2004 /Red. Ramiz Mehdiyev. – Bakı: Azərnəşr. 2011. – 416 s.

▪ **İlham Əliyev.** İnkişaf məqsədimizdir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məktublar. Müraciətlər. Fərmanlar. VII c. Noyabr, 2004 – yanvar, 2005 /Red. Ramiz Mehdiyev. – Bakı: Azərnəşr. 2011. – 408 s.

▪ **İlham Əliyev.** İnkişaf məqsədimizdir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məktublar. Müraciətlər. Fərmanlar. VIII c. Yanvar, 2005 – mart, 2005 /Red. Ramiz Mehdiyev. – Bakı: Azərnəşr. 2011. – 408 s.

▪ **İlham Əliyev.** İnkişaf məqsədimizdir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məktublar. Müraciətlər. Fərmanlar. IX c. Mart, 2005 – may 2005, /Red. Ramiz Mehdiyev. – Bakı: Azərnəşr. 2012. – 408 s.

▪ **İlham Əliyev.** İnkişaf məqsədimizdir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məktublar. Müraciətlər. Fərmanlar. X c. May, 2005 – iyun 2005 /Red. Ramiz Mehdiyev. – Bakı: Azərnəşr. 2012. – 408 s.

▪ **İlham Əliyev.** İnkişaf məqsədimizdir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məktublar. Müraciətlər. Fərmanlar. XI c. İyul, 2005 – avqust, 2005 /Red. Ramiz Mehdiyev. – Bakı: Azərnəşr. 2012. – 408 s.

▪ **İlham Əliyev.** İnkişaf məqsədimizdir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məktublar. Müraciətlər. Fərmanlar. XII c. Avqust, 2005 – sentyabr, 2005 /Red. Ramiz Mehdiyev. – Bakı: Azərnəşr. 2013. – 400 s.

▪ **İlham Əliyev.** İnkişaf məqsədimizdir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məktublar. Müraciətlər. Fərmanlar. XIII c. Sentyabr 2005 – oktyabr 2005 /Red. Ramiz Mehdiyev. – Bakı: Azərnəşr. 2013. – 408 s.

▪ **İlham Əliyev.** İnkişaf məqsədimizdir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məktublar. Müraciətlər. Fərmanlar. XIV c. Oktyabr, 2005 – dekabr, 2005 /Red. Ramiz Mehdiyev. – Bakı: Azərnəşr. 2013. – 400 s.

▪ **İlham Əliyev.** İnkişaf məqsədimizdir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məktublar. Müraciətlər. Fərmanlar. XV c. Dekabr, 2005 – mart, 2006 /Red. Ramiz Mehdiyev. – Bakı: Azərnəşr. 2014. – 384 s.

## Müəllifin Heydər Əliyev, İlham Əliyev, Azadlıq hərəkatı və Tariximizin müstəqillik dövrünə aid yazıları

- **Ata yurdu (1-ci hissə).** – Bakı, 1997-ci il.
- **Ata yurdu (2-ci hissə).** – Bakı, 1997-ci il.
- **Ata yurdu (3-cü hissə).** – Bakı, 1998-ci il.
- **Ata yurdu (4-cü hissə).** – Bakı, 1998-ci il.
- **Ata yurdu.** Dərslik. – Bakı, «Təhsil» nəşriyyatı, 1998; 1999; 2001; 2002.
- **Ata yurdumuzun Atatürkü.** – «*Dirçəliş. XXI əsr*» jurnalı, Bakı, iyun 2002-ci il, № 52. səh.46–54.
- **Ata yurdumuzun Atatürkünə** // «*Azərbaycan*» qəzeti, 2003. – 14 dekabr; «*Respublika*» qəzeti, 2003, 14 dekabr; «*Xalq qəzeti*» qəzeti, 2003, 14 dekabr; "Səs" qəzeti, 2003, 14 dekabr.
- **Azərbaycan dövlətçiliyi İslam dininin qəbulundan sonrakı dövrdə.** – «*Dirçəliş. XXI əsr*» jurnalı. – Bakı, fevral 2002-ci il, № 48, səh. 59–70.
- **Azərbaycan dövlətçiliyinin xilaskarı**. – Bakı, 1998-ci il, səh.1–45.
- **Azərbaycan Xalq Cümhuriyyəti – Şərqdə ilk parlamentli respublika (1918-ci il, may – 1920-ci il, aprel).** – «*Dirçəliş. XXI əsr*» jurnalı, Bakı, mart 2002-ci il, № 49, səh. 111–125.
- **Azərbaycan xalqının dünyaya bəxş etdiyi dahi siyasətçi (Heydər Əliyev haqqında)** // "Sara Xatun" jurnalı, – 2003, №3. – səh. 6-11.
- **Azərbaycan Prezidenti Heydər Əliyevə «Atatürk beynəlxalq sülh mükafatı» təqdim olundu.** – «*Bakı Universiteti*» qəzeti, Bakı, 26 noyabr 1999-cu il, № 08 (1339).
- **Azərbaycan Respublikası 1991–2001.** – Bakı, 2001-ci il, səh. 1–280. Həmmüəllif.
- **Azərbaycan Respublikasının prezidenti, zati-aliləri Heydər Əliyevə. Vətəndaş etirafı.** – «*Respublika*» qəzeti, Bakı, 2 mart 1999-cu il, № 43 (507); «*Xalq qəzeti*», Bakı, 2 mart 1999-cu il, № 55 (23108); «*Azərbaycan*» qəzeti, Bakı, 2 mart 1999-cu il, № 48 (2161).

▪ **Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti** /Elmi red.: Ə.M.Həsənov. – Bakı: Təhsil, 2002.

▪ **Azərbaycanın dövlətçilik tarixinə ümumi bir baxış: birinci məqalə. Ən qədim zamanlardan İslam dininin qəbuluna qədərki dövrdə Azərbaycan dövlətçiliyi**. – *Bakı Universitetinin xəbərləri.* Humanitar elmlər seriyası. № 1, 2001, səh. 57–65.

▪ **Azərbaycanın dövlətçilik tarixinə ümumi bir baxış: ikinci məqalə. Azərbaycan dövlətçiliyi İslam dininin qəbulundan sonrakı dövrdə. –** *Bakı Universitetinin xəbərləri.* Humanitar elmlər seriyası. № 2, 2001-ci il, səh.68–75.

▪ **Azərbaycanın dövlətçilik tarixinə ümumi bir baxış: üçüncü məqalə. Azərbaycan Xalq Cümhuriyyəti–Şərqdə ilk parlamentli respublika (1918-ci il, may – 1920-ci il, aprel).** – *Bakı Universitetinin Xəbərləri.* Humanitar elmlər seriyası. № 3, 2001-ci il, səh. 108–121.

▪ **Azərbaycanın dövlətçilik tarixinə ümumi bir baxış: dördüncü məqalə. Cənubi Azərbaycan milli hökuməti.** – *Bakı Universitetinin xəbərləri.* Humanitar elmlər seriyası. № 4, 2001-ci il, səh. 78–82.

▪ **Azərbaycanın dövlətçilik tarixinə ümumi bir baxış: beşinci məqalə. Şimali Azərbaycanda kommunist rejimi (1920-ci il, 28 aprel – 1991-ci il 18, oktyabr)**. – *Bakı Universitetinin xəbərləri.* Humanitar elmlər seriyası, № 1, 2002-ci il, səh.72–86.

▪ **Azərbaycanın dövlətçilik və parlamentarizm ənənələri tarixindən.** – Müstəqil dövlətimiz və parlamentimiz. – Bakı, 2001, səh. 178–206.

▪ **Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991–1996-cı illər).** (Ə.M.Həsənovun kitabına «Ön söz»). – Bakı, 1998-ci il.

▪ **Azərbaycanın problemləri Azərbaycanın daxilində həll edilməlidir. –** «*Azərbaycan*» qəzeti, Bakı, 2 dekabr 2000-ci il, № 277 (2689); «*Naxçıvan*» qəzeti, Bakı, 30 noyabr 2000-ci il, № 19 (29).

▪ **Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2004-cü il 12 yanvar tarixli Sərəncamına əsasən latın qrafikası ilə nəşr olunmuş kitabların təqdimat mərasimində çıxış** //Azərbaycan. – 2004, 10 dekabr.

▪ **Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti** // Heydər Əliyev. 2 cilddə. I cild. Bakı, Turxan NPB, 2013. – s. 7-26.

▪ **Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti** // Heydər Əliyev. 2 cilddə. II cild. Bakı, Turxan NPB, 2013. – s. 5-24

▪ **Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti** // Heydər Əliyev Azərbaycan elminin keşiyində. Sənədlər və materiallar toplusu. 2 cilddə. I cild. Bakı, Turxan NPB, 2013. – s. 3-19

▪ **Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti** // Heydər Əliyev Azərbaycan elminin keşiyində. Sənədlər və materiallar toplusu. 2 cilddə. II cild. Bakı, Turxan NPB, 2013. – s. 3-18

▪ **Azərbaycan tarixinə Heydər Əliyev baxışı və ya xalqımızın Milli dirçəliş konsepsiyası (bir müraciətin hikməti)** // Heydər Əliyev irsi və Azərbaycan dövlətçiliyi. – Bakı, 2005, s. 378–404.

▪ **Azərbaycan tarixinə Heydər Əliyev baxışı və ya xalqımızın Milli dirçəlişi: Bir müraciətin hikməti** // «*Xalq qəzeti*», 2005, 6; 7; 8 may.

▪ **Azərbaycan tarixinin Heydər Əliyev dövrü** // «*Elm*» qəzeti, 2008, 10 may.

▪ **Azərbaycan tarixinin Heydər Əliyev dövrü: Müstəqilliyə doğru böyük dönüş və milli oyanışın başlanması (1969–1972)** // Heydər Əliyev ideyaları XXI əsrdə. Azərbaycanın inkişaf yolu. – Bakı: «Azərbaycan» nəşriyyatı, 2009. – s. 74-88.

▪ **BDU-nun kollektivi Heydər Əliyevin tövsiyələrini əlində rəhbər tutur: Universitet müəllimlərinin yubiley təbriki** // *Bakı Universiteti,* 2003, 24 aprel.

▪ **«Biz informasiya müharibəsində qalib gəlməliyik»**. – «*Azad Azərbaycan*» qəzeti, Bakı, 25 aprel 2001-ci il, № 31 (173).

▪ **Böyük Azərbaycanlı fenomeni**. Birinci məqalə. – «*Xalq qəzeti*», Bakı, 14 mart 1998-ci il, № 69 (22769).

▪ **Böyük Azərbaycanlı fenomeni**. İkinci məqalə. – «*Xalq qəzeti*», Bakı, 15 mart 1998-ci il, № 70 (22770).

▪ **«Böyük Ermənistan»a qarşı Qərbi Azərbaycan uğrunda**. – «*Azərbaycan*» qəzeti, Bakı, 31 may 2001-ci il, № 121 (2834). Müsahibə.

▪ **Böyük İpək Yolu. Bu möcüzə Şərqdən Qərbə yol açmışdı.** – «*Azadlıq*» qəzeti, Bakı, 15 avqust 1998, № 153 (1173). Müsahibə.

▪ **Bütün zamanların böyük azərbaycanlısı: Heydər Əliyev şəxsiyyəti** // «*Xalq*» qəzeti, 2004., 18 yanvar.

▪ **Camaatın qayğılarına göz yummaq olmaz**. – «*Haqq yolu*» qəzeti, Bakı, 6 dekabr 2000-ci il, № 62 (86). Müsahibə.

▪ **Cəmiyyətdə elə məsələlər var ki, onlar birbaşa qanun və qərarlarla idarə edilmir: söhbət keçid dövrü və dövlətçilik ideologiyasından gedir**. – «*Xalq qəzeti*», Bakı, 2 iyul 1997-ci il, № 142 (22538). Müsahibə.

▪ **Cənubi Azərbaycan milli hökuməti.** – Azadıstan məmləkəti (1920-ci il, aprel–sentyabr). – «*Dirçəliş. XXI əsr*» jurnalı, Bakı, aprel 2002-ci il, № 50, səh. 79–84.

▪ **Cidanı çuvalda gizlətmək olmaz, cənablar! Həqiqət belədir: «Monitor» xalqı təhqir edir, qarşıdurma təbliğatı aparır.** – «*Panorama daily*» qəzeti, Bakı, 2 iyul 1998-ci il, № 114 (621).

▪ **Dahi siyasətçi, böyük diplomat (Ümummilli lider Heydər Əliyev haqqında)** // Heydər Əliyev və Azərbaycanda diplomatik kadrların hazırlanmasının aktual problemləri: Elmi-praktik konfransın materialları. – Bakı: ADU nəşriyyatı, , 2004. – s. 8–24.

▪ **Dirçəliş.** – «Ata yurdu» dərsliyi. Bakı, 2002-ci il, səh. 263–271.

▪ **Dirçəliş; Yeni Azərbaycanın qurucusu** //Mahmudlu Y., Xəlilov R., Ağayev S. Ata yurdu. 5-ci sinif üçün dərslik / Elmi red.: Y.Mahmudlu. 5-ci nəşri. – Bakı: Təhsil, 2003.

▪ **Dövlətimizin yüksək mükafatları. Azərbaycan prezidenti Heydər Əliyev görkəmli elm, mədəniyyət, incəsənət xadimlərinə və ictimai xadimlərə «İstiqlal» və «Şöhrət» ordenləri təqdim etmişdir**. Təqdimatnamə mərasimində çıxış. – «*Azərbaycan*» qəzeti, Bakı, 10 mart 1999-cu il, № 55 (2167).

▪ **Dünya tarixinin azərbaycanlı dahisi // Heydər Əliyev ümummilli lider.** – Bakı, 2004, s. 95–107.

▪ **Dünya tarixinin azərbaycanlı dahisi (Ümummilli lider Heydər Əliyev haqqında)** // «*Xalq*» qəzeti, 2006, 10 may.

▪ **Dünya tarixinin azərbaycanlı dahisi (Heydər Əliyev haqqında)** //Qoşa zirvə, – 2010. –№ 3. – s. 5.

▪ **Dünya tarixinin azərbaycanlı dahisi. Xalqa bağışlanmış ömrün anları** // «*Xalq*» qəzeti – 2003. – 26; 27 mart.

▪ **Dünya tarixinin azərbaycanlı dahisi. Ölməz rəhbərimiz** // Öndər. – 2005. – Xüsusi buraxılış.

▪ **Ermənilər beynəlxalq məhkəməyə verməliyik. –** «*Bizim əsr*» qəzeti, Bakı, 30 mart 2000-ci il, № 36 (110). Müsahibə**.**

▪ "Əfsanədən gerçəkliyə və ya Neft diplomatiyası tarixində böyük qələbə" // Ə.Mehdiyev. "Əsrin müqaviləsi": Azərbaycan neft strategiyasının təməl daşı kitabına Ön söz. Bakı, 2014.

▪ **Əgər YAP elan etdiyi yolla gedərsə, onun tezliklə ən kütləvi partiya olacağına şübhə yoxdur.** Birinci məqalə. – «*Səs*» qəzeti, Bakı, 24 dekabr 1992-ci il.

▪ **Əgər YAP elan etdiyi yolla gedərsə, onun tezliklə ən kütləvi partiya olacağına şübhə yoxdur.** İkinci məqalə. – «*Səs*» qəzeti, Bakı, 31 dekabr 1992-ci il.

▪ **Əliyev Heydər** // AXCE. c.I. – s. 341–354.

▪ **Əliyev Heydər** // NE. c.I. – s. 170–177.

▪ **Əliyev İlham** // AXCE. c.I. – s. 354–358.

▪ **Əliyev İlham** // NE. c.I. – s. 179–182.

▪ **Ən qədim zamanlardan İslam dininin qəbuluna qədərki dövrdə Azərbaycan dövlətçiliyi**. – «*Dirçəliş. XXI əsr*» jurnalı, – Bakı, yanvar, 2002-ci il, № 47, səh. 71–80.

▪ **Əsrə bərabər yol**. – «*Azad Azərbaycan*» qəzeti. – Bakı, 21 noyabr 2001-ci il, № 89 (231).

▪ **Heydər Əliyev.** 2 cilddə. / Layihə rəhbəri Yaqub Mahmudlu. Bakı, Turxan NPB, 2013.

▪ **Heydər Əliyev Azərbaycan elminin keşiyində.** Sənədlər və materiallar toplusu / Layihə rəhbəri və elmi red. Yaqub Mahmudlu. 2 cilddə. Bakı, Turxan NPB, 2013. – 640 s.

▪ **Heydər Əliyev barədə xatirələr** // «*Zaman*» qəzeti, 2003. – 15 –17 dekabr.

▪ **Heydər Əliyev: Dünya tarixinin azərbaycanlı dahisi** // «*Dirçəliş – XXI əsr*» jurnalı, 2003. – №69. – s. 23–52.

▪ **Heydər Əliyev ideyalarının zəfər yürüşü** // *Azərbaycan*. – 2007. – 10 may.

▪ **Heydər Əliyev ideyalarının zəfər yürüşü** // Heydər Əliyev yolu: Azərbaycan inkişafın yeni mərhələsində, 2007, s. 620–635.

▪ **Heydər Əliyev ideyalarının zəfər yürüşü** / Elmi red. Ə.M.Həsənov; red. Y.H.Gözəlova, N.B.Məmmədova, G.Talıbova. Bakı, "Təhsil", 2011. – 608 s.

▪ **Heydər Əliyev müstəqilliyimizin qarantıdır**. – «*Bakı Universiteti*» qəzeti, Bakı, 18 oktyabr 2001-ci il, № 07 (1353).

▪ **Heydər Əliyev – Ümumdünya tarixinin azərbaycanlı dahisi** // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 85-ci ildönümü münasibətilə keçirilən elmi-praktiki konfransın materialları. – Bakı: BDU, 2008.

▪ **Heydər Əliyev: Ümumdünya tarixinin azərbaycanlı dahisi** // *Yeni əsr, yeni nəsil*. – 2003. - №1. – s. 1-8.

▪ **Heydər Əliyev və tariximizin dirçəliş konsepsiyası** // Heydər Əliyev irsi Azərbaycanın davamlı inkişaf strategiyası. – Bakı, 2006, s.127–141.

▪ **Heydər Əliyev: Yeni Azərbaycanın qurucusu**. Birinci məqalə. – «*Azərbaycan*» qəzeti, Bakı, 11 iyul 1997-ci il, № 144 (1665).

▪ **Heydər Əliyev: Yeni Azərbaycanın qurucusu**. İkinci məqalə. – «*Azərbaycan*» qəzeti, Bakı, 13 iyul 1997-ci il, № 146 (1667).

▪ **Heydər Əliyev: Yeni Azərbaycanın qurucusu**. – «*Altay dünyası*», Beynəlxalq jurnal. – Bakı, 1998-ci il, sayı 1(3).

▪ **Heydər Əliyev: Zaman və məkan anlayışından ucada duran azərbaycanlı dahi** // *Paleolit*. – 2006. - №1. – s.8-16.

▪ **Heydər Əliyevin Azərbaycan rəhbərliyinin birinci dövrü: Müstəqilliyə doğru böyük dönüş və Milli oyanışın başlanması (1969–1982)** // Heydər Əliyev və Azərbaycan. – Bakı: «Azərbaycan» nəşriyyatı, 2008. – s. 159–168.

▪ **Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ikinci dövrü: Böyük azərbaycanlı, Azərbaycan torpağının misilsiz təəssübkeşi;**

**Qurtuluş mübarizəsinin qalibi; Azərbaycan dövlətçiliyinin xilaskarı; Heydər Əliyev yolunun davamçısı (Azərbaycanın yeni prezidentinin siyasi portreti)** //Mahmudlu Y. Azərbaycan: qısa dövlətçilik tarixi /Elmi red.: M.N.Mirzəyev, red.: E.M.Lətifova. - Bakı: Təhsil, 2005.

▪ **Həmişə xalqın mənafeyini öz şəxsi maraqlarımdan uca tutmuşam**. – «*Yeni Azərbaycan*» qəzeti, Bakı, 26 sentyabr 2000-ci il, № 184 (910).

▪ **Hərbə başlamazdan öncə informasiya müharibəsində qələbə çalmalıyıq**. – «*Kaspi*» qəzeti, Bakı, 17-18 aprel 2001-ci il, № 043 (224).

▪ **Xalq öz gələcəyinə səs verdi**. – «*Aktual*» qəzeti, Bakı, 18 oktyabr 1998-ci il, № 31–33 (63–65).

▪ **Xalqın rəğbəti YAP-ın ən böyük uğurudur.** – «*Azad Azərbaycan*» qəzeti, Bakı, 24 oktyabr 2001-ci il, № 81 (223). Müsahibə.

▪ **Xalqın taleyini yaşayan insan.** H.Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 4-cü ildönümü münasibətilə M.Ə.Rəsulzadə adına BDU-da keçirilmiş toplantıda çıxışı. – «*Azərbaycan*» qəzeti, Bakı, 7 oktyabr 1997-ci il, № 219 (1740).

▪ **Xocalı soyqırımı.** – «Ata yurdu» dərsliyi. Bakı: 2002-ci il, səh. 285–293.

▪ **İqtidar–müxalifət münasibətləri ancaq bizim öz daxili məhsulumuz deyil.** – «*Əks-səda*» qəzeti, Bakı, dekabr 1998-ci il, № 16-17 (7778).

▪ **İlham Əliyev – Azərbaycan dövlətçiliyinin parlaq gələcəyi** // *Gülüstan*. – 2003. – №2 (Xüsusi buraxılış). – s. 3–4.

▪ **İlham Əliyev – Dünya səviyyəsində ucalmış müasir siyasətçi** // Xankişiyev Aslan, Mehdiyev Sübut. Diplomatiya və iqtisadiyyat. – Bakı, 2003. – s. 7–14.

▪ **İlham Əliyev – Dünya səviyyəsinə ucalmış müasir siyasətçi** // «*Azərbaycan*» qəzeti, 2003, 26 yanvar.

▪ **İlham Əliyev – Qloballaşan dünyanın görkəmli dövlət xadimi** // «*Xalq*» qəzeti , 2004, 15 oktyabr; «*Bakı*» qəzeti, 2004, 31 oktyabr.

▪ **İlham Əliyev – qloballaşan dünyanın böyük dövlət xadimi** // İlham Əliyev. 8 il hakimiyyətdə. Bakı, Şərq-Qərb, 2011. – s. 25–44

▪ **İlham Əliyev – Siyasət dünyamızın gələcəyi** // «*Dirçəliş–XXI əsr*» jurnalı, 2003. – №59. – s. 98–103; Sara Xatun, 2003. – №3. – s. 12-13.

▪ **İlham Əliyev – Yeni Azərbaycanın lideri** // Səlimxanlı Dəyanət. Diplomatiyadan siyasi olimpə qədər yol. Bu yol İlham Əliyevin yoludur. – Bakı: Əbilov, Zeynalov və oğulları, 2003. – s. 4–14.

▪ **İlham Əliyev: Yeni prezident, yeni lider** // «*Xalq*» qəzeti, 2003. – Xüsusi buraxılış (31 oktyabr).

▪ **İlham Əliyev: Yeni prezident, yeni lider** // Siyasət zirvəsində. – Bakı, 2004. – s. 331–345.

▪ **20 Yanvar qırğını barədə elmi həqiqət.** (R.Ə.Mehdiyevin «Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri» kitabına Ön söz**).** – Bakı, 2000-ci il, səh. 3 –10.

▪ **20 Yanvar qırğını barədə elmi həqiqət.** (R.Ə.Mehdiyevin «Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri» kitabına rəy**).** – «*Azərbaycan*» qəzeti, Bakı, 18 yanvar 2001-ci il, № 14 (2727).

▪ **Qanlı yanvar.** – «Ata yurdu» dərsliyi. Bakı, 2002-ci il, səh. 271–282.

▪ **Qurtuluş mübarizəsinin qalibi**. – Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinə həsr olunmuş elmi konfransın materialları. BDU. – 27–29 may. II cild, Humanitar və sosial-siyasi elmlər, Bakı, 1998-ci il.

▪ **Lider.** – «*Dirçəliş. XXI əsr*» jurnalı, Bakı, 1998-ci il, № 3-4, səh 7–16.

▪ **Mənim tanıdığım Heydər Əliyev. Heç vaxt yaddan çıxmayacaq xatirələr** // «*Xalq*» qəzeti, 2006, 15 iyun.

▪ **Milli Ensiklopediya Azərbaycanın keçmişini, bu gününü doğru-düzgün təhrifsiz əks etdirməlidir: Prezident İlham Əliyevin sədrliyi ilə Azərbaycan Milli Ensiklopediyası Redaksiya heyətinin ilk iclasında çıxış** // «*Azərbaycan*» qəzeti, 2004, 9 aprel.

▪ **Milli qurtuluş mübarizəsinin qalibi** // Tarixi yaradan şəxsiyyət. – Bakı, 2004, s.18–37.

▪ **Milli Məclisdə seminar-simpozium. 31 mart azərbaycanlıların soyqırımı ilə bağlı çıxış**. – «*Azərbaycan*» qəzeti, Bakı, 2 aprel 1999-cu il.

▪ **Milli mənafeyimizin qətiyyətli təminatçısı: Prezident Heydər Əliyev** // «*Elm*» qəzeti, 2005, 14 dekabr.

▪ **Milli siyasətdə səhvlər və ya mənəvi sarsıntılarımız**. – «*Xalq qəzeti*», Bakı, 15 avqust 1993-cü il, № 122 (21988); «*Haqq söz*» qəzeti, Bakı, 29 iyul – 6 avqust 1993-cü il, № 16.

▪ **1993-cü il oktyabrın 10-da Heydər Əliyev Azərbaycanın müstəqilliyini qoruyub saxlayacağına and içdi**. – «*Azad Azərbaycan*» qəzeti, Bakı, 10 oktyabr 2001-ci il, № 78 (220).

▪ **1994-cü il oktyabr, 1995-ci il mart hadisələri və Azərbaycanda ictimai-siyasi vəziyyətə həsr olunmuş ümumxalq nümayəndələri toplantısında çıxış**. (5-6 mart 1996-cı il, Respublika sarayı). – Azərbaycan milli dövlət quruculuğu yolunda. Bakı, 1996-cı il, səh. 280.

▪ «**Monitor» jurnalının cəmiyyəti parçalamaq cəhdi hiddət doğurur**. – «*Xalq qəzeti*», Bakı, 20 mart 1998-ci il, № 75 (22775).

▪ **«Monitor» nə istəyir? Qarşıdurmaya çağırış və ya hədəf bütün Azərbaycandır.** – «*Azərbaycan*» qəzeti, Bakı, 19 mart 1998-ci il, № 63 (1872).

▪ **«Monitor»un arxasında müəyyən qüvvələr dayanır**. – «*Millət*» qəzeti, Bakı, 23 iyul 1998-ci il, № 73 (748).

▪ **Müstəqil Azərbaycan yeni quruculuq mərhələsində. Doğma xalqını qələbədən-qələbəyə qovuşduran Prezident** // "Xalq qəzeti", 2012, 9 may.

▪ **Müstəqil dövlətçiliyimizin banisi (Ümummilli lider Heydər Əliyev haqqında)** // «*Azərbaycan*» qəzeti, 2008, 13 aprel.

▪ **Müstəqil dövlətimizin ətrafında yenilməz birlik, sarsılmaz həmrəylik yaradaq.** Dünya azərbaycanlılarının həmrəylik gününə həsr olunmuş toplantıda çıxış**. –** «*Xalq qəzeti*», Bakı, 31 dekabr, 1998-ci il, № 353 (23053).

▪ **Naxçıvan Dövlət Universitetinin 25 illik yubileyi münasibətilə 12 noyabr 1992-ci ildə Naxçıvan şəhərində keçirilən təntənəli yığıncaqda çıxış.** – «*Azərbaycan*» qəzeti, Bakı, 4 noyabr 1997-ci il, № 241 (1762); «*Xalq qəzeti*», Bakı, 6 noyabr,1997-ci il, № 251 (22647).**18 oktyabr – istiqlalımızın bərpası.** – «Ata yurdu» dərsliyi. Bakı, 2002-ci il, s. 282–284.

▪ **18 Oktyabr – İstiqlalımızın bərpası; Yeni Azərbaycanın qurucusu** //Mahmudlu Y., Xəlilov R., Ağayev S. "Ata yurdu". 5-ci sinif üçün dərslik / Elmi red.: Yaqub Mahmudlu, red.: Tofiq Məmmədov. 4-cü nəşri. Bakı: Təhsil, 2004.

▪ **31 mart qırğını insanlığa qarşı törədilmiş vəhşiliyin misli görünməmiş formasıdır**. – «*Haqq yolu*» qəzeti, Bakı, 25 mart 2000-ci il, № 4 (28).

▪ **Oyanış.** – «Ata yurdu» dərsliyi. Bakı, 2002-ci il, səh. 255–263.

▪ **Ötən minilliklərin tarixinə Heydər Əliyev baxışı və ya tariximizin dirçəliş konsepsiyası** // XX əsrin və üçüncü minilliyin ayrıcında. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətinə həsr olunmuş elmi-praktik konfransın materialları. – Bakı, yanvar 2001-ci il, səh. 19–60.

▪ **Ötən minilliklərin tarixinə Heydər Əliyev baxışı və ya tariximizin dirçəliş konsepsiyası**. – «*Azərbaycan*» qəzeti, Bakı, 1 fevral 2001-ci il, № 25 (2738).

▪ **Özümüz: «Vətən», «Millət», «unutqanlıq» və biz**. – Yaşıl rəngin işığı. Məqalələr toplusu. – Bakı, 2000, səh. 58–61.

▪ **Prezident İlham Əliyev – Milli mənafeyimizin qətiyyətli təminatçısı** // «*Xalq qəzeti*», 2005, 24 dekabr.

▪ **Prezident İlham Əliyevin çox cəsarətli mövqeyi tarixçilərdə ruh yüksəkliyi yaradır** // «*Yeni Azərbaycan*» qəzeti, 2010, 8 yanvar.

▪ **Prezident İlham Əliyevin güclü Azərbaycan dövləti yaratmaq siyasətinə səs verin (Milli Məclisə deputatlığa namizədliyi haqqında)** // «*Azərbaycan*» qəzeti, 2010, 19 sentyabr.

▪ **Prezidentimizin əməyimizə verdiyi yüksək qiymət bizi yeni axtarışlara ruhlandırır** // Azərbaycan, 2012, 6 may.

▪ **Sabaha böyük inamla**. – «*Respublika*» qəzeti, Bakı, 6 yanvar 2000-ci il, № 003 (741).

▪ **Seçilmiş Əsərləri. IX cild** / Elmi red. Yeganə Gözəlova, red. N.B.Məmmədova, G.Talıbova. Bakı, Təhsil, 2011, 576 s.

▪ **Sülh danışıqlarını davam etdirməliyik**. – «*Paritet*» qəzeti, Bakı, 8–9 mart 2001-ci il, № 27 (188). Müsahibə.

▪ **Şimali Azərbaycanda kommunist rejimi (1920-ci il 28 aprel – 1991-ci il 18 oktyabr)**. – «*Dirçəliş. XXI əsr*» jurnalı, Bakı, may, 2002-ci il, № 51.

▪ **Tarix kiminsə istəyi ilə inkar edilməməli, siyasi mənafelərdən uzaq olmalıdır.** – «*Naxçıvan*» qəzeti, Bakı, 25 mart 1999, № 54 (482); «*Cümə axşamı*» qəzeti, Bakı, 9–15 dekabr 1999-cu il, № 29 (31).

▪ **Tarix kiminsə istəyi ilə təhrif edilməməlidir.** – «*Ağ yol*» qəzeti, Bakı, 2 aprel 1999-cu il, № 2 (2). Müsahibə.

▪ **Tarixdə Naxçıvanımız.** – «*Azərbaycan*» qəzeti, Bakı, 10 oktyabr 1999-cu il.

▪ **Tarixdə Naxçıvanımız (Prezident fərmanının işığında)**. – Naxçıvan Muxtar Respublikası – 75. – Bakı, 1999-cu il, səh. 15–26; «*Pedaqoji aləm*». Elmi-populyar jurnal. № 1, Qış 1999/2000, səh. 12– 15.

▪ **Tariximizin faciəli səhifələri: soyqırımı**. Çıxış. (Azərbaycan və ingilis dillərində). – Bakı, 2000-ci il, səh. 29-35: səh. 102–108.

▪ **Tarixi həqiqətlərə baxış birtərəfli olmamalıdır**. – «*Zaman*» qəzeti, Bakı, 30 aprel 1998-ci il, № 94 /995.

▪ **Universitetin inkişafı Heydər Əliyevlə bağlıdır**. – «*Kaspi*» qəzeti, Bakı, 2000-ci il, 9–11 fevral, № 010 (066).

▪ **Ümumdünya tarixinin azərbaycanlı dahisi – Heydər Əliyev** // *Bakı Universitetinin Xəbərləri.* Humanitar elm. ser. – 2003, №1. – s. 9-29.

▪ **Vətən övladına**. – Azərbaycan dövlətçiliyinin xilaskarı. – «Altay» nəşriyyatı, Bakı, 1998-ci il.

▪ **Vətən sərhədlərdən başlanır** … Bakı, 2000-ci il, səh. 1–70.

▪ **Vətənim Azərbaycandır! 18 Oktyabr – İstiqlalımızın bərpası; Yeni Azərbaycanın qurucusu** //Mahmudlu Y., Xəlilov *R.*, Ağayev S. "Ata yurdu". 5-ci sinif üçün dərslik / Elmi red.: Y.Mahmudlu. – Bakı: Aspoliqraf, 2008.

▪ **YAP-ın birinci qurultayında çıxış.** – Bakı, 20-21 dekabr 1999-cu il. YAP-ın birinci qurultayı. Stenoqrafik hesabat. – Bakı, 2000-ci il. səh. 209–217.

▪ **YAP qurultayının çağırılması çox vacibdir**. – «*Azad Azərbaycan*» qəzeti, Bakı, 12 sentyabr 2001-ci il, № 93 (1846).

▪ **YAP sədrinin ən böyük tarixi xidməti Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamasıdır.** – «*İki sahil*» qəzeti, Bakı, 8 noyabr 2001-ci il, № 217 (2969).

▪ **Yeni Azərbaycan Partiyası bu günün, sabahın və gələcəyin partiyasıdır.** YAP-ın birinci qurultayında çıxış. – «*Azərbaycan*» qəzeti, Bakı, 26 dekabr 1999-cu il, № 296 (2408); «*Respublika*» qəzeti, Bakı, 26 dekabr 1999-cu il, № 270 (734); Газета «Бакинский рабочий», Баку, 29 декабря 1999 г., № 249 (23675); «*Xalq qəzeti*», Bakı, 26 dekabr 1999-cu il, № 308 (23361).

▪ **Yeni Azərbaycanın qurucusu.** – «Ata yurdu» dərsliyi, Bakı, 2002-ci il, səh. 293–309.

▪ **Yeni Azərbaycanın qurucusu.**–«Azərbaycan müstəqillik yollarında» mövzusunda elmi-nəzəri konfransın materialları (tarixi həqiqətlər, faktlar və reallıqlar). 2 may 2002-ci il. – Bakı, 2002-ci il, səh. 14–32.

▪ **Yeni Azərbaycanın qurucusu**. – *Bakı Universitetinin xəbərləri*. Humanitar elmlər seriyası, Bakı, 1998-ci il, № 1 (səh. 5–16).

▪ **Yeni Azərbaycanın qurucusu**. – «*Tarix və onun problemləri*» jurnalı, Bakı, 1998-ci il, № 2 (4).

▪ **Yeni Azərbaycan Partiyasının III qurultayında YAP Siyasi Şurasının üzvü, Milli Məclisin deputatı, Tarix İnstitutunun direktoru Y.Mahmudovun çıxışı** // «*Yeni Azərbaycan*» qəzeti, 2005, 30 mart.

▪ **Yeni Azərbaycanın qurucusu; Ulu rəhbərin yolu ilə** //Mahmudlu Y., Xəlilov R., Ağayev S. "Ata yurdu". 5-ci sinif üçün dərslik / Elmi red.: Y.Mahmudov. – Bakı: Aspoliqraf, 2006.

▪ **A great headway toward development and awakening of national awareness; Restoration of the state independence in North Azerbaijan: the struggle for reinforcement of statehood (1991-2004); Azerbaijan on the way to progress and development** //Mahmudlu Y. Azerbaijan: Short History of Statehood / Edited by: Eynulla Madatli; Translated by: Nigar Madatli. – Baku: Tahsil Publishing house, - 2006.

▪ **From the history of statehood and parliamentarism traditions of Azerbaijan.** – Our independent state and the parliament. – Baku, 2001, p. 444–475.

▪ **Nakhcivan: History and Monuments** / Research editor: Ismail Hajiyev; Translated into English by: Baylar Hajiyev. – Baku, 2007. – 216 p. / Karim Shukurov/

▪ **Ататюрку нашего отчего края (В связи с кончиной Великого сына Азербайджана Гейдара Алиева** // «*Бакинский рабочий*». – 2003, 14 декабря.

▪ **Возрождение государственной независимости в Северном Азербайджане: Второй период руководства Гейдара Алиева Азербайджаном (1993–2003). Великий Азербайджанец, беспримерный патриот азербайджанской земли. Победитель борьбы за независимость, спаситель азербайджанской государственности; Достойный продолжатель курса Гейдара Алиева: Политический портрет нового президента Азербайджана.** //Махмудлу Я. Азербайджан: Краткая история государственности /Под ред.: М.Н.Мирзоева, Э.М.Лятифовой. – Баку: Тахсил, 2005.

▪ **Выступление на митинге проведенный партией «Yeni Azərbaycan» по случаю дня национального спасения** // «*Бакинский рабочий*». – 2005, 16 июня.

▪ **Гениальная Азербайджанская историческая личность во всемирной истории – Гейдар Алиев: Аннотация** // *Вестник Бакинского Университета.* Сер. гуманитарных наук. – 2003, №1. – с. 29.

▪ **Избранные труды. X том.** / Науч. ред. Е.Гезалова, перевод с азерб. Э.Лятифовой. Баку, Тахсил, 2012, 656 с.

▪ **Общенациональный лидер Гейдар Алиев и история Азербайджана во второй половине XX века** // Вопросы литературы и искусства. (Бишкек. Национальная Академия Наук Кыргызской Республики. Национальный Центр Манасоведения и художественной культуры). – 2009. – №1 (6). – с. 85-101.

▪ **Переможнийхів ідей Гейдара Алиева.** Киев, 2013 – 260 с.

▪ **Президенту Азербайджанской Республики, его превосходительству господину Гейдару Алиеву. Гражданская признательность.** – Газета «*Бакинский рабочий*», – Баку, 2 марта 1999 г.

▪ **Создадим несокрушимое единство, непоколебимую солидарность вокруг нашего независимого государства**. Выступление на собрании, посвященном дню солидарности азербайджанцев мира. – Газета «*Бакинский рабочий*», Баку, 6 января, 1999 г. № 2 (23428).

▪ **Строитель нового Азербайджана** //Махмудлу Я., Халилов Р., Агаев С. Отечество: Учебник для 5-го класса. /Под общ. ред.: Я.Махмудлу; Пер.: И.Асланова. - Баку: Асполиграф, 2006.

▪ **18 октября День восстановления независимости; Ходжалинский геноцид; Строитель нового Азербайджана** //Махмудлу Я., Халилов Р., Агаев С. "Отечество". Учебник для 5-го класса. 3-е изд. /Ред.: Гусейнов Р., Зейналова М., Насибова Ю. – Баку: Тахсил, 2003.

▪ **Пробуждение; Возрождение; Кровавый январь; 18 октября - День восстановления независимости; Ходжалинский геноцид; Строитель нового Азербайджана.** //Махмудлу Я., Халилов Р., Агаев С. "Отечество". Учебник для 5-го класса. 4-е изд. /Ред.: Я.Махмудлу; /Пер.: Р.Гусейнова, З.Магомедовой, М.Зейналовой, Ю.Насибова. – Баку: Тахсил, 2004.

▪ **Личность Гейдара Алиева в контексте современной истории** // «*Dirçəliş - XXI əsr*» jurnalı, 2003. – № 69. – s. 205-206.

▪ **Победное шествие идей Гейдара Алиева.** Баку: "Тахсил", 2012.

İLHAM ƏLİYEV

Azərbaycan tarixi haqqında

# SƏNƏDLƏR

# AZƏRBAYCAN XALQINA MÜRACİƏT

Əziz həmvətənlər, hörmətli Azərbaycan vətəndaşları!

Bu günlərdə mənim Azərbaycan Respublikasına bütövlükdə rəhbərliyimin 34, müstəqil Azərbaycan dövlətinə Prezident kimi rəhbərliyimin isə 10 ili tamam olur. Bu illərdə istər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezident kimi mənim həyat amalım yalnız Sizə – bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib.

Azərbaycan xalqı dünyanın ən qabaqcıl xalqları sırasında öz layiqli yerini tutub. Onun zəngin mənəvi aləmi, dünya mədəniyyət xəzinəsinə bəxş etdiyi özünəməxsus töhfələr, sivil dünya dəyərlərinə yiyələnmək qabiliyyəti artıq hamıya məlumdur. Azərbaycanlıların öz əməyi, istedadı ilə bütün sahələrdə dünya xalqları ailəsinə getdikcə daha sürətlə inteqrasiya olması indi heç kimi təəccübləndirmir.

Müstəqil dövlətimiz bu gün dünya ölkələrinin ən qabaqcıl təcrübələrindən və dəyərlərindən bəhrələnərək inkişaf edir. Demokratik cəmiyyət, hüquqi dövlət, insan və vətəndaş haqlarının aliliyi, siyasi plüralizm prinsiplərini rəhbər tutaraq, Azərbaycan Avropanın və dünyanın ən qabaqcıl, qüdrətli dövlətləri ilə çiyin-çiyinə fəaliyyət göstərir. Ölkəmiz beynəlxalq aləmdə öz layiqli yerini tutub. İndi dünyanın, regionun və bizi əhatə edən xarici aləmin əsas strateji və qlobal məsələləri bizim rəyimiz, mənafelərimiz nəzərə alınmadan həll edilmir. Bizi tanıyırlar, qəbul edirlər və əsas məsələlərdə bizimlə hesablaşırlar.

Azərbaycanın iqtisadi həyatı yenidən qurulur, yüksək dinamizmlə dirçəlir və inkişaf edir. Ölkə iqtisadiyyatına daxili və xarici kapital qoyuluşu ildən-ilə artır, aqrar sahə, yeyinti və yüngül sənə-

yesi modernləşir, iqtisadiyyatda qeyri-neft sektorunun payı yüksəlir, manatın sabitliyi qorunur, valyuta ehtiyatları artır, yeni-yeni yüksək maaşlı iş yerləri açılır. Bütün bunlar 1994-cü ildən başlayaraq həyata keçirilən yeni neft və iqtisadi inkişaf strategiyasının nəticəsidir. Mən əminəm ki, biz belə davam etsək, qarşıdan gələn bir neçə ildə Azərbaycanda nə bir işsiz, nə bir kasıb insana rast gəlinəcəkdir. Maaşlar, təqaüdlər və insanların ümumi gəlirləri yüksələn sürətlə artacaq. Azərbaycan dövləti, iş adamlarımız təkcə ölkəmizdə deyil, xarici aləmdə də ən perspektivli və gəlirli layihələrdə iştirak etmək, investisiya qoymaq imkanına və gücünə malik olacaqlar.

Dövlətimiz getdikcə öz müdafiə qabiliyyətini artırır, hərbi cəhətdən güclənir. Milli ordumuz qabaqcıl təcrübə və texnologiyalara yiyələnir, gənclərimiz həvəslə xidmətə gedirlər.

Bütün bunlar asan başa gəlməmişdir. Keçən dövrdə biz Sizinlə birlikdə həm daxildən, həm də xaricdən qaynaqlanan nə qədər təhlükəli irticanın, təxribatın və digər antiazərbaycan aksiyalarının qarşısını almışıq, nə qədər çətinliklərə sinə gərmişik. Siz bunları çox yaxşı bilirsiniz.

1988-ci ildən ermənilərin Dağlıq Qarabağda başladıqları avantürist millətçi separatizmin qarşısı Azərbaycan rəhbərliyinin qətiyyətsizliyi üzündən vaxtında alınmadı. 1990–1993-cü illərdə respublikamızda yaranmış siyasi və hakimiyyət böhranından, idarəsizlik və qarmaqarışıqlıqdan istifadə edən Ermənistan ordusu Azərbaycanın torpaqlarını işğal etdi, bir milyondan çox soydaşımızı qaçqın və köçkün vəziyyətinə saldı. Daxildə ölkə vətəndaşları bir-birinə qarşı silahlı toqquşmaya, qarşıdurmaya təhrik edildi, dövlətimizi və dövlətçiliyimizi məhv etməyə, dağıtmağa nə qədər səylər göstərildi. Biz bütün bunların qarşısını aldıq. Lakin xaos və anarxiya dövründə Azərbaycanın pozulmuş ərazi bütövlüyünü, qaçqın və köçkünlərin öz yurd-yuvasına qaytarılması problemini hələ də həll edə bilməmişik. Mən əminəm ki, biz bu məsələni də mütləq həll edəcəyik.

Buna baxmayaraq, bu illərdə xalqımız və dövlətimiz üçün taleyüklü əhəmiyyət kəsb edən məsələləri həll edə bilmişik.

İlk növbədə, dövlətçiliyimizin əsasını təşkil edən ictimai-siyasi sabitliyə nail olmuş, milli birlik və qanunların aliliyinə söykənən vətəndaş cəmiyyətinin təməlini qoymuşuq.

İkincisi, hər bir dövlətin, onun yaşamasının qayəsini təşkil edən ölkə iqtisadiyyatını yenidən qurmuşuq, inkişaf yoluna çıxarmışıq.

Üçüncüsü, Azərbaycan xalqının istək və arzularının ifadəsi olan, özünün bütün müvafiq təsisatlarına malik güclü, demokratik dövlətimizi qura bilmişik, onun müstəqilliyinin dönməzliyini təmin etmişik.

Yalnız milli birliyə, ictimai-siyasi sabitliyə malik, iqtisadiyyatı dinamik inkişaf edən, güclü dövlət təsisatları olan, demokratik və vətəndaş cəmiyyətinə əsaslanan müstəqil dövlətlə hər şeyi, o cümlədən ərazi bütövlüyü və digər məsələləri həll etmək olar. Əminəm ki, bu, məhz belə də olacaq.

Əziz Azərbaycan vətəndaşları, əziz xalqım!

Mən öz mənalı həyatımın düz 60 ilini xalqımın bu günü və sabahı ilə yaşamışam. Bunun son on ili müstəqil Azərbaycan dövlətinə xidmətdə keçib. Bu sahədə görülən işlər Sizə məlumdur, lakin mənim hələ tamamlanmamış çox perspektivli planlarım var. Son vaxtlar səhhətimdə yaranan bəzi problemlər mənə imkan vermir ki, bütün bu başladığım, nəticələrini aydın gördüyüm işləri tamamlayım. Buna baxmayaraq, 2003-cü ilin 15 oktyabrında keçiriləcək prezident seçkilərində iştirak etmək üçün mənim də namizədliyim irəli sürülüb və qeydiyyata alınıb. Yüz minlərlə insan seçki kampaniyasına qoşularaq mənim təbliğatımı aparır. Fürsətdən istifadə edərək bu insanlara, namizədliyimi irəli sürən və dəstəkləyən Yeni Azərbaycan Partiyasının bütün üzvlərinə, digər ictimai-siyasi təşkilatların nümayəndələrinə, elm, təhsil və mədəniyyət xadimlərinə, ziyalılara və mənə dəstək verən bütün Azərbaycan xalqına dərin təşəkkürümü bildirirəm. Ümidvaram ki, tezliklə səhhətimi bərpa edərək Vətənə dönəcək, xalqımla yenidən birlikdə olacağam. İndi isə öz namizədliyimi İlham Əliyevin xeyrinə geri götürürəm.

Üzümü Sizə – həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm.

***Dərin hörmətlə,***

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti,**

*1 oktyabr 2003-cü il*

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimində nitqi
### *(31 oktyabr 2003-cü il)*

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Azərbaycan Respublikasının Prezidenti seçilməyimdə mənə göstərilmiş bu böyük etimada görə Azərbaycan seçicilərinə, Azərbaycan vətəndaşlarına, bütün Azərbaycan xalqına öz dərin təşəkkürümü bildirirəm.

Mən bu böyük etimadı doğruldacağam, bu vəzifənin öhdəsindən layiqincə gələcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm.

Oktyabrın 15-də Azərbaycan xalqı seçki məntəqələrinə gələrək Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir. Bu siyasətə Azərbaycanda alternativ yoxdur.

Heydər Əliyevin siyasəti Azərbaycana böyük uğurlar gətiribdir. Bütün sahələrdə Azərbaycan inkişaf edir, uğurlar qazanır. Beynəlxalq aləmdə Azərbaycan yüksəlir, uğurlar qazanır. Azərbaycan beynəlxalq aləmdə özünəlayiq yerini tuta bilibdir, Azərbaycanın nüfuzu artıbdır. İndi Azərbaycanla hesablaşırlar, Azərbaycana hörmət edirlər. Regionda bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı ilə, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir.

Beynəlxalq təşkilatlarda Azərbaycan çox uğurlu fəaliyyət göstərir, onun nüfuzu artır. Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilat Azərbaycanın təkidi ilə Ermənistanı işğalçı dövlət kimi tanıyıbdır. Bu proses davam edəcəkdir. Azərbaycan beynəlxalq aləmdə, dünya miqyasında daha da möhkəm mövqelərə sahib olacaqdır.

Qonşularımızla münasibətlərimiz çox uğurla inkişaf edir. Həm ikitərəfli münasibətlərimiz güclənir, həm də regional əməkdaşlıq inkişaf edir. Bu gün andiçmə mərasimində iştirak etmək üçün

Azərbaycana, Bakıya gəlmiş qonşu dövlətlərin görkəmli dövlət xadimlərinin iştirakı bunu bir daha sübut edir.

Mən bu fürsətdən istifadə edərək, bu gün bizimlə birlikdə mərasimdə iştirak edən Gürcüstan Prezidenti cənab Eduard Şevardnadzeni, Rusiya Federal Məclisi Federasiya Şurasının sədri cənab Sergey Mironovu, Türkiyə Cümhuriyyəti Baş nazirinin müavini cənab Əbdüllətif Şənəri, İran İslam Respublikasının vitse-prezidenti cənab seyid Məhəmmədəli Əbtəhini və Ukrayna hökumətinin başçısı cənab Viktor Yanukoviçi salamlayıram.

Azərbaycan hərtərəfli inkişaf edir, iqtisadiyyatı güclənir. Azərbaycanda iqtisadi islahatlar aparılır. Bu islahatların nəticəsində ölkəmiz qısa müddət ərzində öz iqtisadiyyatının yüksəlişini təmin etmişdir. İqtisadiyyatın ən mühüm göstəricisi – ümumi daxili məhsul son beş il ərzində hər il 10 faiz artır, inflyasiyanın səviyyəsi 2 faiz təşkil edir. Halbuki, on il bundan əvvəl inflyasiyanın səviyyəsi 1600 faiz idi.

Azərbaycanda özəl sektor uğurla inkişaf edir. Çox sevindirici haldır ki, ümumi daxili məhsulun formalaşmasında özəl sektorun payı 70 faiz təşkil edir. Sahibkarlar sinfi yaranır. Genişmiqyaslı özəlləşdirmə proqramı həyata keçirilir. Torpaq islahatı aparılıbdır və torpaq artıq kəndlilərin özəl mülkiyyətinə verilibdir. Bunun nəticəsində kənd təsərrüfatı istehsalı artır. Bütün bunlar onu göstərir ki, Azərbaycanda Heydər Əliyevin rəhbərliyi altında aparılan iqtisadi islahatlar öz gözəl nəticələrini verməkdədir.

Azərbaycana xarici sərmayə qoyuluşu çox yüksək səviyyədədir və bu proses davam edir. Sizə deyə bilərəm ki, bütün mənbələrdən qoyulan sərmayələrin həcmi 15 milyard dollar təşkil edir. Adambaşına xarici sərmayənin həcminə görə Azərbaycan keçmiş sovet respublikaları arasında qabaqcıl yerdədir, bəzi Şərqi Avropa dövlətlərini də qabaqlayır.

Amma heç kəsə sirr deyil ki, sərmayələr, xüsusilə xarici sərmayələr sabitlik olan ölkələrə qoyulur. Çünki hər bir sərmayədar o qədər də risk etmək istəmir. Bu baxımdan da Azərbaycan sərmayə qoyuluşu üçün çox münasib ölkədir. Azərbaycanda son illər ərzində

hökm sürən sabitlik, ictimai-siyasi asayiş sərmayələrin cəlb olunması istiqamətində böyük addımlar atmağa imkan veribdir.

Əlbəttə, bizim hamımızın borcudur ki, Azərbaycanda yaranmış bu sabitliyi qoruyaq, saxlayaq, möhkəmləndirək. Əgər Azərbaycanda sabitliyin pozulmasına kimsə can atarsa, biz buna imkan verməyəcəyik, Azərbaycan xalqının rahat, təhlükəsiz, sabitlik şəraitində yaşamasını təmin edəcəyik.

Bu sabitlik bizə imkan verəcək ki, gələcəkdə Azərbaycanı daha da sürətlə, hərtərəfli inkişaf etdirək. Bu barədə bizim çoxlu planlarımız vardır. Azərbaycanın hər bir sahəsi inkişaf etməlidir.

Təbii ki, Azərbaycan iqtisadiyyatının əsas istiqaməti onun neft strategiyasının həyata keçirilməsidir. 1994-cü ildə Heydər Əliyev tərəfindən başlanmış yeni neft strategiyası Azərbaycana böyük uğurlar gətiribdir. "Əsrin müqaviləsi"nin imzalanması ilə bu strategiya artıq 9 ildir ki, həyata keçirilir. Bunun nəticəsində Azərbaycan öz neft-qaz ehtiyatlarını çox səmərəli şəkildə dünya bazarlarına çıxarır. Azərbaycan Xəzər dənizinin özünəməxsus olan sektorunda xarici şirkətlərlə çox uğurlu əməkdaşlıq edir. Azərbaycanın neft sənayesinə on milyard dollar sərmayə qoyulubdur. On minlərlə yeni iş yerləri açılıb, qısa müddət ərzində qazma qurğuları, platformalar, neft kəmərləri, neft terminalları və ölkəmiz üçün vacib olan digər infrastruktur yaradılıbdır.

Azərbaycan öz neftini dünya bazarlarına artıq iki kəmər vasitəsilə çıxarır. Bakı–Novorossiysk neft kəməri ilə hazırda ildə 2,5 milyon ton neft ixrac olunur. Bakı–Supsa neft kəməri vasitəsilə qərb istiqamətində ildə 6,7 milyon ton neft ixrac edilir. Hazırda Bakı–Tbilisi-Ceyhan neft kəməri inşa edilir və artıq işlərin 40 faizi görülübdür. Artıq bu kəmərin inşasına 1 milyard 200 milyon dollar sərmayə qoyulubdur. Gələn ilin sonunda biz bunun açılışını qeyd edəcəyik.

Azərbaycan böyük qaz ehtiyatları olan "Şahdəniz" yatağında uğurla işləməyə başlayıbdır. Bakı–Ərzurum qaz kəmərinin tikintisinə vəsait qoyulur və əgər hər şey cədvəl üzrə gedərsə, 2006-cı ildə Azərbaycan qazı Avropaya çatdırılacaqdır.

Bütün bu planların, görülən işlərin əsası 1994-cü ildə qoyulubdur. O vaxt çətin və mürəkkəb şərait vardı, Azərbaycan çox riskli bir ölkə sayılırdı. Azərbaycana sərmayənin cəlb edilməsi üçün cənab Prezident Heydər Əliyev böyük işlər görmüşdür. Nəhayət, əfsanəni reallığa, gerçəkliyə çevirmişdir.

Neft strategiyasının tərkib hissəsi ondan ibarətdir ki, neftdən əldə olunan gəlirlər Azərbaycan xalqına səmərəli şəkildə xidmət etsin. Bu məqsədlə Azərbaycan Dövlət Neft Fondu yaradılmışdır. Fondun yaradılması Azərbaycanın müasir tarixində çox əlamətdar hadisədir. O, bütün beynəlxalq standartlara cavab verən, şəffaf qurumdur. Beynəlxalq maliyyə qurumları onun fəaliyyətini çox yüksək qiymətləndirirlər.

Hazırda Neft Fondunda 800 milyon dollar vəsait yığılıbdır. Bu, xalqın vəsaitidir. Buna görə də Neft Fondunun fəaliyyəti haqqında ictimaiyyətə mütəmadi qaydada məlumat verilir. Hər bir vətəndaş bilməlidir ki, onun ölkəsinin valyuta ehtiyatları nə qədərdir və necə, hansı istiqamətlərə sərf olunur.

Gələcəkdə Azərbaycan öz iqtisadi potensialını inkişaf etdirdikcə, Azərbaycanda yeni neft yataqları kəşf olunandan sonra, Bakı–Tbilisi–Ceyhan neft kəməri istismara veriləndən sonra, əlbəttə, ölkəmizin imkanları daha da artacaqdır. Hər il Azərbaycana milyardlarla dollar vəsait daxil olacaqdır. Bu vəsaitlə Azərbaycanda bütün sahələrdə quruculuq işləri aparılacaq, sosial problemlərin həlli istiqamətində böyük işlər görüləcəkdir.

Bilirsiniz ki, Neft Fondundan ayrılan vəsait, ilk növbədə, Azərbaycanda ən çətin vəziyyətdə yaşayan qaçqın-köçkünlərə, onların həyat səviyyəsinin yaxşılaşdırılması üçün sərf olunur. Cənab Prezident Heydər Əliyevin fərmanları ilə bu məqsəd üçün 70 milyon dollar ayrılmışdır və qaçqın-köçkünlərdən ötrü yeni qəsəbələr, şəhərciklər, evlər tikilir. On minlərlə qaçqın və köçkün artıq çadır düşərgəsindən çıxarılaraq müasir evlərə köçürülüb və bu proses davam edəcəkdir. Biz gələcəkdə də bu məsələyə çox böyük diqqət göstərəcəyik. Əminəm ki, yaxın gələcəkdə işğaldan əziyyət çəkən bütün qaçqın və köçkünlər müasir şəraitlə təmin olunacaqlar.

Azərbaycanda digər sosial məsələlər də öz həllini tapır. Bilirsiniz ki, bu yaxınlarda cənab Prezidentin sərəncamları ilə səhiyyə, təhsil, mədəniyyət işçilərinin və başqalarının əməkhaqqı 50 faiz artırılmışdır. Pensiyalar 40 faiz artırılmışdır. Bu, bir daha onu göstərir ki, sosial məsələlər Prezidentimizin daim diqqət mərkəzində olmuşdur. Bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Ölkənin bütün imkanları buna xidmət edəcəkdir. Təsadüfi deyil ki, gələn ilin büdcəsinin 60 faizi sosial məsələlərə sərf olunacaqdır.

Azərbaycan gələcəkdə çox zəngin və qüdrətli ölkəyə çevriləcəkdir. Neft strategiyasını davam etdirərək, qısa müddət ərzində ölkəmizi hərtərəfli inkişaf etdirəcəyik.

Xüsusilə qeyri-neft sektoruna böyük diqqət göstəriləcəkdir. Yeni zavodlar, fabriklər istifadəyə veriləcəkdir. Sahibkarlığın inkişafı üçün tədbirlər planı, Azərbaycanda iqtisadi inkişaf proqramı hazırlanır. Bu çoxşaxəli inkişaf proqramı Azərbaycanı qısa müddət ərzində zəngin dövlətə çevirməyə imkan verəcəkdir. Bizdə bütün imkanlar – təbii sərvətlər, insan potensialı və ən önəmlisi, xalqın iradəsi vardır. Biz hamımız birləşərək və bir nöqtəyə vuraraq Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirəcəyik.

Azərbaycanda ordu quruculuğu sahəsində də böyük işlər görülmüşdür. Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır. Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələri yerinə yetirməsinə imkan verəcəkdir.

Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ölkəmiz üçün ən ağır problemdir. Uzun illərdir ki, biz atəşkəs rejimində yaşayırıq. Təəssüflər olsun ki, bu məsələ ilə bilavasitə məşğul olan ATƏT-in Minsk qrupunun fəaliyyəti hələlik heç bir nəticə vermir. Biz hələ də ümidlərimizi itirmirik. Hələ də ümid edirik ki, həmsədrlər bu məsələ ilə daha ciddi şəkildə, məsuliyyətlə məşğul olacaqlar. Bu

məsələ öz həllini tapmalıdır. Bu problem yalnız bir neçə prinsiplər, beynəlxalq hüquq normaları əsasında həll oluna bilər: Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir.

Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır.

Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən, mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm.

Mən bu gün bu yüksək kürsüdən əziz Prezidentimiz cənab Heydər Əliyevə müraciət edərək deyirəm: Əziz Prezident, əsərin olan müasir Azərbaycanı gücləndirəcəyik, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik, Sizin yolunuzla yeni qələbələrə doğru gedəcəyik.

Yaşasın Azərbaycan xalqının milli lideri, müasir Azərbaycanın qurucusu Heydər Əliyev!

Yaşasın qəhrəman Azərbaycan xalqı!

Yaşasın azad və müstəqil Azərbaycan!

**AzərTAC**

**"Xalq qəzeti", 01 noyabr 2003-cü il**

## "Azərbaycanda 10 illik humanitar fəaliyyət: təsir, qazanılmış təcrübə, gələcək istiqamətlər" mövzusunda Beynəlxalq konfransda Azərbaycan Prezidenti İlham Əliyevin nitqindən

***(17 fevral 2004-cü il)***

... Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində, işğalçılıq, etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq soydaşımız qaçqın və köçkün vəziyyətinə düşübdür. Əfsuslar olsun ki, dünyada bu göstəriciyə görə Azərbaycan, demək olar, yeganə ölkədir. Səkkiz milyon əhalinin bir milyonu qaçqın və köçkündür. Bu, çox böyük humanitar fəlakətdir. Əlbəttə, əgər bütün əlaqədar orqanlar, beynəlxalq humanitar təşkilatlar, Azərbaycan dövləti bu məsələ ilə ciddi məşğul olmasa, çətin vəziyyətdə yaşayan insanlarımızın vəziyyəti daha da ağır ola bilər. Demək olar, onlar bu gün ən çətin vəziyyətdə yaşayan insanlardır. Ona görə mən hesab edirəm ki, humanitar təşkilatların fəaliyyətinin öncül istiqaməti qaçqınlara və köçkünlərə göstərilən yardım olmalıdır. Bu, keçmişdə də belə olubdur, bu gün də belədir. Azərbaycan dövlətinin də mövqeyi məhz belədir.

... Regionda ən böyük təhlükə mənbəyi Ermənistan və onun işğalçı siyasətidir. Bu siyasətin nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal altına düşmüş, bir milyondan artıq qaçqın, köçkün yaranıbdır. Baxmayaraq ki, beynəlxalq ictimaiyyət bu məsələ ilə məşğul olur, böyük dövlətlər, bilavasitə vasitəçilik missiyasını öz üzərlərinə götürüblər, ancaq uzun illərdir bu məsələ öz həllini tapmır. Hesab edirəm ki, bu məsələnin tezliklə həll olunması üçün, ilk növbədə, problemə yanaşmalarda fərqlər olmalıdır. İşğalçı ilə işğalın qurbanı bir səviyyəyə qoyulmamalıdır. Əgər belə olarsa, mən əminəm ki, bu məsələ, bu münaqişə tezliklə öz həllini tapar.

Azərbaycan heç kimin torpağını işğal etməyib, heç kimin ərazi bütövlüyünü pozmayıbdır. Əksinə, bizim torpaqlarımız işğal altındadır, ərazi bütövlüyümüz pozulubdur. Bizim heç kimin torpağında gözümüz yoxdur. Ancaq, eyni zamanda öz torpağımızı da heç kimə

verən deyilik. Mən əminəm ki, əgər bütün beynəlxalq ictimaiyyət, bilavasitə bu məsələ ilə məşğul olan Minsk qrupu və onun həmsədrləri bu yanaşmanı əsas tutarlarsa, problem tezliklə öz həllini tapa bilər. Dünyada ikili standartlara son qoyulmalıdır. İşğalçı işğalçı kimi göstərilməlidir və ondan tələb edilməlidir ki, işğal etdiyi torpaqlardan çıxsın. Çünki biz artıq XXI əsrdə yaşayırıq. Biz hamımız Avropa strukturlarına inteqrasiya edirik və bu, bizim siyasətimizdir. Belə olan halda, əlbəttə, indiki vəziyyət dözülməzdir.

Mən ümid edirəm ki, danışıqlar yolu ilə bu məsələ öz həllini tapa bilər və məhz buna görə də danışıqlara üstünlük veririk. Əminik ki, bu məsələ ilə məşğul olan vasitəçilər də öz missiyasını uğurla başa çatdıracaqlar.

Amma bu məsələ, yəni Ermənistan–Azərbaycan Dağlıq Qarabağ məsələsi həll olunmayana qədər, qaçqınlar, köçkünlər öz doğma torpaqlarına qayıtmayana qədər, əlbəttə, onlara diqqət göstəriləcəkdir, onların problemləri həmişə gündəlikdə birinci sırada olacaqdır. Bu, dövlətin siyasətidir. Biz bunu edirik və edəcəyik. Azərbaycanda qaçqınlar və məcburi köçkünlər üçün salınmış yeni qəsəbələr, şəhərciklər bunun bariz nümunəsidir. Bu siyasət davam etdiriləcəkdir.

## Azərbaycan Prezidenti İlham Əliyevin respublikamızın xarici ölkələrdəki diplomatik nümayəndəliklərinin başçıları ilə görüşündə nitqindən
### *(27 iyul 2004-cü il)*

... Bu gün Azərbaycan haqqında dünyada kifayət qədər ədalətli məlumatlar var. Biz hamımız çalışmalıyıq, əlbəttə, ilk növbədə, Azərbaycanı xaricdə təmsil edən səfirlər, səfirliklərin digər işçiləri çalışmalıdırlar ki, Azərbaycan haqqında reallıqlar o ölkələrdə yaşayan ictimaiyyətə çatdırılsın.

Bir sözlə, Azərbaycanın bütün istiqamətlərdə, qeyd etdiyim kimi, ikitərəfli müstəvidə və beynəlxalq təşkilatlarla əməkdaşlığımızda apardığı xarici siyasət uğurludur. Biz bu siyasəti bundan sonra da davam etdirəcəyik. Mən əminəm ki, Azərbaycan regionda öz mövqelərini gələcəkdə daha da gücləndirəcəkdir. Artıq hamı bilir ki, regionda Azərbaycanın iştirakı olmadan nə siyasi, nə də iqtisadi sahələrdə əməkdaşlıq mümkün deyildir. Azərbaycan bölgənin çox vacib ölkəsinə çevrilibdir. Burada təkcə bizim coğrafi-siyasi vəziyyətimiz, yaxud enerji resurslarımız rol oynamır. Halbuki, bu amillər də çox vacibdir. Azərbaycanın siyasəti, beynəlxalq aləmə inteqrasiyası, beynəlxalq aləm üçün çox vacib ölkəyə çevrilməsi, Azərbaycanın daxilində gedən proseslər, ictimai-siyasi sabitlik, sabit inkişaf və digər amillər burada böyük rol oynayır.

Biz çalışmalıyıq ki, bundan sonra da həm Azərbaycan haqqında həqiqətləri dünya ictimaiyyətinə daha dolğun şəkildə çatdıraq, eyni zamanda apardığımız xarici siyasət vasitəsilə Azərbaycanın dünyadakı mövqelərini möhkəmləndirək və milli maraqlarımızın daha yüksək səviyyədə qorunmasına nail olaq. Əlbəttə, səfirlərin və səfirliklərin bu istiqamətdə rolu çox mühümdür. Xüsusilə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında xaricdə fəaliyyət göstərən diplomatlar daha da fəal olmalıdırlar.

Bilirsiniz ki, Azərbaycan bu məsələnin həllində sülh yolunun tərəfdarıdır. Biz bu məsələni danışıqlar yolu ilə həll etmək istəyirik. Ümid edirəm ki, bu danışıqlar yolu bizə uğur gətirəcəkdir. Amma, eyni zamanda mən dəfələrlə bildirmişəm ki, Azərbaycan heç vaxt öz torpaqlarının itirilməsi ilə barışmayacaqdır. Əgər danışıqlar yolu bir səmərə verməsə, Azərbaycan bütün başqa, o cümlədən hərbi yoldan istifadə edib öz torpaqlarını azad edəcəkdir.

Beynəlxalq hüquq bizim tərəfimizdədir. Bizim torpaqlarımız işğal olunubdur. Haqq-ədalət bizim tərəfimizdədir. İqtisadi potensial və digər məsələlər də Azərbaycanın xeyrinədir. Mən şübhə etmirəm ki, bu məsələ öz ədalətli həllini tapacaqdır. Bəzən güzəştlər haqqında təkliflər səslənir. Amma mən artıq bunu bir neçə dəfə demişəm ki, ərazi bütövlüyü məsələlərində güzəştdən söhbət gedə bilməz. Bu, o vaxt olur ki, hər bir tərəf nəyisə, hansısa məsələdəsə güzəştə gedir. Azərbaycanın əlində bir şey yoxdur ki, güzəştə getsin. Azərbaycanın torpaqları işğal altındadır. Bu işğaldan bir milyon adam əziyyət çəkir. Ona görə bu məsələdə bizim qətiyyətli mövqeyimiz dəyişməz olaraq qalacaqdır.

Sizin də vəzifəniz ondan ibarətdir ki, bu məsələnin mahiyyətini çalışdığınız ölkələrin rəsmi dairələrinə, ictimaiyyətinə daha dolğun şəkildə çatdırasınız. Təəssüflər olsun ki, bəzi hallarda bu məsələ ilə əlaqədar beynəlxalq aləmdə dəqiq təsəvvür yoxdur. Bunun müəyyən səbəbləri var. Əlbəttə, erməni təbliğatı burada böyük rol oynayır. Amma onu da etiraf etməliyik ki, biz də bəzi hallarda bu məsələni, onun mahiyyətini beynəlxalq aləmə lazımi səviyyədə çatdırmırıq. Burada, ilk növbədə, səfirlər və səfirliklərin işçiləri daha fəal olmalıdırlar. Bu məsələni daim gündəliyə salmalıdırlar.

Mən bilirəm ki, diplomatiyada təkrara o qədər də çox yol verilmir. Ümumiyyətlə, mən də bir şeyin təkrar olunmasına o qədər də meyilli deyiləm. Amma bu məsələ istisna təşkil edir. Bu məsələ daim təkrar olunmalıdır. Bütün tədbirlərdə yeri gəldi-gəlmədi, bu məsələ daim diqqət mərkəzində olmalıdır və rəsmi dairələrə, müxtəlif ölkələrin parlamentlərinə, ictimaiyyətə çatdırılmalıdır. Mən bununla əla-

qədar ümid edirəm ki, Prezident Aparatı ilə birlikdə Xarici İşlər Nazirliyi tərəfindən xüsusi bir plan, proqramlar hazırlanmalı, tövsiyələr verilməlidir. Bu proqram çərçivəsində səfirlər öz fəaliyyətini qurmalıdır. Bütün beynəlxalq tədbirlərdə, konfranslarda, ictimai tədbirlərdə bu məsələ, ilk növbədə, yada salınmalıdır. Beləliklə, ümid edirəm, biz informasiya sahəsində daha böyük uğurlar əldə edəcəyik.

Biz informasiya hücumuna keçməliyik. Bəzən bizi günahlandırırlar ki, Azərbaycan bu baxımdan özünü çox davakar aparır. Ola bilər, amma bizim davakarlığımız, hələ ki, yalnız informasiya sahəsində özünü büruzə verir. Bizim başqa yolumuz yoxdur. Əlbəttə, Ermənistan maraqlıdır ki, bu məsələyə, ümumiyyətlə, toxunulmasın. Ona görə mən xatırlayıram, Avropa Şurasında biz məsələ qaldıranda ki, bu barədə məruzə dinlənilsin, Ermənistan tərəfi bunun əleyhinə çıxırdı. Nə üçün? Bu məsələnin müzakirə olunmasını istəmirdi. Çünki bilirlər ki, əgər müzakirəyə çıxarılarsa, onda hər şey açıq-aydın görünəcəkdir. Hamı da görəcəkdir ki, işğalçı kimdir, işğalın qurbanı kimdir. Ona görə bütün tədbirlərdə, bütün sahələrdə bu məsələnin mahiyyəti açıqlanmalıdır və informasiya sahəsində də güclü olmalıyıq. Bütün imkanlardan istifadə etməliyik ki, Ermənistanın işğalçı siyasətini ifşa edək, onların bu təcavüzü haqqında bütün dairələrə məlumatı çatdıraq.

Əlbəttə, Azərbaycan üçün ən ağrılı problemlərdən olan qaçqınların və məcburi köçkünlərin vəziyyəti haqqında məlumatlar daha dolğun şəkildə yayılmalıdır. Məsəl üçün, mən fikir verirəm, xaricdən gələn bəzi rəsmi qonaqlar qaçqınlarla görüşəndə dəhşətə gəlirlər. Deyirlər, biz bilmirdik ki, Azərbaycanda bu qədər qaçqın var və onlar belə ağır vəziyyətdə yaşayırlar. Təbii ki, xaricdə bu məsələ ilə əlaqədar kifayət qədər informasiya yoxdur, məlumat yoxdur. Bunu biz bilirik və bizimlə sıx əlaqədə olan dairələr, qurumlar bilir. Amma geniş beynəlxalq ictimaiyyət bu haqda bilmir. Bu, bizim səhvimiz, nöqsanımızdır.

... Azərbaycan haqqında reallıqlar, həqiqətlər dünya ictimaiyyətinə çatdırılmalıdır. Ümumiyyətlə, mən xarici mətbuatı mütəmadi

qaydada izləyirəm. Görürəm ki, Azərbaycan haqqında məlumatlar çox birtərəflidir. Azərbaycan yalnız neft ölkəsi kimi təqdim edilir, yaxud da ölkəmiz haqqında Ermənistan–Azərbaycan münaqişəsi ilə əlaqədar məlumatlar verilir. Amma Azərbaycanın qədim tarixi var, Azərbaycanın çox zəngin mədəniyyəti, mədəni irsi var. Bu haqda dünyada mövcud olan məlumatlar, informasiyalar çox azdır, çox aşağı səviyyədədir. Bu sahədə də böyük işlər görmək lazımdır. Müxtəlif ictimai-siyasi tədbirlər keçirilməlidir, Azərbaycandan nümayəndə heyətlərinin səfərləri təşkil olunmalıdır. Mədəniyyət xadimlərimizin səfərləri təşkil olunmalı, sərgilər keçirilməlidir. Mən demək istəmirəm ki, bu yoxdur. Var, amma lazımi səviyyədə deyildir. Əgər bu tədbirlər varsa, yalnız hansısa bir məhdud çərçivə bundan xəbər tutur. Yəni bu məsələlər müxtəlif ölkələrin mətbuatında öz əksini tapmır. Amma siz bilirsiniz ki, bu gün mətbuat dünyada çox böyük rol oynayır. Əlbəttə, biz istərdik ki, Azərbaycan haqqında gedən məlumatlar reallığa əsaslansın.

## Dünya Azərbaycanlılarının II Qurultayında Azərbaycan Prezidenti İlham Əliyevin nitqindən

***(16 mart 2006-cı il)***

... Bizim torpaqlarımız işğaldan azad olunandan sonra yeni şəhərlər tikəcəyik. Çünki işğal olunmuş torpaqlarda bütün binalar dağıdılıbdır. Erməni vandalları bütün binaları, orada olan bütün qəbiristanlıqları, məscidləri, məktəbləri, tarixi abidələri – hamısını dağıdıblar. Bu vəhşilikdir. Biz torpaqlarımızı azad edəndən sonra o bölgələri yenidən bərpa edəcəyik. Bizim iqtisadiyyatımız buna imkan verəcəkdir.

Bildiyiniz kimi, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi uzun illərdir ki, öz həllini tapmır. Düzdür, danışıqlar gedir, atəşkəs əldə ediləndən sonra danışıqların mərhələləri olubdur. Bir neçə dəfə sanki tərəflərin mövqeləri də yaxınlaşmışdır. Ancaq nəticə etibarilə münaqişə öz həllini tapmır. Biz 12 ildir ki, sülh danışıqlarına sadiqik. 12 ildir Ermənistanla Azərbaycan arasında atəşkəs rejimi var. Biz bu danışıqların bir nəticə verəcəyini ümid edərək, onlarda iştirak edirik. Ancaq nə vaxta qədər?! Bu proses əbədi ola bilməz. Çünki Azərbaycan xalqının və iqtidarının səbri tükənir. Biz sülh prosesinə sadiqik, danışıqlarda iştirakımız bunu bir daha göstərir. Biz istəyirik ki, bu məsələni müharibə yolu ilə yox, sülh yolu ilə həll edək. Bizim bütün səylərimiz, addımlarımız buna yönəldilibdir.

Amma biz görəndə ki, Ermənistan tərəfi konstruktiv mövqe tutmur, danışıqlarda özünü səmimi aparmır, dünya ictimaiyyətini aldatmaq istəyir, çaşdırmaq istəyir, onda bizim ayrı yolumuz qalmır. Bizim başqa yolumuz yoxdur. Biz nə vaxta qədər sülh prosesində iştirak edəcəyik?! Mən demişəm, necə deyərlər, əgər son ana qədər, son sınağa qədər biz hiss etsək ki, imkan var, sülh prosesində iştirak edəcəyik. Əgər görsək ki, bu proses, sadəcə, imitasiya xarakteri daşıyır, Azərbaycan bu prosesdə iştirak etməyəcəkdir. Bu münaqişə yalnız və yalnız beynəlxalq hüquq normaları əsasında öz həllini tapa bilər.

Tarixi baxımdan Dağlıq Qarabağ Azərbaycan torpağıdır və həmişə Azərbaycan torpağı olubdur. Ermənilər oraya XIX əsrin orta-

larına qədər köçürülmüşlər. Hətta Dağlıq Qarabağın özündə bunu təsdiq edən, 1978-ci ildə qoyulmuş və ermənilərin Qarabağa köçürülməsinin ildönümünü əks etdirən abidə də var idi. Sonra ermənilər onu vurub dağıtdılar. Ermənilər bizim torpaqlarımıza qonaq kimi gəlmişdilər. Ondan sonra orada əhali baxımından üstünlük əldə edərək, separatizm meyillərinə təkan verdilər. Davakar separatizm və Ermənistanın təcavüzkar, işğalçı siyasəti indi Azərbaycan torpaqlarının işğal olunmasına gətirib çıxarıbdır.

Beynəlxalq hüquq normaları hamı üçün eyni olmalıdır. Heç kim heç bir müstəsna yanaşmaya, yaxud da hüquqa malik ola bilməz. Beynəlxalq hüquq normaları tələb edir ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Bizim ərazi bütövlüyümüz bütün dünya tərəfindən qəbul edilir, Birləşmiş Millətlər Təşkilatı tərəfindən, bütün təşkilatlar tərəfindən tanınmışdır. Ona görə Ermənistanın işğalçı qüvvələri işğal olunmuş torpaqlardan çıxmalıdır, Azərbaycan vətəndaşları öz dədə-baba torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qayıtmalıdırlar. Ondan sonra Ermənistanla Azərbaycan arasında normal münasibətlər bərpa oluna bilər. Biz ancaq bu yolla sülh sazişinə imkan verə bilərik. Biz Dağlıq Qarabağın heç vaxt – nə bu gün, nə sabah, nə 10 ildən sonra, nə də 100 ildən sonra Azərbaycandan ayrılmasına razılıq verməyəcəyik.

Biz zərərçəkən tərəfik. Ermənistan bizə qarşı etnik təmizləmə siyasəti aparıbdır və vaxt gələcək, onlar buna görə beynəlxalq ictimaiyyət qarşısında cavab verəcəklər. Biz onlara imkan veririk ki, əgər onlar konstruktiv təkliflərə razılıq versələr, Minsk qrupunun həmsədrləri tərəfindən irəli sürülmüş yeni çərçivəyə razılıq versələr, Praqa prosesində səmimi şəkildə iştirak etsələr, onda Dağlıq Qarabağdakı ermənilərin təhlükəsizliyi, rahat yaşaması təmin olunacaqdır.

Dünyada mövcud olan çox müsbət təcrübə – milli azlıqlar üçün muxtariyyət təcrübəsi. Avropanın özündə də muxtariyyətlər var. Bir sıra başqa ölkələrdə də var. Muxtariyyət o demək deyil ki, sən separatizmlə məşğul olasan və yaşadığın torpağı o ölkədən ayırasan. Müxtəlif ölkələrdə muxtariyyət var, onun öz qayda-qanunları, tənzimləyici mexanizmləri var. Ancaq muxtariyyət bir, separatizm isə tamamilə

başqa şeydir. Muxtariyyət mümkündür və dünyada mövcud olan müsbət təcrübə, əlbəttə, münaqişə ilə əlaqədar da tətbiq olunmalıdır.

Yenə də deyirəm, bu, bizim prinsipial mövqeyimizdir və bu mövqedən heç vaxt dönməyəcəyik. Ancaq o da həqiqətdir ki, 12 ildir atəşkəs rejimi var və münaqişə öz həllini tapmır. Belə olan halda biz nə etməliyik? Bu barədə artıq Azərbaycanda, iqtidarda məsləhətləşmələr gedir. Əgər biz görsək ki, Ermənistan sülh prosesini pozmaq niyyətindədir və buna gətirib çıxaracaq, onda, əlbəttə ki, Azərbaycan öz siyasətində sülh prosesində iştirak məsələsinə yenidən baxmalı olacaqdır.

... Ermənistan bütün regional layihələrdən təcrid olunmuş vəziyyətdədir. Ona görə ki, biz onları təcrid etmişik. Ermənistanın inkişaf potensialı çox məhduddur, faktiki olaraq, yoxdur. İnvestisiya qoyulmur, əhali oradan gedir, yoxsulluq ölkəni bürüyür. Ermənistanın işğalçı siyasəti, əsassız iddiaları öz xalqına nə vaxta qədər mənfi təsir göstərəcəkdir?! Ona görə Dağlıq Qarabağ məsələsinin həlli, Azərbaycanın ərazi bütövlüyünün bərpası Ermənistan xalqına da xidmət göstərəcəkdir. Onlar da bu çətin vəziyyətdən çıxa, regionda gedən proseslərdə iştirak edə və ölkələrə normal qonşu ola bilərlər.

İndi baxın, onların hansı qonşu ilə normal münasibətləri var? Heç biri ilə. Azərbaycanın isə bütün qonşuları ilə çox açıq, səmimi münasibətləri var. Çünki biz əməkdaşlığa açığıq. Altdan-altdan heç kimə qarşı heç bir təxribat törətmirik, separatizmlə məşğul olmuruq. Əksinə, Azərbaycan ölkədə yaşayan bütün xalqların doğma vətənidir. Azərbaycan çoxmillətli ölkədir. Burada müxtəlif dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Azərbaycanda nə milli, nə dini zəmində heç vaxt problem olmamışdır və olmayacaqdır. Bu, bizim strateji xəttimizdir. Azərbaycanda bütün xalqlar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar.

Amma Ermənistana baxın – monodövlətdir, orada heç bir başqa millət yaşaya bilmir. Orada sovet vaxtında, deyəsən, 90 faiz idi, indi doxsan doqquz onda neçə faiz erməni yaşayır. Başqa insanlar, başqa millətə mənsub olanlar orada yaşaya bilmirlər. Onlar bu siyasətdən əl çəkməlidirlər. Bu siyasət onları uçuruma aparır.

Biz öz tədbirlərimizi görməliyik, biz möhkəmlənməliyik. Azərbaycan öz iqtisadi potensialını, hərbi potensialını, siyasi imkanlarını tam şəkildə işə salır. Biz hər istiqamətdə çox sürətlə, düşünülmüş proqram və konsepsiya əsasında irəliləyirik. Yenə də qeyd etmək istəyirəm ki, bu istiqamətdə Azərbaycan diasporunun çox böyük rolu var. Mən istəyirəm ki, Azərbaycanın dünyada təbliğ edilməsində, Azərbaycan həqiqətlərinin dünya birliyinə çatdırılmasında, azərbaycanlıların yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirakında bu rol daha da güclü olsun.

Məsələn, mən çox istəyirəm ki, azərbaycanlılar yaşadıqları bütün ölkələrin siyasi həyatında daha fəal rol oynasınlar. Siyasi partiyalara üzv olsunlar. Çalışsınlar ki, o ölkələrin qanunvericilik orqanlarına seçilsinlər. Bu, bizim mövqelərimizi möhkəmləndirir.

İqtisadi sahədə bizim mövqelərimiz çox möhkəmdir. Bu da çox önəmlidir və bizim imkanlarımızı daha da artırır. İndi gərək biz siyasi müstəvidə möhkəmlənək. Buna da gözəl zəmin var. Çünki iqtisadi baza olandan sonra siyasi proseslərdə iştirak etmək daha da asan olacaq və mən sizi bu işə də dəvət edirəm. Bizim diasporumuz həm siyasi, həm də iqtisadi proseslərdə fəal iştirak etməklə, Azərbaycanın mövqelərini daha da möhkəmləndirəcək ki, gücümüz daha da artsın. Bizim gücümüz sizin fəaliyyətinizdir. Sizin isə gücünüz Azərbaycan dövlətinin güclü olmasıdır. Azərbaycan dövləti nə qədər güclü olsa, sizin mövqeləriniz də bir o qədər güclü olacaqdır. Azərbaycanlıların yığcam yaşadıqları, yaxud da çox böyük sayda yaşadıqları ölkələrin dövlət, hökumət başçıları ilə mənim bu barədə çox geniş söhbətlərim olubdur. Elə bir görüş olmayıbdır ki, biz bu məsələyə toxunmayaq. Elə bir tədbir olmayıb ki, mən bu mövzunu dilə gətirməyim. Hər dəfə bunu edirəm və edəcəyəm. Çünki bu, bizim xalqımızın nüfuzunu möhkəmləndirir.

Azərbaycan xalqı böyük xalqdır. Biz 50 milyonuq. Bu, dünya miqyasında böyük xalqdır. Bizim hamımızın bir Vətəni var – Azərbaycan. Çalışmalıyıq ki, doğma Vətənimizi möhkəmləndirək, zənginləşdirək, qüdrətli dövlətə çevirək.

## Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin ikinci müşavirəsində Azərbaycan Prezidenti İlham Əliyevin nitqindən

***(14 avqust 2006-cı il)***

... Erməni lobbisi bizim əleyhimizə çox fəal kampaniya aparır və bunu hiss edirik, görürük. Bəzi hallarda müxtəlif xarici mətbuat orqanlarında Azərbaycana qarşı qərəzli məqalələrin arxasında da məhz erməni lobbisi dayanır. Biz bunu bilirik, öz mübarizəmizi aparmalıyıq və daha fəal olmalıyıq. Bu istiqamətdə öz siyasətimizi daha da güclü aparmalıyıq. Mən bir neçə dəfə demişəm, bir də demək istəyirəm, biz informasiya hücumuna keçməliyik. Biz Ermənistanın işğalçı siyasətini ifşa etməliyik. Çünki reallıq da bundan ibarətdir. Ermənistan Azərbaycan torpaqlarını zəbt edibdir və Ermənistanın təcavüzkar, etnik təmizləmə siyasəti nəticəsində bizim 1 milyondan çox soydaşımız qaçqın, köçkün vəziyyətinə düşübdür. Amma erməni lobbisi tərəfindən aparılan təbliğat bəzi ölkələrdə tam fərqli bir mənzərə yaradıbdır. Baxmayaraq ki, bir ölkə kimi Ermənistanın diplomatik imkanları çox məhduddur. Baxmayaraq ki, ölkə öz iqtisadi potensialına görə, əlbəttə, bizdən çox geridədir və imkanı yoxdur ki, müxtəlif ölkələrdə səfirliklər açsın. Amma erməni lobbisi onların, elə bil ki, səfirlikləridir və onlar bir nöqtəyə vururlar. Onların bir hədəfi var, o da Azərbaycandır. Biz bu sahədə çox ciddi işlər aparmalıyıq və aparırıq.

O ki qaldı Ermənistan–Azərbaycan münaqişəsinin həlli məsələsinə, bilirsiniz ki, danışıqlar Praqa prosesi çərçivəsində aparılmışdır. Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır. Biz hesab edirik ki, bu məsələ, bu münaqişə yalnız mərhələli yollarla öz həllini tapa bilər və Praqa prosesi, əslində məsələnin mərhələli həlli deməkdir. Azərbaycan torpaqları işğalçı qüvvələrdən azad olunmalıdır. Qaçqınlar, köçkünlər öz doğma torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qayıtmalıdırlar. Ondan sonra Dağlıq Qarabağın statusu məsələsi müzakirə oluna bilər. Status müzakirə ediləndə, əlbəttə ki, ilk növbədə, beynəlxalq hüquq normaları tətbiq olunmalı və dünyada mövcud olan müsbət praktika, təcrübə də tətbiq olunmalıdır. Bilirik ki, müxtəlif ölkələr-

də milli azlıqlar var, muxtariyyətlər var. Milli azlıq olmaq hələ o demək deyil ki, separatizm yolu ilə ölkənin bir hissəsini ondan ayırıb hansısa müstəqil dövlət qurasan. Azərbaycan heç vaxt imkan verməyəcək ki, ərazimizdə ikinci erməni dövləti yaradılsın. Bu, bizim birmənalı mövqeyimizdir və istəyirəm ki, siz də bunu biləsiniz.

Ermənistan tərəfi danışıqların gedişatı zamanı təxribat xarakterli müxtəlif uydurmalar, bəzi fərziyyələr irəli sürür. Bu, onların arzuları ola bilər, amma reallığı əks etdirmir. Reallıq da tam başqadır. Bizim mövqeyimiz beynəlxalq hüquq normalarına əsaslanır. Beynəlxalq hüquq normaları onu tələb edir ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun. Dağlıq Qarabağ həm tarixi, mədəni baxımdan, eyni zamanda hüquqi baxımdan Azərbaycanın ayrılmaz hissəsidir. Azərbaycan Birləşmiş Millətlər Təşkilatına Dağlıq Qarabağla birlikdə üzv olmuşdur. Azərbaycanın ərazi bütövlüyünü bütün ölkələr, o cümlədən Minsk qrupunun həmsədr ölkələri də tanıyırlar. Belə olan halda, Dağlıq Qarabağın Azərbaycandan hansı ayrılmasından söhbət gedə bilər?! Tamamilə mümkün olan məsələ deyildir.

Azərbaycanın mövqeləri günü-gündən möhkəmlənir. Bir də demək istəyirəm ki, hüquqi cəhətdən bizim mövqelərimiz sarsılmazdır. Ermənistanın mövqeyi çox zəifdir. Yəni, deyirlər ki, Dağlıq Qarabağda yaşayan ermənilər öz müqəddəratını təyin etməlidirlər. Belə olan halda, başqa ölkələrdə də ermənilər var. Mən bunu həmişə demişəm, onlar başqa ölkələrdə də öz müqəddəratlarını təyin edəcəklər?! Amerikada, Los-Ancelesdə erməni dövləti yaradacaqlar? Yoxsa Fransada, Marseldə, yoxsa Krasnodar vilayətində, yoxsa Gürcüstanda? Əgər onlar bu məntiqlə yanaşırlarsa, dünyada neçə erməni dövləti yaranacaqdır?! Bu, mümkün olan şey deyil. Nə üçün burada Azərbaycan istisna olmalıdır? Nə üçün ikinci erməni dövləti məhz Azərbaycan ərazisində yaradılmalıdır? Hansı məntiqdən söhbət gedir? Mən bütün başqa məsələləri kənara qoyuram. Biz buna heç vaxt imkan verməyəcəyik və bir daha bunu bəyan edirəm. Amma, sadəcə, məntiqdən söhbət gedir. Ona görə onların hüquqi mövqeləri çox zəifdir.

Gəlin, tarixi götürək. Tarixi baxımdan da Qarabağ həmişə Azərbaycan torpağı olubdur, bizim torpağımızdır. Yəqin onu da yaxşı bi-

lirsiniz ki, İrəvan Ermənistana Azərbaycan Xalq Cümhuriyyəti yarananda, məhz Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən verilmişdir. İrəvan xanlığında yaşayan insanların əksəriyyəti azərbaycanlı idi. Zəngəzur mahalında yaşayanların hamısı azərbaycanlı idi. Ona görə, tarixi baxımdan da bu, bizim torpağımızdır.

Gəlin, iqtisadi cəhətdən baxaq. Bu gün Azərbaycanı və Ermənistanı müqayisə etmək mümkün deyil. Bizim iqtisadiyyatımız bu gün Ermənistan iqtisadiyyatından beş-altı dəfə böyükdür. Nəzərə alsaq ki, bizim əsas layihələrimiz indi başlanğıc mərhələsindədir, gəlin, bir az uzağa baxaq. Gəlin, üç il, beş il irəliyə baxaq ki, nə olacaq? Ermənistan Azərbaycanla rəqabət apara biləcəkmi? Yox! Bunu nə qədər tez başa düşsələr, onlar üçün o qədər də faydalı olar. Əgər onlar Azərbaycanın indiki təkliflərinə razı olmasalar, Azərbaycanın ondan sonrakı təklifləri daha da sərt olacaqdır. Onu da yaddan çıxartmamalıdırlar. Ona görə, bütün istiqamətlərdə üstünlük bizim tərəfimizdədir.

Yenə də demək istəyirəm ki, siyasi proseslər baxımından Azərbaycan tam şəkildə müstəqil siyasət aparmaq iqtidarında olan bir ölkədir və bunu edir. Bununla bərabər, dünyanın aparıcı ölkələri ilə çox səmimi, işgüzar münasibətlər qura bilibdir. Bu münasibətlər bərabərlik prinsipi, qarşılıqlı hörmət əsasında, daxili işlərə qarışmamaq şərti ilə qurulubdur.

Azərbaycanın torpaqlarını zəbt edən və daim narahatlıq hissləri keçirən Ermənistan, istər-istəməz, özünə haradasa sığınacaq, hami axtarır. Belə olan halda, təbii ki, ölkənin müstəqil siyasət aparmaq gücü tükənir. Nəzərə alsaq ki, iqtisadi cəhətdən, coğrafi vəziyyətdən, dünya üçün önəmi baxımından Azərbaycanla müqayisəedilməz səviyyədədir, əlbəttə ki, bu münaqişənin həll olunmaması nəticəsində Ermənistanın gələcəyi çətin olacaqdır.

Bildiyiniz kimi, son illər ərzində ordu quruculuğuna böyük diqqət göstərilir. Bu da təbiidir. Birinci növbədə ona görə ki, Azərbaycanın bütövlükdə büdcəsi artır. Son üç il ərzində Azərbaycanın büdcəsi dörd dəfə artmışdır, yenə də artacaq, gələn il daha da artacaqdır. Təbii ki, bununla bərabər, bütün başqa xərclər artdıqca, hərbi xərclər də artır. Bu, məsələnin bir tərəfidir. Yəni burada heç bir föv-

qəladə məsələ yoxdur. Bəzi hallarda müəyyən xarici dairələrdə belə bir fikir yaranır ki, Azərbaycanın hərbi xərcləri artır, bu, regionda təhlükə yarada bilər. Biz ancaq hərbi xərcləri artırsaydıq, deyə bilərdik ki, bəli, məntiq var. Amma bütün xərclər artır, o cümlədən hərbi xərclər. Amma bununla bərabər, Azərbaycan müharibə şəraitində yaşayan bir ölkədir. Atəşkəs rejiminin mövcud olması o demək deyil ki, müharibə qurtarıbdır. Müharibə qurtarmayıbdır. Müharibənin birinci dövrü müvəqqəti olaraq dayandırılıb, atəşkəs rejimi yaranıbdır. Amma o demək deyil ki, müharibə qurtarıbdır. Biz müharibə şəraitində yaşayan, torpaqlarımız işğal altında olan ölkəyik. Belə olan halda, müdafiə xərclərinin artması zəruridir. Bu, bu gün də var, sabah da olacaq və bu siyasət bundan sonra da davam etdiriləcəkdir.

Bir sözlə, mən bir daha demək istəyirəm ki, biz sülh danışıqlarına sadiqik. Biz hesab edirik ki, Praqa prosesi çox müsbət bir çərçivədir və Azərbaycan bu çərçivədə razılaşmanın əldə olunmasında maraqlıdır və buna hazırdır. Amma Ermənistanın qeyri-konstruktiv mövqeyi imkan vermir ki, Praqa prosesinin əsas müddəaları həyata keçsin. Ancaq biz hələ ki, ümidlərimizi üzməmişik. Hələ ümidlərimiz var ki, bu məsələ danışıqlar yolu ilə həll oluna bilər. Amma bunu həll etmək üçün birinci növbədə, Ermənistan konstruktiv mövqe nümayiş etdirməlidir. Digər tərəfdən, bu məsələ ilə məşğul olan vasitəçilər də daha da fəal olmalıdırlar. Ermənistanla Azərbaycanı bir müstəviyə qoymaq olmaz. Biz zərərçəkən ölkəyik. Nəyimiz var ki, biz onu Ermənistana güzəştə gedək? Biz onların torpağını zəbt etməmişik ki, onu qaytaraq. Ona görə, gərək bu yanaşmaya düzəliş edilsin. Burada açıq-aydın göstərilməlidir ki, müharibənin təşəbbüskarı kim olub və zərərçəkən tərəf kim olubdur.

Hesab edirəm ki, mən bu barədə fikirlərimi kifayət qədər sizə çatdırdım. Bir də demək istəyirəm ki, Azərbaycanın mövqeyində heç bir dəyişiklik yoxdur. Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız beynəlxalq hüquq prinsipləri əsasında öz həllini tapa bilər. Siz də çalışdığınız ölkələrdə bu məsələni gündəliyin birinci məsələsi kimi həmişə nəzərdə saxlamalısınız.

## Türkdilli dövlətlərin və topluluqların X Dostluq, Qardaşlıq və Əməkdaşlıq qurultayında Prezident İlham Əliyevin nitqindən

***(18 sentyabr 2006-cı il)***

... Bəzi hallarda bizim haqqımızda süni şəkildə mənfi rəy formalaşdırılır və bunun arxasında Türkiyə və Azərbaycana düşmənçilik mövqeyi tutan erməni lobbisinin fəaliyyəti dayanır. Biz bunu çox gözəl görürük və hiss edirik. Bizim əleyhimizə çox böyük, mütəşəkkil, böyük maliyyə dəstəyinə malik olan və bəzi riyakar siyasətçilər tərəfindən dəstəklənən erməni lobbisi fəaliyyət göstərir. Biz onların təbliğatını ifşa etməliyik, darmadağın etməliyik, ancaq müdafiə naminə yox. Biz hücum etməliyik, çünki həqiqət bizim tərəfimizdədir. Baxın, Türkiyə dövlətinə ərazi iddiasında olan, Türkiyənin sərhədlərini tanımayan, Türkiyə hökumətinin arxivlərin açılmasına dair təkliflərini rədd edən Ermənistan bütün dünyada Türkiyəyə qarşı təbliğat aparır və dırnaqarası soyqırımını tanıtdırmaq istəyir. Ərazi baxımından tarixi Azərbaycan torpağında yerləşən, vaxtilə İrəvan xanlığının ərazisində və onun ətrafında yerləşən Azərbaycan torpaqlarında yaradılmış Ermənistan dövləti indi Azərbaycana qarşı ərazi iddiasındadır və təcavüz yolu ilə torpaqlarımızı ələ keçirmək istəyir. Torpaqlarımızın 20 faizi işğal altındadır, etnik təmizləmə siyasəti aparılmışdır və bu siyasət nəticəsində 1 milyondan çox azərbaycanlı öz doğma torpaqlarından didərgin düşmüşdür. Ancaq, buna baxmayaraq, erməni təbliğatı daim bizi hədəfdə saxlayır. Biz hücuma keçməliyik, onların yalan, iftira üzərində qurulmuş təbliğatını darmadağın etməliyik və bütün səyləri birləşdirib, həqiqəti bərpa etməliyik. Azərbaycan heç vaxt öz torpağında ikinci erməni dövlətinin yaranmasına icazə verməyəcəkdir. Azərbaycan bütün imkanlarını səfərbər edib, diplomatik, siyasi, iqtisadi, hərbi – bütün imkanlardan istifadə edib, öz doğma torpaqlarını azad edəcəkdir.

Bir daha demək istəyirəm ki, xaricdə bizim fəaliyyətimiz daha da yüksək səviyyədə qurulmalıdır. Bu baxımdan, diaspor təşkilatlarının fəaliyyətinə böyük önəm verilməlidir. Diaspor təşkilatlarımız xaricdə çox sıx əməkdaşlıq edir. Türkiyə və Azərbaycan diasporlarının müxtəlif ölkələrdə birgə layihələri, birgə tədbirləri çox uğurludur və əminəm ki, bu, gələcəkdə bizim imkanlarımızı daha da artıracaqdır. Hesab edirəm ki, biz gələn il Türkiyə və Azərbaycan diaspor təşkilatları rəhbərlərinin forumunun keçirilməsi məsələsinə də baxmalıyıq. Mən təklif edirəm ki, gələn ilin birinci yarısında Azərbaycanda birinci forumu keçirək, Türkiyə və Azərbaycan diasporlarının birgə fəaliyyətini bir daha təhlil edib, onları istiqamətləndirək.

Bir sözlə, gələcəkdə çox işlər var. Biz türk dünyasını daha da mütəşəkkil şəkildə birləşdirməliyik və türk dünyasında gedən proseslərə biganə qalmamalıyıq. Daim bir-birimizə dəstək olmalıyıq, bir-birimizin problemlərinin həllində iştirak etməliyik. Əminəm ki, birgə səylər nəticəsində türk dünyası dünyada çox böyük imkanlara, çox güclü siyasi mövqeyə malik olacaq və beləliklə, bizim işlərimiz daha da uğurla həyata keçiriləcəkdir. Biz bunu istəyirik. Bugünkü qurultay bu işdə çox böyük önəmi olan addımdır. Mən qurultayın bütün iştirakçılarına uğurlar diləyirəm. Qurultayın keçirilməsində fəaliyyət göstərmiş TÜDEV və TİKA təşkilatlarının rəhbərlərinə öz minnətdarlığımı bildirirəm və bütün türk dünyasına uğurlar, uğurlar və qələbə arzulayıram.

## Türkdilli ölkələrin dövlət başçılarının VIII zirvə görüşündə İlham Əliyevin nitqindən

***(17 noyabr 2006-cı il)***

… İndiki mərhələdə yeni müstəqil ölkələr artıq öz inkişaf dövrünü yaşayır. Demək olar ki, bütün ölkələrdə tənəzzül və iqtisadi çətinliklər arxada qalmışdır. Bizim iqtisadiyyatımız sürətlə inkişaf edir, siyasi proseslər normal məcrada gedir və təbii ki, ikitərəfli əlaqələrimiz də möhkəmlənir. Ölkələrimiz arasında ikitərəfli əlaqələr yüksək səviyyədədir və biz bunu möhkəmləndiririk. Əlbəttə ki, çoxtərəfli əlaqələrin möhkəmlənməsinə də böyük ehtiyac var. Ona görə bu zirvə görüşünün uzun fasilədən sonra keçirilməsinin çox böyük əhəmiyyəti var, buna böyük ehtiyac var. Dünya dəyişir, bölgəmizdə baş verən hadisələr yeni yanaşmalar tələb edir, yeni çağırışlar ortaya çıxır və biz birlikdə bunlara çarə tapmalıyıq. Birgə fəaliyyətimiz nəticəsində bölgəni inkişaf etdirmək üçün, sülhün, təhlükəsizliyin, sabitliyin tam şəkildə bərqərar olunması üçün bizim birgə səylərimiz böyük əhəmiyyət kəsb edir.

Bizi birləşdirən tarixi köklər, ortaq mədəniyyət, etnik mənsubiyyət, əlbəttə ki, qarşılıqlı, səmərəli fəaliyyətimiz üçün çox böyük əsasdır, böyük amildir. Mədəni əlaqələrimizin inkişaf etdirilməsi insanlar arasında əlaqələrin möhkəmlənməsinə gətirib çıxarır və bu məqsədə nail olmaqda mən TÜRKSOY təşkilatının fəaliyyətini yüksək qiymətləndirmək istəyirəm. Bu təşkilatın fəaliyyəti nəticəsində bizim xalqlarımız bir-birinə daha da yaxın oldular. Siyasi əlaqələrimiz çox yüksək səviyyədədir və iqtisadi sahədə böyük işlər görülübdür, bizim münasibətlərimiz hərtərəfli inkişaf edir.

İqtisadi sahədə bizi birləşdirən konkret, real layihələr var və onların uğurla həyata keçirilməsi həm ölkələrimiz üçün, həm də bölgə üçün yeni imkanlar açır. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istismara verilməsi tarixi hadisədir və bu kəmər bundan sonra uzun illər, onilliklər ərzində bölgənin həm iqtisadi inkişafına, həm də ki, təhlü-

kəsizliyinin möhkəmlənməsinə xidmət göstərəcəkdir. Qardaş Qazaxıstanın bu layihəyə qoşulması ona yeni dinamizm gətiribdir, artıq çox böyük mənada regional layihəyə çeviribdir. Əminəm ki, fəaliyyətə başlamış kəmərin uzun illər ərzində istismarı nəticəsində xalqlarımızın rifahı yaxlışacaq, bizim əlaqələrimiz daha da möhkəmlənəcək və beləliklə, bölgədə sülhün, təhlükəsizliyin təmin edilməsi mümkün olacaqdır.

Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin çəkilməsi Azərbaycan qazının Türkiyəyə və Avropaya çatdırılması deməkdir, Avropanın enerji təhlükəsizliyi məsələlərinin həlli üçün töhfədir və bu istiqamətdə ölkələrimizin birgə fəaliyyəti çox böyük əhəmiyyət kəsb edir. Xəzər dənizi hövzəsində yerləşən ölkələrin çox zəngin təbii ehtiyatları – neft, qaz ehtiyatları var və bunlar artıq ölkələrimizin, xalqlarımızın inkişafı üçün böyük əhəmiyyət daşıyır. Çünki bölgəyə, ölkələrə maddi rifah gətirir. Siyasi proseslərin inkişafına gətirib çıxarır, ölkələrimizdə demokratik proseslərə də müsbət təsir göstərir. Zəngin olmayan ölkələrdə, yaxud kasıb ölkələrdə demokratik proseslər ləng gedir.

… Biz müstəqilliyimizin 15 ilini yaşadıq. Bu illər ərzində problemlər də oldu, çətinliklər də, böhranlar da oldu. Bizim bir-birimizə dəstək verməyimiz, əlbəttə ki, çətinliklərin aradan qaldırılmasına böyük imkanlar yaratdı. Azərbaycanın sürətli iqtisadi inkişafı artıq reallıqdır. Avropa Yenidənqurma və İnkişaf Bankının bu yaxınlardakı hesabatına görə, Azərbaycan iqtisadi artımın sürəti baxımından dünyada lider dövlətə çevrilibdir. 2005-ci ildə bizim iqtisadiyyatımız 26 faiz, 2006-cı ildə isə 34 faiz artmışdır. Sənaye istehsalı 40 faiz artmışdır. Bu, ölkənin dinamik inkişafına imkanlar yaradır, eyni zamanda bizim iqtisadi potensialımızı möhkəmləndirir. Çox istəyirik ki, bizə qardaş olan ölkələr bu imkanlardan faydalansınlar və biz də o ölkələrin imkanlarından faydalanaq. Artıq bizim ölkələrimiz dinamik inkişafa qədəm qoyubdur. Yeni iş yerləri, yeni müəssisələr, neft-qaz kəmərləri yaradılır, nəqliyyat strukturu müasirləşir, modernləşir və dünya standartlarına cavab verir. Ona görə iqtisadi sahədəki əməkdaşlığımız və gələcək fəaliyyətimiz, əminəm ki, ölkələrimiz arasında olan münasibətlərə çox böyük təkan verəcəkdir.

Ancaq bizi narahat edən problemlər də kifayət qədərdir. Biz yerləşdiyimiz bölgənin problemləri ilə yaşayırıq. Əfsuslar olsun ki, bölgəmizdə, o cümlədən Azərbaycanda hələlik sülh, sabitlik, təhlükəsizlik bərqərar olunmayıbdır. Azərbaycanın ən ağrılı problemi Ermənistanın Azərbaycana qarşı davam edən işğalıdır. Bu, həm bizim üçün böyük problemdir, həm də bölgə üçün sabitliyi poza biləcək amildir. Biz məsələni sülh yolu ilə həll etmək niyyətindəyik. Beynəlxalq hüquq normaları və prinsipləri əsasında həll etmək niyyətindəyik. Hər bir münaqişə, hər bir mübahisə müəyyən çərçivələr, dünyada mövcud olan prinsiplər, normalar əsasında həll edilməlidir. Xüsusilə dünyanın ən aparıcı təşkilatı olan Birləşmiş Millətlər Təşkilatının qərarları əsasında həll olunmalıdır. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası məsələnin həllinə və Ermənistan qoşunlarının torpaqlarımızdan qeyd-şərtsiz şəkildə çıxarılmasına dair dörd qətnamə qəbul etmişdir. Ermənistan bunlara məhəl qoymur. İslam Konfransı Təşkilatının bu məsələdə dəstəyinə görə biz təşkilata üzv olan ölkələrə minnətdarıq. O təşkilat da müvafiq qərarlar qəbul edibdir. Avropa Şurası kimi mötəbər təşkilat keçən ilin yanvar ayında Ermənistan–Azərbaycan münaqişəsinə dair qərar qəbul edib və orada Ermənistanı işğalçı dövlət kimi tanıyıbdır.

Ancaq Ermənistana bunun heç bir təsiri yoxdur. Belə olan halda, beynəlxalq tənzimləmə mexanizmlərinə bizim ümidimiz azalır. Belə olan halda, bölgədə vəziyyət gərginləşə bilər. Azərbaycan torpağının 20 faizini itiribdir, etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq soydaşımız qaçqın, köçkün vəziyyətində yaşayır. İşğal olunmuş torpaqlarımızdakı bütün tarixi, mədəni, dini abidələr dağıdılıbdır, daş daş üstə qalmayıbdır. Torpaqlarımız yandırılır, meşələrimiz qırılır, dini məbədlərimiz dağıdılır, vandalizm aktları törədilir. Dağlıq Qarabağ adlı qeyri-qanuni, kriminal qurum beynəlxalq nəzarətdən tamamilə kənardadır. Orada nə baş verir – beynəlxalq ictimaiyyət bundan xəbərsizdir. Bizdə olan məlumata görə, orada kriminal əməliyyatlar baş verir, narkotrafik inkişaf edir, qanunsuz silah alveri gedir, terrorçular hazırlanır. Terrorizmdən əziyyət çək-

miş ölkə kimi Azərbaycan terrorizmin nə olduğunu yaxşı bilir. Ona görə biz tələb edirik ki, məsələ yalnız və yalnız beynəlxalq hüquq normaları əsasında həll olunmalıdır. Bu, hansısa ölkənin xülyaları əsasında həll oluna bilməz. Biz də çox şey istəyə bilərik. Bizim tarixi torpağımız olan İrəvan xanlığının ərazisi bu gün Ermənistan dövlətinin tərkibindədir. Ancaq biz məsələyə reallıqla yanaşırıq. Biz bilirik ki, əgər dünyada mövcud olan sərhədlərə toxunularsa, bu, çox xoşagəlməz hadisələrə gətirib çıxara bilər, çox böyük fəlakətlərə gətirib çıxara bilər.

Ona görə hər bir ölkənin ərazi bütövlüyü tanınmalıdır. Azərbaycanın da ərazi bütövlüyü Ermənistandan başqa, bütün dünya dövlətləri tərəfindən tanınır. Mən bir daha qeyd etmək istəyirəm ki, biz məsələnin sülh yolu ilə həllinə tərəfdarıq və bunun üçün əlimizdən gələni edirik. Bizə göstərilən diqqətə, qayğıya və dəstəyə görə qardaş dövlətlərə minnətdarıq. Bu dəstək bizim üçün çox önəmlidir və çalışacağıq ki, bütün imkanlardan istifadə edib, məsələnin ədalətli həllinə nail olaq. Bunu etmək üçün biz güclü olmalıyıq. İqtisadiyyatımızı möhkəmləndirməliyik, potensialımızı gücləndirməliyik, bölgədə daha da möhkəm mövqelərə malik olmalıyıq. Əlbəttə ki, belə olan halda, danışıqlar prosesində bizim mövqeyimiz daha da güclü olacaqdır.

... Hər bir türkdilli ölkənin problemi digərlərinin probleminə çevrilməlidir. Biz Türkiyənin Avropa Birliyinə üzv olmaq cəhdlərini alqışlayırıq, dəstəkləyirik. Bəzi hallarda Türkiyəyə qarşı olan ədalətsizliyi görəndə biz də çox üzülürük, bu, bizə də çox böyük təsir göstərir. Çünki dünyada ədalət olmalıdır, çərçivələr olmalıdır, davranış qaydaları olmalıdır. Hər bir insan, hər bir dövlət ədalətsizliyi görəndə, əlbəttə ki, buna dözə bilmir. Bizim işimiz haqq işidir. Biz ədalətin, sülhün tərəfdarıyıq, əməkdaşlığın tərəfdarıyıq. Şübhə etmirəm ki, bu görüşdə və gələcəkdə zirvə görüşlərində qəbul ediləcək qərarlar bizim birliyimizi daha da möhkəmləndirəcəkdir …

## Azərbaycan Prezidenti İlham Əliyevin Dünya Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I forumunun təntənəli açılış mərasimindəki nitqindən

***(9 mart 2007-ci il)***

... Azərbaycan müstəqilliyinin 15 ilini yaşamışdır. Artıq bu kiçik tarix göstərdi ki, ölkəmiz müstəqil dövlət kimi yaşaya, inkişaf edə bilir. Əgər biz müstəqilliyimizin ilk illərinə nəzər salsaq, görərik ki, o vaxt ölkəmizin durumu çox acınacaqlı idi. İqtisadi tənəzzül, siyasi böhran, Azərbaycanda gedən xoşagəlməz proseslər ölkəmizin bütövlükdə müqəddəratını sual altında qoymuşdu. İlk illərdə qardaş Türkiyənin dəstəyi bizim üçün həlledici oldu. Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan birinci ölkə olmuşdur və ilk illərdən Azərbaycana öz qardaş əlini uzatdı. Buna görə mən Türkiyəyə, bütün türk xalqına Azərbaycan xalqı adından dərin minnətdarlığımı bildirirəm.

Xatırlayıram ki, müstəqilliyimizin ilk illərində Azərbaycan səfirlikləri Türkiyə səfirliklərinin binalarında yerləşmişdi. Bizim binalarımız yox idi, imkanlarımız yox idi. Ancaq bu gün Azərbaycanın müxtəlif ölkələrdə 51 səfirliyi vardır. Bu onu göstərir ki, ölkəmiz çox dinamik şəkildə inkişaf edir. Əgər 1991-ci ildə Sovetlər Birliyində, keçmiş respublikalar arasında Azərbaycan axırıncı yerdə idisə, bu gün ən qabaqcıl yerlərdədir. 15 il ərzində siyasi proseslər normal məcraya düşdü. Azərbaycanda siyasi sabitlik tam şəkildə bərqərar olundu, iqtisadi inkişafa qədəm qoyduq və bu gün Azərbaycan iqtisadi artım baxımından dünyada birinci ölkədir.

... Türkiyəni Azərbaycanla birləşdirən tarixi əlaqələr çox güclüdür. Ancaq indiki zəmanədə siyasi proseslər, siyasi əlaqələr onu daha da gücləndirir. Həm siyasi, həm də iqtisadi, mədəni, hərbi – bütün sahələrdə bizim aramızda ən yüksək işbirliyi, anlaşma var. Belə forumların keçirilməsi bizim birliyimizi daha da gücləndirir. Bütün türk dünyasının birliyini gücləndirir. Biz böyük qüvvəyik. Gərək elə edək ki, maraqlarımız tam şəkildə təmin olunsun, bizi narahat edən

problemlər aradan qaldırılsın, ədalət zəfər çalsın və xalqlarımız rahat yaşasınlar. Biz buna layiqik və birgə səylərlə, birgə işlərlə buna nail olacağıq. Bu gün Azərbaycana bütün türk dünyasının nümayəndələrinin və qonaqların gəlməsi bu gözəl birliyin əyani sübutudur. Öz maraqlarımızı təmin etmək üçün biz güclü olmalıyıq.

... Bizim ölkələrimizi fərqləndirən cəhət ondadır ki, ölkələrimizdə çox güclü tolerantlıq, dözümlülük var. Ölkələrimizdə bütün xalqlar bir ailə kimi yaşayırlar, nə dini, nə də etnik baxımdan heç bir ayrı-seçkilik yoxdur. Onu da bilirik ki, heç də hər bir ölkədə belə deyildir. Hətta dünyanın ən inkişaf etmiş ölkələri kimi tanınan dövlətlərdə də dini, yaxud da ki, etnik zəmində qarşıdurmalar var, gərginlik artır. Bir tərəfdən, sivilizasiya olaraq, dialoq məsələsi gündəmə salınıb və geniş müzakirə olunur, digər tərəfdən, qarşıdurma da artır. Bizim örnəyimiz tədqiq edilməli və əsas götürülməlidir. Bu, bizim gücümüzdür və ölkələrimizdə yaşayan bütün xalqlar bizim qardaşlarımızdır. Biz elə etməliyik ki, ölkələrimizin həm siyasi, həm iqtisadi durumu daha da yaxşı olsun ki, burada yaşayan bütün xalqlar özlərini daha da rahat hiss etsinlər.

Avropa ilə, böyük dövlətlərlə münasibətlərdə də bizim baxışlarımız üst-üstə düşür və bu, bizim birləşməyimiz üçün, birgə fəaliyyət planının olması üçün də çox böyük əhəmiyyət kəsb edir.

Xaricdə yaşayan soydaşlarımızın fəallığı bizi çox sevindirir. Biz də buna çalışırıq və əlimizdən gələni edirik ki, bu proseslər daha da sürətlə getsin. Azərbaycanda iki dəfə – 2001-ci ildə və 2006-cı ildə dünya azərbaycanlılarının qurultayları keçirilmiş və bunların nəticəsi çox müsbət olmuşdur. Təşkilatlanma prosesi sürətlə gedir. Bildiyiniz kimi, azərbaycanlılar başqa ölkələrdə əvvəllər də yaşayıblar. Amma Sovet İttifaqı zamanı xaricdə yaşayan azərbaycanlılar mədəni dərnəklər çərçivəsində fəaliyyət göstərirdilər. Azərbaycan müstəqil ölkə olandan sonra təşkilatlanma prosesi başlanmışdır və indi sürətlə gedir. Azərbaycanlılar yaşayan bütün xarici ölkələrdə təşkilatlanma prosesi gedir və bu gün Azərbaycan diaspor təşkilatları artıq böyük bir gücdür, Azərbaycanla onların çox sıx əlaqələri var. Bütün

fəaliyyət planı müzakirə olunur, əlaqələndirilir və biz vahid mövqedən çıxış edirik. Ona görə xaricdə yaşayan soydaşlarımızın fəallığı çox önəmli bir faktdır.

İlk növbədə, biz, dövlətlər onların rahat yaşaması üçün əlimizdən gələni etməliyik. Biz nə qədər güclü olsaq, onların da orada yaşaması daha da rahat olacaqdır. Ölkələrimizin çəkisi artdıqca, onlara da münasibət daha yaxşı olacaqdır. Digər tərəfdən, onlar Azərbaycanın və Türkiyənin həqiqətlərini çatdırmalıdırlar və bunu edirlər. Çünki, əfsuslar olsun ki, bu günə qədər geniş mənada dünya ictimaiyyətində bizim haqqımızda tam həqiqəti əks etdirən rəy yoxdur. Bunun da səbəbləri var. Bizim əleyhimizə çox güclü erməni lobbisi fəaliyyət göstərir. O, Türkiyə və Azərbaycana düşmənçilik mövqeyindədir və bizi ləkələmək, ölkələrimizdə gedən prosesləri təhrif etmək, yalan, böhtan kampaniyasını aparmaq onların əsas peşəsidir. Biz bunun qarşısına öz siyasətimizi, öz təbliğat mexanizmimizi qoymalıyıq və qoyuruq. Ona görə xaricdə yaşayan soydaşlarımız daha da güclənməlidir, təşkilatlanma prosesi daha da sürətlə aparılmalıdır. Onlar yaşadıqları ölkələrin siyasi dairələrinə, siyasi təsisatlarına daha da fəal inteqrasiya etməlidirlər. Biz bunu türk diasporunun timsalında görürük, onların çox böyük uğurları var. Türk qardaşlarımız artıq müxtəlif ölkələrin qanunvericilik orqanlarında təmsil olunurlar, onlardan hökumət nümayəndələri var, ictimai təşkilatlarda fəaldırlar.

Biz də buna çalışırıq. Biz indi ilkin mərhələdəyik, xaricdə yaşayan azərbaycanlıların təşkilatlanma prosesi hələ davam edir. Bildiyiniz kimi, bu məqsədlə 2002-ci ildə Ulu Öndər Heydər Əliyev tərəfindən Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradılıb və bu komitə bütün diaspor təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi ilə məşğuldur.

Bir sözlə, fəallıq göstərmək, siyasi proseslərdə iştirak etmək, biznes aləmində yüksək yer tutmaq və buna nail olmaq üçün bizim imkanlarımızdan faydalanmaq lazımdır. Türkiyənin çox böyük siyasi və iqtisadi potensialı var, Azərbaycanda iqtisadiyyat çox sürətlə

inkişaf edir və qardaşlarımız bizim imkanlarımızdan faydalanmalıdırlar. Onsuz da bizim ölkələrimizdə xaricdən çoxlu iş adamları fəaliyyət göstərirlər, çoxlu şirkətlər var. Biznes mühiti Azərbaycanda da, Türkiyədə də çox münasibdir. Bilirsiniz ki, biz bizneslə məşğul olmaq istəyənləri alqışlayırıq və onların fəaliyyətini dəstəkləyirik. Çox istərdim ki, onların arasında, xarici vətəndaşların arasında bizim soydaşlarımızın sayı çoxalsın.

Biz bu yolla onlara dəstək verməliyik, yaşadıqları ölkələrdə onların siyasətini gücləndirməliyik. Müxtəlif tədbirlər keçirilir və keçirilməlidir. Konfranslar, kitabların nəşri, bizim tariximizi, keçmişi və bu günü əks etdirən həqiqətlərin yayılması – bu, daimi proses olmalıdır. Xaricdə fəaliyyət göstərən bütün qeyri-hökumət təşkilatları ilə çox ciddi işbirliyi qurulmalıdır. Bir daha demək istəyirəm, hökumət üzvləri, parlament üzvləri ilə daim bu iş aparılmalıdır. Əgər biz istəyiriksə ki, səsimiz daha da ucadan gəlsin, bizi narahat edən problemlər daha da asanlıqla öz həllini tapsın, haqq-ədalət bərpa olunsun, mütləq bunu etməliyik. Xaricdəki türk, Azərbaycan diasporu artıq çox böyük gücə çevrilibdir. Bugünkü forumun ən böyük önəmi və deyə bilərəm ki, tarixi nailiyyəti ondadır ki, artıq biz öz fəaliyyətimizi birləşdiririk. Əminəm ki, bu gündən sonra türk və Azərbaycan diaspor təşkilatları vahid orqanizm kimi çalışacaqlar. Bütün işlərdə öz fəaliyyətini əlaqələndirəcək, bizimlə, dövlətlərlə məsləhətləşmələr aparacaqlar. Xarici siyasət baxımından, ictimai proseslərin inkişafı baxımından daim bu əlaqələr olmalıdır. Düzdür, xaricdə yaşayan insanların böyük əksəriyyəti yaşadıqları ölkələrin vətəndaşlarıdır və bu da təbiidir. Amma onlar türkdürlər, azərbaycanlıdırlar və bizim millətə xas olan vətənpərvərlik, öz vətəninə bağlılıq, öz milli mənəvi dəyərlərinə olan hörmət, ənənələrin qorunması, əlbəttə ki, onların milli mənsubiyyətini qoruyub saxlayacaqdır. Bilirik ki, bəzi hallarda assimilyasiya prosesləri də gedir. Buna imkan vermək olmaz. Biz bunun qarşısını necə ala bilərik? Ancaq vətənlə güclü əlaqələrin saxlanması ilə, Türkiyədən, Azərbaycandan Avropaya və başqa ölkələrə mütəmadi qaydada heyətlərin – iş adamları-

nın, siyasətçilərin, parlament üzvlərinin, incəsənət xadimlərinin göndərilməsi ilə. Bu əlaqələr çox güclü olmalıdır ki, xaricdə yaşayan soydaşlarımız öz vətənləri ilə əlaqələrini kəsməsinlər. Onların başqa ölkələrdə dünyaya gələn, yaşayan övladları, uşaqları, nəvələri də bizə bağlı olsunlar. Bu, çox ciddi məsələdir və bunun üzərində biz birgə çalışmalıyıq. Əminəm ki, birgə səylər nəticəsində biz bütün bu məsələlərə nail olacağıq.

Bizi narahat edən problemlər də var. İlk növbədə, bir daha demək istəyirəm ki, bizə – Türkiyəyə, Azərbaycana qarşı çox mütəşəkkil, böyük maliyyə imkanlarına malik olan dünya erməni diasporu, erməni lobbisi işləyir.

Bəlkə də, yeganə ölkələrik ki, bizim əleyhimizə dünyanın istənilən yerində güclü təbliğat maşını, yenə də deyirəm, böhtan, yalan və tarixi təhrif edərək, bizi ləkələmək istəyən qüvvə işləyir.

Bir tərəfdən, bu problem, digər tərəfdən, Azərbaycanın işğal olunmuş torpaqları. Türkiyəyə qarşı əsassız ittihamlar, qondarma "soyqırımının" tanıdılması cəhdləri – bütün bunlar bizim xalqlarımıza qarşı yönəldilən əməllərdir. Xocalı soyqırımını törədən vəhşilər bizi soyqırımda ittiham edirlər və bəzi hallarda onların yalan təbliğatı uğurlar gətirir. Bir çox hallarda xarici ölkələrin onlar tərəfindən pulla, rüşvətlə ələ alınmış riyakar siyasətçiləri onların səsinə səs verirlər. Bu, ədalətsizliyin zirvəsidir. Bu, mənəviyyatsızlığın zirvəsidir. Biz buna qarşı mübarizə aparmalıyıq, aparmalıyıq və aparmalıyıq! Türk diplomatlarını qətlə yetirən, onlara qarşı terror aktları törədən erməni terrorist təşkilatları, nədənsə, qınaq obyektinə çevrilmir. Onların məkrli hərəkətləri, nədənsə, qınaq obyektinə çevrilmir. Avropa ölkələrində həbs olunmuş erməni terroristləri, nədənsə, bir müddətdən sonra azadlığa buraxılırlar. Bəs, orada qətlə yetirilən bizim soydaşlarımız insan deyilmi? Biz bu ikili standartlara nə qədər göz yummalıyıq? Biz bununla nə qədər barışmalıyıq? Biz görürük ki, bəzi hallarda ədalət prinsipi tamamilə aradan qaldırılır. Biz bunun qarşısına nəyi çıxarmalıyıq? Ancaq öz gücümüzü, başqa amil yoxdur! Biz güclənməliyik, hərtərəfli – hərbi, iqtisadi, siyasi cəhətdən, bütün cəhətlərdən və birgə fəaliyyət göstərməliyik!

Ermənistan on ildən artıqdır ki, Azərbaycan torpaqlarını işğal edib, indi Azərbaycanı işğal siyasətində ittiham edir. Bizim ata-baba torpağımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar indi Ermənistan dövləti üçün torpaq olubdur. Bunlar bizim tarixi torpaqlarımızdır, ancaq biz Ermənistana qarşı torpaq iddiası irəli sürmürük. Halbuki, sürə bilərik. Çünki indiki Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpaqlarıdır. Əgər onlar öz xalqının gələcəyi haqqında düşünürlərsə, öz siyasətində dəyişiklik etməlidirlər. Azərbaycanın işğal olunmuş torpaqlarından qeyd-şərtsiz çıxmalıdırlar və Türkiyəyə qarşı əsassız ittihamlardan əl çəkməlidirlər. Əks təqdirdə, Ermənistanın özünün müqəddəratı sual altına düşə bilər. Azərbaycan heç vaxt Dağlıq Qarabağın itirilməsinə razılıq verməyəcək, nəyin bahasına olursa-olsun, doğma torpaqlarını azad edəcək, ərazi bütövlüyünü bərpa edəcək.

Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Ermənilər oraya XIX əsrin əvvəllərində köçürülmüşlər. Bir dəfə Azərbaycan, türk torpağında erməni dövləti yaradılıb, burada ikinci erməni dövlətinin yaranmasına biz heç vaxt imkan vermərik. Hüquqi cəhətdən haqq-ədalət bizim tərəfimizdədir, çünki Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 4 qətnaməsi qəbul edilib və orada göstərilir ki, Ermənistanın işğalçı qüvvələri Azərbaycanın zəbt olunmuş torpaqlarından qeyd-şərtsiz çıxmalıdır. Ermənistan buna əməl etmir. Yəni hüquqi əsaslar tam imkan verir ki, Azərbaycan öz dövlət suverenliyini, ərazi bütövlüyünü bərpa etsin.

Biz uzun illər ərzində danışıqlar yolu ilə çalışırıq ki, məsələni həll edək. Amma hələ ki, buna müvəffəq olmamışıq. Biz öz siyasətimizi aparacağıq. Azərbaycanın ərazi bütövlüyü danışıqlar predmeti deyil, olmayıb və heç vaxt olmayacaqdır. Azərbaycanın suverenliyi, ərazi bütövlüyü bərpa ediləcəkdir …

## Azərbaycan Prezidenti İlham Əliyevin Ağdam rayonuna səfəri zamanı Ağdam Olimpiya İdman Kompleksinin açılış mərasimində çıxışından

***(18 yanvar 2007-ci il)***

... Azərbaycanın üzləşdiyi çətin problemlərin əsas səbəbi ondan ibarət idi ki, 1990-cı illərin əvvəllərində biz müstəqilliyimizi bərpa edəndə Azərbaycanın iqtisadiyyatı dağılmış vəziyyətdə idi. Azərbaycanın nə xarici siyasəti, nə daxili siyasəti milli maraqlara cavab vermirdi. Sənaye istehsalı, demək olar ki, tamamilə aşağı düşmüşdü, iflic vəziyyətində idi, iqtisadi böhran hökm sürürdü və faktik olaraq, ölkənin gələcəyi qeyri-müəyyən idi. Erməni qəsbkarları bu amildən, eyni zamanda başqa amillərdən, xarici yardımdan istifadə edərək, bizim torpaqlarımızı işğal ediblər. İndi onlar bəzi hallarda sübut etməyə çalışırlar ki, müharibədə qələbə qazanıblar. Bu, belə deyil, əsla belə deyil! Çünki müharibə hələ bitməyib, müharibənin birinci dövrü başa çatıb və xarici dəstəyin nəticəsində bizim torpaqlarımız erməni işğalçıları tərəfindən zəbt edilibdir. 1990-cı illərin əvvəlindəki vəziyyətdən fərqli olaraq, biz bu gün daha güclüyük. Biz iqtisadi imkanlarımızı artırırıq və bu gün Azərbaycan iqtisadiyyatı Ermənistan iqtisadiyyatı ilə müqayisədə həcm baxımından 5-6 dəfə böyükdür. Bu həcm getdikcə artacaq və bütün imkanlarımızı səfərbər edib güclü dövlət, güclü iqtisadiyyat yaradacağıq ki, ərazi bütövlüyümüzü bərpa edək. Biz güclü ordu yaradırıq.

Əminəm ki, bütün bu amillər – Azərbaycanın uğurlu iqtisadi siyasəti, xarici siyasəti, bölgədəki nüfuzu və artan rolu, bizim iqtisadi potensialımız və enerji baxımından güclü olmağımız, ordu quruculuğunun sürətlə getməsi, danışıqlar prosesinə də müsbət təsir göstərir. Əgər bir neçə il bundan əvvəl Ermənistan tərəfi danışıqlar zamanı Dağlıq Qarabağa müstəqilliyin verilməsini tələb edirdisə, bu gün bu, belə deyildir. Bu gün onlar da anlayırlar ki, heç vaxt Dağlıq Qarabağa müstəqillik verilməyəcək, heç vaxt Dağlıq Qarabağ Ermənista-

na birləşməyəcəkdir. Bu, artıq təkcə bizim mövqeyimiz deyil, – bütün zamanlarda bizim mövqeyimiz bundan ibarət olmuşdur, – eyni zamanda beynəlxalq vasitəçilərin mövqeyidir və Ermənistan tərəfi məcbur olub bu reallıqla hesablaşır. Əgər vaxtilə 4 rayonun Azərbaycana qaytarılması məsələsi müzakirə olunurdusa, daha doğrusu, Ermənistan tərəfindən irəli sürülürdüsə, bu gün artıq bu da keçmişdə qalıbdır. İndi 7 rayonun, bütün işğal olunmuş torpaqların Azərbaycana qaytarılmasından söhbət gedir. Bunu Ermənistandan beynəlxalq vasitəçilər, ATƏT-in Minsk qrupu tələb edir və Ermənistan rəhbərliyi məcbur olub bunu qəbul edir. Yəni bu, çox böyük irəliləyişdir, çox böyük uğurlardır.

Düzdür, məsələ hələ ki, öz həllini tapmayıb, amma biz buna yaxınlaşırıq. Bizim siyasətimiz, gücümüz, imkanlarımız və qətiyyətimiz o günü yaxınlaşdırır və danışıqlar çərçivəsində əldə edilmiş irəliləyiş Azərbaycanı qane edir. Hələ tam şəkildə deyə bilmərəm ki, təklif edilən variantda hər şey bizi qane edir. Bəzi məsələlər bizi qane etmir və biz onlarla razı ola bilmərik. Amma bütövlükdə, danışıqların gedişatı müsbət istiqamətdədir. Biz buna nəyin hesabına nail olmuşuq? Yəni həm beynəlxalq ictimaiyyətin, həm Ermənistan rəhbərliyinin güzəştlərə getməyə hazır olmasına və artıq dediyim məsələlərə razılıq verməsinə nəyin hesabına nail ola bilmişik? Ancaq öz gücümüz hesabına. Ona görə ki, Ermənistan anlayır ki, artıq Azərbaycan güclü dövlətə çevrilibdir. Azərbaycanın beynəlxalq mövqeləri möhkəmlənir, Azərbaycan Avropa təhlükəsizliyi üçün, enerji təhlükəsizliyi üçün əvəzolunmaz ölkəyə çevrilir, Azərbaycan öz zəngin neft-qaz yataqlarının işlənməsinə uğurla nail olubdur və bu gün qonşu ölkələri, Avropa və dünya ölkələrini enerji resursları ilə böyük dərəcədə təmin edir.

Azərbaycan iqtisadi artıma görə ardıcıl olaraq 3 ildir dünyada birinci yerdədir. Azərbaycan öz ordu quruculuğunu gücləndirir, keçən il və bu il orduya ayrılan təxminən iki milyard yarım dollar vəsait bizim imkanlarımızı, gücümüzü artırır. Ermənistan tərəfi bunu bilir və bununla hesablaşmağa məcburdur. Vaxt bizə işləyir. Mən bir

daha demək istəyirəm, bizim hamımız istəyirik ki, tezliklə torpaqlarımız işğalçılardan azad edilsin. Soydaşlarımız tezliklə öz doğma yurduna, öz doğma torpaqlarına qayıtsınlar. Bir daha qeyd etmək istəyirəm ki, artıq bu rayonların bərpası üçün də bizim imkanlarımız var. Ancaq mən istəyirəm ki, imzalanacaq sülh sazişi Azərbaycanın maraqlarını tam şəkildə təmin etsin. Mən hələ deyə bilmərəm ki, tam şəkildə bizi qane edir. Ona görə biz danışıqlar prosesini davam etdirəcəyik, öz mövqeyimizdən dönməyəcəyik. Azərbaycanın ərazi bütövlüyü müzakirə mövzusu deyil, olmayıb və olmayacaqdır. Dağlıq Qarabağa, orada yaşayan ermənilərə və ora qayıdacaq azərbaycanlılara Azərbaycanın ərazi bütövlüyü çərçivəsində yüksək idarəetmə statusu verilə bilər. Başqa Avropa ölkələrində biz bunu görürük, bu ölkələrdə muxtariyyət formaları var, müxtəlif formalar var və onların hamısı ölkələrin ərazi bütövlüyü çərçivəsində həll olunubdur. Biz heç bir yeni formanı icad etmək fikrində deyilik. Bizim mövqeyimiz tarixi həqiqətə əsaslanır. Qarabağ, o cümlədən Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, əsrlər boyu azərbaycanlılar orada yaşamış, yaratmışlar. Ermənilər bizim torpaqlarımıza qonaq kimi gəlmişlər – siz bunu yaxşı bilirsiniz, – və ondan sonra orada əksəriyyəti təşkil etməklə, o torpaqlara iddia etməyə başlamışlar. Əfsuslar olsun ki, o vaxt, 1980-ci illərin sonunda Azərbaycan rəhbərliyi antimilli siyasət aparmaqla böyük güzəştlərə getmişdir. Dağlıq Qarabağda Sovet İttifaqı rəhbərliyi, ilk növbədə, Qorbaçov tərəfindən xüsusi komitə yaradılmışdı və komitənin yaranması artıq Dağlıq Qarabağda separatçı meyillərin güclənməsi demək oldu. Ondan sonrakı dövrlərdə, 1990-cı illərin əvvəlində aparılan siyasət də, faktik olaraq, torpaqlarımızın işğalına gətirib çıxarmışdır. Şuşa, Laçın, Kəlbəcər və başqa torpaqlarımız işğal altına düşdü. İndi bu böyük bəla, böyük dərd, həm insanlar üçün humanitar fəlakət, həm ölkəmiz üçün ən böyük problem bizi çox incidir və eyni zamanda, əlbəttə ki, bizi daha da güclü olmağa sövq edir. Biz güclü olmalıyıq, indiki zamanda biz dünyada gedən proseslərə də nəzər salır, baxırıq, nəzarət edirik, izləyirik. Görürük ki, əfsuslar olsun, dünyada beynəlxalq davranış qaydaları pozu-

lur, bəzi hallarda beynəlxalq prinsiplərə əməl olunmur, çox narahatedici meyillər başlanır, bəzi muxtar bölgələrin birtərəfli tanınması məsələsi ortaya çıxır. Halbuki bu tamamilə qəbuledilməzdir.

Bir sözlə, dünyada gedən proseslər onu göstərir ki, hər bir ölkə, ilk növbədə, güclü olmalıdır. Güclü olarsansa, sən öz maraqlarını qoruyacaqsan. Əgər sən güclü olmasan, hətta bütün beynəlxalq normalar sənin tərəfində olsa da, bunun böyük əhəmiyyəti olmayacaqdır. Azərbaycan bu dövrü yaşayıbdır. Biz kasıb vəziyyətdən inkişafa və gələcək çiçəklənməyə doğru gedirik. Bilirik ki, bizi nələr gözləyir. Biz öz iqtisadi islahatlarımızla, Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu neft strategiyası ilə güclü dövlət yaradırıq. İmkanlarımız artır, bizimlə daha da çox hesablaşırlar, bizim sözümüz daha da böyük məna daşıyır, sözümüzün çəkisi artır. Bunun müqabilində, Ermənistan bütün beynəlxalq layihələrdən təcrid edilmiş bir ölkə, – biz buna nail olmuşuq, – heç bir əhəmiyyət kəsb etməyən bir ölkə, xarici ianələrdən asılı olan, xarici dövlətlərin köməyi ilə yaşayan və müstəqilliyi ancaq şərti xarakter daşıyan bir ölkədir. Yəni bu, artıq müqayisəolunmaz dərəcədədir. Növbəti illərdə bizim gücümüz daha da artacaq, onlar isə zəifləyəcəklər.

Beləliklə, mən heç şübhə etmirəm ki, biz doğma torpaqlarımızı işğalçılardan azad edəcəyik. Mən inanmaq istəyirəm ki, Ermənistan rəhbərliyi, nəhayət, beynəlxalq hüquq prinsiplərinə riayət edəcək, normal məntiqə riayət edəcək və işğal olunmuş torpaqlardan qoşunlarını öz xoşu ilə çıxaracaq və bizim soydaşlarımız bu torpaqlara qayıdacaqlar. Əks təqdirdə, Azərbaycan tam sərbəstdir ki, bütün imkanlardan, o cümlədən hərbi imkanlarından istifadə etsin və öz doğma torpaqlarını azad etsin. Biz heç kimin torpağını zəbt etməmişik. Halbuki, indiki Ermənistan dövləti tarixi Azərbaycan torpağında formalaşıbdır. İrəvan şəhərini Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərliyi 1918-ci ildə Ermənistana hədiyyə edibdir. Yumşaq desək, o da böyük bir səhv idi. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yarananda İrəvan şəhərini Ermənistana bağışlamışdır. İrəvan xanlığı əzəli Azərbaycan torpağıdır. Bir daha demək istəyirəm ki, ermənilər bu

bölgəyə qonaq kimi gəlmişdilər. Ona görə haqq-ədalət, tarixi həqiqət, beynəlxalq hüquq, iqtisadi imkanlar, hərbi potensial – bütün bu amillər tərəzinin bir gözündə, Ermənistanın qeyri-konstruktiv və heç bir beynəlxalq normalara sığmayan siyasəti tərəzinin başqa gözündədir.

Bir daha demək istəyirəm ki, biz heç bir başqa ölkənin torpaqlarına iddia etmirik, biz istəyirik ki, bizim torpaqlarımız dinc yolla işğalçılardan azad olunsun və Azərbaycan vətəndaşları öz vətəndaş hüquqlarından istifadə edə bilsinlər. Bəzi hallarda beynəlxalq təşkilatlardan biz çox eşidirik ki, insan haqları təmin olunmalıdır, insan haqları müdafiə edilməlidir. Azərbaycanda bütün insan haqları necə lazımdır müdafiə edilir, təmin olunur və başqa ölkələr üçün biz örnək ola bilərik. Bunu artıq yaxın tarix göstəribdir. Ancaq indi, nədənsə, bu beynəlxalq təşkilatlar 1 milyon qaçqın-köçkünün insan haqlarından söhbət açmır. Evindən-eşiyindən olmuş, öz torpağını itirmiş insanların haqlarından söhbət açmır. Yəni bu ikili siyasət artıq bizə bəllidir, biz bunu bilirik və buna əhəmiyyət də vermirik. Amma bu ədalətsizlik bizi, əlbəttə ki, incidir. İnsan haqlarından danışanda, ilk növbədə, Ermənistana irad tutulmalıdır ki, nə üçün 1 milyon insanın haqlarını tapdalamısan? Nə üçün o insanlara imkan yaratmırsan ki, onlar öz vətəninə qayıtsınlar? Budur, məsələnin mahiyyəti! Ona görə bəzi hallarda ədalətsiz yanaşmanı görəndə, Azərbaycana qarşı əsassız təzyiqləri görəndə, biz, əlbəttə ki, üzülürük.

Amma bu heç də bizim iradəmizə zərrə qədər təsir etmir və etməyəcəkdir. Azərbaycan dövləti möhkəmləndikcə, öz müstəqil siyasətini daha da uğurla aparacaqdır. Mənim üçün Prezident kimi əsas Azərbaycan xalqının maraqlarıdır, Azərbaycanın maraqlarıdır. Bütün başqa məsələlər ikincidərəcəli məsələlərdir. Azərbaycan xalqının maraqlarını tam şəkildə müdafiə etmək üçün güc olmalıdır. Azərbaycan dövlətini möhkəmləndirmək üçün iqtisadi potensial möhkəmlənməlidir, biz bunu gündəlik həyatda edirik və bundan sonra edəcəyik.

## Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

***(15 fevral 2008-ci il)***

2008-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 90 illiyi tamam olur. Müasir Azərbaycan Respublikası 1991-ci ildə öz müstəqilliyini bərpa edərək, Xalq Cümhuriyyətinin siyasi varisi kimi onun bayrağını, gerbini, himnini qəbul etmişdir. İstiqlal Bəyannaməsinin elan edildiyi 1918-ci ilin 28 may günü hazırda Respublika Günü kimi qeyd olunur.

Müsəlman Şərqində ilk parlament respublikası—Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın qədim dövlətçilik ənənələrini yaşadaraq, müasir dövrə xas dövlət təsisatlarının yaradılmasına nail olmuşdu. Milli parlamentarizmin təşəkkül tarixi isə Azərbaycan parlamentinin 1918-ci il dekabr ayının 7-də keçirilmiş ilk iclasından başlayır.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması mürəkkəb siyasi dövrdə cərəyan edən hadisələrin və Azərbaycan xalqının milli oyanışının məntiqi yekunu idi. Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə və digər görkəmli şəxsiyyətlər tərəfindən təməli qoyulmuş proseslər Azərbaycanda yeni tipli teatrın, məktəbin və mətbuatın yaranması ilə nəticələnmiş, milli özünüdərkin gerçəkləşməsinə böyük təsir göstərmişdir. Bakının neft paytaxtına çevrilməsi milli sahibkarlar təbəqəsinin formalaşması ilə yanaşı, dünyanın aparıcı universitetlərində təhsil almış ziyalılar nəslinin yetişməsinə şərait yaratmışdır. Əlimərdan bəy Topçubaşov və başqa ziyalıların siyasi proseslərə qatılması, Dumaya seçilməsi və Rusiya müsəlmanlarının təşkilatlanmasında oynadıqları rol tariximizin unudulmaz səhifələrindəndir.

Rusiyada çar üsul-idarəsinin ləğvi, baş verən fevral və oktyabr çevrilişləri, Birinci Dünya müharibəsinin fəsadları və bir sıra digər amillər Qafqazı ayrı-ayrı siyasi qüvvələrin qarşıdurma meydanına

çevirmişdi. Dünyanın aparıcı dövlətlərinin Bakı neftinə göstərdiyi maraq vəziyyəti daha da gərginləşdirirdi.

İlk qərarı ilə milliyyəti, dini, sosial vəziyyəti və cinsindən asılı olmayaraq, ölkəmizin bütün vətəndaşlarına bərabər hüquqlar verən Cümhuriyyətin yaranması çox mürəkkəb şəraitdə elan olunmuşdur. Cəmi 23 ay yaşamış Azərbaycan Xalq Cümhuriyyəti tarixinin hər bir səhifəsi bütün azərbaycanlılar üçün olduqca əzizdir. Bununla belə, bu tarixdə ürəyimizi qürur hissi ilə dolduran hadisələrlə yanaşı, ümummilli faciələrə yol açan səhifələr də vardır.

Azərbaycan Xalq Cümhuriyyətinin öz dövlətçilik atributlarını qəbul etməsi, dövlət və hərbi quruculuq, iqtisadiyyat və mədəniyyət, təhsil və səhiyyə sahələrində atdığı addımlar xalqımız üçün taleyüklü əhəmiyyət kəsb etmişdir. Cümhuriyyətin böyük uğurlarından biri Paris sülh konfransında – 1920-ci il yanvarın 11-də Azərbaycanın müstəqil dövlət kimi tanınması olmuşdur. Lakin ölkənin öz neftini xarici bazarlara çıxarmaqdan təcrid edilməsi nəticəsində yaranmış siyasi, iqtisadi və sosial böhran güclənirdi. Həmçinin parlament daxilində hökm sürən hərc-mərclik, Qarabağda və Zəngəzurdakı erməni silahlı dəstələri ilə qarşıdurmalar gündən-günə dərinləşirdi. Əhalinin əsas hissəsinin ağır durumu isə bolşevik təbliğatı üçün münbit zəmin yaradırdı. İrəvanın ermənilərə paytaxt kimi verilməsindən sonra İrəvan mahalından qaçqın düşmüş 150 mindən artıq soydaşımızın vəziyyəti olduqca gərgin idi. Belə bir vəziyyətdə parlamentin son iclasında bolşevik ultimatumunun qəbul edilməsi aprel işğalı ilə nəticələndi.

Aprel işğalı Azərbaycan Xalq Cümhuriyyətinin liderlərinin bir qismini Məmməd Əmin Rəsulzadə kimi mühacir həyatı yaşamağa məhkum etdi, digər qismini Fətəli xan Xoyski və Həsən bəy Ağayev kimi erməni terrorunun qurbanına çevirdi, qalanlarını da bolşevizmin amansız repressiyalarına məruz qoydu.

1920-ci il aprelin 28-də ikinci respublika—Azərbaycan Sovet Sosialist Respublikası yaradıldı. İki il ərzində öz müstəqilliyini qoruyub saxlamağa nail olan respublika 1922-ci ildə SSRİ-nin tərkibinə

daxil olduqdan sonra öz müstəqilliyinin ancaq formal atributlarını saxlaya bilmişdi. Yalnız onu əvəz edən dördüncü respublika müstəqillik ideyasını yaşatmış və Azərbaycan bütün sərvətlərinin, o cümlədən neftinin tam sahibi kimi çıxış edə bilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə dair sanballı əsərlər, hətta ikicildlik ensiklopediya nəşr edilsə də, tariximizin bu mərhələsi ilə bağlı çox sayda sənədlər hələ xarici ölkələrin qapalı arxivlərində saxlanılır və öz tədqiqatçılarını gözləyir.

Azərbaycan Xalq Cümhuriyyətinin ölkəmizdə milli dövlətçilik tarixində xüsusi yer tutduğunu nəzərə alaraq qərara alıram:

1. Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 90 illiyi respublikada geniş qeyd edilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

3. Azərbaycan Respublikasının Milli Məclisinə Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin yaranmasının 90 illiyi münasibətilə xüsusi iclasın keçirilməsi tövsiyə olunsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham ƏLİYEV***
***Bakı şəhəri, 15 fevral 2008-ci il***

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 31 Mart Azərbaycanlıların Soyqırımı Günü münasibətilə Azərbaycan xalqına Müraciəti

***(29 mart 2008-ci il)***

Əziz həmvətənlər! Hörmətli soydaşlar!

Hər il olduğu kimi, bu il də sizə bütün dünya azərbaycanlılarının kədər və hüznlə qeyd etdiyi soyqırımı qurbanlarını anma günü – 31 Mart münasibətilə müraciət edirəm.

Təcavüzkar erməni millətçiləri xalqımıza qarşı iki yüz ilə yaxın bir müddətdə soyqırımı siyasəti həyata keçirmişdir. Azərbaycanlıları tarixi torpaqlarından sıxışdırıb çıxarmaq, bu ərazilərdə mifik "böyük Ermənistan" yaratmaq məqsədilə Azərbaycan və türk xalqları onilliklər boyu müntəzəm surətdə ermənilərin ideoloji, hərbi və mədəni təcavüzünə məruz qalmışdır. Xalqımızın tarixi kobud surətdə saxtalaşdırılmış, mədəniyyətimiz, toponimlərimiz ermənilər tərəfindən özününküləşdirilmişdir.

Soyqırımı siyasəti müxtəlif dövrlərdə fərqli formalarda həyata keçirilmiş, kütləvi qətllər və hərbi əməliyyatlarla müşayiət olunmuşdur. XIX əsrin birinci yarısında İrandan və Osmanlı imperiyasından köçürülən ermənilər hesabına Qarabağ və Zəngəzurda demoqrafik vəziyyətin zorla dəyişdirilməsi, 1905 və 1918-ci illərdə azərbaycanlı əhalinin kütləvi qırğınları, 1918-ci ildə tarixi Azərbaycan torpaqlarında Ermənistan dövlətinin yaradılması və Azərbaycanın ən mühüm mədəniyyət mərkəzlərindən biri olan İrəvan şəhərinin paytaxt kimi Ermənistana güzəştə gedilməsi, 1920-ci illərdə sovet hökuməti tərəfindən Zəngəzurun ermənilərə verilməsi, 1948–1953-cü illərdə yüz minlərlə azərbaycanlının indiki Ermənistan ərazisindəki əzəli torpaqlarından deportasiyası və sair faktlar soyqırımı tarixinin faciəli və qanlı səhifələridir.

1988-ci ildə erməni millətçiləri SSRİ rəhbərliyinin və xarici havadarlarının təhriki ilə Dağlıq Qarabağı güclə Ermənistana birləşdirrmək

üçün Azərbaycana qarşı açıq təcavüzə başladılar və az sonra tammiqyaslı hərbi əməliyyatlara keçdilər. 1992-ci ilin fevralında erməni hərbi birləşmələrinin törətdiyi Xocalı faciəsi öz qəddarlığına və amansızlığına görə misli görünməmiş soyqırımı aktı, insanlığın tarixində qara ləkə kimi qalacaqdır.

Siyasi-ideoloji təxribat və dezinformasiya sahəsində zəngin təcrübəsi olan erməni millətçiləri bu gün də bütün dünyada ölkəmiz və xalqımız əleyhinə təbliğat müharibəsi aparır, dünya ictimaiyyətini çaşdırmağa, Azərbaycan ərazilərinin işğalını unutdurmağa çalışırlar. Dünyada sivil birgəyaşayış və əməkdaşlıq prinsiplərinin getdikcə daha çox uğur qazandığı, hərtərəfli inteqrasiya proseslərinin geniş yayıldığı bir zamanda erməni millətçilərinin saxta soyqırımı təbliğatı və qonşu dövlətlərə ərazi iddiaları regionda sabitliyi və dünya düzənini pozmağa yönəlmiş dağıdıcı faktor rolunu oynayır, xalqları bir-birinə qarşı qoyur, milli və dini qarşıdurmanı təşviq edir.

Lakin Ermənistan dövlətinin və erməni lobbisinin təcavüzkar siyasəti iflasa məhkumdur. Son illərin təcrübəsi göstərir ki, erməni işğalçılarının və onların havadarlarının imkanları heç də qeyri-məhdud deyil və bu imkanlar getdikcə daralmaqdadır. Bu siyasətə qarşı geniş iqtisadi potensiala malik qüdrətli Azərbaycan dövləti, onun siyasi nüfuzu, dünya azərbaycanlılarının və Azərbaycanın dostlarının getdikcə möhkəmlənən həmrəyliyi, nəhayət, güclü Azərbaycan ordusu dayanır. Biz dünya siyasətinə ciddi təsiri olan böyük dövlətlərlə müntəzəm və məhsuldar iş aparır, onilliklər boyu formalaşmış stereotipləri, yanlış yanaşmaları dağıtmağa çalışır və çox hallarda buna müvəffəq oluruq. İkili standartlara və ermənipərəst qüvvələrin təzyiqlərinə baxmayaraq, beynəlxalq ictimaiyyət aşkar faktlar qarşısında həqiqəti daha tez-tez etiraf etməli olur. Soyqırımı qurbanlarını anma tədbirləri bütün dünyada getdikcə daha əzəmətli, daha mütəşəkkil xarakter alır və geniş əks-səda doğurur.

Bu gün Azərbaycan regionda və dünyada dinamik inkişaf edən dövlət olaraq, həm də əməkdaşlıq və tolerantlıq məkanı kimi qəbul edilir. Ölkədə sosial və milli- dini həmrəylik mövcuddur. Nə qədər

ağır olsa da, biz soyqırımı faktlarından başqa xalqlara düşmənçilik və nifrət aşılamaq üçün istifadə etmək niyyətində deyilik. Biz yalnız tarixi ədalətin və həqiqətin bərpa olunmasını, dünyanm heç bir yerində belə faciəli hadisələrın təkrarlanmayacağına təminat verilməsini istəyirik. Bunun əksinə, işğalçı Ermənistanda iqtisadi və mənəvi-siyasi tənəzzül getdikcə dərinləşir, sosial problemlər və demoqrafık vəziyyət gərginləşir. Ermənistan təcavüzkar siyasəti ilə özünü bütün regional iqtisadi-enerji və nəqliyyat-kommunikasiya layihələrindən təcrid etmişdir. Bu ölkədə baş verən siyasi böhran, antidemokratik proseslər onun rəhbərliyinin uzağı görməyən, təcavüzkar siyasətinin nəticəsidir, erməni xalqınm geniş dairələrinin hakimiyyətə etimadsızlığının göstəricisidir. Ermənistan rəhbərliyi öz təcavüzkar və davakar siyasətindən nə qədər tez imtina etsə, qonşularla siyasətini əməkdaşlıq və qarşılıqlı hörmət prinsipləri əsasında qursa, bu, onun özü üçün bir o qədər yaxşı olar.

Əziz həmvətənlər! Hörmətli soydaşlar!

Sizi əmin edirəm ki, xalqımızın vətənpərvərliyi, birliyi və həmrəyliyi, Azərbaycan rəhbərliyinin siyasi iradəsi sayəsində qarşımıza qoyduğumuz bütün məqsədlərə, o cümlədən ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasına, soyqırımı həyata keçirənlərin, insanlar və xalqlar arasında nifaq və düşmənçilik salanlann ifşasına nail olacağıq.

Bir daha soyqırımı qurbanlarının əziz xatirəsini dərin hüzn və ehtiramla yad edir, Allahdan onlara rəhmət, yaxınlarına səbir diləyir, xalqımıza səadət və tərəqqi arzulayıram.

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimində nitqi

***(24 oktyabr 2008-ci il)***

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

İlk növbədə, mənə yenidən böyük etimad göstərmiş, məni Prezident vəzifəsinə seçmiş bütün Azərbaycan xalqına öz dərin minnətdarlığımı bildirirəm. Azərbaycan xalqını yenidən əmin edirəm ki, mən bundan sonra da Azərbaycanın hərtərəfli inkişafı üçün öz səylərimi əsirgəməyəcəyəm. Eyni zamanda mənim namizədliyimi irəli sürmüş Yeni Azərbaycan Partiyasına öz təşəkkürümü bildirirəm, seçki kampaniyasında yaxından iştirak etdiklərinə görə partiyanın fəallarına minnətdaram. Bu seçkilərdə məni dəstəkləmiş bütün siyasi qüvvələrə, o cümlədən müxalifət nümayəndələrinə öz təşəkkürümü bildirirəm. Mən ümid edirəm ki, bu seçkilər və seçki kampaniyası Azərbaycanda yeni siyasi mədəniyyətin möhkəmlənməsində öz rolunu oynayacaq, yeni ənənələri Azərbaycana gətirəcək və bundan sonra Azərbaycanda siyasi mübarizə yalnız və yalnız sivil yollarla aparılacaqdır. Bu fürsətdən istifadə edərək, məni qələbə ilə təbrik etmiş prezidentliyə digər namizədlərə, onların göndərdikləri təbriklərə görə öz təşəkkürümü bildirirəm.

Beş il bundan əvvəl andiçmə mərasimində mən Azərbaycan xalqına söz vermişdim ki, Azərbaycanın hərtərəfli inkişafı üçün fəal çalışacağam. Söz vermişdim ki, Azərbaycanda Heydər Əliyev siyasətini davam etdirəcəyəm. Çünki bu, Azərbaycanın bu günü və sabahı üçün, gələcəyi üçün yeganə siyasətdir. Bu siyasət Azərbaycanı böyük bəlalardan qurtardı. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan sürətlə inkişaf etmişdir. Azərbaycan xaosdan, böhrandan, anarxiyadan inkişafa, sabitliyə doğru böyük addımlar atmışdır. Məhz onun rəhbərliyi altında Azərbaycanda dövlətçilik ənənələri qurulmuşdur, Azərbaycan öz dövlət müstəqilliyini möhkəmləndirmiş,

Azərbaycanda sabitlik yaradılmış və inkişaf başlamışdır. Bu gün bir daha demək istəyirəm ki, növbəti beş il ərzində mən bu siyasətə sadiq qalacağam və bu yoldan dönməyəcəyəm.

Son beş il ərzində Azərbaycanda bütün istiqamətlərdə böyük inkişaf müşahidə olunurdu. Azərbaycan son beş ildə bölgədə öz mövqelərini daha da möhkəmləndirmişdir. Azərbaycanda dövlət quruculuğu prosesi sürətlə getmişdir. Müstəqilliyimiz möhkəmləndirilmişdir. Azərbaycanda siyasi və iqtisadi islahatlar uğurla aparılır. Demokratikləşmə prosesi uğurla gedir.

Azərbaycan son beş il ərzində böyük dərəcədə güclənmiş və bu gün gələcəyə ümidlə, böyük nikbinliklə baxan bir ölkədir. Azərbaycan bu gün beynəlxalq müstəvidə özünə layiq yerini daha da möhkəmləndirmişdir. Bizim regional təşəbbüslərimiz böyük uğur gətirir. Bölgədə apardığımız işlər həm Azərbaycanın möhkəmlənməsinə, həm də regional əməkdaşlığın inkişafına böyük xidmət göstərir. Biz öz siyasətimizi əsas təməl prinsipləri əsasında qururuq. Azərbaycançılıq fəlsəfəsi bizim mənəvi dayağımızdır. Müstəqil siyasət, milli maraqlarımızın qorunması, milli ləyaqət, milli qürur, milli və dini tolerantlıq – budur bizim uğurlarımızın əsas şərtləri. Azərbaycanda bütün xalqlar qardaşlıq şəraitində, mehriban şəraitdə yaşayırlar. Mən çox şadam ki, son beş il ərzində bizim əsas ideoloji dayaqlarımız daha da möhkəmlənmiş, Azərbaycanda vətəndaş həmrəyliyi, sabitlik tam bərqərar olmuşdur və bütövlükdə, cəmiyyət çox aydın görür Azərbaycan hansı istiqamətdə irəliləyir. Bizim siyasətimiz açıqdır, aydındır. Bir daha demək istəyirəm ki, bu siyasətin əsas təməl prinsipləri Azərbaycan dövlətinin milli maraqlarının qorunmasıdır və bu işdə biz böyük uğurlara nail ola bilmişik. Bizim bütün siyasətimiz, bütün siyasi addımlarımız bir məqsədi güdür. Bu da Azərbaycanın möhkəmlənməsi, güclü iqtisadi potensialın yaradılması, siyasi islahatların dərinləşməsi və Azərbaycan xalqının təhlükəsizlik şəraitində, rifah içində yaşamasıdır.

Bununla bərabər, əlbəttə ki, beynəlxalq məsələlərin həllində biz çox böyük işlər görmüşük. Azərbaycan son beş il ərzində bölgədə öz

yerini möhkəmləndiribdir. Biz bütün ölkələrlə ikitərəfli surətdə faydalı əməkdaşlığın dərinləşməsində maraqlıyıq, bunu edirik və bizim təşəbbüslərimiz bu məqsədi güdür. Xarici siyasətdə Azərbaycan son beş il ərzində böyük dərəcədə öz mövqelərini möhkəmləndirə bilmişdir. Bizim regional müstəvidə təşəbbüslərimiz həm regional əməkdaşlığın möhkəmlənməsinə xidmət göstərir, həm də Azərbaycanın maraqlarına uyğundur. Əminəm ki, bölgədə bizimlə əməkdaşlıq edən ölkələr də bu əməkdaşlıqdan razıdır. Bizim bütün təşəbbüslərimiz bu məqsədi güdür ki, bölgədə sülh, sabitlik daha da möhkəm olsun, iqtisadi əməkdaşlıq sürətlənsin və bölgədə yerləşən bütün ölkələr sülh, sabitlik, dostluq şəraitində yaşasınlar.

Deyə bilərəm ki, biz son beş il ərzində dünyada daha çox müttəfiq ölkələr qazanmışıq. Bir neçə ölkələrlə bizim münasibətlərimiz yeni pilləyə, strateji tərəfdaşlıq pilləsinə qalxıbdır. İkitərəfli münasibətlərimiz çox uğurludur. Biz bütün ölkələrlə dostluq münasibətlərinin davam etdirilməsində maraqlıyıq. Bu münasibətlər bərabər hüquqludur, hər iki tərəfin maraqlarına xidmət göstərməlidir və göstərir.

Bununla bərabər, beynəlxalq təşkilatlarla əməkdaşlığımız daha da dərinləşib, Azərbaycan üzv olduğumuz beynəlxalq təşkilatlarda çox fəal iştirak edib və beləliklə, beynəlxalq mövqelərimiz də möhkəmlənibdir. Bizim fəallığımız beynəlxalq təşkilatlarda mövqeyimizin güclənməsinə, bizim maraqlarımıza cavab verən qərarların qəbul edilməsinə gətirib çıxarıbdır. Mən şübhə etmirəm ki, növbəti illərdə də bizim xarici siyasətimiz çox çevik, çox məqsədyönlü olacaq və bunun nəticəsində Azərbaycanın beynəlxalq mövqeləri daha da möhkəmlənəcəkdir.

Əlbəttə ki, xarici siyasətimizin əsas prioritet məsələsi Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli olmuşdur. Əfsuslar olsun ki, biz bu istiqamətdə, hələ ki, heç bir nəticə əldə edə bilməmişik. Amma bununla bərabər, deyə bilərəm ki, danışıqlar prosesində Azərbaycanın mövqeyi, Azərbaycanın baxışları və bizim tərəfimizdən irəli sürülmüş əsas təməl prinsiplər çox böyük dəyər qa-

zanmışdır. Bu gün deyə bilərəm ki, danışıqların mahiyyəti Azərbaycanın ərazi bütövlüyü prinsipi əsasında aparılır, bu, heç kimdə şübhə yaratmır və yarada da bilməz. Mən hesab edirəm ki, bizim atdığımız addımlar həm danışıqlar prosesində mövqeyimizin möhkəmlənməsinə, həm də bu məsələlərlə məşğul olan tərəflərin fəallaşmasına gətirib çıxarıbdır. Bu gün dünyada açıq-aydın dərk edilir ki, bu bölgənin uğurlu inkişafı üçün dondurulmuş münaqişələr öz həllini tapmalıdır. Bu həll ancaq və ancaq beynəlxalq hüquq normaları və prinsipləri əsasında ola bilər, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Azərbaycanın ərazi bütövlüyü danışıqların mövzusu deyil, olmayıb və heç vaxt olmayacaqdır. Dağlıq Qarabağa heç vaxt – nə bu gün, nə sabah, nə 10 ildən sonra, nə 50 ildən sonra müstəqillik verilməyəcəkdir, Azərbaycan bunu heç vaxt tanımayacaqdır. Beləliklə, münaqişənin həllində beynəlxalq hüququn əsas prinsipləri öz əksini tapmalıdır.

Azərbaycana qarşı Ermənistan tərəfindən aparılan işğalçı siyasət davam edir, bu siyasət və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi, hələ ki, işğal altındadır. Etnik təmizləmə siyasətindən əziyyət çəkən 1 milyon azərbaycanlı hələ də öz doğma torpaqlarına qayıda bilmir. Bu, ən böyük ədalətsizlik, ən böyük cinayətdir. Biz, əlbəttə, danışıqların davam etdirilməsində, hələ ki, maraqlıyıq, hələ ki, ümidlərimiz tükənməyibdir. Hələ hesab edirik ki, danışıqlar məsələnin ədalətli həllinə gətirib çıxara bilər. O həll də hamı üçün aydındır və Azərbaycan xalqı bu mövqeyi dəstəkləyir. Bir daha demək istəyirəm ki, Azərbaycan dövləti Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağın Azərbaycandan ayrılmasına heç vaxt razılıq verməyəcəkdir. Biz öz dövlət müstəqilliyimizi möhkəmləndirərək, ərazi bütövlüyümüzü bərpa edəcəyik.

Beynəlxalq hüquq normaları bizim tərəfimizdədir. BMT Təhlükəsizlik Şurasının erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından çıxarılmasına dair 4 qətnaməsi vardır. BMT-nin Baş Məclisində bu yaxınlarda buna oxşar qərar qəbul edilibdir. Digər beynəlxalq təşkilatlar da öz qərarları ilə bizim mövqeyimizi dəstəkləyir

və möhkəmləndirir. Bir sözlə, beynəlxalq hüquq bizim tərəfimizdədir, tarixi ədalət bizim tərəfimizdədir. Çünki, bir daha demək istəyirəm ki, Dağlıq Qarabağ tarixi Azərbaycan torpağıdır.

İqtisadi potensial bizim tərəfimizdədir. Bölgədə gedən siyasi proseslər Azərbaycanın mövqeyini gücləndirir. Çünki biz bu siyasi proseslərdə fəal iştirak edirik və bəzi hallarda irəli sürülən təşəbbüslərin müəllifiyik. Azərbaycanın iştirakı olmadan bölgədə iqtisadi və regional əməkdaşlıq mümkün deyil və bizim mövqeyimiz hamıya bəllidir: O vaxta qədər ki, torpaqlarımız işğal altındadır, Ermənistanla heç bir əməkdaşlıqdan söhbət gedə bilməz. Hesab edirəm ki, qarşı tərəf bütün bu amilləri təhlil edərək reallıqla barışmalıdır. Reallıq da ondan ibarətdir ki, bu gün Azərbaycanla rəqabət aparmaq çox çətindir, deyə bilərəm, qeyri-mümkündür. Siyasi potensialımız, iqtisadi gücümüz, ordu potensialımız və beynəlxalq haqq-ədalət prinsipləri bizim mövqelərimizi gücləndirir və mən əminəm ki, bütün bu amillər və bizim fəal və hücum siyasətimiz nəticədə torpaqlarımızın işğalçılardan azad olunmasına gətirib çıxaracaqdır.

Beş il bundan əvvəl mən Azərbaycan xalqına söz vermişdim ki, 5 il ərzində Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmayacaq və çox şadam ki, biz buna nəinki 5 il, hətta 4 il müddətində nail ola bilmişik. Məcburi köşkünlərin yaşayış vəziyyətinin yaxşılaşdırılması və məşğulluğun artırılmasına dair 2004-cü ildə qəbul edilmiş Dövlət Proqramının icrası çox uğurla aparılır və bu müddət ərzində 12 çadır şəhərciyi ləğv edilibdir. Onların əvəzinə müasir binalar, evlər, məktəblər, tibb məntəqələri tikilibdir. 36 yeni qəsəbə salınıb və işğaldan əziyyət çəkmiş on minlərlə soydaşımız yeni evlərə köçürülübdür. Bu Proqramı biz bundan sonra da davam etdirəcəyik. 2007-ci ildə Proqrama əlavələr edilmişdir və əminəm ki, bu əlavələr nəticəsində biz soydaşlarımızın yaşayış səviyyəsinin xeyli dərəcədə yaxşılaşmasına nail olacağıq.

Eyni zamanda son beş il ərzində ordu quruculuğu prosesi çox sürətlə getmişdir. Bu da mənim 2003-cü ildə seçkiqabağı təkliflərimin biri idi. Demişdim ki, Azərbaycanda çox güclü ordu potensialı

yaradılmalıdır və əgər Azərbaycan xalqı etimad göstərsə və məni prezident vəzifəsinə layiq görsə, bu sahədə öz əməyimi əsirgəməyəcəyəm. Çox böyük qürur hissi ilə deyə bilərəm ki, son beş il ərzində Azərbaycanın ordu potensialı çox böyük dərəcədə gücləndirilibdir.

Ordumuzun hazırlıq, peşəkarlıq səviyyəsi böyük dərəcədə artıbdır. Mən dəfələrlə hərbi hissələrdə, o cümlədən düşmənlə təmas xəttində yerləşən səngərlərdə əsgərlərlə, zabitlərlə görüşlər keçirmişəm. Görmüşəm ki, həm döyüş qabiliyyəti, həm də ki, döyüş ruhu çox yüksəkdir. Azərbaycanda ordu quruculuğu prosesi bundan sonra da sürətlə gedəcəkdir. Eyni zamanda ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi üçün çox böyük işlər görülübdür. Sizin diqqətinizə mən iki rəqəmi çatdırmaq istəyirəm. 2003-cü ildə Azərbaycanın hərbi xərcləri 163 milyon dollar idisə, 2008-ci ildə bu rəqəm 1 milyard 850 milyon dollara çatıbdır. Növbəti illərdə bu məbləğ daha da artırılacaqdır. 2009-cu il dövlət büdcəsinin layihəsində orduya ayrılan vəsait daha da böyük olacaqdır. Beləliklə, biz çox güclü ordu potensialı yaratmaqla Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllini yaxınlaşdırırıq.

Bütün bu amillər öz rolunu oynayır və qarşı tərəf bilməlidir və bilir ki, Azərbaycan qüdrətli dövlətdir. Bizim iqtisadi gücümüz var, siyasi çəkimiz artıbdır. Bölgədə bizim iştirakımız olmadan heç bir məsələ – nə iqtisadi, nə siyasi, nə də başqa – öz həllini tapa bilməz. Bununla bərabər, Azərbaycanın çox güclü, müasir, mütəşəkkil ordusu var. Bütün bunları biz Azərbaycan xalqının dəstəyi ilə etmişik. Mən müxtəlif istiqamətlərdə atılan bütün bu addımları xalqla məsləhətləşmələr apararaq etmişəm. Mənim bölgələrə çoxsaylı səfərlərim və insanlarla ünsiyyətdə olduğum zaman insanların əhval-ruhiyyəsini görmək imkanlarım olubdur. Bölgələrdəki vəziyyətlə çox yaxından tanışam və göstərilən bütün təşəbbüslər, atılan bütün addımlar Azərbaycan xalqı tərəfindən dəstəklənmişdir.

Son beş il ərzində Azərbaycan siyasi islahatların aparılmasında çox böyük bir yol keçmişdir. Mən dəfələrlə demişəm və bu gün də təkrarlamaq istəyirəm ki, Azərbaycanda siyasi sistem təkmilləşmə-

lidir, bütün inkişaf etmiş demokratik ölkələrdə mövcud olan müsbət təcrübə Azərbaycanda tətbiq olunmalıdır. Bizim beynəlxalq təşkilatlarla əməkdaşlığımızın bir istiqaməti bundan ibarətdir. Bizə sərf edən, bizim üçün məqbul olan, Azərbaycan xalqına yad olmayan müsbət təcrübə Azərbaycanda tətbiq edilməlidir. Beləliklə, ölkə müasirləşir. Müasirləşmə, sadəcə olaraq, infrastuktur layihələri ilə, yaxud da ki, iqtisadi artımla ölçülmür. Eyni zamanda, bizim siyasi sistemimiz müasirləşməli, təkmilləşməlidir. Mən çox şadam ki, beş il ərzində Azərbaycanda demokratiyanın inkişafı üçün, siyasi islahatların aparılması üçün çox gözəl şərait yaradılmış və bu istiqamətdə çox önəmli addımlar atılmışdır. Bu yaxınlarda keçirilmiş prezident seçkiləri bunun əyani sübutudur. Mən şübhə etmirəm ki, bizim bu istiqamətdə siyasətimiz bundan sonra da uğurla davam etdiriləcək və Azərbaycanın hərtərəfli inkişafı təmin olunacaqdır.

Siyasi islahatlar iqtisadi islahatlarla tamamlanmalıdır. Azərbaycanda həm siyasi, həm də iqtisadi islahatlar paralel şəkildə aparılır və hesab edirəm ki, bizim uğurumuzun əsas səbəbi məhz bundan ibarətdir. Biz siyasi islahatları artıq yaranmış çox güclü iqtisadi təməl üzərində qururuq. Əgər bu iqtisadi təməl olmasa, siyasi islahatları aparmaq o qədər də asan olmayacaqdır. Əgər demokratik inkişaf baxımından ən öndə gedən ölkələrin təcrübəsinə nəzər salsaq, görərik ki, onların tam əksəriyyətində iqtisadi inkişaf çox yüksək səviyyədədir. O ölkələrin tam əksəriyyəti dünyada inkişaf etmiş ölkələr kimi tanınır. Bizim də məqsədimiz ondan ibarətdir ki, – mən bu barədə artıq demişəm, bəzən bu, təəccüb doğura bilər, amma mən inanıram, – Azərbaycan gələcəkdə inkişaf etmiş ölkələrin sırasına daxil olunmalıdır və daxil olacaqdır. Çünki bunu etmək üçün bizim bütün imkanlarımız var: istedadlı insanlar, çox açıq-aydın, şəffaf siyasət, siyasi islahatlar, iqtisadi güc, təbii ehtiyatlar, bizim coğrafi vəziyyətimiz. Əminəm ki, bu vaxta qədər aparılan siyasət bizə bu imkanı yaradacaqdır. Biz çalışmalıyıq, əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Baxmayaraq ki, bu nailiyyətlər də çox böyükdür, ancaq biz irəliyə baxmalıyıq, gələcəyə baxmalıyıq. Azərbaycanın uğurlu inkişafını təmin

etmək üçün, Azərbaycanda bundan sonra da sabit inkişafı təmin etmək üçün, Azərbaycan xalqının bundan sonra da təhlükəsizlik şəraitində yaşaması üçün biz hər gün çalışmalıyıq. Hamı – cəmiyyətin bütün üzvləri, bütün Azərbaycan xalqı çalışmalıdır. Bu həmrəylik bu gün Azərbaycanda var. Bizim uğurlarımız insanların, Azərbaycan xalqının dəstəyi və birbaşa iştirakı olmadan mümkün deyil və mən bir daha demək istəyirəm ki, bizim uğurlarımızın əsas mənbəyi Azərbaycan xalqının fəaliyyətidir, Azərbaycan xalqının iradəsidir.

Bir sözlə, siyasi sahədə islahatları bundan sonra da davam etdirəcəyik və artıq son beş il ərzində görülən işlər deməyə əsas verir ki, biz bu yoldan kənara çıxmayacağıq.

O ki qaldı iqtisadi islahatlara, bir daha demək istəyirəm ki, iqtisadi və siyasi islahatların paralel şəkildə aparılması bizə böyük uğurlar gətiribdir. 2003-cü ildən etibarən, Azərbaycanda çox böyük iqtisadi proqramlar icra olunmağa başlamışdır və bu gün Azərbaycanda elə bir sahə yoxdur ki, o sahə üçün xüsusi konkret proqram olmasın. Hər bir istiqamət üzrə biz konkret iş cədvəli üzrə fəaliyyət göstəririk, hər istiqamət üzrə konkret proqramlar, onların maddi təminatı var, çox işlək icra mexanizmləri var. Bir sözlə, Azərbaycanın hərtərəfli inkişafı üçün bütün şərait yaradılıbdır.

Son dörd il ərzində Azərbaycan dünya miqyasında iqtisadi artım sürətinə görə birinci ölkədir. Son dörd il ərzində iqtisadi artım, yəni ümumi daxili məhsulun artımı baxımından bizdən yuxarı ölkə olmamışdır. Bu, böyük nailiyyətdir. Bütövlükdə, beş il ərzində Azərbaycan iqtisadiyyatı, Azərbaycanda ümumi daxili məhsul 2,7 dəfə artmışdır. Mən deyə bilərəm ki, dünya miqyasında bu, görünməmiş bir nəticədir. 2008-ci ilin yekunlarına görə, adambaşına düşən ümumi daxili məhsul təxminən 6 min dollar təşkil edəcəkdir. Bu, yaxşı göstəricidir, ancaq gələcəkdə daha da artacaqdır. Çox sevindirici haldır ki, Azərbaycanda ümumi daxili məhsulla bərabər, sənaye istehsalı da artıbdır. Sənaye istehsalı son beş il ərzində 2,7 dəfə artıbdır. Bizim dövlət büdcəmiz son beş ildə on dəfədən çox artıbdır. Əgər 2003-cü ildə Azərbaycanın dövlət büdcəsi 1,2 milyard dollar təşkil

edirdisə, 2008-ci ildə icmal büdcə 15 milyard dollara bərabərdir. 2009-cu ilin dövlət büdcəsində daha da böyük artım nəzərdə tutulubdur. Azərbaycanın valyuta ehtiyatları böyük həcmdə artıbdır. 2003-cü ildə bizim valyuta ehtiyatlarımız 1,6 milyard dollar səviyyəsində idi. Bu ilin oktyabr ayına olan məlumata görə isə Azərbaycanın ümumi valyuta ehtiyatları 17 milyard dollar təşkil edir. Gələn illərdə bu məbləğ artacaqdır. Son beş il ərzində Azərbaycan iqtisadiyyatına 44 milyard dollar sərmayə qoyulmuşdur. Bu da bütün müstəqillik dövründə qoyulan sərmayələrin 77 faizini təşkil edir. Yəni Azərbaycan həm xarici investorlar üçün cəlbedici ölkə kimi maraq doğurur, həm də çox şadam ki, Azərbaycana böyük həcmdə daxili investisiyalar qoyulur. Burada, əlbəttə ki, dövlət investisiyalarının payı daha çoxdur, ancaq özəl, yerli şirkətlərin qoyduğu sərmayə də mühüm rol oynayır. Bu, çox vacibdir. Çünki bu, ölkəmizin hərtərəfli inkişafına, Azərbaycanda güclü sahibkarlıq sinfinin yaranmasına xidmət göstərəcəkdir. Orta sinfin yaranması artıq reallıqdır və Azərbaycanın bundan sonrakı illərdə hərtərəfli inkişafı bu amillərlə ölçüləcəkdir.

Qeyri-neft sektorunun inkişafında böyük uğurlar əldə edilibdir. Bu gün biz böyük iftixar hissi ilə deyə bilərik ki, iqtisadiyyatımız artıq çoxşaxəlidir. Biz özümüzü əsas ərzaq məhsulları ilə təmin edirik və Azərbaycanda istehsal olunan emal məhsulları başqa ölkələrə ixrac edilir. Onların bir çoxu beynəlxalq, Avropa sertifikatı alıbdır. Bu nə deməkdir? O deməkdir ki, Azərbaycan iqtisadiyyatı ancaq və ancaq enerji resurslarından asılı olmayacaqdır. Bu gün də asılı deyil və bölgələrdə gedən quruculuq işləri, yeni iş yerlərinin yaradılması, yeni zavodların, fabriklərin açılması – bütün bunlar görülən işlərin praktik nəticələridir.

Hər il sahibkarlığın inkişafına böyük məbləğdə vəsaitin ayrılması, güzəştli şərtlərlə kreditlərin verilməsi, kənd təsərrüfatının inkişafı üçün dövlət tərəfindən ayrılan subsidiyalar, alınan texnika, verilən dəstək və bütövlükdə, sahibkarlara Prezident tərəfindən verilən mənəvi-siyasi dəstək və əməli-praktik dəstək qeyri-neft sektorunun

inkişafında çox böyük dönüş yaratmışdır. Mən şübhə etmirəm ki, növbəti beş il ərzində bu istiqamətdə daha da böyük işlər görüləcəkdir. Artıq bu son beş il ərzində görülən işlər, onların bir neçəsi növbəti illərdə özünü göstərəcəkdir.

Bir sözlə, iqtisadi sahədə biz bu uğurlarla fəxr edə bilərik. Mən çox şadam ki, indi Azərbaycan iqtisadi cəhətdən öz müstəqilliyini tam şəkildə təmin edibdir. Ərzaq təhlükəsizliyinin təmin olunması üçün əlavə tədbirlər planı hazırlanır. Bu gün biz özümüzü əsas ərzaq məhsulları ilə 90–95 faiz civarında təmin edirik. Növbəti illərdə, qısa müddət ərzində tam təmin edəcəyik.

Mən çox şadam ki, iqtisadi sahədə göstərilən səylər və əldə edilmiş nailiyyətlər, eyni zamanda, dünya tərəfindən və beynəlxalq maliyyə qurumları tərəfindən də bəyənilir və dəstəklənir. Bunun sübutu dünyanın aparıcı maliyyə qurumu olan Dünya Bankının 2008-ci il üzrə hesabatıdır. O hesabatda Azərbaycan dünyada bir nömrəli islahatçı ölkə kimi tanınır. Bu, çox böyük qiymətdir, bizim səylərimizə, siyasətimizə verilən qiymətdir. Çünki bu islahatlar qeyri-neft sektorunda aparılıbdır. Bu islahatlar biznesin inkişafı üçün şərait yaradır, Azərbaycanda iqtisadiyyatın liberallaşmasına xidmət göstərir. Bu siyasət, islahatlar imkan verir ki, Azərbaycanda insanlar daha da yaxşı yaşasınlar. Ona görə biz bu qiymətə çox böyük əhəmiyyət veririk.

Eyni zamanda Azərbaycanda şəffaflıq təmin edilir. Neft-qaz hasil və ixrac edən ölkə üçün bu, çox vacibdir. Deyə bilərəm ki, bizim uğurlu neft strategiyamızın əsas istiqamətlərindən biri də məhz şəffaflıqdır. Keçən il Azərbaycan Dövlət Neft Fondu Birləşmiş Millətlər Təşkilatı tərəfindən şəffaflığa görə mükafatla təltif edilibdir. Azərbaycan xalqı bilir ki, ölkəyə nə qədər vəsait daxil olur və bu vəsait necə xərclənir.

Bir sözlə, biz bundan sonra da iqtisadi sahədə bu siyasəti davam etdirəcəyik. Bütün konkret proqramlar öz həllini tapacaqdır. Bizim son beş il ərzindəki təcrübəmiz onu göstərir ki, nəyi biz planlaşdırmışıqsa, nəyi bəyan etmişiksə, onu da icra etmişik və bəzi hallarda vaxtından tez etmişik. Bununla bərabər, deyə birərəm ki, son beş ildə

sosial məsələlərin həllinə böyük diqqət göstərilibdir. Çünki keçid dövründə yaşayan ölkələrdə və köklü, əsaslı iqtisadi islahatların aparılması şəraitində insanların həyat səviyyəsi pisləşə bilər və biz bunu tarixdən də bilirik. Uzaq və yaxın tarixdən də bilirik ki, köklü islahatlar müvəqqəti olaraq insanların yaşayış səviyyəsini endirir. Azərbaycanda isə biz bunun əksini görürük. Biz köklü iqtisadi islahatlar aparmaqla bərabər, sosial məsələlərin həllində böyük işlər görmüşük. Son beş il ərzində minimum pensiyanın məbləği 4 dəfə artırılmışdır. Minimum əməkhaqqı 8 dəfə, orta əməkhaqqı 3,6 dəfə artırılmışdır. Bu gün dövlətdən birbaşa ünvanlı sosial yardım alan insanların sayı 600 minə çatmışdır. Dövlət ehtiyacı olan vətəndaşlarının yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün öz köməyini göstərir və biz gələcəkdə bu siyasəti davam etdirəcəyik. Azərbaycanda yoxsulluğun azaldılması məni çox sevindirir.

Əgər 2003-cü ildə yoxsulluq şəraitində yaşayanların sayı 49 faiz idisə, 2007-ci ilin yekunlarına görə, bu rəqəm 16 faizə düşübdür. Mənə verilən proqnoz hesablamalara görə, bu ilin yekunlarına görə daha da aşağı düşəcəkdir. Bu, nəyi göstərir? Onu göstərir ki, Azərbaycanda uğurlu iqtisadi inkişaf, iqtisadi islahatlar və neft strategiyamız, ilk növbədə, insanların yaşayış səviyyəsinin yaxşılaşmasına xidmət göstərir. Bu onu göstərir ki, Azərbaycanda sürətlə inkişaf edən ölkələrə xas olan təbəqələşmə prosesi getmir. Əksinə, Azərbaycanda orta sinif yaranır. Azərbaycanda iş yerləri açılır və mən hesab edirəm ki, görülən bütün işlərin içində yoxsulluğun azaldılması xüsusi yer tutur. Bizim iqtisadi artımımız çox sürətlidir və bir də demək istəyirəm ki, dörd il ərzində dünya miqyasında biz lider ölkə olmuşuq. Əminəm ki, növbəti illərdə bu liderliyi saxlayacağıq. Bizim böyük infrastruktur layihələrimiz həyata keçirilir. Son beş il ərzində 4 beynəlxalq aeroport istismara verilibdir. Səkkiz elektrik stansiyası tikilibdir. Minlərlə kilometr yollar salınıbdır. Qazlaşdırma prosesi uğurla gedibdir. Əgər 2003-cü ildə Azərbaycanda qazlaşdırma 62 faiz idisə, bu gün 85 faizdir. Su kəmərləri çəkilir. Yəni bütün bu infrastruktur layihələri Azərbaycanı gücləndirir. Amma bununla bərabər, insanların

yaşayış səviyyəsinin qalxması, yoxsulluq içində yaşayanların vəziyyətinin yaxşılaşması – bu, mənim üçün az əhəmiyyət kəsb etmir, bəlkə daha da böyük əhəmiyyət kəsb edir. Çünki bizim bütün siyasətimiz Azərbaycan xalqının yaxşı yaşamasına, Azərbaycanın möhkəmlənməsinə yönəldilibdir.

Mən demək istəyirəm ki, həyata keçirilən işlərin nəticələrini görmək çox böyük xoşbəxtlikdir. Mən xatırlayıram ki, 2003-cü ildə, hələ prezident seçkiləri ərəfəsində çıxışlarımın birində bəyan etmişdim ki, əgər Azərbaycan xalqı mənə etimad göstərsə, söz verirəm ki, növbəti beş il ərzində Azərbaycanda 600 min yeni iş yerləri açılacaq və beləliklə, böyük sosial bəla olan işsizlik Azərbaycanda, demək olar, aradan qaldırılacaqdır. Böyük qürur hissi ilə deyə bilərəm ki, son beş il ərzində Azərbaycanda 741 min yeni iş yerləri açılmışdır ki, onlardan da 531 mini daimi iş yerləridir. Bu iş yerləri həm insanların rifah halının yaxşılaşmasına xidmət göstərir, həm də bölgələrdə gedən proseslərə güclü təkan verir. Bəzi hallarda vəziyyəti dərindən bilməyənlər, yaxud da ki, uğurlarımıza kölgə salmaq istəyən qüvvələr bizim iqtisadi inkişafımızı daha çox, sadəcə, neft amili ilə bağlayırlar. Düzdür, Azərbaycanda neft hasilatı artıbdır və ümumi daxili məhsulda onun çəkisi böyükdür. Hər bir ölkənin inkişaf üçün müəyyən əsas istinad nöqtəsi vardır. Bizim üçün də bu, təbii ehtiyatlardır. Ancaq bizim rayonlarımızın iqtisadi göstəricilərinə baxın: son beş il ərzində əksər rayonlarda iqtisadi artım 2 dəfədən çox olubdur. Bəzi rayonlarda ümumi daxili məhsul 2,5 dəfə, 2,7 dəfə, 3 dəfə artıbdır. Bizim rayonlarda neft hasilatı yoxdur. Yəni nəyin hesabına artıbdır? Bax, yaradılan iş yerlərinin hesabına, qoyulan investisiyaların hesabına, açılan zavodların, fabriklərin hesabına. Bu gün Azərbaycanda işləmək istəyən böyük dərəcədə iş tapa bilər.

Bu gün Azərbaycanda biz digər problemlə, qanunsuz miqrasiya ilə üzləşirik. Bu gün Azərbaycana işləmək üçün başqa ölkələrdən gələn işçi qüvvəsinin sayı günü-gündən çoxalır. Xüsusilə bu məsələni tənzimləmək üçün bu yaxınlarda Dövlət Miqrasiya Xidməti yaradılmışdır. Yəni budur, Azərbaycanın bugünkü reallıqları. 2003-cü ildən 2008-ci ilə qədər keçdiyimiz yol bütün istiqamətlərdə özünü büruzə veribdir.

Mən bu gün, sadəcə, əldə edilmiş bütün uğurlardan danışa bilmərəm. Əgər danışsam, bir neçə saat vaxt lazım olacaqdır. Sadəcə olaraq, əsas məqamları bir daha Azərbaycan xalqının diqqətinə çatdırmaq istəyirəm. Son beş il ərzində Azərbaycanda 1600 yeni məktəb tikilibdir. 1600 məktəb! Yüzlərlə məktəb təmir olunubdur. Bütövlükdə, Azərbaycanda 4500 məktəb var. Yararsız vəziyyətdə olan məktəblər söküldü, onların yerinə ən müasir standartlara cavab verən məktəblər tikilibdir. Bütün məktəblərdə kompyuterləşmə prosesi aparılır və bütün məktəblər internetə qoşulur. Əgər beş il bundan əvvəl 1000 şagirdə 1 kompyuter düşürdüsə, indi 29 şagirdə 1 komyuter düşür. Bax, budur bizim gələcəyimiz. Bizim gənc nəslimiz bilikli, savadlı olmalıdır, vətənpərvərlik ruhunda tərbiyə edilməlidir. Azərbaycanın gələcəyi üçün hazırlıqlı, peşəkar, Vətəni sevən, Vətənə bağlı olan kadrların hazırlanması bizim üçün prioritet məsələdir.

Mən insanların sağlamlığının qorunması üçün görülən işləri qeyd etmək istəyirəm. Son beş il ərzində 240-dan çox tibb müəssisəsi yaradılıb və onların böyük əksəriyyəti dünyanın ən yüksək standartlarına cavab verir. Təkcə Bakıda deyil, bölgələrdə müasir, dünya səviyyəsində olan tibb xidmətinin yaradılması Azərbaycan xalqının sağlamlığının qorunmasına verilən töhfədir.

Bu gün biz içməli su məsələsini uğurla həll edirik. Xüsusi təmizləyici qurğuların tikilməsi, su kəmərlərinin çəkilməsi insanların həyatının keyfiyyətini, sağlamlığını yaxşılaşdıracaqdır. Biz genefondumuza həmişə böyük diqqətlə yanaşmalıyıq. Elə etməliyik ki, Azərbaycanda insanlar sağlam olsunlar, gənc nəsil həm fiziki cəhətdən, həm də mənəvi cəhətdən sağlam olsun.

Son beş il ərzində Azərbaycanda bütün bölgələrdə 14 müasir olimpiya-idman kompleksi tikilmişdir. Təxminən 20-yə yaxın idman kompleksi hələ tikilməkdədir. Bütün bu idman komplekslərində uşaqlar ən yüksək səviyyədə idmanla məşğul olurlar. Orada bütün şərait – açıq, qapalı meydançalar, üzgüçülük hovuzları var. Budur, Azərbaycanın gələcəyi. Azərbaycanın gəncliyi bütün bu imkanlardan istifadə etməlidir. Bir daha demək istəyirəm ki, Azərbaycanın

hərtərəfli inkişafı, uğurlu inkişafı artıq reallıqdır. Mən heç şübhə etmirəm ki, növbəti beş il ərzində biz bütün bu müsbət meyilləri daha da möhkəmləndirəcəyik və Azərbaycanı yeni uğurlara doğru aparacağıq.

Bizim daxili və xarici siyasətimizin uğurla aparılması üçün enerji təhlükəsizliyi məsələləri də öz həllini tapıbdır. Biz qarşımıza qoyduğumuz bütün məsələləri həll etmişik. Azərbaycan bu gün enerji təhlükəsizliyi məsələlərini yüz faiz həll edibdir. Bilirsiniz ki, dünyada bu, artıq çox böyük danışıqlar mövzusudur və narahatlıq yaradan məsələdir. Azərbaycanda Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı illərin ortalarında başlanmış və bu gün uğurla icra edilən neft strategiyamız ölkəmizə böyük uğurlar gətiribdir. Planlaşdırdığımız bütün məsələlər öz həllini tapıbdır, baxmayaraq ki, bunu etmək o qədər də asan deyildi.

Bu gün Bakı–Tbilisi–Ceyhan neft kəməri istismardadır, tam gücü ilə işləyir. Son beş il ərzində kəmərin tikintisi başa çatmışdır. Bu gün Bakı–Tbilisi–Ərzurum qaz kəməri uğurla istismardadır, fəaliyyət göstərir. Son beş il ərzində Azərbaycan qazı idxal edən ölkədən qazı ixrac edən ölkəyə çevrilibdir və bu gün biz özümüzü təmin edirik, həm də başqa ölkələrə qaz ixrac edirik. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft-qaz kəmərlərinin məntiqi davamı olan Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisinə başlamışıq. Bu layihə həm bizim üçün, həm qonşularımız üçün, həm bölgə üçün, həm də dünya üçün tarixi əhəmiyyət daşıyır. Bizim təşəbbüsümüzlə və bu layihədə iştirak edən bütün ölkələrin təşəbbüsü və birgə səyləri nəticəsində bu nəhəng layihəni başlamışıq. Vaxtilə Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, Bakı–Tbilisi–Qars layihələri, sadəcə olaraq, kağızda idi. Sadəcə, bir niyyət idi, bir fikir idi. Bəziləri bunu əfsanə adlandırırdılar. Amma bu əfsanə artıq gerçəkliyə çevrilibdir. Kim bunu edibdir? Biz etmişik! Biz öz siyasətimizlə, regional əməkdaşlıq çərçivəsində və qonşu dövlətlərin fəal iştirakı ilə bütün bu uğurlu addımları təmin etmişik. Bu layihələr Azərbaycanın uzunmüddətli, uğurlu və dayanıqlı inkişafını təmin edəcəkdir.

Son beş il ərzində Azərbaycanda neft-qaz hasilatı böyük dərəcədə artmışdır. Əgər 2003-cü ildə neft hasilatı 15,4 milyon ton idisə, bu

il Azərbaycanda neft istehsalı 50 milyon tondan çox olmalıdır. 2003-cü ildə Azərbaycanda 5,5 milyard kubmetr qaz hasil edilirdi, bu ilin sonuna qədər Azərbaycanda qaz hasilatı 20 milyard kubmetrdən çox olacaqdır. Bu, qısa bir müddət ərzində böyük artımdır. Biz bütün imkanlarımızı – həm siyasi, həm iqtisadi, həm də texniki – səfərbər etmişik və bütün bu işlərdə məqsədyönlü siyasət aparmışıq. Biz qarşımıza məqsəd qoymuşuq və bu məqsədə doğru uğurla irəliləmişik. Bu gün biz neft ixracının şaxələndirilməsini təmin etmişik. Azərbaycanın 7 neft və qaz kəməri vardır. Onların hamısı işlək vəziyyətdədir və bu kəmərlər vasitəsilə təbii resurslarımızı istənilən istiqamətə ixrac etmək mümkündür.

Enerji siyasətimiz bizə iqtisadi müstəqillik verdi, bizə imkan verdi ki, ölkədə quruculuq-abadlıq, infrastuktur layihələrini uğurla icra edək. Bizə arxayınlıq verdi. Bugünkü uğurlarımız və tariximiz göstərdi ki, tam əminik, müstəqil dövlət kimi biz bundan sonra da uğurla yaşayacağıq. Müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük dəyərdir. Ancaq müstəqilliyi əldə etmək onu qoruyub saxlamaqdan, möhkəmləndirməkdən daha asandır. Bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil ölkədir, biz həm daxildə, həm də xaricdə müstəqil siyasət aparırıq. Bizim siyasətimiz Azərbaycan xalqının maraqlarına xidmət göstərir. Azərbaycan xalqının maraqlarının qorunması, Azərbaycan dövlətinin möhkəmləndirilməsi, Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi mənim üçün və bilirəm ki, hər bir Azərbaycan vətəndaşı üçün ən başlıca vəzifədir, ən başlıca məqsəddir.

Əziz dostlar, mən bu gün, andiçmə mərasimində son beş il ərzində mənə göstərilən dəstəyə görə, inama görə, etimada görə doğma xalqıma bir daha minnətdarlığımı bildirirəm. Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da Vətənimizin uğurlu inkişafı üçün, Azərbaycanın çiçəklənməsi üçün mən əlimdən gələni əsirgəməyəcəyəm, Azərbaycan xalqına bundan sonra da xidmət edəcəyəm.

Eşq olsun Azərbaycan xalqına!

Yaşasın Azərbaycan!

## İlham Əliyevin 28 May – Respublika Gününə həsr olunmuş rəsmi qəbulda nitqindən

***(27 may 2010-cu il)***

... 92 il bundan əvvəl müsəlman Şərqində ilk dəfə olaraq demokratik respublika yaradılmışdır. Bu hadisə çox böyük tarixi məna daşıyırdı. İlk dəfə olaraq, bu bölgədə demokratik respublikanın yaradılması Azərbaycan xalqının böyük nailiyyəti idi. Respublikanın ömrü uzun olmadı, iki ildən sonra Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi və Azərbaycan xalqı dövlət müstəqilliyini itirdi. Qısa müddət ərzində, iki ildə bütün dövlət atributları yaradıldı, Azərbaycanın dövlət bayrağı qəbul edildi, bizim dahi bəstəkarımız Üzeyir bəy Hacıbəyli tərəfindən Azərbaycanın dövlət himni yaradıldı, Azərbaycanın dövlət gerbi qəbul edildi, dövlət strukturları formalaşdırıldı, nazirliklər yaradıldı. Buna baxmayaraq, respublikanın süqutu qaçılmaz idi və 70 il ərzində Azərbaycan Sovet İttifaqının tərkibində sosialist respublikası kimi yaşadı. Baxmayaraq ki, biz dövlət müstəqilliyimizdən məhrum idik, o illər də Azərbaycan üçün uğurlu illər olmuşdur. O illər ərzində Azərbaycanda çox güclü sənaye potensialı yaradıldı. Azərbaycanda kənd təsərrüfatının inkişafı çox sürətlə gedirdi. Ölkəmiz üçün çox vacib olan sənaye müəssisələri, xüsusilə neft-qaz sahəsində yaradılmış müəssisələr bu gün də müstəqil Azərbaycana xidmət göstərir.

Ancaq buna baxmayaraq, biz müstəqil ölkə kimi yaşaya bilmirdik. Azərbaycan xalqı yenə də ümidlərlə yaşayırdı və bu ümidlər özünü 1991-ci ildə doğrultdu. Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdi. Ancaq o illər Azərbaycan üçün çox ağır illər idi. Yəni tariximizə ağır, çox çətin illər kimi daxil olub. Çünki müstəqilliyin ilk illərində Azərbaycanda gedən xoşagəlməz proseslər, daxili çəkişmələr, hakimiyyət uğrunda mübarizə, Azərbaycan rəhbərliyinin yarıtmaz fəaliyyəti nəticəsində ölkəmizin müstəqilliyi yenə də şübhə altına qoyuldu. Bütün iqtisadi

məsələlər düzgün istiqamətdə həll olunmurdu. Sənaye sahəsində böyük tənəzzül müşahidə olunurdu, total böhran hökm sürürdü.

Bundan əlavə, hələ Sovet İttifaqının dağılmasından bir neçə il əvvəl erməni separatçılarının Azərbaycana qarşı apardıqları işğalçı siyasət nəticəsində torpaqlarımızın müəyyən hissəsinin işğal altına düşməsi – bütün bu amillər Azərbaycanı çox çətin vəziyyətdə qoymuşdu. Müstəqilliyimiz əslində əldən gedə bilərdi. Azərbaycan xalqı özünə xas olan müdrikliyini göstərərək, Ümummilli lider Heydər Əliyevə müraciət etmişdir. Onu Azərbaycanın siyasi hakimiyyətinə dəvət etmişdir. Onun Azərbaycanın siyasi hakimiyyətinə gəlişindən sonra vəziyyət sabitləşdi, xoşagəlməz meyillərin qarşısı alındı, sabitlik yaradıldı və Azərbaycan öz inkişaf dövrünə qədəm qoydu.

1993–2003-cü illər Azərbaycan tarixində sabitlik və inkişaf illəri kimi qalacaqdır. Məhz o illərdə Azərbaycanda dövlətçiliyin əsasları qoyuldu, hüquqi dövlət quruculuğu işində çox əhəmiyyətli addımlar atıldı. Siyasi sistem yaradıldı. İqtisadi islahatlar aparılmağa başlandı. Azərbaycan məhz o illərdə dünya birliyinə sürətlə inteqrasiya etməyə başlamışdır və bir sıra beynəlxalq təşkilatların üzvü olmuşdur. Azərbaycanın dünya miqyasında tanınması işində o illər həlledici illər olmuşdur.

Ölkəyə böyük həcmdə xarici sərmayənin gətirilməsi nəticəsində bizim uzunmüddətli inkişaf strategiyamız təmin edildi. Heydər Əliyev neft strategiyasının bütün bu işlərin içərisində xüsusi yeri vardır. Bu strategiya bu gün də uğurla icra edilir və məhz bunun nəticəsində biz bu gün Azərbaycanda çox sürətli inkişafı görürük.

... Qarşımızda duran əsas problem Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllidir. Biz bu istiqamətdə çox fəal çalışırıq. Danışıqlar prosesində biz həmişə prinsipial mövqe tutmuşuq. Son illər ərzində gedən danışıqlar bunu bir daha göstərir. Azərbaycan prinsipial məsələlərdə bir addım geri atmamışdır. Bizim mövqeyimiz beynəlxalq hüquq normalarına, beynəlxalq təşkilatların qərarlarına, qətnamələrinə əsaslanır və Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün biz bütün imkanlardan istifadə edirik.

Qarşı tərəfin mövqeyi isə onların arzularına əsaslanıb və bu, münaqişənin həlli üçün heç cür əsas ola bilməz. BMT Təhlükəsizlik Şurasının qətnamələri, digər beynəlxalq təşkilatların qərarları və qətnamələri bizim mövqeyimizi gücləndirir. Bu münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Azərbaycanın işğal edilmiş bütün torpaqları işğalçılardan azad edilməlidir. Azərbaycan vətəndaşları, məcburi köçkünlər öz doğma, tarixi torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qayıtmalıdırlar. Dağlıq Qarabağda isə erməni və Azərbaycan icmaları yüksək muxtariyyət çərçivəsində, vahid Azərbaycan dövləti çərçivəsində yaşamalıdırlar. Bu, prinsipial mövqedir. Bu mövqe beynəlxalq hüquq normalarına və dünya birliyi tərəfindən qəbul edilmiş prinsiplərə əsaslanır.

Bildiyiniz kimi, bu yaxınlarda İslam Konfransı Təşkilatı Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çox müsbət və tutarlı arqumentlərlə zəngin olan qətnamələr qəbul edibdir. Bu qətnamələr Azərbaycanın mövqeyini, yəni haqq-ədaləti tam şəkildə dəstəkləyir. Bir həftə bundan əvvəl Avropa Parlamenti tərəfindən bu məsələ ilə bağlı qəbul edilmiş qətnamə yenə də beynəlxalq hüquq normalarına əsaslanır və orada Ermənistan aqressor, yəni təcavüzkar dövlət kimi göstərilir. Açıq-aydın göstərilir ki, güc tətbiq etməklə heç bir ölkənin sərhədlərini pozmaq, status-kvo ilə barışmaq mümkün deyildir. Açıq-aydın göstərilir ki, bu vəziyyət – nə sülh, nə savaş davam edə bilməz, Azərbaycan torpaqları işğalçılardan azad edilməlidir

Bu, son həftələr ərzində baş vermiş mühüm hadisələrdir. Bu, bizim mövqeyimizi daha da gücləndirir və bir daha göstərir ki, beynəlxalq birlik – istər İslam dünyası, istər Avropa Birliyi vahid mövqedən, yəni ədalətli mövqedən çıxış edir. Biz başa düşürük ki, bu qətnamələr və siyasi addımlar Ermənistanı çox böyük təşvişə salıbdır. Yəni Ermənistan təbliğatına çox böyük zərbələr endirilibdir. Onların belə isterik reaksiyası bunun əyani sübutudur. Əgər belə olmasaydı, Ermənistan rəsmiləri Avropa Parlamenti tərəfindən qəbul edilmiş

qətnaməyə dair çox gülməli və əsassız şərhlər verməzdilər. Yəni onlar deyirlər ki, bu qətnamə Madrid prinsiplərinə ziddir. Halbuki, bu, Madrid prinsiplərinə və beynəlxalq hüquq normalarına tamamilə uyğundur. Belə gülməli və qeyri-ciddi şərhlər təkcə onu göstərir ki, Ermənistan tərəfi, doğrudan da, təşviş içindədir. Onlar bu ağır vəziyyətdən çıxmaq üçün konkret addımlar atmalıdırlar.

Bu yaxınlarda Dağlıq Qarabağda separatçı kriminal rejim tərəfindən keçirilmiş qanunsuz, qondarma "seçkilər" və "seçkilərə" beynəlxalq birlik tərəfindən verilən qiymət bir daha onu göstərir ki, dünya birliyi separatizmi qəbul etmir, Dağlıq Qarabağı müstəqil qurum kimi qəbul etmir və etməyəcəkdir.

Minsk qrupunun həmsədr ölkələri, Avropa İttifaqı, İslam Konfransı Təşkilatı, qonşu dövlətlər, Avropa Şurası, bütün beynəlxalq birlik bu dırnaqarası seçkiləri pislədi, bir daha Azərbaycanın ərazi bütövlüyünü dəstəklədi və bunu açıq şəkildə bəyan etdi. Belə olan halda, şübhəsiz ki, Azərbaycan öz prinsipial mövqeyini davam etdirəcəkdir. Bizim mövqeyimiz, bir daha demək istəyirəm ki, beynəlxalq hüquq normalarına əsaslanır və biz bu mövqedən bir addım geri atmayacağıq.

Doğrudur, torpaqlarımız işğal altındadır. Bu işğal davam edir və Ermənistanın danışıqlarda qeyri-konstruktiv və riyakar davranışı onu göstərir ki, Ermənistan tərəfi, sadəcə olaraq, vaxt uzatmaq istəyir. Beynəlxalq vasitəçiləri aldatmaq istəyir ki, o, sanki danışıqlarda iştirak edir. Amma onların danışıqlarda iştirakının əsas səbəbi vaxt uzatmaqdır. Ancaq vaxt uzatmaqla onlar heç bir şeyə nail ola bilməyəcəklər. Çünki vaxt onların xeyrinə işləmir.

Bölgədə gedən proseslər bir daha onu göstərir ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həll olunmadan bölgədə Ermənistanın iştirakı ilə heç bir əməkdaşlıqdan söhbət gedə bilməz, heç bir başqa məsələ öz həllini tapa bilməz. Ermənistan tərəfi çox ümid edirdi ki, Türkiyə–Ermənistan sərhədləri açılacaq, beləliklə, onlar üçün bir nəfəs borusu yaranacaq və Qarabağ məsələsi kənara qoyulacaqdır. Ancaq həyat və Türkiyə tərəfinin prinsipial mövqeyi on-

ların bütün planlarını alt-üst etdi. Vəziyyət o həddə çatmışdır ki, bir neçə ay bundan əvvəl Ermənistan prezidenti hansısa xarici səfərdə çıxış edərkən söyləmişdi ki, o, Azərbaycan Prezidentini Türkiyə–Ermənistan sərhədlərinin açılmasına dəvət edəcəkdir. Yəni bu, çox yersiz və mənasız bir bəyanat idi. Çünki yəqin ondan başqa hamı artıq bilirdi ki, Türkiyə–Ermənistan sərhədləri Dağlıq Qarabağ prosesi nizama salınmadan açıla bilməz. Həyat onu bir daha göstərdi. Ona görə özündən bu qədər razı olmaq üçün, birincisi, əsas olmalıdır, ikincisi isə hər kəs öz ayaqlarını yorğanına görə uzatmalıdır.

Şübhəsiz ki, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi bizim siyasətimizin prioriteti olaraq qalacaqdır. Biz bütün səylərimizi səfərbər etmişik və edəcəyik ki, məsələni tezliklə, ədalətli, beynəlxalq normalara uyğun şəkildə həll edək, torpaqlarımızı işğalçılardan boşaldaq və Azərbaycanın ərazi bütövlüyünü bərpa edək. Biz istəyirik ki, bunu sülh yolu ilə edək və diplomatik səylərimizi gücləndiririk. Bununla bərabər, heç kim üçün sirr deyil ki, hərbi gücümüzü də gücləndiririk. Bu gün Azərbaycanda mövcud olan hərbi potensial bizə imkan verir ki, istənilən anda, istənilən vəzifəni uğurla və qısa müddət ərzində icra edək. Sadəcə olaraq, biz istəmirik ki, hərbi yola əl ataq. Ancaq bu variant heç vaxt istisna olunmamışdır və biz bu barədə öz fikirlərimizi bütün dövrlərdə açıq və səmimi bildirmişik. Mən heç şübhə etmirəm ki, biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik və bunu etmək üçün kifayət qədər əsaslar vardır.

Əziz dostlar, biz 20 ilə yaxındır ki, müstəqil ölkə kimi yaşayırıq. Bu illər ərzində özümüzə də, dünya birliyinə də sübut edə bildik ki, Azərbaycan xalqı müstəqil yaşaya bilər. Azərbaycan xalqı öz daxili imkanlarına istinadən yaxşı yaşaya bilər. Müstəqillik təkcə dövlət rəmzləri ilə ölçülmür. Müstəqillik o deməkdir ki, ölkə müstəqil siyasət apara, milli maraqlarını müdafiə edə bilsin. Öz milli maraqlarını müdafiə etmək üçün imkan olmalıdır, həm siyasi güc, həm iqtisadi güc. Bu gün müstəqil ölkə kimi qısa tariximiz onu göstərir ki, biz müstəqil ölkə kimi uğurla inkişaf edirik. Azərbaycanda bütün sahələrdə görünən inkişaf onun bariz nümunəsidir. Siyasi islahatlar, de-

mokratikləşmə prosesinin uğurla getməsi, hüquqi dövlət, ordu quruculuğu, iqtisadi islahatlar – hər bir ölkə üçün vacib olan bütün bu istiqamətlərdə biz ancaq və ancaq müsbət irəliləyişi görürük. Bu, bizim gücümüzü daha da artırır. Biz inamla irəliyə gedirik, ölkəmizi inamla idarə edirik. Bugünkü Azərbaycan Azərbaycan xalqının zəhmətinin, istedadının nəticəsidir. Bu ölkəni biz qurmuşuq, Azərbaycan xalqı qurubdur. Biz elə etməliyik ki, hər bir vətəndaş gündəlik işində elə etməlidir ki, öz fəaliyyəti ilə bu müstəqilliyi gücləndirsin, əbədi, dönməz etsin və bundan sonra onilliklər, əsrlər boyu Azərbaycan xalqı azad, müstəqil və rifah içində yaşasın.

Bütün bu məqsədlərə nail olmaq üçün, bir daha demək istəyirəm ki, bütün imkanlarımız vardır. Ən əsası odur ki, siyasi iradə vardır.

## Silahlı Qüvvələrin yaradılmasının 92-ci ildönümü münasibətilə Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunların birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimini izləyən Prezident İlham Əliyevin hərbçilər qarşısında çıxışından

***(24 iyun 2010-cu il)***

... Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Əsrlər boyu azərbaycanlılar bu diyarda yaşayıblar, ermənilər oraya qonaq kimi gəliblər. Dağlıq Qarabağın əvvəlki, yəni real coğrafi məntəqələrinin adlarına baxmaq kifayətdir. Xankəndi şəhəri əsrlər boyu bu adla mövcud olub. Köhnə xəritələrə baxanda hər kəs bunu görə bilir: Xankəndi. Stepanakert adı orada yoxdur. Stepanakert bolşevik, quldur Stepan Şaumyanın adından götürülüb. Bu ad Sovet İttifaqı zamanında verilib. Dağlıq Qarabağ – Qarabağ Azərbaycan sözüdür. Erməni dilində bunun heç bir mənası yoxdur. Bütün başqa coğrafi məntəqələrin adlarının – hamısı Azərbaycan xalqı, Azərbaycan tarixi ilə bağlıdır. Sadəcə olaraq, XIX əsrdə digər bölgələrdən ermənilərin Dağlıq Qarabağa köçürülməsi orada demoqrafik vəziyyətin dəyişdirilməsinə gətirib çıxarıb və Sovet İttifaqı dağılan zaman orada ermənilər əksəriyyət təşkil etmişlər. Amma bu heç kimə əsas vermir ki, orada azlıq təşkil edən azərbaycanlıların haqları pozulsun. Azərbaycanlıların o torpağa qayıtmağa haqqı var və biz oraya qayıdacağıq. Biz istəyirik ki, bunu sülh yolu ilə edək. Ancaq biz bütün başqa variantlara da hazır olmalıyıq və hazırıq.

Bilirsiniz ki, uzun illərdir Ermənistanla Azərbaycan arasında bu istiqamətdə danışıqlar aparılır. Danışıqların aparılmasında vasitəçilər öz rolunu oynayır. Ancaq buna baxmayaraq, məsələ bu günə qədər həllini tapmayıb. Bizim mövqeyimizi, haqq-ədalət mövqeyini gücləndirən beynəlxalq təşkilatların qərarları, qətnamələri var. Ancaq işğalçı dövlət bu qərarlara, bu qətnamələrə məhəl qoymur. Belə

olan halda Azərbaycanın qarşısına yeni vəzifələr çıxır. Ya danışıqları davam etdirmək, – biz buna hazırıq, ancaq o şərtlə ki, danışıqların nəticəsi olsun, – ya da başqa yolu seçmək. Biz hər bir varianta hazır olmalıyıq və son illər ərzində dəfələrlə verdiyim bəyanatlar bunu bir daha göstərir.

Biz məsələnin həllinin hərbi yolla mümkün olmasını heç vaxt inkar etməmişdik. 20 ilə yaxındır sülh danışıqları aparılır. Azərbaycan bu danışıqlarda çox konstruktiv mövqe nümayiş etdirir. Bunun nəticəsi yoxdur. Nə vaxta qədər Azərbaycan xalqı gözləməlidir? Nə vaxta qədər biz gözləməliyik ki, haqq-ədalət bərpa olunsun? Azərbaycan xalqının səbri tükənməz deyil.

Bizim başqa ölkələrin torpaqlarında gözümüz yoxdur. Baxmayaraq ki, bugünkü Ermənistan Respublikası tarixi Azərbaycan torpaqlarında qurulub. Ancaq biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik. Bu, bizim təbii haqqımızdır. Bir milyon Azərbaycan vətəndaşının elementar insan haqları pozulub. Azərbaycanlılar etnik təmizləməyə məruz qalıblar. Dağlıq Qarabağdan və ətraf bölgələrdən yüz minlərlə Azərbaycan vətəndaşı qovulub. Nə vaxta qədər biz buna dözməliyik?

Biz bütün imkanlarımızı səfərbər etməliyik və edirik. Həm siyasi, həm diplomatik səylərimizi gücləndirməliyik və gücləndiririk. İqtisadi potensialımızı böyük dərəcədə gücləndirmişik. Hərbi gücümüzü artırmalıyıq və artırırıq. Bu gün Azərbaycan ordusu qarşıda duran bütün vəzifələri şərəflə yerinə yetirməyə hazırdır. Döyüş qabiliyyəti, peşəkarlıq, vətənpərvərlik ruhu, maddi-texniki bazanın möhkəmlənməsi, orduya dövlətin diqqəti və hörməti – bütün bu amillər bizə imkan verəcək ki, doğma torpaqlarımızı işğalçılardan azad edək.

Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Əsrlər boyu azərbaycanlılar bu diyarda yaşayıblar, ermənilər oraya qonaq kimi gəliblər. Dağlıq Qarabağın əvvəlki, yəni real coğrafi məntəqələrinin adlarına baxmaq kifayətdir. Xankəndi şəhəri əsrlər boyu bu adla mövcud olub. Köhnə xəritələrə baxanda hər kəs bunu görə bilir: Xan-

kəndi. Stepanakert adı orada yoxdur. Stepanakert bolşevik, quldur Stepan Şaumyanın adından götürülüb. Bu ad Sovet İttifaqı zamanında verilib. Dağlıq Qarabağ – Qarabağ Azərbaycan sözüdür. Erməni dilində bunun heç bir mənası yoxdur. Bütün başqa coğrafi məntəqələrin adlarının – hamısı Azərbaycan xalqı, Azərbaycan tarixi ilə bağlıdır. Sadəcə olaraq, XIX əsrdə digər bölgələrdən ermənilərin Dağlıq Qarabağa köçürülməsi orada demoqrafik vəziyyətin dəyişdirilməsinə gətirib çıxarıb və Sovet İttifaqı dağılan zaman orada ermənilər əksəriyyət təşkil etmişlər. Amma bu heç kimə əsas vermir ki, orada azlıq təşkil edən azərbaycanlıların haqları pozulsun. Azərbaycanlıların o torpağa qayıtmağa haqqı var və biz oraya qayıdacağıq. Biz istəyirik ki, bunu sülh yolu ilə edək.Ancaq biz bütün başqa variantlara da hazır olmalıyıq və hazırıq!

## Dağlıq Qarabağın azərbaycanlı icmasının mərkəzi qərargahının açılışında İlham Əliyevin nitqindən

***(6 iyul 2010-cu il)***

... Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır. Bütün Azərbaycan xalqı bunu yaxşı bilir. Siz Dağlıq Qarabağın nümayəndələri kimi, əlbəttə ki, o bölgənin tarixini çox yaxşı bilirsiniz. İndi münaqişə ilə bağlı bütün reallıqlar bizim fəaliyyətimiz nəticəsində artıq dünya birliyinə çatdırılır. Bütün beynəlxalq təşkilatlarda, dünyanın aparıcı beynəlxalq təşkilatlarında Azərbaycanın səmərəli fəaliyyəti nəticəsində münaqişə ilə bağlı reallıqlar, bu bölgənin tarixi, mədəniyyəti ilə bağlı həqiqətlər artıq o təşkilatların üzvlərinə çatdırılır. Münaqişənin ilk illərində erməni lobbisinin fəaliyyəti nəticəsində və Azərbaycanın beynəlxalq aləmdə o qədər də böyük imkanlarının olmaması səbəbindən münaqişənin səbəbləri, Dağlıq Qarabağın tarixi ilə bağlı çox yanlış və təhrif edilmiş məlumatlar mövcud idi. Ancaq bu gün biz tam əminliklə deyə bilərik ki, artıq Azərbaycan Ermənistanın və erməni lobbisinin yalançı təbliğatına böyük zərbə vura bilmişdir. Bu gün dünyanın bütün əsas beynəlxalq təşkilatları Azərbaycanın haqq işini qəbul edilmiş qərarları ilə dəstəkləyirlər. BMT, Avropa Parlamenti, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı, digər təşkilatlar müxtəlif dövrlərdə münaqişə ilə bağlı çox tutarlı və həqiqəti əks etdirən qətnamələr, qərarlar qəbul etmişlər ki, bu qərarlar münaqişənin həlli üçün əsasdır.

Dağlıq Qarabağın əzəli Azərbaycan torpağı olduğunu təsdiqləyən müxtəlif sənədlər, faktlar mövcuddur. Bildiyiniz kimi, ermənilər bu bölgəyə XIX əsrin əvvəllərində köçürülmüşlər. Ondan sonra müxtəlif səbəblər üzündən Dağlıq Qarabağda erməni əhalisi əksəriyyət təşkil etmişdir. Bunun nəticəsində XX əsrin əvvəllərində, 1920-ci illərdə Dağlıq Qarabağda muxtar vilayət yaradılmışdır. Dağlıq Qarabağın bütün tarixi, bütün toponimləri, coğrafi adlar Azərbaycan xalqının tarixi və mədəniyyəti ilə bağlıdır. Bütün kəndlərin, şəhərlərin adları Azərbaycanın tarixini təcəssüm etdirir.

Dağlıq Qarabağın mərkəzi Xankəndi şəhəri bu adla qurulmuşdur. Bu yaxınlarda mən bu barədə öz fikirlərimi bildirmişəm. Bir daha demək istəyirəm, uzağa getməyək, elə XX əsrin əvvəllərində tərtib edilmiş xəritələrə baxmaq kifayətdir görək ki, – xəritələrdə bütün adlar əzəli adları ilə göstərilib, – orada Stepanakert adlı şəhər yoxdur. Orada Xankəndi vardır. "Stepanakert" sözü bolşevik Stepan Şaumyanın adından götürülüb. O adamın ki, Azərbaycan xalqının, günahsız insanların qanını axıtmışdır, azərbaycanlılara qarşı soyqırımı törətmişdir. Ancaq yenə də demək istəyirəm, əfsuslar olsun ki, bu həqiqətlər uzun illər ərzində dünya birliyinə o qədər də geniş şəkildə çatdırılmırdı. Yəni dünya birliyi bu barədə məlumatsız idi.

Bu, problemlərimizin bir tərəfidir. Digər tərəfi, hətta bu gün, bütün beynəlxalq təşkilatlarda və dünyada fəaliyyətimiz nəticəsində həqiqətlər çatdırıldığı bir zamanda biz yenə də bəzi hallarda Azərbaycana qarşı ədalətsizliklər görürük. Bəzi hallarda həqiqətlərə göz yumulur. Bu reallıqlar nəzərə alınmır və müəyyən dairələr, xarici dairələr öz siyasətini uydurulmuş faktlar, təhrif edilmiş tarix əsasında aparmağa davam edirlər. Bu, ikili standartlar siyasətidir. Əfsuslar olsun ki, bu, dünyada bu gün və əvvəlki dövrlərdə də mövcud olan bir yanaşmadır. İkili standartlar ədalətsizlik deməkdir. İşğalçı ilə işğalın qurbanını, necə deyərlər, bir səviyyədə görmək nə qədər ədalətlidir?! Bunu bütün Azərbaycan xalqı yaxşı bilir. Biz öz fəaliyyətimizlə, apardığımız siyasətlə, həqiqətləri çatdırmaqla öz işimizi davam etdirəcəyik.

Beynəlxalq təşkilatların qərarları çox önəmlidir. Bəzi hallarda belə bir fikir yarana bilər ki, bu qərarlar qəbul edilir, Azərbaycan haqq səsini artıq bütün beynəlxalq forumlarda dünya birliyinə çatdırır, ancaq münaqişə həllini tapmır. Bu həqiqətdir. Ancaq bununla bərabər, beynəlxalq təşkilatların qərarları məsələnin həlli üçün əsasdır. Məsələnin istənilən yolla həlli üçün əsasdır. Çünki beynəlxalq hüquq normalarının Ermənistan tərəfindən pozulmasına baxmayaraq, onları heç kim inkar etmir. Yəni dünya birliyi və beynəlxalq aləm beynəlxalq hüquq normaları əsasında formalaşıbdır və fəaliyyət göstərir.

Birləşmiş Millətlər Təşkilatı, digər təşkilatlar – yəni bu təşkilatların nizamnaməsi, məramı ədalət, demokratiya, hüquq normaları üzərində qurulubdur və istənilən formada münaqişənin həlli beynəlxalq hüquq normalarına əsaslanmalıdır. Əgər Azərbaycan görsə ki, sülh prosesi artıq tükənib, heç bir ümid yoxdur və müharibə yoluna üstünlük verərsə, yenə də beynəlxalq hüquq normaları bizim mövqeyimizi dəstəkləyir. Çünki Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 51-ci maddəsində açıq-aydın göstərilir ki, hər bir ölkə özünü müdafiə etmək üçün bütün hüquqlara malikdir. Biz istəyirik ki, məsələ sülh yolu ilə həll olunsun. Biz istəyirik ki, ərazi bütövlüyümüz dinc yolla, danışıqlar yolu ilə bərpa olunsun. Ancaq hələ ki, bu, mümkün deyildir.

Bununla bərabər, mən hesab edirəm ki, biz diplomatik səylərimizi bundan sonra da davam etdirməliyik. Bax, bu yaxınlarda Avropa Parlamentində Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çox önəmli qətnamə qəbul edilmişdir. Baxmayaraq ki, artıq münaqişənin başlanmasından 20 ilə yaxın vaxt keçir, ancaq bu qətnamə bu il qəbul edilib. Hesab edirəm ki, gec olsa da, ədalətli qərarın qəbul edilməsi, özü də Avropa Parlamentində qəbul edilməsi çox önəmlidir. Hamımız bilirik ki, orada erməni lobbisi nə qədər böyük imkanlara malikdir və bu qətnamənin əleyhinə çıxan erməni lobbisi nə qədər böyük səylər göstərmişdir.

Bütün bunları biz yaxşı bilirik. Bəlkə geniş ictimaiyyət bundan xəbərsizdir. Amma biz bilirik ki, son ana qədər onların müqaviməti, səyləri və bütün dünya ermənilyinin birləşməsi yenə də qətnamənin əleyhinə qərarın qəbul edilməsinə imkan yaratmadı. Çünki haqq-ədalət öz yerini tutdu. Bir də ki, biz Azərbaycanın artıq artan təsir imkanları və həqiqətin Avropa deputatlarına çatdırılması sayəsində bu qətnamənin qəbul edilməsində istədiyimizə nail olduq. Əgər desəm ki, bu qətnamə bu gün, ya sabah münaqişənin həlli üçün bir əsas rol oynayacaq, əlbəttə, bu, düzgün olmaz. Ancaq yenə də deyirəm, istənilən anda Azərbaycan öz ərazi bütövlüyünü beynəlxalq hüquq əsasında, istənilən yolla bərpa etmək istəyəndə, əlbəttə ki, hüquqi əsas həlledici rol oynayacaqdır.

Beləliklə, bugünkü vəziyyət, yəni beynəlxalq hüquq normaları əsasında həllini gözləyən münaqişə ilə bağlı proseslər müsbət istiqamətdə davam edir. Çünki BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrindən sonra bu illər ərzində müxtəlif beynəlxalq təşkilatlarda vacib qərarlar qəbul edilmişdir.

O ki qaldı münaqişənin həllinə, bir daha demək istəyirəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməlidir, edəcəkdir və danışıqlarda Azərbaycanın ərazi bütövlüyü heç vaxt şübhə altına qoyulmamışdır. Bu gün Madrid prinsipləri əsasında təklif edilən yenilənmiş prinsiplər Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün şərait yaradır. Məhz buna görə Azərbaycan bu danışıqlarda iştirak edir və konstruktivlik nümayiş etdirir. Çünki biz bütün dövrlərdə çalışmışıq və buna nail olmuşuq ki, Azərbaycanın ərazi bütövlüyü nəzərə alınmalıdır, münaqişə həllini bunun əsasında tapmalıdır. Bu gün həmsədr ölkələr öz fikirlərini bəlkə də daha da açıq şəkildə ortaya qoyurlar. Bir vacib məsələ vurğulanır ki, məsələ öz həllini Helsinki prinsipləri əsasında tapmalıdır. Nədir bu Helsinki prinsipləri? Yəqin ki, indi bunu məsələ ilə məşğul olanlar yaxşı bilirlər. Burada əsas prinsip ərazi bütövlüyüdür. Xalqların öz müqəddəratını təyinetmə, müəyyənetmə prinsipləri də vardır. Ancaq o prinsiplər ölkələrin ərazi bütövlüyünə zərbə vurmamalıdır, onunla ziddiyyət təşkil etməməlidir. Xalqların özünüidarəetmə və öz müqəddəratını müəyyənetmə imkanları ölkələrin ərazi bütövlüyünü pozmamalıdır. Budur, Helsinki prinsiplərinin mahiyyəti və mənası. Bunun əsasında həmsədr ölkələr tərəfindən işlənilmiş təkliflər ortaya qoyulub və Azərbaycan müəyyən istisnalarla bu təklifləri qəbul edir. Bunlar nədən ibarətdir? Bir daha mən bu barədə məlumat vermək istəyirəm. İlk növbədə, Dağlıq Qarabağın ətrafında yerləşən işğal edilmiş bütün bölgələrdən işğalçı qüvvələr çıxarılır. Beş rayon dərhal, iki rayon – Kəlbəcər və Laçın rayonları müəyyən müddətdən sonra qaytarılır. Təkliflərdə beş il müddət nəzərdə tutulubdur. Bunun səbəbi ondan ibarətdir ki, Kəlbəcər və Laçın rayonları Dağlıq Qarabağla Ermənistan arasında yerləşir və bir növ, o rayonlara Azərbaycan əhalisinin

qayıtması üçün təhlükəsizlik tədbirləri daha da böyük həcmdə görülməlidir. Ancaq bütün bölgələr, bütün rayonlar Azərbaycanın nəzarəti altına qayıdır. Ermənistanla Dağlıq Qarabağ arasında yol, yəni dəhliz fəaliyyət göstərir və Azərbaycan bu təkliflərlə də razılaşıbdır. Çünki bu, münaqişənin həlli üçün vacib olan məsələdir. Çünki bütün təhlükəsizlik təminatları verilməlidir.

Bizim niyyətimiz yoxdur ki, ermənilər kimi orada etnik təmizləmə siyasəti aparaq. Heç vaxt Azərbaycan xalqı belə çirkin əməllərə əl atmamışdır. Ona görə Dağlıq Qarabağla Ermənistan arasında mövcud yol necə fəaliyyət göstərib, elə də fəaliyyət göstərməlidir və hesab edirəm ki, bu təklif qəbul oluna bilər. Təhlükəsizlik zəmanəti verilməlidir. Sülhməramlı qüvvələr Dağlıq Qarabağın inzibati sərhədinə gətirilməlidir və hesab edirəm ki, burada da bizim üçün heç bir təhlükə yoxdur. Çünki işğal edilmiş torpaqlara qayıdacaq Azərbaycan vətəndaşlarının da təhlükəsizliyi təmin edilməlidir. Sülhməramlı kontingent bu funksiyanı o vaxta qədər yerinə yetirəcək ki, artıq bütün tərəflər təhlükəsizlik tədbirlərini öz üzərinə götürəcəklər.

Dağlıq Qarabağa keçici statusun verilməsi müzakirə olunur. Bu status Azərbaycanın ərazi bütövlüyünü pozmayacaqdır. İşğaldan əziyyət çəkmiş bütün insanlar öz yerlərinə qayıtmalıdırlar. Bu, o deməkdir ki, Azərbaycan vətəndaşları Dağlıq Qarabağa, Şuşaya qayıtmalıdırlar və üç həmsədr ölkənin bu yaxınlarda verdiyi bəyanatda bu, açıq-aydın göstərilir. Yəni bu, demokratik, beynəlxalq hüquq normalarını əks etdirən prinsiplərdir və beləliklə, məsələnin həlli üçün yeganə variant ola bilər. Bir daha demək istəyirəm ki, Azərbaycan müəyyən istisnalarla bu əsas prinsipləri qəbul edib və biz Ermənistandan da eyni yanaşmanı gözləyirik. Halbuki, bizə çatan məlumat o qədər də müsbət deyildir. Görünür ki, Ermənistan tərəfi öz taktikasını davam etməyə üstünlük verir. Yəni ki, onlar münaqişəni maksimum imkanları daxilində maksimum müddətdə uzatmaq və işğalı davam etdirmək istəyirlər.

Azərbaycan tərəfi, əlbəttə ki, bununla heç vaxt razı ola bilməz. Biz uzun illərdir ki, danışıqlarda iştirak edirik, konstruktivlik nüma-

yiş etdiririk. Müxtəlif dövrlərdə Ermənistan tərəfi danışıqları pozub və Ermənistanda baş verən hadisələr danışıqların gedişatına mənfi təsir göstərib. Ermənistan parlamentində terror aktları, Ermənistanda 1990-cı illərin sonunda dövlət çevrilişi və digər cinayətlər münaqişənin həll olunması üçün əsas problem yaratmışdır.

Biz isə həmişə konstruktivlik nümayiş etdirmişik. Bu gün də konstruktivlik nümayiş etdiririk və bu prinsipləri bütövlükdə qəbul edirik. Münaqişə bu prinsiplər əsasında həllini taparsa, mən hesab edirəm ki, Azərbaycanın maraqları tam şəkildə təmin olunacaqdır. Birinci, Azərbaycan vətəndaşları Dağlıq Qarabağın ətrafında yerləşən bütün bölgələrə qayıdacaqlar. Son illər ərzində Azərbaycan əhalisi artıbdır və əlbəttə ki, o bölgədə demoqrafik vəziyyət qısa müddət ərzində bizim maraqlarımızı tam şəkildə təmin edəcəkdir. Dağlıq Qarabağa, Şuşaya Azərbaycan əhalisinin qayıtması mütləq olmalıdır. Yəqin ki, buna bir qədər çox vaxt lazım olacaqdır. Ancaq bunsuz bu münaqişə öz həllini tapa bilməz və Azərbaycan bütün imkanlardan istifadə edəcək ki, buna maksimum tez bir zamanda nail ola bilsin.

Hesab edirəm ki, sülhün yaranması, kommunikasiyaların açılması bölgədə gedən proseslərə müsbət təsir göstərəcək. Bu gün sirr deyil ki, Ermənistan ilə Azərbaycan arasında qüvvələr nisbəti bizim xeyrimizə dəyişibdir. Biz buna nail ola bilmişik. İstənilən sahədə Azərbaycan Ermənistandan qat-qat üstündür. İqtisadi potensial cəhətdən Azərbaycan iqtisadiyyatı Ermənistan iqtisadiyyatından 7-8 dəfə böyükdür. Demoqrafik potensial da Azərbaycanın mövqelərini gücləndirir. Bu gün Azərbaycanın əhalisi 9 milyondur. Ermənistan əhalisi qeyri-rəsmi məlumatlara, amma dəqiq mənbələrə görə 1 milyon 800 min nəfər ətrafındadır. Bu gün bizdə olan məlumata görə, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində 60 minə yaxın, yəni bir rayonun əhalisi qədər əhali vardır. İqtisadiyyat, coğrafi vəziyyət, demoqrafiya, ordu quruculuğu, sənaye potensialı, geosiyasi vəziyyət və Azərbaycanın bölgədəki, dünyadakı mövqelərinin gücləndirilməsi – bütün bu amillər mövqeyimizi gücləndirir və məqsədə çatmaq üçün bizə imkanlar yaradacaqdır.

Mən ümid edirəm, həmsədr ölkələr Ermənistana ciddi siqnallar göstərməklə nail olacaqlar ki, Ermənistan da dekabr ayında həmsədrlər tərəfindən rəsmi qaydada təqdim edilmiş təkliflərə müsbət cavab versin və beləliklə, biz irəliyə daha bir addım atacağıq. Əks təqdirdə hesab edirəm ki, danışıqların uğurla davam etməsi sual altında olacaqdır. Çünki bu günə qədər, yəni 1992-ci ildən – Minsk qrupunun yaranması günündən bu günə qədər müxtəlif proseslərdə, danışıqlarda müxtəlif mərhələlər mövcud idi. Hər bir mərhələ nə iləsə nəticələnirdi. Mən qeyd etdim ki, əvvəlki dövrlərdə bəzi hallarda Ermənistanın qeyri-konstruktiv mövqeyi danışıqların pozulmasına gətirib çıxarıbdır. Son 5-6 il ərzində yuxarıda söylədiyim prinsiplər əsasında Praqa prosesi adlandırdığımız danışıqlar formatı formalaşıbdır. Bu gün biz bu prosesin məntiqi sonuna, yaxud da vacib mərhələsinin məntiqi sonuna yaxınlaşmışıq ki, artıq dekabr ayında Madrid prinsipləri əsasında yenilənmiş təkliflər verildi. Bir tərəf – Azərbaycan tərəfi prinsip etibarilə bu təkliflərlə razıdır. Digər tərəf ya razı deyil, ya da, hələ ki, vaxt uzatmaqla məşğuldur. Əgər qarşı tərəf – Ermənistan bu təkliflərə müsbət reaksiya verməsə, onda danışıqların bu formatda davam etdirilməsində heç bir məna yoxdur. Əgər danışıqların bu formatda davam etdirilməsi mümkün olmayacaqsa, o zaman, ümumiyyətlə, sülh prosesi haqqında danışmağa dəyməz. Çünki bu günə qədər müxtəlif variantlar müzakirə olunmuşdur, müxtəlif düsturlar əsasında təkliflər verilmişdir. Ancaq nəticə yoxdur. Praqa prosesi adlandırdığımız format, mən hesab edirəm ki, son şansdır. Ermənistan üçün son şansdır ki, işğal edilmiş torpaqlardan öz xoşu ilə çıxsın və beləliklə, öz gələcəyini, təhlükəsizliyini təmin etsin, daha qorxu içində yaşamasın.

Ona görə bu mərhələ həlledicidir. Bu yaxınlarda həmsədr ölkələrin nümayəndələri ilə danışıqlar zamanı biz bu barədə öz fikirlərimizi bildirmişik. Hesab edirik ki, bu həlledici məqamda məsələnin həlli üçün lazım olan bütün addımlar atılmalıdır.

Bir daha demək istəyirəm, mən şəxsən şübhə etmirəm ki, biz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Birinci növbədə beynəlxalq

hüquq bizim mövqeyimizi dəstəkləyir. Ermənistan ilə Azərbaycan arasında inkişaf sahəsində böyüyən uçurum mövqeyimizi gücləndirir. Azərbaycan xalqının iradəsi mövqeyimizi dəstəkləyir. Ermənistanda hətta müxtəlif rəhbər dairələrdə belə bir fikir formalaşır ki, artıq 20 ilə yaxındır, danışıqlar gedir, hələ bir 10 il davam etsin, bir 10 il də davam etsin və biz burada, sadəcə, bir imitasiya ilə məşğul olaq. Vaxt keçdikcə azərbaycanlılar o bölgələri unudacaqlar, yeni nəsil dünyaya gələcək, o bölgə ilə bağlı olmayacaqdır. Bütün bu fikirlərin qarşısına Azərbaycan xalqı öz iradəsini qoyur.

Ermənilərin fikri özlərinə getməsin. Onlar bəlkə də öz tarixi vətənini unuda bilərlər. Azərbaycan xalqı heç vaxt öz tarixi vətənini unuda bilməz. Bu gün qaçqın şəhərciklərində, Bakıda, başqa yerlərdə Dağlıq Qarabağdan, işğal edilmiş bölgələrdən olan ailələrdə doğulan uşaqlar bir amalla, bir arzu ilə yaşayırlar ki, doğma torpaqlarına qayıtsınlar. Azərbaycan xalqı öz tarixi ərazisini heç vaxt unutmayacaqdır. Biz öz haqq işimizdən heç vaxt əl çəkməyəcəyik. Biz Ermənistandan o vaxta qədər əl çəkməyəcəyik ki, öz torpaqlarımıza qayıdaq və ərazi bütövlüyümüzü bərpa edək. Biz bu vəziyyətlə heç vaxt barışmayacağıq.

Bu gün Azərbaycan 20 il bundan əvvəlki Azərbaycan deyildir. O vaxt – torpaqlarımız işğal olunanda Azərbaycanda hərc-mərclik idi. Azərbaycanda, ümumiyyətlə, dövlət yox idi. Dövlət quruculuğu heç aparılmırdı. Azərbaycanı dünyada tanımırdılar. Ordumuz yox idi. Müxtəlif silahlı birləşmələr, quldur birləşmələri, hər bir, güya ki, partiya rəhbərinin öz ətrafında silahlı dəstələri var idi. Özü də onlar burada bir-biri ilə vuruşa-vuruşa hakimiyyət uğrunda mübarizə aparırdılar, orada isə torpaqlarımız əldən gedirdi. Digər tərəfdən, Ermənistana xaricdən həm maliyyə, həm hərbi dəstək göstərilirdi. Bütün bunları siz yaxşı bilirsiniz. Biz o vaxt nə qədər xarici muzdluları zərərsizləşdirdik və həbs etdik. Ermənistanın, hətta o vaxtkı Azərbaycana qarşı bu qədər problem yaratmağa imkanı yox idi, o ki qaldı indiki vəziyyətə. Bu gün Azərbaycan güclü ölkədir. Müstəqil ölkədir. Bütün forumlarda öz haqq səsini ucaldıb. Heç kimdən çəkinmir, güclü orduya malikdir.

Bu gün ordumuz istənilən məsələni həll edə bilər. Mən buna şübhə etmirəm. Tam əminəm.

Onlar nə vaxta qədər belə vəziyyətdə yaşayacaqlar? Budurmu onların seçimi?! Budurmu onların müstəqilliyi?! Müstəqillik bizim üçün, bizim nəsil üçün bir şans, tarixi bir sərvət idi. Biz xoşbəxt insanlarıq ki, müstəqillik dövründə yaşayırıq. Əsrlər boyu Azərbaycan xalqı müstəqillik arzusu ilə yaşamışdır. Nəsillər gəlirdi, gedirdi. Yenidən müstəmləkə, ya respublika, ya da ki, hansısa başqa formada vilayət kimi yaşamışdır. Öz taleyimizi özümüz həll edə bilmirdik. Başqa imperiyaların tərkibində bölünə-bölünə, torpaqlarımız əldən gedə-gedə yaşamışıq. Müstəqillik tarixi bir şans idi, bizim üçün də, Ermənistan üçün də, bütün başqa keçmiş müttəfiq respublikalar üçün də. Hansı ölkə bu şansdan necə istifadə edib, bu, artıq o ölkənin, o xalqın iradəsindən asılıdır.

Bu gün Azərbaycan bu şansdan uğurla istifadə edir. Baxmayaraq ki, torpaqlarımız işğal altındadır, bir milyon azərbaycanlı etnik təmizləməyə məruz qaldı. Xalqımıza qarşı Xocalı soyqırımı törədildi. Bütün bunlara baxmayaraq, bu gün biz uğurla irəliyə baxırıq. Güclü ölkəyik. Öz hesabımıza yaşayırıq. Bölgədə gedən proseslərə təsir edirik. Bütün ölkələrlə, hətta böyük dövlətlərlə bərabərhüquqlu, qarşılıqlı hörmət və qarşılıqlı maraqlar əsasında münasibətlər qururuq. Heç kimin qabağında gözükölgəli deyilik. Heç kimdən heç nə istəmirik, xahiş eləmirik. Əksinə, bizdən xahiş edirlər. Biz də imkan daxilində, lazım gələndə yardımlar edirik.

Ermənistan nə edir? Ermənistanın müstəqilliyi şərti xarakter daşıyır. O ölkə müstəqil sayıla bilməz. Çünki müstəqil siyasət apara bilmir. Başqa dairələrin iradəsi ilə idarə olunur. Öz müstəqil iqtisadi siyasəti yoxdur. Bütün infrastruktur, bütün strateji obyektlər başqa ölkələrin əlindədir. Əhali azalır, demoqrafik iqtisadi böhran yaranıbdır. Əgər keçən böhranlı ildə onlara xaricdən yardımlar edilməsəydi, ölkə tamamilə dağılacaqdı. Nə vaxta qədər xarici ianələr hesabına yaşayacaqlar?! Ona görə deyirəm, bu, tarixi seçimdir. Azərbaycan bu müstəqillik şansından uğurla istifadə etdi. Mən əminəm ki, bizim

seçimimiz düzgün olmuşdur. Biz bundan sonra da bütün sahələrdə – iqtisadi, sənaye sahələrində potensialımızı, diplomatik səyləri, ordu quruculuğunu gücləndirəcəyik. Əminəm ki, biz torpaqlarımızı işğalçılardan azad edəcəyik.

Ermənistanda fikirləşirlər ki, vaxt keçdikcə onların mövqeyi güclənir. Bu, səhv bir yanaşmadır. Onların bütün sahələrdə mövqeləri zəifləyir. Sadəcə, dünya ermənilərinin güclü mövqelərə malik olması bugünkü bu status-kvonun saxlanmasını təmin edir. Hələ ki, təmin edir. Amma status-kvo əbədi, uzunmüddətli ola bilməz. Bir də demək istəyirəm ki, atəşkəs rejimi vardır. Ancaq bu gün o bölgədə sülhməramlı qüvvələr yoxdur, erməni əsgəri, Azərbaycan əsgəri vardır. Onların arasında bəzən məsafə 40-50 metrdir. Heç kim zəmanət verə bilməz ki, orada xoşagəlməz hadisə baş verməyəcək. Azərbaycan xalqı nə vaxta qədər dözməlidir? Nə vaxta qədər bu ədalətsizliklə barışmalıdır? O vaxt ki Ermənistan ilə Azərbaycan arasında hərbi balans var idi, bunu müəyyən mənada izah etmək olardı. Amma bu gün bu hərbi balans yoxdur. Biz bunu yaxşı bilirik.

Beləliklə, mən bu gün bir daha bu məsələlərlə bağlı öz fikrimi sizin qarşınızda ifadə etmək istəyirəm. Çünki bu, bizim ümumi işimizdir, ümumxalq işimizdir. Ölkə qarşısında duran ən ağrılı, ən vacib problemdir. Bu problemi həll etmədən biz heç vaxt bu vəziyyətlə barışmayacağıq. Biz ərazi bütövlüyümüzü bərpa etməliyik. Bu gün bir də demək istəyirəm ki, sülh prosesi çərçivəsində təklif edilmiş variant, əminəm ki, məsələnin həlli üçün əsas ola bilər. Azərbaycan bir daha konstruktivlik nümayiş etdirir, öz işini dekabr ayında verilmiş bu təkliflər əsasında davam etdirmək istəyir. Əgər qarşı tərəf eyni mövqeni göstərərsə, onda biz məsələnin həllinə yaxınlaşa bilərik.

Bir daha demək istəyirəm ki, Dağlıq Qarabağın və ətraf bölgələrin işğalı dözülməzdir. Azərbaycan xalqı, Azərbaycan rəhbərliyi heç vaxt bu vəziyyətlə barışmayacaqdır. Bu məsələ bizim üçün və Prezident kimi mənim üçün prioritet məsələdir. Məsələ həll olunmayana qədər prioritet məsələ kimi qalacaqdır.

## Dövlət Bayrağı Meydanının təntənəli açılış mərasimində İlham Əliyevin nitqi

### *(1 sentyabr 2010-cu il)*

Hörmətli xanımlar və cənablar, əziz dostlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün ölkəmizdə çox əlamətdar və tarixi bir gündür. Bu gün Bakıda Dövlət Bayrağı Meydanı açılır. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Dövlət Bayrağı Meydanının açılışı, həqiqətən, tarixi və unudulmaz bir hadisədir. Bu meydan özlüyündə gözəl bir memarlıq abidəsidir. Meydanın üst hissəsinin sahəsi 3 hektara bərabərdir. Bütövlükdə ərazi isə 60 hektardır. Burada Azərbaycanın dövlət rəmzləri – gerbi, himninin mətni, xəritəsi təsvir edilibdir. Dövlət Bayrağı Muzeyi də fəaliyyət göstərəcəkdir. Meydanın ortasında isə Azərbaycanın dövlət bayrağı ucalacaqdır. Bu bayraq dünyada ən böyük və ən uca bayraqdır. Bayrağın hündürlüyü 162 metrdir və bu bayraq şəhərimizin hər bir yerindən görsənəcəkdir. Məhz bu məqsədlə bu yer seçilmişdir. Bu yer, bu ərazi abadlaşdı. Gələcəkdə burada böyük parklar, dənizkənarı bulvar salınacaq, istirahət üçün gözəl şərait yaradılacaqdır. Artıq bu işlər başlanmışdır. Gələcəkdə burada salınacaq bulvar Bakı bulvarı ilə birləşəcəkdir.

Bayraq meydanının yaradılması üçün çox böyük tikinti, quraşdırma, quruculuq işləri görülmüşdür. Çox sevindirici haldır ki, bütün bu işlərin əksər hissəsini Azərbaycan mütəxəssisləri, fəhlələri görmüşlər. Bu onu göstərir ki, bizdə olan güclü potensial hər bir sahədə özünü büruzə verir. Bu gün imkanlarımız o qədər böyüyüb ki, biz istənilən məsələni həll edə, istənilən memarlıq əsərini yarada bilərik. Meydanın yaradılması haqqında Sərəncam mənim tərəfimdən 2007-ci il noyabrın 17-də imzalanmışdır. Ondan dərhal sonra bütün işlər başlanmışdır. O gündən iki il sonra, 2009-cu il noyabrın 17-də Azərbaycan Dövlət Bayrağı Günü təsis edilmişdir.

Bildiyiniz kimi, Azərbaycan bayrağı, bizim üçrəngli bayrağımız 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə təsdiq edilmişdir. Məhz noyabrın 9-u Azərbaycanda bundan sonra hər il Azərbaycan Dövlət Bayrağı Günü kimi qeyd olunacaqdır. Hər iki sərəncamın məhz noyabrın 17-də imzalanmasının səbəbi də çox məntiqli və aydındır. Məhz 1990-cı il noyabrın 17-də ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Azərbaycanda dövlət bayrağı kimi qaldırıldı. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Ali Sovetinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Naxçıvanda dövlət bayrağı kimi təsdiq edildi. Eyni zamanda o vaxtkı Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırıldı və tələb edildi ki, bu bayraq Azərbaycanın dövlət bayrağı kimi qəbul edilsin.

O vaxt hələ Sovet İttifaqının dağılmasına bir ildən çox vaxt var idi. Bizim müstəqilliyə gedən yolumuz o gündən başlamışdır. Məhz Xalq Cümhuriyyətinin bayrağının dövlət bayrağı kimi qəbul olunması Azərbaycanı müstəqilliyə daha da yaxınlaşdırmış və ölkəmizdə gedən proseslərə güclü təkan vermişdir. O illər hamımızın yadındadır. O illər Azərbaycanın inkişafı, gələcəyi üçün həlledici illər idi. Azərbaycan dövlət müstəqilliyinə qovuşanda ölkədə proseslər çox mənfi istiqamətdə gedirdi. Ölkədə anarxiya, hərc-mərclik hökm sürürdü. Ölkənin inkişaf perspektivləri qeyri-müəyyən idi və Azərbaycan, əslində dövlət müstəqilliyini itirə bilərdi. Azərbaycan xalqının tələbi və müdrikliyi ilə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə dəvət olunması nəticəsində Azərbaycanda bütün xoşagəlməz hallara son qoyuldu, sabitlik yarandı və inkişaf dövrü başlandı. Bu inkişaf dövrünün nəticələrini bu gün Azərbaycan vətəndaşları görürlər.

1993–2003-cü illər Azərbaycan üçün həlledici illər olmuşdur. Məhz o illərdə Azərbaycanda iqtisadi, siyasi sabitlik yaranmış, ölkə dünya birliyinə özünü təqdim edə bilmişdir. Biz beynəlxalq təşkilatlara üzv olduq. Azərbaycan bayrağı bütün beynəlxalq təşkilatlarda dalğalanmağa başlamışdır. Azərbaycan xarici tərəfdaşlarla çox uğurlu və qarşılıqlı hörmət əsasında münasibətlər qura bilmişdir.

Ölkəmizə böyük həcmdə investisiyanın cəlb olunmasına nail ola bilmişdik. O proseslər bu gün də Azərbaycanın inkişafını təmin edir və onilliklər bundan sonra da Azərbaycanın uğurlu inkişafını müəyyən edəcəkdir. O on il ərzində Azərbaycan çox böyük bir yol keçmişdir və demək olar ki, dövlətçiliyin əsasları tam şəkildə qurulmuşdur. Bu gün Azərbaycan möhkəm əsaslar üzərində uğurla inkişaf edir. Ölkə daxilində gedən bütün proseslər müsbət istiqamətdə inkişaf edir.

Azərbaycanda daxili sabitlik, əmin-amanlıq, ictimai-siyasi asayiş uğurlarımızın əsas şərtidir. Biz iqtisadi, siyasi islahatları bu möhkəm əsas üzərində aparırıq. Ölkədə demokratikləşmə prosesləri çox uğurla gedir. Ölkə qarşısında duran bütün vəzifələr icra edilir. Keçən il və bu il dünyada hökm sürən iqtisadi və maliyyə böhranı böyük iz qoymuşdur. Buna baxmayaraq, Azərbaycan bu sınaqdan da şərəflə çıxa bilmişdir. Ölkə qarşısında duran bütün vəzifələr, müəyyən edilmiş bütün proqramlar icra olunur. Ölkəmizin hər bir yerində quruculuq-abadlıq işləri aparılır, iqtisadi islahatlar davam etdirilir. Bu gün Azərbaycan inkişaf edən ölkədir.

Azərbaycanda iqtisadi sahədə keçid dövrü artıq başa çatmışdır. Biz inkişaf etmiş ölkələrin sırasına daxil olmalıyıq və qarşımıza bu məqsəd qoyulubdur. Biz bu məqsədə çatacağıq. Azərbaycan beynəlxalq arenada özünəlayiq yerini tuta bilmişdir. Xarici tərəfdaşlarımızın, dostlarımızın sayı gündən-günə artır. Azərbaycan çox gözəl beynəlxalq imicə malikdir. Bizim bütün xarici siyasətimiz bir məqsədi güdür ki, Azərbaycanın milli maraqları maksimum dərəcədə təmin olunsun, Azərbaycan dövləti güclənsin və Azərbaycan xalqı daha da yaxşı yaşasın.

Bir daha demək istəyirəm ki, ölkə daxilində bütün proseslər müsbət istiqamətdə inkişaf edir. Biz iqtisadi və sosial islahatları aparmaqla həm ölkəmizin uğurlu iqtisadi inkişafını təmin edirik, eyni zamanda sosial məsələlərin həllində də böyük uğurlara nail ola bilmişik.

Bu gün Azərbaycan böyük bir tikinti meydançasıdır. Hər yerdə, hər bölgədə, hər şəhərdə tikinti-quruculuq işləri aparılır, sosial obyektlər, infrastruktur obyektləri tikilir. Yəni Azərbaycanda görülən

işlər nəinki ölkəmizin yaxın gələcəyini müəyyən edəcək, bax bu gün yaradılan infrastruktur və həyata keçirdiyimiz layihələr on il, iyirmi il, otuz il bundan sonra özünü göstərəcək və Azərbaycan xalqına xidmət edəcəkdir. Bizim uğurlu enerji siyasətimiz Azərbaycanı dünya birliyi qarşısında etibarlı tərəfdaş kimi təqdim etməyə əsas yaratdı. Bu gün bu siyasət ölkə daxilində gedən proseslərə çox müsbət təsir göstərir. Biz, demək olar ki, bu sahədə qarşımızda duran bütün vəzifələri icra etmişik və sadəcə olaraq, əldə edilmiş nailiyyətlər əsasında gələcəkdə yeni layihələrin həllinə çalışırıq. Əminəm ki, bütün məqsədlərə çatacağıq.

Biz iqtisadi cəhətdən özümüzü təmin edən ölkəyik. Biz heç bir xarici yardımdan asılı olmayan ölkəyik. Biz enerji təhlükəsizliyimizi təmin etmişik. Ərzaq təhlükəsizliyimizi təmin edirik və belə olan halda Azərbaycanın gələcəyi haqqında yalnız bir fikir deyilə bilər: Azərbaycanın gələcəyi Azərbaycanın indiki vəziyyətindən daha da parlaq olacaqdır. Baxmayaraq ki, bu gün nəinki postsovet məkanında, bölgədə və ümumiyyətlə, ölkələr sırasında biz yüksək yerləri tuturuq, Azərbaycanda insanlar ildən-ilə daha da yaxşı yaşamalıdır. Bu məqsədlə bütün sosial proqramlar icra olunur, maaşlar və pensiyalar vaxtaşırı artırılır, ölkə iqtisadiyyatının inkişafını təmin etmək üçün bütün tədbirlər görülür.

Bizim gözəl ölkəmiz, gözəl təbiətimiz vardır. Ölkəmizin hər bir tərəfi gözəldir. Hər bir tərəf abadlaşır, gözəlləşir. Bizim təbii ehtiyatlarımız vardır. Bu ehtiyatlar gücümüzü daha da artırır. Artıq böyük maddi imkanlarımız vardır. Biz nəinki xarici yardımdan asılı deyilik, eyni zamanda lazım gələndə özümüz də yardım göstəririk. Bu da siyasətimizin yeni istiqamətidir. Bir neçə ildən sonra Azərbaycan beynəlxalq donor ölkəsinə çevriləcəkdir və bu məqsədə çatmaq üçün artıq konkret tədbirlər planı hazırlanır. İqtisadi və sosial sahədə elə məsələ yoxdur ki, bu məsələ Azərbaycanda həll olunmasın. Düzdür, bu gün hələ həllini gözləyən məsələlər çoxdur. Ancaq əsas odur ki, biz bu məsələləri bilirik. Onların həlli yollarını bilirik. Bu məsələlərin həlli üçün icra mexanizmləri, maliyyə resursları və siyasi iradə vardır. Yəni bütün bu amillərin birləşməsi şəraitində istənilən məsələ öz həllini tapa bilər.

Biz hamımız Azərbaycanın gələcəyi haqqında düşünürük və düşünməliyik. Biz ölkəmizin təhlükəsizliyini təmin etməliyik, ölkədə dinamik və sürətli inkişaf tempini saxlamalıyıq, beynəlxalq aləmdə Azərbaycanın mövqeləri daha da möhkəmlənməlidir. Artıq regionda gedən proseslərdə Azərbaycan çox fəal rol oynayır. Bəzi hallarda həlledici rol oynayır. Bizim tərəfimizdən irəli sürülmüş siyasi və iqtisadi təşəbbüslər reallaşır. Bu, nəinki bizə, eyni zamanda bizimlə dostluq münasibətlərində olanlara da xeyir gətirir. Yəni biz bu istiqamətdə daha da fəal addımlar atacağıq və beləliklə, ölkəmizin inamlı və uğurlu gələcəyini təmin edəcəyik.

Bütün bu vacib məsələlərlə bərabər, bu gün bu gözəl meydanda Azərbaycanın müstəqil siyasətini xüsusi qeyd etmək istərdim. Müstəqillik ən böyük sərvətimizdir, ən böyük xoşbəxtliyimizdir. Əsrlər boyu Azərbaycan xalqı müstəqillik həsrəti, müstəqillik arzusu ilə yaşamışdır. Uzun illər, onilliklər ərzində biz başqa ölkələrin tərkibində yaşamışdıq, azadlıqdan məhrum olmuşduq, müstəqil ölkə deyildik. Bu tarixi imkan, tarixi şans bir daha Azərbaycan xalqına 1991-ci ildə verilmişdir. Bayaq qeyd etdiyim kimi, biz o şansı, bu imkanı itirə bilərdik və əgər 1993-cü ildə Azərbaycan xalqı düzgün seçim etməsəydi, çox güman ki, itirəcəydik. Bu gün isə müstəqilliyimiz artıq dönməzdir, əbədidir. Biz 20 ilə yaxındır ki, müstəqil ölkə kimi yaşayırıq. Bütün çətin sınaqlardan üzüağ, şərəflə çıxmışıq, gözəl, möhkəm ölkə yaratmışıq. O ölkə ki, burada bütün azadlıqlar vardır. Təhlükəsizlik, sosial rifah, iqtisadi inkişaf templəri təmin edilir. O ölkə ki, burada bütün xalqlar, bütün millətlərin, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Mehribanlıq, dostluq şəraitində yaşayırlar. O ölkə ki, burada milli-dini dözümlülük yüksək səviyyədədir və bu gün Azərbaycan bu məsələlərdə nümunə kimi göstərilir. Bu ölkəni biz yaratmışıq. Bu gün Azərbaycan öz gücünə arxayın olan, öz gücünə arxalanan bütün tərəfdaşlar ilə münasibətləri qarşılıqlı hörmət və ehtiram prinsipləri əsasında qurmağa çalışan, dinamik inkişaf edən gənc və eyni zamanda təcrübəli ölkədir. Azərbaycan artıq böyük bir regional amildir. Sabitlik, təhlükəsizlik və inkişaf amilidir.

Bizim bütün təşəbbüslərimiz, irəli sürdüyümüz bütün layihələr səmərə verir, həm bizə, həm bizim tərəfdaşlara xeyir gətirir. O layihələri həyata keçirmək üçün nəinki böyük maliyyə imkanları, həm də güclü iradə, cəsarət və öz siyasətinə sədaqət lazımdır. Hər halda bu günə qədər ölkəmiz tərəfindən atılan bütün addımlar düzgün istiqamətdə atılmış addımlar olmuşdur.

Biz bu gün müstəqil ölkə kimi yaşayırıq və böyük qürur hissi ilə yaşayırıq. Biz fəxr edirik ki, Azərbaycan vətəndaşlarıyıq. Biz müstəqil siyasət aparırıq. Azərbaycan xalqı öz taleyinin sahibidir. Bu, böyük xoşbəxtlikdir, böyük sərvətdir. Bizdən əvvəl nəsillər müstəqillik arzusu ilə yaşayırdı. Ancaq bu müstəqilliyi görmək bizə nəsib olubdur. Bu xoşbəxtlik bizə nəsib olubdur. Biz nəinki bu müstəqilliyi görürük. Biz bu müstəqilliyin möhkəmləndirilməsi üçün işlər görürük, fəaliyyət göstəririk, çalışırıq. Hər bir vətəndaş tutduğu yerindən asılı olmayaraq öz əməyi ilə hər gün ölkəmizi gücləndirməlidir. Öz əməli işlərimizlə, Vətənə sədaqətlə, görülən işlərlə, atılan addımlarla. Bu gün Azərbaycan cəmiyyətində bu həmrəylik, milli həmrəylik, milli səfərbərlik, vətənpərvərlik ruhu vardır. Biz gənc nəsli bu ruhda tərbiyə etməliyik ki, Azərbaycanda gənc nəsil peşəkar, vətənpərvər, Vətənə sadiq olsun. Çünki bütün dövrlərdə Azərbaycanın uğurlu gələcəyini biz təmin etməliyik.

Bir daha demək istəyirəm ki, bu gün atılan addımlar və irəli sürülən təşəbbüslər onilliklərdən sonra özünü göstərəcəkdir. Biz gələcəyə baxmalıyıq, gələcəyi düşünməliyik: 20 il, 50 ildən sonra Azərbaycan hansı yollarla inkişaf edəcəkdir?! Biz ölkəmizin uğurlu inkişafını hansı resurslar əsasında təmin edəcəyik?! Biz bu barədə düşünürük və görülən bütün işlər həm bugünkü problemlərin həllinə, eyni zamanda gələcəyə yönəldilibdir. Biz müstəqil, azad xalqıq, öz siyasətimizi özümüz aparırıq və bundan böyük xoşbəxtlik ola bilməz.

Bu gün ölkəmizin həyatında, bir daha demək istəyirəm ki, tarixi, unudulmaz bir hadisə baş verir. Bu meydan nadir memarlıq abidəsidir. Bu bayraq bizim milli dəyərimizdir. Söhbət ondan getmir ki, bu gün bu bayraq dünyanın ən hündür bayrağıdır. Bəlkə nə vaxtsa,

bir neçə ildən sonra başqa yerdə bundan da hündür bayraq qaldıra bilərlər. Məsələ onda deyil, məsələ ondadır ki, bu Bayraq Meydanının yaradılması Azərbaycanın gücünü, Azərbaycan xalqının öz dövlətinə sevgisini, dövlət rəmzlərimizə ehtiramımızı göstərir. Əminəm ki, bir neçə aydan sonra burada, bütün bu ətrafda tikinti-quraşdırma işləri tamamlanandan sonra bu möhtəşəm meydan insanlarla dolu olacaqdır. Necə ki, bu gün bizim parklarda, dənizkənarı bulvarda minlərlə, on minlərlə insan hər gün gəzintiyə çıxır. Bax, bu meydanda, bu bayraq altında, milli rəmzlər ətrafında insanlar yığışacaqlar. Buradan gözəl Bakıya möhtəşəm bir mənzərə açılır. Burada, aşağıda gəzinti üçün gözəl yerlər vardır. Yəni bu Bayraq Meydanı Bakının bir mədəniyyət mərkəzinə, Azərbaycanın bir siyasi mərkəzinə çevriləcəkdir. Ölkəmizin mərkəzi olan Bakı şəhərində belə möhtəşəm meydanın yaradılması, doğrudan da, böyük hadisədir. Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq. Eşq olsun, Azərbaycan bayrağına!

Yaşasın, Azərbaycan!

## Prezident İlham Əliyevin Yevlax şəhərindəki 1 nömrəli orta məktəbin yeni binasının açılışındakı çıxışından

***(14 oktyabr 2010-cu il)***

... Azərbaycan xalqının qanını axıdan şaumyanlar və onun kimi qəddar erməni cinayətkarlar Azərbaycanda qəhrəmanlar kimi təqdim olunurdu. Onların şərəfinə abidələr ucaldılırdı. Siz bilirsiniz ki, Bakının mərkəzində 26 Bakı komissarının şərəfinə abidə ucaldılmışdı. Mən göstəriş verdim ki, o abidə sökülsün, dağıdılsın. Mən göstəriş verdim, şəxsən! Ancaq necə?! Göstəriş verdim ki, Elmlər Akademiyasının, Səhiyyə Nazirliyinin nümayəndələri, din xadimləri orada basdırılmış cəsədlərin başqa yerə köçürülməsi ilə bağlı tədbirlər görsünlər. Halbuki, vaxtilə orada basdırılmış adamlar azərbaycanlılara qarşı qəddarlıq törətmişdilər. Biz yenə Azərbaycan xalqına xas olan dözümlülük, mədəniyyət, tolerantlıq nümayiş etdirdik və orada basdırılmış cəsədləri başqa yerə hörmətlə köçürdük. Ancaq o tarix daha Azərbaycanda olmamalıdır.

# Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyinin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

***(16 mart 2011-ci il)***

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqının zəngin tarixi-mədəni irsinin qorunub saxlanılmasında, tədqiqi və təbliğində xüsusi xidmətləri olan Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyinin maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə qərara alıram:

1. Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyinin eksponatlarının restavrasiyası, habelə tarixi əhəmiyyətli yeni muzey əşyalarının alınması üçün Azərbaycan Respublikasının 2011-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Milli Elmlər Akademiyasına 1,0 (bir) milyon manat məbləğində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş vəsaitin maliyyələşdirilməsini müəyyən olunmuş qaydada təmin etsin.

3. Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti ayrılmış vəsaitdən Milli Azərbaycan Tarixi Muzeyinin təqdim etdiyi plana əsasən aidiyyəti üzrə istifadə olunmasına nəzarəti təmin etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 16 mart 2011-ci il***

# Azərbaycan Milli Elmlər Akademiyasının illik ümumi yığıncağında Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi

***(26 aprel 2011-ci il)***

Əziz dostlar!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, məni akademiyaya dəvət etdiyinizə görə sizə minnətdarlığımı bildirmək istəyirəm. Bu gün akademiyanın ümumi illik yığıncağı keçirilir. Əminəm ki, yığıncaq çox uğurlu keçəcəkdir və Azərbaycan elminin gələcək inkişafı üçün burada çox dəyərli fikirlər səslənəcəkdir. Akademiyanın əsas binasında çox gözəl təmir işləri aparılmışdır. Qısa müddət ərzində çox gözəl işlər görülmüşdür və bildiyimə görə, akademiyanın digər binalarında da təmir işləri aparılır. Burada yaradılan şərait artıq ən yüksək səviyyəyə cavab verir. Bütövlükdə, akademiyanın maddi-texniki bazasının möhkəmləndirilməsi işində konkret addımlar atılır. Bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Elə etməliyik ki, akademiyanın bütün ehtiyacları təmin olunsun və maddi-texniki bazası daha da gücləndirilsin.

Azərbaycan Elmlər Akademiyası 1945-ci ildən fəaliyyət göstərir. 1945-ci ildən bu günə qədər akademiya böyük və uğurlu yol keçmişdir. Alimlərimiz Azərbaycanın inkişafına müxtəlif dövrlərdə dəyərli töhfələrini vermişlər. Azərbaycan müstəqilliyə qovuşanda isə müxtəlif fikirlər var idi. Hətta, – siz, yəqin ki, bunu yaxşı xatırlayırsınız, – 1992-ci ildə akademiyanın ləğvi barədə, bağlanması haqqında təkliflər irəli sürülmüşdür. Əgər 1993-cü ildə Heydər Əliyev xalqın tələbi ilə Azərbaycanda siyasi hakimiyyətə qayıtmasaydı, yəqin ki, akademiyanın taleyi çox acınacaqlı ola bilərdi. Məhz Heydər Əliyevin Azərbaycan elminə bütün dövrlərdə göstərdiyi diqqət və qayğı nəticəsində elmin inkişafı sürətlə aparılırdı. Müstəqil yaşamağa başlayanda, əlbəttə ki, ölkədə mövcud olan ciddi iqtisadi və sosial məsələlər gündəliyin birinci sıralarında idi. Ancaq bununla bərabər, Ulu

Öndər Heydər Əliyev Azərbaycanın gələcəyini düşünərək və uzaqgörənliklə, müdrikliklə bütün dövrlərdə, o cümlədən müstəqillik dövründə elmin inkişafına çox böyük diqqət göstərmişdir. Burada səsləndi və təsadüfi deyil ki, hakimiyyətə qayıdandan sonra onun Azərbaycan ictimaiyyəti ilə ilk görüşü məhz akademiyada olmuşdur.

Akademiyada Azərbaycanın intellektual elitası cəmlənib. Akademiyanın inkişafı Azərbaycanda elmin inkişafına birbaşa təsir göstərir. Əgər inkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq, görərik ki, həmin ölkələrin uğurlarının təməlində ideya, fikir, innovasiya, elmi-texniki tərəqqi dayanır. Biz də ölkəmizdə müxtəlif istiqamətlərdə islahatlar apararkən müasirləşməyə üstünlük veririk. Müasir dövlətin qurulması elmin inkişafı olmadan mümkün deyildir.

Bu gün Heydər Əliyev siyasəti Azərbaycanda bütün istiqamətlərdə davam etdirilir, o cümlədən dövlətin elmə olan münasibətində də özünü göstərir. Təsadüfi deyil ki, akademiyanın maddi-texniki bazasının möhkəmləndirilməsi işinə çox böyük diqqət göstərilir. Eyni zamanda akademiyanın fəaliyyətinin genişləndirilməsi və elmi tədqiqatların iqtisadiyyatla, bizim iqtisadi siyasətlə uzlaşması üçün konkret addımlar atılır.

2009-cu ildə Elmin İnkişafı üzrə Milli Strategiya və Dövlət Proqramı qəbul edilmişdir, ondan sonra Elmin İnkişafı Fondu yaradılmışdır. Bu fondun xətti ilə nəinki müasir avadanlığın alınması öz həllini tapır, eyni zamanda müxtəlif qrantlar verilir ki, biz Azərbaycanda elmi araşdırmaları stimullaşdıraq.

Azərbaycan müstəqil dövlət kimi uğurlu siyasət aparır. Ölkəmiz inkişaf edir. Bu inkişaf özünü bütün istiqamətlərdə göstərir. Əlbəttə, elmin inkişafı da ümumi inkişaf templəri ilə uzlaşmalıdır. Azərbaycanda elmin, ali təhsilin, iqtisadiyyatın birliyi yaradılmalıdır. Bizim üçün elmin inkişafı ilə bağlı əsas məsələ prioritetlərin düzgün seçilməsidir. İşimizi bu prioritetlər üzərində qurmaq üçün konkret təkliflər verilməlidir.

Bütün dövrlərdə alimlərimiz Azərbaycanın müxtəlif istiqamətlərdə inkişafına dəyərli töhfələrini vermişlər. İndiki şəraitdə, müstə-

qilliyimizin inkişafı və möhkəmlənməsi şəraitində, əlbəttə, elmi potensialın güclənməsinə böyük ehtiyac vardır.

Azərbaycan alimləri, bir də demək istəyirəm ki, müxtəlif sahələrdə öz sözünü demişlər. Azərbaycanda dünya səviyyəsində aparılan araşdırmalar da öz müsbət təsirini göstərmişdir. Geoloq alimlərimiz ölkəmizin təbii resurslarının kəşfi ilə bağlı əvəzolunmaz xidmətlər göstərmişlər. Bu gün bu təbii resurslar ölkəmizin müstəqilliyini gücləndirir, müstəqil siyasət aparmaq imkanlarımızı böyük dərəcədə şərtləndirir. XX əsrin ortalarında Xəzər dənizində dünyada ilk dəfə kəşf edilmiş neft bu gün müstəqil Azərbaycana xidmət göstərir. Azərbaycanda uğurlu neft strategiyasının aparılması nəticəsində bu gün biz enerji təhlükəsizliyimizi tam şəkildə təmin edə bilmişik. Təbii resurslardan çox səmərəli şəkildə istifadə edirik. Avropanın enerji təhlükəsizliyi məsələlərinin həlli üçün səylərimizi göstəririk. Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi üçün ən vacib tərəfdaşlardan biridir.

Əgər vaxtilə alimlərimiz böyük neft-qaz yataqlarını kəşf etməsəydilər və Azərbaycanın bu təbii resursları olmasaydı, müstəqil həyatımız başqa istiqamətdə inkişaf edə bilərdi. Bir daha demək istəyirəm ki, bu amil iqtisadi müstəqillik verir. Beləliklə, Azərbaycanda siyasi müstəqillik də lazımi səviyyədədir. Hesab edirəm ki, gələcək illərdə bu sahədə əlavə tədbirlər görülməlidir. Bu gün maliyyə resurslarımız belə imkanlar yaradır. Elə etməliyik ki, bundan sonra da uzun illər, onilliklər ərzində Azərbaycan dünya enerji bazarında öz rolunu daha da artırsın və milli maraqlarımız tam şəkildə təmin edilsin.

Hesab edirəm ki, bütövlükdə, Xəzər dənizinin tədqiqi ilə bağlı əlavə addımlar atılmalıdır. Bu istiqamətdə böyük işlər görülüb, ancaq biz hələ də Xəzər dənizini istədiyimiz qədər bilmirik, tanımırıq. Ona görə, elmi sahədə bu məsələ daim diqqət mərkəzində olmalıdır.

Bu gün Azərbaycan iqtisadiyyatı qarşısında duran çağırışlar elmin inkişafı ilə bilavasitə bağlı olmalıdır. Bu gün biz böyük neft-kimya kompleksinin tikilməsi üzərində işləyirik. Neft-kimya sahəsində böyük perspektivlər vardır. Nəzərə alsaq ki, ölkəmizdə bu istiqamətdə

bütün dövrlərdə çox güclü elmi məktəb olmuşdur, bu, iqtisadi gücümüzü artıracaq, yeni iş yerlərinin açılmasına gətirib çıxaracaqdır. Hesab edirəm ki, bu gün alimlərimiz öz işlərini bu sahə üzrə müvafiq dövlət qurumları ilə əlaqəli şəkildə aparmalıdırlar. Azərbaycan hökumətinə müvafiq göstərişlər verilmişdir ki, bu sahəyə biz Azərbaycan elmini də cəlb edək.

Bu gün ölkə qarşısında duran vəzifələr prioritetlər əsasında müəyyən edilib. Elm qarşısında duran məsələ də eyni qaydada həll olunmalıdır. Yenə də demək istəyirəm ki, ilk növbədə, enerji təhlükəsizliyi məsələləri gündəlikdə durmuşdur. Bu məsələlər öz həllini tapıbdır və hazırda biz ölkəmizin hərtərəfli inkişafı ilə bağlı siyasətimizi aparırıq. İqtisadiyyatımızın qeyri-neft sektorunun inkişafı ilə bağlı çox ciddi addımlar atılıbdır. Konkret proqramlar icra edilir. Bu proqramlar öz bəhrəsini verməkdədir.

Son yeddi ildə Azərbaycanda bir milyona yaxın yeni iş yerləri açılmışdır ki, bunların mütləq əksəriyyəti qeyri-neft sektorunda yaradılmışdır. Bütövlükdə, Azərbaycan iqtisadiyyatının uğurlu inkişafı dünya miqyasında bir fenomendir. Son bir neçə il ərzində ölkəmizdə iqtisadi artım ən yüksək səviyyədədir və biz bu göstəriciyə görə dünya miqyasında birinci yerdəyik. Bununla bərabər, iqtisadiyyatın hərtərəfli inkişafı da beynəlxalq maliyyə qurumları tərəfindən qiymətləndirilir. Azərbaycanın bütün beynəlxalq reytinqləri artır. Hətta böhranlı 2009-2010-cu illərdə bu göstəricilər ən yüksək səviyyədədir. Bununla bərabər, biz uzunmüddətli inkişaf strategiyamızı müəyyən edərkən, mütləq güclü elmi bazaya arxalanmalıyıq. Biz iqtisadi inkişafımızın gələcək istiqamətlərini müəyyən edərkən, güclü elmi əsaslara söykənməliyik. Burada düzgün proqnozlar verilməlidir. Biz nəinki beşillik proqramı icra edərkən bu məsələlərlə məşğul olmalıyıq, uzaq gələcəyə baxmalıyıq – 20 ildən, 30 ildən sonra Azərbaycan hansı imkanlar hesabına inkişaf edəcəkdir?! Azərbaycanda elə güclü potensial yaradılmalıdır ki, ölkəmizin inkişafı uzunmüddətli, uğurlu və dayanıqlı olsun. Biz neft-qaz amilindən asılılığımızı tədricən azaldırıq. Artıq bu istiqamətdə müəyyən işlər görülmüşdür. Gələcəkdə

isə biz çoxşaxəli iqtisadiyyat yaratmaqla elmi əsaslara söykənərək, dayanıqlı inkişaf modelimizi qurmalıyıq. Burada, əlbəttə ki, alimlər öz sözünü deməlidirlər. Biz hökumətlə bərabər, dövlət strukturları ilə birgə bu fəaliyyəti gücləndirməliyik. Ona görə, bu sahədə aparılan işlərə xüsusi diqqət göstərilməlidir.

Biz hazırda ərzaq təhlükəsizliyi məsələləri ilə çox ciddi məşğuluq. Bildiyiniz kimi, sovet dövründə vahid xalq təsərrüfatı kompleksi mövcud idi. Bu məsələlər sovet hökuməti tərəfindən tənzimlənirdi. Müstəqillik dövründə, xüsusilə bəzi hallarda təbii fəlakətlər nəticəsində ərzaqla bağlı yaranan çətinliklərlə üzləşərək biz ərzaq təhlükəsizliyi məsələlərimizi daxili imkanlar hesabına təmin etməliyik. Bu istiqamətdə işlər aparılır.

Azərbaycanda sahibkarlığın inkişafının dəstəklənməsi, kreditlərin verilməsi, özəl sektorun inkişafı – bütün bu məsələlər bir məqsədi güdür ki, biz ərzaq təhlükəsizliyimizi tam şəkildə təmin edək. Hesab edirəm ki, növbəti 2-3 il ərzində biz özümüzü əsas ərzaq məhsulları ilə təmin etməliyik və bununla bərabər, çox güclü ixrac potensialımızı da yaratmalıyıq. Ona görə, aqrar elmlərin inkişafı və iqtisadı inkişafla uzlaşması xüsusi məna daşıyıb. Hesab edirəm ki, Milli Elmlər Akademiyasının aqrar bölməsinin yaradılması üçün konkret addımlar atılmalıdır. Vaxt itirmədən bu bölmə yaradılmalıdır və fəal işə başlamalıdır. Beləliklə, əgər bu məsələlər öz həllini taparsa, hesab edirəm ki, bu, Azərbaycan elminin inkişafına güclü təkan olacaq, sifarişlər veriləcəkdir. Dövlət qurumları vəözəl sektor tərəfindən sifarişlər verilməlidir. Alimlərimiz bu sifarişlər əsasında işləyəcəklər. Nəzərə alsaq ki, Azərbaycan dövləti bundan sonra da elmin inkişafı üçün maliyyə dəstəyini verəcək, beləliklə, biz elmin inkişafına uğurla nail ola bilərik.

Ölkəmizdə hazırda müasirləşmə siyasəti aparılır. Bu siyasət özünü bütün istiqamətlərdə göstərməkdədir. Xüsusilə elmi-texniki tərəqqi ilə bağlı addımlarımız gələcəyə yönəldilib. Bəlkə biz gənc müstəqil ölkə üçün xas olmayan təşəbbüslərlə çıxış edirik. Azərbaycanda kosmik sənayenin yaradılması prosesi gedir. Mən əminəm ki, bu proses sürətlə gedəcəkdir. Bu, bizim dövlət siyasətimizdir. Hesab

edirəm ki, birinci telekommunikasiya peykinin orbitə çıxarılmasından sonra bu sahəyə daha da böyük təkan veriləcəkdir. Azərbaycanda çox güclü kosmik sənaye yaradılacaqdır. Azərbaycan elmi də bu təşəbbüslərə öz dəstəyini verməlidir. Burada, əlbəttə ki, beynəlxalq əlaqələr öz rolunu oynamalıdır. Dünyanın aparıcı elmi mərkəzləri ilə əməkdaşlıq səviyyəsi daha da güclü olmalıdır. Çünki bu sahədə bizdə olan potensial, hesab edirəm ki, hələ istədiyimizə cavab vermir. Bütövlükdə, beynəlxalq elmi mərkəzlər ilə əməkdaşlıq daha da geniş olmalıdır.

İnformasiya-kommunikasiya sektorunda uğurlarımız göz qabağındadır. Qısa müddət ərzində bu sahədə böyük nailiyyətlər əldə edilmişdir. Bu gün MDB məkanında Azərbaycan İKT ilə bağlı ön sıralardadır. Ancaq vəzifəmiz bununla bitmir. Yəni istəyimiz ondan ibarətdir ki, Azərbaycan dünya miqyasında İKT-nin inkişafı üzrə birinci sıralarda olsun. Dövlət dəstəyi, maliyyə təminatı göstərilir, bəzi hallarda kreditlərin verilməsi ilə əlaqədar beynəlxalq maliyyə qurumları ilə aparılan danışıqlar nəticə verməyəndə, Azərbaycan dövləti öz maliyyə imkanlarını təşkil edir. İndi imkanlarımız genişlənir və elmin, elmi tərəqqinin inkişafına xüsusi diqqət göstərilməlidir, xüsusilə İKT sektorunda. Çünki İKT-nin inkişafı bir neçə məqsədi güdür. İlk növbədə, bu, Azərbaycanın intellektual potensialının inkişafına xidmət göstərəcəkdir. Ölkədə gedən müasirləşmə siyasətinə dəstəyini verəcəkdir. Digər tərəfdən, bu sahədə çox böyük iqtisadi imkanlar vardır. Gələcəkdə İKT sektorunda yaranacaq gəlir Azərbaycan iqtisadiyyatının inkişafına çox böyük təsir göstərəcəkdir. Ona görə, hesab edirəm ki, akademiyada bu istiqamətdə daha da ciddi addımlar atılmalıdır.

Biz hərbi sənaye kompleksini yaradırıq. Qısa müddət ərzində, demək olar ki, yaratmışıq. Bu gün Azərbaycanda 430 adda hərbi təyinatlı məhsul buraxılır. Gələcəkdə bu məhsulların sayı daha da çoxalacaqdır.

Bununla bərabər, tanınmış beynəlxalq şirkətlərlə birgə fəaliyyətimiz genişlənir, yeni texnologiyalar gətirilir və hazırda Azərbaycanda

istehsal olunan məhsullar dünya səviyyəsindədir. Nəzərə alsaq ki, biz hərbi gücümüzü daim möhkəmləndirməliyik və ordu quruculuğu prosesi Azərbaycanda sürətlə gedir, buna böyük ehtiyac vardır. Biz müharibə şəraitində yaşayırıq və dövlətin bu məsələlərə çox böyük diqqəti və maliyyə təminatı vardır. Hesab edirəm ki, Azərbaycan alimləri bu istiqamətdə də öz sözünü deməlidirlər. Dövlət qurumları ilə, xüsusilə Müdafiə Sənayesi Nazirliyi ilə işlər daha da yüksək səviyyədə aparılmalıdır. Bu işlər aparılır. Ancaq bu, çox perspektivli istiqamətdir və daim diqqət mərkəzində olmalıdır.

Bir sözlə, iqtisadi inkişafımızla, sənaye inkişafımızla bağlı çox konkret proqramlar vardır. Azərbaycan elmi bu istiqamətdə öz sözünü deməlidir. Hazırda Azərbaycanda böyük texnoparklar və çox böyük sənaye potensialı yaradılır. Əlbəttə ki, bu təşəbbüslər gözəl nəticələrini verəcək və qeyd etdiyim kimi, ölkə iqtisadiyyatının neft amilindən asılılığını azaltmaq üçün öz təsirini göstərəcəkdir. Bu halda Azərbaycan elmi də burada ön sıralarda olmalıdır.

Humanitar elmlərlə bağlı məsələlər, əlbəttə ki, daim diqqət mərkəzindədir və bu sahədə aparılan işlər çox uğurludur, təqdirəlayiqdir. Biz bu sahəyə daim diqqət göstərməliyik. Çünki, bildiyiniz kimi, müstəqillikdən əvvəl bizi millət kimi qoruyub saxlayan milli dəyərlərimiz, milli ənənələrimiz, ana dilimiz, ədəbiyyatımız, musiqimiz olub. Ona görə, bu sahəyə dövlət tərəfindən daim diqqət göstərilir. Hesab edirəm ki, Elmlər Akademiyası bu istiqamətdə çox uğurlu fəaliyyət göstərir. Sadəcə olaraq, qeyd etməliyəm ki, bu məsələ daim diqqət mərkəzində olmalıdır.

Ana dilimizə hörmət və qayğı daimi olmalıdır. Biz ana dilimizi xarici təsirdən qorumalıyıq. Ana dilimiz bizim toxunulmaz sərvətimizdir. Azərbaycan xalqının formalaşmasında, müstəqil Azərbaycanın formalaşmasında ana dilimiz – Azərbaycan dili müstəsna rol oynamışdır. Biz elə etməliyik ki, dilimizin saflığını daim qoruyaq. Bu məsələyə çox ciddi diqqət göstərilməlidir.

Ədəbiyyat üzrə araşdırmalar davam etdirilir. Burada da fəaliyyət üçün çox geniş meydan vardır. Çünki ədəbiyyatımız dünya ədə-

biyyatının inkişafında çox böyük rol oynamışdır. Biz, haqlı olaraq, bu barədə qürur hissi ilə danışa bilərik.

Arxeoloji qazıntıların aparılmasına dəstək verilir, vəsait ayrılır. Bu da çox vacib sahədir. Biz keçmişimizi bilirik, daha da dərindən öyrənməliyik və bu istiqamətdə aparılan işlər davam etdiriləcəkdir. Arxeoloji qazıntılar bizə yeni bilgilər, yeni məlumatlar verir. Beləliklə, tariximiz haqqında bizdə və dünyada daha da dolğun təsəvvür yaranacaqdır.

Tarix elmləri ilə bağlı olan məsələlər daim diqqət mərkəzindədir. Biz bu məsələyə çox böyük diqqət göstəririk. Mən çox şadam ki, tarixçilərimiz çox sanballı və əsaslı əsərlər yaradırlar. Xüsusilə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin mövcudluğu bizə diktə edir ki, bu sahəyə daha da böyük diqqət göstərək. Çünki bu bölgənin tarixi ermənilər tərəfindən daim saxtalaşdırılır, daim təhrif olunur. Şadam ki, alimlərimiz mənim çağırışıma müsbət cavab verərək qısa müddət ərzində bu bölgənin tarixi ilə bağlı çox gözəl və real faktlara əsaslanmış əsərlər yaratmışlar. Başlıcası, İrəvan xanlığının tarixi ilə bağlı yaradılmış əsərlər xüsusi məna daşıyır. Çünki, əfsuslar olsun ki, dünya birliyi, demək olar, bilmirdi ki, bugünkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranmışdır.

Biz təşəbbüslərimiz, tarixə müraciətimiz və konkret dəlillərlə, faktlarla mövqeyimizi əsaslandırmışıq ki, İrəvan Ermənistanın paytaxtı kimi Azərbaycan dövləti tərəfindən 1918-ci ildə verilmişdir. İrəvan xanlığında yaşayan əhalinin əksəriyyəti azərbaycanlılar idi. Zəngəzur mahalı qədim Azərbaycan torpağıdır və süni şəkildə Ermənistana verilmişdir. Zəngəzur mahalının Ermənistana verilməsi böyük ədalətsizlik idi. Doğma torpağımızın bir parçası Ermənistana birləşdirildi. Bunun çox böyük mənfi nəticəsi oldu. Bu, bütün türk dünyasını parçaladı. Bu gün türk dünyası coğrafi baxımdan parçalanıb. Düzdür, biz siyasi addımlarla, iqtisadi təşəbbüslərlə, türkdilli dövlətlərin zirvə görüşlərinin keçirilməsi ilə, – mən TÜRKSOY-un fəaliyyətini də qeyd etməliyəm, – çalışırıq və çalışacağıq ki, bütün türk dünyasını birləşdirək, siyasi maraqları birləşdirək, iqtisadi sahədə daha

da çoxtərəfli əməkdaşlıq aparılsın. Ancaq coğrafi cəhətdən bu gün türk dünyası parçalanıbdır. Yəni bütün bu tarixi həqiqətlər işıq üzü görməlidir. Nəinki ölkə daxilində, eyni zamanda xaricdə də bunu bilməlidirlər. Ona görə bu kitabların xarici dillərdə nəşri xüsusi məna daşıyır.

Bütün indiki Ermənistan ərazisinin əksər toponimləri Azərbaycan mənşəli toponimlərdir. Şəhərlərin, kəndlərin adları. Hətta bunu Böyük Sovet Ensiklopediyasında da görmək mümkündür. O vaxt erməni şəhərlərinin adları və onların əski variantı yazılmışdı. Biz bütün bunları bilməliyik. Bu gün Ermənistan dövləti bizə qarşı ərazi iddiası ilə çıxış edir. Torpaqlarımız işğal altındadır. Dağlıq Qarabağ işğal altındadır. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Erməni təbliğatı bütün dünyada bizə qarşı işə salınıbdır. Biz isə həqiqətləri çatdırmalıyıq ki, Xankəndi şəhəri Stepanakert deyil, Xankəndidir. Stepanakert quldur dəstəsinin rəhbəri Şaumyanın adına verilmişdir. Mən dəfələrlə bu barədə demişəm, əgər o yaşayış məntəqəsinin tarixi adı olsa idi, o tarixi adı ermənilər bərpa edərdilər. Bu, bizim torpağımızdır. Elmi araşdırmalar və elmi əsərlər, kitablar çox vacibdir. Mən çox şadam ki, bu istiqamətdə işlər gedir. Biz bu sahədəki işimizi daha da gücləndirməliyik, müasirləşdirməliyik. Bu məsələlərə nəinki alimlərimiz, hesab edirəm ki, ictimaiyyətin üzvləri də internet vasitəsilə fəal qoşulmalıdırlar. Nəzərə alsaq ki, həqiqət və tarixi ədalət bizim tərəfimizdədir, bu, bu gün də lazımdır, gələcək üçün də.

Mən yenə də deyirəm, bu sahədəki işlərlə bağlı təşəbbüslər reallaşır. Bu, çox müsbət haldır. Hesab edirəm ki, bu məsələyə xüsusi diqqət göstərilməlidir. Biz həm bu məsələnin elmi tərəfindən, həm də təbliğatımızda bu amildən daha da geniş şəkildə istifadə etməliyik.

Mən bu gün ölkəmizin və elmimizin inkişafı ilə bağlı bəzi fikirlərimi ifadə etdim. Mən əminəm ki, hörmətli alimlər, siz bütün bu məsələləri yaxşı bilirsiniz. Sizin təkliflərinizi, əlbəttə ki, nəzərə alınacaqdır. Hazırda qeyd etdiyim təşəbbüslər – Elmin İnkişaf Fondunun yaradılması, Azərbaycan Elminin İnkişafı üzrə Strategiyanın və Dövlət Proqramının qəbul edilməsi də alimlər tərəfindən verilmiş təşəbbüslər idi.

Biz elə etməliyik ki, Azərbaycan elmi inkişaf etsin, yaşasın və Azərbaycan dövlətinə, Azərbaycanın milli maraqlarına həmişə olduğu kimi xidmət etsin.

Mən sizi bir daha ürəkdən salamlayıram. Dəvətinizə görə minnətdaram. Sizə və akademiyanın bütün üzvlərinə yeni uğurlar arzulayıram.

Sağ olun.

## Azərbaycan Prezidenti İlham Əliyevin yekun nitqi

Mən burada səslənən təkliflərə münasibətimi bildirmək istəyirəm. Hesab edirəm ki, bu təkliflər çox dəyərlidir. Bunlar nəzərə alınacaq və müvafiq tapşırıqlar veriləcəkdir ki, qaldırdığınız məsələlər tezliklə öz həllini tapsın. Burada bir neçə məsələ qaldırıldı. İstərdim ki, öz fikrimi bildirim.

Sosial məsələlərin həlli ilə bağlı. Əlbəttə ki, bu məsələlər daim diqqət mərkəzindədir, Azərbaycanda maaşlar, təqaüdlər vaxtaşırı qaldırılır. Ancaq son illər ərzində maaşların və təqaüdlərin bir neçə dəfə qaldırılmasına baxmayaraq, xüsusilə dövlət sektorunda çalışanların sosial təminatı, hələ ki, istədiyimiz səviyyədə deyildir. Bu məsələyə baxılacaq və əlbəttə ki, akademiya işçilərini narahat edən məsələlər öz həllini tapacaqdır.

Kitabxananın tikintisi ilə bağlı verilən təklifləri dəstəkləyirəm. Bu məsələ bir müddət bundan əvvəl müzakirə edilmişdi, hətta bəzi təkliflər də irəli sürülmüşdü. Hesab edirəm ki, biz bu məsələyə daha da ciddi baxmalıyıq. Ola bilsin ki, gələn ilin dövlət büdcəsində kitabxananın tikintisi ilə bağlı artıq maliyyə mənbələri də müəyyən edilsin. Hesab edirəm ki, layihələndirmə işləri bu il də başlana bilər. Müasir, gözəl kitabxananın tikintisinə böyük ehtiyac vardır. Əminəm ki, biz buna nail olacağıq.

Struktur islahatları ilə bağlı məsələləri siz özünüz müəyyən etməlisiniz. Ən optimal variant seçilməlidir. Seçdiyiniz variantı mən

də dəstəkləyəcəyəm. Əsas məsələ ondan ibarətdir ki, biz işin səmərəliliyini təmin edək. Struktur islahatları, sadəcə, olaraq islahatlar naminə deyil, real nəticələrə gətirib çıxarmasına xidmət göstərməlidir.

Xəzər dənizinin tədqiqatları ilə bağlı beynəlxalq mərkəzin yaradılması təklifinə baxmaq olar. Bildiyiniz kimi, hazırda bütün Xəzəryanı ölkələr bir-biri ilə çox sıx əlaqədədir. Keçən ilin sonunda Bakıda Xəzəryanı ölkələrin dövlət başçılarının zirvə görüşünün keçirilməsi və görüş zamanı qəbul edilmiş çox vacib qərarlar Xəzər dənizində əməkdaşlıq meyillərini daha da gücləndirir. Bütün qonşularımız qeyd etmişlər ki, Xəzər ilə bağlı Bakıda keçirilən zirvə görüşü çox uğurlu olmuşdur. Bu beştərəfli əməkdaşlıq əlbəttə ki, davam etdiriləcəkdir. Burada Xəzərin bioresursları ilə əlaqədar müəyyən təkliflər var, Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi ilə əlaqədar danışıqlar gedir və Azərbaycan bütün bu məsələlərdə çox konstruktiv mövqe nümayiş etdirir. Elə etməliyik ki, Xəzər dənizi bundan sonra da dostluq, mehriban qonşuluq dənizi olsun. Xəzər dənizinin tədqiqatları ilə bağlı mərkəzin yaradılmasına da baxmaq olar. Əlbəttə, əgər belə bir mərkəz yaranacaqsa, bunun mərkəzi Bakı olmalıdır. Çünki Bakı Xəzəryanı ölkələr arasında yeganə paytaxtdır və əlbəttə, Bakının Xəzərin tədqiqatında və təbii resursların işlənməsində xüsusi yeri vardır.

Gənc alimlər üçün fondun yaradılması məsələsinə baxmaq olar. Bildiyiniz kimi, hazırda "Azərbaycan gəncliyi 2011–2015 illərdə" Dövlət Proqramı hazırlanır. Eyni zamanda Azərbaycan elminin inkişafı üzrə dövlət proqramı da 2015-ci ilə qədər hesablanıbdır. Bu iki proqramı biz, bir növ, bir-biri ilə bağlamalıyıq və gənclərin, ümumiyyətlə, elmə cəlb edilməsi üçün, əlbəttə ki, əlavə tədbirlər nəzərdə tutulmalıdır. Mən o fikirlə tam razıyam ki, biz gəncləri elmə cəlb etmək üçün əlavə mexanizmlər hazırlamalıyıq, stimullaşdırmalıyıq. Biz hərbi xidmətlə bağlı məsələlərə də baxacağıq.

Neft hasilatının sabit səviyyədə saxlanılması məsələsi bizim üçün çox vacibdir. Bildiyiniz kimi, Azərbaycanda fəaliyyət göstərən beynəlxalq şirkətlər böyük investisiyalar qoyurlar və eyni zamanda

Azərbaycan tərəfi də bu işlərdə fəal iştirak edir. Bildiyiniz kimi, hazırda konsorsium tərəfindən hasil edilən neftin gəlir hissəsinin 75 faizi Azərbaycanın payına düşür. Bu, məhz vaxtilə "Əsrin kontraktı"nın üzərində danışıqların aparılması zamanı Azərbaycanın mövqeyinin kifayət qədər ciddi olmasından xəbər verir. Baxmayaraq ki, o vaxt həm iqtisadi vəziyyətimiz o qədər yaxşı deyildi, siyasi proseslər də müəyyən dərəcədə bizi narahat edirdi. O vaxt biz maksimum məqbul şərtləri əldə etmişdik. Məhz buna görə bu gün xarici tərəfdaşlar tərəfindən hasil edilən neftin əksər hissəsi Azərbaycanın payına düşür. Xarici şirkətlərlə apardığımız danışıqlarda biz daim bu məsələ ilə bağlı öz fikrimizi bildiririk. Biz istəyirik ki, uzunmüddətli hasilata nail olaq. Hasilatın artırılmasına o qədər də müsbət baxmırıq. Mən hesab edirəm ki, hasilatın hazırkı səviyyəsi optimaldır. Elə etməliyik ki, bundan sonra da uzun illər ərzində Azərbaycan nefti Azərbaycan iqtisadiyyatının inkişafına xidmət göstərsin.

Hazırda biz böyük qaz layihəsinin icrası ilə məşğuluq və "Şahdəniz" qaz yatağı dünya miqyasında ən böyük yataqlardan biridir, nadir yataqdır. "Şahdəniz" yatağından sonra Azərbaycan alimləri, geoloqları, neftçiləri "Ümid" yatağını aşkarlayıblar. Beləliklə, bizdə çox böyük qaz potensialı yaranır və şübhəsiz, giriş sözümdə qeyd etdiyim Avropanın enerji təhlükəsizliyi məsələləri də müəyyən dərəcədə Azərbaycan qazının hesabına təmin edilə bilər. Hazırda bu istiqamətdə ciddi danışıqlar aparılır. İlin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında "Cənub" qaz dəhlizi üzrə bəyannamə imzalanmışdır, işçi qrupu yaradılmışdır, konkret işlər aparılır. Burada biz, ilk növbədə, həmişə olduğu kimi, ölkəmizin və xalqımızın milli maraqlarını təmin etməliyik. Bizə xüsusilə qazın ixracı üçün yeni bazarlar, tərəfdaşlara isə yeni alternativ mənbələr lazımdır. Burada maraqlarımız, demək olar ki, üst-üstə düşür və gələcəkdə Azərbaycanda həm neftin, həm də qazın hasilatının səviyyəsini biz müəyyən edəcəyik. Biz bu hasilatı lazım olan səviyyədə saxlayacağıq. Burada bu məsələlər, əlbəttə ki, uzunmüddətli inkişaf strategiyamızla uzlaşmalıdır. Yenə də deyirəm, alimlər də öz sözünü deyirlər və deyəcəklər.

Mən seysmoloji xidmətin inkişafı ilə əlaqədar verilən təkliflərə baxmağa hazıram. Əgər əlavə vəsait ayırmaq lazımdırsa, biz bunu edərik ki, bu sahədəki işi daha da təkmilləşdirək. Artıq zəlzələdən, demək olar ki, 10 il vaxt keçir. Ola bilsin ki, o vaxt alınmış avadanlıq köhnəlib. Çünki indi yeni texnologiyalar, yeni avadanlıqlar çıxır və biz, əlbəttə ki, buna baxacağıq.

Biz Tarixi Təbiət Muzeyinin təmiri ilə əlaqədar təklifə baxarıq. Hesab edirəm, Azərbaycanda, ümumiyyətlə, bu sahədə aparılan siyasətə uyğun olar ki, biz bu muzeyi də yüksək səviyyədə təmir etdirək, yaxud da yenisini yaradaq. Əgər yenisini yaradacağıqsa, gərək yer müəyyən edilsin, şəhərin mərkəzində gözəl bir yer olsun. Çünki, doğrudan da, bizdə nümayiş etdirmək üçün kifayət qədər materiallar, eksponatlar vardır. Siz yaxşı bilirsiniz ki, palçıq vulkanlarının sayına görə Azərbaycan dünyada birincidir. Bu, böyük sərvətimizdir. Əfsuslar olsun ki, nə ölkə daxilində, nə də ki, xaricdə bu barədə kifayət qədər bilgilər yoxdur. Alimlər bunu bilir, ancaq geniş ictimaiyyət bundan xəbərsizdir. Hesab edirəm ki, müxtəlif yollarla həm muzeyin yaradılması, ondan sonra internet materiallarının hazırlanması, elmi tədqiqatların aparılması sayəsində biz bütün dünyaya göstərəcəyik ki, Azərbaycan, o cümlədən bu sahədə də birinci yerdədir.

Şamaxı Astrofizika Rəsədxanasında əsaslı təmir işləri gedir, daha doğrusu, bütün infrastruktur yenidən qurulur. Bu məqsədlər üçün Prezidentin Ehtiyat Fondundan vəsait ayrılmışdır. Mən bir müddət bundan əvvəl Şamaxı rayonunda olarkən orada gedən işlərlə tanış olmuşdum. Alimlərin yaşaması, fəaliyyəti, elmi tədqiqatların aparılması üçün bütün işlər çox gözəl, müasir səviyyədə görülür. Yəni hesab edirəm ki, bu rəsədxana dünya miqyasında öz müasirliyi və gözəlliyi ilə seçiləcəkdir. Beləliklə, Azərbaycan elminin inkişafına, bu sahədəki elmin inkişafına yeni təkan veriləcəkdir. Hesab edirəm ki, gələcəkdə rəsədxana, eyni zamanda, turistlər üçün də açıq olmalıdır. Orada müəyyən ekskursiyalar təşkil olunmalıdır, çünki bu, həm də maraq doğuran məsələdir, eyni zamanda bundan rəsədxananın saxlanması üçün müəyyən əlavə vəsait də əldə oluna bilər. İndi

Azərbaycanda turizm imkanları geniş inkişaf edir. Xüsusilə Bakıda, Bakıya yaxın olan Şamaxı rayonunda böyük quruculuq işləri aparılır, gözəl yol çəkilib. İndi biz Bakı–Şamaxı yolunu genişləndirəcəyik. Gözəl avtoban yaranacaq və hesab edirəm ki, əhali üçün maraqlı olacaqdır. Əlbəttə ki, elmi işçilər üçün şərait yaradılır.

Sumqayıtda Polimer Materialları İnstitutunun təmiri ilə əlaqədar fikir səslənmişdir. Mən tapşırıq verəcəyəm ki, bu məsələ araşdırılsın və kömək göstəriləcəkdir. Bütövlükdə, kimya elminin inkişafına diqqət göstərilməlidir və göstərilir. Mən giriş sözümdə qeyd etdim ki, neft-kimya sahəsinə böyük diqqət göstərilir. Azərbaycanda müasir neft-kimya kompleksinin yaradılması ilə əlaqədar tapşırıqlar verilmişdir. Yeni müasir neftayırma zavodunun tikintisi ilə bağlı tapşırıqlar verilmişdir. İndi layihə hazırlanır. Biz bu sahədə də ən müasir texnologiyaları cəlb etməliyik. Mən Dövlət Neft Şirkətinə göstəriş verəcəyəm ki, Azərbaycan alimlərini bu işlərə maksimum dərəcədə cəlb etsinlər və bu işləri birgə görsünlər.

Nizami mərkəzinin yaradılması ilə əlaqədar səslənən təkliflər hesab edirəm ki, təqdirəlayiqdir. Heç kimdə şübhə yoxdur ki, Nizami Gəncəvi dahi Azərbaycan şairidir. Bunu bütün dünya bilir. Əgər belə ehtiyac yaranıbsa ki, bunu kiməsə sübut edək, biz bunu çox asanlıqla sübut edə bilərik. Nizaminin xatirəsi hər bir azərbaycanlı üçün əzizdir, doğmadır. Nizaminin əsərləri, əlbəttə ki, milli şüurumuzun tərkib hissəsidir. O ki qaldı hansısa qüvvələr tərəfindən bu əsərlərə yiyə çıxmaq, yaxud da özününküləşdirmək məsələsinə, əfsuslar olsun ki, biz belə hallarla dəfələrlə üzləşirik. Bunun da əsas səbəbi ondadır ki, Azərbaycan ədəbiyyatı, Azərbaycan mədəniyyəti, incəsənəti o qədər zəngindir ki, başqa tərəflərdən bizim milli sərvətimizi özününküləşdirmək üçün cəhdlər göstərirlər. Bu təkcə ədəbiyyatla, yaxud da ki, Nizaminin əsərləri ilə bağlı olan məsələ deyildir. Bizim musiqimiz ermənilər tərəfindən utanmadan oğurlanır. Dahi Üzeyir bəyin əsərləri özününküləşdirilir. Bizim milli mətbəximiz yenə də ermənilər tərəfindən oğurlanır. Onlar bunu müxtəlif yollarla erməni mətbəxi kimi təqdim etməyə çalışırlar. Halbuki, milli

yeməklərimizin adları da Azərbaycan sözləridir. Əgər ermənidən soruşsan, dolma ermənicə nə deməkdir, onu deyə bilməz. Necə ki, Qarabağ deyəndə, onlar üçün bu, sadəcə, bir sözdür, onu anlamırlar. Çünki bu, erməni sözü deyildir. Ona görə də belə hərəkətlər, əlbəttə ki, bizi çox üzür.

Biz öz milli, mədəni irsimizi qorumalıyıq. Bunun üçün təbliğat işləri daha da güclü olmalıdır. Bizim imkanlarımız daha da geniş olmalıdır. Baxın, indi, demək olar ki, bütün dünyada Azərbaycan diaspor təşkilatları fəaliyyət göstərir, 50-dən yuxarı ölkədə Azərbaycan səfirlikləri fəaliyyətə başlamışdır və uğurla fəaliyyət göstərirlər. Yəni indi bizim təbliğat imkanlarımız genişdir. Biz heç vaxt, tarix boyu başqa xalqın milli dəyərinə, yaxud da ki, milli irsinə göz dikməmişik. Ancaq, əfsuslar olsun ki, bizə qarşı həmişə belə cəhdlər olub. Yenə də deyirəm, bunun əsas səbəbi Azərbaycan xalqının istedadı və mədəniyyətimizin zəngin olmasıdır. Ancaq biz, əlbəttə ki, mədəni irsimizi qoruyacağıq, bütövlükdə, müstəqilliyimizi qoruyacağıq, müstəqil seçimimizi qoruyacağıq. Əminəm ki, Azərbaycanın inkişafı çox parlaq, çox uğurlu olacaqdır. Azərbaycan dünyanın ən inkişaf etmiş ölkələri sırasına daxil olacaqdır.

Əziz dostlar, bir daha sizi ürəkdən salamlayıram. Əminəm ki, akademiyanın inkişafı bundan sonra da uğurlu olacaqdır. Verilən əlavə tapşırıqlar yaxın zamanlarda akademiyanın inkişafına müsbət təsir göstərəcəkdir. Sağ olun!

## Ulu Öndər Heydər Əliyevin anadan olmasının 88-ci ildönümü münasibətilə təşkil olunmuş təntənəli mərasimdə İlham Əliyevin nitqindən

***(10 may 2011-ci il)***

... Heydər Əliyev bütün dövrlərdə doğma xalqına sədaqətlə xidmət etmişdir. Ümummilli lider ictimai-siyasi quruluşdan asılı olmayaraq, bütün dövrlərdə Azərbaycanın inkişafına çox böyük töhfələr vermişdir.

1969-cu ildə birinci dəfə Azərbaycana rəhbərliyə başlayan zaman Azərbaycan müttəfiq sovet respublikaları arasında ən geridə qalanlar sırasında idi. Demək olar ki, iqtisadiyyat inkişaf etmirdi, kənd təsərrüfatının inkişafı üçün lazımi tədbirlər görülmürdü, sənaye istehsalı isə çox aşağı səviyyədə idi. Məhz onun fəaliyyəti nəticəsində 13 il ərzində Azərbaycan Sovet İttifaqı miqyasında ən qabaqcıl yerlərə çıxa bilmişdir. Əgər o vaxt iki respublika özünü təmin edə bilirdisə, onlardan biri Azərbaycan olmuşdur. Məhz o illərdə respublikanın sosial-iqtisadi inkişafına böyük təkan verilmişdir. O illərdə sənayenin güclü və möhkəm əsasları qoyulmuşdur ki, bu gün də müstəqil Azərbaycanın sənaye potensialına bunun böyük köməyi vardır. O illərdə Azərbaycan Respublikasının bütün sahələrdə inkişafında böyük irəliləyiş əldə edilmişdir. Bir sözlə, 1970-ci illər Azərbaycan tarixində inkişaf və tərəqqi illəri kimi qalmışdır. Təbii ki, Azərbaycan müstəqil deyildi və bütün bu nailiyyətləri o vaxt Sovet İttifaqında mövcud ideoloji çərçivələr daxilində əldə etmək mümkün olmuşdur. O illərdə əldə edilmiş potensial, əlbəttə ki, müstəqilliyin bərpa edilməsindən sonra bizə kömək göstərmişdir.

Heydər Əliyev 1982–1987-ci illərdə Sovet İttifaqının ali rəhbərliyində təmsil olunmuşdur. İlk dəfə idi ki, azərbaycanlı böyük dövlətdə yüksək vəzifəyə layiq görülmüşdü. O illərdə Sovet İttifaqı Nazirlər Soveti sədrinin birinci müavini kimi o, eyni zamanda Azərbaycanın inkişafına da böyük diqqət göstərmişdir və onun ürəyi Azərbaycanda

qalmışdır. O illərdə Azərbaycanda proseslər hələ də öz axarı ilə gedirdi. Yəni inersiya gücü o qədər möhkəm idi ki, hətta Heydər Əliyevin burada olmaması Azərbaycanın inkişafına o qədər də mənfi təsir göstərmirdi. Lakin artıq 1980-ci illərin ortalarından Azərbaycanda işlər yavaş-yavaş tənəzzülə uğramağa başlamışdır. 1987-ci ildə isə o, siyasi səhnədən gedəndən sonra Azərbaycan üçün böyük problemlər başlanmışdır.

Biz hamımız o illəri yaxşı xatırlayırıq və bilirik ki, Ulu Öndər siyasi hakimiyyətdən gedəndən sonra iki həftə keçməmiş erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək üçün artıq fəal işlərə başlamışdılar. Əvvəlki illərdə onları bu əməllərdən çəkindirən məhz Heydər Əliyev amili olmuşdur.

Məhz o illərdə, 1987-ci ilin sonundan başlayaraq separatizm meyilləri gücləndi və beləliklə, Dağlıq Qarabağ münaqişəsinin başlanması üçün şərait yaradıldı. Biz hamımız yaxşı başa düşürük ki, əgər o zaman Heydər Əliyev Azərbaycanda olsaydı, heç vaxt bu münaqişə baş verməzdi və Azərbaycanın tarixi torpaqları işğal altına düşməzdi. Heydər Əliyevin ürəyi Azərbaycanla döyünürdü. Ancaq o vaxtkı sovet rəhbərliyi Heydər Əliyev amilini dərk edərək bütün imkanlardan istifadə edirdi ki, onu Azərbaycandan təcrid etsin. Ona qarşı başlanmış böhtan kampaniyasının mənası və səbəbi məhz ondan ibarət idi ki, Heydər Əliyev amili Azərbaycandan silinsin. Ancaq onun əməlləri, onun Azərbaycana verdiyi töhfələr Azərbaycan xalqının qəlbində daim yaşayırdı. O vaxt – biz Sovet İttifaqının tərkibində yaşadığımız dövrdə bütün o anları yaxşı xatırlayırıq. Hətta buna baxmayaraq, Azərbaycan xalqı öz iradəsini ifadə edə bilirdi. Məhz o iradə Azərbaycanı bugünkü inkişafa gətirib çıxarmışdır.

Heydər Əliyevə qarşı təzyiqlər və təqiblər güclənəndə o, təbii ki, doğma Vətənə üz tutdu. Ancaq, əfsuslar olsun ki, o vaxt Azərbaycanın siyasi hakimiyyətində təmsil olunanlar imkan vermədilər o, Bakıda yaşasın və məcbur qalıb doğulduğu yerə – Naxçıvana üz tutdu. Ulu Öndər Naxçıvanda yaşadığı dövrdə Naxçıvanın inkişafına öz töhfəsini verdi, eyni zamanda naxçıvanlılar da Heydər Əliyevi qorudular.

Onun həyatında çox çətin anlar da olmuşdur, amma bütün sınaqlardan şərəflə çıxmışdır, daim öz xalqına xidmət etmişdir, bütün dövrlərdə cəsarətli siyasət aparmışdır və bu siyasət, bu cəsarət özünü müxtəlif mərhələlərdə göstərmişdir.

Azərbaycan xalqına qarşı törədilən təcavüz – 20 Yanvar faciəsi nəticəsində həlak olmuş şəhidlərimizin ruhu qarşısında o vaxt söz vermişdi ki, son damla qanına qədər Azərbaycana xidmət edəcəkdir. O vaxt Sovet İttifaqının dağılmasına hələ iki il qalmışdı. Buna baxmayaraq, Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində mətbuat konfransında Sovet İttifaqının, Kommunist Partiyasının rəhbərliyini çox kəskin tənqid etmiş və günahsız insanların həlak olmasında onları günahlandırmış, sonra isə onilliklər ərzində xidmət etdiyi Kommunist Partiyasının sıralarını tərk etmişdir.

Bütün bu addımlar böyük siyasi iradə və cəsarət tələb edirdi. Məhz o addımlar nəticəsində bu gün Azərbaycan müstəqil dövlətdir. Azərbaycanın müstəqilliyinin təməli məhz o vaxt qoyulmuşdur. Azərbaycanın milli üçrəngli bayrağı ilk dəfə olaraq rəsmi dövlət bayrağı kimi Naxçıvanda qaldırılmışdır. O vaxt hələ Sovet İttifaqı mövcud idi. Məhz o vaxt Sovet İttifaqının saxlanması üçün keçirilən referendumda Naxçıvan iştirak etmirdi. Biz bütün bu tarixi anları yaxşı xatırlayırıq və bir daha bu məsələyə diqqət verməklə, Heydər Əliyevin nə qədər böyük şəxsiyyət olduğunu bir daha görürük.

Məhz o illərdə Azərbaycanın müasir siyasi sisteminin formalaşması üçün tarixi hadisə baş vermişdir. 1992-ci ildə Naxçıvanda Yeni Azərbaycan Partiyası yaradıldı. Yeni Azərbaycan Partiyası müxalifət partiyası kimi yaradılmışdır. Yarandığı gündən indiyə qədər Yeni Azərbaycan Partiyası aparıcı siyasi qüvvə olaraq, ölkəmizin inkişafı üçün böyük xidmətlər göstərmişdir.

Heydər Əliyevin Azərbaycanın siyasi hakimiyyətinə qayıdışı da zamanın və xalqın tələbi idi. O vaxt Azərbaycanda vətəndaş müharibəsi başlanmışdı, ölkədə xaos, anarxiya, böhran hökm sürürdü. İqtisadi və siyasi böhran ölkəmizin gələcək müstəqil həyatını sual altına qoymuşdu. Xalqın tələbi ilə Heydər Əliyevin Azərbaycan rəh-

bərliyinə qayıdışından sonra bütün xoşagəlməz halların qarşısı alındı, bütün qanunsuz silahlı birləşmələr tərk-silah edildi, sabitlik yarandı və Azərbaycan inkişaf etməyə başladı. Əgər o vaxt Heydər Əliyev qətiyyəti, cəsarəti və siyasi nüfuzu olmasaydı, müstəqilliyimiz əldən gedə bilərdi.

1993–2003-cü illər Azərbaycanda sabitlik və inkişaf illəri kimi tarixdə qaldı. Məhz o illərdə dövlətçiliyimizin əsasları qoyuldu. Biz deyəndə ki, Heydər Əliyev müasir müstəqil Azərbaycanın qurucusudur, tam haqlıyıq. Çünki dövlət müstəqilliyi əldə etdikdən sonra iki il ərzində ölkə idarəolunmaz vəziyyətdə idi. Dövlətçiliyimizin, müstəqilliyimizin əsasları məhz 1993-cü ildə qoyulmuşdur. O vaxtdan bu günə qədər Azərbaycan yalnız və yalnız inkişaf yolu ilə gedir. İqtisadi sahədə aparılan islahatlar öz nəticəsini verməyə başlamışdır. Siyasi sabitlik təmin olunandan sonra ölkəyə böyük həcmdə xarici sərmayələr gəlməyə başlanmışdır. O vaxt xarici sərmayələri Azərbaycana cəlb etmək üçün böyük peşəkarlıq və siyasi səriştə tələb olunurdu. Çünki Azərbaycan dünyada çox riskli ölkə kimi tanınırdı. Azərbaycana sərmayə qoymaq istəyənlərin sayı çox az idi. Xarici investorları inandırmaq, onları Azərbaycana dəvət etmək və Azərbaycanın milli maraqlarına uyğun şəkildə böyük investisiya layihələrini icra etmək böyük siyasi bacarıq və siyasi bilik tələb edirdi.

Bugünkü Azərbaycan uğurla inkişaf edir. Bugünkü Azərbaycan, müstəqil Azərbaycan Heydər Əliyevin əsəridir. Bu, sadəcə olaraq, sözlər deyildir. Bu reallıqdır, bu həqiqətdir. 1993–2003-cü illərdə siyasi sistemin möhkəmlənməsi, dövlətçilik ənənələrinin yaradılması, azərbaycançılıq məfkurəsinin bərqərar olunması nəticəsində bu gün Azərbaycan uğurla inkişaf edən ölkəyə çevrilibdir. O illərdə həm siyasi islahatlar, dünya birliyinə inteqrasiya siyasətimiz, həm daxildə aparılan iqtisadi və sosial islahatlar uğurlu inkişaf üçün möhkəm zəmin yaratmışdır. Bu gün müasir Azərbaycan bu möhkəm təməl üzərində uğurla inkişaf edir. Azərbaycan bu gün Heydər Əliyev yolu ilə gedir. Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır və özünü bütün istiqamətlərdə göstərir. Ölkəmizin müstəqil yaşaması

üçün neft kontraktlarının müstəsna rolu olmuşdur. Bu kontraktlar nəticəsində ölkə iqtisadiyyatına milyardlarla dollar vəsait qoyulmuşdur. Azərbaycan etibarlı tərəfdaş kimi özünü dünya birliyinə təqdim edə bilmişdir. Təbii resurslarımızın işlənilməsi, nəqli, ixracı nəticəsində biz iqtisadi müstəqillik qazana bilmişik. İqtisadi müstəqillik isə dövlət müstəqilliyinin əsasıdır. Məhz 1990-cı illərdə biz bu nailiyyətlərə çata bildik və bu uğurları bu gün davam etdiririk. Ölkəmizdə bütün istiqamətlər üzrə çox böyük abadlıq-quruculuq işləri aparılır, sürətli inkişaf gedir.

... Bu gün Azərbaycan dinamik inkişaf edən, öz ehtiyaclarını özü ödəyən müasir ölkədir. Bizim siyasətimiz çox açıqdır, aydındır. Güclü iqtisadi təməl üzərində müasir siyasi sistemin formalaşdırılması, dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, azərbaycançılıq ideologiyasının gücləndirilməsi məsələləri bizim üçün prioritet məsələlərdir. Bununla bərabər, ölkəmizin sosial-iqtisadi inkişafının davamı üçün konkret layihələr, konkret proqramlar icra edilir.

Bu gün Azərbaycan, eyni zamanda regionda sabitləşdirici amildir. Bizim təşəbbüslər bir çox hallarda regionda həlledici rol oynayır. Regional məsələlərdə iştirakımız regional əməkdaşlığı daha da zənginləşdirir. Bu regional əməkdaşlığın hüdudları da genişləndirilir. Bizim irəli sürdüyümüz və icra etdiyimiz layihələr tərəfdaş dövlətləri də cəlb edir. Azərbaycan artıq çox etibarlı tərəfdaş kimi özünü dünyada təsdiq etmişdir.

Ölkəmizdə iqtisadi və sosial məsələlərin həlli müsbət istiqamətdə inkişaf edir. Ölkəmizdə ictimai-siyasi vəziyyət çox müsbətdir. Bizim ölkə çoxmillətli ölkədir. Azərbaycan artıq dünya miqyasında mədəniyyətlərarası dialoqun aparılması üçün çox gözəl məkana çevrilmişdir. Bu sahədəki təşəbbüslərimiz də dünya birliyi tərəfindən yüksək qiymətləndirilir. Son vaxtlar keçirilən müxtəlif tədbirlər bir daha Azərbaycanı çox müasir və tolerant ölkə kimi dünya birliyinə təqdim edir.

Ölkəmizdə elə bir sahə yoxdur ki, o sahə üzrə konkret proqram olmasın və həmin proqram icra edilməsin. Bir sözlə, bugünkü

Azərbaycan güclü, müasir, öz gücünə arxalanan dövlətdir. Biz elə etməliyik ki, ölkəmizi bundan sonra da gücləndirək, inkişaf etdirək, qarşıda duran bütün vəzifələri icra edək, Azərbaycan xalqının rifah halını yaxşılaşdırmaq üçün əlavə tədbirlər görək, iqtisadi və sosial məsələlərin həllinə nail olaq.

Biz bütün bu uğurları məhz ona görə əldə etmişik ki, 1993-cü ildə Azərbaycan xalqı müdriklik göstərib Heydər Əliyevi siyasi hakimiyyətə dəvət etmişdir. Uğurlarımızın təməli məhz o vaxt qoyulmuşdur. Uğurlarımızın əvvəli məhz 1993-cü ildir. Ona görə Heydər Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində yaşayır və daim yaşayacaqdır. Biz müstəqilliyi bərpa etmişik, qoruyub saxlaya bilmişik. Bu gün müstəqilliyi möhkəmləndiririk.

Müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük nemətdir, ən böyük dəyərdir. Bu gün inkişaf edən, güclənən Azərbaycan Heydər Əliyevin xatirəsinə olan hörmətimizin ən gözəl nümunəsidir. Biz bu yolla gedəcəyik. Heydər Əliyev siyasəti Azərbaycanda yaşayacaqdır. Biz bu yoldan dönməyəcəyik. Heydər Əliyev siyasətinə daim sadiq qalacağıq.

## Dünya azərbaycanlılarının III qurultayında Prezident İlham Əliyevin çıxışından *(5 iyul 2011-ci il)*

... Siz, dünyada yaşayan azərbaycanlılar yaxşı bilirsiniz ki, Dağlıq Qarabağ əzəli və tarixi Azərbaycan torpağıdır. Əsrlər boyu xalqımız o ərazilərdə yaşamışdır, yaratmışdır. Ermənilər o əraziyə qonaq kimi gəlmişlər. Biz onların Dağlıq Qarabağa gəlməyinin tarixçəsini də yaxşı bilirik. Vaxtilə 1978-ci ildə ermənilər tərəfindən Dağlıq Qarabağda onların Dağlıq Qarabağa köçürülməsini əks etdirən abidə ucaldılmışdır. Müharibənin ilk illərində ermənilər o abidəni dağıtmışlar. Ancaq tarixi dəyişdirmək mümkün deyildir.

Tarix tarixdir. 1978-ci ildə Qarabağda məskunlaşmalarının 150 illiyini qeyd edən ermənilər yaxşı bilirlər ki, onlar bu torpaqlara qonaq kimi gəlmişlər. Nəinki Dağlıq Qarabağ, bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında formalaşıbdır. İrəvan xanlığı, Zəngəzur mahalı bizim tarixi ərazimizdir. Xəritəyə baxsaq, görərik ki, vaxtilə Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana vermək nəticəsində böyük türk dünyası coğrafi cəhətdən parçalandı. Yəni Zəngəzurun Ermənistana verilməsinin çox böyük mənfi mənası var idi. Biz indi iddia etmirik ki, bu torpaqlar Azərbaycana birləşsin. Halbuki, hər bir azərbaycanlı, hər bir vətəndaş, hər bir uşaq öz tarixini bilməlidir. Bilməlidir ki, bu bölgələr tarixi Azərbaycan torpaqlarıdır. Məsələnin həlli üçün, əlbəttə, bütün amillər nəzərdən keçirilməlidir. Tarix bəllidir. Bu bizim torpağımızdır, nəinki Dağlıq Qarabağ və digər bölgələr. Beynəlxalq hüquq normaları tam şəkildə bizim mövqeyimizi müdafiə edir. Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçılarının verdiyi bəyanatda da Helsinki Yekun Aktına istinad edilir. Helsinki Yekun Aktında açıq-aydın göstərilir ki, ərazi bütövlüyü prinsipləri xalqların öz müqəddəratını müəyyən etmək prinsipləri ilə ziddiyyət təşkil etməməlidir. Beləliklə, hüquqi cəhətdən də mövqeyimiz güclüdür ...

# Akademik Ziya Bünyadovun 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamı

***(24 noyabr 2011-ci il)***

2011-ci ilin dekabr ayında Azərbaycanın görkəmli tarixçisi və şərqşünas alimi, tanınmış ictimai xadim, tarix elmləri doktoru, professor, Dövlət mükafatı laureatı, Sovet İttifaqı Qəhrəmanı, akademik Ziya Musa oğlu Bünyadovun anadan olmasının 90 ili tamam olur.

Zəngin və çoxşaxəli yaradıcılığı sayəsində Ziya Bünyadov respublikamızda tarix elminin yeni mərhələyə yüksəldilməsi işinə layiqli töhfələr vermişdir. Azərbaycan tarixinin müxtəlif dövrlərinə dair uzun illər ərzində meydana gətirdiyi fundamental tədqiqatlar, eləcə də orta əsrlərə aid çox sayda mənbələrin tərcüməsi ilə yanaşı, onlara yazdığı geniş şərhlər alimə böyük şöhrət qazandırmışdır. Azərbaycanda yeni ərəbşünas tarixçilər nəslinin formalaşmasında onun fəaliyyəti təqdirəlayiqdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkəmizdə tarix elminin inkişafı sahəsində müstəsna xidmətlər göstərmiş akademik Ziya Bünyadovun 90 illik yubileyinin keçirilməsini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə akademik Ziya Bünyadovun 90 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 24 noyabr 2011-ci il***

## Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin dünya azərbaycanlılarına müraciəti

### *(22 dekabr 2011-ci il)*

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Xalqımızın birlik və mütəşəkkilliyinin, milli təəssübkeşlik və Vətənə sədaqətinin rəmzi olan 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə sizi səmimi-qəlbdən salamlayıram.

Ümummilli liderimiz Heydər Əliyevin 20 il əvvəl irəli sürdüyü təşəbbüs nəticəsində təsis edilən bu əziz bayram dünyadakı bütün soydaşlarımızın qəlbini Vətən hərarəti ilə isidir və müstəqil Azərbaycan dövlətinə məhəbbət hissi aşılayır.

Həmvətənlərimizin milli birliyinə xüsusi əhəmiyyət verən Azərbaycan hökuməti diaspor quruculuğu işini daim diqqət mərkəzində saxlayır. Bu ilin yayında Bakıda Dünya Azərbaycanlılarının III Qurultayının keçirilməsi xarici ölkələrdə yaşayan soydaşlarımızın təşkilatlanması və Vətənlə əlaqələrinin möhkəmləndirilməsi yolunda yeni mərhələnin başlanğıcını qoydu. Qurultayda diaspor qurumlarının fəaliyyəti qiymətləndirildi, soydaşlarımızın mütəşəkkilliyinin və təşkilati çevikliyinin artırılmasına təkan verən mühüm qərarlar qəbul olundu.

Vətənimizin hüdudlarından kənarda yaşayan soydaşlarımız arasında azərbaycançılıq ideyalarının və milli təəssübkeşlik duyğularının günü-gündən güclənməsi olduqca fərəhləndirici haldır. İndi xaricdəki həmvətənlərimiz məskunlaşdıqları ölkələrin ictimai-siyasi, mədəni və işgüzar həyatında getdikcə öz mövqelərini genişləndirir, Azərbaycanın dünyada tanıdılmasına, mədəniyyətimizin təbliğinə sanballı töhfələr verirlər. Bu ilin yazında keçirilmiş nüfuzlu beynəlxalq mədəniyyət yarışmasında – "Eurovision – 2011" mahnı müsabiqəsində təmsilçilərimizin qazandığı qələbədə Avropa ölkələrində

yaşayan soydaşlarımızın da payı olmuşdur. Ümidvaram ki, diaspor təşkilatlarımız bundan sonra da əldə edilən nailiyyətlərlə kifayətlənməyəcək, Diasporla İş üzrə Dövlət Komitəsi və xarici ölkələrdəki diplomatik nümayəndəliklərimizlə əməkdaşlığı gücləndirəcək, yeni çağırışlara daha mütəşəkkil və təsirli cavab verəcəklər.

Əziz həmvətənlər!

Biz bu il dövlət müstəqilliyimizin 20 illiyini geniş qeyd etdik. Azərbaycanın 20 il ərzində nail olduğu uğurlar vətəndaşlarımızın əməksevərliyini, yüksək intellektual qabiliyyətini və qurub-yaratmaq əzmini bütün dünyaya əyani şəkildə nümayiş etdirir. Müstəqilliyin ilk illərində ölkəni bürümüş böhranlı vəziyyət, xalqımızın düçar olduğu çətinlik və məhrumiyyətlər indi arxada qalmış, yoxsulluq və işsizliyin səviyyəsi minimuma enmişdir. Düşünülmüş və planlı şəkildə aparılan islahatlar, müxtəlif sahələri əhatə edən dövlət proqramları və genişmiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsi Azərbaycanı dinamik inkişaf edən güclü və demokratik bir dövlətə çevirmiş, nüfuzlu və etibarlı tərəfdaş kimi dünyada tanıtmışdır. Bu il Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına keçirilən seçkilərdə qələbə qazanmış Azərbaycanı 155 dövlətin dəstəkləməsi dünya birliyinin ölkəmizə olan hörmət və inamının parlaq təzahürüdür.

Müasir dövrdə dünyada gedən proseslərin axarı sürətlə dəyişir. Qlobal, regional və lokal səviyyələrdə meydana çıxan problemlər, təhlükəli meyillər ağır iqtisadi böhranlara və sosial təlatümlərə yol açır, beynəlxalq əlaqələrə güclü təsir göstərir. Belə şəraitdə qazandığımız nailiyyətlərin möhkəmləndirilməsi və ölkəmizin davamlı inkişafının təmin olunması mühüm əhəmiyyət kəsb edir. Bu yaxınlarda imzalanmış "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması haqqında Prezident Sərəncamı məhz həmin sahədə perspektiv vəzifələrin və onların həlli yollarının aydın müəyyən olunmasına yönəlib.

Azərbaycan dövlətinin gücü, xalqımızın yaradıcı potensialı müəyyənləşdirdiyimiz yeni məqsədlərə çatacağımıza əminlik yaradır. Lakin hələ də qarşımızda həllini tapmayan vəzifə – Ermənistanın

hərbi təcavüzü nəticəsində ölkəmizin pozulmuş ərazi bütövlüyünün bərpası, qaçqın və məcburi köçkünlərin öz doğma ocağına dönməsinin təmin edilməsi dayanır. Şübhə etmirəm ki, biz tezliklə bu çətin problemin də öhdəsindən gələcək, dünyanın gözü qarşısında törədilən işğala və haqsızlığa son qoyacağıq.

Əziz bacı və qardaşlar!

Qələbəyə, ədalətin təntənəsinə gedən yolu qısaltmağın vacib şərtlərindən biri də bizim birliyimiz və həmrəyliyimizdir. Ona görə də bütün azərbaycanlıları daha sıx birliyə, dünyada yaşayan soydaşlarımızın milli və vətəndaş haqlarının müdafiəsi, müstəqil dövlətimizin mənafelərinin ardıcıl qorunması və beynəlxalq nüfuzunun artırılması işinə bundan sonra da öz töhfələrini verməyə çağırıram.

Bu sevimli bayram münasibətilə sizi ürəkdən təbrik edir, hər birinizə cansağlığı və səadət, işlərinizdə uğurlar arzulayıram!

## Prezident İlham Əliyevin Xocalı soyqırımının 20-ci ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciəti

***(23 fevral 2012-ci il)***

Əziz həmvətənlər!

XX əsrin ən dəhşətli və qanlı faciələrindən hesab edilən Xocalı soyqırımının 20 ili tamam olur. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni hərbi birləşmələri keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının iştirakı ilə aylarla mühasirədə saxlanılan Xocalıya hücum edərək, bir gecənin içində şəhəri yerlə yeksan etmişdir. Bu qanlı aksiya zamanı dinc əhaliyə amansızlıqla divan tutulmuş, 613 nəfər qətlə yetirilmiş, meyitlər təhqir olunmuş, 1275 nəfər girov götürülmüşdür. Onlardan 150 nəfərin taleyi hələ də məlum deyil. Qətlə yetirilənlərin 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri ahıl və qoca idi. Hərbi təcavüz nəticəsində 8 ailə tamamilə məhv edilmişdir.

Son iki əsrdə erməni millətçiləri tarixi Azərbaycan torpaqları hesabına mifik "Böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə dəfələrlə xalqımıza qarşı terror, kütləvi qırğın, deportasiya və etnik təmizləmə kimi bəşəri cinayətlər törətmişlər. XX əsrin sonunda dünyanın gözü qarşısında baş verən, qəddarlığı və amansızlığı ilə fərqlənən Xocalı soyqırımı isə bu təcavüzkar siyasətin ən qanlı səhifəsi idi. Bu ağır cinayətə görə siyasi-hüquqi məsuliyyət birbaşa Ermənistanın o zamankı və indiki rəhbərliyinin, Dağlıq Qarabağdakı separatçı rejimin üzərinə düşür.

Azərbaycan dövləti erməni faşistlərinin törətdiyi Xocalı faciəsi haqqındakı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması və beynəlxalq aləmdə soyqırımı kimi tanıdılması istiqamətində iyirmi ilə yaxındır ki, məqsədyönlü və sistemli iş aparır. Son illərdə "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində soydaşlarımızı təmsil edən çoxsaylı vətəndaş cəmiyyəti institutları, gənclər təşkilatları və diaspor qurumları bu sahədə hakimiyyət strukturları ilə birgə səmərəli

fəaliyyət göstərirlər. Artıq yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü ifşa olunur və dünya ictimai fikri Xocalı həqiqətlərini qəbul etməyə başlayır. İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı bu faktı "insanlığa qarşı törədilmiş kütləvi cinayət" hadisəsi kimi tanımış və üzv dövlətləri həmin faciəyə müvafiq siyasi-hüquqi qiymət verməyə çağırmışdır. Pakistan və Meksikanın parlamentlərində bu qətliamın soyqırımı aktı kimi tanınması barədə qətnamə qəbul edilmişdir.

Azərbaycan Respublikası hazırda dünya təhlükəsizlik sistemində və beynəlxalq terrorizmə qarşı mübarizədə mühüm rol oynayır. Harada baş verməsindən asılı olmayaraq, biz hər cür irqi ayrı-seçkiliyi, etnik və dini zəmində düşmənçiliyi, bütövlükdə bəşər cəmiyyətinə qarşı cinayət hesab edirik. Dövlətimiz bundan sonra da Xocalı soyqırımına, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalına obyektiv qiymət verilməsi və tarixi-hüquqi ədalətin bərpası üçün öz fəaliyyətini davam etdirəcək, bütün siyasi və hüquqi vasitələrlə belə hallara qarşı barışmaz mübarizə aparacaqdır.

Xocalı soyqırımını törətməkdə düşmənin məqsədi Azərbaycan xalqını sarsıtmaq, suverenlik və ərazi bütövlüyü uğrunda mübarizədən çəkindirmək və torpaqlarımızı zorla ələ keçirmək olsa da, bu ağır faciə xalqımızı daha da mətinləşdirmiş, qəhrəman oğul və qızlarımızı müqəddəs Vətən və milli dövlətçiliyimiz naminə qətiyyətli və mütəşəkkil mübarizəyə səfərbər etmişdir.

Bu ümummilli hüzn günündə bir daha Xocalı faciəsinin günahsız qurbanlarının əziz xatirəsini ehtiramla yad edir, bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Sizi əmin etmək istəyirəm ki, Xocalı soyqırımını həyata keçirənlər gec-tez ədalət məhkəməsi qarşısında cavab verərək layiqli cəzalarını alacaq, şəhidlərimizin qanı yerdə qalmayacaqdır.

# Azərbaycan Milli Elmlər Akademiyasının Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

***(26 aprel 2012-ci il)***

Azərbaycan Milli Elmlər Akademiyasının Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutu ölkəmizdə tarix üzrə araşdırmaların mərkəzidir.

Respublikamızın dövlət müstəqilliyinin bərpasından sonra tarixi həqiqətlərə obyektiv baxış imkanlarının yaranması xalqımızın keçmişinin müasir dövrün tələblərinə uyğun və azərbaycançılıq məfkurəsi işığında öyrənilməsi baxımından alimlərimiz qarşısında yeni perspektivlər açmaqla mühüm vəzifələr irəli sürmüşdür. İndi dünyanın ən mötəbər kitabxanalarında və əlyazma fondlarında saxlanılan zəngin ədəbiyyatlardan, tarixi mənbələrdən faydalanmaq üçün əlverişli şərait mövcuddur. Məhz bu səbəbdən qədim mənbələrdən istifadə etməyə qadir olan və eləcə də qədim dünya dillərini bilən gənc kadrların yetişdirilməsi zərurəti meydana çıxmışdır.

Azərbaycan Milli Elmlər Akademiyasının Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunun ölkəmizdə tarix elminin inkişafında rolunu nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. 2013–2015-ci illərdə Azərbaycan tarixinə dair tədqiqatların daha da genişləndirilməsi və səmərəliliyinin artırılması üçün Azərbaycan Milli Elmlər Akademiyasına Azərbaycan Respublikasının 2012-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 3,0 (üç) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

3. Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti ayrılmış vəsaitin Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutu tərəfindən təqdim olunmuş plana əsasən aidiyyəti üzrə istifadəsinə nəzarəti təmin etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 26 aprel 2012-ci il***

## 28 May – Respublika Günü münasibətilə rəsmi qəbulda Azərbaycan Prezidenti İlham Əliyevin nitqindən
### *(25 may 2012-ci il)*

... Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisə idi. Xalqımız üçün tarixi hadisə idi. Ona görə ki, Azərbaycan xalqı əsrlər boyu arzuladığı müstəqilliyə qovuşurdu. İslam dünyası üçün də tarixi hadisə idi, ona görə ki, ilk dəfə olaraq müsəlman Şərqində demokratik respublika yaranırdı.

Azərbaycan xalqı və dövləti Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə böyük hörmətlə yanaşır. Bakının mərkəzində İstiqlal Bəyannaməsini imzalayan şəxslərin şərəfinə abidə ucaldılmışdır. Bugünkü müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir.

Əfsuslar olsun ki, müstəqilliyimiz çox qısamüddətli oldu. İki ildən sonra Azərbaycan Demokratik Respublikası süqut etdi.

Ancaq bu iki il ərzində böyük işlər görüldü. Dövlət atributları qəbul edildi. Dövlət bayrağımız təsdiq edildi. Dahi bəstəkarımız Üzeyir Hacıbəylinin əsəri olan Azərbaycan dövlət himni qəbul olundu. Digər istiqamətlərdə müsbət işlər görülmüşdür. Dövlət strukturları yaradılmışdır. Bir sözlə, ölkəyə xas olan bütün atributlar mövcud idi.

Ancaq əfsuslar olsun ki, müəyyən obyektiv və subyektiv səbəblər üzündən müstəqillik uzunmüddətli olmadı və bu iki il ərzində, eyni zamanda xalqımız üçün çox ağır hadisə baş vermişdir. Azərbaycanın qədim torpağı olan İrəvan Ermənistana verilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra biz 70 il Sovet İttifaqının tərkibində yaşamışıq. Bu tarixin də həm müsbət, həm mənfi tərəfləri vardır. Əlbəttə, Azərbaycan müstəqilliyini itirmişdi. Biz azad deyildik, azadlıqdan məhrum edilmişdik. Biz məhdud ideoloji çərçivələr içində yaşamışdıq və Azərbaycan xalqı öz taleyinin sahibi deyildi. Ancaq bununla bərabər, müsbət məqamlar da

kifayət qədər çox olmuşdur. İlk növbədə, Azərbaycanda savadsızlıqla mübarizə müsbət nəticə verdi. Savadsızlıq kimi böyük bəla aradan qaldırıldı. Elmin inkişafına təkan verildi. Azərbaycanda Milli Elmlər Akademiyası yaradılmışdır və bu gün bizim elmi elitamız sovet dövründə yetişmiş insanlardır.

Xüsusilə 70–80-ci illərin əvvəllərində Azərbaycanda sənaye istehsalının inkişafında çox böyük işlər görülmüşdür. Faşizm üzərində Qələbədə Azərbaycan xalqının və Azərbaycanın çox böyük rolu, töhfəsi olmuşdur. 600 mindən çox Azərbaycan vətəndaşı müharibədə iştirak etmişdir. Onlardan yarısı həlak olmuşdur. Azərbaycan neftçiləri ümumi Qələbəmizə əvəzedilməz töhfələr vermişlər. Azərbaycan nefti olmasaydı, müharibənin nəticələri şübhə altına düşə bilərdi.

Bir sözlə, sovet dövründə həm müsbət, həm mənfi məqamlar kifayət qədər çox idi. Ancaq bu dövrün də öz inkişaf mərhələləri var idi. Mən xüsusilə 70-ci illəri qeyd etmək istəyirəm. Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlməsindən sonra respublikada köklü dəyişikliklər baş vermişdir. O vaxta qədər biz geridə qalmış respublika idik. Amma ondan sonra inkişaf başladı. Bu inkişaf nəticəsində böyük sənaye potensialı yaradılmışdır ki, bu gün də müstəqil Azərbaycana xidmət edir.

Səksəninci illərin sonlarından ölkəmizə qarşı, Azərbaycana qarşı etnik təmizləmə siyasəti başlamışdır. Azərbaycan çox böyük problemlərlə üzləşmişdir. Əlbəttə ki, mən bu barədə fikirlərimi dəfələrlə bildirmişəm və bu gün də demək istəyirəm, əgər Heydər Əliyev o vaxt xalqımız üçün həlledici məqamlarda Azərbaycanda olsaydı, bir qarış torpaq işğal altına düşməzdi.

Əfsuslar olsun ki, o illərdə hakimiyyətdəki insanlar vəzifə borcunu ləyaqətlə yerinə yetirə bilməmişlər və beləliklə, Sovet İttifaqının dağılması ərəfəsində Azərbaycan böyük çətinliklərlə üzləşmişdir. Bizə qarşı elan edilməmiş müharibə başlamışdır.

Torpaqlarımız işğal olunmağa başlamışdır. Müstəqilliyimizin ilk illərində, xüsusilə 1992-1993-cü illərdə Şuşa, Laçın və Kəlbəcərin işğalı nəticəsində Dağlıq Qarabağla Ermənistan arasında coğrafi

bağlantı, əlaqə yaranmışdır ki, bu, ondan sonrakı müharibə dövrünə də çox mənfi təsir göstərmişdir.

Bir sözlə, müstəqilliyimizin ilk illəri ölkəmiz üçün çox ağır keçirdi, müstəqil inkişafımız, əslində şübhə altında idi. Əgər xalqın iradəsi ilə 1993-cü ildə Heydər Əliyev yenidən artıq müstəqil Azərbaycanın Prezidenti kimi hakimiyyətə gəlməsəydi, ölkəmizin gələcək taleyi çox böyük fəlakətlərlə üzləşə bilərdi. 1993-cü ildə bütün xoşagəlməz halların qarşısı alındı, ölkədə sabitlik yarandı, inkişaf başlandı. Dövlətçiliyimizin əsasları qoyuldu və ölkəmizin ümumi inkişaf strategiyası müəyyən edildi. Bu strategiya həm xarici, həm də daxili siyasəti əhatə edirdi. Azərbaycanı müasir, demokratik ölkə kimi görmək Ulu Öndərin arzusu idi. Onun fəaliyyəti, səyləri nəticəsində bu gün Azərbaycan, sözün əsl mənasında, inkişafda olan, inkişaf edən müasir, dünyəvi, demokratik ölkədir.

1993–2003-cü illərdə dövlətçiliyimizin əsasları qoyulmuş və möhkəmlənmişdir. O illərdə iqtisadi islahatlar başlamışdır, demokratiya inkişaf etmişdir. Mən Heydər Əliyevin neft strategiyasını xüsusilə qeyd etmək istəyirəm. Əgər o vaxt bu cəsarətli və uzaqgörən addımlar atılmasaydı, bizim bugünkü iqtisadi və siyasi inkişafımız tam başqa istiqamətdə gedə bilərdi. O çətin, ağır şəraitdə, hələ ki, müharibənin dayandırılmasının ilk aylarında atılmış cəsarətli və müdrik addım Azərbaycanın bugünkü uğurlu inkişafını şərtləndirir. Heydər Əliyevin neft strategiyası haqqında kifayət qədər elmi əsərlər, məqalələr, kitablar dərc edilmişdir. Mən bu işin içində olan insan kimi, deyə bilərəm ki, doğrudan, bu, müstəqil Azərbaycan üçün həlledici addımlar idi.

O illərdə Azərbaycan böyük beynəlxalq təşkilatların üzvü olmuşdur. Dünya birliyinə inteqrasiyamız başlamışdır. Biz Azərbaycana böyük həcmdə investisiyaların gətirilməsinə nail ola bilmişik. Bir sözlə, dövlətçiliyimizin möhkəm siyasi, iqtisadi və ideoloji əsasları qoyulmuşdur.

İdeoloji əsaslara gəldikdə, Heydər Əliyev siyasətinin mərkəzində azərbaycançılıq məfkurəsi dayanmışdır. Bu gün də bu ideologiya,

bu fəlsəfə bizim əsas ideoloji dayağımızdır. Eyni zamanda "Müstəqil Azərbaycanın müstəqil siyasəti olmalıdır" şüarı o vaxt da aktual idi, bu gün də aktualdır.

Dünya dəyişir. Dünyada cərəyan edən proseslər müxtəlif istiqamətdə inkişaf edir. Ancaq təbiətin ümumi qanunları dəyişmir.

Müstəqil ölkə kimi Azərbaycan bu gün də müstəqil siyasət aparır. Bu müstəqil siyasət, ilk növbədə, Azərbaycan xalqının iradəsinə əsaslanır. Bir sözlə, 1993–2003-cü illərdə ölkəmiz böyük, uğurlu yol keçmişdir. Biz Ulu Öndərin xatirəsinə həmişə böyük hörmətlə yanaşırıq. Onun siyasi xəttinə sadiqik. Onun qoyduğu yolla gedirik. Deyə bilərəm ki, müstəqilliyə gedən yol yenə də Heydər Əliyevin adı ilə bağlıdır. Hələ Sovet İttifaqı dövründə, ilk dəfə olaraq Naxçıvanda bizim milli üçrəngli bayrağımız dövlət bayrağı elan edildi. Sovet İttifaqının saxlanmasına yönəlmiş referendum Naxçıvanda keçirilmədi və beləliklə, müstəqilliyə aparan ilk ciddi addımlar atıldı.

Biz 20 ildir ki, müstəqil ölkə kimi yaşayırıq. Keçən il müstəqilliyimizin bərpasının 20 illik yubileyini qeyd etmişik. Bu yubileyi böyük uğurlarla qeyd etmişik. İyirmi il tarix üçün böyük dövr deyildir, tarix üçün bir andır. Ancaq bu 20 il ərzində ölkəmiz çox uğurla inkişaf etmişdir.

Heydər Əliyev siyasəti davam etdirilir. Siyasi islahatlar davam etdirilir. Bölgədəki mövqelərimiz böyük dərəcədə möhkəmlənmişdir. Bizim təşəbbüsümüzlə həyata keçirilən layihələr, həm bizim üçün, həm bu layihələrdə bizimlə bərabər iştirak edən ölkələr üçün böyük səmərə verir. Biz demokratiyanın inkişafına çox böyük əhəmiyyət veririk. Hüquqi dövlət quruculuğu prosesi uğurla gedir. Çox ciddi siyasi islahatlar aparılır. Dünyanın bu sahədə böyük təcrübəyə malik olan ölkələrinin müsbət təcrübəsi öyrənilir və Azərbaycanda tətbiq edilir. Bir sözlə, bizim ictimai-siyasi sahədəki fəaliyyətimiz çox müsbətdir, çox uğurludur.

Ölkədə sabit ictimai-siyasi vəziyyət mövcuddur. Xalqla iqtidar arasında vəhdət vardır. Ölkəmizin ümumi inkişaf yolları haqqında cəmiyyətdə fikir ayrılığı yoxdur. Biz bundan sonra da yalnız və

yalnız müstəqilliyimizi gücləndirəcəyik, azərbaycançılıq fəlsəfəsini rəhbər tutacağıq, iqtisadi islahatları davam etdirəcəyik və güclü dövlət yaradacağıq. Bu istiqamətdə artıq böyük addımlar atılmışdır.

Ölkə qarşısında duran əsas vəzifə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllidir. Əfsuslar olsun ki, bu istiqamətdə heç bir nəticə yoxdur. Ermənistan uzun illərdir ki, beynəlxalq hüququ kobudcasına tapdalayır, beynəlxalq hüquq normalarına riayət etmir. Dünyanın mötəbər, aparıcı beynəlxalq təşkilatlarının qətnamələrinə əhəmiyyət vermir, məhəl qoymur.

Nə hərb, nə sülh vəziyyəti davam edir.

Müharibə hələ bitməyib. Müharibənin birinci dövrü başa çatıbdır. Biz hamımız arzu edirik ki, müharibənin ikinci dövrü başlamasın. Ancaq buna nail olmaq üçün Ermənistan beynəlxalq hüquq normalarına əməl etməli və işğal edilmiş torpaqlardan çıxmalıdır. Bildiyiniz kimi, BMT Təhlükəsizlik Şurasının məsələ ilə bağlı dörd qətnaməsi vardır. Bir neçə gün bundan əvvəl Çikaqoda keçirilən NATO zirvə görüşündə yenə bu məsələ ilə bağlı çox əsaslı və ədalətli qətnamə qəbul edilmişdir, münaqişə ölkələrin ərazi bütövlüyü çərçivəsində həll edilməlidir və ərazi bütövlüyü orada yeganə prinsip kimi göstərilmişdir. ATƏT, Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, digər təşkilatlar münaqişə ilə bağlı kifayət qədər çox qətnamələr, qərarlar qəbul etmişdir. Yəni məsələnin hüquqi müstəvidə həlli üçün əlavə heç bir addıma ehtiyac yoxdur.

Ancaq Ermənistanın qeyri-konstruktiv mövqeyi və indiki vəziyyəti uzatmaq cəhdləri hələ imkan vermir ki, məsələ həllini tapsın.

Ancaq mən bu barədə dəfələrlə fikrimi bildirmişəm. Biz hər gün, hər an məsələnin həllinə yaxınlaşırıq. Bizi bu günə yaxınlaşdıran amillər həm siyasi, həm iqtisadi və digər sahələrlə bağlıdır. Siyasi sahədə bu gün Azərbaycan bölgənin lider dövlətidir. Bizim kifayət qədər güclü mövqeyimiz vardır. Dünya birliyində böyük dəstəyimiz vardır. BMT Təhlükəsizlik Şurasına seçilməyimiz dünya birliyinin bizə olan münasibətini göstərir və hazırda Azərbaycan Təhlükəsizlik Şurasına sədrlik edir.

Bölgədə mövqelərimiz möhkəmdir. İqtisadi sahəyə gəldikdə, deyə bilərəm ki, Azərbaycan iqtisadiyyatı Cənubi Qafqaz iqtisadiyyatının 80 faizini təşkil edir və bundan sonrakı illərdə bu rəqəm yalnız artacaqdır. Çünki uzunmüddətli inkişaf strategiyamız bizə imkan verəcək ki, növbəti on il ərzində, – yəni qarşıya belə hədəf qoyulub, – ümumi daxili məhsulumuzu iki dəfə artıraq. Müqayisəedilməz fərq vardır.

Məsələnin həlli üçün, əlbəttə, bütün diplomatik-siyasi imkanlardan istifadə edirik, eyni zamanda hərbi gücümüzü də artırırıq.

Bu istiqamətdə də böyük addımlar atılmışdır. Təkcə onu demək kifayətdir ki, hazırda Azərbaycanın hərbi xərcləri Ermənistanın bütün dövlət xərclərindən 50 faiz çoxdur. Əlbəttə, həm maddi-texniki təchizatımız böyük dərəcədə yaxşılaşır, həm də ordumuzun peşəkarlığı, döyüş qabiliyyəti artır. Bu gün Azərbaycan ordusu dünya miqyasında güclü orduların sırasındadır.

Bundan sonrakı illərdə ordu quruculuğuna göstərilən diqqət daha da çox olacaq və biz daha da güclü orduya malik olacağıq.

Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün digər vacib amillər də mövcuddur və bu amillər də Azərbaycanın mövqeyini gücləndirir. İqtisadi gələcəyimiz. Biz dəqiqliklə bilirik ki, gələcəkdə bizi nələr gözləyir. Çünki gələcəyimizi biz özümüz yaradırıq. Ermənistan isə gələcəyini başqa ölkələrdən verilən, yaxud da veriləcək və ya verilməyəcək ianələrlə bağlayır. Belə olan halda uzunmüddətli inkişafı proqnozlaşdırmaq mümkün deyildir. Uzunmüddətli inkişafa nail olmaq üçün biz nə qədər işləmişik, nə qədər səfərbərlik işləri aparmışıq, proqramlar qəbul etmişik, layihələr icra etmişik. Yəni uzunmüddətli inkişafa nail olmaq üçün bir neçə il vaxt lazımdır. Bu gün yaranmış bu müsbət inersiya bizi qabağa aparır. Ona görə mən tam məsuliyyətlə deyə bilərəm ki, on il bundan sonra Azərbaycanın iqtisadi durumu təxminən necə olacaqdır.

Amma Ermənistana gəldikdə, orada, ümumiyyətlə, iqtisadiyyat iflic vəziyyətindədir və heç bir iqtisadi perspektiv yoxdur.

Ölkədən kütləvi şəkildə miqrasiya baş verir və əlbəttə, bu, məsələnin – yəni Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün öz rolunu oynayacaqdır.

Uzun illər biz yalnız siyasi, iqtisadi, hüquqi, hərbi amilləri nəzərdən keçirirdik. Deyə bilərəm ki, hazırda demoqrafik amillər də nəzərdən keçirilməlidir. Çünki bu amillər nəinki bizim bölgədə, artıq dünyada ön plana çıxır. Demoqrafik inkişaf, bəzi ölkələrdə müsbət, bəzi ölkələrdə tənəzzülə uğrayan demoqrafik proseslər, əlbəttə ki, bu gün təhlil mövzusudur. Azərbaycanda demoqrafik vəziyyət də çox müsbətdir. Bizim əhalimiz artır, 9 milyon 200 mindən çoxdur. Ermənistanda isə əksinə, əhali azalır. Yəni mən heç şübhə etmirəm ki, biz suverenliyimizi, ərazi bütövlüyümüzü istənilən yolla bərpa edəcəyik və vahid Azərbaycan uğurlu inkişafa davam edəcəkdir.

Bir daha demək istəyirəm ki, bu günə qədər görülən işlər belə deməyə əsas verir. Çünki 20 illik tariximiz, – əlbəttə, birinci iki ili istisna etmək şərti ilə, – göstərir ki, Azərbaycan xalqı istedadlı xalqdır. Azərbaycan xalqı zəhmətkeş xalqdır. Azərbaycan xalqı bu tarixi şansı əldən verməyib. Müstəqillik tarixi bir şans idi. Çünki bizdən əvvəl əsrlər boyu nəsillər gəlirdi-gedirdi, əcdadlarımız müstəqillik arzuları ilə yaşayırdı. Amma bu müstəqilliyi görmək, müstəqilliyi möhkəmləndirmək, müstəqilliyi inkişaf etdirmək bizim nəslə nəsib oldu. Bu, tarixi bir şans idi və Azərbaycan xalqı bu şansı nəinki əldən vermədi, bu müstəqillik dövründən maksimum səmərə ilə istifadə etdi.

… Xarici siyasətlə bağlı. Bundan sonra biz, ənənəvi olaraq, müstəqil xarici siyasəti davam etdirəcəyik. Bu siyasət bizə böyük uğurlar gətirmişdir. Bəzi hallarda bəzi yerli və xarici təhlilçilər əvvəlki dövrdə Azərbaycanın xarici siyasəti ilə bağlı qeyri-real fikirlər səsləndirirdilər. Ancaq həyat onu göstərdi ki, bizim xarici siyasətimiz yeganə düzgün siyasətdir. Əgər belə olmasaydı, bizim gənc dövlətimiz 155 ölkənin etimadını qazanmazdı. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına seçilməyimiz xarici siyasətimizin nə qədər düzgün olduğunun bariz nümunəsidir.

Bundan sonra da biz bu siyasəti davam etdirəcəyik. Xüsusilə üstünlüyü ikitərəfli əlaqələrə verəcəyik. Bu gün də bu, bizim üçün prioritetdir. Qonşularla münasibətlər xüsusi əhəmiyyət daşıyır. Çünki biz bu bölgədə yaşayırıq və əsrlər boyu bu qonşuluqda yaşamışıq,

bu qonşuluqda yaşayacağıq. Hər bir ölkə, o cümlədən Azərbaycan çalışmalıdır ki, qonşularla yaxşı münasibətləri olsun. Ancaq, əlbəttə ki, beynəlxalq hüquq prinsipləri əsasında, bir-birinin işinə qarışmamaq şərti ilə və qarışlıqlı hörmət və etimad əsasında.

Bildiyiniz kimi, biz bu yaxınlarda Qoşulmama Hərəkatına üzv olduq. Bu da böyük təşkilatdır. Bir çox ölkələri əhatə edən təşkilatdır. Bu təşkilat çərçivəsində biz fəaliyyətimizi fəallaşdıracağıq. Bu təşkilatda Azərbaycana qarşı böyük rəğbət, inam vardır. Biz bu vəziyyətdən istifadə edib daha da çox dostlar qazanacağıq.

Azərbaycan xalqı və Azərbaycan islam dünyasının ayrılmaz parçasıdır. Bu, bizim tariximizdir, bu günümüzdür, ənənəmizdir, milli identifikasiyamızdır. Bizim milli dəyərlərimiz islam dəyərləri əsasında formalaşıbdır. Biz milli dəyərlərimizə çox sadiqik və bu dəyərlər bizim üçün hər şeydən üstündür. Dəfələrlə demişəm və şadam ki, gənc nəsil də milli ruhda böyüyür, milli ruhda tərbiyə alır. Biz Azərbaycan xalqının zəngin milli mənəvi dəyərlərini, ənənələrini qorumalıyıq, saxlamalıyıq, təbliğ etməliyik. Hər bir Azərbaycan gənci, hər bir Azərbaycan uşağı bu əhval-ruhiyyədə böyüməlidir.

İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində bizim çox fəal rolumuz vardır, böyük dəstəyə malikik. Beynəlxalq təşkilatlarda, demək olar ki, müsəlman ölkələrinin mütləq əksəriyyəti Azərbaycanın mövqeyini, Azərbaycan dövlətini birmənalı şəkildə dəstəkləyir.

Bildiyiniz kimi, biz də islam həmrəyliyinin gücləndirilməsi üçün əməli addımlar atırıq. Bakıda keçirilən müxtəlif tədbirlər bunun əyani göstəricisidir.

Eyni zamanda Azərbaycan Avropa strukturlarının, həmçinin Avropa Şurasının üzvüdür, bu təşkilat çərçivəsində fəaliyyət göstərir və əlbəttə ki, bu təşkilat çərçivəsində fəaliyyətimiz davam etdiriləcəkdir. Bütövlükdə, biz bütün ölkələrlə qarşılıqlı hörmət və etimad əsasında bərabərhüquqlu münasibətlər qururuq. Mən çox şadam ki, işğalçı Ermənistan istisna olmaqla, heç bir ölkə ilə ikitərəfli formatda heç bir problemimiz yoxdur. Hökumətlərarası əlaqələr çox yaxşıdır, müsbətdir. Yenə də deyirəm, bizim BMT Təhlükəsizlik Şurasına

seçilməyimiz bir çox ölkələrdə Azərbaycan haqqında yeni bir təsəvvürün yaradılmasına gətirib çıxardı. Çünki 155 ölkənin dəstəyi ilə bu mötəbər, dünyanın bir nömrəli təşkilatına seçilməyimiz, əlbəttə ki, böyük nəticədir. O ki qaldı beynəlxalq təşkilatlara, biz üzv olduğumuz beynəlxalq təşkilatlar qarşısında öhdəliklər götürmüşük. Bu öhdəlikləri vaxtında yerinə yetiririk. Üzv olmadığımız təşkilatlar qarşısında bizim heç bir öhdəliyimiz yoxdur, ola da bilməz.

Çünki, sadəcə, məntiq onu göstərir ki, bir halda sən bu təşkilatın üzvü deyilsən, deməli, bu təşkilat qarşısında heç bir öhdəlik daşımırsan.

Bundan sonra da xarici siyasətimiz həmişə olduğu kimi açıq, xoşniyyətli olacaqdır. Ancaq, əlbəttə ki, müstəqil siyasətimiz bundan sonra daha da güclənəcək və biz bölgədə gedən proseslərdə daha da fəal olacağıq. Dünyada gedən proseslərdə də rolumuz artır. Hazırda biz yeni qitələri siyasi, diplomatik cəhətdən özümüz üçün kəşf edirik. Latın Amerikası ilə bizim indi çox gözəl münasibətlərimiz formalaşır. Deyə bilərəm ki, Xocalı faciəsini soyqırımı kimi tanıyan üç ölkədən ikisi Latın Amerikası ölkəsidir. Meksika, Kolumbiya və Pakistan bizim qardaş ölkələrimizdir. Afrika qitəsindən Azərbaycana çox böyük maraq vardır. Xüsusilə BMT Təhlükəsizlik Şurasına üzv olandan sonra biz bunu görürük. Bu kontinent bizim üçün də çox maraqlıdır.

Yəni biz xarici siyasətimizi artıq daha da genişləndirəcəyik, iqtisadi terminlə ifadə etsək, şaxələndirəcəyik. Beləliklə, ölkəmizin dünyadakı rolunu bundan sonra böyük dərəcədə artıracağıq.

… Bütövlükdə, Azərbaycanın 20 illik tarixi göstərir ki, bu 20 il ərzində çox şey etmək olar. Bu gün xoş niyyətlə Bakıya gələn hər bir qonaq Bakının gözəlliyinə heyran olur. Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Bu barədə dəfələrlə demişəm və hər dəfə də bunu böyük qürur hissi ilə deyirəm. Bəlkə də gün gələcək deyəcəyik ki, Bakı dünyanın ən gözəl şəhəridir. Bizim qonaqlarımız, – xüsusilə, bu günlərdə çoxsaylı qonaqlarımız vardır, – əsas iki məqamı – Bakının təkrarolunmaz gözəlliyini və insanların xoş ovqatda olmasını, qo-

naqlara olan mehriban münasibətini qeyd edirlər. Bu iki amil bir-biri ilə bağlıdır. Vaxt var idi ki, bizim dənizkənarı bulvarda heç kimi görmək mümkün deyildi. Dağılmış yollar, sındırılmış işıq dirəkləri, çürümüş dəmirlər və s. Bu gün on minlərlə insan asudə vaxtını Bakı bulvarında keçirir. Bu gözəlliyi, inkişafı görərkən, haqlı olaraq, qürur hissi keçirir ki, Azərbaycan vətəndaşıdır.

Bizim bu illər ərzindəki ən böyük uğurumuz ondan ibarətdir ki, müstəqillik yolundan dönməmişik. Müstəqillik, sadəcə olaraq, dövlət atributları deyildir. Müstəqillik o deməkdir ki, ölkə müstəqil siyasət apara bilir, yoxsa yox. Xüsusilə böyük olmayan ölkələr üçün bu, daha aktualdır. Xüsusilə böyük güc mərkəzlərinin maraqlarının kəsişdiyi bir coğrafi məkanda yerləşən ölkələr üçün bu aktualdır. Bu məkanda, bu qonşuluqda təbii sərvətlərlə zəngin olan Azərbaycan müstəqil siyasət aparır və aparacaqdır. Bizim təcrübəmiz onu göstərir ki, bu mümkündür.

Əgər sənin ləyaqətli siyasətin, kifayət qədər cəsarətin və ölkə üçün, ölkənin gələcəyi üçün aydın strategiyan varsa, bunu etmək mümkündür.

Bu gün Azərbaycan müstəqil ölkə kimi inkişaf edir. Bizim inkişafımızdan, əlbəttə ki, Azərbaycan vətəndaşları, dostlarımız bəhrələnir. İyirmi illik tariximiz bir daha onu göstərir ki, biz düz yoldayıq. Bundan sonra da Azərbaycanın müstəqilliyi əbədi olacaqdır, bundan sonra da Azərbaycan yalnız və yalnız inkişaf yolu ilə gedəcəkdir. Biz hamımız elə etməliyik ki, bu yol işıqlı, nurlu, açıq olsun.

## 28 May - Respublika Günü münasibətilə rəsmi qəbulda AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru Yaqub Mahmudovun çıxışı

***(25 may 2012-ci il)***

- Hörmətli cənab Prezident!

Xalqımız üçün son dərəcə əziz olan Respublika Gününün qeyd olunduğu bu təntənəli mərasimdə bir qrup tarixçi alimə, o cümlədən də mənə, Dövlət Mükafatının təqdim olunması Sizin ölkənizdə elmin inkişafına, akademiyamıza, Tarix İnstitutuna göstərdiyiniz gündəlik qayğının daha bir parlaq təzahürüdür. Bu ali mükafatı zəmanəmizin böyük dövlət xadimi olan Sizin əlinizdən aldığımız üçün böyük qürur hissi keçirir, unudulmaz anlar yaşayırıq.

Zati-aliləri, Sizin müdrik, uzaqgörən tövsiyələriniz və konkret tapşırıqlarınızla Tarix İnstitutunda əsaslı islahatlar aparılır. Milli tariximiz saxtalaşdırmalardan, təhriflərdən təmizlənir, Vətənimizin tarixi yenidən yazılır, həqiqətdə olduğu kimi yazılır. Dünyanın müxtəlif ölkələrindən qiymətli ilk mənbələri, çoxsaylı arxiv sənədlərini institutumuza gətirib nəşr etdiririk. Sizin göstərdiyiniz böyük dövlət qayğısının nəticəsidir ki, yaxın keçmişdə adının belə çəkilməsi yasaq olunan Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə dair ikicildlik ensiklopediyamız nəşr edildi. Məhz Sizə güvənərək, Sizə arxalanaraq tarixdə ilk dəfə olaraq Azərbaycanımızın Milli Tarix Atlasını hazırlayıb nəşr etdirdik. Arxamızda Siz olduğunuz üçün son illərdə tariximizə yeni baxış nümunəsi olan onlarla fundamental əsər yazıldı. Zati-alinizin birbaşa tapşırığı ilə bu gün Dövlət mükafatına layiq görülən "Qarabağ: real tarix, faktlar, sənədlər", "Naxçıvan: tarixi və abidələri", "İrəvan xanlığının tarixi" fundamental tədqiqatlar yazıldı və xarici dillərə tərcümə olunaraq dünya ölkələrində yayıldı. İndi bizim əsərlərimiz Azərbaycan ilə yanaşı, dünyanın onlarla ölkəsində, şəhərində nəşr olunur.

Hörmətli cənab Prezident, Sizin yolunuzla gedərək, biz Azərbaycanımızı tarix elminin regional inkişaf mərkəzinə çevirməyə çalışırıq. Lap yaxın gələcəkdə biz buna nail olacağıq.

Mən bu təntənəli mərasimdə bəyan etməyi özümə borc bilirəm ki, bu gün Milli Elmlər Akademiyasının Tarix İnstitutunda aparılan köklü islahatlar, bütün fundamental araşdırmalar, milli tariximizin dirçəldilməsi prosesi bilavasitə Prezident İlham Əliyevin rəhbərliyi və tapşırıqları ilə həyata keçirilir. Bir faktı isə xüsusi olaraq vurğulamaq istəyirəm: Azərbaycan xalqının qatili və soyqırımı cəlladı olan Stepan Şaumyanın və onun əlaltılarının məzarlarının paytaxtımızın mərkəzindən ümumşəhər qəbiristanlığına köçürülməsi ilə dövlətimizin başçısı milli tariximiz qarşısında çox böyük xidmət göstərdi. Çünki Prezidentin bu cəsarətli addımı nəticəsində həmin məzarlıqda 26 deyil, 23 cəsədin qalıqları aşkar olundu və bununla illərlə xalqımıza yalan satan bolşevik-daşnak saxtakarlığının üstü açıldı. Məlum oldu ki, Stepan Şaumyan və Tatevos Amiryan kimi soyqırımı qatillərinin cəsədləri həmin məzarlıqda yoxdur. Prezidentimizin tarix qarşısındakı bu xidməti, eyni zamanda, bugünkü təntənəli mərasimin həsr olunduğu Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə də dərin ehtiram nümunəsidir.

Dövlətimizin başçısının tövsiyə və tapşırıqları ilə əldə olunan ən mühüm və təkzibolunmaz elmi nəticələrdən biri də budur ki, erməni toplumunun Azərbaycan torpaqlarına vur-tut 180 il bundan əvvəl köçürülüb gətirildiyi qəti olaraq ilk mənbələrdən sübut olundu.

Möhtərəm Prezident, cənab Ali Baş Komandan!

Bu gün Azərbaycan tarixçiləri Sizin çağırışınız, tapşırığınız və tövsiyələrinizlə erməni təcavüzkarlarına qarşı informasiya müharibəsi aparır. Bizim hamımız, o cümlədən bu gün təltif olunan tarixçilər, Sizin əsgərlərinizik. Sizin çağırışınızla biz tariximizi saxtalaşdıranlara qarşı açıq döyüşə girmişik. Siz bütün çıxışlarınızda əməyimizə, mübarizəmizə yüksək qiymət verirsiniz. Bu günlərdə Tarix İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi barədə Verdiyiniz tarixi Sərəncam imkanlarımızı genişləndirdi, gücümüzü daha

da artırdı. Fürsətdən istifadə edərək, yüksək qayğıya görə tarixçi alimlərin ən dərin minnətdarlığını da Zati-alinizə yetirirəm. Əmin ola bilərsiniz ki, lap yaxın gələcəkdə Sizə informasiya müharibəsindəki uğurlarımız barədə yeni-yeni qələbə raportları verəcəyik. Biz buna əminik. Çünki arxamızda Sizin kimi müdrik, müdrik olduğu qədər də cəsarətli və qətiyyətli Ali Baş Komandan durub. Şübhə etmirik ki, artıq bütün dünyada qurucu Prezident kimi şöhrət qazanan və Azərbaycan tarixinin "Qurucu İlham" səhifələrini yazan Siz, lap yaxın gələcəkdə Qarabağımızı düşmən tapdağından azad edərək Azərbaycan tarixinə xilaskar Prezident kimi daxil olacaqsınız.

Əziz Prezidentimiz, bu çətin dünyada apardığınız müqəddəs Vətən mücadiləsində Sizin həmkarlarınız olan tarixçilər hər zaman yanınızda olacaqlar. Azərbaycan elminə, alimlərimizə, akademiyamıza göstərdiyiniz gündəlik qayğıya və layiq gördüyünüz mükafata görə çox sağ olun. Sizə çox minnətdarıq

## İlham Əliyev Saatlıda Tarix-Diyarşünaslıq Muzeyi və Rəsm Qalereyasının yeni binasının açılışında iştirak etmişdir

***(27 oktyabr 2012-ci il)***

Prezident İlham Əliyev Saatlıda Tarix-Diyarşünaslıq Muzeyi və Rəsm Qalereyasının yeni binasının açılışında iştirak etmişdir.

Məlumat verildi ki, ölkəmizin qədim və zəngin maddi-mədəniyyət abidələrinin qorunub saxlanması və gələcək nəsillərə ötürülməsi mühüm əhəmiyyət kəsb edir. Bu istiqamətdə tarix-diyarşünaslıq muzeylərinin fəaliyyəti xüsusi məna daşıyır. Saatlı rayon Tarix-Diyarşünaslıq Muzeyi də qədim maddi-mədəniyyət abidələrinin qorunmasına xidmət edir.

Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Bildirildi ki, Heydər Əliyev parkının ərazisində tikilən, ümumi sahəsi 917 kvadratmetr olan bina xüsusi dizaynla inşa olunmuşdur. Binanın həyətində qədim dövrdə Saatlı ərazisində yaşamış insanların məişət əşyalarından və əmək fəaliyyətindən bəhs edən guşələr qurulmuşdur. İkimərtəbəli binanın digər xüsusiyyəti isə burada Rəsm Qalereyasının yaradılmasıdır. Binanın ikinci mərtəbəsindəki qalereya bütün lazımi avadanlıqla təchiz olunmuşdur.

Diqqətə çatdırıldı ki, yeni bina bütün lazımi kommunikasiya xətləri və müvafiq avadanlıqla təchiz olunmuşdur. Binanın foyesində Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin rayona səfərlərindən bəhs edən fotoguşələr yaradılmışdır.

Birinci mərtəbədə yerləşən Tarix-Diyarşünaslıq Muzeyi arxeologiya, etnoqrafiya, mədəniyyət, ideoloji və təsviri sənət bölmələrindən ibarətdir. Arxeologiya bölməsində Saatlı ərazisində tapılan və eramızdan əvvəl III minilliyə aid müxtəlif məişət əşyaları nümayiş olunur. Burada Kür-Araz mədəniyyətindən başlayaraq orta əsrlər dövrünədək istifadə olunan məişət əşyaları da sərgilənir. Müxtəlif tarixi formasiyalar zamanı əhali tərəfindən istifadə edilən pullardan ibarət numizmatika guşəsi də böyük maraq doğurur.

Muzeyin etnoqrafiya bölməsi ilə tanış olan Prezident İlham Əliyevə məlumat verildi ki, burada XIX-XX əsrlərdə saatlılıların həyat tərzini və məişətini əks etdirən eksponatlar yer almışdır. Dəmirçi və dulusçu emalatxanalarının, evlərin kiçik maketləri əhalinin qədim dövrlərdə yaşayış tərzini əks etdirir. Mədəniyyət bölməsində müxtəlif sənət əsərləri, xüsusilə də xalçaçılığa aid nümunələr, bəzək əşyaları sərgilənir. İdeoloji bölmədə isə Azərbaycan tarixi, görkəmli şəxsiyyətlər və dövlətçiliyimizə həsr olunan filmlər nümayiş olunur. Muzeydə eksponatların bərpası və qorunması məqsədilə ayrıca fond-bərpa otaqları da yaradılmışdır.

Binanın ikinci mərtəbəsində yerləşən Rəsm Qalereyasına baxan dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, burada geniş məkanda müxtəlif janrlarda çəkilmiş rəsm əsərləri nümayiş etdirilir. Əsasən, yerli rəssamların əsərlərinin sərgiləndiyi Rəsm Qalereyasında heykəltəraşlıq nümunələri də yer almışdır. Qalereyada ayrıca konfrans zalı, fond və digər texniki otaqlar da vardır.

Yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.

## İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikindən

***(1 yanvar 2013-cü il)***

... 2012-ci ildə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində çox ciddi siyasi hadisələr baş vermişdir. Mən, ilk növbədə, bu məsələ ilə məşğul olan Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçılarının bəyanatını qeyd etmək istəyirəm. O bəyanatda deyilmişdir ki, status-kvo qəbuledilməzdir. Yəni bu, onu göstərir ki, artıq heç kim, hətta bu məsələ ilə məşğul olan vasitəçilər, funksiyaları öz üzərinə götürən ölkələr də bu işğalla, bu vəziyyətlə barışmaq istəmir. Status-kvonun dəyişdirilməsi işğala son qoyulması deməkdir.

Eyni zamanda 2012-ci ildə Azərbaycanın qoşulduğu Qoşulmama Hərəkatının zirvə toplantısında Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı çox tutarlı və ədalətli qətnamə qəbul edilmişdir. Həmin qətnamədə deyilir ki, bu münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsindəöz həllini tapmalıdır.

Eyni zamanda, 2012-ci ildə NATO-nun zirvə görüşündə də qəbul edilmiş qətnamədə Ermənistan–Azərbaycan münaqişəsinin ərazi bütövlüyü əsasında həll edilməsi haqqında məsələ qoyulmuşdur. Yəni Qoşulmama Hərəkatında və NATO-da birləşən ölkələr dünya birliyinin mütləq əksəriyyətini təşkil edir və bu ölkələrin mövqeyi birmənalıdır: Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Münaqişənin başqa həlli yoxdur.

Onu da qeyd etmək və bir daha demək istəyirəm ki, Azərbaycan heç vaxt öz əzəli torpağında ikinci qondarma erməni dövlətinin yaradılmasına imkan verməyəcəkdir. Bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında yaranmışdır. Bu tarixi biz yaxşı bilirik. İrəvan xanlığı, Zəngəzur, Göyçə mahalı – bütün bunlar bizim tarixi torpaqlarımızdır. Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılması heç vaxt mümkün olmayacaqdır. Azərbaycan heç vaxt buna

imkan verməyəcəkdir. Dağlıq Qarabağa heç vaxt müstəqillik verilməyəcəkdir. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir və bu gün işğal altında olan bütün şəhərlərdə, o cümlədən Şuşada, Xankəndidə Azərbaycan bayrağı dalğalanacaqdır.

... 2012-ci ildə humanitar sahədə böyük işlər görülmüşdür. Bakı sivilizasiyalararası dialoqun təşkili, genişləndirilməsi üçün artıq dünya mərkəzinə çevrilmişdir. Uğurla keçirilmiş İkinci Beynəlxalq Humanitar Forum, onun nəticələri, bu sahədə əldə edilmiş nailiyyətlər ölkəmizi həm dünyaya təqdim edir, eyni zamanda bizim təcrübəmiz, mən əminəm ki, başqa ölkələrdə öyrənilir. Çünki Azərbaycanda bütün millətlərin, bütün dinlərin nümayəndələri bir ailə kimi, mehribanlıq şəraitində yaşayırlar və yaşayacaqlar. Milli və dini dözümlülük, tolerantlıq Azərbaycanın böyük sərvətidir.

... Bu gün biz, eyni zamanda Dünya Azərbaycanlılarının Həmrəylik Gününü qeyd edirik. Bu fürsətdən istifadə edərək dünyada yaşayan bütün azərbaycanlıları səmimi-qəlbdən salamlayıram, onları təbrik edirəm. Onlara bildirmək istəyirəm, fəxr edə bilərlər ki, bu gün dünyada müstəqil Azərbaycan dövləti vardır. O Azərbaycan dövləti ki, bu gün dünyanın bir nömrəli beynəlxalq qurumunun – BMT Təhlükəsizlik Şurasının üzvüdür. O dövlətdir ki, hətta böhranlı illərdə öz iqtisadi inkişafını davam etdirmiş, öz daxili resursları üzərində güclü iqtisadi zəmin yaratmış və gələcəyə böyük ümidlərlə, böyük nikbinliklə baxır.

# Əlimərdan bəy Topçubaşovun 150 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

***(25 fevral 2013-cü il)***

2013-cü ilin may ayında Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sədri Əlimərdan bəy Ələkbər bəy oğlu Topçubaşovun anadan olmasının 150 illiyi tamam olur.

Şərq mədəniyyətinin xüsusiyyətlərini və Avropanın demokratik dəyərlərini üzvi şəkildə birləşdirməklə xalqımızın tarixi nailiyyəti kimi meydana çıxmış Azərbaycan Xalq Cümhuriyyətinin təşəkkül tapmasında, onun beynəlxalq aləmin subyekti olaraq dünya dövlətləri tərəfindən tanınması və diplomatik münasibətlərinin qurulmasında böyük xidmətlər göstərmiş görkəmli ictimai-siyasi xadim Əlimərdan bəy Topçubaşovun 150 illik yubileyinin keçirilməsini təmin etmək məqsədilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və digər aidiyyəti qurumlarla birlikdə Əlimərdan bəy Topçubaşovun 150 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham ƏLİYEV***
***Bakı şəhəri, 25 fevral 2013-cü il***
***«Azərbaycan» qəzetində dərc edilmişdir***
***(26 fevral 2013-cü il, № 44)***

# Bakıda Novruz bayramı münasibətilə keçirilən ümumxalq şənliyiyində Azərbaycan Prezidenti İlham Əliyevin nitqindən

***(19 mart 2013-cü il)***

... Ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, əfsuslar ki, öz həllini tapmır. Bunun əsas səbəbi Ermənistanın qeyri-konstruktiv mövqeyidir və vasitəçilərin bu məsələyə, bir növ, biganə münasibətidir. Baxmayaraq ki, kifayət qədər güclü bəyanatlar səslənmişdir. Minsk qrupuna həmsədrlik edən ölkələrin dövlət başçılarının məlum bəyanatı hamımızın yadındadır ki, status-kvo qəbuledilməzdir, status-kvo dəyişdirilməlidir. Ancaq, əslində heç bir addım atılmır. Ermənistan, əlbəttə, maraqlıdır ki, bu vəziyyəti – nə hərb, nə sülh vəziyyətini nə qədər mümkündür saxlasın. Ancaq bu bizi qane edə bilməz. Azərbaycan bütün imkanlardan istifadə edir və edəcək ki, danışıqlar prosesində tərəqqi, inkişaf olsun və məsələ tezliklə həll edilsin, Azərbaycanın ərazi bütövlüyü bərpa edilsin. Ancaq, əlbəttə ki, bu məsələnin həlli istiqamətində atılan bütün addımlar beynəlxalq hüquq normalarına əsaslanmalıdır. Bundan kənarda heç bir addım atıla bilməz. Beynəlxalq hüquq normaları, beynəlxalq təşkilatların qərar və qətnamələri diktə edir ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış ərazi bütövlüyü qeyd-şərtsiz bərpa edilməlidir. Biz bütün imkanlardan istifadə edərək ordu quruculuğu prosesində, diplomatik sahədə atılan addımlar, iqtisadi məsələlər və digər regional təşəbbüslər sayəsində mövqeyimizi gücləndiririk.

Azərbaycan ildən-ilə güclənir, Ermənistan isə ildən-ilə zəifləyir. Ermənistandan, onların statistik göstəricilərinə görə ildə ən azı 100 min adam gedir, ölkəni tərk edir. Əlbəttə, əgər biz bu məsələyə tarixi cəhətdən yanaşsaq, heç kimdə şübhə olmaz ki, bu məsələ ədalətli həllini tapacaqdır və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Çünki inkişaf onu göstərir ki, bu məsələnin başqa həlli ola bilməz.

Heç vaxt Azərbaycan bu vəziyyətlə barışmayacaqdır. Heç vaxt Azərbaycan öz torpaqlarında ikinci qondarma erməni dövlətinin yaradılmasına imkan verməyəcəkdir. Erməni dövləti tarixi Azərbaycan torpaqlarında yaradılmışdır. İrəvan xanlığı, Zəngəzur, Göyçə – bütün bunlar bizim tarixi torpaqlarımızdır. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən İrəvanı Ermənistana bağışlamaq da heç kimin yadından çıxmayıbdır. Yəni bu, tarixi həqiqətdir. İkinci dəfə Azərbaycan torpağında qondarma erməni dövləti yaradıla bilməz. Bu, heç vaxt olmayacaqdır. Ancaq biz çalışırıq və çalışmalıyıq ki, tezliklə məsələni həll edək. Məsələnin bizim xeyrimizə həll edilməsinə mənim heç bir şübhəm yoxdur. Sadəcə olaraq, nə vaxt və hansı yollarla?! Hələ ki, biz diplomatik yollara üstünlük veririk. Bununla bərabər, öz gücümüzü artırırıq. Ermənistanı bütün regional proqramlardan kənarda saxlayarıq. Onları bütün layihələrdən təcrid etmişik. Bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Azərbaycanla rəqabət aparmaq üçün onların nə imkanı, nə insan resursları, nə iradəsi, nə də gücü vardır. Azərbaycan bu gün güclü dövlətdir. Həm siyasi cəhətdən, həm iqtisadi cəhətdən, bütün cəhətlərdən. Azərbaycan öz gücünü göstərir və göstərəcəkdir.

# Yeni Azərbaycan Partiyasının V qurultayında İlham Əliyevin nitqindən

***(7 iyun 2013-cü il)***

... Yeni Azərbaycan Partiyası Azərbaycanın aparıcı siyasi qüvvəsidir, Cənubi Qafqazın ən böyük partiyasıdır. Bizim partiyamız 20 ildir ki, iqtidardadır. Bir həftədən sonra biz Qurtuluş Gününü qeyd edəcəyik. Qurtuluş Günü müasir Azərbaycan tarixində bir dönüş nöqtəsi idi. Bu 20 il ərzində partiyamız bütün seçkilərdə böyük üstünlüklə qələbə qazanmışdır. Yeni Azərbaycan Partiyası sözün, əsl mənasında, xalq partiyasıdır. Xalqımızın bütün təbəqələri, bütün yaş qrupları partiyamızda birləşir və ölkəmizin uğurlu inkişafı üçün öz fəaliyyətini göstərirlər.

… 1992-ci ildə Yeni Azərbaycan Partiyasının yaradılması tarixi hadisə idi. Çünki hamımız yaxşı xatırlayırıq ki, müstəqilliyimizin ilk illəri ölkəmiz üçün çox ağır keçmişdir. O vaxtkı iqtidar ölkəni uçuruma aparırdı. Sərişdəsiz, bacarıqsız, biliksiz insanlar, demək olar ki, Azərbaycanın dövlət müstəqilliyinə böyük zərbə vurmuşlar. Ona görə Heydər Əliyevin ətrafında birləşən insanlar, ilk növbədə, çox böyük cəsarət göstərmişlər. Çünki o vaxtkı iqtidar imkan vermədi ki, hətta partiyanın təsis qurultayı Bakıda keçirilsin. Digər tərəfdən, onlarda olan vətən sevgisi onların bu hərəkətlərini şərtləndirdi.

Heydər Əliyevin 1970-ci, 1980-ci illərdə də gördüyü işlər, Azərbaycanın inkişafına verdiyi töhfələr və Sovet İttifaqının dağılma ərəfəsindəki fəaliyyəti, cəsarətli addımlar, qanlı 20 Yanvar faciəsinin pislənməsi, Kommunist Partiyası sıralarının tərk edilməsi, Naxçıvanda Azərbaycan Xalq Cümhuriyyətinin bayrağının dövlət bayrağı kimi təsis edilməsi, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi, Sovet İttifaqının saxlanmasına dair referendumun keçirilməməsi – bütün bu amillər, əlbəttə ki, xalqda Heydər Əliyevə olan məhəbbəti birə on artırırdı. 1992-ci ilin noyabrında Yeni Azərbaycan Partiyasının yaradılması xalqda böyük ümidlər yaratdı

ki, nəhayət, xoşagəlməz hallara son qoyulacaq, nəhayət, Azərbaycanda çox ciddi siyasi qüvvə yaranır, nəhayət, Azərbaycanda siyasi sistem yaranır.

Çünki Yeni Azərbaycan Partiyasının yaradılması, eyni zamanda müasir siyasi sistemin yaranması deməkdir. Çünki o vaxta qədər ölkədə fəaliyyət göstərən müxtəlif siyasi qruplaşmalar siyasi mübarizəni, faktiki olaraq, çox primitiv səviyyədə aparmağa cəhd etmişlər. Siyasi sistem yox idi. Yeni Azərbaycan Partiyasının yaradılması siyasi sistemin yaradılması deməkdir. Yeni Azərbaycan Partiyasının müxalifət partiyası kimi yaradılması, eyni zamanda müxalifət necə fəaliyyət göstərməlidir, onu da çox açıq-aydın ortaya qoymuşdur.

Yeni Azərbaycan Partiyası o vaxtkı antimilli xəyanətkar iqtidara müxalifətdə idi. Yeni Azərbaycan Partiyasının əsas amalı dövlətçilik, müstəqillik, inkişaf, təhlükəsizlik idi. Partiyamız iqtidara gələndən sonra bu ideyalar, bu amillər Azərbaycanda reallığa çevrilmişdir.

Təsadüfi deyildir ki, partiyanın yaranmasından bir il keçməmiş Azərbaycan xalqı öz sözünü demişdir: antimilli qüvvələrin hakimiyyətdən getməsinə nail olmuşdur və Ulu Öndər Heydər Əliyevə müraciət edib onu hakimiyyətə dəvət etmişdir.

Partiyamızın tarixi müstəqillik tarixi ilə də, demək olar ki, üst-üstə düşür. Ulu Öndər Heydər Əliyevin Azərbaycanda Prezident kimi fəaliyyəti də Yeni Azərbaycan Partiyasının güclü dəstəyi ilə tamamlanırdı. Heydər Əliyev və Yeni Azərbaycan Partiyası bizim siyasi xəttimizdir. Heydər Əliyev Yeni Azərbaycan Partiyasının, müstəqil Azərbaycan dövlətinin qurucusudur.

1992-ci ildə bu tarixi hadisə, bir daha demək istəyirəm ki, bugünkü Azərbaycan reallıqlarını, faktiki olaraq, şərtləndirmişdir. Çünki 1993-cü ildən başlayaraq ölkədə bütün xoşagəlməz hallara son qoyuldu, sabitlik yarandı, vətəndaş müharibəsinə son qoyuldu, inkişaf, sabitlik, quruculuq, dövlətçilik dövrü başlandı. Yeni Azərbaycan Partiyasının əsas ideoloji dayaqları müstəqillikdir, azərbaycançılıqdır, müasirlikdir, inkişafdır, sosial rifahdır, iqtisadi və siyasi islahatlardır.

Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan on il ərzində böyük və şərəfli yol keçmişdir. 1993–2003-cü illər ölkəmizdə sabitlik və inkişaf illəri kimi yadda qaldı, tarixdə qaldı. Bu illər ərzində dövlətçiliyin əsasları qoyuldu. Azərbaycan dünya birliyinə özünü təqdim edə bilmişdir. Beynəlxalq əlaqələrimiz inkişaf etmişdir. Dünya xəritəsində Azərbaycan özünə layiq yerini tuta bilmişdir.

Siyasi və iqtisadi islahatlar uğurla aparılmışdır. Azərbaycan bir neçə beynəlxalq təşkilata üzv olmuşdur. Ölkəmizə böyük həcmdə investisiyalar cəlb edilmişdir və bu investisiyalar hesabına Azərbaycan həm o illərdə, həm bu gün inkişaf edir. Azərbaycan etibarlı tərəfdaş imicini qazanmışdır. Bu da çox vacib məsələdir. Çünki o vaxt Azərbaycan haqqında dünyada kifayət qədər təsəvvür yox idi. Azərbaycanı dünyaya olduğu kimi təqdim etmək Ulu Öndərin xüsusi zəhməti hesabına mümkün olmuşdur.

Ulu Öndərin rəhbərliyi ilə on il ərzində Azərbaycan, sözün əsl mənasında, uğurlu yol keçmişdir. Eyni zamanda Yeni Azərbaycan Partiyası da öz fəaliyyətini həm ölkə daxilində, həm beynəlxalq müstəvidə genişləndirə bilmişdir. Bu gün bizim beynəlxalq əlaqələrimiz də çoxşaxəlidir. Müxtəlif partiyalarla, müxtəlif qitələrdə fəaliyyət göstərən partiyalarla biz uğurlu əməkdaşlıq edirik. Bundan sonra da bu əməkdaşlığı davam etdirəcəyik.

2003-cü ildən sonra Azərbaycanın uğurlu inkişafı davam etmişdir. Bu inkişafın təmin edilməsində, bir daha demək istəyirəm ki, Yeni Azərbaycan Partiyasının çox böyük rolu vardır. Çünki 2003-cü il bir sınaq ili idi. Həm dövlətçiliyimizin əsaslarının nə qədər güclü olduğunu, elə bil ki, tarix sınayırdı, eyni zamanda Yeni Azərbaycan Partiyasının öz liderinə, dövlətçiliyə nə qədər sadiq olduğunu tarix sınaqdan keçirirdi. Bütün bu sınaqlardan bizim partiyamız üzüağ çıxdı. Bütün bu sınaqlardan biz daha da güclənmiş şəkildə çıxa bildik.

2003-cü ildə, demək olar ki, Azərbaycanın gələcək uğurlu inkişafı müəyyən edilirdi: ya inkişaf yolu ilə gedəcəyik, ya da yenə tənəzzülə uğrayacağıq. Yenə də mənfur qüvvələr Azərbaycanın iqtidarını zəbt edəcəkdilər, necə ki, 1992-ci ilin may ayında onu zəbt

etmişdilər. Yəni bu iki istiqamət arasında seçim, necə deyərlər, ortada idi. Yeni Azərbaycan Partiyasının mütəşəkkil fəaliyyəti, öz liderinə sədaqəti, Azərbaycan xalqının bu siyasətə verdiyi dəstək hesabına Azərbaycan inkişaf yolunu seçdi və son on il ərzində bu inkişaf yolu ilə uğurla irəliyə gedir.

Son on il ərzində Azərbaycan dünyada ən sürətli templərlə inkişaf etmişdir. İkinci belə ölkə dünya xəritəsində tapılmaz ki, Azərbaycan qədər uğurlar əldə edə bilsin. Bu uğurlar çoxşaxəlidir, bütün sahələri əhatə edir. Həm beynəlxalq, həm daxili siyasətlə, iqtisadi islahatlarla, siyasi islahatlarla bağlı hara baxsan, Azərbaycan uğurla, inamla, sürətlə inkişaf edir.

Bu inkişaf artıq bütün mötəbər beynəlxalq təşkilatlar tərəfindən qeyd edilir, qiymətləndirilir. Azərbaycanın təcrübəsi artıq ən müsbət təcrübə kimi öyrənilir. Sirr deyildir ki, bizim keçdiyimiz yol inkişafda olan, yaxud da ki, çətinliklər içində yaşayan bəzi ölkələr üçün bir işıq yoludur, bir istiqamətdir. Bu, öz növbəsində, bizim üzərimizə daha da böyük məsuliyyət qoyur.

2003–2013-cü illərdə – son 10 il ərzində Azərbaycan beynəlxalq aləmdə ən böyük zirvələrə çata bilmişdir, dünyanın bir nömrəli qurumu olan BMT Təhlükəsizlik Şurasına üzv seçilmişdir. Bu, bizim diplomatiyamızın, siyasətimizin, dövlətçiliyimizin qələbəsidir, təntənəsidir. Dünyada bu qurumdan ali qurum yoxdur. Keçən ilin mayında Azərbaycan bu mötəbər quruma sədrlik etmişdir.

Biz bu gün qlobal problemlərin həlli ilə məşğuluq. Bizim mövqeyimiz, səsimiz böyük əhəmiyyətə malikdir. Biz digər beynəlxalq təşkilatlarda uğurlu fəaliyyət göstəririk, mövqeyimizi müdafiə edirik. Biz üzv olduğumuz təşkilatlarda maraqlarımızı müdafiə edirik, eyni zamanda həm siyasi cəhətdən, həm də bütün başqa cəhətlərdən o təşkilatların inkişafına böyük töhfə veririk.

Bizim ikitərəfli formatda qurduğumuz xarici siyasət nümunə ola bilər. Bu siyasət bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı, hörmət və bir-birinin işinə qarışmamaq prinsiplərinin üzərində qurulubdur. Bu, bizim yanaşmamızdır. Biz heç bir başqa ölkənin daxili işinə

qarışmırıq. Hesab edirəm ki, əgər dünyada bütövlükdə bu meyillər üstünlük təşkil etsə, müharibələr də, qarşıdurmalar da azalar. Ümumiyyətlə, dünya daha da çox əməkdaşlıq istiqamətində inkişaf edər. Ona görə həm ikitərəfli formatda, beynəlxalq təşkilatlardakı fəaliyyətimiz, eyni zamanda, ümumi xarici siyasətlə bağlı konsepsiyamız təqdirəlayiqdir, dünyada böyük hörmətə malikdir və bizə imkan verir ki, daxildə də uğurlu siyasətimizi aparaq. Çünki hər bir ölkə maraqlı olmalıdır ki, onun ətrafında vəziyyət sabit, sülh, əmin-amanlıq olsun ki, ölkə daxilində proseslər daha da normal şəraitdə getsin.

… Bir daha demək istəyirəm ki, biz hər bir tərəfdaşla bərabərhüquqlu münasibətlər qurmuşuq. Biz ancaq bu münasibətləri qəbul edirik. Başqa cür ola da bilməz. Bizə rəqib olmaq istəyənlər isə xarici dairələrin təlimatı ilə fəaliyyət göstərirlər. Onlar üçün xaricdən verilən vəsait, oradan verilən təlimatlar əsasdır. Onlar hakimiyyətə gəlmək üçün istənilən güzəştə getməyə hazırdırlar. Biz bunu bilirik. Biz bilirik, Azərbaycanda nələr baş verir, hansı proseslər gedir. Hətta bizim üçün ən vacib olan məsələdə – Ermənistan–Azərbaycan Dağlıq Qarabağ məsələsində də hakimiyyətə gəlmək üçün böyük güzəştlərə getməyə hazırdırlar. Bunu gizlətmirlər. Söz verirlər ki, əgər onlara böyük dəstək verilərsə, Qarabağı da ermənilərə bağışlamağa hazırdırlar.

Mən bunu ona görə deyirəm ki, bu, artıq, necə deyərlər, siyasi səhnədə bir reallıqdır. Ona görə yox ki, bu, bizi narahat edir. Tamamilə yox. Yenə də deyirəm, mən bizim qarşımızda rəqabət aparmaq qabiliyyətində olan heç bir qüvvə görmürəm. Ona görə ki, bax, son illər ərzində görülmüş işlər bu inamı artırır.

Sadəcə olaraq, çox istərdim ki, Azərbaycanda siyasi mübarizə dövlətçilik əsasında qurulsun. Əlbəttə, siyasi mübarizə olmalıdır. İqtidar-müxalifət münasibətləri də olmalıdır. Yəni bizdə dövləti düşünən müxalifət nümayəndələri vardır və onların fikirləri ayrıdır, ölkənin inkişaf strategiyası, iqtisadi-siyasi sahə ilə bağlı öz fikirləri ola bilər. Bu təbiidir. Ancaq əsas odur ki, dövlətçiliyə, müstəqilliyə bütün siyasi qüvvələr sadiq olsunlar. O qüvvələr ki, buna sadiq deyil, o qurumlarda yeniləşmə getməlidir. Yeni insanlar gəlməlidir rəhbərli-

yə və naftalin qoxusu verən köhnəlmiş "liderlər" tarixin arxivinə getməlidir. Əslində onlar çoxdan tarixin arxivindədir, sadəcə olaraq, bunu, hələ ki, axıra qədər dərk etməmişlər.

Biz isə uğurla inkişaf edirik. Biz seçkilərə də uğurla gedəcəyik. Çünki bizim amalımız qüdrətli Azərbaycandır, müstəqillikdir, inkişafdır, sosial rifahdır. Ölkə qarşısında duran vəzifələr də məhz Yeni Azərbaycan Partiyasının rəhbərliyi ilə bundan sonra da uğurla icra edilə bilər. Bu vəzifələrin arasında, əlbəttə ki, ilk növbədə, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi dayanır. Bizim mövqeyimiz prinsipialdır. Mən bunu dəfələrlə bəyan etmişəm. Azərbaycan xalqı və Yeni Azərbaycan Partiyası bu mövqeyi birmənalı şəkildə dəstəkləyir. Azərbaycanın ərazi bütövlüyü danışıqlar predmeti deyil və olmayacaqdır. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Bu gün də belədir, sabah da belə olacaqdır. Azərbaycan öz suverenliyini, ərazi bütövlüyünü istənilən yolla bərpa edəcəkdir. Bu münaqişənin həlli yalnız beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi əsasında öz həllini tapa bilər. Heç bir başqa variant nəzərdən keçirilmir. Heç bir başqa variant qəbul edilə bilməz.

Mən inanıram və əminəm ki, biz bu məsələni həll edəcəyik. Çünki bizim artan xarici və daxili gücümüz, artan ordu potensialımız və iqtisadi inkişaf qələbəmizi şərtləndirəcəkdir.

Ermənistan isə, demək olar ki, tamamilə iflasa uğrayıb. Ermənistanda hakimiyyəti zəbt etmiş kriminal korrupsioner diktatura rejimi o ölkəni uçuruma aparır. Ölkədə kütləvi qaydada miqrasiya baş verir. Hər il 100 minə qədər vətəndaş o ölkəni həmişəlik tərk edir. Birinci növbədə, ona görə ki, ümidləri yoxdur. İqtisadiyyat, demək olar ki, iflic vəziyyətdədir. Digər tərəfdən, o ölkəni idarə edən qaniçən, gözü doymayan kriminal quldur rejim insanlara divan tutur. Bütün seçkilər Ermənistanda kütləvi şəkildə saxtalaşdırılır, siyasi mübarizə orada qanlı faciələrə gətirib çıxarır. Bu ölkə terrorçu ölkəsidir və terrorçu, quldur üsul-idarəsi ilə idarə edilir. Belə olan halda nə qədər ki, indiki kriminal iqtidar orada rəhbərlikdədir, o qədər də tez Ermənistan tamamilə çökəcəkdir.

Mən tam əminəm, məhz buna görə və digər tərəfdən, artan gücümüz də bunu diktə edir ki, biz mütləq ərazi bütövlüyümüzü bərpa edəcəyik. Sadəcə olaraq, buna vaxt və güclü siyasət lazımdır. Güzəştsiz, kompromissiz, milli maraqlara söykənmiş siyasət ki, bu gün bizim iqtidar və yalnız bizim iqtidar bunu təmin edə bilər. Yalnız bizim iqtidar bütün təzyiqlərə, təhdidlərə, təxribatlara dözə bilər. Bizə qarşı aparılan kampaniyanın təməlində bir çox hallarda məhz bu münaqişə dayanır: Azərbaycanı zəiflətmək, ləkələmək, imicinə zərbə vurmaq ki, Qarabağ məsələsində bizdən güzəştlər qoparsınlar. Bu keçməyəcəkdir. Çünki bizim işimiz haqq işidir və xalq da bizim siyasətimizi dəstəkləyir.

## Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksinin açılışında Prezident İlham Əliyevin çıxışı

***(18 sentyabr 2013-cü il)***

Bu gün biz Quba Soyqırımı Memorial Kompleksinin açılışına toplaşmışıq. 1918-ci ilin mart–iyul aylarında erməni quldur dəstələri Azərbaycanın, demək olar ki, bütün ərazilərində dinc əhaliyə qarşı soyqırımı törətmişlər. Beş ay ərzində 50 mindən çox soydaşımız erməni faşizminin qurbanı olmuşdur. Bakıda, Quba qəzasında, Şamaxıda, Qusarda, İrəvanda, Naxçıvanda, Zəngəzurda, Qarabağda, Lənkəranda, demək olar ki, bütün Azərbaycan torpaqlarında bizə qarşı soyqırımı törədilmişdir. Bu memorial kompleksin yaradılması, hesab edirəm ki, tarixi hadisədir. Bildiyiniz kimi, 2007-ci ildə burada qazıntı işləri aparılarkən kütləvi məzarlıq aşkarlanmışdır. Ondan sonra buraya alimlər, ekspertlər ezam edilmişdir və böyük tədqiqat işləri aparılmışdır. Tədqiqat işlərinin aparılması nəticəsində aşkar edilmişdir ki, burada minlərlə soydaşımız erməni quldur dəstələri tərəfindən amansızlıqla, qəddarlıqla öldürülmüşdür. 2009-cu ilin sonunda mənim tərəfimdən Quba Soyqırımı Memorial Kompleksinin yaradılmasına dair Sərəncam imzalanmışdır və 2011-ci ildən işlər başlanmışdır. Bu gün biz memorial kompleksin açılışını edirik.

Deyə bilərəm ki, Azərbaycanda, ilk dəfə olaraq, belə memorial kompleks yaradılır. Kompleksin tərtibatı çox təsirlidir, memarlığı çox böyük rəmzi məna daşıyır. Bir sözlə, burada nümayiş etdirilən eksponatlar bizim tariximizi göstərir. Eyni zamanda memorial kompleksdə yaradılmış ekspozisiya çox böyük məna daşıyır. Kompleksin girişində Quba qəzasının dinc vaxtları öz əksini tapır. Ailələr, vətəndaşlar dinc həyat sürürlər. Ondan sonra qanlı günlər, dinc əhaliyə qarşı törədilən vəhşilik əks olunur. Ekspozisiyanın sonunda, hesab edirəm ki, çox düzgün tərtibat nəticəsində insanlar buradan nikbin əhval-ruhiyyə ilə ayrılır. Çünki Bakının erməni quldur dəstələrindən azad edilməsi, elə bil ki, ekspozisiyanın son nöqtəsidir.

Burada həlak olmuş insanlar müxtəlif dinlərin, müxtəlif millətlərin nümayəndələridir. Onların ermənilər üçün bir günahı var idi ki, onlar erməni millətindən deyildilər.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən xüsusi tədqiqat komissiyası yaradılmışdır. Komissiya işə başlamışdır, ancaq 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti süqut edəndən sonra bu komissiya, təbii ki, öz işini dayandırmışdır və komissiyanın fəaliyyəti natamam olmuşdur. Eyni zamanda o vaxt, əlbəttə ki, bu faciə, bu qırğın haqqında dünyaya məlumat çatdırmaq üçün bizim imkanlarımız çox məhdud idi.

Memorial kompleksin ekspozisiyasında Ulu Öndər Heydər Əliyevin 1998-ci ildə imzaladığı Sərəncam da öz əksini tapır – Azərbaycanlıların soyqırımı Sərəncamı. Orada göstərilir ki, Azərbaycan Xalq Cümhuriyyətinin qərarı ilə komissiya yaradılmışdır və komissiyanın görə bilmədiyi işləri artıq müstəqil Azərbaycan dövləti tamamlayır. İlk dəfə olaraq, 1998-ci ildə bu soyqırımına hüquqi və siyasi qiymət verilmişdir.

Sovet dövründə, təbii ki, tarix təhrif edildiyi üçün bu həqiqətlər bizdən gizlədilirdi. Uzun illər Azərbaycan xalqının qanını axıdan quldurlar, – onların da mənfur adları orada göstərilir, – Şaumyan və onun kimiləri bizə qəhrəmanlar kimi təqdim edilirdi. Hesab edirəm ki, bu, böyük faciədir. Çünki uzun illər xalqımıza qarşı amansızlıqla vəhşilik törədən ünsürlər sovet tarixində qəhrəman kimi təqdim edilirdi, onların şərəfinə abidələr ucaldılırdı. Yalnız müstəqillik dövründə biz həqiqi ədaləti bərpa etdik. Gözəl şəhərimizi, Bakımızı o abidələrdən təmizlədik və bu gün o yerlərdə gözəl parklar, o cümlədən Sahil parkı yaradılıbdır. Yəni tarix, ədalət zəfər çaldı. Biz bu gün öz tariximizə qayıdırıq. Tarixin bütün məqamlarını bilirik, bilməliyik. Gənc nəsil də bilməlidir ki, xalqımız keçmişdə hansı fəlakətlərlə üzüzə qalmışdır. Erməni faşizminə o vaxt düzgün qiymət verilmədiyi üçün sonra tarixin müxtəlif dövrlərində erməni faşizmi öz yırtıcı sifətini nümayiş etdirmişdir.

İkinci Dünya müharibəsi zamanı Hitlerin sərəncamında olan, ona qulluq edən erməni quldurları Ermənistanda qəhrəman kimi qə-

bul edilir, onların şərəfinə abidələr ucaldılır. Bu, onu göstərir ki, müasir Ermənistan dövlətinin ideologiyası da faşizm üzərində qurulmuşdur. Hesab edirəm ki, erməni faşizmi Azərbaycan alimləri tərəfindən daha geniş şəkildə tədqiq edilməlidir. Hesab edirəm ki, tarixi paralellər əsasında çox böyük əsərlər yaradılmalıdır. Şadam ki, son illərdə, o cümlədən mənim təşəbbüsümlə alimlərimiz İrəvan xanlığı, bizim tarixi torpaqlarımız haqqında kifayət qədər dolğun və məzmunlu əsərlər yaratmışlar. Biz bu tarixi gənc nəsillərə də çatdırırıq. Məsələn, İrəvanın Ermənistanın paytaxtı elan olunmasının tarixi, hesab edirəm ki, bir çoxlarına bəlli deyildi. Biz bu məsələni qaldıranda, tarixi faktlar əsasında bu məsələyə diqqət yetirəndə, artıq bunu həm Azərbaycanda hər kəs bilir, dünyada da bilirlər ki, İrəvanın Ermənistan dövlətinin paytaxtı elan edilməsi Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən verilmiş qərar əsasında olmuşdur. Ona görə, hesab edirəm ki, tarixi həqiqətləri əks etdirən böyük elmi əsərlər yaradılmalıdır. Onların bir hissəsi artıq yaradılıbdır. Ancaq hesab edirəm ki, bu məsələyə daha da ciddi diqqət verməliyik. Ermənilərin bizim tarixi torpaqlarımıza köçürülməsi məsələləri, hesab edirəm ki, Azərbaycan elmində kifayət qədər işıqlandırılmayıb. Biz hamımız yaxşı bilirik ki, Azərbaycanın ayrılmaz torpağı olan Dağlıq Qarabağa ermənilər XIX əsrin birinci yarısında Şərqi Anadoludan və İrandan köçürülmüşdür. Onlar orada məskən salmışdır və ondan sonra dinc Azərbaycan əhalisinə qarşı öz təxribatlarını başlamışlar. Yəni bu tarixi paralel, ondan sonra Bakı soyqırımı, Quba soyqırımı İkinci Dünya müharibəsində erməni faşizminin törətdiyi cinayətlər və keçən əsrin sonlarında növbəti dəfə erməni faşizminin təzahürləri Azərbaycan tarix elmində geniş şəkildə tədqiq edilməli və gözəl əsərlər yaradılmalıdır.

Dediyim kimi, erməni faşizmi özünü bir daha 1980-ci illərin sonlarında – 1990-cı illərin əvvəllərində göstərmişdir. Biz o tarixi də yaxşı xatırlayırıq. Çünki Ulu Öndər Heydər Əliyevin sovet hakimiyyətinin rəhbərliyindən uzaqlaşdırılmasından iki həftə sonra erməni millətçiləri Dağlıq Qarabağın Azərbaycandan ayrılıb Ermənistana

birləşdirilməsi haqqında məsələ qaldırmışlar. O vaxtkı sovet rəhbərliyi, ilk növbədə,o vaxtkı rəhbər Qorbaçov və onun ətrafında olan erməni millətçiləri Azərbaycan xalqına qarşı böyük cinayətlər törətmişlər. Qanlı Yanvar hadisələri bilavasitə Qorbaçovun əməlləridir. Ondan əvvəl və ondan sonra xalqımıza qarşı törədilən cinayətlər artıq tarixdə kifayət qədər öyrənilibdir. O vaxt Heydər Əliyev amili ermənilərin əl-qolunu bağlamışdı. Sovet dövründə – 1969-cu ilə qədər ermənilər dəfələrlə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə əlaqədar sovet hökumətinə müraciətlər etmişlər. Hətta rəsmi səviyyədə müraciətlər etmişlər. Ancaq Heydər Əliyevin qətiyyəti və çox ciddi etirazı buna imkan verməmişdir. Ondan sonra Heydər Əliyevin sovet hakimiyyətində fəaliyyəti dövrü başlamışdır. O vaxt da, əlbəttə ki, ermənilərin təxribat etmək üçün heç bir imkanları olmamışdır. 1987-ci ilin noyabrında – Ulu Öndər Heydər Əliyev vəzifədən gedəndən iki həftə sonra bu məsələ qaldırıldı və demək olar ki, o vaxtdan azərbaycanlılara qarşı növbəti soyqırımı prosesi başladı. Təxribatlar törədildi, sovet və dünya mətbuatında bu məsələ ilə bağlı yanlış və təhrif edilmiş rəy yaradıldı. Nəticədə, 1992-ci ildə Xocalı soyqırımı törədildi. Xocalı soyqırımını törədənlər bu gün Ermənistan rəhbərliyində təmsil olunan adamlardır. Bu faciə dünyanın gözü qabağında baş vermişdir. Yəni biz bunu "erməni soyqırımı" mifi kimi heç bir əsası olmayan mifologiya əsasında deyil, real faktlar əsasında görürük. Videomateriallar, fotoşəkillər, canlı şahidlərin ifadələri – bütün bunlar həqiqətdir və reallıqdır. Ancaq, nədənsə, bəziləri bunu görmək istəmir, bəziləri bu günə qədər də ermənіləri qurban kimi təqdim etmək istəyirlər. Əlbəttə ki, bunun səbəbi vardır. Dünyada fəaliyyət göstərən erməni lobbisi və onun nəzarəti altında olan bəzi riyakar və rüşvətxor siyasətçilər tarixi tamamilə təhrif edərək bütün günahı Azərbaycanın üzərinə qoymağa çalışırlar. Bu ədalətsizlik bu günə qədər də davam edir. Xocalı soyqırımı zamanı 613 günahsız insan ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir. Əgər burada uyuyan soydaşlarımız soyuq silahlarla və küt alətlərlə öldürülmüşlərsə, Xocalıda artıq soydaşlarımız avtomatlarla, qumba-

ralarla öldürülmüşdür. Yüzlərlə insan itkin düşmüşdür. Xocalıda ermənilər tərəfindən 63 uşaq, 106 qadın öldürülmüşdür. Bu, misli görünməmiş vəhşilikdir.

Bu gün Azərbaycan dövləti və Azərbaycanda fəaliyyət göstərən ictimai qurumlar, ilk növbədə, Heydər Əliyev Fondu Xocalı soyqırımının dünyada soyqırımı kimi tanıdılmasında çox böyük işlər görür. Quba Soyqırımı Memorial Kompleksinin yaradılmasında da Heydər Əliyev Fondunun fəaliyyətini xüsusilə vurğulamaq istəyirəm. "Xocalıya ədalət!" kampaniyasının başlanması və uğurla davam etdirilməsində də Heydər Əliyev Fondu, bizim diaspor təşkilatlarımız və əlbəttə ki, Azərbaycan dövləti bir nöqtəyə vurur və artıq tədricən istədiyimizə nail oluruq. Artıq bir neçə ölkə rəsmi qaydada Xocalı soyqırımını soyqırımı kimi tanıyıb və bu proses davam etdirilir.

Gələcəkdə bu faciələrdən sığortalanmaq üçün erməni faşizminə dünya miqyasında mütləq layiqli qiymət verilməlidir. Ancaq, əfsuslar olsun ki, ədalətsizlik bu günə qədər davam edir. Mən xatırlayıram ki, Azərbaycan zabitini – Ramil Səfərovu Vətənə qayıtdığına və azadlığa buraxdığıma görə mənə qarşı nə qədər əsassız ittihamlar səsləndi, nə qədər riyakar xarici siyasətçilər mənə qarşı hücumlar etdilər. Hətta Avropa Parlamenti bu məsələ ilə bağlı qətnamə qəbul etmişdir və mənim addımlarımı pisləmişdir. Mən bu gün də tam qətiyyətlə deyə bilərəm ki, Azərbaycan öz zabitini Vətənə qaytarmışdır, azadlığa buraxmışdır və ədaləti bərpa etmişdir. Ancaq baxın görün, buna görə dünya mətbuatında, müxtəlif beynəlxalq təşkilatlarda Azərbaycana qarşı nə qədər əsassız hücumlar edilmişdi.

Əlbəttə ki, bu hücumların heç bir təsiri ola bilməzdi. Çünki Azərbaycan dövlətinin iradəsinə, qərarlarına heç bir qüvvə təsir edə bilməz. Biz ədaləti bərpa etmişik və bundan sonra da öz siyasətimizdən dönməyəcəyik. Ancaq nə üçün bu məsələ ilə bağlı öz səslərini ucaldanlar bu gün Ermənistanda faşistlərə qoyulan abidələri görmürlər? Nə üçün terror aktları, o cümlədən Avropa ölkələrində bu aktları törədən erməni terrorçuları sərbəst buraxılır və Ermənistana qaytarılır, orada isə onlara qəhrəman kimi münasibət göstərilir? Nə

üçün bunu görmürlər? Bu ədalətsizlik nə vaxta qədər davam edəcək? Bu işğal nə vaxta qədər davam edəcək? Beynəlxalq birlik tərəfindən tanınan torpaqlarımız artıq 20 ilə yaxındır ki, işğal altındadır. Dağlıq Qarabağ Azərbaycanın əzəli, tarixi torpağıdır. Azərbaycan BMT-yə üzv olarkən vahid dövlət kimi üzv olmuşdur. Heç bir dövlət bizim ərazi bütövlüyümüzü şübhə altına almır. Nə üçün BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra edilmir? Bütün bu suallar cavabsız qalır. Biz bu suallara cavabları bilirik. Bu məsələnin həll olunmamasının səbəblərini bilirik və bunu açıq ifadə edirik. Ancaq bu suallar havada qalmamalıdır, bu ədalətsizliyə son qoyulmalıdır.

Bizim torpaqlarımız işğal altındadır, tarixi abidələrimiz, məscidlərimiz dağıdılıb, muzeylərimiz talan olunub, bütün şəhərlər yerlə yeksan edilib. Bu memorial kompleksdə Şamaxının görüntüləri əks olunub. Burada Şamaxı məscidinin – qədim müsəlman aləmində ən qədim məscidlərdən biri olan Şamaxı məscidinin yarıdağılmış vəziyyətdə olan şəkilləri göstərilir. Biz bu ilin may ayında Şamaxı Cümə məscidini yenidən bərpa etdik, 743-cü ildə tikilmişdir. Bu məscid bu gün yenidən dindarların üzünə açılmışdır. Soyqırımı törədildi, bütün tarixi abidələr dağıdıldı. Bax, Şamaxının bu memorial kompleksdə əks olunan dağılmış vəziyyətdə olan şəkilləri bu gün yenə də təkrarlanır. Bu gün Ağdam, Füzuli, Şuşa belə vəziyyətdədir və bunu edənlər ermənilərdir. Bunu edənlər bu gün özlərini mədəni millət kimi təqdim etmək istəyirlər. Ancaq bunu edənin bir adı var – vəhşi! Başqa ad ola bilməz.

Əfsuslar olsun ki, beynəlxalq hüquq normaları işləmir. Beynəlxalq təşkilatların qərarları kağızda qalır, ədalətsizlik davam edir. Belə olan halda, əlbəttə ki, güclənən Azərbaycan dövləti yalnız öz gücünə güvənməlidir və öz gücünə güvənir. Necə ki, bu memorial kompleksin son ekspozisiyasında əks olunduğu kimi, 95 il bundan əvvəl Qafqaz İslam Ordusunun fəaliyyəti və yerli qüvvələrlə birlikdə aparılan döyüşlər nəticəsində Bakı ermənilərdən təmizləndi. Gün gələcək əgər beynəlxalq hüquq normaları bərpa olunmazsa və Ermənistan öz işğalçı siyasətini davam etdirərsə, Ordumuz son sözünü deyəcəkdir. Bunu etmək üçün bu gün bizim gücümüz vardır.

Bu gün Azərbaycan Ordusu bu bölgənin – Cənubi Qafqazın ən güclü ordusudur. Bu gün Azərbaycan müstəqillik illərində bizim üçün yaradılan imkandan tam şəkildə istifadə edibdir. Əgər müstəqillik qazanılanda Ermənistan ilə Azərbaycan arasında iqtisadi və hərbi sahədə paritet var idisə, artıq bu paritetdən çoxdan əsər-əlamət qalmayıbdır. Son 10 il ərzində böyük bir yol keçmişik. On il bundan əvvəl Azərbaycanın və Ermənistanın dövlət büdcələri təxminən eyni səviyyədə idi. Bu gün bizim dövlət büdcəmiz Ermənistandakından təxminən 10 dəfə çoxdur. Bizim təkcə hərbi məsələlərə xərclədiyimiz vəsait Ermənistanın bütün dövlət büdcəsindən təxminən 30–50 faiz artıqdır. Yəni, biz bütün başqa parametrlər üzrə böyük üstünlük əldə etmişik – iqtisadi sahədə, siyasi sahədə, dünya birliyində oynadığımız rol baxımından. Bu gün Azərbaycan BMT Təhlükəsizlik Şurasının üzvüdür və dünya tərəfindən böyük dəstəyə malikdir. Bu gün biz artıq fəzaya çıxmışıq. Bizim peykimiz vardır. Bizim iqtisadi inkişafımız çox sürətlidir, o cümlədən bax, bu zonada – Quba–Qusar zonasında son illərdə çox böyük işlər görülmüşdür. Şəhərlər, kəndlər abadlaşır, investisiya qoyulur. Bizim demoqrafik vəziyyətimiz çox müsbətdir. Artıq 9 milyon yarıma yaxın əhalimiz vardır.

Yəni bütün bu amillər bizim gücümüzü təsdiqləyir və düşünülmüş siyasətin nəticəsidir. Ermənistan isə artıq öz hərəkətləri və bəyanatları ilə açıq şəkildə etiraf edir ki, öz təhlükəsizliyini öz gücünə təmin edə bilmir. Biz bunu çoxdan bilirdik. Hesab edirəm ki, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə məşğul olan bütün tərəflər bunu bilir. Ancaq bu gün Ermənistan məcburdur ki, özü bunu etiraf etsin. Bizim qarşımızda nə qədər aciz, nə qədər gücsüz olduğunu, qorxu içində yaşadığını etiraf etsin. Mən bir dəfə demişəm ki, erməni xalqı bizdən qorxmamalıdır, öz rəhbərliyindən qorxmalıdır. Qaniçən, yırtıcı, quldur, cəllad rəhbərliyindən qorxmalıdır ki, bu gün onlar öz xalqına divan tuturlar, öz xalqını gülləbaran edirlər. İndiki Ermənistan rəhbərliyi nə qədər çox hakimiyyətdə qalsa, Ermənistan bir o qədər də tez tamamilə çökəcək və tarixi ədalət bərpa ediləcəkdir. Mən tam əminəm ki, Azərbaycan öz ərazi

bütövlüyünü bərpa edəcəkdir. Bütün amillər – güclərin nisbəti, beynəlxalq, iqtisadi-hərbi amillər bunu göstərir. Sadəcə olaraq, vaxt gedir. Sadəcə olaraq, biz istəyirik ki, bu, tezliklə olsun. Ancaq bu, hərtərəfli və tam şəkildə olmalıdır. Azərbaycanın ərazi bütövlüyü tam şəkildə bərpa edilməlidir, Şuşada, Xankəndidə Azərbaycanın dövlət bayrağı qaldırılmalıdır və gələcəkdə azərbaycanlılar bütün tarixi torpaqlarında yaşamalıdırlar. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Göyçə, Zəngəzur mahallarıdır. Vaxt gələcək, biz orada da yaşayacağıq. Mən buna inanıram, buna əminəm. Buna nail olmaq üçün hər birimiz öz səylərimizi qoymalıyıq, hər birimiz öz işimizlə o müqəddəs günü yaxınlaşdırmalıyıq.

Bu gün tarixi gündür. Bir daha demək istəyirəm ki, Quba Soyqırımı Abidə-Memorial Kompleksinin yaradılması tarixi məna daşıyır. İlk dəfə olaraq, Azərbaycanda belə memorial kompleks yaradılır və bu yaddaş daim bizim qəlbimizdə yaşayacaqdır.

Allah bütün şəhidlərimizə rəhmət etsin!

# Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

***(22 noyabr 2013-cü il)***

2014-cü ilin yanvar ayında Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 130 illiyi tamam olur.

Xalqımızın müstəqillik idealının gerçəkləşdirilməsində, Azərbaycanın tarixi dövlətçilik ənənələri zəminində milli dövlət quruluşunun dirçəldilməsində, milli istiqlal ideyalarının geniş yayılmasında böyük xidmətlər göstərmiş və siyasi publisistikası ilə ədəbi-ictimai fikir tariximizə layiqli töhfələr vermiş görkəmli ictimai-siyasi xadim Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinin keçirilməsini təmin etmək məqsədilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və digər aidiyyəti qurumlarla birlikdə Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham ƏLİYEV***
***Bakı şəhəri, 22 noyabr 2013-cü il***
***«Azərbaycan» qəzetində dərc edilmişdir***
***(23 noyabr 2013-cü il, № 258)***

## Prezident İlham Əliyevin Dədə Qorqud parkının açılışında çıxışı

***(13.12.2013)***

Hörmətli xanımlar və cənablar.

Əziz dostlar.

Bu gün çox əlamətdar bir gündür. Biz Bakıda Dədə Qorqud abidəsinin açılışına toplaşmışıq. Mən sizin hamınızı bu münasibətlə ürəkdən təbrik edirəm.

Bu abidənin ucaldılması böyük hadisədir. "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının milli sərvətidir. Bu əsərdə Azərbaycan xalqının keçmiş həyat tərzi, məişəti, psixologiyası əks olunmuşdur. Əsərin qəhrəmanlarının adlarını Azərbaycanın çoxsaylı yaşayış məntəqələrində görmək olar. Bu əsərdə Azərbaycan toponimləri əks olunmuşdur. Bir sözlə, "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan xalq ədəbiyyatının yazılı abidəsidir. Bu dastan hər bir azərbaycanlı üçün əzizdir. Bu gün bu abidənin ucaldılması Azərbaycan xalqının bir daha öz tarixi keçmişinə, mədəniyyətinə olan münasibətinin təzahürüdür.

Bildiyiniz kimi, 1950-ci illərə qədər "Kitabi-Dədə Qorqud" Sovet İttifaqında qadağan edilmişdi. Ancaq 1950-ci illərdən sonra Azərbaycan alimlərinin səyləri nəticəsində bu əsər tədqiq edilməyə başlanmışdır. Təsadüfi deyil ki, bu əsərin tədqiqi ilə bağlı olan elmi işlər Azərbaycan alimlərinə məxsusdur. Bu, bir daha onu göstərir ki, bu əsər bizim xalqımıza, bütün türk dünyasına məxsusdur. Amma Azərbaycanda "Kitabi-Dədə Qorqud" dastanına xüsusi münasibət vardır. Əsərdə Oğuz eli kimi coğrafi məfhum bütün Azərbaycan ərazilərini əhatə edir. 1970–1980-ci illərdə Ulu Öndər Heydər Əliyevin tövsiyəsi ilə əsərin təbliği, onun sovet, dünya ictimaiyyətinə çatdırılması ilə bağlı konkret qərarlar qəbul edilmişdir. Ulu Öndərin tövsiyəsi ilə 1970-ci illərdə bədii film çəkilmişdir. Ondan sonra, müstəqillik dövründə - 1993–2003-cü illərdə artıq bu dastanı dünya ictimaiyyətinə çatdırmaq üçün çox böyük işlər görülmüşdür.

2000-ci ildə Bakıda dastanın 1300 illik yubileyi təntənəli şəkildə keçirilmişdir. Bütün türkdilli ölkələrin dövlət başçılarının, UNESCO-

nun baş direktorunun iştirakı ilə böyük təntənəli mərasim keçirilmişdir. "Dədə Qorqud" ensiklopediyası nəşr olunmuşdur. Ulu Öndər Heydər Əliyev Dədə Qorqud heykəlinin ucaldılması haqqında Sərəncam vermişdir. Yəni bütün bunlar bir daha onu göstərir ki, Dədə Qorqud Azərbaycan xalqının qəlbində daim yaşayırdı, yaşayır və yaşayacaqdır. "Kitabi-Dədə Qorqud" dastanı, eyni zamanda bütün türk dünyasını daha da sıx birləşdirir. Azərbaycan türkdilli dövlətlərin daha da sıx birləşməsi üçün öz səylərini əsirgəmir. Bu, bizim xarici siyasətimizin ayrılmaz hissəsidir, əsas istiqamətlərindən biridir. Türkdilli ölkələrin dövlət başçılarının Azərbaycanda keçirilmiş zirvə görüşləri bunun əyani sübutudur. Bakıda, Naxçıvanda, Qəbələdə keçirilmiş bu zirvə görüşləri türk dünyasını daha da sıx birləşdirir. Son zirvə görüşündə mən qeyd etmişdim və bir daha demək istəyirəm ki, XXI əsr türk dünyasının əsri olmalıdır.

Türk dünyasında gedən inkişaf, qarşılıqlı əməkdaşlıq, müsbət demoqrafik dinamika, əlbəttə ki, bizi daha da gücləndirəcək və bütün türkdilli dövlətlərin əməkdaşlığı, bir-birinə olan dəstəyi hesabına hər bir dövlət öz milli maraqlarını daha da böyük dərəcədə qoruya biləcəkdir.

Bizim ölkələrimizi əlbəttə, ki, siyasi maraqlar, iqtisadi sahədəki əməkdaşlıq bağlayır. Ancaq əməkdaşlığımızın təməlində ortaq tarix, tarixi köklər dayanır, o cümlədən "Kitabi-Dədə Qorqud" dastanı burada çox böyük rol oynayır. Ona görə, mən hesab edirəm ki, bugünkü mərasim bütün türk dünyasında gözəl əks-səda verəcəkdir.

Eyni zamanda bu gün biz gözəl parkın – Dədə Qorqud parkının açılışını qeyd edirik. Yəqin ki, hamımız yaxşı xatırlayırıq, bu ərazi çox baxımsız vəziyyətə düşmüşdü. Burada böyük abadlıq işlərinə ehtiyac var idi. Bu parkın ərazisi genişləndirilmişdir, gözəl süni göl yaradılmışdır. Bu gölün sahəsi üç hektardır. Gəzinti zolaqları yaradılmışdır. Yəni bu park Bakı sakinlərinin sərəncamına verilir və əminəm ki, bu, növbəti gözəl istirahət zonası olacaqdır. Onu da qeyd etmək istəyirəm ki, Ulu Öndərin Sərəncamı ilə Dədə Qorqud heykəlinin məhz bu parkda ucaldılması nəzərdə tutulmuşdur. Sadəcə olaraq, biz Ulu Öndərin siyasətinə sadiq qalaraq bu işləri başa çatdırdıq. Mən çox şadam ki, bu gün bu gözəl park və abidə açılır.

Bakı şəhəri artıq parklar, bağlar şəhərinə çevrilmişdir. Bakı şəhəri dünyanın ən gözəl şəhərlərindən birinə çevrilmişdir və bizim bu sahədəki fəaliyyətimiz getdikcə genişlənəcəkdir. Bakıda yeni istirahət zonalarının yaradılması ilə bağlı planlarımız vardır. Onların bir hissəsi icra edilir, bir hissəsi icra edilmişdir.

Bakı nadir bir şəhərdir. Təkcə gözəlliyinə görə yox, ona görə ki, Bakıda bir neçə mərkəz vardır. Adətən, şəhərlərdə, hətta böyük şəhərlərdə bir, ya iki mərkəz olur, ancaq Bakıda bir neçə mərkəz vardır.

İçərişəhər Bakının mərkəzidir. Azadlıq Meydanı, Bulvar şəhərin mərkəzidir. Yeni Bulvar, tikilməkdə olan Ağ Şəhər Bulvarı, Heydər Əliyev Mərkəzi artıq şəhərin mərkəzinə çevrilmişdir. Heydər Əliyev Sarayının önündə və arxa hissəsində salınmış yeni parklar, - onların uzunluğu bir kilometrdən çoxdur, – mərkəzə çevrilmişdir. Yəni bu, şəhərimizin xüsusiyyətidir. Əlbəttə, bu parkın açılması həm insanların istirahəti üçün yeni imkanlar yaradacaq, eyni zamanda şəhərin bu hissəsinin abadlaşdırılmasına xidmət göstərəcəkdir. Biz gözəl şəhərimizin daha da gözəlləşdirilməsi işində bundan sonra daha böyük işlər görəcəyik.

Onu da qeyd etmək istəyirəm ki, Azərbaycan bu gün dünya miqyasında siyasi və iqtisadi mərkəzlərin birinə çevrilmişdir.

Yüksək səviyyəli çoxsaylı tədbirlərin, zirvə görüşlərinin, iqtisadi forumların, dünyanın bir nömrəli iqtisadi forumu olan Davos Forumunun Azərbaycanda keçirilməsi, əlbəttə ki, ölkəmizin siyasi və iqtisadi mərkəz kimi təqdim edilməsinə xidmət göstərir.

Eyni zamanda Azərbaycan bu gün dünyanın humanitar mərkəzlərinin birinə çevrilmişdir. Ölkəmizdə keçirilən humanitar forumlar, Mədəniyyətlərarası Dialoq Forumunun iki toplantısı, digər tədbirlər Azərbaycanı artıq dünya miqyasında bir humanitar mərkəz kimi təqdim etmişdir. Bizim bu sahədəki rolumuz getdikcə artacaqdır. Çünki müasir, qloballaşan, ziddiyyətlə, toqquşmalarla dolu olan dünyada humanitar əməkdaşlığın əhəmiyyəti daha da artmalıdır. Azərbaycan bu sahədə nəinki bu tədbirlərə ev sahibliyi edir, eyni zamanda öz təcrübəsini bölüşür, öz reallıqlarını ortaya qoyur və sübut edir ki, humanitar sahədə əməkdaşlıq təkcə humanitar sahə ilə məh-

dudlaşmır. Humanitar sahədə əməkdaşlıq dünyada gedən siyasi proseslərə müsbət təsir edir və etməlidir. Azərbaycanın siyasi konsepsiyası bu təməl üzərində qurulubdur – əməkdaşlıqdan maraqların təmin edilməsinə, qarşılıqlı yardımdan daha da dərin əməkdaşlığa. Bizim bu sahədə siyasətimiz, yenə də demək istəyirəm ki, təkcə humanitar məsələlərlə məhdudlaşmır.

Əslində bütün dünya humanitar əsaslar üzərində qurulubdur. Bir daha demək istəyirəm ki, müasir, qloballaşan, böyük çətinliklərlə üzləşən dünyada humanitar əməkdaşlığın çox böyük mənası vardır. Ona görə mədəniyyət sahəsinə ayrılan diqqət, dövlət siyasəti, hesab edirəm ki, xalqımız və dünya üçün lazımdır, vacibdir. Azərbaycan cəmiyyəti, əgər belə demək mümkündürsə, çox zəngin mədəni həyatı ilə yaşayır. Ölkəmizdə, Bakıda və bölgələrdə keçirilən çoxsaylı mədəni tədbirlər, festivallar, müsabiqələr artıq bir ənənəyə çevrilmişdir. Azərbaycana gələn qonaqlar dünyanın incəsənət və mədəniyyət elitasını təmsil edirlər, ölkəmizlə tanış olurlar, ölkəmizdən çox gözəl təəssüratlarla ayrılırlar. Bu da Azərbaycanın dünya miqyasında tanınmasında öz rolunu oynayır. Eyni zamanda xaricdə, dünyanın aparıcı ölkələrində keçirilən Azərbaycan günləri bizim zəngin mədəniyyətimizi bir daha dünya birliyinə çatdırır. Dünyanın aparıcı şəhərlərində açılan Azərbaycan mədəniyyət mərkəzləri öz rolunu oynayır. Xaricdə Azərbaycan sərgilərinin keçirilməsi adi hala çevrilibdir. Yəni mən hesab edirəm ki, mədəni, humanitar sahələrdə Azərbaycan böyük uğurlara imza atmışdır və cəmiyyətimizin normal, sağlam yaşaması üçün bu sahəyə daim böyük diqqət göstərilməlidir. Mən şadam ki, ölkəmizdə bu sahədə də Heydər Əliyev siyasəti davam etdirilir. Əminəm ki, biz gələcəkdə bu sahədə daha da böyük işlər görə biləcəyik.

Əziz dostlar, bu gözəl hadisə münasibətilə bir daha sizi ürəkdən təbrik etmək istəyirəm. Artıq Bakıda Dədə Qorqud parkı, Dədə Qorqud abidəsi vardır. Bir neçə dəqiqədən sonra biz hamımız bu abidənin açılışını qeyd edəcəyik.

Hər bir Azərbaycan vətəndaşına sülh, əmin-amanlıq, xoşbəxtlik arzulayıram. Sağ olun.

# Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə nitqindən

***(8 aprel 2014-cü il)***

... Naxçıvanın, eyni zamanda qədim dövlətçilik tarixi vardır. Qədim Atabəylər dövlətinin mərkəzi Naxçıvan idi. Təsadüfi deyil ki, Naxçıvana 90 il bundan əvvəl Azərbaycanın tərkibində muxtariyyət statusu verilmişdir. Bu, gözəl hadisə idi, tarixi hadisə idi. Naxçıvanın rolunu, bu diyarın strateji əhəmiyyətini əks etdirən bir qərar idi. Ancaq bununla bərabər, o vaxt xalqımıza qarşı ədalətsizlik də edilmişdir. Çünki Azərbaycanın əzəli torpağı olan Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana vermişdilər. Bu, böyük ədalətsizlik idi.Çünki Zəngəzur tarixi, əzəli Azərbaycan torpağıdır. Zəngəzurun o vaxtkı əhalisinin mütləq əksəriyyəti azərbaycanlılar idi.Zəngəzurun bütün yaşayış məntəqələrinin adları Azərbaycan adları idi. Ona görə, bu qərarın qəbul edilməsində Azərbaycan xalqına qarşı ədalətsizlik və qərəz əsas rol oynamışdır. Eyni zamanda bu qərarla Azərbaycan coğrafi baxımdan iki yerə bölünürdü. Eyni zamanda böyük türk dünyası iki yerə bölünürdü. Bu ədalətsizlikdir, bu, sağalmayan yaradır. Ancaq mən tam əminəm ki, vaxt gələcək və biz azərbaycanlılar bütün tarixi torpaqlarımıza qayıdacağıq.

Naxçıvanın inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. İlk növbədə, ona görə ki, Naxçıvan Azərbaycan xalqına böyük şəxsiyyət Ulu Öndər Heydər Əliyevi bəxş etmişdir. Ulu Öndər bütün dövrlərdə Naxçıvana böyük diqqət göstərmişdir.

1970–1980-ci illərin əvvəllərində respublikanın sosial-iqtisadi inkişafı üçün çox böyük işlər görmüşdür. O vaxt Azərbaycanın hər bir yerində olduğu kimi, Naxçıvanda da sürətli inkişaf dövrü müşahidə edilirdi. Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan 1980-ci illərin əvvəllərində sovet məkanında ən qabaqcıl yerlərdə idi, o cümlədən Naxçıvanda da böyük sosial quruculuq işləri

aparılırdı.Naxçıvanın sənaye potensialı formalaşırdı. Bir sözlə, muxtar respublika öz inkişaf dövrünü yaşayırdı.

Əfsuslar olsun ki, Heydər Əliyevin Azərbaycandan Moskvaya köçməsindən sonra, bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da tənəzzül dövrü yaşanmışdı. Əldə edilmiş bütün uğurlar tədricən tənəzzül etmiş və muxtar respublika üçün çox ağır bir dövr başlamışdır. Biz o dövrü yaxşı xatırlayırıq. 1980-ci illərin sonları Naxçıvan üçün əsl sınaq dövrü idi.

Xoşbəxtlikdən yenə də Ulu Öndərin rəhbərliyi ilə naxçıvanlılar bu ağır sınaqdan şərəflə çıxa bilmişlər.

Məhz 1990-cı illərin əvvəllərində Naxçıvanın taleyi həll edilirdi. Əgər o illərdə Heydər Əliyev Naxçıvanda olmasaydı və naxçıvanlılar Ulu Öndərin ətrafında sıx birləşməsəydilər, Naxçıvanın taleyi çox ağır ola bilərdi.

Çünki artıq erməni millətçiləri Azərbaycana qarşı işğalçı siyasətini başlamışdılar və onların məkrli planlarında Naxçıvanın işğalı da var idi. O vaxt Naxçıvanda vəziyyət böyük çətinliklər hesabına sabit olaraq qalırdı. O vaxtkı Azərbaycan rəhbərliyi də Naxçıvana ögey münasibət bəsləyirdi, heç bir yardım etmirdi, əksinə, Naxçıvanda sabitliyi pozmaq və vəziyyəti gərginləşdirmək üçün çox çirkin əməllər edirdi. Ancaq naxçıvanlılar, həmişə olduğu kimi, müdrikliyini göstərərək Ulu Öndərin ətrafında bir yumruq kimi sıx birləşdilər və həm erməni işğalçılarına tutarlı cavab verdilər, onları yerinə oturtdular, həm də Azərbaycanın mərkəzi hökumətinə də öz etiraz səslərini qaldıraraq bildirdilər ki, Naxçıvanda o məkrli ssenari keçməyəcəkdir.

Naxçıvanda dövlət çevrilişi cəhdi də olmuşdur. Biz bunu yaxşı xatırlayırıq. Bu, yaxın tarixdir. Ancaq yenə də Ulu Öndərin qətiyyəti, müdrikliyi, cəsarəti, naxçıvanlıların ona olan inamı bu ağır sınaqdan çıxmaq üçün bizə imkan yaratdı. O illərdə nəinki Naxçıvan üçün, Azərbaycan üçün də tarixi qərarlar qəbul edilmişdir. Naxçıvan Muxtar Respublikası Naxçıvan Sovet Sosialist Muxtar Respublikası adlandırılırdı. O vaxt Naxçıvanın adı dəyişdirildi. Ulu Öndərin təklifi ilə "sovet sosialist" sözləri muxtar respublikanın adından çıxarıldı.

Naxçıvanda ilk dəfə olaraq 1990-cı illərdə Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi qəbul edildi və Azərbaycanın Ali Məclisi qarşısında vəsatət qaldırıldı ki, Azərbaycan dövləti də bu bayrağı rəsmi dövlət bayrağı kimi təsdiq etsin. 1991-ci ildə Sovet İttifaqının saxlanması üçün keçirilən qanunsuz referendumda Naxçıvan iştirak etməmişdir. Yəni bu addımlar ondan sonrakı dövrdə Azərbaycanın dövlət müstəqilliyini şərtləndirdi. O illərdə də Ulu Öndər qətiyyət, cəsarət, öz xalqına, öz millətinə nə qədər bağlı olduğunu göstərmişdir. Bir daha göstərmişdir ki, onun üçün dövlət maraqları, Azərbaycanın maraqları hər şeydən üstündür. Naxçıvan bu ağır sınaqlardan çıxaraq inkişaf yoluna qədəm qoymuşdur.

Ulu Öndərin Azərbaycan tarixində rolu əvəzsizdir. Şəxsiyyətlərin tarixdə rolu haqqında çoxlu kitablar, elmi əsərlər yazılmışdır. Ulu Öndərin həyat və fəaliyyəti, onun siyasəti şəxsiyyətlərin tarixdə rolu haqqında kifayət qədər geniş material verir. Bu böyük şəxsiyyətin rolu o qədər əhəmiyyətli və dəyərlidir ki, bu gün müstəqil Azərbaycan dövləti Ulu Öndərin siyasəti, cəsarəti, uzaqgörənliyi sayəsində inkişaf edir, yaşayır.

Bizim müstəqilliyimiz ən böyük sərvətdir və hamımız yaxşı bilirik ki, XX əsrin əvvəllərində də Azərbaycan müstəqillik qazanmışdı. Ancaq biz o müstəqilliyi qoruya bilməmişdik. O müstəqilliyin ömrü müəyyən səbəblər üzündən uzun olmamışdır. Ancaq bu reallıqdır və bundan da əlavə məhz o illərdə, müstəqillik illərində, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş qərara əsasən, bizim əzəli torpağımız olan İrəvan Ermənistana verilmişdir. Necə ki, ondan bir neçə il sonra bolşevik sovet hakimiyyəti Zəngəzuru ermənilərə vermişdir. Necə ki, ötən əsrin sonlarında Qarabağ işğal altına düşmüşdür. Görün bizim xalqımız nə qədər böyük faciələr yaşamışdır. Ancaq buna baxmayaraq, xalqımızın iradəsi sınmamışdır. Buna baxmayaraq, Azərbaycan bu gün inamlı inkişaf dövrünü yaşayır. Bu gün güclü Azərbaycan bölgə üçün, region üçün sabitləşdirici rol oynayır. Mən tam əminəm ki, güclü Azərbaycan və güclənən Azərbaycan bizə öz ərazi bütövlüyümüzü

bərpa etməyə və gələcəkdə bütün tarixi torpaqlarımıza qayıtmağa imkan verəcəkdir.

O illəri xatırlayarkən bir daha hamımız görürük ki, nə qədər ağır illər idi, ancaq, eyni zamanda bizim qələbəmiz nə qədər şərəfli idi. Çünki bu qələbə Azərbaycan dövlətinin, Azərbaycan xalqının qələbəsi idi. Azərbaycan xalqı öz müstəqilliyini qoruya bilmişdir. Məhz ona görə ki, müstəqilliyin bünövrəsi 1990-cı illərin əvvəllərində Naxçıvanda qoyulmuşdur. Məhz ona görə ki, 1993-cü ildə Azərbaycan xalqının xahişi ilə Ulu Öndər Naxçıvandan Bakıya getmiş və orada Azərbaycanı böyük bəlalardan, vətəndaş müharibəsindən qurtarmış və Azərbaycana sabitlik gətirmişdir.

1993-cü ildən başlayaraq Azərbaycanda sabitlik, sürətli inkişaf dövrü yaşanır və müstəqilliyimizin banisi Heydər Əliyevin bu uğurlarda rolu əvəzsizdir.

Naxçıvan da sürətlə inkişaf edir. Naxçıvanda bütün məsələlər uğurla icra edilir. Bu səfər mənim Naxçıvana son 10 il ərzində 11-ci səfərimdir. Demək olar ki, hər il Naxçıvana gəlirəm, burada gedən inkişafla tanış oluram və çox sevinirəm.

Sevinirəm ki, bu gün Naxçıvan çiçəklənən bir diyardır.

Dünən son bir il ərzində Naxçıvanda görülən işlərlə bir daha tanış olarkən, gördüm ki, nə qədər böyük işlər görülür, Naxçıvan rəhbərliyi muxtar respublikanın inkişafı üçün nə qədər böyük sevgi ilə, diqqətlə səylər göstərir. Bütün bu uğurlar münasibətilə naxçıvanlıları ürəkdən təbrik edirəm.

Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan Ordusu bu gün güclü ordudur. Naxçıvan Ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir.

Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır. Bu gün bu belədir. Gələcəkdə Naxçıvanın hərbi potensialının gücləndirilməsi üçün əlavə tədbirlər görüləcəkdir. Naxçıvanın hərbi potensialı elə olmalıdır ki, istənilən təcavüzə tutarlı, layiqli cavab verə bilsin. Bu gün bu, artıq

reallıqdır. Gələcək illərdə görüləcək əlavə tədbirlər hesabına biz Naxçıvanda daha da böyük hərbi potensial yaradacağıq. Buna imkan vardır.

Azərbaycan dövləti zəngin dövlətdir. Bildiyiniz kimi, bizim dövlət büdcəmizin əsas xərcləri hərbi məqsədlər üçün nəzərdə tutulur. Nə qədər ki, torpaqlarımız işğal altındadır, bu, belə də olmalıdır.

Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Ordu quruculuğu sahəsində aparılan islahatlar, Naxçıvanda əlahiddə ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi bizim dövlət siyasətimizdir. Yəni bundan sonrakı illərdə də Naxçıvanın hərbi gücünün artırılması üçün əlavə tədbirlər görüləcəkdir.

Naxçıvanda enerji təhlükəsizliyi məsələləri öz həllini tam şəkildə tapıbdır. Bu da çox sevindirici haldır. Bu gün Naxçıvan 100 faiz səviyyəsində qazlaşdırılıbdır. Bütün yaşayış məntəqələrində təbii qaz vardır. Naxçıvan bu gün elektrik enerjisi ilə təchizat baxımından öz enerji təhlükəsizliyini tam şəkildə təmin edə bilibdir.

Hətta ixrac imkanları yaranmışdır.

... Azərbaycan demokratik dövlətdir. Azərbaycan o dövlətdir ki, bu dövlətin inkişafını xalq müəyyən edir. Azərbaycan xalqının maraqları bizim üçün hər şeydən üstündür. Azərbaycan dəyərləri, milli dəyərlərimiz bizim üçün əsas istiqamətdir, əsas yolumuzdur.

Yəni bu gün Azərbaycan dövləti möhkəm təməl üzərində qurulubdur. Bu təməl tarixə, xalqımızın əsrlər boyu yaratdığı dəyərlərə söykənir. Milli ideologiyamıza söykənir ki, onun müəllifi Ulu Öndər Heydər Əliyevdir. Bu gün, eyni zamanda bizim dövlətimiz möhkəm iqtisadi baza üzərində qurulubdur. İqtisadi müstəqillik siyasi müstəqilliyimiz üçün əsas şərtdir.

Azərbaycan bu gün dünya üçün çox önəmli tərəfdaşa çevrilibdir. Beynəlxalq nüfuzumuz artır. Dünya ictimaiyyəti bizi dəstəkləyir. Əgər belə olmasaydı, 155 ölkə bizə səs verməzdi. BMT Təhlükəsizlik Şurasının üzvü olmuşuq. Dünyanın ən mötəbər təşkilatı olan Təhlükəsizlik Şurasına iki dəfə sədrlik etmişik. Bu il Avropa Şurasında sədrlik edəcəyik. Dünyada dostlarımızın, bizimlə əməkdaşlıq etmək istəyənlərin sayı artır. Yəni budur bizim beynəlxalq nüfuzumuz. Beynəlxalq nüfuz,

iqtisadi güc, hərbi potensial, sosial məsələlərin həlli, regional inkişaf proqramlarının uğurla icra edilməsi və prinsipial siyasət.

Hər bir məsələ ilə bağlı bizim prinsipial mövqeyimiz vardır. Azərbaycan hər bir beynəlxalq hadisə ilə bağlı öz prinsipial mövqeyini ifadə edir. Bu mövqe prinsiplər üzərində qurulubdur. Beynəlxalq hüquq və ədalət bu iki prinsip hər bir ölkə üçün ən əsas prinsip olmalıdır. Bizim üçün bu belədir. Bu gün Azərbaycanın dünyada artan hörməti, eyni zamanda bizim prinsipial mövqeyimizdən qaynaqlanır. Bizim tərəfdaşlarımız bilirlər ki, Azərbaycan etibarlı tərəfdaşdır. Bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur.

... Biz inamla irəliyə gedirik. İrəliyə getmək üçün bizim yolumuz açıqdır. Bu yolun təməlini Ulu Öndər qoymuşdur. Bir daha demək istəyirəm ki, biz bu siyasətə sadiqik. Bizim yolumuz müstəqillik, milli ləyaqət, inkişaf, tərəqqi yoludur. Bizi bu yoldan heç kim döndərə bilməz.

## Praqada dövlət və hökumət başçılarının iştirakı ilə "Şərq tərəfdaşlığı" proqramının 5 illiyinə həsr olunan sammitdə plenar iclasda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından

***(24 aprel 2014-cü il)***

... Bildirmək istərdim ki, biz Avropa təsisatları ilə daha yaxından əlaqə qurmağımız baxımından son 5 ili çox əhəmiyyətli hesab edirik. Bu 5 il ərzində ölkəmizdə siyasi, iqtisadi və digər sahələrdə islahatlar həyata keçirmişik. Avropa İttifaqının üzvü olan dövlətlərlə əlaqələrimiz çox geniş və konstruktiv olmuşdur. Bu əlaqələrin mahiyyəti, əlbəttə ki, müsbət istiqamətdə dəyişir. Biz siyasi islahatlara böyük əhəmiyyət veririk və bu baxımdan, Avropa İttifaqı ilə əməkdaşlığımızı önəmli hesab edirik. Demokratik inkişaf, insan hüquqlarının qorunması, qanunun aliliyinin və fundamental azadlıqların təmin olunması bizim əsas prioritetlərimizdəndir. Biz ölkəmizi müasirləşdiririk ...

İqtisadi sahədə biz çox işlər görmüşük. Əsasən, iqtisadi islahatlar nəticəsində və sizə deyə bilərəm ki, Azərbaycan iqtisadiyyatı son on ildə dünyanın ən sürətlə inkişaf edən iqtisadiyyatı olmuş, 3 dəfədən çox artmışdır. Biz yoxsulluğu, işsizliyi aradan qaldıra bilmişik. Yoxsulluq Azərbaycanda 5 faiz təşkil edir. Xarici borcumuz ümumi daxili məhsulun cəmi 8 faizini təşkil edir. Davos Dünya İqtisadi Forumuna əsasən Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyətliliyinə görə dünyada 39-cu yerdədir. Avropa təsisatları ilə əməkdaşlığımız genişdir, siyasi, iqtisadi, ticarət sahələrini, siyasi islahatlar və əlbəttə ki, enerji təhlükəsizliyi məsələlərini əhatə edir. 2011-ci il bu baxımdan əhəmiyyətli olmuşdur. Həmin vaxt prezident Barrozu və mən Bakıda sıx əməkdaşlıq üçün imkan yaradan enerji sahəsində strateji tərəfdaşlıq memorandumu imzaladıq. Bu qısa vaxt ərzində biz böyük uğurlar əldə edə bildik. Xüsusilə Vilnüs Sammitindən 1 ay sonra 45 milyard dollar dəyərində Avropanın ən böyük infrastruktur layihəsi

hesab olunan XXI əsrin sazişini imzaladıq. Əsas investisiya Azərbaycan və bizim tərəfdaşlarımız tərəfindən qoyulacaq. Nəhəng qaz yatağı olan Şah Dənizin işlənməsi, Trans-Anadolu və Trans-Adriatik qaz boru kəmərlərinin tikintisi Avropanın enerji xəritəsini dəyişdirəcəkdir. Bununla da qarşıdan gələn 4-5 il ərzində Avropa üçün yeni qaz mənbəyi açılacaqdır. Düşünürəm ki, Avropa ilə Azərbaycan arasında güclü tərəfdaşlıq elə davam etdirilməlidir ki, biz qarşılıqlı faydalı olan vacib layihələri həyata keçirə bilək ...

Bu gün, təəssüf ki, Ermənistan prezidenti burada fürsətdən istifadə edərək Türkiyəyə yenidən hücum edir. Bunu etmək asandır, çünki bu masa arxasında Türkiyə nümayəndələri yoxdur. Ancaq mən buradayam və Türkiyə–Ermənistan sərhədinin niyə bağlı olduğunu deyə bilərəm. Türkiyə ilə Ermənistan sərhədi Azərbaycanın Kəlbəcər rayonunun 1993-cü ilin aprelində işğalından sonra bağlanıb. Bundan əvvəl isə bütün azərbaycanlılar Dağlıq Qarabağdan qovulub, Dağlıq Qarabağ əhalisinin 30 faizi azərbaycanlılar idi. Kəlbəcərdən əvvəl 1992-ci ildə ermənilər Şuşanı və Laçını işğal etdilər. Daha sonra Ağdam, Füzuli, Zəngilan, Qubadlı, Cəbrayıl – Dağlıq Qarabağın inzibati sərhədlərindən kənarda olan ümumilikdə Azərbaycanın 7 rayonunu işğal etdilər ki, bu da Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisinin 20 faizini təşkil edir. Bizim əhali etnik təmizləməyə məruz qalıb və bu işğal, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, Avropa Parlamentinin qətnaməsi və Avropa Şurası Parlament Assambleyasının qətnaməsinə baxmayaraq, bu günədək davam edir ...

Bizim torpaqlarımız işğal altındadır. Helsinki Yekun Aktında ərazi bütövlüyü və öz müqəddəratını təyinetmə prinsipləri çox aydın əks olunub. Öz müqəddəratını təyinetmə ölkələrin ərazi bütövlüyünün pozulması hesabına əldə olunmamalıdır. Üstəgəl ermənilər artıq öz müqəddəratını təyin ediblər, onların müstəqil Ermənistan dövləti var. Təsəvvür edin, əgər ermənilər hər yaşadıqları yerdə öz müqəddəratını təyin etməyi davam etdirsələr, nə baş verər. Onlar burada – Çex Respublikasında, Gürcüstanda, Rusiyada, Amerikada, yaşadıqları istənilən yerdə eyni yanaşma göstərə bilərlər. Onların öz dövləti

var, onlar öz müqəddəratını təyin ediblər. Münaqişənin tez bir zamanda həlli Azərbaycanın marağındadır. Mən əminəm ki, bu, həmçinin Ermənistan xalqının marağındadır, Cənubi Qafqazda əməkdaşlıq baxımından da maraq dairəsindədir ...

Baxmayaraq mən bilirəm ki, Birləşmiş Ştatlar və Avropa İttifaqı Türkiyə Baş nazirinin mövqeyini yüksək qiymətləndirdilər, ancaq görünür, bu, Ermənistan hökuməti üçün kifayət deyil. Bu, aydın göstərir ki, regionda sülh istəməyən kimdir. Biz sülh istəyirik, biz ərazilərimizin geri qaytarılmasını istəyirik. Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərindən öz qoşunlarını çıxarmağa başlamalıdır. Bunu etmək çox asandır. Yalnız Ermənistan tərəfindən siyasi iradə olmalıdır.

Nəhayət, sonuncu məsələ, Azərbaycan xalqı bir sual verir: Niyə Ermənistana sanksiyalar qoyulmur? Niyə Avropa Şurasındakı Ermənistan nümayəndə heyəti səsvermə və söz hüququndan məhrum edilmir? Onlar digər bir ölkənin ərazilərini işğal ediblər, beynəlxalq hüquq normalarını pozurlar, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini kobud şəkildə pozurlar və heç bir sanksiya tətbiq edilmir, heç bir cəza verilmir. Qanunsuz, kriminal Dağlıq Qarabağ rejiminin qondarma nümayəndələri Avropa paytaxtlarına vizalar alırlar. Bu dözülməzdir və buna son qoyulmalıdır.

# Prezident İlham Əliyevin ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə və Heydər Əliyev Fondunun 10 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə nitqi

***(10 may 2014-cü il)***

Hörmətli xanımlar və cənablar, əziz dostlar!

Bu gün biz Ulu Öndər Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünü qeyd edirik. Keçən il biz Ulu Öndərin adını daşıyan bu möhtəşəm Mərkəzdə Heydər Əliyevin 90 illik yubileyini qeyd etmişdik. 2012-ci il mayın 10-da isə biz bu Mərkəzin açılışını qeyd etmişdik. Bu il Ulu Öndərin adını daşıyan Fondun 10 illiyidir. Bir qədər bundan əvvəl Fondun fəaliyyətinə həsr edilmiş film göstərilmişdir. Filmdə Fondun çoxşaxəli fəaliyyəti haqqında qısa bir məlumat verilmişdir.

Çünki Fondun 10 il ərzində gördüyü işlər o qədər böyükdür ki, əlbəttə, bir filmdə o işləri göstərmək mümkün deyildir.

Fonda 10 il ərzində Mehriban Əliyeva rəhbərlik edir. Onun rəhbərliyi ilə Fond nəinki Azərbaycanda, eyni zamanda regionda görülən işlərin həcminə görə ən böyük ictimai təşkilata çevrilmişdir. Mehriban Əliyevanın rəhbərliyi ilə bir neçə istiqamət üzrə konkret proqramlar icra edilmişdir. Bir çox hallarda Fondun təşəbbüsləri bir qədər sonra həm ictimai təşkilatlar, eyni zamanda dövlət qurumları tərəfindən dəstəklənmiş və bir növ, dövlət proqramına çevrilmişdir. Xüsusilə Fondun təşəbbüsü ilə başlanmış "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi bu gün geniş vüsət almışdır və dövlət bu proqrama qoşularaq son 10 il ərzində 3 minə yaxın yeni məktəb tikdirə bilmişdir. "Xocalıya ədalət!" kampaniyası da məhz Fondun təşəbbüsü ilə başlamışdır. Ondan sonra dövlət qurumları, ictimai qurumlar bu təşəbbüsə qoşulmuşlar və nəticə etibarilə qısa müddət ərzində 10-dan çox ölkə Xocalı soyqırımını rəsmən soyqırımı kimi qəbul etmişdir.

Səhiyyə ilə bağlı təşəbbüslər geniş vüsət almışdır. Azərbaycan mədəniyyətinin, mədəni irsimizin qorunması, dünyada təbliği işində

Fond əvəzsiz rol oynamışdır. Bizim milli sərvətimiz olan muğam sənəti UNESCO-nun dünya qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. Əlbəttə ki, bütün bunlar filmdə öz əksini tapıbdır. Sadəcə olaraq mən bu gün Fondun fəaliyyətinəöz münasibətimi bildirmək istəyirəm. Deyə bilərəm ki, bu 10 il ərzində bu məsələ ilə bağlı mənim ilk çıxışımdır. Ona görə Azərbaycan dövləti adından Fonda, Fondun bütün işçilərinə minnətdarlığımı bildirmək istəyirəm.

Onu da qeyd etmək istəyirəm ki, Fondun işçilərinin sayı o qədər də çox deyildir. Fondun işçilərinin tərkibi çox məhdud saydadır. Ancaq buna baxmayaraq peşəkardırlar, enerjilidirlər, biliklidirlər və işçilərin mütləq əksəriyyəti gənclərdir.

Bu gün Heydər Əliyev Fondu Ulu Öndərin adını şərəflə daşıyır, Ulu Öndərin xatirəsinə layiq fəaliyyət göstərir. Heydər Əliyev tarixi şəxsiyyətdir, müstəqil Azərbaycan dövlətinin qurucusudur, bizim xilaskarımızdır. Bir-biri ilə tamamilə ziddiyyət təşkil edən iki dövlət quruluşunda Azərbaycana rəhbərlik etmişdir. 1969-1982-ci və 1993-2003-cü illər Azərbaycan tarixində Heydər Əliyevin rəhbərliyi ilə inkişaf illəri kimi qalacaqdır. İki tamamilə fərqli bir ictimai-siyasi mühitdə Azərbaycan ən yüksək zirvələrə qalxa bilmişdir.

Birinci mərhələdə Azərbaycan müstəqil deyildi, başqa ölkənin tərkibində idi. Eyni zamanda sistem də tam başqa idi. Demokratik sistem deyildi.

İkinci dövr isə müstəqillik, demokratiyanın inkişafı və sürətli inkişaf dövrü idi. 1969-cu ildə isə Azərbaycan müttəfiq respublikalar arasında deyə bilərəm ki, ən axırıncı yerdə idi. Bunu statistik göstəricilər də təsdiq edir. Bu illəri xatırlayan insanlar da deyə bilərlər ki, o vaxt sovet məkanında Azərbaycan ən geridə qalmış bir respublika idi.

Heydər Əliyevin rəhbərliyi ilə aparılan böyük quruculuq işləri nəticəsində Azərbaycan 12 il ərzində SSRİ-də ən qabaqcıl yerlərə çıxa bilmişdir. Sovet İttifaqı dağılanda məlum olmuşdur ki, bu İttifaqda cəmi iki respublika özünü tam şəkildə təmin edirdi və donor kimi fəaliyyət göstərirdi. Onlardan biri də Azərbaycan idi. Məhz o illərdə Azərbaycanda o vaxta uyğun olaraq müasir sənaye kompleksi yaradılmış-

dır. Azərbaycan aqrar respublikadan sənaye respublikasına çevrilmişdir. Xüsusilə neft-qaz sənayesi üçün çox vacib olan məsələlər məhz o illərdə öz həllini tapmışdır. O layihələr bu gün də müstəqil Azərbaycana xidmət göstərir. Sənaye potensialının, kənd təsərrüfatının inkişafı o vaxt Azərbaycan üçün böyük imkanlar açmışdır. İnsanların rifah halı yaxşılaşmışdır. Bir daha demək istəyirəm ki, Azərbaycan o illərdə imkanlardan maksimum istifadə edib öz inkişaf dövrünü yaşayıb.

Respublikamızın çox zəngin mədəni həyatı vardır. Bütün bunlar Ulu Öndərin şəxsiyyəti ilə bağlı olan məsələlər idi. Məhz o illərdə, deyə bilərəm ki, sovet məkanında ilk dəfə olaraq korrupsiya və rüşvətxorluğa qarşı mübarizə başlamışdır və bu, sovet məkanında bir yenilik idi. Bu yeniliyin müəllifi Heydər Əliyev olmuşdur. 1982-ci ildə Moskva dövrü başlamışdır. O dövr də çox əhəmiyyətli idi. Çünki Heydər Əliyev böyük, super dövlətin rəhbərliyində təmsil olunurdu. Baş nazirin birinci müavini idi. Azərbaycana da, əlbəttə ki, öz qayğısını göstərirdi.

Ancaq Azərbaycanda artıq 1982-ci ildən başlayaraq işlər yavaş-yavaş tənəzzülə uğramağa başlamışdır. İlk illərdə hələ inersiya gücü var idi. Ondan sonra isə durğunluq dövrü başlanmışdır. Təsadüfi deyil ki, Heydər Əliyev 1987-ci ildə bütün vəzifələrdən gedəndən sonra Azərbaycan çox böyük problemlərlə, fəlakətlərlə üzləşmişdir. O, siyasi hakimiyyətdən gedəndən sonra cəmi 2 həftə keçməmiş erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirməklə bağlı məsələ qaldırmışdır. Məhz Heydər Əliyevin siyasi hakimiyyətdə olmaması ermənilər ruhlandırırdı. Çünki Heydər Əliyev amili imkan vermirdi ki, onlar bu çirkin iddiaları irəli sürsünlər. Ondan sonra Azərbaycana qarşı elan olunmamış müharibə başlamışdır, Qanlı Yanvar faciəsi törədilmişdir. O ağır, faciəvi anlarda yenə də Heydər Əliyev öz haqq səsini ucaltdı. Moskvada Azərbaycanın daimi nümayəndəliyində sovet hakimiyyətinin hərəkətlərini pislədi, Sovet İttifaqının başında duran şəxsi pislədi. Bütün dünyaya bu faciə haqqında öz sözlərini bəyan etdi. Bu, böyük cəsarət tələb edən bir addım idi. Çünki Sovet İttifaqının dağılmasına hələ 2 il vaxt var idi. Heç kimin ağlına gələ bilməzdi ki, nə vaxtsa Sovet İttifaqı dağıla bilər.

Heydər Əliyev, sadəcə olaraq, susa bilmirdi. O ağır anlarda öz xalqına mənəvi dəstək vermişdir. Ondan sonar, təbii ki, totalitar maşın, totalitar dövlət ona qarşı hərəkətə keçdi. Onun həbs edilməsi ilə bağlı hazırlıq işləri aparılırdı. Moskvadan Bakıya gəlməyə məcbur olmuşdur. Burada da yaşamağa imkan vermədilər. Öz doğulduğu yerə – Naxçıvana üz tutdu.

Beləliklə, onun həyatında Naxçıvan dövrü başlayır. Bu dövr də həm Naxçıvan üçün, həm müstəqilliyimiz üçün həlledici dövrdür. Çünki Azərbaycanın dövlət müstəqilliyinin əsasları məhz Naxçıvanda qoyulmuş, məhz Naxçıvanda Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı elan edilmişdir. Sovet İttifaqının saxlanması ilə bağlı referendum Naxçıvanda keçirilməmişdir. Naxçıvanı blokadadan çıxarmaq üçün böyük səylər göstərildi. Erməni işğalçılara böyük zərbə vuruldu. Naxçıvan qorundu, Naxçıvanın ərazi bütövlüyü qorundu və saxlanıldı.

Təsadüfi deyil ki, Azərbaycanda vətəndaş müharibəsi başlayanda və torpaqlarımızın bir hissəsi işğal altına düşəndə xalq öz ümidini Heydər Əliyevin adı ilə bağlamışdır. 1993-cü ildə qardaş qırğını başlamışdır. O vaxt antimilli, xəyanətkar AXC-Müsavat hakimiyyəti qardaş qanını axıtdı. Bir tərəfdən, torpaqlarımız işğal altına düşürdü, digər tərəfdən isə vətəndaş müharibəsi baş alıb gedirdi. Belə ağır vəziyyətdə xalqın tələbi ilə Heydər Əliyevin hakimiyyətə qayıtması Azərbaycanı böyük bəlalardan xilas etdi.

O dövrü təhlil edərkən daim bir məsələ diqqət çəkir: Əgər Heydər Əliyev Azərbaycanda olsaydı, əgər müstəqilliyin lap əvvəlindən, Sovet İttifaqı dağılan zaman Azərbaycanda rəhbərlikdə olsaydı, heç vaxt Dağlıq Qarabağ və ətraf bölgələr işğal altına düşməzdi. Ancaq tarix tarixdir. 1993-cü ildə xalqın dəstəyi, etimadı və tələbi ilə Heydər Əliyev Azərbaycanın Prezidenti seçildi. Bundan sonra ölkəmiz üçün yeni bir dövr başlanmışdır – sabitlik, təhlükəsizlik və inkişaf dövrü. Köklü islahatlar başlanmışdır, dövlətçiliyin əsasları qurulmuşdur, müstəqil Azərbaycanın Konstitusiyası qəbul edilmişdir, cəmiyyətimizin ideoloji əsasları formalaşdırılmışdır, azərbaycan-

çılıq məfkurəsi dövlət ideologiyası kimi qəbul edilmişdir, demokratik inkişaf, insan hüquqları ilə bağlı çox ciddi islahatlar başlamışdır. Azərbaycan beynəlxalq təşkilatlara üzv olmuşdur, Azərbaycana qarşı aparılan təbliğat kampaniyasına tutarlı cavablar verilməyə başlamışdır. Biz informasiya blokadasını yara bilmişdik. Məhz o illərdə xarici siyasətimizin əsas prinsipləri müəyyən edilmişdir və biz bu gün də bu prinsiplərə sadiqik.

Bir sözlə, ölkəmiz üçün ən ağır, faciəvi bir dövrdə Heydər Əliyevin şəxsi keyfiyyətləri, biliyi, cəsarəti, uzaqgörənliyi və xalqa olan məhəbbəti öz həlledici sözünü demişdir. Azərbaycan bu ağır sınaqdan şərəflə çıxa bilmişdir.

1993-2003-cü illərdə ölkəmizin hərtərəfli inkişafı ilə bağlı müxtəlif proqramlar qəbul edilmişdir, islahatlar aparılmışdır. Heydər Əliyev neft strategiyası müəyyən edilmişdir və bu gün hər bir Azərbaycan vətəndaşıöz gündəlik həyatında bu siyasətin əlamətlərini görür. Çünki bizim uğurlu iqtisadi inkişafımızın təməli məhz o illərdə qoyulmuşdur.

Bu gün Azərbaycan inamla, uğurla inkişaf edir. Biz Heydər Əliyevin davamçıları onun siyasi xəttinə sadiqik. Son on il ərzində Azərbaycan bu yolla gedir, Heydər Əliyevin siyasi vəsiyyətinə sadiqdir və ölkəmizin bugünkü reallıqları, bugünkü vəziyyəti bu yolun nə qədər düzgün olmasını əyani şəkildə sübut edir.

2003-cü ildə xalq Heydər Əliyev siyasətinə səs vermişdir. Mən isə söz vermişdim ki, bu siyasətə sadiq qalacağam. Bizim verdiyimiz bütün vədlər həyatda öz əksini tapmışdır və 2008-ci ildə yenidən Azərbaycan xalqı öz etimadını göstərmişdir.

Ölkəmizin son on il ərzindəki dünya miqyasında iqtisadi sahədə analoqu olmayan inkişafı, əlbəttə ki, 2013-cü ildə xalqın seçiminə təsir göstərmişdir.

Bu gün isə yeni dövr başlayır – yeni onillik dövr. Bu dövrdə biz əvvəlki illərdə əldə edilmiş möhkəm təməl üzərində möhkəm Azərbaycan dövlətini gücləndirəcəyik. Son on il ərzində biz bütün istiqamətlər üzrə böyük uğurlara imza atdıq.

Biz beynəlxalq aləmdə çox etibarlı tərəfdaş kimi özümüzü təsdiq etdik. Beynəlxalq ictimaiyyət bizim mövqeyimizi dəstəkləyir. Beynəl-

xalq ictimaiyyətin mütləq əksəriyyəti öz səsini Azərbaycana vermişdir. BMT Təhlükəsizlik Şurasına seçildikdə 155 ölkə bizə inandı, bizi dəstəklədi. Əminəm ki, öz seçimində haqlı olduğunu gözəl analyır və bizim namizədliyimizə öz səsini verdiyinə görə peşman olmadı.

İqtisadi sahədə son on ildə dünya miqyasında Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. Bu da bizim böyük nailiyyətimizdir, aparılan siyasətin nəticəsidir. Müstəqil siyasətin nəticəsidir. Azərbaycanda şaxələndirmə ilə bağlı işlər aparılır. Enerji təhlükəsizliyi məsələləri Azərbaycanda həll olunur və burada biz liderlik mövqelərimizi daha da möhkəmləndiririk. Nəzərdə tutulmuş bütün layihələr uğurla icra edilmişdir. Çox ağır şəraitdə həm iqtisadi, həm geosiyasi vəziyyəti nəzərə alaraq bu layihələrin icra edilməsi tarixi nailiyyətdir.

Azərbaycanda regionların inkişafı ilə bağlı qəbul edilmiş proqramlar artıqlaması ilə icra edilmişdir. On il ərzində bu proqramların icrası nəticəsində işsizlik demək olar ki, aradan götürülübdür. Yoxsulluq kimi bəla demək olar ki, aradan götürülübdür. Əldə edilmiş bu uğurlar və daha da artan gücümüz imkan verəcək ki, biz növbəti illərdə də nəzərdə tutulan bütün məsələləri həll edək.

Yeni dövr başlayıb. Bu, 10 illik dövrüdür. 2023-cü ilə qədər nəzərdə tutulan bütün işlər görüləcəkdir. Əminəm ki, o vaxta qədər Azərbaycan indikindən bir neçə dəfə güclü olacaqdır. Bunu deməyə əsas verən bizim 20 illik tariximizdir, ardıcıl inkişafdır, strateji baxışlarımızdır və konkret addımlarımızdır.

Azərbaycan müstəqil dövlət kimi müstəqil siyasət aparır. Bu gün bizim iqtisadi gücümüz müstəqilliyimizin əsasını təşkil edir. Bu günə qədər görülən işlər və indi başlanan layihələr bizim gücümüzü bir neçə dəfə artıracaqdır. Bu faktdır. Yəni bu, bizim gördüyümüz və görüləcək işlərin nəticəsində olacaqdır.

Azərbaycan bölgədə möhkəm mövqelərə malikdir. Bu mövqelər ildən-ilə ancaq və ancaq möhkəmlənəcəkdir. Çünki artıq bizim iştirakımız olmadan bölgədə heç bir məsələ öz həllini tapa bilməyəcəkdir. Bir sözlə, biz ölkəmizin inkişafı ilə bağlı uzunmüddətli strategiyamızı müəyyən etmişik.

Ölkəmizin inkişafı ilə bağlı fundamental istiqamətlər Ulu Öndər tərəfindən müəyyən edilmişdir. Ancaq, təbii ki, həyat yerində durmur, dünya dəyişir, prinsiplər dəyişir, beynəlxalq vəziyyət dəyişir. Biz görürük ki, öz yerimizi möhkəmləndirmək üçün daha da güclü olmalıyıq, daha da güclü iqtisadiyyata, sənaye potensialına, orduya malik olmalıyıq. Daha da güclü beynəlxalq mövqelərimiz olmalıdır. Bizim sözümüz bütün mötəbər tribunalardan səslənir. Biz sözümüzü deyirik. Bizim sözümüz ədalətdir və həqiqətdir. Ədalət və həqiqət bizim tərəfimizdədir. Ona görə strateji xəttimizi nəzərə alaraq biz öz ardıcıl addımlarımızı atırıq və atacağıq. Əminəm ki, hər bir vətənpərvər Azərbaycan vətəndaşı bu gün cəmiyyətdə mövcud olan həmrəylik, vətənpərvərlik duyğuları ilə fəxr edir. Fəxr edir ki, Azərbaycan bu zirvələrə çata bilmişdir.

Cəmiyyətdə səfərbərlik, həmrəylik də çox önəmlidir. Elə cəmiyyətlər vardır ki, onlar ideoloji məsələlər ətrafında bir-biri ilə mübahisə aparırlar. Elə cəmiyyətlər vardır ki, orada bölgü coğrafi xarakter daşıyır. Azərbaycan cəmiyyəti monolitdir. Bizi bir-birimizə bağlayan əsas amil həmrəylikdir və düzgün seçilmiş hədəfdir. Hədəf isə çox aydındır. Biz müasir dövlət qururuq, azad cəmiyyət yaradırıq, demokratiyanın inkişafı əsas şərtdir, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə bundan sonra daha da ciddi aparılacaqdır. Biz ancaq və ancaq öz gücümüzə güvənirik. Bu siyasət öz səmərəsini vermişdir. İqtisadi gücümüz artdıqca müstəqillik də möhkəmlənəcəkdir. Müstəqillik isə bizim ən böyük sərvətimizdir, ən böyük nailiyyətimizdir. Tarixə baxsaq, Azərbaycanda müxtəlif dövrlərdə dövlətçilik ənənələri olmuşdur. Amma Azərbaycan heç vaxt bugünkü qədər güclü və müstəqil olmamışdır.

Bu gün – Ulu Öndərin doğum günündə bir daha yaxın tarixə nəzər salırıq. Heydər Əliyevin Azərbaycan xalqı üçün nə qədər böyük və tarixi işlər gördüyünü bir daha görürük. Ona görə Azərbaycan xalqı Heydər Əliyevin xatirəsini öz qəlbində saxlayır, yaşadır. Biz – onun davamçıları isə bundan sonra da Ulu Öndərin siyasi xəttinə sadiq qalaraq doğma Vətənimizi irəliyə aparacağıq.

Sağ olun!

## Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar!

Bu yubiley gecəsində sizin hamınızı səmimi–qəlbdən salamlayıram.

Bu gün biz Heydər Əliyev Fondunun yubileyinə toplaşmışıq və hər şeydən öncə, cənab Prezident, Heydər Əliyev Fondunun bütün əməkdaşları adından bizim fəaliyyətimizə verdiyiniz yüksək qiymətə görə Sizə öz dərin minnətdarlığımı bildirirəm.

On il bundan əvvəl – 2004-cü il mayın 10-da Heydər Əliyev Fondu öz fəaliyyətinə başladı. Fond müasir Azərbaycan dövlətçiliyinin əsaslarını qoymuş, müstəqil Azərbaycanın siyasi, iqtisadi və mənəvi dirçəlişini təmin etmiş şəxsin adını daşıyır. Biz fəaliyyətimizin ilk günündən atdığımız addımlarla, gördüyümüz işlərlə bu yüksək ada layiq olmağa çalışmışıq.

On il ərzində biz xeyli nailiyyətlər əldə etmişik. Bizim ən böyük nailiyyətimiz və uğurumuz Azərbaycan xalqının inamını və etimadını qazanmağımızdır. Bu, əvəzsiz bir mükafatdır.

Biz diqqətimizi ölkəmizdə həllini tapmayan problemlərin aradan qaldırılmasına yönəltdik. Biz Azərbaycanda çoxəsrlik köklərə malik olan xeyriyyəçilik və mərhəmət ənənələrinə arxalanaraq, köməyə ehtiyacı olan hər kəsin yanında olmağa çalışdıq. Biz valideyn himayəsindən məhrum olan uşaqlara, qocalara, qaçqın və məcburi köçkünlərə, müxtəlif xəstəliklərdən əzab çəkən insanlara qayğı göstərməyi, onlara mənəvi dayaq olmağı prioritet məsələ kimi daim diqqət mərkəzində saxladıq. Ölkəmizdə mövcud olan uşaq evləri və internat məktəblərini tamamilə yenidən qurub onlarda ailə mühitinin formalaşdırılması, fiziki qüsurlu insanların cəmiyyətə qovuşmaları üçün normal şəraitin yaradılması, uşaq evlərini tərk edən gənclər

üçün yaşayış binaları, qaçqın və məcburi köçkün ailələri üçün yaşayış massivlərinin inşa olunması sübut etdi ki, belə insanlara qayğı, belə insanlara kömək bizim fəaliyyətimizin əsas amillərindən biridir.

Əziz qonaqlar, bir az əvvəl siz Fondun fəaliyyəti haqqında filmə baxdınız. Doğrudan da, filmi hazırlayarkən biz müəyyən çətinliklərlə üzləşdik. Çünki bu 10 il ərzində Fond tərəfindən icra olunan layihələr, proqramlar ölkəmizin həyatının bir çox sahələrini əhatə edir və əldə olunan nəticələr o qədər genişdir ki, qısa bir filmdə görülən bütün işləri əks etdirmək o qədər də asan deyildi.

Fond tərəfindən icra olunan irimiqyaslı layihələr –"Yeniləşən Azərbaycana yeni məktəb", "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Təhsilə dəstək", "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", "Xocalıya ədalət", "Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması", "Tolerantlığın ünvanı Azərbaycan" və s. Bütün bu layihələrin nəticələrini biz bu gün görürük və əslində görülən bütün bu işlər Azərbaycanın ümumi inkişaf strategiyasının tərkib hissəsinə çevrilib.

Siz, cənab Prezident, tamamilə düz qeyd etdiniz və bu, bizi şad edir ki, çox hallarda Fond tərəfindən start verilən layihələr, Fondun təşəbbüsləri sonradan dövlət tərəfindən dəstəklənir və ölkədə daha geniş bir şəkildə icra olunur. 2005-ci ildə Fond "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsini başladı və bu layihə çərçivəsində Fondun dəstəyi ilə ölkəmizdə 412 yeni məktəb inşa olundu. Sonradan bu proqramı dövlət dəstəklədi və ölkəmizdə 3 mindən artıq məktəb təmir olundu və yaxud yenidən quruldu.

Bir neçə il bundan əvvəl ölkəmizdə genetik xəstəliklərin yayılmasının qarşısını almaq üçün Fond tərəfindən "Talassemiyasız həyat naminə" proqramına başladıq və bu proqram çərçivəsində paytaxtımızda regionun ən böyük Talassemiya Mərkəzini inşa etdik. Bu gün bu xəstəliklərlə mübarizə üçün dövlət tərəfindən xüsusi proqram hazırlanır.

Bizim fəaliyyətimizin digər çox vacib istiqaməti Azərbaycanın zəngin tarixi və mədəni irsinin qorunub saxlanması, təbliğ edilməsi

və dünya ictimaiyyətinə tanıdılmasıdır. Fondun dəstəyi ilə Azərbaycanın müxtəlif regionlarında onlarla tarixi-memarlıq, dini abidələr bərpa olunub. Bakıda məscidlər, kilsələr, sinaqoqlar təmir və bərpa olunub. Məhz Fondun təşəbbüsü ilə paytaxtımızda Beynəlxalq Muğam Mərkəzi inşa olunub və hər il muğam müsabiqəsi keçirilir. Qəbələ Beynəlxalq musiqi festivalı, Rostropoviç və Şostakoviç festivalları artıq ənənəvi şəkildə keçirilir və öz auditoriyasını qazanıb. Azərbaycanın qədim xalçaçılıq sənəti artıq UNESCO-nun Ümumbəşəri Mədəni İrs Siyahısına daxil edilib və bizim xalçalar dünyanın ən məşhur muzeylərində nümayiş olunur.

Biz dünyanın müxtəlif ölkələrində Azərbaycan günləri və Azərbaycan gecələri keçirməklə Azərbaycanın keçmişini, Azərbaycanın tarixini, mədəniyyətini, bu gününü, müstəqil Azərbaycanın nailiyyətlərini, ölkəmizdə hökm sürən tolerantlıq və dözümlülük ab-havasını bütün dünyaya göstərmək, bütün dünyaya tanıtmaq istəyirik. Belə görüşlərdə insanlar Azərbaycanı özləri üçün yenidən kəşf edirlər. Dünyanın ən möhtəşəm zallarında qədim Azərbaycan muğamı səslənir və sərgilərdə müasir Azərbaycanın müasir incəsənət xadimlərinin əsərləri ilə tarixi artefaktlar birgə nümayiş olunur.

Eyni zamanda biz hər bir xalqın mədəni irsini ümumbəşəri dəyər kimi qəbul edirik. Bu irsin qorunmasına Azərbaycandan kənarda da öz töhfəmizi veririk. Heydər Əliyev Fondunun dəstəyi ilə Strasburq Kafedral kilsəsinin vitrajları, Versal sarayındakı abidələr, Fransanın müxtəlif regionlarında yerləşən kilsələr, Berlin qəsri, Roma katakombaları, Vatikan kitabxanasında saxlanılan dəyərli foliantlar bərpa olunur.

Bu 10 il ərzində biz fəaliyyətimizi genişləndirərək bir sıra çox nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq qurmuşuq, birgə layihələr icra etmişik. Bizim tərəfdaşlarımız arasında UNESCO, İSESCO, UNİCEF, BMT İnkişaf Fondu kimi nüfuzlu beynəlxalq qurumlar vardır. Fondun Rusiya, Türkiyə, Rumıniya, Amerika Birləşmiş Ştatlarındakı nümayəndəlikləri çox uğurla fəaliyyət göstərir.

Çox sevindirici haldır ki, son zamanlar Azərbaycan gəncləri Fondun təşəbbüslərinə çox geniş şəkildə qatılır. Ətraf mühitin qorunması

sahəsində Fond tərəfindən hazırlanan proqramlar, təşəbbüslər artıq ölkəmizdə yeni bir gənclər hərəkatına çevrilib və IDEA kampaniyası çərçivəsində Azərbaycanda 3 milyondan çox ağac əkilib.

Eyni zamanda biz ölkəmizin ən ağrılı problemi olan Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həqiqətlərini dünya ictimaiyyətinə çatdırırıq. Hər il Fond müxtəlif dillərdə yüzlərlə nəşrlər hazırlayır, onu bütün dünyaya yayır. Biz bu gün "Xocalıya ədalət!" kampaniyasının müsbət nəticələrini görürük.

Bir sözlə, əziz qonaqlar, 10 il ərzində görülən işlərin sayı çoxdur. Əldə edilən nəticələr də çox gözəldir. Bizim Fondun əməkdaşlarını birləşdirən amillər çox sadədir. Bu, vətənpərvərlik, mərhəmət, insansevərlik, doğma xalqımıza və ölkəmizə xidmət etməkdir. Bu gün mən fürsətdən istifadə edərək, Fondun bütün əməkdaşlarına, bizim komandamıza bu 10 il ərzində göstərdikləri işgüzarlıq, peşəkarlıq, insansevərlik, vətənpərvərlik keyfiyyətlərinə görə dərin minnətdarlığımı bildirirəm. Bizimlə əməkdaşlıq quran, bizi dəstəkləyən, bizə kömək edən hər bir quruma, hər bir təşkilata, hər bir insana bu gün mən öz dərin minnətdarlığımı bildirirəm.

Qarşıda bizi yeni çağırışlar, yeni hədəflər, yeni qələbələr gözləyir və mən əminəm ki, biz bütün çətinliklərin öhdəsindən birgə gələrək yeni nailiyyətlərə imza atacağıq.

Bir daha bu axşam bizimlə olduğunuza görə sizə öz dərin minnətdarlığımı bildirirəm. Çox sağ olun. Sizə xoş axşam arzulayıram.

## AMEA-nın müxbir üzvü, Tarix İnstitutunun direktoru Yaqub Mahmudovdan, Bakı, Azərbaycan

Zati-aliləri, çox hörmətli cənab Prezident!

Sizi prezident seçkilərində qazandığınız halal və möhtəşəm qələbə münasibətilə səmimi-qəlbdən təbrik edirəm!

Müdrik xalqımız 2003-cü ildə dahi Heydər Əliyevin əmanəti olan yeni Azərbaycan dövlətinin taleyini Sizə etibar etdi! Ötən 5 ildə Siz Heydər Əliyevin qurduğu müstəqil Azərbaycanı və üçrəngli bayrağımızı göylərə ucaltdınız. Bakı ilə yanaşı, regionlarda apardığınız böyük quruculuq işləri ilə Siz Azərbaycan tarixinə Qurucu Prezident kimi daxil oldunuz.

Möhtərəm cənab Prezident!

Heydər Əliyev ideyalarına və Sizə ürəkdən bağlı olan bir ziyalı kimi Vətənimizin bütün bölgələrində Sizə olan ümumxalq məhəbbəti məni çox sevindirir. Sizin səlahiyyətli vəkiliniz kimi Şəki, Oğuz, Qax, Zaqatala, Balakən rayonlarında keçirdiyim çoxsaylı görüşlərdə, zirvə mitinqlərində Sizə olan bu sevgi və ehtiramın bir daha şahidi oldum. Xalqimiz Sizi çox sevir! Keçirdiyim görüşlər zamanı ağsaqqallar, ağbirçəklər, gənclərin nümayəndələri Sizə salam yetirməyi bir vəkil kimi məndən xahiş edirdilər.

Əziz Prezidentimiz!

Bütün Azərbaycan əhalisi bu mürəkkəb dünyada xalqımızı gözlənilən və gözlənilməz risklərdən, təhlükələrdən böyük cəsarətlə və qətiyyətlə qoruduğunuz üçün Sizə hədsiz minnətdardır! Lap bu yaxınlarda baş vermiş Gürcüstan–Rusiya münaqişəsi zamanı Sizin Azərbaycanı çox böyük fəlakətdən xilas etdiyinizi ölkəmizin hər yerində bütün insanlar dərindən başa düşür və şərəfinizə dualar edirlər!

Möhtərəm cənab Prezident!

Seçkilərdə möhtəşəm qələbəniz Azərbaycana könüldən, candan bağlı olan hər bir Vətən övladı kimi məni çox sevindirir. Sizi bir daha ürəkdən təbrik edirəm! Ulu Tanrı və ümumxalq sevgisi həmişə Sizə yar olsun!

Azərbaycanımızı Heydər Əliyev kimi qoruyan və hər bir mürəkkəb situasiyada milli mənafeylərimizin keşiyində sərvaxt duran qətiyyətli Prezidentimizə eşq olsun!

***Şəxsiyyətinizə dərin hörmət və ehtiram bəsləyən,***
***AMEA-nın müxbir üzvü, Tarix İnstitutunun direktoru,***
***Milli Məclisin deputatı Yaqub Mahmudov***
***28 oktyabr 2008***

**Yaqub Mahmudovdan, Bakı, Azərbaycan**

**Hörmətli cənab Prezident!**

Məni müstəqil Azərbaycan dövlətinin "Şərəf" ordeninə layiq gördüyünüz üçün Sizə ən səmimi, ən xoş duyğularla dərin minnətdarlığımı yetirməyi özümə borc sayıram! İmzaladığınız 2009-cu il 14 fevral tarixli Sərəncamınızla Siz təkcə mənim əməyimə deyil, bütövlükdə, Azərbaycan elminə, Milli Elmlər Akademiyasının böyük potensialına, təhsilimizə, Bakı Dövlət Universitetinin professor-müəllim heyətinə, Azərbaycan dövlətinin daha da möhkəmləndirilməsi naminə apardığınız çox çətin, qətiyyətli və prinsipial mübarizədə həmişə Sizi dəstəkləyən və Sizinlə qürur hissi keçirən Milli Məclisimizin deputat korpusuna, bütün Azərbaycan ziyalılığına və əlbəttə, milli oyanışımızda yaxından iştirak edən, erməni təcavüzkarlığına qarşı informasiya mübarizəsində daim Sizin yanınızda olan Azərbaycan tarixçilərinin əməyinə çox böyük qədir-qiymət qoydunuz!

Zati-aliləri! Mənim barəmdə imzaladığınız Sərəncam, əlbəttə, hər şeydən əvvəl, bir Prezident olaraq Sizin sadə bir vətəndaş - ziyalıya göstərdiyiniz diqqət, həm də yüksək dövlət qayğısıdır. Bununla yanaşı, böyük məmnunluqla etiraf edirəm ki, layiq gördüyünüz "Şərəf" ordeni yaşadığımız son dərəcə mürəkkəb dünyada doğma xalqımızın, müqəddəs Azərbaycanımızın keşiyində ayıq-sayıq dayanan, ən çətin, ən ağır geosiyasi vəziyyətlərdə misilsiz müdriklik, qətiyyət, cəsarət və Heydər Əliyev dəyanəti nümayiş etdirən böyük dövlət xadimi, xalqımızın sevimli oğlu olan şəxsən Sizin – İlham Əliyevin diqqət və qayğısı kimi məndən ötrü daha qiymətli, daha əzizdir!

Əziz İlham müəllim! 70 il ömür az deyil! Mən tutduğum yola, həyat prinsiplərimə görə zamanın sərt sınaqları ilə, gözləmədiyim haqsızlıqlarla, təqib, təzyiq və hücumlarla az üzləşməmişəm! Ötən əsrin 50-ci illərindən – tələbəlik dövründən tanıdığım dahi Heydər Əliyevin oddan-alovdan keçərək Ata yurdumuz Azərbaycanı bu günlərə necə gətirib çıxarmasının canlı şahidiyəm. Özümü çox xoşbəxt sayı-

ram ki, Heydər Əliyevin müstəqil Azərbaycan naminə apardığı "olum ya ölüm" çarpışmalarında sadəcə, müşahidəçi olmamışam. Ulu Öndərin bir çox məsul tapşırıqlarını yerinə yetirmək səadəti də qismətimə düşüb. Qələmimdən xeyli tədqiqat işləri çıxsa da, Ulu Öndərə həsr etdiyim yazıları, əsərləri, "Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti" kitabımı vətəndaşlıq mövqeyimin zirvəsi hesab edirəm! Ümumdünya tarixinin dahi şəxsiyyəti olan Heydər Əliyevin "böyük tarixçi" adlandırılması mənim üçün dünyanın ən böyük qiymətidir.

Hörmətli İlham Heydər oğlu! Bu gün mən, ölkəmizin bütün vətəndaşları kimi, sabaha böyük inamla yaşayıram, mənəvi cəhətdən çox rahatam! Rahatam ona görə ki, əziz Prezidentimiz, Siz Heydər Əliyevin əmanəti olan müstəqil Azərbaycanı göylərə qaldırdınız. Azərbaycanımızı Cənubi Qafqazın lider dövlətinə və dünyanın ən sürətlə inkişaf edən ölkəsinə çevirdiniz. Azərbaycan xalqı xoşbəxtdir ki, onun Prezidenti İlham Əliyev bugünkü sürətlə dəyişən, dinamik dünyanın nəbzini əlində saxlayır, müasir, çevik, cəsarətli və qətiyyətli dövlət xadimi kimi beynəlxalq aləmdə, dövlətlərarası münasibətlərdə sürətlə baş verən dəyişikliklərdən öz Vətəninin və doğma xalqının xeyrinə məharətlə istifadə edir, yurdumuzu gözlənilən və gözlənilməz risklərdən uğurla qoruyur, qloballaşma və inteqrasiya prosesləri nəticəsində dünya meydanında baş verə biləcək bütün dəyişiklikləri irəlicədən görür və Azərbaycanı bu dəyişiklikləri qarşılamaq üçün qabaqcadan hazırlamağı bacarır, öz Vətənini həyatın bütün sahələrində zəfərdənzəfərə qovuşdurur. Bir sözlə, Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır, qalib gəlir və zəfər yürüşünə davam edir! Xalqımızı qələbədən-qələbəyə qovuşduran bu zəfər yürüşünə Yeni Azərbaycanın yeni lideri, dünyanın mürəkkəb siyasət meydanında Vətənimizə başucalığı gətirən İlham Əliyev başçılıq edir!

Əziz Prezidentimiz! Mən ölkəmizdə həyata keçirilən müxtəlif xarakterli ictimai-siyasi tədbirlərlə bağlı tez-tez bölgələrimizdə oluram, daim xalq içərisindəyəm. Hər yerdə şahidi oluram və bir ziyalı kimi böyük qürur hissi keçirirəm ki, xalq Sizi hədsiz məhəbbətlə sevir, Sizə güvənir, Sizə inanır! Xalqla Sizin aranızda sarsılmaz birlik

yaranmışdır! Atdığınız bütün addımlarda, gördüyünüz bütün işlərdə Siz xalqa arxalandığınız kimi, Azərbaycan xalqı da Sizə arxalanır. Ölkə başçısı üçün bu, çox böyük səadətdir. Prezident olmaqdan əlavə, insan kimi də son dərəcə sadə, son dərəcə təvazökar, son dərəcə açıqürəkli, xalqına son dərəcə bağlı olan İlham Əliyevi hər bir azərbaycanlı öz ailəsinin ən sevimli üzvü hesab edir. İlham Əliyev bu gün Azərbaycan xalqının ümid yeridir, güvənc ünvanıdır! Azərbaycan xalqı Sizin ölkəmizin milli maraqlarının təmin olunmasına yönəlmiş müdrik, qətiyyətli və cəsarətli xarici siyasətinizi, iqtisadi cəhətdən yüksək inkişaf etmiş və hərbi cəhətdən qüdrətli Azərbaycan dövləti yaratmaq üçün həyata keçirdiyiniz bütün islahatları alqışlayır. Çünki işğal olunmuş torpaqlarımızın azad olunması və düşmənə diz çökdürülməsi üçün başqa yol yoxdur. Siz üzünüzü regionlara çevirmiş Prezidentsiniz, sadə kənd camaatının halına yanan dövlət başçısısınız, gecə-gündüz rayonlardasınız, xalq arasındasınız. Dayanmadan, yorulmadan qurub-yaratmaqla, abadlıq işləri ilə, bölgələrimizdə yeni-yeni iş yerləri açmaqla məşğulsunuz. Xalqımızın daha yaxşı yaşaması üçün əlinizdən gələni edir, şəhərli-kəndli bütün Azərbaycanımızı cənnətə döndərirsiniz! Siz – Prezident İlham Əliyev, artıq Azərbaycanın tarixinə qurucu Prezident kimi daxil olmusunuz. İllər ötüb-keçdikcə Sizin bu şərəfli missiyanız Azərbaycan tarixində daha aydın görünəcək, qədirbilən xalqımız tərəfindən daha yüksək qiymətləndiriləcəkdir.

Çox hörmətli dövlət başçımız!

Siz olduqca dərin və çox prinsipial elmi-nəzəri əhəmiyyət kəsb edən çıxışlarınızla ölkəmizdə tarix elminin inkişafına güclü təkan verirsiniz. Məhz Sizin qayğı və diqqətiniz sayəsində son illərdə tarix elmimizin inkişafında, Milli Elmlər Akademiyası Tarix İnstitutunun fəaliyyətində əsaslı dönüş yaranmışdır. Sizin tapşırığınızla mükəmməl bir "Qarabağ tarixi" hazırlanaraq Azərbaycan, ingilis, ərəb, fransız, alman və rus dillərində nəşr olunmuşdur. Müxtəlif dillərdə "Vandalizm: tarixi adlara qarşı soyqırımı", "Qarabağ: Kürəkçay müqaviləsi", "Azərbaycan: qısa dövlətçilik tarixi", "Azərbaycan tarixi mixiyazılı mənbələrdə", "Azərbaycan diplomatiyası", "Naxçıvan: ta-

rixi və abidələri", "Azərbaycan tarixi atlası" və "Azərbaycan Xalq Cümhuriyyətinin tarixi Böyük Britaniyanın arxiv sənədlərində" kimi çoxsaylı əsərlər işıq üzü görüb, ikicildlik "Naxçıvan tarixi" və "İrəvan xanlığının tarixi" nəşr olunmaq üçün hazırlanıb. Tarixçi alimlərin yekdil fikrini ifadə edərək, böyük məmnunluqla məlumat verirəm ki, Sizin tarixi keçmişimizlə bağlı bütün məsələlərdə, o cümlədən Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan İrəvan şəhərinin və İrəvan xanlığının tarixi ilə bağlı tutduğunuz qətiyyətli mövqe, "Keşikçidağ" Dövlət tarix-mədəniyyət qoruğu yaradılması barədə Sərəncamınız və həyata keçirdiyiniz digər tədbirlər tarixçi alimlər tərəfindən böyük razılıq və ruh yüksəkliyi ilə qarşılanmışdır. Sizin həmkarlarınız olan tarixçilər ölkəmizdə gedən böyük quruculuq işlərini əks etdirən yeni-yeni əsərlər yaratmaq, düşmənə qarşı informasiya müharibəsində daha fəal iştirak etmək əzmindədirlər. Vətənini, xalqını sevən bütün tarixçilər Sizinlədir, cənab Prezident!

Hörmətli İlham Heydər oğlu!

On il bundan əvvəl Ulu Öndərimiz – dahi azərbaycanlı Heydər Əliyev məni "Şöhrət" ordeni ilə təltif etmişdi. Siz isə məni ölkəmizin ali mükafatına – "Şərəf" ordeninə layiq gördünüz! Müstəqil Azərbaycanın "Şöhrət" və "Şərəf" ordenlərinə layiq görülmək mənim üçün çox böyük xoşbəxtlikdir, böyük mənəvi ucalıqdır. Mən bu gün böyük fərəh hissi keçirirəm ki, Sizin başçılığınızla həyata keçirilən nəhəng quruculuq işlərinin – Heydər Əliyev ideyalarının zəfər yürüşünün iştirakçısıyam! Əməyimə böyük qədir-qiymət qoyduğunuz üçün Sizə hədsiz minnətdaram! Sizə bütün ailə üzvlərimizin də minnətdarlığını və ən xoş arzularını yetirirəm.

Bilin ki, nə qədər yaşayıram, Vətənə əvvəlkindən daha artıq əzmkarlıqla, daha dönməz sədaqətlə xidmət edəcəyəm, təltif etdiyiniz "Şərəf" ordenini şərəflə gəzdirmək üçün tutduğum yoldan dönməyəcək, onu şərəflə davam etdirəcəyəm!

Şəxsiyyətinizə dərin hörmət və ehtiramla,

***Yaqub Mahmudov***
***23 fevral 2009***

**Akademiklər Mahmud Kərimov, Ağamusa Axundov, Bəkir Nəbiyev, AMEA-nın müxbir üzvü Yaqub Mahmudov, xalq yazıçısı Anar, xalq artistləri Firəngiz Əlizadə, Əlibaba Məmmədov, Arif Babayev və başqalarından, Bakı, Azərbaycan**

**Möhtərəm cənab Prezident!**

Hər bir millətin, hər bir dövlətin mənəvi dəyərlərinin əsas meyarlarından biri də onun mədəniyyət göstəriciləridir. Azərbaycan xalqının qədim və zəngin mədəniyyəti, memarlıq, dekorativ-tətbiqi sənət, xalçaçılıq, musiqi, miniatür incilərindən ibarət milli incəsənət şedevrlərimiz dünya mədəniyyəti sırasında layiqli yer tutur. Bu mənəvi sərvətlərimizin qorunması, gələcək nəsillərə ləyaqətlə çatdırılması, çağdaş mədəniyyətimizin yeni-yeni zirvələr fəth etməsi üçün zəmin yaratmaq həmişə Azərbaycan dövlətinin diqqət mərkəzində olub. Xüsusən Ulu Öndərimiz Heydər Əliyev bu istiqamətdə misilsiz işlər görüb. Mədəniyyətimizin himayədarı olan ümummilli lider fəxrlə söyləyib: "Azərbaycan xalqı dünya sivilizasiyası xəzinəsinə böyük töhfələr vermişdir. Azərbaycanın bugünkü mədəniyyəti dahi şəxsiyyətlərimizin yaratdığı və əsrlərdən-əsrlərə keçən mədəniyyətimizə, elmimizə, mənəviyyatımıza əsaslanır".

Cənab Prezident!

Sizin rəhbərliyiniz dövründə dövlətimiz çox vacib və əzəmətli ictimai-iqtisadi, sosial-siyasi nailiyyətlər qazanıb. Buna ən parlaq sübut son iki ildə dünyanı bürümüş maliyyə böhranının ölkəmizdən yan keçməsidir. Siyasi-iqtisadi uğurlarla yanaşı, mədəniyyətimizin daha dərindən araşdırılması, qorunması, bəşəri dəyərlər səviyyəsində qiymətləndirilməsi sahəsində böyük nailiyyətlər qazanılıb.

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli liderimiz Heydər Əliyevin xalqımızın tarixi-mədəni, milli mənəvi dəyərlərinin qorunması və inkişaf etdirilməsi sahəsindəki misilsiz işləri Sizin tərəfinizdən böyük uğurla, ardıcıl və məqsədyönlü şəkildə davam etdirilir. Son illər ərzində Azərbaycan mədəniyyəti özü-

nün yüksəliş dövrünə, sözün əsl mənasında, intibah mərhələsinə qədəm qoyub. Həyatımızın bütün sahələrində sürətli inkişafa nail olunması, Azərbaycanın iqtisadi baxımdan qüdrətli bir ölkəyə çevrilməsi genişmiqyaslı, beynəlxalq əhəmiyyətli mədəni layihələrinin həyata keçirilməsinə əsaslı zəmin yaradıb. Bu gün qədim və zəngin ənənələrə malik olan Azərbaycan mədəniyyətinin milli özünəməxsusluğunun, bəşər sivilizasiyasına verdiyi əvəzsiz töhfələrin təbliği və tanıdılması yolunda görülən ardıcıl işlər, mədəniyyət ocaqlarının müasir tələblər səviyyəsində bərpası və tikilməsi, ölkəmizdə beynəlxalq simpoziumların, konfrans və sərgilərin, musiqi festivallarının keçirilməsinin ənənə halını alması, incəsənət xadimlərimizin sorağının dünyanın ən müxtəlif ölkələrindən gəlməsi buna misaldır.

Azərbaycanın zəngin mədəniyyəti bütün qitələrdə ləyaqətlə təmsil olunur və bu nəhəng işlərin miqyası ilbəil genişləndirilir. Sizin rəhbərliyinizlə həyata keçirilən mədəniyyət siyasəti bilavasitə dövlətimizin və dövlətçiliyimizin təbliğinə, təşviqinə, tərəqqisinə xidmət edir. Respublikamızda Mədəniyyət Kanalının yaradılması təşəbbüsü bu istiqamətdə növbəti və son dərəcə dəyərli, qətiyyətli addımdır. Cəmiyyətin belə bir kanalı görmək arzusu uzun illərdir mövcuddur. Eyni zamanda belə bir televiziya kanalının açılması zərurətini Heydər Əliyev Fondunun həyata keçirdiyi möhtəşəm mədəniyyət tədbirləri və layihələr gündəmə gətirmişdir. Onu məhz Sizin qətiyyətiniz, xalqın mədəni irsinə böyük ehtiramınız reallaşdırdı. Biz inanırıq ki, Mədəniyyət Kanalı mənəvi dəyərlərimizin qorunması və təbliğinin, Azərbaycan xalqının, Azərbaycan dövlətinin təkamülünün parlaq ifadəçisinə çevriləcəkdir. Mədəniyyət Kanalı, eyni zamanda öz tamaşaçılarını dünya xalqlarının özəl mədəniyyətləri ilə daha yaxından tanış edəcəkdir. Əminik ki, bu tanışlıq yalnız qədimliklə bitməyəcək, çağdaş kino, teatr, musiqi, boyakarlıq, heykəltəraşlıq, memarlıq, dizayn və neçə-neçə digər incəsənət növlərinin nadir iciləri, bədii əsərlərin parlaq nümunələri Azərbaycan tamaşaçısına çatdırılacaqdır. Belə fəaliyyətin möhtəşəmliyi üçün ilkin zəmin Mədəniyyət Kanalının məhz dövlət təminatında olmasıdır.

Mədəniyyət Kanalının Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin bazasında yaradılması təkcə rəmzi məna daşımır. Ölkəmizin ana televiziyasının zəngin arxivi, səriştəli yaradıcı heyəti, rejissor-operator kadrları, texniki imkanları özü buna zəmin yaradıb. Çəkilişlər zamanı özümüz əyani şəkildə görmüşük ki, Sizin qayğınız və hərtərəfli dəstəyinizlə Azərbaycan Televiziyasının bütün studiyaları dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir avadanlıqlarla, texnologiya ilə təchiz olunub.

Cənab Prezident!

Mədəniyyət Kanalının açılmasına göstərdiyiniz böyük diqqət və qayğıya görə Sizə dərin ehtiram və təşəkkürümüzü bildirir, Azərbaycan Respublikasının daha da inkişafı, dünyanın aparıcı dövlətləri sırasında layiqli və şərəfli yer tutması uğrunda cəsarətlə apardığınız inamlı siyasi xəttin yeni-yeni zirvələr fəth etməsini arzulayırıq.

Hörmətlə,

Akademiklər Mahmud Kərimov, Ağamusa Axundov, Bəkir Nəbiyev, AMEA-nın müxbir üzvü Yaqub Mahmudov, xalq yazıçısı Anar, xalq artistləri Firəngiz Əlizadə, Əlibaba Məmmədov, Arif Babayev və digər tanınmış elm, mədəniyyət və incəsənət xadimləri, Milli Məclisin üzvləri

***Cəmi 41 imza***
***Azərbaycan Respublikası, Bakı şəhəri***
***18 fevral 2011***

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyevə

## Şəkidə sosial-iqtisadi vəziyyət haqqında

***(19 aprel 2011-ci il)***

Hörmətli cənab Prezident!

Sizin yüksək etimadınız sayəsində Şəki şəhərindən Milli Məclisə deputat seçildiyim üçün qarşınızda məsuliyyət daşıdığıma görə, həm də Şəki şəhərindəki sosial-iqtisadi vəziyyət müəyyən narahatlıq doğurduğu üçün bu məktubla Zati-alinizə müraciət etmək qərarına gəldim.

Hər şeydən əvvəl, Sizə böyük məmnunluqla məlumat verirəm ki, müharibə vəziyyətində olan Azərbaycanımızı zəfərdən-zəfərə qovuşdurmaq üçün bu mürəkkəb və çətin dünyada nə qədər gərgin və qətiyyətlə mübarizə apardığınızı şəkililər yaxşı başa düşürlər və yüksək qiymətləndirirlər. Şəki camaatı Azərbaycanın parlaq gələcəyi naminə atdığınız hər bir addımı böyük rəğbətlə qarşılayır. Zati-alinizin göstərişi ilə Şəki şəhərinin su təchizatı sisteminin nizama salınması üçün tikinti-quraşdırma işlərinə başlanması, Şin çayı üzərində nəhəng körpü tikintisinin başa çatdırılması üçün işlərin sürətləndirilməsi, şəhərdə həyata keçirilən quruculuq-abadlıq işləri əhalidə böyük canlanma yaratmışdır.

Hörmətli İlham müəllim! Həyatımın bütün uğurları üçün Ulu Öndərə və Zati-alinizə borclu olduğum üçün, yuxarıda göstərilən uğurlarla yanaşı, Şəkidəki real vəziyyət barədə aşağıdakıları da diqqətinizə çatdırmaq istərdim:

**Şəkinin sosial-iqtisadi inkişafını daha da sürətləndirmək üçün əlavə tədbirlər görülməsinə çox böyük ehtiyac var. Hazırda Şəki şəhərində 80 min nəfərdən çox əhali yaşayır ki, onların da təqribən yarısı gənclər və yeniyetmələrdir. Gənclərin xeyli hissəsi işsizdir. Vaxtı ilə 7000 nəfərdən çox işçisi olan İpək kombinatında cəmi 866 nəfər işləyir. Modul tipli elektrik stansiyasında 75, kərpic sexində**

**isə 117 nəfər işlə təmin olunub. Şəhərdə əlavə iş yerlərinin açılması üçün təxirəsalınmaz tədbirlər görülməsi olduqca zəruridir.**

**Zati-alinizin inşa etdirdiyi Şəki Olimpiya-idman kompleksi uzun müddətdir ki, təmirə dayandırılıb, işləmir. Böyük şəhərdə cəmi 1 stadion var ki, o da istifadəyə tam yararlı deyil və müasir tələblərə cavab vermir. Beləliklə, Şəkinin gənc nəsli Sizin bütün ölkə miqyasında həyata keçirdiyiniz idman-sağlamlıq hərəkatında fəal iştirak edə bilmir.**

**Şəki bütün tarixi dövrlərdə ölkəmizin şimal-qərb regionunda dövlətçiliyin dayağı, Azərbaycançılığın mərkəzi olub. Yaxın keçmişə qədər bəzi nazirliklərin, mərkəzi təşkilatların regional idarələri Şəkidə yerləşirdi. İndi onların xeyli hissəsi Şəkidən çıxarılıb. Son illərdə Azərbaycanın bütün rayonları, o cümlədən Şəkiyə qonşu olan rayonlar tanınmaz dərəcədə inkişaf etmişdir. Bu çox sevindirici haldır. Lakin Şəki müasir inkişafdan geri qalır. Həqiqət budur ki, Şəki regional mərkəz rolunu itirməkdədir. Bu bütün regionda Azərbaycançılığa ciddi zərbə ola bilər. Bütün bunlar əhalidə müəyyən anlaşılmazlıq yaradır. Bu cür vəziyyətin davam etməsi arzuolunmaz haldır.**

**Şəki özünün bütün dövrlərə aid tarixi-memarlıq abidələrini, Azərbaycanın şəhərsalma mədəniyyətini, hətta qədim və orta əsr görünüşünü olduğu kimi qoruyub saxlamış yeganə şəhərimizdir. Daha doğrusu canlı şəhər-muzeydir. Lakin, min təəssüflər olsun ki, bu nadir abidələr dağılıb məhv olmaqdadır.**

**Zati-alinizin sərəncamı ilə 2012-ci ildə dahi mütəfəkkir M.F.Axundzadənin 200 illiyi geniş qeyd olunacaq. Lakin bu istiqamətdə abadlıq işləri də lazımi sürətlə getmir.**

**Şəki əhalisini ən çox narahat edən bir də budur ki, Şəkidə indiyədək Ulu Öndərə layiq abidə ucaldılmamışdır. Şəki sənətkarları özlərinin ən yaxşı sənətkarlıq nümunələrini Ulu Öndərə həsr etsələr də, Şəkidə Heydər Əliyev Xalq Yaradıcılıq Muzey-Mərkəzi yaradılmamışdır. Şəhərin görkəmli yerlərindən birində hələ də Azərbaycan bayrağı dalğalanmır.**

Hörmətli cənab Prezident!

Yaranmış vəziyyətlə bağlı olaraq arzu xarakterli bəzi təkliflərimi də bildirmək istərdim:

**1. Siz Azərbaycanımızı daha parlaq gələcəyə qovuşdurmaq üçün böyük uzaqgörənliklə 2011-ci ili «turizm ili» elan etmişsiniz. Zati-alinizə yaxşı məlum olduğu kimi, Şəki camaatı dövlətçi camaat olduğu kimi, bu diyar həm də qədim sənətkarlar diyarıdır. Şəkililər işgüzar, yüksək mədəniyyətli, qonaq qəbul etməyi bacaran, «daşdan pul çıxaran» camaatdır. Bir sözlə, Şəki qədim sənətkarlıq-ticarət ənənələrinə və müasir potensialına görə Şimal-Qərbi Azərbaycanın əvəzsiz turizm mərkəzinə çevrilə bilər. Şəkini dirçəltmək üçün yetər ki, «turizm ili»ndə bu diyara diqqət artırılsın. Belə olarsa Şəkidə xırda və orta biznes inkişaf edər, Şəkinin problemlərinin böyük hissəsini elə şəkililərin özləri aradan qaldıra bilərlər.**

**2. Şəki bütövlüklə muzey-şəhərdir. Xalqımız bu sərvəti olduğu kimi indiki nəsillərə çatdırıb. Zati-aliniz bütün ölkə miqyasında tarixi abidələrimizi, muzeylərimizi yaşatmaq və dünyada təbliğ etmək üçün Azərbaycan tarixində heç bir zaman görülməmiş nəhəng quruculuq-abadlıq işləri həyata keçirirsiniz. Dağılıb getməkdə olan Şəki abidələrinin də Sizin qayğınıza çox böyük ehtiyacı var. Əgər Zati-alinizin göstərişi ilə Şəki bütövlükdə açıq səma altında qoruq-muzey-şəhərə çevrilərsə, Şəki abidələri gələcək nəsillər üçün qorunub saxlanar. Şəki abidələrini «ölümdən» yalnız Siz xilas edə bilərsiniz, hörmətli İlham müəllim! Qədirbilən Şəki camaatı bunu böyük sevinclə qarşılayar və Sizə hədsiz minnətdar olardı!**

**3. Çoxsaylı Şəki gəncləri və yeniyetmələrinin boş vaxtlarını səmərəli keçirmələri üçün Şəki Olimpiya-idman kompleksinin təmiri sürətləndirilməli, mövcud şəhər stadionu yararlı hala salınmalı, şəhərdə kiçik idman meydançaları şəbəkəsi yaradılmalıdır.**

**4. Regionda turizmin gələcəyini nəzərə alaraq Şəkini Qax və Zaqatala ilə birləşdirən son dərəcə səfalı dağətəyi ipək yolunun abadlaşdırılması Şimal-Qərbi Azərbaycanın gələcəyi üçün çox gərəkli bir addım olardı.**

**5. Sovet hakimiyyəti illərində fəaliyyət göstərmiş Şəki təyyarə meydanının yenidən istifadəyə verilməsi üçün dəfələrlə cəhd göstərilmişdir. Lakin nəticə yoxdur. Fikrimizcə beynəlxalq turizmin gələcəyi üçün Şəki təyyarə meydanını qoruyub saxlamaq və istifadəyə yararlı hala salmaq gərəkli bir addım olardı**.

**6. Şəki əhalisinin arzusu nəzərə alınaraq şəhərdə dövlət rəmzlərinə diqqət artırılmalıdır. Şəkidə Ulu Öndərə layiq əzəmətli abidə ucaldılmalı, möhtəşəm Heydər Əliyev Xalq Yaradıcılıq Muzey-Mərkəzi inşa edilməli, şəhərin görməli yerlərindən birində Azərbaycanın üçrəngli bayrağı dalğalanmalıdır.**

Hörmətli İlham müəllim! Yaxşı başa düşürəm ki, yuxarıda göstərilənlərin hamısını birdən-birə həyata keçirmək asan məsələ deyil. Lakin bu bir həqiqətdir ki, Şəkinin sosial-iqtisadi inkişafını sürətləndirmək üçün təxirə salınmaz tədbirlər görülməsinə böyük ehtiyac var. Qarşınızda məsuliyyət daşıdığım üçün mən bunu yaxından hiss edirəm. Çünki seçkilər zamanı və deputat seçildikdən sonra şəhəri addımbaaddım gəzdim, vəziyyətlə yerində tanış oldum, əhalinin müxtəlif tədəqələrinin nümayəndələri ilə görüşdüm, söhbətlər apardım, müəyyən narahatlıqlar olduğunu yəqin etdim. Buna görə də real vəziyyət barədə Zati-alinizə məlumat verməyi özümə borc bildim.

Şəxsiyyətinizə
dərin hörmət və ehtiramla,

***Yaqub Mahmudov***

## Yaqub Mahmudovdan, Şəki, Azərbaycan

**Hörmətli cənab Prezident!**

Sizə "Şəki şəhərinin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" bu il sentyabrın 12-də imzaladığınız tarixi Sərəncamın Şəkidə doğurduğu böyük ruh yüksəkliyi, hədsiz sevinc duyğuları və şəhərin gələcəyinə artan böyük inam əhval-ruhiyyəsinin təsiri altında müraciət edirəm. Etiraf edirəm ki, bu mühüm dövlət sənədinin 180 min nəfərdən çox əhalinin yaşadığı Şəki rayonunda, 80 min sakini olan qədim Şəkidə nə qədər böyük razılıq və coşqu ilə qarşılandığını bu yığcam müraciətdə təsvir etmək mənim üçün olduqca çətindir. Odur ki, bu kiçik yazıda mən ancaq və ancaq bir həqiqəti – qədirbilən və dövlətini sevən, bütün bölgədə azərbaycançılıq qalası olan, dahi Heydər Əliyevin əziz xatirəsini daim uca tutan Şəkinin və bütün şəkililərin müasir mərhələdə Azərbaycanımızın daha parlaq gələcəyə doğru zəfər yürüşünə uğurla başçılıq edən Sizə – müasir dünyanın böyük dövlət xadiminə könüldən-candan bəslədikləri hədsiz sevgi və ehtiramı yetirmək istəyirəm. Bu günlər Şəkidə dünyagörmüş ağsaqqallardan tutmuş, gənclərə və yeniyetmələrə qədər hamı coşub-daşan sevinc içərisindədir!

Hörmətli İlham müəllim!

Xalqımız, o cümlədən Şəki sakinləri, Sizi sözü ilə əməli bir olan qurucu Prezident kimi, xalqa verdiyi vədləri müəyyən etdiyi vaxtda yerinə yetirən qətiyyətli dövlət xadimi kimi tanıyır və sevir. Yaşadığımız son dərəcə mürəkkəb dünyada, müxtəlif xarakterli risklərin və maliyyə-iqtisadi böhranların ara vermədiyi beynəlxalq şəraitdə bilavasitə Sizin gərgin fəaliyyətiniz və başçılığınızla Azərbaycanın dünyanın ən sürətlə və davamlı şəkildə inkişaf edən ölkəsinə çevrilməsi, Yurdumuzda gedən böyük quruculuq-abadlıq işləri bunun parlaq sübutudur.

Şəki barədə imzaladığınız sənəd bir daha çox aydın sübut edir ki, Siz doğma Azərbaycanımızı nə qədər könüldən-candan sevirsiniz!

Siz yurdumuzun hər bir bölgəsinin, hər bir güşəsinin problemləri ilə nə qədər yaxından və nə qədər dərindən tanışsınız! Siz bir Prezident olaraq bütün Azərbaycanı daha uca zirvələrə yüksəltmək üçün nə qədər gərgin fəaliyyət göstərir, ürəkdən yanır, xalqımızı daha firavan yaşatmaq üçün nə qədər can qoyursunuz! Məhz buna görə də 2011-ci il 12 sentyabr tarixli Sərəncamınız şəkililərdə gələcəyə böyük inam yaradır. İmzaladığınız bu Sərəncamda xalqımız Şəkini yaxın gələcəyin yüksək və ahəngdar inkişaf etmiş qədim və qədim olduğu qədər də müasir bir mədəniyyət və iqtisadiyyat mərkəzi kimi görür. Şəkililər şübhə etmirlər ki, taleyini nəzarətə götürdüyünüz Şəkidə lap yaxın gələcəkdə bütün sosial-iqtisadi problemlər öz dolğun həllini tapacaqdır! Sizin qayğınız, bilavasitə göstərişləriniz və konkret tapşırıqlarınızın yerinə yetirilməsi sayəsində Şəki yenidən özünün təkrarsız və qədim gözəlliyinə qovuşacaq, eyni zamanda insan üçün zəruri olan bütün rahatlıqların təmin edildiyi müasir şəhərə çevriləcəkdir. Azərbaycan və dünya tarixinə Mirzə Fətəli Axundzadə, Salman Mümtaz, Məmməd bəy Əfəndiyev, Rəşid bəy Əfəndiyev, Əbdüləzəl Dəmirçizadə, Əlövsət Sadıqov, Fuad Əbdürrəhmanov, Sabit Rəhman, Lütfəli Abdullayev, Məcid Rəsulov, Bəxtiyar Vahabzadə, Şəfiqə Axundova kimi onlarla görkəmli şəxsiyyətlər bəxş etmiş Şəki keçmiş şöhrətini özünə qaytaracaq, yenidən dirçəlcəkdir. Şəki yenidən Azərbaycanın ən mühüm elm və mədəniyyət mərkəzlərindən birinə çevriləcəkdir!

Hörmətli cənab Prezident!

Bütün şəkililər – bizim hamımız inanırıq ki, yüzlərlə özünəməxsus tarixi abidələrin cəmləşdiyi və açıq səma altında muzey-şəhər olan şəki Sizin qayğınız sayəsində lap yaxın gələcəkdə Azərbaycanın şöhrətini bütün dünyaya yayan beynəlxalq turizm mərkəzinə çevriləcəkdir. Məhz Sizin sayənizdə çoxsaylı Şəki abidələri "ölüm ayağından" həyata qayıdacaqdır. Sərəncamda göstərildiyi kimi, şəhərimizdə çoxsaylı idman kompleksləri yaradılacaq, yeniyetmələr və gənclər Sizin başçılıq etdiyiniz idman və sağlamlıq hərəkatına daha fəal qoşulacaq, üçrəngli bayrağımızı beynəlxalq yarışlarda qürurla dalğalandıracaqlar!

Əziz Prezidentimiz!

Böyük məmnunluq hissi ilə bunu da Sizə bildirmək istəyirəm ki, artıq Şəkidə həyat qaynamağa başlayıb. Canlanma aydın hiss olunur. Quruculuq və abadlıq işləri gündən-günə genişlənməkdədir. Yenicə fəaliyyətə başlayan icra başçısı yüksək təşkilatçılıq səriştəsi, mühəndis-memar bacarığı nümayiş etdirir, qədim şəhərin bütün ənənəvi memarlıq xüsusiyyətlərini nəzərə alır, Sizin tapşırığınız və layihələrini bəyəndiyiniz quruculuq-abadlıq işlərinin həyata keçirilməsinə bilavasitə özü rəhbərlik edir. Şəki gözlərimiz önündə dəyişməkdədir! Şəki sakinləri bu günləri, qədim Şəkinin yeni intibahını çoxdan gözləyirdilər. Bu intibahı, bu dirçəlişi Şəkiyə Siz bəxş etdiniz, cənab Prezident! Buna görə də Müasir Azərbaycan intibahının başında duran və yurdumuzu zirvələrdən-zirvələrə ucaldan Sizə bütün Şəki sakinləri dərin minnətdarlığını bildirir. Doğma Azərbaycanımızın daha parlaq gələcəyi naminə atdığıız hər bir addımda Ulu Tanrı Sizə yar olsun!

***Şəxsiyyətinizə dərin hörmətlə,***
***Milli Məclisin deputatı, əməkdar elm xadimi***
***AMEA-nın müxbir üzvü Yaqub Mahmudov***
***Azərbaycan Respublikası,***
***Şəki şəhəri 19 sentyabr 2011***

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyevə

### Azərbaycan xalqının İrəvan və ətrafındakı torpaqlara tarixi varislik hüququnun bərpa olunması barədə

**Möhtərəm cənab Prezident!**

Zati-alinizin dəfələrlə bəyan etdiyi kimi, təcavüzkar Ermənistan dövləti Azərbaycan Milli Şurasının **29 may 1918-ci il** tarixli qərarına əsasən ermənilərə verilmiş İrəvan şəhəri və onun ətraflarını əhatə edən **9 min km²**-lik Azərbaycan torpağında yaradılmışdır. Sizin tapşırığınız, çağırış və tövsiyyələrinizlə Tarix İnstitutunda bu istiqamətdə tədqiqatlar davam etdirilmiş və nəticədə bir sıra yeni qiymətli sənədlər aşkar olunmuşdur.

**Əldə etdiyimiz yeni sənədlər sübut edir ki, İrəvan və ətrafındakı torpaqlar ermənilərə Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin təklifi və Osmanlı Türkiyəsinin diktəsi ilə verilmişdir.**

İrəvan şəhəri və ətrafındakı torpaqların verilməsi müqabilində erməni tərəfi öz üzərlərinə aşağıdakı öhdəlikləri götürmüşdü: **xalqımıza qarşı soyqırımlarını dayandıracaqlar; ermənilərə verilmiş ərazilərdə, yəni İrəvan və ətrafındakı torpaqlarda yaşayan azərbaycanlıların ermənilərlə eyni səviyyədə siyasi, dini-mədəni, təhsil hüquqları təmin olunacaqdır; ermənilər bundan sonra bir daha Azərbaycana qarşı ərazi iddiaları qaldırmayacaqlar; yeni yaradılan Ermənistan Respublikası ona ayrılmış 9 min km²-lik ərazidə mövcud olmalı idi.**

Lakin erməni tərəfi məqsədinə nail olan kimi üzərinə götürdüyü bütün öhdəlikləri pozdu. Xalqımıza qarşı soyqırımları daha dəhşətli formada davam etdirildi. Yeni-yeni Azərbaycan torpaqları işğal olundu. Ermənistan Respublikası ərazisindəki azərbaycanlılara qarşı dövlət səviyyəsində soyqırımları və etnik təmizləmə siyasəti həyata keçirildi. Bununla da erməni tərəfi onlara dövlət yaradılması

barədə **11 may – 4 iyun 1918-ci il** tarixli Batum danışıqlarının, **4 iyun 1918-ci il** tarixli Batum müqavilələrinin və Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının **29 may 1918-ci il** tarixli qərarının bütün şərtlərini birtərəfli qaydada pozdu. Beləliklə, həm Batum müqavilələri, həm də Azərbaycan Milli Şurasının 29 may 1918-ci il tarixli qərarı hüquqi qüvvəsini itirmişdir.

**Hörmətli cənab Prezident!** Zati-aliniz məqsədəuyğun hesab edərsə, Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisi olan Azərbaycan Respublikasının Milli Məclisi bütün yuxarıda göstərilənləri nəzərə alaraq, İrəvan və ətrafındakı torpaqların ermənilərə verilməsi haqqındakı qərarı müzakirəyə çıxarmalı, həmin qərara yenidən baxmalı və onu ləğv etməlidir. Azərbaycan xalqının İrəvan və ətrafındakı torpaqların qanuni sahibi olduğu bütün dünyaya bəyan olunmalıdır. Fikrimizcə, Azərbaycan Milli Məclisinin belə bir qərar qəbul etməsi Zati-alinizin erməni dövlətinin Azərbaycan ərazisində yaradılması barədə dəfələrlə səsləndirdiyi tarixi bəyanatlar beynəlxalq aləmdə yeni əks-səda doğurar, ölkəmizin təcavüzkar Ermənistana qarşı informasiya müharibəsində mühüm addım olardı.

Qoşma: **Azərbaycan xalqının İrəvan və ətrafındakı torpaqlara tarixi varislik hüququnun bərpa olunması barədə (qısa arayış)** – 7 səhifə.

Şəxsiyyətinizə
dərin hörmət və ehtiramla, ***Yaqub Mahmudov***
***AMEA-nın müxbir üzvü,***
***Milli Məclisin deputatı***

# Azərbaycan xalqının İrəvan və ətrafındakı torpaqlara tarixi varislik hüququnun bərpa olunması barədə

## *(Qısa arayış)*

Çar Rusiyasında mütləqiyyətin devrilməsindən sonra yaranmış Zaqafqaziya Demokratik Federativ Respublikasının 1918-ci il mayın 26-da süqutu nəticəsində Cənubi Qafqazda müstəqil yerli dövlətlərin formalaşması prosesi başlandı. **Həmin dövrdə Cənubi Qafqazda yalnız iki aborigen xalqın – azərbaycanlıların** və **gürcülərin dövləti yaradıla bilərdi.** Çünki ancaq bu iki xalqın müstəqil dövlət yaratmaq üçün tarixi etnik – ərazi bazaları vardı. XIX əsrdə Türkmənçay **(1828)** və Ədirnə **(1829)** müqavilələrinə əsasən Çar Rusiyası tərəfindən Qacarlar İranından və Osmanlı Türkiyəsindən **Cənubi Qafqaza köçürülüb gətirilmiş ermənilərin isə dövlət yaratmaq üçün burada ərazi bazaları yox idi**. Beləliklə, Cənubi Qafqaz ərazisində erməni dövləti ancaq bu regionun yerli xalqları olan **azərbaycanlıların** və **gürcülərin** torpaqları hesabına yaradıla bilərdi.

Birinci Dünya müharibəsini aparan hərbi blokların hər ikisinin, həm Antantanın (Rusiya, İngiltərə, Fransa, ABŞ), həm də Almaniya-Türkiyə blokunun üzvləri öz aralarında ermənilərə dövlət yaratmaq barədə ümumi razılığa gəlmişdilər. Rusiya, İngiltərə, Fransa və ABŞ gələcək erməni dövlətinin Osmanlı Türkiyəsi ərazisində - Şərqi Anadoluda yaradılmasına tərəfdar idilər.

**Azərbaycanın arxalandığı Osmanlı Türkiyəsi isə "erməni təhlükəsi"ni özündən, yəni Şərqi Anadoludan uzaqlaşdırmaq üçün erməni dövlətinin Türkiyə sərhədləri xaricində – Azərbaycan torpaqlarında yaradılmasına çalışırdı.**

Azərbaycan tərəfinin, real olaraq, həm böyük dövlətlərin təzyiqlərinə, həm də ölkənin bütün ərazilərində soyqırımları həyata keçirən daşnak-erməni silahlı birləşmələrinə və onların arxasında duran dövlətlərə silahlı müqavimət göstərmək gücü yox idi. Buna görə də, **Azərbaycan milli hərəkatının xadimləri ermənilərə dövlət yaratmaq məsələsində Osmanlı Türkiyəsinin diktəsi ilə hərəkət edirdilər**.

Yaranmış tarixi şəraitdə Azərbaycan tərəfi, yəni **Zaqafqaziya seyminin Azərbaycan fraksiyası**nın nümayəndələri ermənilərə dövlət yaratmaq üçün hansı Azərbaycan torpaqlarının verilməsini müəyyən etmək üçün Türkiyənin vasitəçiliyi ilə erməni tərəfi ilə danışıqlara girdi. Danışıqlar Batum konfransı (**11 may – 4 iyun 1918-ci il**) çərçivəsində aparıldı.

Batum danışıqlarının lap başlanğıcındaca məlum oldu ki, həqiqətən də, Türkiyə "erməni təhlükəsini" özündən uzaqlaşdırmaq üçün gələcək erməni dövlətinin Azərbaycan ərazisində yaradılması siyasətini yeridir. Bununla bağlı olaraq, Batumda aparılan danışıqların gedişi barədə Nəsib bəy Yusifbəyli Zaqafqaziya seyminin sabiq üzvlərinin 27 may 1918-ci il tarixli fövqəladə iclasında məlumat verərək bildirdi ki, "**Türkiyə nümayəndə heyətinin fikrinə görə Zaqafqaziyanın tərəqqisi üçün ən başlıca təminat Zaqafqaziya xalqlarının həmrəyliyi və birliyidir ki, buna nail olmaq üçün Azərbaycan tərəfi ermənilərə müəyyən qədər ərazi güzəştə getməlidir".**[1]

Onu da qeyd etmək lazımdır ki, Türkiyənin hakim siyasi dairələrində Cənubi Qafqazda erməni dövləti yaradılması məsələsində fikir ayrılığı vardı. Sədr-əzəm **Tələt paşa və hərbi nazir Ənvər paşa Cənubi Qafqazda erməni dövləti yaradılmasının əleyhinə idilər** və bu məsələdə "**Çibanı kökündən təmizləmək**" **tərəfdarı idilər**. Bu mümkün olmadıqda "**Ermənistanın çox zəif və yaşaya bilməyəcək bir dövlət şəklində təşəkkül etməsini**" təklif edirdilər. Lakin, Tələt paşa və Ənvər paşadan fərqli olaraq, Batum danışıqlarında Türkiyə nümayəndə heyətinə başçılıq edən **Dövlət Şurasının sədri və Ədliyyə naziri Xəlil bəy Menteşə və Osmanlı Orduları Qafqaz Cəbhəsinin komandanı Ferik Mehmed Vehib paşa Cənubi Qafqazda Azərbaycan torpaqları hesabına ermənilərə dövlət yaratmaq tərəfdarı idilər.** Onlar güman edirdilər ki, **bununla ermənilər həm Anadoludan uzaqlaşdırılacaq, həm Türkiyə-erməni münasibətləri biryolluq nizama salınacaq, həm də "erməni məsələsi" ilə bağlı Türkiyəyə qarşı beynəlxalq qınağa son qoyulacaqdır.**

[1] Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 970, siyahı 1, iş 1, vərəq 46.

Yeri gəlmişkən, **Azərbaycan tərəfi də Tələt paşa və Ənvər paşanın "çibanı köküdən təmizləmək" siyasətinin əleyhinə idi və kiçik bir erməni dövlətinin yaradılmasını təklif edirdi. Belə bir təkliflə Batumda danışıqlar aparan Azərbaycan nümayəndələri M.H.Hacınski və M.Ə.Rəsulzadə hələ 1918-ci il mayın 23-də Ənvər Paşaya xüsusi müraciətnamə göndərmişdilər. Həmin müraciətnaməni onlardan başqa Əhməd bəy (Can Baba), A.B.Səfikürdski, Ə.C.Pepinov, M.Y.Cəfərov, F.X.Xoyski, N.B.Usubbəyov və X.B.Xasməmmədov da imzalamışdılar.**[1] **Eyni təkliflə bundan bir gün əvvəl – 1918-ci il mayın 22-də Tələt paşaya və Ənvər paşaya Ə.B.Hüseynzadə və Ə.B.Ağaoğlu da müraciət etmişdilər**.[2] Azərbaycan tərəfi belə bir təkliflə çıxış edərkən inanırdı ki, bu güzəşt müqabilində ermənilər Azərbaycan xalqına qarşı soyqırımlarını dayandıracaqlar və bir daha ölkəmizə qarşı ərazi iddiaları irəli sürməyəcəklər; bu addım, həm də, böyük dövlətlər tərəfindən rəğbətlə qarşılanacaqdır.

Beləliklə, **Azərbaycan tərəfi Cənubi Qafqazda – Azərbaycan ərazisində ermənilərə kiçik bir dövlət yaradılmasına tərəfdar idi və bu məsələdə Xəlil bəy və Vehib paşa ilə eyni mövqedən çıxış edirdi**. [3]

Azərbaycan tərəfinin ermənilərə Azərbaycan torpaqlarında dövlət yaradılması barədə yuxarıda göstərilən mövqeyi və konkret təklifi Batum danışıqlarının gedişinə ciddi təsir göstərdi.

Bununla da Batumda, faktiki olaraq, ermənilərə dövlət yaratmaq üçün hansı Azərbaycan torpaqlarının verilməsi ətrafında danışıqlar aparıldı.

Batum danışıqları zamanı ermənilərin özlərinə mərkəz kimi iddia etdikləri **Qars** və **Gümrü** *(Aleksandropol)* artıq türklərin əlində idi və Türkiyə tərəfi bu şəhərlərdən hər hansı birinin danışıqlar mövzu-

[1] Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivi, Hariciyye Siyasi Kısım, Dosya 2398, Gömlek 4, Vərəq 12 a.b.c.d.

[2] Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivi, Hariciyye Siyasi Kısım, Dosya 2398, Gömlek 4, Vərəq 19.

[3] Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivi, Hariciyye Siyasi Kısım, Dosya 2398, Gömlek 5,Vərəq 129-130;146; 151 a-b.

su olmasına imkan vermədi. Beləliklə, **İrəvan** məsələsi gündəmə gəldi. Ənvər paşa **"çibanı kökündən təmizləmək"** planının baş tutmadığını görcək ermənilərə veriləcək torpağın Azərbaycan və Türkiyə əraziləri arasında bir ada kimi əhatəyə alınması təlimatını verdi.

Danışıqlar zamanı Azərbaycan ərazisində ermənilərə dövlət yaratmaq üçün torpaq veriləcəyi halda **erməni tərəfi Azərbaycan və Türkiyə tərəfləri qarşısında aşağıdakı öhdəlikləri yerinə yetirməyi üzərinə götürdü**:

**1. Ermənilərlə müsəlmanlar arasında düşmənçilik aradan qaldırılacaq və erməni tərəfi St.Şaumyanla əlaqəyə girib Bakının müsəlman əhalisinin təhlükəsizliyini təmin edəcək, bununla azərbaycanlılara qarşı kütləvi qırğınların qarşısı alınacaqdır. Erməni tərəfinin üzərinə götürdüyü bu öhdəlik Osmanlı imperiyası ilə yenicə yaradılmış Ermənistan Respublikası arasında bağlanmış "Sülh və Dostluq müqaviləsi"ndə təsbit olundu. Batum müqaviləsinin 11-ci bəndinə əsasən Ermənistan Respublikası hökuməti erməni silahlı qüvvələrinin ən tez bir zamanda Bakıdan çıxarılması üçün bütün qüvvələrini səfərbər edəcəyini öhdəsinə götürdü.**[1]

**2. Azərbaycan qəzalarında erməni silahlı birləşmələri tərəfindən müsəlmanlara qarşı həyata keçirilən kütləvi qırğınlar dayandırılacaqdır.**[2] **Bu öhdəlik Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi sənədlərində də öz əksini tapmışdır. Belə ki, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin başçısı F.X. Xoyski İrəvan və ətrafındakı torpaqların ermənilərə verilməsi barədə Milli Şuranın 29 may 1918-ci il tarixli qərarından dərhal sonra Xarici işlər naziri M.H.Hacınskiyə verdiyi rəsmi göstərişdə yazırdı: "Biz ermənilərlə bütün mübahisələri bitirdik, onlar ultimatumumuzu qəbul edəcəklər və müharibəni dayandıracaqlar. Biz İrəvanı onlara güzəştə getdik".**[3]

---

[1]Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivi, Hukuk Müşavirliği İştişare Odası Belgeleri, Dosya 107, Gömlek 11, Vereq 11-19, ATASE. A.4/3671. K.2919. D.61-499. F.3-26

[2] Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivi, HSD. AFT, D.6, Q.61

[3] Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 970, siyahı 1, iş 4, vərəq 1-2

**3. Ermənistan hökuməti İrəvanda və yeni yaradılan erməni dövlətinin digər ərazilərində müsəlmanların sərbəst dini ibadət, mədəniyyət, siyasi və ana dilində təhsil almaq hüquqlarını təmin etməyi öhdəsinə götürdü. Ermənilərin qəbul etdiyi bu öhdəlik Osmanlı dövləti ilə yenicə yaradılmış Ermənistan Respublikası arasında bağlanmış Batum müqaviləsinin 6-cı bəndində və müqaviləni tamamlayan III əlavədə təsbit olundu. Müqavilənin 6-cı bəndinə və III əlavəsinə əsasən yeni yaradılan Ermənistan Respublikasında türk-müsəlman əhali bütün yuxarıda göstərilən sahələrdə ermənilərlə eyni hüquqa malik olmalı idi.**[1]

**4. Ermənilər Azərbaycana qarşı ərazi iddialarından imtina edəcəkdilər.**[2]

Beləliklə, Batum danışıqlarında yuxarıda göstərilən məsələlərlə bağlı ilkin razılaşma əldə olunduqdan dərhal sonra, hələ Batum müqaviləsinin bağlanmasına bir həftə qalmış, 1918-ci il mayın 29-da Azərbaycan Milli Şurasının qərarı ilə qədim Azərbaycan şəhəri İrəvan onun ətrafındakı **9** min km$^2$ ərazini əhatə edən torpaqlarla birlikdə ermənilərə verildi.[3]

Ermənilərə verilmiş ərazinin əhalisi **321.000** nəfər idi ki, onun da **230** mini erməni, **80** mini türk-müsəlman, **11** mini isə digər xalqların nümayəndələri idi.[4]

Qeyd etmək lazımdır ki, yuxarıda göstərilən qərar qəbul olunarkən **28** nəfər Milli Şura üzvündən **20** nəfər iştirak edirdi. Onlardan qərarın lehinə **16** nəfər səs vermiş, **1** nəfər əleyhinə olmuş, **3** nəfər bitərəf qalmışdı.[5]

---

[1] Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivi, Hukuk Müşavirliği İştişare Odası Belgeleri, Dosya 107, Gömlek 11, Vereq 11-19, 28-32.

[2] Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, fond 276, siyahı 9, iş 1, vərəq 47.

[3] Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivi, Hariciyye Siyasi Kısım, Dosya 2372, Gömlek 1, Vərəq 69.

[4] Yenə orada.

[5] Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 970, siyahı 1, iş 1,vərəq 51-52.

Azərbaycan Milli Şurasının yuxarıda göstərilən iclasında, eyni zamanda, ermənilərlə konfederativ dövlət yaradılması da qərara alındı.[1] Yəni **İrəvan və ətrafındakı torpaqlar ermənilərə, həm də, onlarla konfederativ dövlət yaradılması şərti ilə verilmişdi.**

Beləliklə, Azərbaycan ərazisində – Cənubi Qafqazda erməni dövləti yaradıldı. **Yeni yaradılmış erməni dövlətini defakto tanıyan ilk dövlət Osmanlı Türkiyəsi oldu. Bununla Osmanlı Türkiyəsi, faktiki olaraq, Azərbaycan ərazisində ermənilərə dövlət yaratdı.**

Osmanlı Türkiyəsinin vasitəçiliyi ilə Azərbaycan tərəfi ilə erməni tərəfi arasında razılıq əldə olunan kimi, daha doğrusu ermənilər məqsədlərinə nail olduqdan dərhal sonra, 1918-ci il iyunun 4-də Batumda Osmanlı dövləti ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında **"Dostluq"**, Osmanlı dövləti ilə Gürcüstan və Ermənistan respublikaları arasında isə **"Sülh və Dostluq"** müqavilələri imzalandı.

**Batum müqavilələrinə əsasən ən çox ərazi itkisinə Azərbaycan məruz qaldı.** Azərbaycan ermənilərə verilmiş torpaqlardan əlavə Tiflis və İrəvan quberniyalarındakı digər tarixi torpaqlarını – *Ahıska*, *Axalkələk*, *Gümrü* (*Aleksandropol*), *Sürməli* (*İğdır*), *Sərdarabad*, *Qəmərli* (*Gərnibasar*), *Uluxanlı* (*Zəngibasar*), *Vedibasar*, *Şərur* və *Naxçıvan* kimi iri yaşayış məntəqələrinin Türkiyəyə keçdiyini təsdiq etdi.

**Batum müqavilələrinin Azərbaycan üçün ən ağır nəticəsi bu oldu ki, xalqın iradəsi ilə hesablaşılmadan onun torpağında İrəvan mərkəz olmaqla erməni dövləti yaradıldı.**

**Ermənilər məqsədlərinə nail olduqdan sonra Batum danışıqları zamanı və Batum müqavilələrinə əsasən İrəvan və ətrafındakı Azərbaycan torpaqlarının onlara verilməsi müqabilində götürdükləri bütün öhdəlikəri yerinə yetirməkdən imtina etdilər.**

Belə ki, **1. Yeni yaradılmış erməni hökuməti, götürdüyü öhdəliyin əksinə olaraq, nəinki Bakıda hakimiyyəti ələ keçirərək Azərbaycan xalqına qarşı soyqırımı cinayəti həyata keçirən St.Şaumyanla əlaqə yaradıb qırğınları dayandırmadı, əksinə St.Şaumyanın göstərişi ilə daşnak-bolşevik qüvvələri ermənilərə dövlət yaratmaq**

[1] Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 970, siyahı 1, iş 1,vərəq 51-52.

**üçün torpaq vermiş Azərbaycan Xalq Cümhuriyyəti hökumətini aradan qaldırmaq üçün Gəncə istiqamətində hücuma başladı və Azərbaycan xalqına qarşı yeni soyqırımları həyata keçirdi.**

**2. Ermənilər, verdikləri vədlərin əksinə olaraq, Azərbaycan qəzalarında nəinki soyqırımlarını dayandırmadılar, əksinə yeni yaradılmış Ermənistan Respublikasının silahlı müdaxiləsi və yardımı ilə Azərbaycan xalqına qarşı soyqırımları daha dəhşətli xarakter aldı.**

**3. Erməni tərəfi, verilmiş vədlərin əksinə olaraq, nəinki yeni yaradılmış Ermənistan Respublikasının ərazisindəki türk-müsəlman əhalinin dini ibadət, mədəni, siyasi və ana dilində təhsil almaq hüquqlarını təmin etmədi, əksinə Azərbaycan ərazisində dövlət yaratmaq məqsədlərinə nail olan kimi yerli azərbaycanlılara qarşı dövlət səviyyəsində kütləvi soyqırımlarına başladı. Bununla kifayətlənməyən Ermənistan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin sərhədlərini pozaraq Azərbaycan xalqına qarşı soyqırımlarının coğrafiyasını daha da genişləndirdi. Yeni-yeni Azərbaycan torpaqları işğal olundu. İşğal olunmuş Azərbaycan torpaqlarında türk-müsəlman əhaliyə qarşı etnik təmizləmə və soyqırımları həyata keçirildi. Ermənistan Respublikasının siyasi varisi olan müasir Ermənistan Respublikası hazırda ancaq ermənilərdən ibarət olan monoetnik və təcavüzkar dövlətə çevrilmişdir. Beləliklə, vaxtı ilə əhalisinin böyük əksəriyyəti türk-müsəlman əhali olan müasir Ermənistan ərazisində 1 nəfər də olsun azərbaycanlı qalmamışdır.**

**4. Yeni yaradılmış erməni dövləti – Ermənistan Respublikası nəinki Qarabağın dağlıq hissəsinə olan iddialarından əl çəkmədi, əksinə ermənilərə dövlət yaratmaq üçün ərazi vermiş Azərbaycan Xalq Cümhuriyyətinin sərhədlərini pozaraq yeni-yeni Azərbaycan torpaqlarının işğalına başladı. O zamankı Ermənistan Respublikasının varisi olan müasir Ermənistan Respublikası öz havadarlarının köməyi ilə Dağlıq Qarabağı və ətrafındakı digər Azərbaycan rayonlarını da işğal etdi, bütün dünyanın gözləri qarşısında 1992-ci il Xocalı soyqırımını törətdi.**

**5. Batum müqaviləsinin şərtlərinə və Azərbaycan Milli Şurasının qərarına əsasən ermənilərə dövlət yaratmaq üçün İrəvan və ətrafında 9 min km² sahəsi olan Azərbaycan torpaqları verilmişdi.*** **Yəni, erməni dövləti həmin ərazi çərçivəsində mövcud olmalı idi. Lakin ermənilər, çox keçmədən, Batum müqaviləsinin şərtlərini pozaraq Azərbaycan torpaqları hesabına öz ərazilərini genişləndirməkdə davam etdilər.** Belə ki, 1918-ci ilin 29 mayında **9** min km²-lik Azərbaycan torpağında yaradılmış Ermənistan dövləti müxtəlif dövrlərdə Moskvanın birbaşa köməyi ilə daha **20,8** min km² Azərbaycan torpağını ələ keçirərək ərazisini **29,743** min km²-ə çatdırdı.** **Bu işğallar nəticəsində Azərbaycan özünün ayrılmaz tərkib hissəsi olan Naxçıvandan ayrı salındı və Türkiyə ilə birbaşa əlaqə saxlamaq imkanından məhrum edildi. Ermənilərin həyata keçirdiyi bu işğallar nəticəsində, ümumiyyətlə, türk dünyası ölkələrinin birbiri ilə birbaşa əlaqə saxlamaq imkanları da aradan qaldırıldı.** Bütün bunlarla kifayətlənməyən təcavüzkar Ermənistan 1988-1994-cü illərdə Azərbaycanın Dağlıq Qarabağ və ətrafındakı rayonlarından ibarət daha **17** min km²-lik ərazisini işğal etdi, insanlığa qarşı misilsiz **vəhşilik aktı olan Xocalı soyqırımını törətdi**.

---

* *Azərbaycan Milli Şurasının 29 may 1918-ci il tarixli qərarına əsasən ermənilərə dövlət yaratmaq üçün İrəvanla birlikdə aşağıdakı Azərbaycan torpaqları verilmişdi:* ***Yeni Bayazit qəzası*** *(Basarkeçər adlanan cənub-şərq qismi istisna olmaqla),* ***İrəvan qəzası*** *(Qəmərli-Gərnibasar, Uluxanlı-Zəngibasar və Vedibasar istisna olmaqla),* ***Eçmiədzin qəzası*** *(Sərdarabad istisna olmaqla) və* ***Aleksandropol qəzası*** *(qəza mərkəzi Aleksandropol istisna olmaqla). Beləliklə,* ***yeni yaradılmış Ermənistan Respublikası Göyçə gölü ilə Osmanlı dövlətinin yeni sərhədləri arasındakı dar dağlıq ərazini əhatə edirdi.***

** 1918-ci il mayın 29-da **9** min km²-lik Azərbaycan torpağında yaradılmış Ermənistan dövləti sonrakı dövrlərdə aşağıdakı Azərbaycan torpaqlarını işğal etdi: 1920-ci ilin dekabrından başlayaraq 10 il ərzində Moskvanın birbaşa köməyi ilə **Zəngəzur qəzasından 405.000** desyatin (**4414,5 km²**), **Qazax qəzasından 535096** desyatin (**5832,82** km²) , **Naxçıvan MSSR-dən 657 km²**, **Cəbrayıl qəzasından Nüvədi**, **Eynəzir** və **Tuğut** kəndlərini əhatə edən Azərbaycan torpaqları Ermənistan ərazisinə qatıldı. Sovet rejiminin sonrakı illərində də Ermənistan ərazisi Azərbaycan torpaqları hesabına daha da genişləndirildi və **29,743** km²-ə çatdırıldı.

**6.** Erməni tərəfi, bütün yuxarıda göstərilənlərdən əlavə, Azərbaycanla konfederativ dövlət yaratmaq şərtini də yerinə yetirmədi. **Daha doğrusu, Azərbaycan Milli Şurasının 1918-ci il Mayın 29-da ermənilərlə konfederativ dövlət yaradılması barədə yekdilliklə qəbul etdiyi qərar da ermənilər tərəfindən yerinə yetirilmədi.**

Göründüyü kimi, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti İrəvan və ətrafındakı Azərbaycan torpaqlarını ermənilərə **1918-ci il** Batum danışıqları (**11 may – 4 iyun**) və Batum müqavilələrinin (**04 iyun 1918-ci il**) şərtlərinə əsasən vermişdi. Azərbaycan tərəfi bu taleyüklü addımı atarkən ermənilərlə dostluq və mehriban qonşuluq münasibətləri yaratmağa çalışırdı və danışıqlarda iştirak edən erməni tərəfinin səmimiyyətinə inanırdı. Lakin erməni tərəfi Batum danışıqları zamanı əldə olunmuş razılaşmalara və Batum müqavilələrinin şərtlərinə əsasən üzərinə götürdüyü bütün öhdəlikləri birtərəfli qaydada pozdu: işğalçılıq, deportasiyalar və soyqırımları siyasətini davam etdirdi. Buna görə də həmin müqavilələr əslində öz hüquqi qüvvəsini itirmişdir.

## *TƏKLİF*

Erməni tərəfi 1918-ci il Batum razılaşmalarının və Batum müqavilələrinin bütün şərtlərini birtərəfli qaydada pozduğu üçün və bununla da göstərilən müqavilələr öz hüquqi qüvvəsini itirdiyinə görə Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisi olan Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Milli Şurasının İrəvanın və ətrafındakı torpaqların ermənilərə verilməsi haqqındakı 29 may 1918-ci il tarixli qərarına yenidən baxmalı və həmin qərarın qüvvədən salınması barədə müvafiq qərar qəbul etməlidir. Azərbaycan xalqının öz tarixi torpaqlarına varislik hüququ bərpa olunmalıdır.

***Yaqub Mahmudov***
***AMEA-nın müxbir üzvü,***
***Milli Məclisin deputatı***

# KİTABIN İÇİNDƏKİLƏR

**TARIXİMİZƏ SAHİB ÇIXAN VƏ TARİX YARADAN TARİXİ ŞƏXSİYYƏT** ..... 5

**TARİXÇİ PREZİDENTİN SİYASİ PORTRETİ VƏ YA AZƏRBAYCAN TARİXİNİN QURUCU İLHAM DÖVRÜ** ..... 9

**PREZİDENT İLHAM ƏLİYEVİN AZƏRBAYCAN TARİXİNƏ KONSEPTUAL BAXIŞI** ..... 28

İlham Əliyevin Azərbaycan tarixinə konseptual baxışının elmi-nəzəri və ideoloji əsası: Heydər Əliyevin Tariximizin Dirçəliş Konsepsiyası ..... 28

Prezident İlham Əliyevin tariximizə konseptual baxışının dövlətçilik əsası: Azərbaycanın dövlətçilik tarixi ənənələri ..... 47

Azərbaycan Xalq Cümhuriyyəti tarixinin araşdırılmasına İlham Əliyevin qayğısı ..... 75

İlham Əliyevin tariximizə konseptual baxışında xalqımıza qarşı soyqırımı problemi ..... 82

Azərbaycan SSR-in tarixinə yeni baxış ..... 96

Müasir Azərbaycan Respublikasının tarixinin hərtərəfli araşdırılması zərurəti ..... 111

**AZƏRBAYCANIN ƏZƏLİ TORPAQLARININ TARİXİNİN ARAŞDIRILMASINA DÖVLƏT QAYĞISI** ..... 129

"İtirilmiş torpaqların tarixi" konsepsiyasının formalaşması ..... 129

Qarabağ tarixi. Beynəlxalq arenada Qarabağ məsələsi və Prezident İlham Əliyev ..... 137

İrəvanın və Zəngəzurun tarixi ..... 146

İlham Əliyevin Türk dövlətləri birliyi ideyası ..... 160

**AZƏRBAYCAN XALQININ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİNİN DİRÇƏLDİLMƏSİ VƏ QORUNMASI – AZƏRBAYCAN RESPUBLİKASININ İNKİŞAF STRATEGİYASININ MÜHÜM TƏRKİB HİSSƏSİDİR** ..... 168

"Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan xalqının milli irsidir ..... 168

Azərbaycan şəhərlərinin tarixinin araşdırılmasına dövlət qayğısı. Tarixi və dini abidələrin bərpası və qorunması işi ..... 172

Heydər Əliyev Fondu Azərbaycan tarixinin və mədəniyyətinin müdafiəsində ..... 178

**PREZİDENT İLHAM ƏLİYEVİN AZƏRBAYCAN TARİX ELMİNƏ VƏ TARİXÇİLƏRİNƏ QAYĞISI** ..... 200

"AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu – respublikada tarix üzrə araşdırmaların mərkəzidir" ..... 200

Tarix İnstitutunun respublikanın dövlət qurumları ilə əməkdaşlığının təşkili ..... 204

Azərbaycan tarixçiləri Prezidentin tövsiyə və tapşırıqları ilə çalışırlar ..... 210

**NƏTİCƏ** ..... 242

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT** ..... 247

**İLHAM ƏLİYEV AZƏRBAYCAN TARİXİ HAQQINDA SƏNƏDLƏR** ..... 267

Yaqub Mahmudov

# İlham Əliyev

# və

# AZƏRBAYCAN TARİX ELMİ

Format 70x100 1/16. Tiraj 500.

"Turxan" Nəşriyyat-Poliqrafiya Birliyi